MUSA QASIMLI

# AVROPA VƏ AMERİKA ÖLKƏLƏRİNİN MÜASİR TARİXİ

2 hissədə

## I HİSSƏ

*(1918-1945-ci illər)*

***Ali məktəblər üçün dərslik***

12355

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin 26 noyabr 2002-ci il tarixli 1080 №-li əmri ilə təsdiq edilmişdir.*

SUMQAYIT
DÖVLƏT UNİVERSİTETİ
KİTABXANA

BAKI - 2003

94/99
Q 23

**Elmi redaktor və rəyçilər:**
**Məmməd Fətəliyev** - *tarix elmləri namizədi, dosent, BDU-nun Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi kafedrasının müdiri;*
**Fəridə Yusifzadə** - *tarix elmləri namizədi, dosent.*

Qasımlı M.C. Avropa və Amerika ölkələrinin müasir tarixi. 2 hissədə. I hissə (1918-1945-ci illər). Ali məktəblər üçün dərslik. - Bakı, Bakı Universiteti nəşriyyatı, 2003.

Dərslik Avropa və Amerika ölkələrinin 1918-1945-ci illər tarixinə həsr olunmuşdur. Müəllif bu ölkələrin tarixini xronoloji ardıcıllıqla və problemlər üzrə şərh etmişdir. Dərslikdə Azərbaycanla bağlı məsələlərə də diqqət yetirilmişdir.

ISBN 5-8025-0092-03

Q $\frac{1207000000}{658(07)\text{-}092}$ 92-2003

© Bakı Universiteti nəşriyyatı, 2003

# MÜNDƏRİCAT

ÖN SÖZ ........ 4

**I BÖLÜM.** 1918-1923-cü illərdə beynəlxalq münasibətlər ........ 6

**II BÖLÜM.** Almaniya ........ 40

**III BÖLÜM.** Böyük Britaniya ........ 76

**IV BÖLÜM.** Fransa ........ 112

**V BÖLÜM.** Amerika Birləşmiş Ştatları ........ 141

**VI BÖLÜM.** İtaliya ........ 171

**VII BÖLÜM.** İspaniya ........ 192

**VIII BÖLÜM.** Avstriya ........ 219

**IX BÖLÜM.** Macarıstan ........ 235

**X BÖLÜM.** Rumıniya ........ 250

**XI BÖLÜM.** Kanada ........ 263

**XII BÖLÜM.** Argentina ........ 273

**XIII BÖLÜM.** Braziliya ........ 281

**XIV BÖLÜM.** Meksika ........ 289

**XV BÖLÜM.** 1924-1939-cu illərdə beynəlxalq münasibətlər ... 299

**XVI BÖLÜM.** İkinci dünya müharibəsi ........ 327

**İstifadə edilmiş mənbə və ədəbiyyat** ........ 361

# ÖN SÖZ

*Hörmətli oxucu, dövlət müstəqilliyi bərpa edildikdən sonra ölkəmizdə ilk dəfə olaraq ana dilimizdə ali məktəb tələbələri üçün yazılmış "Avropa və Amerika ölkələrinin müasir tarixi. I hissə (1918-1945-ci illər)" dərsliyi artıq qarşınızdadır. Məlum olduğu kimi, indiyədək Azərbaycan dilində belə dərslik olmadığından yabançı ideoloji prinsiplər və sinfi mübarizə baxımından rus dilində yanlış, bəzən də məqsədli şəkildə saxtalaşdırılaraq yazılmış kitablardan istifadə edən tələbələrimiz Avropa və Amerika ölkələrinin obyektiv müasir tarixini və bu tarixə dair Azərbaycan elminin nə olduğunu bilməkdə çətinlik çəkirdilər. Bunun isə milli təhsil konsepsiyamıza zidd olduğu kimsədə şübhə doğurmamalıdır. Deməli, dərsliyin yazılması təhsilin ehtiyaclarından, Avropa və Amerika ölkələrinin müasir tarixini olduğu kimi öyrətmək zərurətindən irəli gəlmişdir.*

*Dərs kitabı ölkəmizin ali məktəbləri üçün bu sətirlərin müəllifinin də iştirakı ilə hazırlanaraq çap edilmiş fənn proqramına uyğun olaraq, dünya tarix elmində qəbul edilmiş ümumi elmi prinsiplər və açıq cəmiyyətdə tarix dərsliklərinə verilən tələblər əsasında yazılmışdır. Dərslikdə Avropa və Amerika ölkələrinin 1918-1945-ci illər tarixi ideologiyalaşdırılmaya yol verilmədən gerçək şərh olunmuşdur. ABŞ, Almaniya, Böyük Britaniya, Fransa, İtaliya, İspaniya, Avstriya, Macarıstan, Rumıniya, Kanada, Argentina, Braziliya və Meksikanın sosial-iqtisadi, siyasi tarix və partiyalararası mübarizə məsələləri xronoloji ardıcıllıqla və problemlər üzrə konkret əks etdirilmişdir; bu ölkələrin daxili və xarici siyasətdə zaman-zaman üzləşdikləri problemləri həll etməkdə hökumətlərinin həyata keçirdikləri tədbirlər və onların mahiyyəti geniş açılmışdır ki, həmin təcrübənin öyrənilməsinin ölkəmizdə müstəqil dövlət quruculuğu üçün mühüm əhəmiyyət*

*daşıdığı şəksizdir; yeri gəldikcə ABŞ-ın və Avropa dövlətlərinin Azərbaycana münasibətdə yeritdikləri siyasətə də diqqət yetirilmişdir; iki dünya müharibəsi arasındakı illərdə beynəlxalq münasibətlər və ikinci dünya müharibəsi tarixi yazılmışdır. Dərslik Avropa və Amerika ölkələrində demokratik cəmiyyət quruculuğunu və onun təkamül yolu ilə inkişafını izləmək baxımından da xeyirlidir.*

*Mövzular yazılarkən kitabın sonunda verilmiş mənbə və ədəbiyyat siyahısında göstərilən ingilis, türk, rus və Azərbaycan dillərindəki ədəbiyyatlardan geniş istifadə edilmişdir.*

*Dərsliyin ikinci dünya müharibəsindən sonrakı dövrü əhatə edən hissəsi də çapa hazırlanır. Müəllif dərs kitabının hər iki hissəsinin təhsil sistemimiz üçün yararlı olacağı inancındadır.*

*Nəhayət, müəllif dərsliyin ərsəyə gətirilməsi prosesində xeyirxah yardımlarını əsirgəməyən Azərbaycan və bəzi xarici ölkə mütəxəssislərinə dərin təşəkkürünü bildirir.*

# I BÖLÜM

## 1918-1923-CÜ İLLƏRDƏ BEYNƏLXALQ MÜNASİBƏTLƏR

### ABŞ prezidenti Vudro Vilsonun "14 maddəsi"

Birinci dünya müharibəsinin sonuna yaxın döyüşən dövlətlər hərbi əməliyyatları dayandırmaq məqsədilə müxtəlif sülh proqramları ilə çıxış etdilər. Belə proqramlardan birini 1918-ci il yanvarın 8-də ABŞ prezidenti Vudro Vilson əsaslandırdı. "14 maddə" adlandırılan bu proqramda beynəlxalq münasibətlərə dair aşağıdakı məsələlər irəli sürüldü: sülh müqavilələrinin açıq müzakirəsi. Bundan sonra heç bir gizli beynəlxalq saziş olmayacaq, diplomatiya isə həmişə açıq-aydın və hamının gözü qarşısında fəaliyyət göstərəcəkdir; ərazi suları xaricində həm sülh, həm də müharibə vaxtı gəmiçiliyin dənizlərdə mütləq sərbəstlivi; mümkün olduğu qədər bütün iqtisadi maneələrin ləğv edilməsi; dövlət təhlükəsizliyinə uyğun olaraq silahların mümkün qədər azaldılması üçün ədalətli zəmanətlər verilməsi; müstəmləkələr üzərində suverenliklə bağlı bütün məsələlərin həllində əhalinin maraqlarının hökumətlərin ədalətli tələblərinə nisbətdə bərabər tutulması prinsipinə əsaslanaraq bütün müstəmləkə mübahisələrinin sərbəst, səmimi və mütləq bitərəflik mövqeyindən həlli; bütün rus torpaqlarının azad edilməsi. Rusiya öz taleyini özü müəyyənləşdirməli, istədiyi idarə formasını seçməli və Millətlər Cəmiyyətinə qəbul olunmalıdır; Belçika boşaldılmalı və bərpa edilməlidir; Fransa boşaldılmalı, işğala məruz qalmış ərazilər bərpa olunmalı, Elzas və Lotaringiya Fransaya verilməlidir; İtaliyanın sərhədləri dəqiq müəyyənləşdirilən milli əlamətlərə görə dəyişdirilməlidir; Avstriya-Macarıstan xalqları inkişaf üçün geniş muxtariyyət imkanları əldə etməlidirlər; Rumıniya, Serbistan və Qaradağ boşaldılmalıdır; Osmanlı

imperatorluğunun türk hissəsi təminat və möhkəm suverenlik almalıdır; tabe etdirilmiş millətlər üçün təhlükəsizlik və muxtar inkişafın mütləq pozulmaz şərtləri təmin edilməlidir; müstəqil Polşa dövləti yaradılmalıdır; xüsusi müqavilələr əsasında Millətlər Cəmiyyəti qurulmalıdır.

1918-ci ilin fevralında Vilson "14 maddə"yə daha dörd prinsip əlavə etdi. Həmin prinsiplərin qısa məzmunu belə idi: sülh prosesi qeyd-şərtsiz olaraq ədalətə əsaslanmalıdır; xalqlar və vilayətlər dövlətlər arasında şahmat oyunundakı piyada kimi mübadilə vasitəsinə çevrilməməlidir; hər bir ərazi məsələsi aidiyyəti üzrə yerli əhalinin maraqlarına uyğun olaraq həll edilməlidir; öz taleyini qəti müəyyən etmiş bütün millətlərin tələbləri ödənilməlidir.

Sonralar, 1918-ci ilin oktyabrında ABŞ dövlət departamenti "14 maddə"nin şərhini işləyib hazırladı. Vilson tərəfindən bəyənilən bu şərhdə Almaniya ilə sülh müqaviləsini hazırlamaq məqsədi ilə çağırılacaq Paris sülh konfransının iş prinsipləri öz əksini tapdı.

Vilson prinsiplərindən yararlanmaq istəyən və istiqlalının tanınmasını tələb edən hər bir xalq aşağıdakı şərtlərə cavab verməli idi: xarakterindəki müəyyən intellektual və mənəvi-dini xüsusiyyətlərinə görə seçilməli; öz taleyini müəyyənləşdirməyə qadir olduğunu təsdiq etməli; öz xərclərini ödəmək üçün iqtisadi, təbii və maliyyə vəsaitlərinə malik olmalı; özünü xarici təcavüzdən qoruya bilməli; tabe olduğu ölkənin hökumətinin zülmündən əziyyət çəkməli idi.

Vilsonun "14 maddə"si müharibədən sonrakı dövrdə beynəlxalq münasibətlər sisteminin əsaslarını təşkil etmək, dünya quruluşunu və eyni zamanda ABŞ-ın qlobal xarici siyasət istiqamətlərini müəyyənləşdirmək məqsədini daşıyırdı.

## Rumıniyanın təslim olması. Buxarest sülhü

Müharibənin gedişində Rumıniya məğlub edildi. 1918-ci il mayın 7-də Buxarestdə Rumıniya ilə Almaniya bloku ölkələri arasında sülh müqaviləsi və iqtisadi sazişlər bağlandı. Bu sazişlər Rumıniyanın bütün təbii sərvətləri və ehtiyatlarından istifadə edilməsində Almaniya inhisarlarına müstəsna hüquq verdi. Buxarest sülh müqaviləsinə görə Rumıniya strateji cəhətdən mühüm və meşələrlə zəngin olan 15 min km.-lik dağlıq sərhəd zolağını Avstriya-Macarıstana güzəştə getdi; Cənubi Dobrucanı Bolqarıstana qaytardı; Dobrucanın qalan hissəsini isə Köstəncə (Konstança) limanı ilə birlikdə Almaniya bloku ölkələrinin istifadəsinə verdi; istifadə olunmayan neft mədənlərini 90 il müddətinə Almaniya kompaniyalarına təslim etdi. Rumıniyanın təslim olması Almaniya bloku ölkələrinin vəziyyətinə ümumən müsbət təsir etsə də onların xeyrinə əsaslı dönüş yaratmadı. Ən başlıcası isə, Almaniyanın yanacağa olan ehtiyacları ödənilmədi.

## 1918-ci ilin əvvəllərində döyüşən dövlətlər arasında qüvvələr nisbəti

Almaniya Avropanın şərqində uğurlu hərbi əməliyyatlar aparıb geniş ərazilər tutduqdan sonra müharibənin artıq başa çatdığını və düşmən ölkələrə öz sülh şərtlərini buyuracağını düşünürdü. Lakin Almaniya bloku ölkələrinin ağır təsərrüfat-iqtisadi həyatı onların nəinki daxili ictimai-siyasi, həmçinin beynəlxalq vəziyyətinə də mənfi təsir edirdi. Bu ölkələrin əhalisi aclıq çəkirdi. Orduda zəruri olan şeylər çatışmırdı. Almaniya iqtisadi cəhətdən tükəndi və əmək məhsuldarlığı aşağı düşdü. Ölkədə yanacaq və xammal ehtiyatları çatışmırdı. Nəqliyyat bərbad hala düşdü və insan ehtiyatı da tükəndi. Xalq müharibədən usandı.

Aclıq çəkən Avstriya-Macarıstan ordusu döyüş qabiliyyətini itirdi. "Qurama imperiya"da yaşayan xalqların milli-azadlıq müba-

rizəsinin güclənməsi müharibəni davam etdirməyə daha imkan vermirdi.

Almaniyanın müttəfiqləri olan Osmanlı dövləti və Bolqarıstan da çətin hərbi, iqtisadi və siyasi vəziyyətə düşdülər. Bütün bunlara baxmayaraq, bu blok ölkələri içərisində yalnız Almaniya ordusu döyüş qabiliyyətini hələ qismən də olsa qoruyub saxlayırdı.

Antanta ölkələri də çətinliyə düşdülər. İngiltərə, Fransa və İtaliyanın iqtisadi və ərzaq vəziyyəti əlverişli deyildi. Lakin onların tam tükənməyinə hələ çox var idi. Bu ölkələr içərisində yalnız İtaliyanın vəziyyəti daha fəlakətli olaraq qalırdı. İngiltərə və Fransanın strateji xammal, ərzaq, işçi qüvvəsi və əsgər aldığı müstəmləkələrlə ənənəvi əlaqələri Almaniyanın apardığı sualtı müharibə ucbatından xeyli çətinləşdi. Buna baxmayaraq, hərbi texnika sarıdan İngiltərə, Fransa və ABŞ Almaniya bloku ölkələrini üstələyirdilər. ABŞ-ın müttəfiqlərinə yardımı müharibədə mühüm rol oynadı. Artıq 1918-ci ilin yayında Almaniya ordusu döyüş qabiliyyətini tamamilə itirdi. Almaniya ali baş komandanlığı ordunun daha müqavimət göstərmək qabiliyyətində olmadığını bildirdi. Almaniyada hökumət dəyişikliyi oldu. Liberal Maks Badenskinin başçılığı ilə yaradılan yeni hökumət oktyabr ayının əvvəllərində ABŞ prezidenti Vilsona nota göndərərək "14 maddə"nin şərtlərinə uyğun olaraq sülh bağlamağa razı olduğunu bəyan etdi. İki ölkə arasında notalar mübadiləsi bir ay çəkdi. Lakin ABŞ hökuməti imperator II Vilhelm vəzifəsindən getməyənə və alman ali hərbi komandanlığı siyasi hakimiyyətə tabe etdirilməyənədək müttəfiqlərin Almaniya ilə heç bir rəsmi danışıqlar aparmayacağını bildirdi. Belə olduqda hərbi idarəçilik sisteminə rəhbərlik edən general Erix Lüdendorf vəzifədən uzaqlaşdırıldı. Özünü paytaxtda təhlükəsiz hiss etməyən II Vilhelm isə feldmarşal Paul Hindenburqun qərargahına getdi. Alman ordusunun hərbi əməliyyatlar aparmaq iqtidarında olmadığını görən müttəfiqlər növbəti döyüş planlarını hazırlamaqdan imtina etdilər.

## Bolqarıstanın məğlub olması. Səlonik barışığı

Döyüşən dövlətlər arasında barışıq haqqında danışıqlar davam edərkən Almaniyanın müttəfiqləri bir-birinin ardınca müharibədən çıxmağa başladılar. 1918-ci ilin ikinci yarısında Bolqarıstanı kəskin iqtisadi və siyasi böhran bürüdü. Ölkə iqtisadiyyatı bərbad hala düşdü. Xalq və ordu aclıq çəkirdi. Müharibəni davam etdirmək artıq mümkün deyildi. Belə şəraitdə Almaniya da Bolqarıstanı silah, hərbi sursat və geyimlə təchiz etməyi dayandırdı. Sentyabrın 15-də Antanta ölkələrinin silahlı qüvvələri Dobro çölü rayonunda bolqar ordusunu darmadağın etdi. Sentyabrın 29-da isə müttəfiq komandanlığı Səlonikdə Bolqarıstanla barışıq sazişini imzaladı. İmzalanmış barışığın şərtlərinə görə Bolqarıstan işğal etdiyi Serbistan, Yunanıstan və Rumıniya ərazilərini boşaltmağı öz öhdəsinə götürürdü. Bolqar yolları müttəfiq ordularının əlinə keçirdi. Belə vəziyyət Osmanlı dövlətinin və dağılmaqda olan Avstriya-Macarıstan imperatorluğunun məğlubiyyətini daha da sürətləndirdi.

## Osmanlı dövlətinin məğlub olması. Mondros barışığı

1918-ci ilin oktyabrında türk ordusu Fələstin və Suriyada məğlubiyyətə uğradı. Oktyabrın 30-da Osmanlı dövləti adından Hüseyn Rauf, Antanta dövlətləri adından isə ingilis admiralı Kaltorp Aralıq dənizində Saqqız (Lemnos) adasındakı Mondros limanında barışıq sazişini imzaladılar. Barışığın şərtlərinə görə Qara dəniz boğazları müttəfiqlər tərəfindən işğal edilməli; Osmanlı sularındakı bütün qüvvələr və silahlı mövqelər haqqında müttəfiqlərə məlumat verilməli və onların zərərsizləşdirilməsi üçün yardım olunmalı; müttəfiqlərin hərbi əsirləri İstanbula gətirilərək müvafiq ölkələrə təslim edilməli; Osmanlı hökuməti daxili nizam-intizamı və sərhədləri qorumaq üçün lazım olacaq hərbi qüvvələrdən başqa qüvvə

saxlamaq hüququndan məhrum edilməli; ölkə daxilində asayişi qorumaq üçün lazım olacaq qüvvələrin sayı müttəfiqlər tərəfindən müzakirə edildikdən sonra müəyyənləşdirilməli; Osmanlı sularında üzən hərbi gəmilər müttəfiqlərə təslim edilməli idi; müttəfiqlərin mövqelərinə qarşı təhlükə olacağı təqdirdə onlar Osmanlı dövlətinin istənilən strateji hissəsini işğal etmək hüququnu saxlayırdılar; türk limanlarından Osmanlı dövlətinin müttəfiqlərinin istifadə etmələri qadağan olunurdu; Osmanlı hərbi birləşmələri Güney Azərbaycandan dərhal çıxmalı və Osmanlı dövləti Qafqaz ərazisinin müttəfiqlərin nəzarətinə keçməsinə etiraz etməməli; qalib dövlətlər Batumu və Bakını işğal etməli; Almaniya və Avstriya-Macarıstanın bütün məmurları bir ay ərzində Osmanlı ərazilərini tərk etməli; Hicaz, Yəmən, Suriya və Mesopotamiyadakı türk qarnizonları müttəfiqlərə verilməli; Trablis və Kirenaikdəki türk emissar zabitləri İtaliya qarnizonuna tabe etdirilməli idi; hər hansı hərbi əmlakın məhv edilməsi qadağan olundu; Osmanlı hərbi əsirləri müttəfiqlərin nəzarəti altında mühafizə olunmalı idi.

Mondros barışığı Osmanlı dövlətinin vəziyyətini xeyli ağırlaşdıraraq müttəfiqlərdən asılı hala saldı. Belə şəraitdə Avstriya-Macarıstanın məğlubiyyəti labüd idi.

## Avstriya-Macarıstanın parçalanması və təslim edilməsi. Padui barışığı

1918-ci ilin payızında daxili sosial və milli ziddiyyətlər, hərbi əməliyyatlardakı uğursuzluqlar nəticəsində Avstriya-Macarıstan imperatorluğu dağılmağa başladı. Təsərrüfat dağınıqlığı, aclıq və cəbhələrdəki ağır məğlubiyyətlər milli-azadlıq hərəkatını gücləndirdi. Avstriya-Macarıstanda yaşayan müxtəlif xalqlar müstəqil siyasi həyata qədəm qoydular. Oktyabrın 21-də avstriyalı deputatlar özlərinin Avstriya Müvəqqəti Milli Məclisini yaratdılar. Oktyabrın 28-də isə Çex Milli Şurası Praqada Çexoslovakiyanı müstəqil dövlət elan etdi. Macarıstanda inqilab baş verdi. İmperator Karlın

imperiyanı islahatlar həyata keçirmək yolu ilə saxlamaq cəhdləri uğursuzluqla nəticələndi. Oktyabrın 28-də Avstriya-Macarıstan ordusunun komandanlığı müharibəni dayandırmaq xahişi ilə İtaliyaya müraciət etdi. 1918-ci il noyabrın 3-də Avstriya-Macarıstan komandanlığı Paduidə təslim olmaq haqqında akt imzaladı. Barışığın şərtlərinə görə müttəfiqlər ölkənin təsərrüfatına tam sahib oldular. Avstriya-Macarıstanın məğlubiyyətindən sonra ingilis, fransız, italiyan orduları Almaniya üçün cənub və cənub-şərqdən təhlükə yaratdılar. Belə şəraitdə Almaniyanın məğlubiyyətə uğrayacağı şəksiz idi.

## Almaniyanın məğlub olması. Kompyen barışığı

Müttəfiqlərinin məğlub olmasına baxmayaraq Almaniya hərbi əməliyyatları hələ də davam etdirirdi. Oktyabrın 30-da alman hərbi komandanlığı ingilislərə qarşı Kil şəhərində dəniz döyüşünə girmək haqqında əmr verdi. Lakin matroslar etiraz edərək üsyan qaldırdılar. Ölkədə inqilab baş verdi. İmperator II Vilhelm Hollandiyaya qaçdı. Noyabrın 6-da Maks Badenski hökuməti barışıq bağlamaq üçün müttəfiq orduları komandanlığının yanına nümayəndə heyətini göndərdi. 1918-ci il noyabrın 11-də Fransada Kompyen meşəsində Retond dəmiryolu stansiyasında marşal Foş müttəfiqlər adından Almaniya nümayəndə heyətinə barışıq şərtlərini təqdim etdi. Barışıq şərtlərinə görə Almaniya işğal etdiyi Fransa ərazilərini, Belçikanı, Lüksemburqu, Reynin sol sahilindəki vilayətləri 15 gün müddətində azad etməli, öz ordularını Osmanlı dövləti ərazisi, Rumıniya, Avstriya-Macarıstan, həmçinin Afrikadakı müstəmləkələrindən çıxarmalı, müttəfiqlərə özünün silahlı qüvvələrinin bir hissəsini, 5 min paravozunu, 150 min sərnişin vaqonunu, 5 min yük vaqonunu və b. verməli idi. Beləliklə, Almaniya bloku dövlətlərinin hamısı müharibədə ağır məğlubiyyətə uğradılar. Yaxın və Orta Şərqdə əsasən Mosul və Bakı nefti uğrunda aparılan birinci dünya müharibəsi başa çatdı.

## Almaniya bloku ölkələrinin məğlub olmasının səbəbləri

Almaniya və onun müttəfiqlərinin birinci dünya müharibəsində məğlub olmasının başlıca səbəbləri aşağıdakılardan ibarət idi:

Birinci, Antanta dövlətlərinin iqtisadi və insan ehtiyatları Almaniya, Avstriya-Macarıstan, Osmanlı dövləti və Bolqarıstandan üstün idi. Buna görə də üzücü müharibədə Almaniya bloku ölkələrinin hərbi və digər ehtiyatları tez tükəndi. Müharibə neft müharibəsi idi. Antanta ölkələrindəki neft və daş kömür ehtiyatları Almaniya bloku ölkələrini xeyli üstələyirdi.

İkinci, hərbi qüvvələrin nisbəti Antanta ölkələrinin xeyrinə idi. Müharibənin gedişində Antanta ölkələri 48 mln. 355 min əsgər və zabiti və ya 525 diviziyanı, Almaniya bloku ölkələri isə 25 mln. 160 min əsgər və zabiti və ya 372 diviziyanı hərbi əməliyyatlara cəlb etdilər. Müharibə illərində Antanta ölkələri 9 mindən çox tank istehsal etdilər. Almaniya bloku ölkələrində isə tanklar demək olar ki, yox idi. Antanta ölkələri aviasiya sarıdan iki dəfə, hərbi-dəniz donanması baxımından isə daha çox üstün idilər. Beləliklə, Antanta blokunun hərbi cəhətdən üstünlüyü müharibədə qələbəni təmin edən əsas amillərdən biri oldu.

Üçüncü, Almaniyanın siyasi üstqurumu müharibə dövründə böhran vəziyyətinə düşdü. Ölkədə çevik idarəçilik çatışmırdı. Almaniya və onun müttəfiqləri idarəçilikdə mövcud olan böhrandan çıxa bilmədilər.

Dördüncü, alman bloku ölkələrinin hərbi nəzəriyyəsi, strategiya və taktikası rəqiblərindən zəif idi. Onlar öz qüvvələrini şişirdərək rəqibin qüvvələrini lazımınca qiymətləndirmirdilər. Almaniyanın siyasi rəhbərliyi və hərbi komandanlığı mövcud şəraitdə müharibə aparılması şərtlərinə, başlıcası isə ölkənin iqtisadi, siyasi və hərbi imkanlarına cavab verməyən "Şliffen planı"nın əsiri oldu.

Beşinci, Almaniya və müttəfiqləri müharibəyə hərbi kəşfiyyat və informasiya baxımından yaxşı hazırlaşmamışdılar. Alman hərbi komandanlığı hətta Rusiya ərazilərinin xəritəsini kifayət qədər

dəqiq hazırlaya bilməmişdi. Alman zabitləri hərbi əməliyyatların aparıldığı yerli şəraitə yaxşı bələd deyildilər. Antanta ölkələrinin hərbi kəşfiyyatı isə demək olar ki, qüsursuz işləyirdi.

Altıncı, Antanta ölkələri Almaniya bloku ölkələrini zəiflətmək və əsas diqqətlərini hərbi əməliyyatlardan yayındırıb daxili problemlərə yönəltmək məqsədi ilə Osmanlı dövləti və Avstriya-Macarıstan imperatorluğunda yaşayan milli azlıqları qiyamlara və separatçılığa təhrik etdilər. Osmanlı dövləti ərazisində yaşayan ermənilərdən ibarət yaradılan silahlı dəstələr dinc türk əhalisinə - qoca, qadın və uşaqlara qarşı kütləvi qətllər törədərək dövlətə arxadan zərbə vurdular. Bu isə Osmanlı hökuməti üçün daxildə çoxlu problemlər yaratdı.

## Müharibənin beynəlxalq nəticələri

Kompyen barışığının imzalanması ilə əhalisi 1 mlrd. nəfərdən çox olan 34 ölkənin və səfərbərliyə alınmış 74 mln. nəfərin iştirak etdiyi birinci dünya müharibəsi sona çatdı. Müharibədə təxminən 10 mln. nəfər öldürüldü və 20 mln. nəfər yaralandı. Müharibəyə külli miqdarda vəsait xərcləndi. Birbaşa hərbi xərclər 208 mlrd. dollar təşkil etdi.

Müharibənin bir sıra möhtəşəm beynəlxalq nəticələri oldu. Birinci, müharibə nəticəsində dünyanın siyasi xəritəsində ciddi dəyişikliklər əmələ gəldi. Avstriya-Macarıstan imperatorluğu və Osmanlı dövləti parçalandı. Rusiya imperiyasının dağılması nəticəsində uzun illər boyu dini və milli zülm altında inləyən xalqlar azadlığa çıxdılar. Yeni müstəqil dövlətlər yarandı.

İkinci, müharibə dünya dövlətlərinin iqtisadiyyatına dərin təsir göstərərək onların iqtisadi və siyasi cəhətdən qeyri-bərabər inkişafını sürətləndirdi. Hərbi əməliyyatlar bir sıra ölkələrin iqtisadiyyatını dağıdaraq on illərlə geriyə atdı, digərlərinin isə yüksək inkişafına və varlanmasına şərait yaratdı. Müharibə nəticəsində ABŞ və Yaponiya xeyli varlandı. 1914-cü ilə qədər dünya bankirləri he-

sab olunan və maliyyə zəncirini öz əllərində saxlayan İngiltərə, Fransa və Almaniya müharibə illərində xarici kapitallarının xeyli hissəsini itirdilər. Müharibə başlanana qədər Avropa ölkələrinə borclu olan ABŞ müharibənin gedişində İngiltərə, Fransa, İtaliya və digər Avropa dövlətlərinə külli miqdarda borc verməklə onları özündən asılı vəziyyətə salaraq dünyanın qüdrətli maliyyə mərkəzinə çevrildi.

Müharibənin ilk günlərindən Almaniya bloku dövlətlərini blokadaya alan ingilis donanması onları dünyanın xammal və ərzaq mənbələrindən məhrum etdi. Öz növbəsində Almaniya sualtı müharibənin köməyi ilə Antanta ölkələrinin müstəmləkələrlə əlaqələrini kəsib çətinlik yaratmağa və onları blokadaya almağa çalışsa da istəyinə çata bilmədi. Bununla belə, müharibənin gedişində Avropa dövlətləri ilə digər qitələr arasında ticarət mübadiləsinin zorla kəsilməsi əsrlər boyu formalaşmış iqtisadi əlaqələri qıraraq ənənəvi dünya bazarını dağıtdı.

Müharibə müstəmləkə və yarımmüstəmləkə dövlətlərinin iqtisadiyyatında mühüm dəyişikliklər etdi. Hərbi əməliyyatlar ucbatından Avropa dövlətlərinin müstəmləkələrə və yarımmüstəmləkələrə sənaye malları ixrac etməsi xeyli azaldı. Bunun əvəzində metropoliyalar öz hərbi qüdrətlərinin artırılması üçün həmin yerlərdə emal və yüngül sənaye sahələrinin qurulmasına şərait yaratdılar. Fabrik və zavodların tikilməsi müstəmləkə və yarımmüstəmləkələrdə sənaye cəmiyyətinin qurulması və inkişafına, texniki tərəqqiyə, eyni zamanda yeni sosial münasibətlərin yaranmasına təkan verdi.

Üçüncü, müharibə müstəmləkə və yarımmüstəmləkələrdə milli-azadlıq hərəkatını gücləndirdi. Yeni-yeni xalqlar müstəqillik dövrünə qədəm qoydular. Müstəmləkə sisteminə sarsıdıcı zərbə vuruldu.

Dördüncü, müharibənin yaratdığı ağır sosial-iqtisadi vəziyyət bir çox ölkələrdə inqilabi hərəkatların meydana gəlməsinə səbəb oldu. Hərbi əməliyyatlardan cana doymuş xalqların içərisində

sosial hərəkatlar gücləndi. Yeni sosial-iqtisadi və siyasi quruluşlu dövlətlərin əmələ gəlməsi meylləri yarandı.

## Paris sülh konfransı

Müharibədə məğlubiyyətə uğrayan Almaniya ilə sülh müqaviləsini işləyib hazırlamaq və müharibədən sonrakı dünya quruluşu məsələlərini müəyyənləşdirmək üçün qalib dövlətlər konfrans çağırmaq qərarına gəldilər. Konfransın keçiriləcəyi yer məsələsi qalib dövlətlər arasında müəyyən mübahisələr yaratdı. Fransa konfransın Parisdə, İngiltərə isə bitərəf ölkədə, konkret olaraq İsveçrədə çağırılmasını təklif etdi. Məsləhətləşmələrdən sonra Fransanın istəyi yerinə yetirildi. Konfransın Parisdə çağırılması barədə razılıq əldə olundu. Konfransın gündəliyinə aşağıdakı məsələlər daxil edildi: Almaniya ilə sülh müqaviləsi; ərazi və müstəmləkə mülkləri; Millətlər Cəmiyyətinin yaradılması; təzminat; tərksilah.

Sülh konfransı 1919-cu il yanvarın 18-də Paris yaxınlığında Versalda Güzgülü salonda açıldı. Konfransın yanvarın 18-də açılması əbəs deyildi. Fransa-Prussiya müharibəsində qalib gəlmiş prus yunkerləri 1871-ci il yanvarın 18-də məhz Versalda Güzgülü salonda Almaniya imperiyasının yaradılmasını elan etmişdilər. Qalib dövlətlər, xüsusən konfransa ev sahibliyi edən Fransa bununla Almaniyadan əvəz çıxmaq istəyirdi. Konfransın işində 27 ölkədən, İngiltərənin müstəmləkələri ilə birlikdə 32 ölkədən 1000 nəfərdən, ekspert və texniki heyətlə birlikdə isə iki min nəfərdən çox adam iştirak edirdi. Konfransa ABŞ-dan 400, İngiltərədən isə 200 adam gəlmişdi. Rəsmi nümayəndə heyətləri 4 dərəcəyə bölünmüşdü. Məğlub dövlətlərin nümayəndələri konfransın işinə yaxın buraxılmırdılar. Yeni yaranmış dövlətlər və bitərəf ölkələr dördüncü dərəcəyə daxil edilmişdilər. Məsələlərin müzakirəsində bu ölkələrin iştirakı yalnız beş əsas dövlətdən birinin dəvəti ilə mümkün ola bilərdi.

Konfransın sədri Fransanın baş naziri J.Klemanso idi. Fransa

prezidenti R.Puankare konfransın açılışındakı nitqində Almaniyanın taleyi ilə bağlı bildirdi: "Ədalətsizliklə yaranan şərəfsizliklə məhv olur". Konfransa əvvəllər Onlar şurası rəhbərlik edirdi. Bu şuranın tərkibinə beş böyük dövlətin (ABŞ, İngiltərə, Fransa, İtaliya, Yaponiya) hər birindən iki nümayəndə - heyət başçıları və xarici işlər nazirləri daxil idi. Onlar şurasının iclaslarında xeyli ekspert də iştirak etdiyindən konfransın işinin məxfiliyini qorumaq mümkün olmurdu. Bu problemi aradan qaldırmaq üçün martın 25-də Onlar şurası iki hissəyə bölündü. Dördlər şurası (nümayəndə heyətlərinin başçıları Vilson, Lloyd Corc, Klemanso, Orlando) və Beşlər şurası (bu dövlətlərin xarici işlər nazirləri Lansinq, Balfur, Pişon, Sanino və Makino). Bu şuralardan başqa sayı 58-ə çatan müxtəlif komissiyalar da yaradıldı. Konfransın gedişində həmin komissiyaların 1646 iclası keçirildi. Eyni zamanda vəziyyəti öyrənmək üçün yerlərə müxtəlif komissiyalar da göndərildi.

Konfransın işi heç də rəvan getmirdi. Müharibədə müttəfiq olmuş qalib dövlətlər arasında konfransın gedişində dünyanı nüfuz dairələrinə bölmək uğrunda ziddiyyətlər xeyli kəskinləşdi. Bu ziddiyyətlər qalib dövlətlərin konkret məqsədlərində üzə çıxdı. Dünya müharibəsinin gedişində iqtisadi, maliyyə, hərbi və siyasi cəhətdən xeyli möhkəmlənmiş ABŞ dünyaya mənəvi rəhbərliyə, bütün ölkələr və xalqlar üçün bərabər imkanların yaradılmasına çalışırdı. Amerikan diplomatiyası Almaniya və Osmanlı dövlətindən alınmış ərazilərin İngiltərə və Fransaya deyil, yaradılması nəzərdə tutulan Millətlər Cəmiyyətinin nəzarətinə verilməsini tələb edirdi. "Açıq dənizlər", "azad ticarət" və "müstəmləkə məsələlərinin sərbəst tənzimlənməsi", "mandat sistemi" haqqında ABŞ təklifləri İngiltərə, Fransa və Yaponiyanın güclənməsinin qarşısını almağa yönəlməklə yanaşı, ədalətə əsaslanan, zorakılıqsız yeni dünya qaydası yaratmağa xidmət edirdi. Bütün bunlar müharibədən sonrakı beynəlxalq münasibətlərdə ABŞ-ın həm məsuliyyətinin, həm də nüfuzunun artdığını göstərirdi.

Almaniyanın darmadağın edilməsinin əleyhinə olan ABŞ eyni

SUMQAYIT
DÖVLƏT UNİVERSİTETİ
KİTABXANA

zamanda gələcəkdə Avropada İngiltərə və Fransanın iddialarının qarşısını almaq üçün tarazlaşdırılmış siyasət yeritmək və onu bərabərhüquqlu partnyora çevirmək niyyətində idi.

Fransa Almaniyanı kiçik dövlətlərə parçalamağa, Bavariyanı ondan ayırmağa, Avropada öz sərhədlərini genişləndirməyə, Osmanlı mülklərinə və Almaniya müstəmləkələrinə sahib olmağa, qitədə özünün şəksiz hegemonluğunu qurmağa, Almaniyadan alınacaq ümumi təzminatın 57% -ni almağa iddia edirdi.

Böyük Britaniya Afrikadakı Almaniya müstəmləkələrini, türk mülklərini ələ keçirməyə və Avropada öz hegemonluğunu yaratmağa çalışırdı. İngilis diplomatiyası eyni zamanda qitədə dövlətlərarası münasibətlərdə tarazlığın saxlanılmasından ötrü Almaniyanın tamamilə məhv edilməsinin əleyhinə idi. Bu məqsədlə L.Corc 1919-cu ilin mart ayında Vilsona və Klemansoya "Fontenblodan memorandum" adlı sənədi göndərərək Almaniya ilə əzablı sülh bağlamamaq təklifini irəli sürdü.

İtaliya Balkan yarımadasında öz nüfuzunu möhkəmləndirmək, Avstriya-Macarıstanın bir sıra ərazilərinə sahib çıxmaq və Afrikada mülklər qazanmaq istəyirdi.

Yaponiya Şandun əyalətini və Sakit okeandakı Almaniya müstəmləkələrini tələb edirdi.

Keçmiş Rusiya imperiyasının xarabalıqlarında yaranmış yeni dövlətlərin tanınması məsələsi "ümumrus məsələsi"nin həllinədək təxirə salındı. Kolçak, Denikin və bolşevik hakimiyyətinə qarşı mübarizə aparan digər qüvvələrin uğurlu hərbi əməliyyatlar apardığı bir zamanda Avropa ölkələri, xüsusən Fransa və İtaliya "vahid və bölünməz Rusiya" şüarını müdafiə edərək, onlara hər cür yardım göstərməyə çalışırdılar. Müharibə nəticəsində yaranmış yeni müstəqil dövlətlərin nümayəndələri isə ümidlərini ən çox sülh konfransının ideoloji əsasını təşkil edən Vilson prinsiplərinə bağlayırdılar. Lakin bu dövrdə beynəlxalq şərait yeni yaranmış dövlətlərin heç də tamamilə xeyrinə deyildi.

Paris sülh konfransının işi altı aya yaxın davam etdi. Sülh mü-

qavilәsinin әsas müddәaları barәdә razılıq әldә olundu. Mayın 7-dә Klemanso Almaniyanın xarici işlәr naziri Brokdorf-Rantçaunu dәvәt edәrәk müttәfiqlәr adından sülh müqavilәsinin şәrtlәrini ona tәqdim etdi. Rantçau bu şәrtlәrlә tanış olduqdan sonra layihәdәki 247-ci maddә - dünya müharibәsinin başlanmasında yalnız Almaniyanın tәqsirkar olması ilә razılaşmadı. Lakin müttәfiqlәr yenidәn hәrbi әmәliyyatlara başlamaqla hәdәlәdikdә Almaniya sülh şәrtlәrini qәbul etmәyә mәcbur oldu.

1919-cu il iyunun 28-dә Parisdә, Versalda Almaniya ilә sülh müqavilәsi imzalandı. Sülh müqavilәsinin iyunun 28-dә imzalanması da әbәs deyildi. 1914-cü ildә hәmin gün Avstriya-Macarıstan taxt-tacının vәliәhdi Frans Ferdinand "Gәnc Bosna" tәşkilatının üzvü, 18 yaşlı Qavrilo Prinsip tәrәfindәn qәtlә yetirilmişdi. Bu isә birinci dünya müharibәsinin başlanması üçün bәhanә olmuşdu. Sülh müqavilәsinin şәrtlәrinә görә Almaniya vә onun müttәfiqlәri müharibә tәqsirkarları elan edildilәr. Mәğlub dövlәtlәr müharibәdә vurulan ziyana görә tәzminat ödәmәli idilәr. Almaniya baş qәrargahı buraxılırdı. Onun gәlәcәkdә yaradılması qadağan olunurdu. Almaniya sualtı qayıqlar, hәrbi vә dәniz aviasiyası, tanklar saxlaya bilmәzdi. Ümumi hәrbi mükәllәfiyyәt qadağan edilirdi. Ordu yalnız könüllülük әsasında qurulmalı idi vә 100 min nәfәrdәn artıq ola bilmәzdi. Onun 4 min nәfәri zabit ola bilәrdi. Əsgәr vә unter zabitlәr orduda 12 il, zabitlәr isә 45 il xidmәt etmәli idilәr.

Almaniya yalnız altı orta zirehli gәmi vә bir neçә digәr kiçik gәmi saxlaya bilәrdi. Reynin sol sahilinin alman hissәsi vә hәr iki sahilindәki 50 km.-lik zolaq hәrbsizlәşdirilmiş zona elan edilirdi.

Müqavilәdә әrazi vә müstәmlәkә mülklәri mәsәlәsi hәll edildi. Sülh müqavilәsinin şәrtlәrinә әsasәn Fransa 1871-ci ildә Almaniyanın işğal etdiyi Elzas vә Lotaringiyanı geri qaytarır, Saar vilayәtinin daş kömür yataqlarına sahib olur, Almaniyanın Toqo vә Kamerun müstәmlәkәlәrinin bir hissәsini, Suriya vә Livanı alırdı.

Saar vilayәti 15 il müddәtinә Millәtlәr Cәmiyyәtinin idarәçiliyinә keçirdi.

İngiltərə Toqo və Tanqanikanı, Şərqi Afrikadakı alman müstəmləkələrini, Fələstin, Transiordaniya, İraq və digər əraziləri alırdı.

İtaliya Triestlə birgə İstriyanın qərb hissəsinə, Poluna və Avstriya ilə sərhəd zolağına yiyələnirdi.

Belçika Eypen dairəsini, Morene rayonunu və Malmedi alır, həmçinin Ruanda və Urunduni, Almaniyanın Cənub-Qərbi Afrikadakı müstəmləkələrini tuturdu.

Danimarka Şlezviqin şimal hissəsinə sahib olurdu.

Polşa Poznan və Pomeraniyanı, Qərbi və Şərqi Prussiyanı, həmçinin Sileziyanın yuxarı hissəsini alırdı. Almaniya Polşanın müstəqilliyini tanıyır və Dansiqdən (Qdansk) imtina edirdi. Bu liman Millətlər Cəmiyyətinin himayəsi altında azad şəhər elan olunurdu. Almaniya Memeldən (Klaypeda) də əl çəkirdi. Bu liman şəhəri sonralar, 1923-cü ildə Litvaya verildi. Polşa Baltik dənizinə geniş çıxış ala bilmədi.

Yaponiya Sakit okeandakı Marşal, Marian, Karolin adalarını, həmçinin Çinin Çzyao-Çjou vilayətini, Şandunda isə konsessiyalar alırdı.

Müharibədə düşmən üzərində qələbə qazanılmasında böyük xidmətləri olan ABŞ-ın müstəmləkə məsələsində bərabərlik əldə etmək haqqında tələbləri yerinə yetirilmədi.

Paris sülh konfransının qərarlarına əsasən başlıca məqsədi sülhü və beynəlxalq təhlükəsizliyi qorumaqdan ibarət olan Millətlər Cəmiyyəti yaradıldı. Millətlər Cəmiyyətinin nizamnaməsi sülh müqavilələrinin mətninə daxil edilərək 44 dövlət tərəfindən imzalandı. Nizamnamənin 16-cı maddəsində Millətlər Cəmiyyətinin təcavüzkar dövlətə qarşı kollektiv iqtisadi və hərbi sanksiyalar tətbiq etməsi nəzərdə tutulurdu.

Müttəfiqlər arasında kəskin ziddiyyətlərin olması nəticəsində bir sıra, o cümlədən məğlub dövlətlərin ödəyəcəyi təzminat məsələsi barədə razılığa gəlinmədi. Bu məsələni sonradan ayrıca müzakirə etmək haqqında anlaşma əldə olundu. Bununla belə, təzminat məsələsi dövlətlərarası münasibətlərdə ən çox

mübahisələr yaradırdı.

Sülh müqaviləsi onu imzalayan dövlətlər tərəfindən təsdiq olundu. Lakin V.Vilsonun təkidlərinə və iki dəfə keçirilən müzakirələrə baxmayaraq ABŞ senatı Versal sülhünü təsdiq etmədi. Beləliklə, xarici siyasət məsələlərində ABŞ-da mövcud olan təcridçilik xətti üstünlük qazandı və müharibədə qələbəyə böyük töhfə verən Birləşmiş Ştatlar onun tərəfdarlarının təzyiqi altında Millətlər Cəmiyyəti vasitəsilə dünya işlərində yaxından iştirak etməkdən uzaq düşdü.

Almaniya iyulun 9-da sülh müqaviləsini təsdiq etdi.

Paris sülh konfransında bir sıra yeni yaradılmış dövlətlərlə yanaşı Ə.M.Topçubaşov başda olmaqla Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) nümayəndə heyəti də iştirak etdi. 1919-cu il mayın 28-də Azərbaycanın istiqlalı günü ABŞ prezidenti V.Vilson AXC nümayəndə heyəti ilə görüşdü. Aparılan danışıqlar Birləşmiş Ştatların Azərbaycana maraq göstərdiyini sübut etdi. 1920-ci il yanvarın 11-də Böyük Britaniyanın xarici işlər naziri Lord Kerzonun təklifi ilə Paris sülh konfransında Antanta Ali Şurası Azərbaycanın dövlət müstəqilliyini de-fakto tanıyaraq onu Avropa ailəsinin bir parçası olaraq qəbul etdi. Bu, Antanta dövlətlərinin Azərbaycan xalqına və qurduğu dövlətə diqqət göstərmələri ilə bərabər Azərbaycan diplomatiyasının da böyük qələbəsi idi. Paris sülh konfransı heç şübhəsiz, Azərbaycan diplomatiya tarixinin mühüm səhifələrindən biridir.

## Spa konfransı

Versal sülh müqaviləsi imzalandıqdan sonra Avropada dövlətlərarası münasibətlərdə başlıca məsələ Almaniyanın tərksilah edilməsi və təzminatın alınması idi. Bu məqsədlə birinci dünya müharibəsi illərində Almaniya baş qərargahının yerləşdiyi Belçikanın Spa şəhərində 1920-ci il iyulun 5-16-da konfrans keçirildi. Müttəfiqlər Almaniyadan Versal sülh müqaviləsinin

yerinə yetirilməsini tələb edərək onun qarşısında aşağıdakı şərtləri irəli sürdülər: könüllü hərbi təşkilatları tərksilah etmək; ayrı-ayrı adamlardan silahları yığmaq; ordunu könüllülük prinsipi əsasında qurmaq; hərbi əmlakı təhvil vermək və sülh müqaviləsinin digər şərtlərini yerinə yetirmək. Almaniya bunları qəbul etsəydi, onda 1920-ci il oktyabrın 1-dək 150 min ordu saxlaya bilərdi. 1921-ci il yanvarın 1-dək isə ordu 100 min nəfər olmalı idi. Almaniya bu tələbləri yerinə yetirmədikdə isə müttəfiqlər onun yeni ərazilərini işğal edə bilərdilər. Almaniya rəhbərliyi qoyulan şərtlərlə razılaşaraq 1920-ci il iyulun 9-da müvafiq protokolu imzaladı.

Konfransda təzminat haqqında məsələ də müzakirə olundu. Lakin kəskin ixtilaflar ucbatından iştirakçı dövlətlər alınacaq təzminatın ümumi məbləği barədə yekdil rəyə gələ bilmədilər. Bununla belə, təzminatı alacaq dövlətlərin payı aşağıdakı kimi müəyyənləşdirildi: Fransa 52%, İngiltərə 22%, İtaliya 10%, Belçika 8%, Yunanıstan, Rumıniya və Yuqoslaviya 6,5%, Yaponiya, Portuqaliya 0,75%. ABŞ-ın da təzminat almaq hüququ saxlanıldı. Lakin ABŞ senatı Versal sülh müqaviləsini təsdiq etmədi. Amerikan hökuməti isə təzminatı almaqdan imtina etdi. ABŞ hökuməti təzminat məsələsində Almaniyanın çətinliyə salınmasının ölkədə qisasçılıq meyllərini artıracağından narahat idi.

Konfransda artıq bolşevik işğalı nəticəsində devrilmiş və mühacirətdə qalmış Ə.M.Topçubaşov başda olmaqla Azərbaycan Xalq Cümhuriyyətinin nümayəndə heyəti də iştirak etdi. Nümayəndə heyəti müharibədə vurulan ziyana görə Azərbaycana təzminat verilməsi və bolşevik işğalına son qoyulması məsələlərini qaldırsa da istəklərinə çata bilmədi.

## Almaniyanın müttəfiqləri ilə sülh müqavilələri

Almaniya ilə sülh müqaviləsi imzalandıqdan sonra qalib dövlətlər onun müttəfiqləri ilə müqavilələri hazırlamağa başladılar. İmzalanan müqavilələrin təməl prinsiplərini Versal sülhü təşkil etməli idi.

Avstriya ilə sülh müqaviləsi 1919-cu il sentyabrın 10-da Paris yaxınlığında Sen-Jermendə imzalandı. Sülh müqaviləsinin şərtlərinə görə Avstriya-Macarıstan monarxiyasının mövcudluğuna son qoyulurdu; Cənubi Tirolun bir hissəsi və Trentin İtaliyaya keçirdi; Çexiya və Moraviya yeni dövlət olan Çexoslovakiyanın bir hissəsinə çevrilirdilər; Bukovina Rumıniyaya keçirdi; Avstriya Çexoslovakiyanın müstəqilliyini tanıyırdı; onun donanması müttəfiqlərə verilirdi; Avstriyanın gələcəkdə Almaniya ilə birləşdirilməsi qadağan edilirdi.

Avstriya Serb-Xorvat-Sloven dövlətinin (Yuqoslaviya) müstəqilliyini tanıyırdı. Yuqoslaviyanın tərkibinə Sloveniya, Dalmasiya, Bosna və Hersoqovina daxil olurdu.

Avstriyada ümumi hərbi mükəlləfiyyət qadağan edilirdi. Ölkə yalnız 30 min nəfərlik ordu saxlaya bilərdi.

Bolqarıstanla sülh müqaviləsi 1919-cu il noyabrın 27-də Paris yaxınlığında Neyi-Sür-Sen qəsəbəsində imzalandı. Sülh müqaviləsinin şərtlərinə görə Bolqarıstan ərazisinin xeyli hissəsini o cümlədən, Egey dənizinə çıxışını itirirdi; ərazisinin bir hissəsi Yuqoslaviyaya, Cənubi Dobruca Rumıniyaya, Qərbi Frakiya isə Yunanıstana verilirdi; bolqar ordusunun sayı könüllülük əsasında muzdla 20 min nəfər olmalı; müharibədə vurduğu ziyana görə bolqarlar təzminat ödəməli idi.

Macarıstanla sülh müqaviləsi 1920-ci il iyunun 4-də Versalda Böyük Trianon sarayında imzalandı. Sülh müqaviləsinin şərtlərinə görə Macarıstan Yuqoslaviyanın müstəqilliyini tanıyırdı; Xorvatıstan, Baçka və Banatın qərb hissəsi Yuqoslaviyaya; Transilvaniya və Banatın şərq hissəsi Rumıniyaya; Slovakiya və Karpat arxası Ukrayna isə Çexoslovakiyaya verilirdi; Macarıstan Çexoslovakiyanın müstəqilliyini tanıyırdı; Burgenland Avstriyaya verilirdi; ölkədə ümumi hərbi mükəlləfiyyət qadağan edilirdi; Macarıstan 35 min nəfərdən çox ordu saxlaya bilməzdi; Almaniyanın bütün müttəfiqləri kimi Macarıstan da qalib dövlətlərə təzminat verməli idi.

Osmanlı dövləti ilə sülh müqaviləsi 1920-ci il avqustun 10-da Sevrdə bağlandı. Müqaviləni bir tərəfdən İngiltərə, Fransa, İtaliya, Yaponiya, Ermənistan, Belçika, Yunanıstan, Hicaz, Polşa, Portuqaliya, Rumıniya, Yuqoslaviya, Çexoslovakiya, digər tərəfdən Osmanlı dövləti imzaladı. Sülh müqaviləsinin şərtlərinə görə türk sultanı paytaxt kimi İstanbulu saxlayırdı. Lakin sülh müqaviləsinin tələbləri yerinə yetirilmədikdə müttəfiqlər onun şərtlərinə yenidən baxa bilərdilər. Ölkədə işğal rejimi saxlanılırdı. Müttəfiqlərin yaratdığı maliyyə komissiyasının razılığı olmadan Osmanlı dövləti konsessiyalar verə bilməzdi. Osmanlı silahlı qüvvələri əsgər və zabitlərlə birlikdə 50 min, jandarmeriyanın sayı isə 35 min nəfər müəyyənləşdirildi. Osmanlı hökuməti erməni dövlətinin müstəqilliyini tanımalı idi. Sülh müqaviləsi Osmanlı dövlətinin parçalanmasını rəsmiləşdirdi. Osmanlı dövləti ərazilərinin 80%-ni - Fələstin, Transiordaniya, İraq, Suriya, Livan və başqalarını itirirdi; Qara dəniz boğazları üzərində Antanta ölkələrinin beynəlxalq nəzarəti qoyulur və tərksilah edilirdi; bütün ölkələrin gəmiləri müharibə və dinc vaxtı boğazlardan sərbəst şəkildə keçə bilərdi. Bundan ötrü boğazlar komissiyası yaradılırdı. Komissiyanın tərkibinə İngiltərə, Fransa, Yaponiya, İtaliya, istədiyi vaxt ABŞ-dan iki səsi olan bir nümayəndə daxil edilməli idi: Rusiya, Yunanıstan, Rumıniya, Bolqarıstan və Türkiyədən bir səsi olan bir nümayəndə də buraya daxil ola bilərdi. Rusiya, Bolqarıstan və Türkiyə yalnız Millətlər Cəmiyyətinə daxil olduqdan sonra belə bir hüququ qazanacaqdı.

Türkiyənin ərazisi Kiçik Asiya və İstanbul şəhəri olmaqla Avropa qitəsində balaca bir zolaqla məhdudlaşdırılırdı. Ədirnə ilə birlikdə Şərqi Frakiya, Dardanelin Avropa sahili, Qallipoli yarımadası və İzmir Yunanıstana, Dodekanes adaları isə İtaliyaya verilirdi.

Sevr müqaviləsi Türkiyəni suverenlikdən məhrum edərək onu müstəmləkəyə çevirir və müstəqilliyini faktiki olaraq ləğv edirdi. Özünü xalqın gözündə salmış sultan hakimiyyəti artıq ölkədə real qüvvəyə malik deyildi. Bundan fərqli olaraq Ankarada yaradılan

Türkiyə Böyük Millət Məclisi (TBMM) hökuməti Mustafa Kamal Paşanın rəhbərliyi ilə Türkiyənin suverenliyinin bərpasını və işğal rejiminin ləğvini tələb etməyə başladı. Türk xalqı Sevr müqaviləsi ilə barışmayaraq onun ləğvi uğrunda mübarizəyə qalxdı.

Türklərin ingilis-yunan müdaxiləçiləri ilə ölüm-dirim mübarizəsinə başı qarışdığını görən Daşnak Ermənistanı Türkiyə əleyhinə yeni cəbhə açdı. Silahlı dəstələr dinc türk əhalisinə qarşı kütləvi terror və qətllər törətdilər. Türkiyəyə qarşı yeni müharibənin başlaması bölgədə vəziyyəti daha da mürəkkəbləşdirdi. Bütün bunlara baxmayaraq, türk orduları daşnak dəstələrini əzib 1920-ci il dekabrın 2-də erməni hökumətini Aleksandropol (Gümrü) sazişini imzalamağa məcbur etdi.

Düşmüş olduğu belə ağır vəziyyətdə Türkiyənin müttəfiqi Antantanın düşmən münasibət bəslədiyi bolşevik Rusiyası idi. Antanta dövlətlərinin türk mülklərinə sahib olmaq və Rusiyada bolşevizmi "beşiyində boğmaq" istəyi Ankara və Moskvanı müttəfiqə çevirdi. Rusiya-Türkiyə yaxınlaşması Yaxın Şərqdə qüvvələr nisbətini dəyişdirdiyindən Avropa dövlətlərini narahat etməyə başladı. Belə şəraitdə Fransa Türkiyəni Rusiyadan ayıraraq öz müttəfiqinə çevirməyə və Yaxın Şərqdə İngiltərəyə qarşı istifadə etməyə cəhdlər göstərdi. Uğursuzluğa düçar olacağını başa düşən Fransa türklərlə müharibəni dayandırıb sülh bağlamağı təklif etdi. Türk ordusu yunanları 1921-ci il avqustun 24-də Sakarya çayı ətrafında, sentyabr ayında isə İzmirdə məğlubiyyətə uğratdı. Oktyabr ayında Türkiyə ilə Antanta ölkələri arasında barışıq sazişi imzalandı. Beləliklə, Sevr sülh müqaviləsinin şərtləri ilə barışmayan türk xalqı istiqlal savaşında qalib gələrək ona sarsıdıcı zərbə vurdu. Mövqelərini möhkəmləndirən türk hökuməti daha sərt xarici siyasət xətti yeritməyə başladı.

## London konfransı

20-ci illərin əvvəllərində beynəlxalq münasibətlərin mühüm məsələləri Almaniyanın ödəyəcəyi təzminat və Yaxın Şərqdə mövcud olan mürəkkəb vəziyyət idi. 1921-ci il fevralın 21-dən martın 14-nə kimi keçirilən birinci London konfransında təzminat və Yaxın Şərq məsələləri müzakirə edildi. Konfransda iki türk nümayəndə heyəti iştirak edirdi. Ankara hökumətinin nümayəndə heyətinə Bəkir Sami, İstanbul hökumətinin nümayəndə heyətinə isə böyük vəzir Tevfiq başçılıq edirdi. İkinci heyət konfransda əsas rol oynamasa da hər iki nümayəndə heyəti razılaşdırılmış layihələrlə çıxış edirdi. Konfransda Türkiyənin tələbi aşağıdakılardan ibarət idi: Türkiyənin 1913-cü ildəki sərhədlərinin bərpa edilməsi; İzmirin yunan ordusundan azad edilməsi və türklərə qaytarılması; boğazlardan keçidin sərbəst olduğu şəraitdə Türkiyənin suverenliyinə və təhlükəsizliyinə təminat verilməsi; işğal rejiminin ləğv edilməsi; öz sahillərini və ərazilərini qorumaq üçün Türkiyəyə hərbi-dəniz donanması saxlamaq hüququnun verilməsi.

İtaliya kamalçılarla müqavilə bağlamaq təklifini müdafiə edirdi. Fransanın baş naziri Aristid Brian da yumşaq mövqe tuturdu. İngiltərə nümayəndələri də türklərlə fərdi söhbətlərində Türkiyə ilə razılaşmağa cəhd edirdilər. İngiltərənin baş naziri Lloyd Corc Bəkir Sami ilə görüşündə belə bir təklif irəli sürdü: Türkiyə Bakı neft mənbələri ilə birlikdə bütün Güney Qafqazı öz protektoratlığına götürsün. Bu təklif mahiyyətinə görə rus-türk münasibətlərini pozmaq məqsədi güdürdü.

Aralarındakı müəyyən ziddiyyətlərə baxmayaraq İngiltərə və Fransa London konfransında vahid mövqedən çıxış etdilər. Martın 3-də onlar Almaniyaya bəyannamə təqdim etdilər. Bəyannamədə Versal sülhünün şərtlərinə əməl edilməsi tələb olunurdu. Almaniya martın 7-ə qədər bu şərtləri qəbul etməyəcəyi təqdirdə müttəfiqlər Reynin sağ sahilindəki əraziləri tutmalı idilər. Göstərilən müddətə razılıq vermədiyindən müttəfiqlər Almaniyanın bir sıra ərazilərini

tutaraq ona qarşı iqtisadi sanksiya tətbiq etdilər. Vasitəçilik barədə ABŞ-a etdiyi xahişlər nəticəsiz qaldığından Almaniya geri çəkilməyə məcbur oldu.

Konfransın gedişində türklər İtaliya və Fransa ilə hərbi əməliyyatların dayandırılması və iqtisadi məsələlərin tənzimlənməsi haqqında saziş bağladılar. Lakin sonralar TBMM hökuməti Fransa ilə bağlanan sazişi təsdiq etmədiyindən Bəkir Sami istefaya getdi.

Martın 11 -də Fransa və İtaliya türklərə, İngiltərə isə yunanlara aşağıdakı şərtlərin qəbulunu təklif etdilər: müttəfiq qoşunları İstanbuldan çıxarılır; müttəfiqlərin Türkiyədəki beynəlxalq maliyyə nəzarət komissiyasında türklər iştirak edir; İzmirdə türk suverenliyi saxlanılsa da yunan qarnizonu qalır və s. Lakin həm türklər, həm də yunanlar bu şərtlərlə razı olmadıqlarından konfrans uğursuzluqla nəticələndi. Yunanlar hərbi əməliyyatları davam etdirdilər. Türklər isə ruslarla martın 16-da müqavilə imzaladılar.

1921-ci il aprelin 29-dan mayın 5-dək keçirilən ikinci London konfransında Almaniyanın təzminat ödəməsinə dair komissiyanın qərarı müzakirə edildi. Təzminatın ümumi məbləği 132 mlrd. qızıl marka müəyyənləşdirildi (1871-ci ildə Prussiya ilə müharibədə məğlub olmuş Fransa 5 mlrd. frank təzminat ödəmişdi). Müttəfiqlər Almaniyadan təzminatı ödəmək, sülh müqaviləsinin tərksilah keçirmək və müharibə canilərini təhvil vermək şərtlərini yerinə yetirməyi tələb etdilər. Ultimatumun vaxtı qurtaran kimi, 1921-ci il mayın 11-də Almaniya hökuməti bütün şərtləri qəbul etdiyini bildirdi.

London konfransında Ə.M.Topçubaşov başda olmaqla mühacirət həyatı keçirən Azərbaycan Xalq Cümhuriyyəti nümayəndə heyəti də iştirak etdi.

## Kiçik Antantanın yaradılması

Avropada gərgin beynəlxalq münasibətlər təkcə böyük dövlətlər deyil, eyni zamanda Almaniya, Çexoslovakiya, Avstriya, Polşa və Macarıstan arasında da hökm sürürdü. İngiltərə ilə Fransa

arasında Avropa, Balkanlar və Yaxın Şərqdə hegemonluq uğrunda mübarizə gedirdi. Fransa-Almaniya, İtaliya-Fransa ziddiyyətləri daha kəskin idi. Belə şəraitdə Mərkəzi və Cənub-Şərqi Avropa dövlətlərinin Almaniya iddialarına qarşı birləşdirilməsi ideyasının həyata keçirilməsini Fransa öz üzərinə götürdü. 1920-ci il avqustun 14-də Belqradda Çexoslovakiya ilə Yuqoslaviya arasında iki il müddətinə müdafiə ittifaqı, 1921-ci il aprelin 23-də isə Rumıniya ilə Çexoslovakiya arasında müttəfiqlik haqqında müqavilələr bağlandı. 1921-ci il iyunun 7-də Rumıniya və Yuqoslaviya, 1922-ci il avqustun 31-də isə Çexoslovakiya ilə Yuqoslaviya müqavilələri imzalandı. Beləliklə, Rumıniya, Çexoslovakiya və Yuqoslaviyadan ibarət Kiçik Antanta yaradıldı. Bu ittifaq başlıca olaraq məğlub dövlətlərin Avropadakı iddialarının qarşısını almaq və qitə məsələlərinin həllində Fransanın rolunu artırmaq məqsədini daşıyırdı.

## Vaşinqton konfransı

Versal sülhü və ondan sonra imzalanan müqavilələr qalib dövlətləri sakitləşdirmədi. Quruda beynəlxalq münasibətləri tənzimləyən dövlətlər sularda nüfuz dairələri uğrunda mübarizəni gücləndirdilər. Avropa işlərindən kənarda qalan ABŞ bu sahədə geriliyini aradan qaldırmaq üçün xüsusi fəallıq göstərirdi. Çünki dünya müharibəsindən qüdrətli bir dövlət kimi çıxan, müharibədən əvvəl borc alan dövlətdən müharibənin gedişində borc verən dövlətə çevrilən ABŞ-ın sularda mövqeləri kifayət qədər güclü deyildi. Avropanın bir sıra dövlətlərinə təxminən 10 mlrd. dollar borc verməsinə, bundan əlavə, həmin ölkələrə yardımlar etməsinə baxmayaraq (bütövlükdə isə ABŞ-ın Avropa ölkələrinə başqa formalarla göstərdiyi yardımların məbləği 20 mlrd. dollar idi) bu sahədə çoxlu problemlər hələ də qalırdı. Digər tərəfdən 20-ci illərin əvvəllərində Çin və Latın Amerikasında Yaponiya və Böyük Britaniya ABŞ-ı sıxışdırmaq niyyətində idilər. Lakin ABŞ İngiltərə

ilə qarşıdurmadan qaçaraq problemi həll etməkdə əməkdaşlığa üstünlük verdi. Yaponiyanın Uzaq Şərqdə, Fransanın isə Avropada hegemonluğa can atması ingilis və amerikan diplomatiyalarını yaxınlaşdırdı. Uzaq Şərqdə ABŞ-Yaponiya qarşıdurmasını və Sakit okeandakı problemləri yoluna qoymaq məqsədi ilə amerikan diplomatiyası konfrans çağırmağı təklif etdi.

1921-ci il noyabrın 12-də Vaşinqtonda açılan konfransda ABŞ, İngiltərə, Yaponiya, Fransa, İtaliya, Belçika, Hollandiya, Portuqaliya, Çin və dominionlarla birlikdə 14 dövlət iştirak edirdi. ABŞ nümayəndə heyətinin başçısı dövlət katibi Çarlz Yuz idi. İngiltərə nümayəndə heyətinə Balfur, İtaliya nümayəndə heyətinə Şançer, Yaponiya nümayəndə heyətinə Kato, Fransa nümayəndə heyətinə isə baş nazir Aristid Brian başçılıq edirdi. Konfransda müzakirə edilən Çində siyasət, silahların məhdudlaşdırılması və b. məsələləri üzrə 28 saziş, bəyanat, qətnamə və bəyannamə qəbul olundu. Müzakirələr və qəbul edilən sənədlər iştirakçı dövlətlərin mövcud problemləri həll etməkdə maraqlı olduğunu göstərdi. Konfransda "Beşlər", "Dördlər" və "Doqquzlar" müqaviləsi imzalandı.

1921-ci il dekabrın 13-də ABŞ, İngiltərə, Fransa və Yaponiya "Dörd dövlət müqaviləsi"ni imzaladılar. Müqaviləni imzalayan dövlətlər Sakit okean rayonunda bir-birilərinin hüquqlarına və mülklərinə hörmət edəcəklərini bildirərək mübahisəli məsələləri ümumi razılaşmalar yolu ilə həll etmək barədə öhdəlik götürdülər.

1922-ci il fevralın 6-da ABŞ, İngiltərə, Yaponiya, Fransa və İtaliya dəniz silahlarının məhdudlaşdırılması haqqında müqavilə imzaladılar. Bu, "Beş dövlət müqaviləsi" adlandırıldı. Müqaviləyə görə xətt donanması gəmilərinin nisbəti yuxarıdakı ölkələr üçün ardıcıllıqla müvafiq olaraq 5:5:3:1,75:1,75 kimi müəyyənləşdirildi və Sakit okeanda 110-cu meridiandan şərqə doğru hərbi-dəniz bazalarının tikintisi hüququ məhdudlaşdırıldı. Bu saziş Sakit okeanda dəniz qüvvələrinin yenidən bölüşdürülməsi məsələsini həll etdi. Beləliklə, ABŞ az dəniz donanması saxlamaq

hüququndan əl çəkərək öz qüvvələrini İngiltərə ilə bərabərləşdirirdi. Bununla belə, İngiltərə hələ də dənizdə öz üstünlüyünü qoruyub saxlayırdı.

Vaşinqton konfransı Çin məsələsinə də xüsusi diqqət yetirdi. Məlum olduğu kimi, Versal sülh müqaviləsini imzalamayan Çin hökuməti ərazisində olan alman mülklərinin ona deyil, Yaponiyaya verilməsinə narazılıq edirdi. Konfransda Çin nümayəndə heyəti həmin ərazilərin ölkəsinə qaytarılması təklifini irəli sürdü. ABŞ Çini müdafiə etdi. Nəticədə Yaponiya Sindaodan və Şandun əyalətindən əl çəkib onları Çinə qaytardı. Fevralın 6-da Vaşinqton konfransının iştirakçısı olan dövlətlər Çində siyasət haqqında müqavilə imzaladılar. Bu, "Doqquz dövlət müqaviləsi" adını aldı. Müqaviləyə görə sənədi imzalayan dövlətlər Çinin suverenliyi, müstəqilliyi, ərazi və inzibati toxunulmazlığına, bu ölkədə "açıq qapılar", bütün millətlərin ticarəti və sənayesi üçün bərabər imkanlar prinsipinə hörmət etmək barədə öhdəlik götürdülər. Ayrı-ayrı dövlətlərin Çindəki nüfuz dairələri ləğv edildi. Müqavilə Çin üçün mühüm diplomatik-siyasi və iqtisadi əhəmiyyət kəsb edirdi. Bununla Çin kənar təzyiqlərdən yaxa qurtardı və ölkəyə xarici kapital axını başlandı.

Vaşinqton konfransı sularda beynəlxalq məsələləri həll edərək Versal sülh müqaviləsini tamamladı. Lakin Paris sülh konfransında ABŞ-ı üstələyən İngiltərə və Fransa Vaşinqtonda istəklərinə tam mənasında çata bilmədilər. Bu konfransda ABŞ diplomatiyası qələbə qazandı. Vaşinqton konfransı beynəlxalq məsələlərdə ABŞ-ın rolunun artmağa başladığını göstərdi.

Beləliklə, Versal-Vaşinqton sistemi formalaşdı. Versal-Vaşinqton sistemi müharibədən sonrakı dünya quruluşunu və beynəlxalq münasibətləri tənzimləyən başlıca amil oldu. Versal və Vaşinqtonda imzalanan müqavilələr sistemi müharibə nəticəsində formalaşan qüvvələr nisbətini təsdiqlədi. Bu sistem müharibələrsiz və zorakılıqsız dövrün başlandığını bəyan etdi. Lakin müvafiq müqavilələr imzalandıqdan sonra baş verən hadisələr dünyanın

qaliblərə və məğlublara bölündüyü bir şəraitdə bu sistemin etibarlı və əbədi olmadığını göstərdi. Bəzi dövlətlərin yeni dünya qaydasına rəhbərliyə hər vasitə ilə can atmaları onların hökumətlərinin bəyan etdikləri prinsiplərin əksinə idi. Buna görə də mövcud olan dövlətlərarası ziddiyyətlər Versal-Vaşinqton sistemini zəifləndirdi. Versal sistemi ilə yeni yaranmış bir sıra dövlətlərin müstəqilliyi tanınsa da müstəmləkə zülmü hələ qalırdı. Bəzi dövlətlər milli-azadlıq hərəkatına qarşı amansız davranırdılar.

## Genuya konfransı

Versal-Vaşinqton sülh sistemi diplomatik-siyasi münasibətləri tənzimləsə də dünya təsərrüfatını və ticarətini bərpa etmədən dövlətlər arasında mövcud olan problemləri nizama salmaq xeyli çətin idi. Ona görə də Avropanın qalib dövlətləri, ilk növbədə İngiltərə və Fransa beynəlxalq iqtisadi münasibətləri həll etmək məqsədilə yollar axtarmağa başladılar. Müttəfiqlərin 1922-ci il yanvarın əvvəlində Kannda keçirilən Ali Şurasının iclasında İngiltərənin baş naziri Lloyd Corc beynəlxalq iqtisadi konfrans çağırmaq barədə təklif irəli sürdü. Yanvarın 6-da Ali Şura Lloyd Corcun təklifi ilə razılaşaraq müvafiq qətnaməni təsdiq etdi. Konfransı keçirməkdən ötrü aşağıdakı 6 şərt qəbul olundu: heç bir dövlət digər dövlətə özünün mülkiyyət sistemini, daxili iqtisadi həyatını və idarə sistemini sırıya bilməz; başqasına kredit verən dövlət öz vətəndaşlarının hüquq və əmlakının qorunmasına əmin olmalıdır; ticarəti aparmaqdan ötrü maliyyə-pul dövriyyəsini təşkil etmək lazımdır; xarici kreditlərdən istifadə etmək istəyən dövlət bütün əvvəlki borc və öhdəlikləri qəbul etməlidir; mövcud quruluşu devirmək üçün təbliğat aparılmasından imtina olunmalıdır; bütün ölkələr qonşularına hücum etməkdən qarşılıqlı şəkildə imtina etməlidirlər.

Kannda qəbul olunan qətnaməyə görə Genuyada çağırılacaq konfransda baş nazirlər iştirak etməli idilər. İngiltərə və Fransa

Almaniyadan təzminatı almağı, borclar və Yaxın Şərq məsələlərini həll etməyi vacib saydılar.

Dəvəti İtaliyanın Vaşinqtondakı səfiri vasitəsilə alan amerikan hökuməti iqtisadi deyil, əsasən siyasi xarakterli məsələlərin müzakirə olunacağını əsas gətirərək konfransda yalnız müşahidəçi sifəti ilə iştirak edəcəyini bildirdi. ABŞ-ın İtaliyadakı səfiri Çayld konfransda müşahidəçi statusu ilə iştirak etdi.

Rusiyanın konfransa dəvət edilməsi məsələsi mübahisələr yaratdı. Antanta dövlətləri Rusiyanı konfransa dəvət edərdilərsə, bu, bolşevizmi tanımaq kimi qiymətləndirilərdi. Bolşevik hökuməti konfransa çağırılmadıqda isə borcları almaq müşkülə düşəcəkdi. Nəhayət, uzun mübahisələrdən sonra Almaniya və Rusiyada mövcud olan bolşevik hökuməti tanınmadan konfransa dəvət edildilər. Sovet hökumətinin göstərişi ilə fevralın 22-də Azərbaycan, Ermənistan, Belorusiya, Buxara, Gürcüstan, Uzaq Şərq, Ukrayna və Xarəzm respublikalarının nümayəndələri konfransda mənafelərini qorumaq hüququnu Rusiya Sovet Federativ Sosialist Respublikasına (RSFSR) verməyi nəzərdə tutan protokol imzaladılar. Nümayəndə heyətinin başçısı RSFSR Xalq Xarici İşlər komissarı G.Çiçerin təyin edildi.

Genuya konfransı aprelin 10-da San-Corco sarayında 29, İngiltərənin dominionları ilə birlikdə 34 dövlətin iştirakı ilə açıldı. Konfransda İtaliyanı baş nazir Fakta, İngiltərəni baş nazir Lloyd Corc, Fransanı xarici işlər naziri Lui Bartu, Almaniyanı kansler Virt təmsil edirdi. İtaliyanın baş naziri konfransın sədri seçildi. Konfransda dörd komissiya yaradıldı: siyasi, maliyyə, iqtisadi və nəqliyyat. İqtisadi komissiyanın iclasında fransızların Almaniyaya münasibətdə irəli sürdükləri tələblər rədd edildi. Siyasi komissiyanın iclasında konkret siyasi məsələlərlə məşğul olmaqdan ötrü yarımkomissiya yaratmaq qərara alındı. Burada ekspertlərin məruzəsi əsasən iki məsələyə həsr edilmişdi: Avropa və Rusiyanın bərpası. Məruzənin 7 maddədən ibarət olan birinci fəslində aşağıdakı tələblər irəli sürüldü: bolşevik Rusiyası çar hökumətinin və Mü-

vəqqəti hökumətin maliyyə öhdəliklərini öz üzərinə götürür; bu öhdəliklərin yerinə yetirilməsini qəbul edir; bu məsələlərə baxmaqdan ötrü xüsusi olaraq Rusiya borcları komissiyası yaradılır və s.

Konfransda Böyük Britaniya nümayəndə heyəti sovet respublikalarının bolşevik işğalına məruz qalaraq "sovetləşdiyini" və zorla "sovet respublikaları"na çevrildiklərini, Rusiya nümayəndə heyəti isə bu respublikaların "müstəqil" və "müttəfiq" olduqlarını bildirdi.

Avropa dövlətləri Rusiyadan 18 mlrd. qızıl rubl borcun ödənilməsini, bolşevik nümayəndə heyəti isə birinci dünya müharibəsi, vətəndaş müharibəsi və xarici hərbi müdaxilə dövründə vurulan zərər üçün bu dövlətlərdən 30 mlrd. dollar tələb edirdi. Rusiya borcları ödəməyə aşağıdakı şərtlərlə razı idi: əlavə kredit və vaxt verilsin. Lakin Avropa dövlətlərinin düşmüş olduğu çətin maliyyə-iqtisadi vəziyyət bu tələbləri yerinə yetirməyə imkan vermirdi.

Genuya konfransının gedişində rus-alman yaxınlaşması baş verdi. Aprelin 22-də Rapalloda iki ölkə arasında imzalanan müqavilənin şərtlərinə görə hər iki tərəf hərbi xərcləri və müharibə vaxtı vurulmuş ziyanları ödəməkdən, hərbi əsirləri saxlamaq üçün ayrılan vəsaitdən imtina edirdilər; iki ölkə arasında diplomatik və konsul münasibətləri dərhal bərpa olunurdu; ticarət və təsərrüfat məsələləri əlverişli şərtlərlə tənzimlənirdi.

Rapallo müqaviləsinin Almaniya və Rusiya üçün böyük diplomatik-siyasi və iqtisadi əhəmiyyəti var idi. Konfrans iştirakçılarını heyrətləndirən müqavilə Qərb dövlətlərinin vahid mövqedən çıxış etməsini zəiflətdi. Rusiyanın diplomatik blokadaya alınmasına son qoyuldu.

Elə həmin ildə iki ölkə arasında hərbi əməkdaşlığa dair saziş imzalandı. Sazişə görə Almaniya sovet ərazisində hərbi bazalar yarada, Rusiya isə alman hərbi texnikasından istifadə edə bilərdi. Lakin bu saziş kağız üzərində qaldı.

Genuya konfransının gedişində neft məsələsi mühüm yer tutdu. Bakı nefti uğrunda mübarizə aparan ABŞ, Fransa Belçika və

İngiltərə aprel işğalı nəticəsində itirdikləri mülklərini qaytarmağa və konsessiyalar almağa çalışırdılar.

Konfransda Azərbaycan SSR-dən N.Nərimanov ümumi sovet nümayəndə heyətinin tərkibində, Ə.Topçubaşov başda olmaqla isə mühacirətdəki Azərbaycan Xalq Cümhuriyyətinin nümayəndələri iştirak etdilər. Topçubaşov işğalçı bolşevik hökuməti tərəfindən Azərbaycanın təbii sərvətlərinin paylanması cəhdinə etirazını bildirdi. Rapallo müqaviləsindən sonra Almaniya Azərbaycan SSR-ni tanıdığını bildirərək Bakıda nümayəndəlik açdı.

Konfransda iştirak üçün gələn türklərin məsələlərin müzakirəsinə buraxılmaması vəziyyəti xeyli mürəkkəbləşdirdi. Belə mövqe əslində Kiçik Asiyada sülhün bərpasına mane olurdu.

Mayın 19-da keçirilən son plenar iclasda konfransın işini Haaqada davam etdirmək barədə qətnamə qəbul olundu.

## Haaqa konfransı

Haaqa konfransı 1922-ci il iyunun 15-dən iyulun 20-dək keçirildi. Konfransda rus və qeyri-rus komissiyaları; xüsusi mülkiyyət, borclar və kredit yarımkomissiyaları yaradıldı. İyunun 27-də keçirilən kredit yarımkomissiyasının ilk iclasında sədr qərar qəbul etmək deyil, vəziyyəti öyrənmək üçün toplandıqlarını bildirdi. Borclar üzrə yarımkomissiya da belə bir nəticəyə gəldi. Xüsusi mülkiyyət yarımkomissiyasında xarici ölkə vətəndaşlarının Rusiyada olan mülklərinin qaytarılması tələb edildi. İlk növbədə neft mədənlərinə olan iddialar irəli sürüldü. Xüsusi mülkiyyətin qaytarılması tələbi və Rusiyanın buna qarşı yersiz iddiaları konfransın işini pozdu. Bu şəraitdə müzakirələrin aparılması səmərəsiz idi. İyulun 19-da sovet nümayəndə heyəti belə bir təklif irəli sürdü: müharibədən əvvəlki borcları qəbul edir və onları ödəməyə hazırdır; Rusiyada mülkiyyəti olan və konsessiyalar ala bilməyən keçmiş sahibkarların haqqını ödəyəcəkdir; iki il müddətində maraqlı şəxslərlə borcların ödənilməsi haqqında sazişə gələcəkdir. İngilislər bu təklifə tərəfdar, fransızlar isə əleyhinə

çıxdılar. Ruslar xaricilərə fərdi qaydada konsessiyalar verilməsinin mümkünlüyünü, Avropa dövlətləri isə vahid konsorsium yaradılması ideyasını irəli sürdülər. Rusların bu təklifləri əməli mahiyyət daşımaqdan uzaq olub daha çox Avropa dövlətləri arasında ixtilaflar yaratmaq və təbliğat məqsədi güdürdü. Ona görə də iyulun 20-də konfrans belə bir qətnamə qəbul etdi: Rusiyadan ayrı-ayrılıqda konsessiyalar alınması ideyası rədd edilsin. Konfransda bolşevik nümayəndə heyətinin Rusiyanın keçmiş borclarının olmasını qəbul etməsi Avropa dövlətlərini razı saldı. Bununla da konfrans öz işini başa çatdırdı. Lakin dövlətlər arasında mövcud olan maliyyə-iqtisadi məsələləri həll etmək mümkün olmadı.

## Lozanna konfransı

Bu zaman mühüm hadisələr Türkiyə ətrafında cərəyan edirdi. Milli-azadlıq mübarizəsinin gedişində ingilis-yunan işğalçıları üzərində qələbə qazanan türklər Qara dəniz boğazlarına dair konfrans çağırılmasını tələb etməyə başladılar. Avropa dövlətləri tərəfindən qəbul edilən bu təklif əsasında çağrılan Lozanna konfransı 1922-ci il noyabrın 20-dən 1923-cü il iyulun 24-dək keçirildi. Konfransda İngiltərəni lord Kerzon, Fransanı Puankare, İtaliyanı Mussolini təmsil edirdi. Bundan başqa konfransda Yaponiya, Türkiyə, Yunanıstan, Yuqoslaviya, Bolqarıstan və Rumıniya, həmçinin müşahidəçi qismində ABŞ nümayəndə heyəti iştirak edirdilər. Konfransda üç komissiya yaradıldı: ərazi və hərbi məsələlər siyasi komissiyada, xaricilərin və milli azlıqların hüquqları məsələsi hüquqi komissiyada, maliyyə və iqtisadi məsələlər isə iqtisadi komissiyada müzakirə olundu.

İsmət İnönü başda olmaqla türk nümayəndə heyəti Türkiyənin sərhədlərinin 1913-cü ildəki vəziyyətdə qurulmasını tələb etdi. Bunun əksinə olaraq ingilislər Türkiyəyə Avropada daha az ərazi saxlamağa çalışırdılar.

Konfransda Mosul məsələsi də müzakirə edildi. 1909-cu

ilədək sultan mülkiyyəti olan həmin ərazi gənc türklər inqilabından sonra müsadirə olundu. Osmanlı dövləti birinci dünya müharibəsində məğlub olduqdan sonra türk sultanı Mosulu Əbdülhəmidin varislərinə qaytardı. Varislər də öz növbəsində hüquqlarını amerikan kompaniyalarına verdilər. Türkiyənin başqasına vermək istəmədiyi Mosul təkcə zəngin neft rayonu deyil, həmçinin coğrafi mövqeyinə görə Kürdüstanın açarı idi. İngiltərə ona ya özü sahib olmağa, ya da Millətlər Cəmiyyətinin müzakirəsinə verməyə çalışırdı. ABŞ bu rayonda ziddiyyətləri yumşaltmaq məqsədi ilə İngiltərə, Fransa və İtaliyanın üstünlüyünə qarşı çıxaraq bütün dövlətlər üçün "açıq qapılar" prinsipinin həyata keçirilməsini irəli sürürdü.

Konfransda boğazlar haqqında məsələ də müzakirə olundu. Türk diplomatiyası həm boğazlarda, həm də digər Türkiyə ərazilərində işğal rejiminin ləğv olunmasını israr edirdi.

1923-cü il yanvarın 31-də Lord Kerzon İngiltərə, Fransa və İtaliya adından boğazlara dair saziş layihəsini türklərə təqdim edərək cavab üçün 5 günlük möhlət verdi. Türklər buna cavab olaraq aşağıdakı şərtləri irəli sürdülər: Türkiyənin dövlət müstəqilliyi və suverenliyi təmin edilsin; Sevr müqaviləsi və işğal rejimi ləğv edilsin; başlıca türk əraziləri saxlanılsın və b.

Fevralın 4-də ultimatiumun vaxtı qurtardı. Türk nümayəndə heyəti ultimatiumu qəbul etmədi. Nəticədə Böyük Britaniya nümayəndə heyəti konfransı uğursuz tərk etdi. Lozanna konfransının işi pozuldu.

Bundan sonra İtaliya və Fransa Türkiyə ilə yaxınlaşdılar. 1923-cü il aprelin 9-da Lozanna konfransı öz işinə yenidən başladı. Yunanlar türklərdən, türklər isə müttəfiqlərdən vurulan ziyana görə təzminat tələb edirdilər. İngiltərə belə kəskin vəziyyəti görüb aşağıdakı kompromis variantı irəli sürdü: Türkiyə təzminat tələbindən əl çəkir, əvəzində Qarağac və ətraf əraziləri alır. Türklər təzminat almaqdan imtina edərək güzəştə getdiklərini bildirdilər.

1923-cü il iyulun 24-də səkkiz aylıq müzakirələrdən sonra Lo-

zanna protokolu imzalandı. Protokola görə Türkiyə Ərəbistan, Sudan, Tripolitaniya, Mesopotamiya, Fələstin, Suriya və bir sıra başqa ərazilərini itirdi, Kıbrısı Böyük Britaniyaya, Dodekanes adalarını İtaliyaya, Egey dənizindəki bir sıra adaları Yunanıstana güzəştə getdi. Bununla belə, Türkiyə başlıca türk ərazilərini özündə saxladı. İzmir, Ədirnə ilə birlikdə Şərqi Frakiya, Dardanelin Avropa sahilləri, Qallipoli yarımadası və b. ərazilər Türkiyəyə qaytarıldı. Türkiyənin yeni sərhədləri beynəlxalq birlik tərəfindən tanındı.

Mosul məsələsi doqquz ay müddətində İngiltərə ilə Türkiyə arasında bilavasitə ikitərəfli münasibətlərdə müzakirə edilməli idi. Əgər onlar razılığa gəlməsəydilər, məsələ Millətlər Cəmiyyətinin müzakirəsinə veriləcəkdi. Lozanna protokoluna əsasən Türkiyədə işğal rejimi, beynəlxalq maliyyə nəzarəti və türk ordusu üzərindəki məhdudiyyətlər ləğv edilirdi. Qara dəniz dövlətlərinin ticarət və hərb gəmiləri dinc və müharibə vaxtı boğazlardan sərbəst şəkildə keçə bilərdilər; Bosfor və Dardanel boğazları hərbsizləşdirilirdi; İstanbulda türk nümayəndəsinin sədrliyi altında beynəlxalq boğazlar komissiyası təsis edilirdi; onun tərkibinə Fransa, İngiltərə, İtaliya, Yaponiya, Bolqarıstan, Yunanıstan, Rumıniya, Rusiya, Yuqoslaviya və Türkiyə daxil olurdular.

Konfransın qərarlarına görə yunanlar İstanbuldan başqa bütün türk ərazilərindən çıxarılmalı idilər. Ermənilərin Türkiyə ərazisində Ermənistan yaratmaq planları boşa çıxdı. Onlar öz istəklərinə nail ola bilmədilər. Türkiyə ərazisində Antanta dövlətlərinin əlinə keçən Almaniya, Avstriya və Macarıstan vətəndaşlarının mülkləri xüsusi müqavilə bağlananadək müttəfiqlərdə saxlanılırdı.

Lozanna protokolunu bir tərəfdən İngiltərə, Fransa, İtaliya, Yaponiya, Yunanıstan, Rumıniya, Yuqoslaviya, digər tərəfdən isə Türkiyə imzaladı. Sənəd imzalanan gün Belçika və Portuqaliya da ona qoşuldular. Beləliklə, türk diplomatiyasının qələbəsi olan Lozanna konvensiyası regiondakı qüvvələr nisbətini tənzimlədi və mövcud ziddiyyətləri yumşaltdı.

## Rur münaqişəsi

Təzminat məsələsinin həll edilməsindəki çətinliklər beynəlxalq münasibətlərdə ən mübahisəli problemlərdən biri olaraq qalırdı. Fransa təzminatın tam ödənilməsini israrla tələb etsə də Almaniya buna imkanı olmadığını bildirirdi. Bu zaman təzminatın ödənilməsi məsələsində Almaniyada əsasən iki xətt var idi: təzminatı ödəməyin tərəfdarları və təzminatı ödəməməyin tərəfdarları.

Fransanın çətin maliyyə və iqtisadi vəziyyətində fransız rəsmi dairələri Rurun sərvətlərindən istifadə etmək qərarına gəldilər. Fransız diplomatiyası Almaniyanı təzminatı ödəməməkdə və Versal sülh müqaviləsinin şərtlərini pozmaqda təqsirləndirirdi. İngiltərə isə Fransanın Avropada güclənməsinə mane olurdu. Bu dövrdə İtaliyada hakimiyyətə gələn B.Mussolini hökuməti isə Rur məsələsində Fransanı müdafiə edirdi. 1923-cü il yanvarın 2-4-də Parisdə keçirilən konfransda İngiltərə dörd il müddətində Almaniyanın təzminat ödəməsinə moratorium qoyulması təklifini irəli sürsə də Fransa buna etiraz etdi. Yanvarın 10-da Fransa və Belçika Almaniyaya nota verərək təzminatın ödənilməsinə nəzarət etmək üçün Rura komissiya göndərdiklərini bildirdilər. Bunun ardınca yanvarın 11-də Fransa-Belçika orduları Ruru tutdular. İngiltərə işğala loyal münasibət bəsləyərək bu münaqişədə Fransa və Almaniyanın qarşılıqlı olaraq zəifləyəcəklərinə ümid edirdi.

Almaniya Rurun işğalına qarşı çıxdı. Reyxstaqda passiv müqavimət göstərmək haqqında qərar qəbul olundu. Rurun işğalı ilə Almaniya daş kömür, dəmir və çuqundan məhrum edildi. Ölkədə ağır vəziyyət yarandı. Millətçilik gücləndi. Almaniyanı bürüyən inqilabi böhran tezliklə silahlı üsyana çevrildi.

Fransa da bu işğalla öz istədiyinə çata bilmədi. Alman fəhlələrinin passiv müqavimət göstərməsi nəticəsində Fransaya daş kömür göndərilmədi. Bunun əvəzində Almaniyada ictimai rəy Fransanın əleyhinə daha da gücləndi. Rur avantürası Fransanın Avropada he-

gemonluq iddialarını iflasa uğratdı. Avropada baş verən bu münaqişəyə İngiltərənin müdaxiləsini tələb edən çağırışlar eşidilməyə başladı. 1923-cü il mayın 2-də Almaniya nota verərək təzminat məsələsini müvafiq komissiyanın müzakirəsinə verməyi tələb etdi.

Beləliklə, 1922-1923-cü illərdə Avropada baş verən münaqişələr və Rurun işğalı beynəlxalq münasibətlərdə yeni mühit formalaşdırdı. Müharibədən sonrakı tənzimləmə prinsiplərinə təzədən baxmaq, təhlükəsizlik və əməkdaşlıq sistemi yaratmaq zərurəti meydana çıxdı. ABŞ Almaniyaya yardım göstərilməsi təklifləri ilə çıxış etdi.

# II BÖLÜM

## ALMANİYA

### Birinci dünya müharibəsinin Almaniya üçün sosial-iqtisadi nəticələri

Birinci dünya müharibəsindəki hərbi uğursuzluqlar ölkədə sosial-iqtisadi vəziyyəti kəskinləşdirdi. Müharibənin davam etdirilməsinin perspektivsiz olduğu artıq aydın görünürdü. Ölkənin ağır sosial-iqtisadi vəziyyəti siyasi hakimiyyətə də təsir göstərdi. İmperator II Vilhelm E.Lüdendorfu istefaya göndərdi. 1918-ci il oktyabrın 5-də sosial-demokrat Maks Badenski hökuməti yaradıldı. O, siyasi sistemin islahatını, hökumətin reyxstaq qarşısında məsuliyyət daşımaq, ali dövlət və hökumət vəzifələrinə şəxslərin təyin olunmasında icra strukturlarının rolunu azaltmaq və geniş sosial tədbirlər həyata keçirmək niyyəti barədə məlumat verdi. İmperator II Vilhelmin qohumu olan M.Badenskinin əsas vəzifəsi Almaniya üçün minimum əlverişli sülh bağlamaq və ölkədə inqilabi partlayışın qarşısını almaq idi. Onun hökuməti qurulmamışdan əvvəl Almaniyanın sülh bağlamaq təklifini ABŞ qəbul etməmişdi. Tezliklə məlum oldu ki, M.Badenski imperatorun özünü hakimiyyətdən uzaqlaşdırmaq yolu ilə qalib dövlətlərlə münasibətləri tənzimləmək istəyir.

Oktyabrın sonunda Almaniya silahlı qüvvələrinin komandanlığı ingilislərlə qeyri-bərabər dəniz döyüşünə girmək barədə əmr verdi. Lakin ruhdan düşən, məğlubiyyətlə artıq barışan və keyfiyyətsiz ərzaqdan narazı qalan əsgər və matroslar döyüşməkdən imtina edərək noyabrın 3-də liman şəhəri olan Kildə üsyana başladılar. Üsyançılar şəhəri ələ keçirərək Almaniyada ilk dəfə olaraq Fəhlə, matros və əsgər deputatları sovetini yaratdılar. Kildəki hadisələr Almaniyada inqilabın başlanğıcı oldu. Bunun ardınca Hamburq, Bremen, Lyübek, Hannover, Leypsiq, Ştutqart,

Köln, Münhen və b. şəhərlərdə də üsyanlar baş verdi. Üsyançılar köhnə hakimiyyəti devirib Fəhlə, matros və əsgər deputatları sovetləri yaratdılar. Ölkəni inqilab bürüdü. Başlanan inqilab dörd mərhələdən keçdi: 3-9 noyabr; 10 noyabr - dekabrın ortaları; dekabrın ortaları - 1919-cu il fevral; 1919-cu il fevral - may.

Belə şəraitdə imperatorun devrildiyini elan edən Maks Badenskinin özü də istefaya çıxdı. Müəssislər Məclisi çağırılana qədər hökumətin başçısı sosial-demokratların nümayəndəsi Fridrix Ebert oldu. Almaniya Sosial-Demokrat Partiyası ilə Almaniya Müstəqil Sosial-Demokrat Partiyası müvəqqəti koalisiyalı hökumət yaratdılar. Yüksək hərbi dairələr bu hökuməti müdafiə etdilər. II Vilhelm Hollandiyaya qaçdı. İnqilab nəticəsində noyabrın 9-da Almaniyada monarxiya devrildi. 1918-ci il noyabrın 10-da Berlin Fəhlə və əsgər deputatları sovetinin iclası toplandı. Sovetdə üstünlüyü sağ sosial-demokratlar və mərkəzçilər təşkil edirdilər. Sovet Ebertin Xalq Müvəkkilləri Şurası adlı müvəqqəti hökumətinin yaradılmasını bəyəndi. Hökumətin tərkibinə sağ sosial-demokratlar Şeydeman, Landsberq, müstəqillər Haaze, Ditman, Bart və bəzi keçmiş nazirlər daxil oldular. Alman fəhlələrinin əksəriyyəti Ebert hökumətini fəhlə və sosialist hökuməti hesab edirdi. Ebertin özü Almaniyanı sosial dövlət adlandırdı.

Ebert hökuməti bir sıra daxili problemlərin həllinə girişərək mühasirə vəziyyətini ləğv, söz, mətbuat, yığıncaq azadlığını bərpa, siyasi dustaqları əfv, 8 saatlıq iş gününü tətbiq etdi və işsizlərə yardım göstərdi. Müharibə dövründə tətbiq edilən bir sıra konstitusiya məhdudiyyətləri aradan qaldırıldı. Sənaye mülki relsə keçirildi. Xalq Müvəkkilləri Şurasının qəbul etdiyi "İş əməkdaşlığı haqqında saziş"ə əsasən həmkarlar ittifaqlarının leqal fəaliyyət göstərməsinə və kollektiv müqavilələrin bağlanmasına icazə verildi.

Daxili siyasət sahəsində Ebert hökumətinin qarşısında duran başlıca vəzifə Müəssislər Məclisinə seçkiləri hazırlamaq idi.

Xarici siyasət sahəsində hökumətin əsas məqsədi ölkəni

müharibədən çıxarmaq idi. Bu məqsədlə o bir sıra addımlar atdı. Ebert hökuməti noyabrın 11-də Kompyen meşəsində qalib dövlətlərlə barışıq sazişini imzaladı.

Bu dövrdə Almaniyanın ictimai-siyasi həyatında milli şuraların yoxsa sovetlərin yaradılması sualına cavab vermək qarşıda dururdu. Ölkənin düşmüş olduğu ağır şəraitdə sol partiyaların fəaliyyəti gücləndi. Onlar alternativ olaraq Fəhlə deputatları sovetləri və qvardiya dəstələri yaradıb, 1918-ci il dekabrın 16-21-də Berlində Birinci ümumalman fəhlə və əsgər deputatları sovetlərinin qurultayını keçirdilər. İnqilabın nəticələrinə yekun vuran Birinci ümumalman qurultayı mahiyyətinə görə siyasi hakimiyyət uğrunda mübarizənin bir forması idi. Qurultayda müxtəlif siyasi qruplar arasında mübarizə kəskinləşdi. Çoxluq təşkil edən sağ mərkəzçilər Ebert hökumətinin saxlanılmasına səs verdilər. Qurultayda Müəssislər Məclisinə seçkilər təyin edildi. Bu, əslində sovetlərin ləğvi demək idi.

Hökumətin əleyhinə çıxan kommunistlərdən ibarət "Spartak ittifaqı" 1918-ci il dekabrın 30-dan 1919-cu il yanvarın 1-dək Berlində Almaniya Kommunist Partiyasının təsis qurultayını keçirdi. Qurultayda qəbul edilən partiya proqramında alman fəhlə sinfinin başlıca vəzifəsi olaraq sovetlər uğrunda mübarizə aparmaq göstərildi. Lakin proqram səhvlərsiz də deyildi. Müəssislər Məclisinə keçirilən seçkiləri baykot etmək barədə qurultayın qərarı səhv idi.

1919-cu ilin yanvar ayının əvvəllərində Berlində keçirilən fəhlə nümayişlərini hökumət darmadağın etdi. Yanvarın 15-də kommunistlərin liderləri K.Libknext və R.Lüksemburq öldürüldülər.

1919-cu il yanvarın 19-da Müəssislər Məclisinə seçkilər keçirildi. Ümumi, birbaşa və gizli keçirilən seçkidə seçicilərin 83%-inin iştirak etməsi alman cəmiyyətində yüksək siyasi fəallığı göstərdi. Müəssislər Məclisinin sağ qanadını Alman Xalq Partiyası və Alman Milli Xalq Partiyası təşkil edirdi. Bu partiyaların hər biri 44 deputat yeri qazandı. Sağ respublikaçı yönümlü olan AXP-nin

rəhbəri Qustav Ştrezeman idi. Güclü milli dövlət ideyasına əsaslanan bu partiyanın proqramı liberal siyasi və iqtisadi islahatların əleyhinə idi. Protestant dairələr də AXP-ni müdafiə edirdilər.

AMXP-nin rəhbəri Alfred Huqenberq idi. Partiyanın sıralarında əsasən millətçilər və mühafizəkarlar toplanmışdılar.

Aralarında mövcud olan ziddiyyətlər ucbatından vahid blok yarada bilməyən sol partiyalar-Almaniya Sosial-Demokrat Partiyası və Almaniya Müstəqil Sosial-Demokrat Partiyası müvafiq olaraq 163 və 22 mandat qazandılar. ASDP-nin potensial müttəfiqi sayılan Alman Demokrat Partiyasının Müəssislər Məclisində 75 yeri var idi. Bu partiyaya Fridrix Nauman və Valter Ratenau başçılıq edirdilər. Mərkəz Partiyası 73 yer qazandı. 1919-cu ildə M.Şpann və E.Ştadler başda olmaqla bir qrup bu partiyadan ayrılaraq "Milli sosial həmrəylik birliyi" yaratdılar. Ayrılan digər bir qrupun əsasında Bavariya Xalq Partiyası yaradıldı. BXP seçkilərdə 18 deputat yeri qazandı. Kommunist Partiyası isə seçkiləri baykot etdi.

1919-cu il fevralın 6-da Müəssislər Məclisi öz işinə başladı. Sinfi mübarizəni inkar edən sağ sosial-demokratların və reformistlərin nəzarətində olan sovetlər öz səlahiyyətlərini Müəssislər Məclisinə verdi. Müəssislər Məclisi F.Eberti fevralın 11-də respublikanın ilk prezidenti seçdi (1918-1925). Koalisiyalı hökumətin başçısı isə fevralın 13-də F.Şeydeman oldu. Hərbi nazir vəzifəsinə Noske təyin edildi. Beləliklə, hakimiyyətə ASDP, Mərkəz və ADP partiyalarının yaratdıqları "Veymar koalisiyası" gəldi. Bundan sonrada da ölkədə fəhlələrin mübarizəsi dayanmadı. Onların yaratdıqları Bremen Sovet Respublikası yalnız üç həftə yaşadı. Rur və Berlində də silahlı toqquşmalar oldu. 1919-cu il aprelin 13-dən mayın 1-dək Bavariyada Yevgeni Levinenin başçılığı ilə yaradılan Bavariya Sovet Respublikası məğlubiyyətə uğradı. Levine güllələndi.

1919-cu il iyunun 28-də Versalda qalib dövlətlər Almaniya ilə sülh müqaviləsini bağladılar. Müqaviləni Almaniya tərəfindən xa-

rici işlər naziri Rantçau imzaladı.

Birinci dünya mübaribəsi ölkənin sosial-iqtisadi həyatına ağır təsir etdi. Almaniya müharibəyə 150 mlrd. marka xərclədi. Ölkənin xammal və yanacaq ehtiyatları tükəndi. Müharibədə hərbi-siyasi cəhətdən məğlub olan Almaniya eyni zamanda böyük insan itkisinə də məruz qaldı. 2 mln. nəfər öldü, 4,5 mln. nəfər yaralandı, 1 mln. nəfər əsir düşdü. Müharibədə ölənlərin 80 min nəfəri yalnız dənizçi idi. Almaniya əhalisinin 1/10-ni itirdi.

Ölkənin sənaye sahələri dağıldı və kənd təsərrüfatı bərbad hala düşdü. Taxıl və kartof istehsalı 15-18%, iribuynuzlu mal-qara isə 11% azaldı. Vergilər 5 dəfə artdı, iş günü 12-14 saata çatdı. Aclıq, xəstəlik və işsizlik ölkəni bürüdü. Maliyyə sistemi pozuldu.

Almaniya müharibə nəticəsində ərazisinin 1/8 hissəsini və ya 73,6 min kv. km-ni (bütün ərazisinin 13%-ni) itirdi. Versal sülh müqaviləsinin şərtlərinə görə Almaniya Elzas, Lotaringiya və Polşa ərazilərini geri qaytardı. Dansiq (Qdansk) azad şəhərə çevrildi. Reynin sol sahili 15 il müddətinə Antanta ölkələri tərəfindən tutuldu, çayın hər iki sahilində 50 km-lik ərazi hərbsizləşdirilmiş zona elan edildi. Saar vilayəti 15 il müddətinə Millətlər Cəmiyyətinin idarəçiliyi altına keçdi. Saarın daş kömür şaxtaları Fransaya, Eypen, Malmedi və Morena dairələri isə Belçikaya verildi.

Versal sülh müqaviləsinin hərbi müddəaları daha ağır idi. Buna görə Almaniya əsasən könüllülərdən ibarət 100 min nəfərlik quru qoşunları saxlaya bilərdi. Əsgərlər və unter zabitlər 12 il, zabitlər isə 45 il qulluq etməli idilər. Orduda zabitlərin sayı 4 min nəfərdən çox olmamalı idi. Silah və sursat istehsalı qadağan edildi. Almaniya ağır artilleriya, tank, hərbi aviasiya, sualtı donanma və hərbi-dəniz aviasiyası saxlaya bilməzdi. Almaniyanın hərbi-dəniz donanması 6 zirehli orta gəmi və bir neçə xırda gəmi ilə məhdudlaşdırıldı.

Ölkənin bütün hərbi və ticarət donanması, paravoz və vaqonlarının bir qismi Antanta ölkələrinin sərəncamına verildi. Almani-

yanın limanları və hava sahəsi Antanta ölkələri üçün açıq elan edildi. Müharibədə məğlub olan ölkə üçün belə bir sülh müqaviləsi fəlakətli olsa da Almaniya onu təsdiq etdi. Versal sülh müqaviləsinin şərtləri ölkədə sabitsizliyin başlıca mənbəyi oldu.

## Veymar konstitusiyası

1919-cu il iyulun 31-də Müəssislər Məclisi iclaslarını keçirdiyi yerin adına uyğun olaraq Veymar konstitusiyasını qəbul etdi. Konstitusiya avqustun 11-də qüvvəyə mindi. Ölkədə monarxiya quruluşu ləğv edildi. Yeni dövlət quruluşu yaradıldı. Konstitusiyaya görə Almaniya federativ quruluşlu, prezidentli və parlamentli respublika oldu. Konstitusiya yaradıcıları ölkənin əsas qanununu hazırlayarkən Fransa və İngiltərənin təcrübəsini nəzərə aldılar. Ölkədə qanunverici hakimiyyət parlamentə məxsus idi. Parlamentin yuxarı palatası reyxsrat (İmperiya Şurası) adlandırıldı. Reyxsratın yalnız veto qoymaq, referendum və konstitusiya dəyişikliklərində iştirak etmək hüququ var idi. Onun tərkibinə əhalinin sayına uyğun olaraq torpaq landtaqlarının nümayəndələri daxil edilirdi. Parlamentin aşağı palatası reyxstaq adlandırıldı. Reyxstaqın 68 nəfər üzvündən 27-i prezident tərəfindən təyin olunurdu. O, qanunverici prosesə nəzarət edirdi. Parlament ümumi seçki yolu ilə 4 ildən bir seçilirdi. Seçib-seçilmək hüququ 20 yaş müəyyənləşdirildi. Konstitusiyada reyxstaqa geniş səlahiyyətlər verildi. Bu səlahiyyətlərə xarici ölkələrlə əlaqələr saxlamaq, müstəmləkə məsələləri, mühacirət, müdafiə, nəşr, ittifaqlar yaratmaq, bank, ticarət, dəmiryolları, sənaye, sosial təminat, vətəndaş azadlıqları və s. daxil idi.

Konstitusiyaya görə 7 ildən bir ümumxalq səsverməsi ilə seçilən dövlət başçısı olan prezidentə geniş səlahiyyətlər verildi. O, beynəlxalq aləmdə ölkəni təmsil edirdi. Prezident parlamenti buraxa və qanunları ləğv edə bilərdi. Konstitusiyanın 48-ci maddəsi ilə prezidentə ölkədə fövqəladə vəziyyət tətbiq etmək səlahiyyəti verildi. Prezident partiyaların fövqündə duraraq

respublika quruluşunun və imperiyanın bütövlüyünün təminatçısı oldu. Onun hökumətin başçısını təyin etmək və vəzifədən çıxarmaq səlahiyyəti var idi. Prezident eyni zamanda ölkənin silahlı qüvvələrinin ali baş komandanı vəzifəsini daşıyırdı.

Almaniya 18 torpaqdan ibarət oldu. Hər bir torpağın konstitusiyası və hökuməti yaradılırdı. Veymar konstitusiyası yerli qanunverici orqanlar olan landtaqları da formalaşdırdı.

Konstitusiya vətəndaşlara geniş hüquqlar verdi. Veymar konstitusiyasında şəxsiyyətin hüquq və azadlıqları, ictimai, sosial-iqtisadi məsələlər təsbit edildi. Qadın və kişilər, başqa dilli əhali, milli azlıqlar qanun qarşısında bərabər elan olundular. Şəxsiyyətin toxunulmazlığı, mənzil hüququ, yazışmaların məxfiliyi, söz, mətbuat, fəaliyyət azadlığı və cəmiyyələr yaratmaq hüququ verildi. Kilsə dövlətdən ayrıldı. İcbari təhsil tətbiq olundu.

Veymar konstitusiyası sosial istiqamətli, yeni tipli demokratik dövlət konstitusiyası idi. Konstitusiyanın yaradılması ilə klassik liberal konstitusiya modelindən xeyli irəli gedildi.

## Almaniya 20-ci illərdə

Versal sülh müqaviləsinin imzalanmasına baxmayaraq Almaniyanın iri inhisarları onun şərtlərinin yerinə yetirilməsinə etiraz etdilər. Stinnes, Virt, Tissen və başqaları Versal sülh müqaviləsi ilə barışmadılar. Onun şərtlərinin ləğv edilməsi uğrunda mübarizə ideyası sosial vəziyyətindən asılı olmayaraq demək olar ki, bütün ölkə vətəndaşları arasında geniş yayıldı. Narazılıq ölkəni bürüdü. Milliyyətçilik gücləndi. Yeni ictimai-siyasi təşkilatlar yarandı. E.Ştadlerin nəzarətində olan Alman Fəhlə Partiyası Münhen dəmiryol ustası Anton Drekslerin rəhbərliyi altında bu sahədə daha ciddi fəaliyyət göstərirdi. 1919-cu ildə bu partiya Nasional-Sosialist Demokrat-Fəhlə Partyiasına çevrildi. Az sonra partiyanın rəhbəri Adolf Hitler Şklqruber (1889-cu il 20 aprel - 1945-ci il 30 aprel) oldu. A.Hitler Avstriyanın Braunau şəhərində kömrük qulluqçusu

ailəsində anadan olmuşdu. Onun şəxsiyyətinin formalaşmasına ailədəki gərgin mühit, atası ilə kəskin münaqişə, anasının ölümündən sonra yoxsul yaşaması və s. təsir etmişdi. Hitler məktəbi bitirməmiş və ali təhsil almamışdı. O, müharibədə yefreytor olmuş, müharibə başa çatdıqdan sonra isə Münhen polisində işləmişdi.

Stinnes, Ştadler və başqalarının maliyyələşdirdiyi bu partiyanın proqramı 1920-ci ildə qəbul edildi. Proqramda kapitalın bölüşdürülməsində fəhlələrin iştirakı, kəndlilərə torpaq verilməsi və s. vədlər əksini tapdı. Qatı millətçilik və şovinizm ruhunda yazılmış bu proqramda "Böyük Almaniya" yaradılması ideyası irəli sürüldü. Partiya tezliklə xalq kütlələri tərəfindən rəğbətlə qarşılandı. Sonralar, 1921-ci ildə partiyanın üzvü olan kapitan Ernest Rem hücum dəstələri (SA) yaratdı. Nasional-sosialistlər "Felkişer Beobaxter" (Xalq nəzarətçisi) qəzetini satın aldılar. Bütün bunlarla yanaşı partiyanın başlıca silahı Hitlerin dühası hesab edilirdi.

1919-cu ilin iyul ayından 1920-ci ilin martınadək Almaniyada hökumətə sosial-demokratların nümayəndəsi Qustav Bauer başçılıq etdi. Bauer hökumətinin Versal sülh müqaviləsinin şərtlərini yerinə yetirməyə başlaması ölkədə mövcud olan ağır sosial-iqtisadi vəziyyəti daha da dərinləşdirdi. Dövlət borcu artdı. Dövlət borcu əgər 1918-ci ildə 50 mlrd. marka idisə, 1919-cu ildə 86 mlrd. marka, 1920-ci ildə isə 153 mlrd. marka oldu. Markanın alıcılıq qabiliyyəti aşağı düşdü. Ölkəni inflyasiya bürüdü. Xaricə kapital çıxarılması çoxaldı. Hökumətin siyasəti və Versal sülhünün şərtlərinin yerinə yetirilməsindən narazılıq gücləndi. Təkcə mühafizəkar və millətçi partiyalar deyil, həmçinin inhisarlar da hökumətin siyasətinə qarşı birləşdilər. Nəticədə Almaniyada böhran yarandı.

Sənaye və bank dairələri, həmçinin generalitetlə yaxın əlaqələri olan iri mülkədar Kapp qiyamın başında durdu. Qiyamın rəhbərlərindən biri dünya müharibəsində Birinci ordu qrupunun komandanı general Lyütviç idi. Qiyamçıların arxasında sülh müqaviləsinin şərtlərindən ziyan çəkmiş iri sənaye sahibkarları

olan Stinnes, Krupp, Huqenberq və başqaları dururdu. Onlara maliyyə yardımını "Döyçe bank", "Drezdener bank" və başqaları edirdi. Qiyamın əsas hərbi qüvvəsi 1919-cu ilin yayında yaradılmış "milli birlik" dəstələri idi. Qiyamın siyasi qüvvəsini "Lüdendorf çevrəsi" təşkil edirdi. Bu çevrəyə reyxsverin nümayəndələri, Alman Vətən Partiyası, xalq qrupları, E.Ştadler başda olmaqla həmrəyçilər, alman ordeni və b. daxil idilər. Bu siyasi qüvvələr ölkədə yaranmış ağır sosial-iqtisadi vəziyyəti, xalqın qisasçılıq əhval-ruhiyyəsi və monarxiyanı bərpa etmək istəklərindən istifadə edərək açıq silahlı çıxış yolu tutdular. Qiyamçılar general Lyütviç başda olmaqla 1920-ci il martın 10-da prezident Ebertə aşağıdakı məzmunda ultimatum verdilər: Milli Məclis buraxılsın, yeni prezident seçkiləri keçirilsin, reyxsverin ixtisarından imtina edilsin və hərbi canilər Antanta ölkələrinə verilməsin. Ebert hərbçilərin ultimatumunu rədd etdi. Bundan qəzəblənən qiyamçılar könüllü dəstələrin köməyi ilə martın 11-13-də hökumət binalarını tutdular. Prezident və hökumət Berlindən əvvəlcə Drezdenə, sonra isə Ştutqarta qaçdı. Yeni kansler Kapp, hərbi nazir isə Lyütviç oldu. Ölkədə mühasirə vəziyyəti elan edildi. Veymar konstitusiyası ləğv olundu və müxalifət qəzetləri bağlandı.

Qanuni hökumət qiyam əleyhinə qəti mübarizə apara bilməyərək yalnız həmkarlar ittifaqlarını tətilə çağırdı. Hökumətin çağırışına həmrəy olan Berlin bankları qiyamçılara pul buraxmadılar. Ordu da qiyamı müdafiə etmədi. Yeni ali baş komandan general fon Sekt ordunu daxili mübahisə və münaqişəyə qatmadı. Sağ mərkəzçi partiyalar da qiyamın müdafiəsinə qalxmadılar. Belə vəziyyət proseslərin gedişinə öz təsirini etdi. Xalq Veymar respublikasının müdafiəsinə qalxdı. Ölkədə 12 mln. adamın iştirakı ilə keçirilən mitinqlər öz bəhrəsini verdi. Xalq hökuməti müdafiə etdi. Böyük dövlətlər də qiyamın əleyhinə çıxdılar. Belə şəraitdə könüllü olaraq bütün səlahiyyətləri öz üzərindən atıb siyasi fəaliyyətdən uzaqlaşan Kapp martın 17-də İsveçrəyə getdi. Prezident Ebert və hökumət paytaxta qayıtdılar. Konstitusiya quruluşu bərpa edildi.

Ebert özünü gözdən salan Bauer hökumətini istefaya göndərdi. Onun əvəzinə kansler vəzifəsinə Sosial-Demokrat Partiyasının nümayəndəsi German Müller gətirildi. Lakin 1920-ci il iyunun 6-da reyxstaqa keçirilən seçkilərdə sosial-demokratlar mövqelərini itirdilər. Sağ partiyalar isə öz mövqelərini xeyli gücləndirdilər. Seçkilərdə AMSDP 84, Alman Milli Xalq Partiyası 71, Katolik-Mərkəz Partiyası 64, ADP 39, kommunistlər isə ilk dəfə olaraq 4 mandat aldılar. Reyxstaqda yeni qüvvələr nisbətinin yaranması "Veymar koalisiyası"nın süqutuna gətirib çıxardı. Yeni hökuməti Alman Milli Xalq Partiyası, Alman Demokrat Partiyası və Katolik-Mərkəz Partiyası formalaşdırdı. İyunun 21-də Mərkəz Partiyasının lideri K.Ferenbax kansler oldu. Ölkədəki bütün könüllü hərbi dəstələr qadağan edildi. Yalnız Bavariyada belə dəstələr saxlanıldı. Qatı millətçilər silahlı dəstələri ləğv etməyərək ağackəsən və idmançı adı altında Almaniya kəndlərində yerləşdirdilər.

Ferenbax hökuməti kömrük siyasətini ciddiləşdirdi. Lakin iqtisadi vəziyyət yenə də düzəlmədi. Dövlət büdcəsinin kəsiri 70 mlrd. marka, nominal və real əmək haqqı arasında fərq isə 50% təşkil etdi. Ölkəni narazılıq bürüdü. Siyasi böhran yarandığından Ferenbax da hakimiyyətdə çox az qaldı. O, 1921-ci ilin may ayında istefaya getməyə məcbur oldu.

1921-ci ildə Mərkəz Partiyasının nümayəndəsi İ.Virtin qurduğu hökumətin əsas vəzifəsi Almaniyanın iqtisadi və maliyyə vəziyyətini düzəltmək, böyük dövlətlərlə normal münasibətlər yaratmaq idi. Hökumət markanın kursunu sabitləşdirmək məqsədilə ölkənin qızıl ehtiyatını satmağa başladı. Lakin iri maqnatlar ona mane olduğundan bu cəhdlər elə bir nəticə vermədi.

Qalib dövlətlərə təzminatı ödəmək məsələsində hökumətin tərkibində mübahisə və ciddi fikir ayrılıqları mövcud idi. Bu məsələdə iki xətt arasında kəskin mübarizə gedirdi. Birinci xəttin tərəfdarları təzminatın ödənilməsinin vacibliyini bildirirdilər. Təzminatı ödəməyin və qalib dövlətlərlə normal münasibətlər qurmağın tərəfdarı olan xarici işlər naziri, ADP-nin nümayəndəsi,

tanınmış sahibkar və siyasətçi Valter Ratenaunu 1922-ci il iyunun 24-də "Konsul" terrorçu təşkilatının üzvləri öldürdülər. Ümumiyyətlə, ölkədə təzminatı ödəmək xəttinin tərəfdarları xeyli az idi.

İkinci xətti təzminatın ödənilməsinin əleyhdarları təşkil edirdilər. Bu xəttin nümayəndələri olan nasional-sosialistlər, millətçilər və iri inhisarlar təzminatın ödənilməsi üzərinə moratorium qoyulmasını tələb edirdilər. Bu sahədə Stinnes və başqaları xüsusilə fəallıq göstərirdilər.

## Münhen qiyamı

1921-ci il mayın 11-də reyxstaq təzminatın ödənilməsinə dair London konfransında verilən ultimatumu qəbul etdi. Birinci təzminat 3 ay sonra ödənilməli idi. Lakin Reyxsbankda bu qədər pul olmadığı üçün hökumətin dünya birjalarından 50 mlrd. marka alması ölkədə inflyasiyanı dərinləşdirdi. Təzminatın yubadılaraq ödənilməsindən ən çox narazı olan Fransa yeni işğalçılıq planlarına əl atdı. 1923-cü il yanvarın 11-də Fransa və Belçika qoşunları Almaniyada daş kömürün 90%-ni, çuqunun isə 70%-ni verən Rur hövzəsi və Reyn vilayətini işğal etdilər. Lakin Rurun işğalı Fransaya heç bir şey vermədi. İşğalla barışmayan alman xalqı işləməkdən imtina etdi. Virt hökuməti böhrana düşərək istefaya getdi. Onun yerinə gələn V.Kuno bitərəflərdən ibarət hökumət qurdu. Bu hökumət işğala passiv müqavimət göstərdi. Yeni kabinet "fəlakət siyasəti" ideyasını irəli sürdü. Hökumət təzminatı ödəməyin qəti əleyhinə çıxdı, digər beynəlxalq sazişlərin isə yerinə yetirilməsinin vacibliyini bildirdi. Lakin hökumətin bu siyasəti də iflasa uğradı. İnflyasiya görünməmiş həddə çatdı. İşsizlərin sayı 5 mln. nəfər oldu. Ölkəni Kuno hökuməti əleyhinə tətillər bürüdü. Nəticədə avqustun 12-də Kuno hökuməti istefa verdi. Avqustun 13-də H.Ştrezeman başda olmaqla "Böyük koalisiya" hökuməti yaradıldı. Hökumətin tərkibinə Xalq, Demokrat, Sosial-Demokrat partiyaları

və mərkəzçilərin nümayəndələri daxil oldular. Sentyabrın 26-da Ştrezeman hökuməti passiv müqaviməti dayandıraraq ölkədə mühasirə vəziyyəti elan etdi. Passiv müqaviməti ləğv edən hökumət təqiblərə başladı. Hökumətin siyasəti xalqın içərisində kəskin narazılığa səbəb oldu. Təzminatın ödənilməsi və xalqın ağır sosial-iqtisadi vəziyyəti hökumət əleyhinə çıxışların güclənməsi üçün əlverişli şərait yaratdı. Saksoniya və Türingiyada fəhlələr küçələrə çıxdılar. 1923-cü ilin oktyabrında Saksoniya və Türingiyada sosial-demokratlar və kommunistlər fəhlə hökuməti yaratdılar. Lakin sol sosial-demokratlar tərəddüd edərək barışıq siyasəti yeridirdilər. Oktyabrın sonunda qanuni hökumət bu fəhlə hökumətlərini qovdu.

1923-cü ilin inqilabi böhranının yüksək nöqtəsi E.Telman başda olmaqla kommunistlərin Hamburqda təşkil etdikləri silahlı üsyan oldu. Fəhlələr küçələrdə barrikada qurdular və hətta bəzi yerlərdə polisi tərksilah etdilər. Lakin geniş sosial dayaqları olmayan üsyan rəhbərləri onu dayandırdılar. Geniş xalq kütlələri onların arxasınca getmədilər. Beləliklə, Almaniyada inqilabi böhran fəhlə və kommunistlərin məğlubiyyəti ilə nəticələndi.

Almaniyada hökumətin zəifliyi, bolşevizm meyllərinin güclənməsi və Sovet Rusiyası tipində quruluş yaratmaq cəhdləri nasional-sosializmi hərəkətə gətirdi. 1923-cü il noyabrın 8-9-da Hitlerin başçılığı ilə Münhendə "pivəxana qiyamı" başlandı. Pivəxanaya gələnləri girov götürən qiyamçılar hökumətin istefasını tələb edərək Berlinə doğru yürüşə keçdilər. Bavariya hökumətinin başçısı fon Kara da qiyamçılara qoşularaq yerli nazirləri həbs etdi. Qiyamçılar imperiya hökumətinin və prezident Ebertin devrildiyini bildirdilər. Hitler özünü yeni imperiya hökumətinin başçısı, general Lüdendorfu isə ordunun ali baş komandanı elan etdi. Lakin bu dövrdə alman xalqında nasional-sosialistlərin hakimiyyətinin qurulmasına tələbat yox idi. Nəticədə qiyam Münhen küçələrində səhəri gün məğlubiyyətə uğradı və Hitler başda olmaqla müqəssirlər həbs edildilər. Partiyanın fəaliyyəti qadağan olundu.

1924-cü il fevralın 26-da qiyamçılar üzərində məhkəmə prosesi başlandı. 40 nəfər ittiham edildi. Məhkəmədə Hitler qiyamın dövləti cinayət olduğunu etiraf etdi. O, məhkəmədən təbliğat vasitəsi kimi istifadə edərək özünü müqəssir sayıb məsuliyyəti üzərinə götürdü. Bildirdi ki, o, inqilaba qarşıdır, satqın deyildir və alman xalqının alçaldılmasının əleyhinədir. Məhkəmə prosesi nasional-sosialistlərin nüfuzunu daha da artırdı. Hitlerə 5 il həbs cəzası verildi. Hitler və silahdaşları Landsberq həbsxanasında milli qəhrəman kimi qarşılandılar. O, həbsxanada 6 ay yatdıqdan sonra azad edildi. Həbsxanada ikən silahdaşları olan Morisə və Gessə "Mənim mübarizəm" kitabını söyləyərək yazdırdı. Bütövlükdə, 1924-28-ci illərdə Hitler üç kitab yazdı. Bu kitablar nasional-sosializm hərəkatının yaranma səbəbləri və məqsədlərini müəyyənləşdirərək "Mənim mübarizəm"in tərkib hissələrinə çevrildilər.

## Almaniyada sabitləşmə

Rurun işğalının Almaniya üçün ciddi iqtisadi nəticələri oldu. Ölkənin təsərrüfat həyatı pozuldu, maliyyə vəziyyəti pisləşdi, xırda müəssisələr sıradan çıxdı, istehsal mərkəzləşdi, daş-kömür, dəmiryol və başqa sahələrdə iri inhisarçı müəssisələr meydana gəldi. İşğal nəticəsində xarici ticarətə böyük zərbə dəydi. 1913-cü illə müqayisədə 1923-cü ildə xarici ticarət dövriyyəsi 50% aşağı düşdü.

Fəhlə hərəkatı və "pivəxana qiyamı" yatırıldıqdan sonra Almaniyada siyasi stabilləşmə üçün zəmin yarandı. Ölkənin başlıca siyasi qruplaşmaları arasında kompromis əldə edildi. Bundan sonra hökumətin imkanları xeyli artsa da dekabrın 9-da Ştrezeman hökuməti istefaya getdi.

1923-cü ilin dekabrında katolik-mərkəzçilərin nümayəndəsi Vilhelm Marks kansler oldu. Yeni qurulan hökumət "Kiçik koalisiya" hökuməti idi. Onun tərkibinə Katolik-Mərkəz, Alman Xalq və Demokrat partiyalarının nümayəndələri girsələr də sosial-demokratlar daxil edilmədilər. 1923-cü il dekabrın 15-dən 1924-cü

il fevralın 15-dək 75 fövqəladə qanun qəbul edildi. Ölkədə mühasirə vəziyyəti aradan qaldırıldı. Kommunist Partiyası leqal fəaliyyətini bərpa etdi. V.Marks hökuməti daxili siyasətdə "Rentabelli iqtisadiyyata keçid proqramı"nı elan edərək fövqəladə tədbirlər həyata keçirdi. İş günü 8 saatdan 9-12 saata qədər artırıldı. Yeni iş yerləri açıldı. İşsizlər işə məcburi qəbul edildilər. Dövlət qulluqçularının sayı azaldıldı. Əlillərə pensiya verildi. İşğal nəticəsində ziyan dəymiş müəssisələr 715 mln. qızıl marka kompensasiya aldılar. Ölkənin daxili iqtisadi həyatında sabitləşmə meylləri öz əksini tapdı.

Beləliklə, sabitləşmənin başlıca daxili səbəbi ölkənin əsas siyasi qüvvələri arasında razılığın əldə olunması, alman xalqının çalışqanlığı və hökumətin yeritdiyi siyasətlə, beynəlxalq səbəbi isə Almaniyanın dünyada mövqelərinin möhkəmlənməsi və edilən xarici yardımlarla əlaqədar idi.

V.Marks hökumətinin xarici siyasət sahəsində qarşısında duran minimum vəzifəsi Almaniyanın müharibədən əvvəlki mövqelərini bərpa etmək idi. Bundan ötrü xarici, xüsusən amerikan kapitalına ümid bəslənilirdi. Almaniya hökuməti maliyyə yardımları almaq üçün ABŞ və İngiltərəyə müraciət etdi. 1923-cü ilin payızında Fransa da ABŞ-dan istiqrazlar almaq üçün xahiş etdikdə amerikanlar təzminat məsələsinin həllinin zəruriliyini irəli sürdülər.

1923-cü ilin noyabr ayında təzminat məsələsinə dair yeni təkliflər hazırlamaq məqsədilə amerikan generalı Çarlz Dauesin başçılığı altında ekspert komissiyası yaradıldı. Komissiya müvafiq təkliflər işləyib hazırladı. Ekspert komissiyasının təklifləri 1924-cü il iyulun 16-da Londonda öz işinə başlayan konfransda bəyənildi. Bu, "Daues planı" adını aldı. Konfransın qərarlarına əsasən Fransa və Belçika orduları Rurdan çıxarılmalı idi. Plana görə Almaniya 1924-29-cu illərdə ABŞ və başqa dövlətlərdən 20 mlrd. qızıl marka kredit və istiqrazlar aldı. Bunun 10-15 mlrd. markası uzunmüddətli, 6 mlrd. markası isə qısa müddətli kredit idi. Bütövlükdə, Alma-

niyaya 63 mlrd. qızıl marka verildi. Bunun 70%-i ABŞ-ın payına düşürdü. Plana görə 1924-25-ci illərdə Almaniya qalib dövlətlərə 1 mlrd. qızıl marka təzminat ödəməli idi. 1929-cu ildə isə ödənilən təzminatın məbləği 2,5 mlrd. markaya çatacaqdı. Təzminatın kömrük rüsumları, vergilər, dəmiryolları və sənayedən gələn gəlirlər hesabına ödənilməsi nəzərdə tutulurdu.

İstiqrazın əsas hissəsi iqtisadiyyatın yenidən qurulmasına, yeni sənaye sahələrinin yaradılmasına, energetika və kommunikasiya şəbəkələrinə yönəldildi. Alman və amerikan kapitalı çulğalaşdı. Birgə bank birlikləri yaradıldı. Krupp, Hengel və b. Versal sülh müqaviləsindən irəli gələn qadağanları pozaraq istehsalı genişləndirdilər.

İstiqrazların alınması nəticəsində Almaniya iqtisadiyyatı çətinliklərdən qurtardı, təsərrüfat həyatı canlandı, valyuta sabitləşdi və xarici ticarət dövriyyəsi artdı. 1925-ci ildə kapitalı 800 mln. marka olan Polad tresti yaradıldı. Ölkədə istehsal olan dəmir və poladın 40%-i bu trestin əlində cəmləndi. 1926-cı ildə İQ Farbenindustri kimya tresti yaradıldı. Kapitalı 1 mlyd. marka olan bu trest sintetik ixracının 80%-nə, boya ixracının 100%-nə nəzarət edirdi.

Sabitləşmə illərində Almaniyada 2100 kartel yaradıldı. Ölkənin energetika sənayesində Ümumi elektrik kompaniyası və Simens şirkəti əsas rol oynadılar. Nəticədə 1927-ci ildə ölkədə istehsalın ümumi həcmi müharibədən əvvəlki səviyyəyə gəlib çatdı. Almaniya maşın ixracına görə ABŞ-dan sonra dünyada ikinci yerə çıxdı. 1929-cu ildə Almaniyada 16,1 mln. ton polad əridildi. Müqayisə üçün qeyd edək ki, bu rəqəm Fransada 9,8 mln. ton, İngiltərədə isə 10,1 mln ton idi. Həmin ildə isə sənaye istehsalı 1913-cü illə müqayisədə 117% oldu. Ölkə həyatı böhranlardan qurtuldu. Əhalidə nikbin əhval-ruhiyyə yarandı. Mədəniyyət inkişaf etdi. Veymar respublikası mədəniyyətin çiçəklənməsi rəmzinə çevrildi. Ölkə həyatı modernləşdi.

Almaniya siyasi həyatı geniş azadlıqların verilməsi ilə müşayiət olundu. 1924-cü ildə Almaniya Kommunist Partiyasının

rəhbəri E.Telmanın başçılığı ilə fəhlələrin "Qırmızı cəbhəçilər ittifaqı" yaradıldı. Təxminən 100 min nəfər üzvü olan bu ittifaqın başlıca məqsədi fəhlələrin tədbirlərinin nasional-sosialistlər tərəfindən pozulmasının qarşısını qüvvə ilə almaq idi. Ölkədə həmkarlar təşkilatlarının da fəaliyyəti gücləndi.

1924-cü ildə reyxstaqa seçkilər keçirildi. Sosial-demokratlar 8 mln., kommunistlər 2,7 mln., digər partiyalar isə 15 mln. səs aldılar. 1925-ci il yanvarın 15-də Hans Lüterin təşkil etdiyi hökumət vergi və kömrük islahatlarını həyata keçirdi.

Dövlətin xarici siyasəti də xeyli fəallaşdı. 1925-ci ildə imzalanan Lokarno sazişləri Almaniyanı Avropa dövlətlərinin bərabərhüquqlu tərəfdaşına çevirdi. Ölkə 1926-cı il sentyabrın 10-dan Millətlər Cəmiyyətinə daxil olub daimi üzv statusu ilə onun işində iştirak etməyə başladı. Bu sazişlər Almaniyanı beynəlxalq təcridçilikdən qurtardı.

1925-ci il fevralın 28-də ölkənin ilk prezidenti Ebert vəfat etdi. Aprelin 26-da keçirilən prezident seçkilərində sağ partiyaların nümayəndəsi kimi namizədliyi irəli sürülən ordunun keçmiş faktiki komandanı, feldmarşal P.Hindenburqun əsas rəqibi Vilhelm Marks oldu. Lakin seçkilərin birinci turu heç kimə qələbə gətirmədi. İkinci turda Hindenburq 14 mln. 655 min səs alaraq ölkə prezidenti seçildi. Marks isə 13 mln. 751 səs topladı. 1926-cı ilin mayında Lüter hökuməti istefaya getdi. Onun əvəzinə hökuməti Marks qurdu. 1927-ci ilin yanvarında isə kabinet dəyişikliyi oldu. Marks yenidən hökumət yaratdı. Bu hökumətin tərkibinə Milli, Xalq və Katolik-Mərkəz partiyalarının nümayəndələri daxil oldular. Ölkədə hərbi-dəniz donanması yenidən quruldu. Ordunun sayı 100 min nəfərdən 350 min nəfərə çatdırıldı. Ölkədə qisasçılıq və irqçilik təbliğatı gücləndirildi. "Dəmir dəbilqəlilər" dəstəsi üzvlərinin sayı 3 mln. nəfərə çatdı.

1928-ci il mayın 20-də reyxstaqa növbəti seçkilər keçirildi. Seçkilərdə sosial-demokratlar 9,1 mln. səs və ya 153 mandat, millətçilər 4,3 mln. səs və ya 73 mandat, kommunistlər 3,3 mln.

səs və ya 45 mandat, nasional-sosialistlər isə 810 min səs və ya 12 mandat qazandılar. 1928-ci ilin iyununda sosial-demokratların nümayəndəsi German Müller "Böyük koalisiya" hökumətini yaratdı. Müller hökuməti sosial sığorta, qocalara və müharibə əlillərinə pensiya verilməsi işini qaydaya saldı. Hökumət inhisarlara faizsiz kreditlər verdi. 1928-ci ildə Bens və Daymler maşınqayırma zavodları birləşdirildi.

"Böyük koalisiya" hökuməti alman hərbi gücünü dirçəltmək proqramını həyata keçirdi. Almaniya artıq 1929-cu ildə 13 ölkəyə, o cümlədən Fransa, İspaniya və Belçikaya silah satırdı. 1928-ci il avqustun 10-da hərbi-dəniz qüvvələri yaradılması proqramının həyata keçirilməsinə başlandı.

"Böyük koalisiya"nın hakimiyyəti illərində ölkədə Milli Partiya gücləndi. "Dəmir dəbilqəlilər" bu partiya ilə yaxınlaşdılar. Əgər 1928-ci ildə onun üzvlərinin sayı 620 min nəfər idisə, 1929-cu ildə 1 mln. nəfərə çatdı. Bu təşkilatlar Veymar konstitusiyasının ləğvini qətiyyətlə tələb edirdilər.

Ölkədə nasional-sosialist hərəkatı da gücləndi. 1926-cı ildə bu partiyanın üzvlərinin sayı 17, 1929-cu ildə isə 120 min nəfərə çatdı. Hitlerin Bavariya və Prussiyaya daxil olmasını qadağan edən qərarlar qüvvədən düşdü. Xalq içərisində fəallıqlarını xeyli artıran nasional-sosialistlər yalnız 1928-ci ildə ölkə ərazisində 20 min mitinq keçirdilər. Ölkədə mövcud olan fəhlə hərəkatına qarşı təkcə nasional-sosialistlər deyil, eyni zamanda hökumət də kəskin mövqe tutdu. 1929-cu il mayın 1-də Berlində nümayişə çıxan 200 min fəhləni polis güllələbaran etdi. Az sonra "Qırmızı cəbhəçilər ittifaqı"nın fəaliyyəti qadağan olundu.

## Almaniya dünya iqtisadi böhranı illərində

Dünya iqtisadi böhranı yarandıqda Müller hökuməti "Daues planı"na yenidən baxmağı Qərb ölkələrindən xahiş etdi. Lakin Müller hökuməti geniş tədbirlər həyata keçirə bilməyərək 1930-cü

il aprelin 30-da istefaya getdi. Ondan sonra hakimiyyətə gələn Katolik-Mərkəz Partiyasının nümayəndəsi H.Bryuninq hökuməti təzminat məsələsi ilə məşğul oldu. Bu məqsədlə amerikan bankiri O.Yunqun başçılığı ilə komissiya yaradıldı. 1930-cu ilin mayında Haaqada keçirilən konfransda təzminat məsələsinin yeni həllinə dair "Yunq planı" qəbul edildi. Bu plana görə Almaniya 59 il müddətinə təxminən 113,9 mlrd. marka təzminat ödəməli idi.

Dünya iqtisadi böhranı Almaniyada istehsala kəskin zərbə vurdu. Dağ-mədən və avtomobilqayırma sənayesində istehsal aşağı düşdü. Bütövlükdə 1929-cü illə müqayisədə 1932-ci ildə ölkədə istehsal təxminən 40%, gəlir 42% xarici ticarət dövriyyəsi isə 60% azaldı. Markanın alıcılıq qabiliyyəti aşağı düşdü. Bir sıra iri banklar iflasa uğradı. Polad əridilməsi əgər 1929-cu ildə 16,1 mln. ton idisə, 1932-ci ildə 5,6 mln. tona, çuqun əridilməsi isə 29%-ə endi. Kiçik müəssisələr iflasa uğradı. Kütləvi işsizlik yarandı. İşsizlərin sayı 1929-cu ilin sonunda 3,4 mln., 1930-cu ilin sonunda 4,4 mln., 1932-ci ildə isə təxminən 8 mln. nəfərə çatdı. Ümumi əmək haqqı fondu 2 dəfə azaldı. Belə ağır sosial-iqtisadi şəraitdə hökumət təzminatı ödəyə bilməyəcəyini bəyan etdi.

H.Bryuninq hökuməti böhran əleyhinə ciddi proqram həyata keçirməyə başladı. 1930-cu il dekabrın 1-də yeni fövqəladə dekretə görə işsizlərə verilən yardımlar, sosial proqramlara ayrılan xərclər azaldıldı və vergilər çoxaldıldı. Hökumət bank sisteminin sağlamlaşdırılması siyasətini həyata keçirdi. Nəticədə iri bank və kompaniyaların bir çoxunun səhm paketləri dövlət mülkiyyətinə çevrildi. Qiymət və əmək haqqı siyasəti mərkəzləşdirildi. Lakin bu tədbirlər kifayət qədər səmərəli olmadı. Böhran şəhər və kəndlərdə sosial ziddiyyətləri kəskinləşdirərək nasional-sosialist təbliğatı üçün əlverişli şərait yaratdı. İqtisadi böhrandan öz xeyirlərinə istifadə edən nasional-sosialistlər fəaliyyətlərini gücləndirdilər. Onlar əhaliyə sosial-iqtisadi sahələrdə geniş vədlər verdilər. Mövcud vəziyyət hökumətdən qəti addımlar atmağı tələb etdi. Hökumət əleyhinə olan çıxışlar yatırıldı. Qanuna zidd siyasi

prosesləri ləğv etmək və nəzarətdə saxlamaqdan ötrü tədbirlər görüldü. 1931-ci ilin yazında "Siyasi təbəddülatlara qarşı mübarizə haqqında dekret" verildi. Dekretə görə yığıncaqlar və nümayişlər yalnız qanuna tabe olunmadığı təqdirində qadağan edilə bilərdi.

Bryuninq hökumətinin xarici siyasəti başlıca olaraq Lokarno sazişlərinə əməl etməyə yönəlmişdi.

1930-cu ilin sentyabrında Bryuninq prezident Hindenburqu reyxstaqı vaxtından əvvəl buraxmağa inandıra bildi. 1930-cu ilin sentyabr ayında reyxstaqa yeni seçkilər keçirildi. Seçkilərdə sosial-demokratlar 143 mandat aldılar. Nasional-sosialistlər 6,4 mln. səs və ya 107 mandat qazanaraq ikinci böyük fraksiya yaratdılar. Ölkədə nasional-sosialistlərin mövqeyi gücləndi. Bununlada nasional-sosialistlər Almaniya siyasi həyatında ciddi qüvvə kimi özlərini təsdiq etdilər. Kommunistlər 1928-ci il seçkiləri ilə müqayisədə 1,3 mln. çox səs, daha doğrusu 4,6 mln. səs və ya 77 mandat aldılar. 1930-cu ildə 5, 1931-ci ildə isə 44 fövqəladə dekret verildi.

1931-ci ilin oktyabrında Bryuninq hökumətində dəyişiklik oldu. Bir sıra nazirlər istefaya getdilər.

1932-ci ilin mart-aprel aylarında keçirilən prezident seçkilərində prezident Hindenburqun rəqibləri Düsterberq, E.Telman və Hitler oldular. Hitleri katoliklər, iri sənayeçilər və protestantlar müdafiə edirdilər. O, seçki kampaniyasını Versal sülhünün şərtlərinə qarşı çıxaraq "Qocalar yoldan çıxın" şüarı üzərində qurdu. Seçkilərin birinci turu namizədlərin heç birinə uğur gətirmədi. Hindenburq 19 mln. və ya 49,6%, Hitler 13,4 mln. və ya 30,1%, Telman 13,2%, Düsterberq isə 7,1% səs aldı. Aprelin 10-da seçkilərin ikinci turu keçirildi. Hindenburq 53% səs alaraq prezident seçildi. Hitler 36,8%, Telman isə 10,2% səs aldı.

Əlverişli vəziyyətdən istifadə edən Bryuninqin müxalifət partiyalarının üzərinə hücuma keçməyi qərara alması cəmiyyətdə kəskin narazılıq yaratdı. Xüsusən 500 min nəfərlik SA hücum dəstələrinin fəaliyyətinin qadağan edilməsi etirazla qarşılandı. Çünki cəmiyyət SA-ya sol partiyaların silahlı dəstələrinə alternativ

kimi baxırdı. Böhran dərinləşdi. Bryuninq istefaya getməyə məcbur oldu. Hindenburq 1932-ci il iyunun 1-də Mərkəz Partiyasının üzvü Fon Papenə hökumət təşkil etməyi tapşırdı. O, hökumətə başçılıq etməyə razılıq verdiyinə görə partiya sıralarından çıxarıldı. Nasional-sosialistlərin qatı əleyhdarı olan general Şleyxer yeni kabinetdə müdafiə naziri vəzifəsini tutdu. Papen hakimiyyətə gələn kimi 66 fövqəladə dekret verdi. Reyxstaq buraxıldı və 1932-ci il iyunun sonunda yeni seçkilər keçirildi. Seçkilərdə nasional-sosialistlər 13,8 mln. səs və ya 230 mandat, sosial-demokratlar 8 mln. səs və ya 133 mandat, kommunistlər isə 5,3 mln. səs və ya 89 mandat aldılar. Katolik-Mərkəz 75, millətçilər 37, Xalq Partiyası 23, demokratlar 20 yer qazandılar. Bu nəticələr ölkədə nasional-sosializmin nüfuzunun artdığını göstərdi. Təşkilatın sıraları genişləndi. Bu zaman Nasional-Sosialist Partiyasına 720 min nəfər yeni üzv qəbul edildi. Hitler koalisiyalı hökumət yaradıb özünü hər hansı öhdəliklərlə bağlamaq istəmədi. Belə olduqda iyulun 20-də Pruss hökuməti, sentyabrda isə reyxstaq buraxıldı. Noyabrın 6-da yeni seçkilər keçirildi. Seçkilərdə nasional-sosialistlər 247 mandat, sosial-demokratlar 7,2 mln. səs və ya 121 mandat, kommunistlər 6 mln. səs və ya 100 mandat qazandılar. Nasional-sosialistlərin hakimiyyətə gəlməsini əngəlləmək üçün bu partiyanın deputatlarının 51 nəfərinin Alman Milli Xalq Partiyası sıralarına keçməsi təşkil edildi. Nəticədə nasional-sosialistlərin deputat mandatı 196-ya düşdü. Buna baxmayaraq, nasional-sosialistlərin güclü ideoloji proqramı cəlbedici olduğundan partiyanın nüfuzu daha da artmağa başladı.

Belə şəraitdə general Şleyxer "Milli həmrəylik" hökuməti yaratdı. Bu hökumət 1932-ci ilin dekabrından 1933-cü ilin yanvarına qədər hakimiyyətdə olsa da parlamentin etimadını qazana bilməyərək istefaya getdi. Belə olduqda Hindenburq 1932-ci ilin sonunda nasional-sosialistlərin çevriliş yolu ilə hakimiyyətə gəlmək cəhdlərinin qəti əleyhinə çıxan və seçkilərdə qələbə qazanmağa üstünlük verən Hitlerə reyxskansler vəzifəsini tutmağı

təklif etdi. O, Hitlerlə görüşərək bir sıra şərtlərini söylədi. Hitlerin quracağı hökumət "Milli həmrəylik" hökuməti olmalı idi. 1933-cü il yanvarın 30-da Hindenburq bu şərtlərlə razılaşan Hitleri kansler təyin etdi. Vitse-kansler isə Fon Papen oldu. Beləliklə, Almaniyada nasional-sosialistlərin liderinin rəhbərliyi altında yeni hökumət quruldu.

## Üçüncü reyx

Hitlerin "Milli həmrəylik" hökuməti koalisiyalı olub tərkibində mərkəzçiləri, mühafizəkarları və millətçiləri birləşdirirdi. Frik daxili işlər naziri, Gerinq isə reyxstaqın sədri olmaqla Prussiyanın daxili işlər naziri təyin edildilər. Hökumət fəal daxili siyasət yeridərək alman cəmiyyətinin böyük əksəriyyəti tərəfindən rədd olunan solçu hərəkata qarşı mübarizəyə başladı. İlk növbədə millət içərisində sinfi bölgü əsasında nifrət yaradan kommunist təşkilatları sıxışdırıldı. 1933-cü il fevralın 28-də reyxstaqın binası yandırıldı. Bundan istifadə edən hökumət təxminən 10 min adamı həbs etdi. Kommunistlərin rəhbəri E.Telman 1933-cü il martın 3-də həbs olundu. Bütün kommunist qəzetləri bağlanıldı.

Reyxstaqa martın 5-də keçirilən seçkilərdə nasional-sosialistlər 17,3 mln. səs və ya 288 mandat, sosial-demokratlar 7,2 mln. səs və ya 120 mandat, kommunistlər 4,8 mln. səs və ya 81 mandat aldılar. Mərkəzçilər isə 74 mandat qazandılar. Hitleri mərkəzçilər və millətçilər də müdafiə etdilər. Alman cəmiyyətini qarşıdurmaya və vətəndaş müharibəsinə çağıran 81 kommunistin deputat mandatı az sonra ləğv edildi və onlar həbs olundular. 1933-cü il martın 14-də AKP və kommunist yığıncaqları rəsmi olaraq qadağan edildi. Ölkədə minillik dövlətin- Üçüncü reyxin yaradılmasına başlandı. Hökumət 1933-cü il martın 24-də "Xalqın və dövlətin fəlakətli vəziyyətini aradan qaldırmaq" haqqında qanunu parlamentdən keçirərək fövqəladə səlahiyyətlər aldı. Buna görə hökumət reyxstaq və

reyxsrata aid məsələlər istisna olmaqla bütün digər sahələrdə qanunlar verə və siyasi partiyaları buraxa bilərdi.

Ölkə həyatında mətbuat və nəşriyyat mühüm rol oynadığından bütün çap işinə Hitlerin özü nəzarət edirdi. Xalqın vahid milli ideya ətrafında birləşdirilməsində mətbuata xüsusi önəm verilirdi.

İmperiyanın quruluşu dəyişikliyə uğradı. 1933-cü ilin aprelində landtaqlar torpaqların hökumətlərini formalaşdırmaq səlahiyyətindən məhrum edildilər. Aprelin 7-də qəbul edilən "Vilayətlərin imperiya ilə qovuşması haqqında" qanuna görə torpaq administrasiyalarının başında duran valilər (ştathalter) nasional-sosialistlərin nümayəndələrindən təyin olunmağa başladılar. Bir il sonra, 1934-cü il yanvarın 30-da qəbul edilən qanuna görə landtaqlar tamamilə ləğv olundu. Ştathalterlər imperiya hökumətinə tabe etdirildilər. Bir ay sonra isə reyxsrat da fəaliyyətini dayandırdı.

1933-cü il mayın 2-də həmkarlar ittifaqları qadağan olundu. Bütün fəhlələr başlıca məqsədi əməyin mənafeyini qorumaq olan "Vahid alman əmək cəbhəsinə" daxil edildilər.

1933-cü il iyunun 23-də Almaniya Sosial-Demokrat Partiyası qadağan edilərək əmlakı müsadirə olundu. Digər partiyalar da özlərinin fəaliyyətlərini dayandırdılar. İyulun 14-də Nasional-Sosialist Partiyasından başqa bütün partiyaların buraxılması haqqında qanun qəbul edildi.

Reyxstaqın yandırılmasında təqsirli bilinən bolqar kommunisti G.Dmitrov və bir qrup kommunist üzərində 1933-cü ilin sentyabrında Leypsiqdə məhkəmə prosesi başlandı. Lakin Dmitrov məhkəmədə bəraət aldı.

1933-cü ilin dekabrında qəbul edilən "Partiya və dövlətin birliyinin təmin olunması haqqında qanun"a görə yeganə qanuni partiyanın nümayəndəsi olan fürer şəxsən reyxstaqı formalaşdırmaq və yüksək vəzifəli şəxsləri təyin etmək səlahiyyəti aldı. Ölkədə vahid partiya prinsipi tətbiq olundu. Bundan sonra Hitler Nasional-Sosialist Partiyası daxilində müxalifəti sıradan çıxarmaq işinə girişdi. Partiya daxilindəki bolşevik təmayüllü sol qanada Qreqor və

Otto Ştrasser qardaşları başçılıq edirdilər. Sol qanad nasional-sosializm ideyalarını məhz fəhlələr arasında yaymağa üstünlük verirdi. Onlarda antisemitizm güclü deyildi. Ştrasser qardaşları Hitlerin xarici siyasətinin əleyhinə çıxırdılar. 30-cu illərin ortalarınadək Qreqor Ştrasser artıq partiyada ikinci şəxs idi. Onun 1930-cu ildə yaratdığı "İnqilabi nasional-sosialistlərin mübariz həmrəyliyi" adlı təşkilat bir il sonra milli-bolşevik istiqamətli "Qara cəbhə" adlandırıldı. Təşkilat cəmiyyətin həyatında ciddi rol oynaya bilməsə də hakimiyyətə gəldikdən sonra Hitler artıq onun hərəkətlərinə dözmədi. 1934-cü il iyunun 30-da "uzun bıçaqlar gecəsi"ndə bu sol axının liderləri öldürüldü. Hücum dəstələrinin komandiri E.Rem də qətlə yetirildi. SA daxilindəki narazı qrup ləğv edildi. Onun tərkibindən təxminən 200 min adam qovuldu. Ölkədə nadir totalitar idarə üsulunun yaradılmasına başlanıldı.

Hökumət iqtisadi sahədə bir sıra tədbirləri həyata keçirdi. 1933-cü il fevralın 20-də Hitlerin iri sənayeçilərlə görüşündə ölkənin qarşısında duran ən vacib iqtisadi problemlər geniş müzakirə edildi. Əmək naziri F.Zelde təsərrüfat sisteminin təbəqələşmə əsasında yenidən qurulmasını təklif etdi. 1933-cü il iyulun 15-də İqtisadiyyat Nazirliyi nəzdində yaradılan Ali Təsərrüfat Şurasının tərkibinə Krupp, Simens, Flik və b. inhisarçılar daxil oldular. Ölkə 18 təsərrüfat dairəsinə bölündü. Dövlət inhisarçılığı inkişaf etdirildi. Xüsusi Təsərrüfat Məhkəməsi yaradıldı. Fürerçilik təsərrüfat həyatına da tətbiq edildi. Əvvəllər mövcud olan istehsalat şuraları ləğv olundu. 1934-cü il yanvarın 30-da verilmiş "Milli əmək haqqında qanun"a əsasən müəssisənin sahibi özü onun füreri idi və təsərrüfat fəaliyyəti üçün şəxsən fürer qarşısında məsuliyyət daşıyırdı. Müəssisələrdə əmək münasibətlərini tənzimləyən nizamnamə hazırlandı.

1933-cü ilin sentyabrında "İrsi həyətlər haqqında qanun" qəbul edildi. Bu qanuna görə Almaniyanın bütün kənd əhalisi iki dərəcəyə bölündü: kəndlilər və təsərrüfat sahibləri. Hər bir vətəndaş 7,5 hektardan 125 hektaradək torpaq ala bilərdi. Minimum həcmdə

torpağı olan kəndlinin sahəsi borca görə bölünə və satıla bilməzdi, böyük oğula keçirdi. Ölkədə ari mənşəli torpaq sahibləri təbəqəsi - bauerlər yaradıldı. Bauerlər ölkədə becərilən bütün torpaqların 40%-nə nəzarət edirdi. Kəndlilər Üçüncü reyxin irqi saflıq və müdafiə dayağı hesab olunurdu. Bu isə nasional-sosialistlərin yerlərdə mövqelərini daha da möhkəmləndirirdi. 1938-ci ildə irsi həyatlərin sayı artaraq 685 minə çatdı. Kənd təsərrüfatı məhsullarının sərbəst satışı ləğv edildi. Məhsullar müəyyən olunmuş qiymətlə dövlət alqı-satqı məntəqələrinə verilirdi. Ölkədə kənd təsərrüfatı məhsulları istehsalının artımına şərait yaratmaq məqsədilə xaricdən gətirilən belə mallar üzərinə yüksək gömrük rüsumu qoyuldu.

1934-cü il fevralın 27-də qəbul edilən "Alman iqtisadiyyatının üzvi qurulması haqqında qanun"a əsasən Sənaye təsərrüfatı təşkilatı və İmperiya ərzaq təbəqəsi yaradıldı. Sənaye təsərrüfatı təşkilatı yeddi təsərrüfat qrupuna bölündü: sənaye, nəqliyyat, enerji, ticarət, sənətkarlıq, bank və sığorta işi. Buna uyğun olaraq kiçik sahələr də yaradıldı. Ölkədə güclü təmərküzləşmə başladı. İqtisadi sahədə görülən işlərə Gerinq rəhbərlik edirdi. Qeyd etmək lazımdır ki Kənd Təsərrüfatı Nazirliyinə tabe olan İmperiya ərzaq təbəqəsi nisbətən müstəqil qurum idi.

1934-cü il avqustun 2-də 86 yaşlı prezident Hindenbur öldü. Bütün hakimiyyəti əlinə cəmləşdirən Hitler ömürlük fürer (rəhbər) oldu.

Hökumət 1935-ci ildə sosial proqramları genişləndirərək məcburi əmək mükəlləfiyyəti tətbiq etdi. Buna görə yerlərdə əhalinin milli ruhunu qaldırmaq və işsizliyin səviyyəsini aşağı salmaq məqsədilə 18 yaşdan 25 yaşadək olan qızlar bir il müddətinə kənddə işləməli idi.

Almaniyanın başqa ökələrdən gətirilən xammal və əmtəə asılılığına son qoymaq məqsədinə 1934-cü ildə xarici ticarət və valyuta əməliyyatlarını tənzimləyən sistem tətbiq edildi. Ölkədə kredit sistemi təkmilləşdirildi.

Milli bank sisteminin sağlamlaşdırılmasına başlandı. Banklar "yəhudi kapitalı"ndan təmizləndi. Ölkədəki bankların sayı 1725-dən 477-ə endirildi. 1936-cı ilin yanvar ayında kapitalı 100 mindən aşağı olan səhmdar cəmiyyətlər ləğv edildi. 500 min markadan az kapitalı olanlar səhmdar cəmiyyət yarada bilməzdilər.

1936-ci ildə dördillik plan tətbiq edildi. Həmin ilin avqust ayında Hitler bu planın məqsədini belə müəyyənləşdirdi: dörd ildən sonra alman ordusu hərəkətə, alman iqtisadiyyatı isə müharibəyə hazır olmalıdır. İş günü 12-14 saata qaldırıldı, iqtisadiyyat hərbi relsə keçirildi, bütün sənaye, maliyyə, ticarət və nəqliyyat kompaniyaları birləşdirildi. 1937-ci ilin əvvəllərində artıq ölkədə 300 yeni zavod, o cümlədən 70 kimya, 60 aviasiya, 40 avtomobil, 15 gəmi zavodu tikildi, yollar çəkildi, hava limanları quruldu. 1938-ci ildə Almaniya ümumi iqtisadi potensialı baxımından Avropada ikinci, dəmir, polad və alümin əridilməsinə görə isə dünyada birinci yerə çıxdı. Qeyd etmək lazımdır ki, nasional-sosialistlərin yaratdığı iqtisadi sistem digər faşist dövlətlərin iqtisadi sistemindən köklü şəkildə fərqlənirdi. Almaniyada dövlət istehsalçı və istehlakçı ilə birlikdə bazar münasibətlərinin bərabərhüquqlu iştirakçısı deyildi, onlara qarışmırdı. İqtisadiyyatın dövlət tənzimlənməsi mövcud deyildi. Dövlət tənzimlənməsi əsasən əmək münaqişələrini yumşaltmağa, iri və xırda biznes arasında kompromis yol tapmağa yönəlmişdi. Xüsusi mülkiyyət hüququ toxunulmaz idi.

Nasional-sosialistlərin sosial siyasəti vətəndaşın cəmiyyət həyatında rolunun artırılmasına xidmət edirdi. Qısa müddətdə ölkədə həyat şəraiti yaxşılaşdırıldı və əmək haqqı artırıldı. Əmək kitabçası sistemi tətbiq edildi. Müəssisə sahibləri ilə işçilərin bərabərliyi elan olundu. Sosial şərəf məhkəmələri yaradıldı. Bu məhkəmələrdə müəssisə sahiblərinin və işçilərin daxili qaydaları pozması məsələlərinə baxılırdı. Məhkəmələr müəssisə sahiblərini fürer rütbəsindən məhrum edə bilərdilər. Qiymətlərin artırılması qadağan edildi. Xeyriyyəçilik sistemi genişləndirildi. Ehtiyacı olan adamlara yardım göstərmək məqsədilə "Qış fondu" yaradıldı. Bu

fondun xətti ilə 1937-ci ildə təxminən 10 mln. nəfər ərzaq və nağd pul aldı. Fond eyni zamanda imkansız ailələrə pulsuz yeməklər də paylayırdı.

Dövlət analara xüsusi diqqət yetirdi. Uşaq və gənclərə dövlət qayğısı sistemi tətbiq olundu.

Lakin nasional-soialistlərin hakimiyyətindən ən çox əzab çəkən ziyalılar idi. Yaradıcılıq azadlıqlarını itirən çoxlu ziyalı ölkəni tərk etmək məcburiyyətində qaldı.

Muzdlu fəhlələr həmkarlar ittifaqlarını yaratmaq, kollektiv müqavilələr bağlamaq və əmək haqqını artırmağı tələb etmək hüququndan məhrum olundular. Bu tədbir ölkədə işsizliyin azaldılmasına kömək etdi. Nətcədə əgər 1932-ci ildə Almaniyada 6 mln. işsiz var idisə, 1937-ci ildə 900 min, 1939-cu ildə isə 120 min oldu. Bütün bu sosial-iqtisadi yüksəlişin fonunda alman xalqı ölkədə baş verənlərə loyal münasibət bəsləyirdi.

Nasional-sosialistlər hərbi sahədə bir sıra tədbirlər həyata keçirdilər. Hitler 1933-cü il fevralın 3-də generalitetlə görüşərək silahlanma sahəsində görüləcək işlər barəsində fikir mübadiləsi etdi. 1933-34-cü illərdə hərbi-dəniz donanmasının tikintisinə başlanıldı. Avianosların (təyyarə gəmisi, təyyarələrin qalxması və enməsi üçün geniş meydançası olan hərbi gəmi) gizli şəkildə tikilməsinə Gerinq, hərbi-dəniz donanması işlərinə isə Ribbentrop məsul idi. Versal sülh müqaviləsinin alman hərbi-hava qüvvələrinin yaradılmasını qadağan etməsinə baxmayaraq hökumət bu sahəyə çəkilən xərcləri 78 mln. markadan 210 mln. markaya çatdırdı. Təyyarə və tank istehsalı artdı. Hərbi xərclər 1933-1939-cu illərdə 10 dəfə artırıldı. Yalnız 1933-1937-ci illərdə silahlanmaya 46 mlrd. marka xərcləndi. Hökumət Versal sülh müqaviləsinin şərtlərinin əleyhinə gedərək 1935-ci il martın 16-da ümumi hərbi mükəlləfiyyət keçirdi. 1935-1939-cu illərdə alman ordusunun sayı 5 mln. nəfər oldu. Artıq 1938-ci ildə alman ordusu fransız ordusunun sayını iki dəfə ötüb keçdi. 1935-ci il iyunun 18-də imzalanan ingilis - alman dəniz sazişinə görə Almaniya İngiltərə

ilə müqayisədə sualtı qayıqlarda bərabərlik olmaqla 35% hərbi-dəniz donanması yarada bilərdi.

Gestapo, SA hücum, SS mühafizə və SD təhlükəsizlik xidməti dəstələri gücləndirildi. H.Himmlerin başçılıq etdiyi SS Hitlerin mühafizəsini həyata keçirməklə əslində dövlət daxilində dövlətə çevrildi. Bu qurumun əsasında 30-cu illərin sonunda İmperiya Baş Təhlükəsizlik İdarəsi yaradıldıqdan sonra ona R.Heydrix rəhbərlik etməyə başladı. İdarənin tərkibinə Gestapo, SD təhlükəsizlik xidməti, xarici kəşfiyyat və b. strukturlar daxil edildi.

Vətəndaşları SS-in nəzarəti altında "tərbiyələndirmək" məqsədilə əmək mükəlləfiyyəti daşımağı nəzərdə tutan düşərgələr yaradıldı. Rejimə qarşı müxalifətdə olan alman zadəganları, katoliklər və vətəndaşlar bu düşərgələrə salındılar.

SS-də həmçinin demoqrafiya siyasəti də ciddiləşdirildi. SS əməkdaşlarından övladının olmasını istəyən qızlar üçün 12 xüsusi doğum evi açıldı.

Beləliklə, 1934-1935-ci illərdə Almaniyada sağ ideoloji yönümlü totalitar dövlətçiliyin formalaşması başa çatdı.

Nasional-sosialistlər hökumətinin ideoloji siyasəti irqçiliyə əsaslanırdı. Ölkədə nasional-sosialist ideologiyası ilə sıx bağlı olan özünəməxsus qanun doktrinası yaradıldı. Digər faşist rejimlərindən fərqli olaraq nasional-sosialistlərin ideoloji sistemi mövcud dövlət sisteminin möhkəmləndirilməsi və təbliğinə deyil, onun müvəqqəti və məhdud xarakter daşıdığını göstərməyə yönələrək cəmiyyətin qarşısında ali məqsəd kimi "yeni irqi dünya qaydası" yaratmağı qoyurdu. İqtisadi, siyasi, sosial və xarici siyasət sahəsində həyata keçirilən bütün tədbirlər bu məqsədə xidmət edirdi. Kollektivin deyil, şəxsin cəmiyyət həyatında rolu artırıldı. Şəxsiyyət öz mənafeyini qoruyaraq onu cəmiyyətin mənafeləri və millətin ümumi məqsədləri ilə uzlaşdırmalı idi. Xalq hüquqi münasibətlərin və hakimiyyətin ali subyekti hesab edildi. Siyasi və sosial hüquqlar yalnız alman xalqına mənsub idi. "Vahid vətən", "xalqın vahid rəhbəri", "ümumi düşmən", "ümumi tarixi tale" və s. şüarlar irəli

sürüldü. Maarif və təbliğat naziri olan Y.Hebbels bu sahədə mühüm rol oynadı.

Alman xalqının ari irqə mənsub olması müasir ideoloji metodlarla təbliğ edilirdi. Xalqın ixtiyarına çoxlu kitabxanalar verildi. İstirahət və idman geniş yayıldı. İncəsənətin inkişafına xüsusi diqqət yetirildi. Alman irqinin dünyanın ən saf irqi olduğu geniş təbliğ edilir, iudizm isə dünyanın taunu hesab olunurdu.

1933-cü ildə "Millətin sağlamlığını qorumaq haqqında qanun" qəbul edildi. Qanuna əsasən sağalmaz və ruhi xəstələr üçün müalicə yerləri tikildi. 1937-ci ildə ölkədə 168 min belə xəstə var idi. İkinci dünya müharibəsi başladıqda isə yevtanaziya-könüllü ölüm tətbiq edildi. Bu məqsədlə 1940-cı ildə xüsusi idarə yaradıldı. Təxminən 75 min alman öz razılığı ilə öldürüldü.

1935-ci ildə "Vətəndaşlıq haqqında" və "Alman qanı və alman şərəfini qorumaq haqqında" qanunlarla hökumət irqçiliyi rəsmi doktrina olaraq qəbul etdi.

Nasional-sosialistlər gənclərin tərbiyəsinə xüsusi diqqət verərək "Gənc millət", "Hitlerçi gənclər", "Alman gəncləri ittifaqı", "Alman qızları ittifaqı" və başqa təşkilatlar yaratdılar. Bu təşkilatlar müxtəlif sahələrlə məşğul olsalar da onların başlıca məqsədi gəncləri ideoloji və fiziki cəhətdən hazırlamaq idi. Beləliklə, ölkədəki bütün gənclər güclü şəxsiyyətin yaradılmasına xidmət edən vahid ideya-siyasi sistemin nəzarətinə keçdilər.

Ailə-nikah hüququna düzəlişlər edildi. Ailə qurarkən xüsusi sağlamlıq məhkəmələrinin icazəsini almaq tələb olunurdu. Almaniyada yaşayan yəhudilərə qarşı məhdudiyyətlər gücləndirildi. 1936-cı il qanunu ilə yəhudilərə vətəndaşlıq verilməsindən imtina olundu və almanların onlara nikaha girmələri qadağan edildi. 6 yaşından başlayaraq yəhudilər ictimai yerlərdə milli paltar geyməli idi. Ölkədə irqi və milli dözümsüzlük yüksək həddə çatdı. 1938-ci il noyabrın 7-də mənşəcə yəhudi olan ruhi xəstə Gerşel Qryunşpan Parisdəki alman səfirliyinin katibini öldürdükdən sonra vəziyyət daha da pisləşdi. Noyabrın 9-da

yəhudilərə qarşı bütün ölkə ərazisində kütləvi qırğınlar törədildi. Bu, hadisə "büllur gecələr" adını aldı. Kütləvi qırğınlara və təqiblərə məruz qalan yəhudilər Almaniyadan qaçmağa başladılar. 1933-cü ildə Almaniyada yaşayan 500 min yəhudidən bu zaman yalnız 300 mini qaldı. Ölkədə qalan yəhudilər 1 mlrd. marka məbləğində irqi təzminat ödəməli idilər. Bütövlükdə nasional-sosialistlərin hakimiyyəti illərində təxminən 6 mln. yəhudi öldürüldü. Yəhudilərin planlı şəkildə öldürülməsi xolokost adını aldı. Eyni zamanda 22 min qaraçı məhv edildi.

Nasional-sosialistlərin liderləri öz ideologiyalarını faşizmlə qətiyyən eyniləşdirmirdilər. Məsələn, H.Himmler yazırdı ki, faşizm və nasional-sosializm kəskin şəkildə fərqlənən iki müxtəlif təzahürdür, onların arasında mənəvi və ideoloji hərəkatlar kimi müqayisə aparmaq olmaz. Y.Hebbels isə göstərirdi ki, faşizm nasional-sosializmə heç nə ilə bənzəmir. Nasional-sosialistlər faşizmə yalnız sol, bolşevik və liberal-demokratik sistemlərə qarşı mübarizədə potensial müttəfiq kimi baxırdılar. Bu baxımdan nasional-sosialistlər avtoritar istiqamətli cərəyan olan bolşevizmə nifrət edərək sinfi mübarizəyə qarşı çıxırdılar.

Nasional-sosialistlər ölkədə mülki hüquq sistemini təkmilləşdirdilər. "Vətəndaşlıq haqqında qanun"a əsasən ölkə əhalisi iki dərəcəyə - vətəndaş və təbəələrə bölündü. Almanlar vətəndaş, digər xalqların nümayəndələri isə təbəə elan edildilər. Bütün sosial və siyasi hüquqlar vətəndaşa verildi. Ari xalq dövləti bütün hüquq sisteminə tətbiq edildi. Vətəndaş hüquqi münasibətlərin ali subyekti elan olundu.

Cinayət hüququ təkmilləşdirildi. Şəxsiyyətin törətdiyi cinayətlərinə görə deyil, dövləti cinayətlərə görə məsuliyyəti ağırlaşdırıldı. Dövləti cinayətlərin dərəcələri genişləndirildi. Təkcə dövlətə qarşı cinayət törədənlər deyil, eyni zamanda nasional-sosialist ideyalarına tərəfdar çıxmayanlar "xalq düşməni" hesab edilirdilər. Vəzifəli şəxsə qarşı cinayətə görə ölüm hökmü və ya 15 il həbs cəzası nəzərdə tutulurdu. Vəkil sistemi tamamilə dövlətin

nəzarətinə keçdi. 1933-cü ildə dövlət və hökumət əleyhinə olan çıxışlar üzrə cinayətlərə baxmaq üçün xüsusi məhkəmələr yaradıldı. Belə məhkəmələr partiyanın üç üzvündən ibarət olurdu. İşin adi, yoxsa xüsusi məhkəməyə göndərilməsini prokuror müəyyənləşdirirdi. Xüsusi mühüm işlərə baxmaq üçün 1936-cı ildə Xalq Məhkəməsi təsis edildi. Bu məhkəmə mövcud olduğu müddətdə 5 min adama ölüm hökmü kəsdi.

Nasional-sosialistlərin hakimiyyəti illərində dövlət-siyasi strukturunun əsasını rəsmi olaraq xalq hakimiyyəti təşkil edirdi. Dövlət həyatı üçün mühüm əhəmiyyət kəsb edən bütün məsələlər plebisist yolu ilə həll olunurdu. Faşist rejimlərindən fərqli olaraq nasional-sosialistlər xalq ruhunu məhv etmək deyil, onu qaldırmaq məqsədi güdürdülər. Başqa ölkələrdəki faşist rejimləri dövlət strukturuna xalq ruhunu total cəmləşdirən vasitə kimi, nasional-sosialistlər isə ona yalnız formal olaraq baxırdılar. Dövlət idarəçiliyi sistemi cəmiyyətin qarşısında duran bu və ya digər problemləri tənzimləməkdən daha çox fərdi və ümumi milli ruhu qaldırmaq, nasional-sosialist hərəkatını genişləndirmək kimi strateji məqsədlərə yönəlmişdi. Dövlət xalqın iradəsini ifadə edir, Nasional-Sosialist Partiyası isə bu işi yalnız həyata keçirirdi. Başqa faşist dövlət sistemlərindən fərqli olaraq reyxdə nasional-sosialistlərin vəziyyəti daha möhkəm idi. Onlar siyasi hakimiyyəti, ordu və idarəçiliyi tam ələ keçirdilər, kilsəni siyasi həyata təsir etməkdən uzaqlaşdırdılar.

1934-cü il iyul qanunu ilə bütün dövlət institutları üzərində partiya nəzarəti quruldu. Fürerin partiyada müavini, portfelsiz nazir olan Rudolf Gess 1933-cü ildən bu işi həyata keçirməyə başladı. 1941-ci ildən isə həmin səlahiyyətlər xüsusi hüquqlarla Martin Bormana verildi.

Dövlət idarəçiliyi sistemi vahid şəklə salındı və ya unifikasiya edildi. Kollegiallıq prinsipinin tətbiq dairəsi məhdudlaşdırıldı. Subordinasiya və ya tabelik prinsipi gücləndirildi. 30-cu illərin sonunda məmurların artıq 70%-i nasional-sosialistlərin

nümayəndələri idi. Unifikasiya siyasəti çərçivəsində Almaniyanın federativ quruluşu və yerli özünüidarə sistemi ləğv edildi. Nasional-Sosialist Partiyasının daxili strukturu olan hau, dairə və rayonlar ölkə ərazisinə tətbiq olundu. Hau bir qayda olaraq hərbi və inzibati dairələrlə üst-üstə düşürdü. İnzibati dairələrin başında duran ştathalterlər 1935-ci ildə qəbul edilən "İmperiya valiləri haqqında qanun"a əsasən fürer və reyxskanslerin siyasi direktivlərinin yerinə yetirilməsinə nəzarət etmək üçün bilavasitə məsuliyyət daşıyırdı. Onlar yerli partiya təşkilatlarının füreri - haulyayterləri idilər. 1937-ci ildə qəbul edilən "Məmurlar haqqında qanun"a əsasən dövlət qulluqçuları şəxsən fürer qarşısında məsuliyyət daşıyırdılar. Mövcud dövlət sistemində fürerin rolu böyük idi. Bütövlükdə dövlətin hüquq sistemi fürerçiliyə əsaslanırdı. Fürer partiya və dövlət ierarxiyasına daxil olmayan xarici siyasət üzrə kölgə kabineti və Müdafiə üzrə Nazirlər Şurası da yaratdı. 1939-cu il avqustun 28-də verilən qanunla bütün ali dövlət orqanlarının rəhbərləri bilavasitə fürer qarşısında məsuliyyət daşımağa başladılar.

Almaniyada nasional-sosialistlərin hakimiyyət başına gəlməsinə bir sıra daxili və beynəlxalq amillər təsir etdi. Daxili amillər əsasən aşağıdakılardan ibarət idi: Birinci, milliyyətçi şüarların irəli sürülməsi, Versal sülhünün ağır şərtlərinin ləğv edilməsi tələbləri və alman cəmiyyətində hökm sürən narazılıqlar nasional-sosializmi hakimiyyət başına gətirdi. Sülh müqaviləsinin şərtlərinin yerinə yetirilməsi xalqın ağır zəhməti hesabına başa gəldiyindən alman milləti onun ləğvi uğrunda mübarizə aparan qüvvəni dəstəkləyirdi.

İkinci, alman kapitalı və iri korporasiyalar Versal sülhünün təhqiredici şərtlərindən narazı olduğundan nasional-sosializmin hakimiyyət başına gəlməsinə kömək etdilər. Nasional-sosialistlərin proqramı bu korporasiyaların maraqlarına tam cavab verirdi.

Üçüncü, nasional-sosialistlərin yaşlı rəhbərlərə qarşı çıxıb gəncləri müdafiə edərək hakimiyyət orqanlarında görmək istəyi onların sosial bazasını daha gücləndirdi. Belə şəraitdə ölkədə

Veymar respublikasının dayaqları getdikcə zəifləyirdi.

Dördüncü, irqçiliyə əsaslanan nasional-sosilizm doktrinası dünya müharibəsində məğlub olmuş, əzab çəkən alman xalqını özünə cəlb edirdi. Bu doktrinaya görə almanlar ari irqə mənsub olan xalq kimi "yeni dünya qaydası"nı müəyyənləşdirməli idi.

Beşinci, hələ 20-ci illərin ortalarından nasional-sosialistlər bütün ölkə ərazisində partiya işini yenidən qurmuşdular. Nasional-Sosialist Partiyası artıq dövlət daxilində dövlətə çevrilmişdi. Partiyanın ideoloji, siyasi, iqtisadi, hərbi və b. strukturları çevik fəaliyyət göstərirdi. 1928-ci ildən partiyanın ərazi təşkilatları yaradıldı. Nəinki regionlar, hətta küçə və məhəllələrdə də partiya özəkləri quruldu. Partiya məhkəməsi yaradıldı. Fürerçiliyin piramidası quruldu. Hitler "pivəxana qiyamı"ndan sonra çevriliş və inqilabla deyil, seçki yolu ilə hakimiyyətə gəlməyə üstünlük verərək təbliğatı xeyli genişləndirdi. Nasional-sosialistlərin təbliğatı ictimai demoqoqluq xarakteri daşısa da həyata keçirilən tədbirlər xalqın həyat səviyyəsini yaxşılaşdırdığından onların gücünü daha da artırırdı.

Altıncı, protestant və katoliklər nasional-sosialistlərə tərəfdar çıxdılar.

Yeddinci, ölkədə nasional-sosialistlərin əleyhinə olan qüvvələr zəif idi. Onların zəifliyi isə bir sıra daxili səbəblərlə şərtlənmişdi. Artıq deyildiyi kimi, bu, nasional-sosialistlərin proqramının xalqın mənafeyinə cavab verməsi və tələblərinin ümumxalq xarakteri daşıması ilə bağlı idi. Nasional-sosialistlərin işsizliyi aradan qaldırmaq, sosial problemləri həll etmək, əmək münasibətlərini tənzimləmək şüarları və bunları həqiqətən həyata keçirmələri müxalifət qüvvələrini zəiflətdi. Onların "almanlar ərazisiz xalqdır", "həyati mənafe zonası" bəyan etmələri, irqçiliyi rəsmi doktrina kimi elan etmələri ölkədə ümumxalq rəğbəti qazandı. Nasional-sosialistlər açıqca bildirdilər ki, 80-100 mln. nəfər alman olmadan Almaniya dünyaya rəhbərlik edə bilməz.

Nasional-sosialistlərin əleyhinə olan qüvvələrin zəifliyinin bir

sıra beynəlxalq səbəbləri var idi. 30-cü illərdə dünyada hökm sürən avtoritar ab-hava, çoxlu diktatorçu rejimlərin mövcud olması, ABŞ-ın Avropa işlərinə "qarışmamaq" və İngiltərənin "sakitləşdirmə" siyasəti nasional-sosialistlərin əleyhinə olan qüvvələri zəifləndirdi. Ölkədə həmin qüvvələrin nüfuzu nasional-sosialistlərlə müqayisədə xeyli aşağı idi.

Nasional-sosialistlərin hakimiyyət başına gəlməsinə bir sıra xarici amillər də təsir etdi. Birinci, amerikan kapitalı Almaniya iqtisadiyyatında mühüm rol oynadığından ABŞ baş verən proseslərə sakit yanaşaraq ölkədə "Milli həmrəylik" hökumətinin qurulmasını dəstəkləyirdi. ABŞ eyni zamanda gələcəkdə Almaniyadan İngiltərə və Fransaya qarşı tarazlaşdırılmış siyasət yeritməkdə vasitə kimi istifadə etmək istəyirdi.

İkinci, Avropada formalaşan ictimai rəy də nasional-sosialistlərin xeyrinə idi. Artıq 1936-cı ildə Avropanın 20 ölkəsində təxminən 40 faşist partyiası fəaliyyət göstərirdi. Macarıstan, Finlandiya, Rumıniya və başqa ölkələrdə faşizmin dayaqları kifayət qədər güclü idi. Böyük Britaniya da nasional-sosialistlərin hakimiyyətə gəlməsinə soyuqqanlı yanaşdı. Avropa dövlətləri kommunizmi nasional-sosializmdən daha təhlükəli saydıqlarından onun hakimiyyətə gəlməsinə laqeyd münasibət bəslədilər. Avropa ölkələrində mövcud olan siyasi qüvvələr nasional-sosializmi kommunizmə alternativ hesab edilirdilər.

Hakimiyyətə gələn nasional-sosialistlər fəal xarici siyasət yeritməyə başladılar. Xarici siyasətdə Hitler geopolitik nəzəriyyəni əsaslandırdı. Bu nəzəriyyəyə görə bioloji dövlət, təbii sərhədlər və optimal coğrafi-iqtisadi rayonlar yaradaraq "yeni dünya qaydası" qurmaq strateji məqsəd olaraq qarşıya qoyuldu. Naisonal-sosialistlərin xarici siyasəti əsasən iki mərhələdən keçdi: 1933-1935-ci illər; 1935-ci ildən sonra. 1933-cü il fevralın 1-də dövlətin xarici siyasət məqsədlərinə dair hökumət dekreti verildi. Dekretdə xarici siyasətin vəzifələri aşağıdakı kimi müəyyənləşdirildi: yaşamaq hüququnun təsdiqi, azadlığın bərpası.

Nasional-Sosialist Partiyasında xarici siyasət şöbəsi yaradıldı. Şöbənin rəhbəri Rozenberq oldu. Bu dövrdə Almaniya hökumətinin əsas diqqəti Avropa ölkələri ilə ikitərəfli münasibətlərin qurulması və inkişafına yönəldi. Bildirilirdi ki, Avropada əlverişli bazarlar vardır, heç kəs Versal sülhünün əleyhinə gedə bilməz və Fransa ilə müharibə haqqında danışmaq hələ tezdir. Bununla belə, Almaniya müxtəlif üsullardan istifadə edərək Avstriyanın işlərinə qarışmağa başladı. 1934-cü il iyulun 25-də 14 nəfər nasist Avstriya kansleri Dolfusu öldürdü.

Almaniya 30-cu illərdə keçirilən beynəlxalq konfranslarda da fəal iştirak etdi. 1933-cü ilin fevral-iyul aylarında Cenevrədə keçirilən tərksilaha dair konfransda Almaniya nümayəndə heyəti silahların saxlanması sahəsində digər dövlətlərlə bərabərlik prinsipini təklif etdi: ya siz silahlarınızı Almaniya səviyyəsinə endirin, ya da Almaniya silahlarını sizin səviyyəyə qaldıracaqdır. Lakin bu təklif qəbul olunmadığından Almaniya 1933-cü il oktyabrın 14-də Millətlər Cəmiyyətinin konfransından, oktyabrın 16-da isə bütövlükdə bu təşkilatın üzvlüyündən çıxdığını bəyan etdi. Noyabrın 12-də keçirilən referendumda xalq Hitler hökumətinin müvafiq qərarını bəyəndi.

1933-cü il iyulun 20-də Hitler hökuməti ilə Roma papası arasında konkordat (müqavilə) imzalandı. Bu sənədə görə katolik kilsəsi ruhanilərə və dini ordenlərin üzvlərinə Almaniya ərazisində siyasi fəaliyyətlə məşğul olmağı qadağan etdi. Bundan sonra yepiskop və arxiyepiskoplar yalnız hökumətin sanksiyası ilə təyin oluna bilərdi.

1935-ci ildən başlayaraq nasional-sosialistlər Versal sülh müqaviləsinin şərtlərini daha ciddi surətdə təftiş etməyə başladılar. Həmin ildə Saar vilayətində keçirilən plebisist nəticəsində xalqın istəyi ilə bu ərazi Almaniyaya birləşdirildi. 1936-cı ilin martında Reyn hərbsizləşdirilmiş zonası tutuldu. Həmin ildə Almaniya və İtaliya müttəfiqlik haqqında sənəd imzalayaraq "Berlin-Roma oxu"nu yaratdılar. 1936-37-ci illərdə Almaniya, Yaponiya və İta-

liya "Antikomintern paktı"nı imzaladılar. 1936-39-cu illərdə isə Almaniya İspaniyada gedən vətəndaş müharibəsinə müdaxilə etdi. 1938-ci ilin mart ayında Almaniya Avstriyanı özünə birləşdirdi. Bununla kifayətlənməyən Hitler 1938-ci il sentyabrın 29-30-da Münhendə Çemberlen, Daladye və Mussolininin iştirakı ilə Çexoslovakiyanın əsasən almanlar yaşayan Sudet vilayətinin Almaniyaya birləşdirilməsinə nail oldu. 1939-cu ilin may ayında Almaniya və İtaliya "Polad paktı"nı imzaladılar. 1939-cu il avqustun 23-də Almaniya ilə SSRİ arasında 10 il müddətinə hücum etməmək haqqında pakt və gizli protokol imzalandı. Sentyabrın 1-də Almaniya Polşaya qarşı müharibəyə başladı. Böyük Britaniya və Fransa Polşa qarşısında götürdükləri öhdəliyə uyğun olaraq sentyabrın 3-də Almaniyaya müharibə elan etdilər. Beləliklə, ikinci dünya müharibəsi törədildi.

## Üçüncü reyxin iflası

Müharibənin birinci ili böyük qələbələr haqqında Almaniyada hay-küy yaratdı. İlk zamanlar Almaniyanın qitədə mövqeləri xeyli möhkəmləndi. İşğal edilmiş ölkələrdən çoxlu məhsul və zəngin xammalın gətirilməsi Almaniyanın iqtisadi vəziyyətini yaxşılaşdırdı. Alman xalqında qələbəyə olan inam yüksəldi. 1942-ci il aprelin 26-da reyxstaqın qərarı ilə Hitlerə millətin rəhbəri, ali baş komandan, hökumətin və ali məhkəmənin başçısı, partiyanın fürerı səlahiyyətinin verilməsi qəti olaraq təsdiq edildi.

Hərbi əməliyyatların gedişində antihitlerçi koalisiyaya daxil olan ölkələr üçün əsaslı dönüşün yaradılması və ağır hərbi xərclər Almaniyanın iqtisadi-sosial vəziyyətini ağırlaşdırdı. 1943-cü ildə əmək mükəlləfiyyəti 16-65 yaşlı kişilərə və 17-45 yaşlı qadınlara aid edildi. Kartoçka sistemi tətbiq olundu. Alman ictimai rəyində qələbəyə olan inam azalmağa başladı. Xalqın qələbə ruhunu qaldırmaq üçün genişlənən rəsmi təbliğat da elə bir nəticə vermədi.

Gözlənilən qələbəyə böyük ümidsizlik, həyat şəraitinin pisləşməsi və müharibədə verilən böyük canlı itkilər ölkə rəhbərliyindən olan narazılığı gücləndirdi. Belə vəziyyətdə yüksək rütbəli zabitlər sui-qəsd hazırladılar. K.fon Ştaufenberqin başçılığı ilə 1944-cü il iyulun 20-də Hitlerə qarşı törədilən sui-qəsd uğursuzluqla nəticələndi. İyulun 30-da Hitler "Terror və sabotaj haqqında" əmr verdi. Əmrə görə sui-qəsddə şübhəli bilinənlərə və antifaşist hərakatla əlaqəsi olanlara qarşı dəhşətli repressiya tədbirləri həyata keçirildi. Məhkəmələrin hökmü ilə 50 min adam öldürüldü, minlərlə şəxs həbsxana və düşərgələrə salındı.

Vəziyyətdən çıxmaq üçün Almaniya rəhbərliyi ölkədəki bütün maddi və insan ehtiyatlarını geniş səfərbərliyə aldı. 1944-cü il sentyabrın 25-də Hitlerin əmri ilə yaradılan xalq könüllü dəstələrinə 16-60 yaşadək olan kişilər cəlb edildilər. Vermaxt zabitləri bu dəstələrə rəhbərlik etməkdən uzaqlaşdırıldılar. Onlar nasional-sosialist zabitlərin komandanlığı altına keçdilər. Lakin bu cəhdlər də uğurla nəticələnmədi. Artıq 1944-cü ilin sonunda hərbi əməliyyatlar Almaniya ərazisinə keçirildi. İdarəetmə sistemini və ölkə iqtisadiyyatını böhran bürüdü. Həyat fəaliyyəti üçün zəruri olan sosial və iqtisadi strukturlar dağıdıldı. Qaçqınların köçürülməsi qarışıq hal aldı. Ölkə idarəolunmaz həddə çatdı. Alman xalqını bürüyən psixoloji böhran hakim dairələri də əhatə etdi. Çarəsiz qalan Hitler 1945-ci il aprelin 30-da özünü öldürdü. Mayın 8-də isə Almaniya danışıqsız təslim olmaq haqqında aktı imzaladı. Beləliklə, Üçüncü reyx iflasa uğradı. Alman xalqının tarixində yeni dövr başlandı.

# III BÖLÜM

## BÖYÜK BRİTANİYA

### Birinci dünya müharibəsinin İngiltərə üçün nəticələri

Birinci dünya müharibəsinin İngiltərə üçün ağır sosial-iqtisadi nəticələri oldu. Müharibədə qalib gəlməsinə baxmayaraq ölkəyə böyük ziyan dəydi. Hərbi əməliyyatların gedişində 875 min nəfər öldü, 2 mln. nəfər yaralandı. İngiltərə dünyadakı mövqelərini möhkəmləndirmək istəsə də buna nail ola bilmədi. Böyük Britaniyadan fərqli olaraq ABŞ və Yaponiyanın beynəlxalq mövqeləri xeyli gücləndi. Müharibə nəticəsində İngiltərə yalnız öz müstəmləkələrini genişləndirə bildi. Müharibə illərində ingilis hərb sənayesi inkişaf etsə də bütövlükdə ölkə iqtisadi cəhətdən zəiflədi. Xammal və işçi qüvvəsinin çatışmaması ucbatından köhnə sənaye sahələri geri qalırdı. Bundan fərqli olaraq sənayenin yeni sahələri - kimya, avtomobil, aviasiya, poladəritmə və hərb sənayesi xeyli inkişaf etdi. Müharibənin sonunda İngiltərə sənayesində qeyri-bərabər inkişaf özünü aydın şəkildə göstərdi.

Ölkədə sənaye və kapitalın təmərküzləşməsi gücləndi. Hərbi sifarişləri yerinə yetirən ingilis inhisarları xeyli varlandılar. Kiçik müəssisələrin bir çoxu sıradan çıxdı və iri sənaye müəssisələri yarandı.

Müharibə ölkənin maliyyə sisteminə zərbə vurdu. Daxili və xarici borclar artdı. Dövlət borcu əgər 1914-ci ildə 645 mln. funt sterlinq idisə, 1918-ci ildə bu rəqəm 12 dəfə artaraq təqribən 7,8 mlrd. funt sterlinqə çatdı . İngiltərənin ABŞ-a olan hərbi borcu 1919-cu ildə 850 mln. fund sterlinq və ya təxminən 4 mlrd. dollar oldu. Bütövlükdə ABŞ-a olan borc 5,5 mlrd. dollar təşkil etdi. Xaricə kapital qoyuluşu 25% azaldı.

Sənaye istehsalının 20%-dən çox azalması xarici ticarətə mən-

fi təsir göstərdi. Ölkənin xarici ticarəti 2 dəfə azaldı, idxal isə artdı.

Hərbi əməliyyatların gedişində İngiltərə milli sərvətlərinin 1/3-ni itirdi. Dünyanın maliyyə mərkəzi London sitidən Nyu-Yorkda Uoll Stritə keçdi. Ölkə ticarət donanmasının 70%-dən məhrum oldu. Bununla belə, Britaniya donanması dünyadakı möhtəşəmliyini hələ də qoruyub saxlayırdı.

Müharibə illərində ölkədə kənd təsərrüfatı sahələri genişləndi və məhsullarının istehsalı artdı.

Hərbi əməliyyatların aparılması üçün yüngül və yeyinti sənayesi məhsullarına olan tələbat Böyük Britaniyanın müstəmləkələrində iqtisadi inkişafa kömək etdi. Müstəmləkələrdə müasir sənaye sahələri yaradıldı. Nəticədə bu ərazilərdə yeni ictimai münasibətlər və millətlər formalaşdı. Müstəmləkələrdə, xüsusən Hindistan və Misirdə milli-azadlıq hərəkatı genişləndi.

## Lloyd Corc hökumətinin daxili və xarici siyasəti

Müharibənin başa çatması dinc dövrə xas olan bir sıra problemlərin həllini irəli sürdüyündən hökumət fəal daxili siyasət yeritmək xəttini tutdu. 1918-ci ildən İngiltərədə iqtisadi yüksəliş müşahidə olunmağa başladı. Bu yüksəlişin bir sıra səbəbləri var idi. Müharibədən sonra ölkə əhalisinin ehtiyacları artdı. Tərxis olunan əsgərlər işlə təmin edildilər. Dağıdılmış təsərrüfatın bərpası üçün işçi qüvvəsinin çatışmazlığı işsizliyi xeyli azaltdı. 1916-cı ildən baş nazir olan liberal L.Corcun (1863-1945) liberal, mühafizəkar və leyboristlərdən təşkil olunmuş koalisiyalı hökumətinin hələ 1917-ci ildə qəbul etdiyi "İqtisadi və siyasi yenidənqurma proqramı"na uyğun olaraq ölkə təsərrüfatının bərpasına başlanıldı. Qısa müddət ərzində çuğun əridilməsi və gəmi tikintisi artdı. Bununla belə, müharibədən sonrakı ilk illərdə dövlət büdcəsinin 40%-i hərbi borcların ödənilməsinə sərf edilirdi.

Sosial sahənin inkişafına xüsusi diqqət yetirildi. Tərxis olunan əsgərlərə ev və işə düzələnədək yardım verildi. Müharibə başa çat-

dıqdan sonra hərbi istehsala olan tələbatın azalması nəticəsində iş yerlərini itirən fəhlələrə yardımlar edildi. Mənzil tikintisinə və təhsil məsələlərinə çoxlu vəsait ayrıldı. 1918-ci ildə ölkədə yeni təhsil islahatı həyata keçirildi. "Fişer islahatı" ilə tanınan bu islahata görə 14 yaşınadək uşaqların təhsil alması məcburi oldu. Pulsuz ibtidai təhsil tətbiq edildi. İslahat ölkədə təhsil müəsisələrinin tikilməsi və savadsızlığın ləğvində başlıca rol oynadı.

Uşaq əməyindən istifadəni birdən-birə ləğv etmək xeyli çətin olduğundan hökumət bu işə nəzarəti yerli hakimiyyət orqanlarına tapşırdı. Həmin orqanlar uşaq əməyindən istifadəni məhdudlaşdıraraq tədricən aradan qaldırmalı idilər.

Siyasi sistemin təkmilləşdirilməsi sahəsində də tədbirlər işlənib hazırlandı. 1918-ci ilin əvvəlində ölkədə seçki islahatı həyata keçirildi. Bu qanuna görə 21 yaşına çatan kişilərə və 30 yaşına çatan qadınlara səsvermə hüququ verildi. Yeni seçki qanununun qəbulundan sonra ölkədəki seçicilərin ümumi sayı 8 mln. nəfərdən 21 mln. nəfərə çatdı. Bundan fərqli olaraq seçki dairələrinin sayı azaldıldı.

Leyboristlər seçki ərəfəsində partiyanın yeni proqramını dərc etdilər. S.Vebb və A.Henderson tərəfindən hazırlanan proqramda sosial-iqtisadi sahədə bir sıra radikal tədbirlərin, o cümlədən strateji əhəmiyyətli sahələr olan dəmiryolları, ticarət gəmiçiliyi, daş kömür sənayesi, hərbi və elektrik enerjisi istehsalı ilə məşğul olan müəssisələrin milliləşdirilməsinin həyata keçirilməsi, minimum əmək haqqının müəyyənləşdirilməsi, 8 saatlıq iş gününün tətbiqi nəzərdə tutulurdu.

Seçki ərəfəsində liberallar arasında narazılıq gücləndi. H.Askvit ənənəvi sərt siyasəti davam etdirməyi, L.Corc isə koalisiyanı möhkəmləndirməyi təklif edirdi. Partiya daxilində hökm sürən belə mübahisəli vəziyyətdə onların əleyhinə olan leyboristlər koalisiyalı hökumətdən çıxdılar. Nəticədə ölkədə hökumət böhranı yarandı. Yeni seçkilər təyin edildi. Seçki qanununa əsasən 1918-ci il

dekabrın 14-də hərbi vəziyyət hələ ləğv edilmədiyindən parlamentə komanda ilə, kuponla seçkilər və ya "gümüşü seçkilər" adlandırılan seçkilər keçirildi. Seçkilər nəticəsində icmalar palatasındakı 707 yerdən 484-ünü mühafizəkar və liberallar aldılar. Bunun 348 mandatı mühafizəkarların, 136-sı liberalların idi. Leyboristlər isə 60 deputat yerinə sahib oldular. L.Corcun başçılığı ilə koalisiyalı hökumət yaradıldı. Bu hökumətdə L.Corcun müavini Mühafizəkarlar Partiyasının lideri Bonar Lou, müdafiə naziri Uinston Çerçil, xarici işlər naziri isə Lord Kerzon təyin edildilər. Hökumət 1922-ci ilə qədər hakimiyyətdə qaldı. Yeni hökumətin başlıca şüarı "İngiltərəni oyadın" oldu. L.Corcun hakimiyyəti illərində daxili siyasətdə bir sıra islahatlar həyata keçirildi. Baş nazir ölkəni qəhrəmanlarına layiq edəcəyini bildirdi. İstehsal üzərində dövlət nəzarəti ləğv edildi. Bundan fərqli olaraq dövlətin sosial funksiyaları artırıldı. 1919-cu ildə funt sterlinqin qızıla olan paritetinin ləğv edilməsi sənaye istehsalının artımına müsbət təsir etdi.

Bununla belə, İngiltərədə ictimai-siyasi hərəkatlar da mövcud idi. 1919-cu ildə ölkəni tətil hərəkatı bürüdü. İşçilər əmək haqqının artırılmasını, iş həftəsinin azaldılmasını və həmkarlar ittifaqlarının yaradılması hüquqlarının bərpa olunmasını tələb edirdilər. Şotlandiyada 100 min fəhlə ümumi tətilə çıxdı. Hökumət güzəştə getdi. İşçilərin əmək haqqı artırıldı. Sənayedə 7 saatlıq iş günü tətbiq edildi.

Ölkədə dəmiryolçuların da tətilləri baş verdi. Nəticədə 6 mln. nəfərdən çox fəhlə iş həftəsinin azaldılmasına nail oldu.

1919-cu ildə Kommunist İnternasionalının yaradılması İngiltərədə sosialist və kommunist meyllərinin artmasına müəyyən təsir etdi. Həmin ilin may ayında Londonda Britaniya Sosialist Partiyası, Fəhlə Sosialist Federasiyası və Cənubi Uels Sosialist Cəmiyyəti nümayəndələrinin müşavirəsində Böyük Britaniya Kommunist Partiyasını yaratmaq məqsədi ilə birləşmiş müvəqqəti komitə təs' olundu. 1920-ci il iyulun 30-dan avqustun 1-dək k

qurultayda Böyük Britaniya Kommunist Partiyası yaradıldı. 1920-ci ildə bu partiyanın sıralarında yalnız 10 minədək üzv var idi. Lakin kommunistlərin sosial dayaqları çox zəif idi. Xalq sinfi mübarizə və inqilab təbliğ edən kommunistlərin arxasınca getmirdi. Cəmiyyətdə mərkəzçi və islahatçılıq əhval-ruhiyyəsi üstünlük təşkil edirdi.

1920-ci ilin sonlarına yaxın İngiltərəni bürüyən dərin iqtisadi böhran 1922-ci ilədək davam etdi. Böhrandan çıxmaq üçün hökumət tədbirlər proqramını həyata keçirdi. 1920-ci ilin avqustunda parlamentdə hökumətə fövqəladə səlahiyyətlərin verilməsi haqqında qanun qəbul olundu. Qanuna görə hökumət əleyhinə olan çıxışların qarşısını almaq üçün fövqəladə vəziyyət tətbiq edilməsi üzərində nəzarət qoyuldu. Fövqəladə vəziyyət tətbiq edilərkən hökumət qanun qüvvəsi daşıyan fərmanlar verə və istənilən tədbiri həyata keçirə bilərdi. Bu tədbirlərə baxmayaraq böhran ölkə iqtisadiyyatını ağır vəziyyətə saldı. 1921-ci ildə sənaye məhsulu müharibədən əvvəlki səviyyənin 68%-ni təşkil etdi. Bir il ərzində daş kömür çıxarılması 30%, çuqun və polad istehsalı 3 dəfə, xarici ticarət dövriyyəsi isə 1913-cü illə müqayisədə 2 dəfə aşağı düşdü. İstehsalın azalması işsizlik problemini yaratdı. İşsizlərin sayı 2 mln. nəfərə çatdı. Xalqın sosial-iqtisadi vəziyyəti xeyli ağırlaşdı.

Müharibə illərində daş kömür sənayesi üzərinə qoyulmuş dövlət nəzarəti 1921-ci ilin yazında ləğv edildi. 1921-ci ildə tred-yunionlar konqresinin Ali Şurası yaradıldı. Əmək haqqının azaldılmasına etiraz edən işçilərə qarşı şaxta sahibləri lokaut elan edərək milyon nəfərdən çox şaxtaçını işsiz qoydu. Hökumət həmin rayonlara ordu göndərdi. Tətil 1921-ci il aprelin 15-nə təyin olunsa da nə... n həmkarlar ittifaqlarının liderləri barışığa gedərək ...dilər. Fəhlələr bu günü "qara cümə" adlandırdılar. ...çilər arasında anlaşma əldə olundu. Nəticədə ...tı zəiflədi.

...iltərənin daxili ictimai-siyasi həyatı üçün ən ...ya məsələsi idi. Məqsədi müstəqil İrlandiya

dövləti yaratmaqdan ibarət olan şinnfeynerlər (biz özümüz üçün) hərəkatı gücləndi. Hələ 1914-cü ildə İrlandiyaya verilən qomrul-özünüidarəetmə hüququndan narazı qalan irlandlar 1916-cı ildə üsyan etmişdilər. İrlandiyanın şimal qraflıqlarında - Olsterdə yaşayan və İrlandiyada hakim olan katolik dinindən fərqli olaraq protestantlığa itaət edən çoxlu ingilis və şotlandlar da buna qarşı çıxdılar. İngiltərə ilə ittifaqa tərəfdar olanlar Olsterdə özünüidarəetmə sisteminin yayılmasına imkan vermədilər. Üsyan başladı. Şinnfeynerlər məğlub oldular. Bütün bunlara baxmayaraq, irlandlar 1918-ci ildə keçirilən parlament seçkilərində iştirak etdilər. İrlandlar üçün ayrılan 103 deputat yerindən 73-nü şinnfeynerlər qazandılar. Deputat seçilənlərin bir qismi həbsdə və mühacirətdə idi. İrlandiyalı deputatlar Londona gəlməkdən imtina etdilər. 1919-cu ilin yanvar ayında Dublində toplaşan 27 deputat irland parlamentini və İrlandiya Respublikasını yaratdı. Yeni respublikanın prezidenti şinnfeynerlərin lideri De-Valera oldu. İrland hökuməti quruldu. Tezliklə yerlərdə hakimiyyət orqanları yaradıldı və ordu təşkil edildi. İngiltərə hökumətinin yeni hakimiyyət orqanlarını ləğv etmək cəhdləri İrlandiya Respublika Ordusu ilə ingilis ordu hissələri arasında toqquşmaya gətirib çıxardı. İrlandiyada çoxlu qan töküldü. Lakin hökumət güzəştə getməyə məcbur oldu. Daxildə və bir sıra xarici ölkələrdə ictimai rəy qan tökülməsinin əleyhinə idi. Bununla belə, ölkədə İrlandiyaya müstəqillik verilməsinin əleyhdarları da var idi. 1921-ci il dekabrın 6-da L.Corc müstəqil İrlandiya dövlətinin yaradılmasına dair şinnfeynerlərlə saziş imzaladı. Olster və şimaldakı altı qraflıq İngiltərəyə birləşdirildi. Lakin Olsterdə dini zəmində vətəndaş qarşıdurması kəsilmədi. Cənubdakı 26 qraflıq paytaxt Dublin olmaqla İrlandiyada qaldı. İrlandiya Respublikasında ingilis hərbi-dəniz bazası saxlanıldı. İrlandiyanın xarici siyasətinə İngiltərə nəzarət edirdi.

1921-ci il müqaviləsi irland xalqının milli-azadlıq mübarizəsində mühüm mərhələni təşkil etdi. Lakin şinnfeynerlərin içərisində bu müqaviləyə münasibətdə yekdil fikir yox idi. Şinnfeynerlərin

sağ qanadı müqaviləyə tərəfdar, sol qanadı isə əleyhinə çıxırdı. Bu fikir ayrılıqları İrlandiyada vətəndaş müharibəsinin və dini münaqişənin törədilməsinə gətirib çıxardı. Şinnfeynerlərin böyük əksəriyyəti 1921-ci il müqaviləsini rədd edərək müharibəyə başladı. İrlandiyada vətəndaş müharibəsinin yeni mərhələsində De-Valeranın tərəfdarları 1923-cü ildə məğlub oldular. Respublikanın prezidenti şinnfeynerlərin radikal qanadının lideri Qriffits seçildi. Lakin bundan sonra da problem həll olunmadı.

L.Corc hökumətinin xarici siyasəti liberalizmə əsaslanırdı. Onun xarici siyasətinin başlıca strateji məqsədi zor tətbiq etmədən "lloydcorçizm prinsipləri" əsasında sabit beynəlxalq-hüquqi sistem yaratmaq və yeni dünya qaydasının təminatçısı olmaq idi. Lakin liberalizm Böyük Britaniyanın yeritdiyi imperiya siyasətindən tam şəkildə imtina etmək deyildi.

Bu illərdə İngiltərənin xarici siyasəti bir neçə istiqamətdə həyata keçirildi. Birinci dünya müharibəsi qurtarandan sonra İngiltərənin dominionları Kanada, Avstraliya, Yeni Zelandiya, Cənubi Afrika İttifaqı, Nyufaundlend və 1921-ci ildə İrlandiya Respublikası idi. Hökumət onlarla münasibətləri yaxşılaşdırmağa xüsusi diqqət yetirdi.

Avropa ölkələrinə və ABŞ-a münasibətdə ingilis diplomatiyası tarazlaşdırılmış xətt yeritməyə başladı.

Hökumətin xarici siyasətində mühüm yeri Paris sülh konfransında iştirak etmək tutdu. Burada Böyük Britaniya Almaniya müstəmləkələrinə və bir sıra türk ərazilərinə sahib olmağa çalışırdı. Konfransda ingilis-fransız ziddiyyətləri üzə çıxdı. İngiltərə nümayəndə heyəti Fransanın bir sıra təkliflərinin qəbul edilməsinə mane oldu. İngilis hökuməti 1920-ci ilin may ayında İraq, Fələstin, Transiordaniya, Tanqanika, Toqo və Kamerunun bir hissəsi və Sakit okeanda Nauru adaları üzərində rəsmi olaraq mandat aldı. İngiltərənin dominonları isə keçmiş alman müstəmləkələri olan Cənub-Qərbi Afrika, Samoa adası və Yeni Qvineya adasının alman hissəsi üzərində mandat qazandılar. Beləliklə, Böyük Britaniya əhalisi 5,5

mln. nəfər olan 21 mln. kv. km.-lik alman və əhalisi 4 mln. nəfər olan 500 min kv. km.-lik türk ərazilərini öz nəzarətinə keçirdi.

Qeyd etmək lazımdır ki, Lloyd Corc mandat sisteminə imperialist siyasətin davam etdirilməsi kimi deyil, beynəlxalq hüquqi məkanın mühüm hissəsi kimi baxırdı. Mandat sistemi öz suverenliklərini müstəqil qorumaq iqtidarında olmayan ölkələrə böyük dövlətlərin münasibətini tənzimləməli idi.

İngiltərənin xarici siyasətində Azərbaycan da mühüm yer tutdu. Dünya müharibəsi qurtardıqdan sonra 20 minlik müttəfiq ordu hissələri ingilis komandanlığı altında ikinci dəfə Azərbaycana gəldi. Lakin Paris sülh konfransının qərarlarına uyğun olaraq onlar ölkədən çıxarıldılar və Azərbaycan üzərində mandat İtaliyaya verildi. Paris sülh konfransında Böyük Britaniya və Azərbaycan Xalq Cümhuriyyəti nümayəndə heyətləri əlaqələr yaratdılar. Məhz xarici işlər naziri Lord Kerzonun təklifi ilə Antanta Ali Şurası Azərbaycanın müstəqilliyini de-fakto tanıdı. Azərbaycan bolşeviklər tərəfindən işğala məruz qaldıqdan sonra Bakıdakı ingilislər sovet hökuməti tərəfindən həbs edilsə də azad olundular. 1922-ci ilədək ingilis hökuməti Azərbaycana müəyyən maraq göstərərək müstəqil dövlətin bərpasına tərəfdar olduğunu nümayiş etdirdi.

Hökumətin xarici siyasətinin istiqamətlərindən biri müstəmləkələrlə münasibətlər idi. L.Corc müstəmləkələrlə iqtisadi əlaqələrin liberallaşdırılması və ənənəvi imperiya siyasətindən imtina edilməsinə tərəfdar olsa da mühafizəkarlar bu addımları Böyük Britaniyanın dünyadakı nüfuzuna vurulan zərbə kimi qiymətləndirirdilər. Mühafizəkarlar müstəmləkələrdə yeridilən siyasətin sərtləşdirilməsinə nail oldular. Lakin bu sahədə hökumət uğursuzluğa düçar oldu. Müstəmləkələrdə İngiltərə əleyhinə hərəkat yeni mərhələyə qədəm qoydu. 1919-cu ildə genişlənən milli-azadlıq hərəkatını zəiflətmək üçün ingilis hökuməti Hindistanın idarə olunması islahatına dair layihəni dərc etdi. Ancaq bu tədbirlər xalqı sakitləşdirmədi. 1919-cu il aprelin 13-də Amritsar şəhərində

keçirilən mitinqi ingilis generalı Dayer güllələbaran etdi. Nəticədə 379 nəfər öldü, 1200 nəfər yaralandı. Lakin bundan sonra ingilis hökumətinin kompromis xətt yeritməsi və həyata keçirdiyi islahatlar Hindistanda milli-azadlıq hərəkatını zəiflətdi.

İngiltərə 1914-cü ildən Misir üzərində qazandığı protektoratlığını 1919-21-ci illərdə ölkədə baş verən üsyan nəticəsində itirdi. 1922-ci ilin fevralında ingilis hökuməti prorektoratlığı ləğv edərək Misiri müstəqil krallıq elan etdi.

1919-cu ilin fevralında baş verən üsyan nəticəsində əmir Həbibulla öldürüldükdən sonra onun yerinə keçən Əmənulla xan Əfqanıstanı müstəqil elan etdi. Buna cavab olaraq 1919-cu ilin may ayında İngiltərə Əfqanıstana qarşı əməliyyatlara başlasa da milli-azadlıq hərəkatının qarşısında geri çəkildi. 1919-cu ilin avqust ayında Əfqanıstanla müqavilə bağlayan ingilis hökuməti onun daxili və xarici siyasəti üzərində nəzarətdən imtina etdi. Əfqanıstan müstəqillik qazandı.

İngilis hökuməti 1919-cu ilin avqustunda İranla müqavilə bağlayaraq iqtisadi və maliyyə əlaqələrini genişləndirdi. 1920-ci ilin aprelində Cənubi Azərbaycanda mərkəzi hökumətə qarşı üsyan başladıqda İran bunun təsiri altında 1921-ci ilin iyununda İngiltərə ilə müqaviləni pozdu.

L.Corc hökumətinin xarici siyasətinin istiqamətindən biri sovet Rusiyası ilə münasibətlər idi. İngilis hökuməti "bolşevizmi beşiyində məhv etməyə" çalışmasına baxmayaraq 1921-ci il martın 16-da RSFSR-lə ticarət sazişini imzaladı. Lakin hərbi nazir Çerçil və xarici işlər naziri Lord Kerzon Rusiya ilə münasibətlərin yaxşılaşdırılmasına qarşı qəti şəkildə çıxararaq bolşeviklərlə əlaqələrin qurulmasından xeyir gəlməyəcəyini bildirirdilər.

Hökumət xarici siyasətində Vaşinqton konfransına xüsusi diqqət yetirdi. Konfransda İngiltərə özünün ümumi vəziyyətinin ağırlığı ucbatından Sakit okean və Uzaq Şərqdəki mövqelərini çətinliklə qoruya bildi. ABŞ öz dəniz qüvvələrinin həcmini İngiltərəyə çatdırdı.

Lloyd Corc hökumətinin xarici siyasətində önəmli yeri Genuya konfransı tutdu. Konfransın çağırılması, gedişi və nəticələri Avropa işlərində İngiltərənin rolunun daha da artdığını göstərdi.

Hökumətin xarici siyasətində müəyyən yeri türk torpaqlarına sahib olmaq tuturdu. İngiltərənin Kiçik Asiyada başladığı hərbi əməliyyatlar türk xalqının güclü müqavimətinə rast gəldi. İngilis hökuməti Sevr müqaviləsinin şərtlərini həyata keçirməkdə çətinliklərlə qarşılaşdı. İngiltərənin müttəfiqləri olan Fransa və İtaliya öz ordularını türk ərazilərindən çıxarmaq məcburiyyətində qaldılar. İngiltərənin Türkiyəyə qarşı yeritdiyi siyasət uğursuzluqla nəticələndi. Tərəflər mövcud problemlərin dinc, danışıqlar yolu ilə həllinə üstünlük verdilər.

L.Corc hökumətinin xarici siyasətinə vurulan ən böyük zərbə də məhz türk xalqının ingilis-yunan müdaxiləçilərinə qarşı mübarizədə qazandığı tarixi qələbə oldu. Bu uğursuzluqdan sonra L.Corc parlamentdə həm öz partiyasının, həm də müxalifətin kəskin təpkiləri ilə üzləşdi. O, təzyiqləri azaltmaq və Mühafizəkarlar Partiyasını parçalamaq məqsədilə bu təşkilatın gənclər qadanını müdafiə etməyə, liberal-mühafizəkar hökumət qurmağa səylər göstərdi. Lakin Bonar Lou və Stenli Bolduin başda olmaqla ənənəvi mühafizəkarlar partiyanı hökumət blokundan çıxardılar. Beləliklə, L.Corc başda olmaqla liberallar parlamentdə azlıqda qaldılar. Daxili və xarici siyasətdə niyyətlərinə çatmayan hökumət yıxıldı. L.Corc hökumətinin istefası ölkədəki partiya-siyasi vəziyyətə ciddi təsir etdi. Liberallar Partiyasında hələ 1918-ci ildə baş vermiş parçalanma daha da dərinləşdi. Nəticədə Liberallar Partiyası son olaraq L.Corcun və H.Askvitin tərəfdarlarına bölündü.

## Bonar Lou hökuməti

L.Corcdan sonra 1922-ci ilin oktyabrında hakimiyyətə gələn Bonar Lou yalnız mühafizəkarlardan ibarət yeni hökumət yaratdı. Maliyyə naziri vəzifəsini Stenli Bolduin tutdu. Daxili siyasət

sahəsində hökumətin başlıca vəzifəsi ölkədə bərpa və yenidənqurma işlərini sona çatdırmaqdan ibarət idi. Bonar Lou hakimiyyətə gələn kimi parlament buraxıldı və noyabr ayında növbədənkənar seçkilər keçirildi. Seçkilərdə Mühafizəkarlar Partiyası 344, Leyboristlər Partiyası 138, parçalanmış Liberallar Partiyası birlikdə 117 yer (H.Askvitin tərəfdarları 60, L.Corcun tərəfdarları 57 yer) qazandılar. Liberallar Partiyası tamamilə nüfuzdan düşdü. Bu məğlubiyyət əslində sosial liberalizm prinsiplərinin, "lloydcorçizm"in ingilis cəmiyyətinin tələbatına cavab vermədiyini və partiyanın öz sosial bazasını itirdiyini təsdiq etdi. Seçkilərin nəticəsində ölkədə ikipartiyalı sistem formalaşdı. Bundan sonra əsas siyasi mübarizə leyboristlərlə mühafizəkarlar arasında getdi.

1923-cü ilin fevral ayında Bonar Lou hökuməti ABŞ-a olan 850 mln. funt sterlinq və ya təxminən 4 mlrd. dollar hərbi borc məsələsini həll etdi. Borcun ödənilməsinə dair iki ölkə arasında imzalanan müvafiq sazişə görə İngiltərə borcları ödəmək öhdəliyini öz üzərinə götürdü. Bunun müqabilində İngiltərənin ödəyəcəyi borc 30% aşağı salındı. İngilis hökuməti bu borcu ildə 3,5% olmaqla 62 il ərzində ödəməli idi.

İngiltərənin xarici siyasəti Yaxın və Orta Şərqdə xeyli fəallaşdı. Bu istiqamətdə xarici siyasətin başlıca məqsədi itirilmiş ingilis mövqelərini bərpa etmək idi. Lakin hökumət Yaxın və Orta Şərqdə sovet hökumətinin apardığı qatı antiingilis təbliğatı ilə üzləşdi. Sovet hökuməti "dünya kommunist inqilabı"nı yaymaq, mövqelərini möhkəmləndirmək və təbii sərvətlər ələ keçirmək məqsədilə bu ölkələrdən ingilislərin çıxarılmasına çalışırdı. Buna cavab olaraq İngiltərənin xarici işlər naziri Lord Kerzon 1923-cü il mayın 8-də Rusiyaya nota verərək İran və Əfqanıstanda İngiltərə əleyhinə təbliğat aparmağı dayandırmağı, ingilis balıqçı gəmilərini özbaşına tutub saxlamaqdan əl çəkməyi tələb etdi. Sovet hökuməti belə bir təbliğat aparmadığını bildirdi. Nəticədə iki ölkə arasında münasibətlər xeyli kəskinləşdi.

Rəsmi Londonun Rur avantürasını pisləyərək fransız

ordularının işğal olunmuş ərazilərdən çıxarılmasını tələb etməsi nəticəsində ingilis-fransız münasibətləri də pisləşdi.

Bonar Lounun hakimiyyəti uzun sürmədi. O, xəstəliyi ilə əlaqədar olaraq 1923-cü ilin may ayında istefaya getdi. Bundan sonra baş nazir Stenli Bolduin (1867-1947) oldu. Parlament buraxıldı və yeni seçkilər təyin edildi.

## Stenli Bolduin hökuməti

Mühafizəkarlar Partiyasının nümayəndəsi Stenli Bolduin ölkə iqtisadiyyatını gücləndirməkdən ötrü ciddi tədbirlər həyata keçirdi. O, proteksionizm siyasətini tətbiq etdi. Lakin proteksionizm sənayeçilər tərəfindən narazılıqla qarşılandı. Bolduin 1923-cü ilin dekabr seçkilərini də proteksionizm şüarı altında apardı. Lakin seçicilər də proteksionizm siyasətini qəbul etmədilər. Bununla belə, seçicilər mühafizəkarların rəqibləri olan leyboristlərə də üstünlük vermədilər. Leyboristlər məğlubiyyətə uğradılar. Seçkilərdə mühafizəkarlar 259 yer, leyboristlər 191 yer, liberallar isə 155 yer qazandılar. S.Bolduin yeni hökumət yaratdı. Lakin icmalar palatası bu hökuməti təsdiq etmədi. Belə olduqda yeni hökumət yaratmaq sosial dayağı əsasən fəhlələrdən ibarət olan Leyboristlər Partiyasının nümayəndəsi Ramsey Makdonalda (1866-1937) tapşırıldı.

## Birinci Leyborist hökuməti

R.Makdonald İngiltərə tarixində ilk dəfə olaraq Birinci Leyborist hökumətini qurdu. Seçkiqabağı kampaniyada əsasən populist şüarlar irəli sürən leyboristlər kapital üzərinə vergi qoymaq, işsizliyi aradan qaldırmaq, mənzil problemini həll etmək və bütün dünyada sülh yaratmaq vədlərini verdilər.

Birinci Leyborist hökuməti daxili siyasət sahəsində iqtisadi və sosial tədbirlərə xüsusi diqqət yetirdi. Lakin leyboristlər

parlamentdə azlıqda qaldıqlarından ciddi işlər həyata keçirə bilmədilər. "Uitli planı"na əsasən mənzil tikintisinə ayrılan xərclər artırıldı. İşsizlərə edilən yardımlar, fəhlələrə və əlillərə verilən pensiya çoxaldıldı, çay, qənd və ərzaq üzərinə qoyulan vergilər azaldıldı. Sosial sığorta qaydaya salındı. Bununla belə, hökumət işsizliyi ləğv edə bilmədi.

Leyborist hökuməti yeni dövlət büdcəsi layihəsini hazırladı. Proteksionizmdən və ticarətdə alınan əlavə rüsumlardan imtina edildi. Lakin bu, mühafizəkarların kəskin narazılığına səbəb oldu.

Birinci Leyborist hökuməti ordu quruculuğuna da xüsusi diqqət yetirdi. İngiltərənin dəniz hegemonluğunu təmin etmək məqsədi ilə hərbi-dəniz donanması artırıldı. Hərbi aviasiyaya çəkilən xərclər çoxaldıldı.

Makdonald hökumətinin xarici siyasəti mahiyyət və məqsədləri etibarı ilə mühafizəkar hökumətlərin davamı olsa da onun həyata keçirilməsi metodlarında yumşalma baş verdi. Xarici siyasətdə pasifist prinsiplər tətbiq edildi. İngilis diplomatiyası 1923-cü il Lozanna konfransında iştirak edərək Türkiyə ilə münasibətlərini tənzimlədi. Konfransda Süveyş kanalı üzərində Böyük Britaniyanın hüquqları təsdiq edildi. Hökumət müstəmləkə siyasətini davam etdirsə də İraq və Misirdə müharibələrin aparılması metodlarında dəyişiklik baş verdi. İngilis hökuməti 1923-1924-cü illərdə dominionlarla ziddiyyətləri zəiflətdi. Londonda keçirilən konfransda dominionlarla metropoliyanın azad və bərabərhüquqlu tərəfdaş statusu möhkəmləndirildi.

Birinci Leyborist hökuməti ABŞ-la münasibətləri gücləndirdi. Xarici siyasətin üstün istiqamətlərindən biri ABŞ-la əlaqələr oldu. Hökumət "Daues planı"nın tərtibində iştirak etdi.

Seçkiqabağı vədə əməl edən leyboristlər 1924-cü il fevralın 1-də SSRİ-ni diplomatik cəhətdən tanıyaraq əlaqələr qurdular. Avqustun 8-də isə iki ölkə arasında ticarət müqaviləsi imzalandı.

Makdonald hökuməti "fəhlə hökuməti" adlandırılsa da xalq, xüsusən fəhlələr ondan narazı idilər. Belə vəziyyətdə leyboristlərə,

mərkəzçi və islahatçı xətt yeridən tred-yunionlara müxalifətdə olan fəhlələr "azlıq hərəkatı"nda birləşdilər. Onların ilk ümumi konfransı 1924-cü ilin avqustunda keçirildi. Konfransda qəbul edilmiş proqramda əmək haqqının artırılması, istehsalat prinsiplərinə əsasən həmkarlar ittifaqlarının yaradılması, istehsal üzərində fəhlə nəzarəti qoyulması və s. tələb edildi. Lakin kommunistlər Tom Mann və Harri Politin rəhbərlik etdiyi bu hərəkat uğur qazanmadı.

Leyborist hökuməti xalqın ümidlərini doğrulda bilmədi. Parlamentə seçki ərəfəsində mühafizəkarlar "Komintern məktubu"nu mətbuatda çap etdirdilər. Məktubda ingilis kommunistləri qanuni hökumətə qarşı silahlı üsyana çağırılırdılar. Bu hadisə leyboristlərin və kommunistlərin mövqeyinə kəskin zərbə vurdu. Leyboristlər SSRİ-nin bu hərəkətinə qəti etiraz etdilər.

Birinci Leyborist hökuməti öz planlarını həyata keçirə bilməyərək çətin vəziyyətə düşdü. Hökumət böhranı yarandı. Oktyabrın 9-da R.Makdonald istefaya getdi. Mühafizəkarlar hökumətin fəaliyyətini təhqiq edən xüsusi komissiya yaratdılar. Parlament buraxıldı və yeni seçkilər təyin edildi.

## Stenli Bolduin hökuməti

1924-cü il oktyabrın 29-da ölkədə növbədənkənar parlament seçkiləri keçirildi. Leyboristlər düşmüş olduqları çətin vəziyyətdən çıxmaq məqsədi ilə seçki kampaniyasında belə bir şüar irəli sürdülər: "Biz hökumətdə idik, lakin hakimiyyətdə deyildik". Ancaq leyboristlərin bütün cəhdləri özünü doğrultmadı.

Eyni zamanda Mühafizəkarlar Partiyası daxilində də vəziyyət gərgin idi. Parçalanmanın qarşısını almaq üçün mühafizəkarlar seçki ərəfəsində yeni proqram qəbul etdilər. Proqram partiyada olan narazılığı azaldaraq gənc torilərlə yaşlılar arasındakı ixtilafları həqiqətən yumşaltdı.

Seçkilərdə mühafizəkarlar 7,4 mln. səs toplayaraq icmalar

palatasındakı yerlərdən 413-nü qazandılar. Leyboristlər 151, liberallar isə 40 yer aldılar. Mühafizəkarların lideri S.Bolduin yeni hökumət yaratdı. O, 1929-cu ilədək baş nazir oldu. İngiltərə tarixində "Bolduin dövrü" başlandı. Yeni hökumətdə Hindistan işləri üzrə nazir Ç.Birkenhed, xarici işlər naziri O.Çemberlen, səhiyyə naziri onun kiçik qardaşı N.Çemberlen, maliyyə naziri isə U.Çerçil oldu. N.Çemberlen leyboristlərin dayaqlarını zəiflətməkdən ötrü dövlətin fəal sosial siyasət yeritməsinə tərəfdar idi.

Yeni qurulan hökumət elan etdiyi "Məqsədlər və prinsiplər" proqramını həyata keçirməyə başladı. Bu proqramın aparıcı ideyası mühafizəkar islahatçılıq idi. Proqramda mühafizəkarların, partiyada onların əleyhinə gedən gənc torilərin və hətta liberalların səmərəli ideyaları əks olunmuş, köhnə istiqamətlərdən imtina edilmişdi.

Hökumət liberallar kimi dövlətin himayəsi altında xüsusi sahibkarlığın inkişafına diqqət verdi. Daxili iqtisadi siyasətdə bu proqram iki ümumi istiqaməti nəzərdə tuturdu: sənaye istehsalının sərbəstləşdirilməsi və sabitləşdirilməsi; ölkənin maliyyə sisteminin sağlamlaşdırılması və möhkəmləndirilməsi.

Ölkə iqtisadiyyatının inkişafının başlıca mənbəyi müstəmləkə imperiyasının təbii sərvətləri hesab edilirdi. Milli istehsalı artırmaq üçün hökumət gəlir vergisini və əlavə gəlirə görə vergini azaltdı. Proteksionist rüsumlar yalnız müstəmləkələrlə birbaşa əlaqələr sahəsində saxlanıldı. Böyük Britaniya inhisarları dünya bazarında sərbəst iştirak etmək imkanı qazandılar. Nəticədə 1926-cı ildə bütün ingilis ixracının 1/3-i, idxalının isə 1/2-i Böyük Britaniya imperiyası ərazisində aparıldı. Metropoliyanın dominionlarla əlaqələri genişləndirildi.

Hökumətin daxili siyasət sahəsində apardığı islahatlar ölkə iqtisadiyyatının inkişafına səbəb oldu. İngiltərədə iqtisadi inkişafın başlıca özünəməxsusluqları kapital ixracının artması, beynəlxalq bank əməliyyatlarının səmərəli aparılması və əlverişli dəniz nəqliyyatı ilə bağlı idi. Hökumət sənayedə iş gününü 7 saatdan 8

saata qaldırdı. Ölkədə nəqliyyat sistemi inkişaf etdi. Aparılan uğurlu daxili siyasət nəticəsində 1929-cu ildə sənaye məhsulu istehsalı 1913-cü il səviyyəsini ötərək 100,6% təşkil etdi.

Qısa müddət ərzində istehsalın və kapitalın təmərküzləşməsi gücləndi. Lakin bu illərdə İngiltərənin daş kömür və metallurgiya sənaye sahələri texnika cəhətdn geri qalırdı. Onların bərpası üçün çoxlu vəsait lazım idi. Bu qədər vəsaiti əldə etmək xeyli çətin olduğundan hökumət əsas diqqətini köhnə sahələrin bərpasına deyil, yeni sənaye sahələrinin yaradılmasına yönəltdi. Məsələn, 1926-cı ildə İmperiya kimya tresti yaradıldı.

Ölkənin maliyyə sisteminin sağlamlaşdırılması sahəsində tədbirlər həyata keçirildi. 1922-ci ildən bəri dünyada Genuya qızıl-valyuta sistemi fəaliyyət göstərirdi. Bu standarta görə bank veksellərı, çekləri və akkreditləri sahəsində beynəlxalq ödənişlər başqa ölkələrdə xarici valyuta ilə ödənilirdi. Milli valyutaların kursunun müəyyənləşdirilməsi qızıl ehtiyatları ilə hesablanırdı. 1925-ci ilin aprelində milli maliyyə sistemini sağlamlaşdırmaq üçün funt sterlinqin qızıl standartı tətbiq edildi. Funt sterlinqin qızılla təminatı dövlət tərəfindən həyata keçirildi. Pul vahidlərinin sərbəst və məhdudiyyətsiz olaraq qızıla dəyişdirilməsinə icazə verildi. Nəticədə Böyük Britaniya valyuta sistemi beynəlxalq sahibkar dairələri tərəfindən etibarlı və qorunan sistem olaraq qəbul edildi. Qısa müddətdə ölkəyə xarici kapital axını və istiqrazlar gəldi. Bu məbləğ təxminən 1 mlrd. funt sterlinq təşkil edirdi.

Bununla belə, ölkədə sosial ziddiyyətlər də kəskin idi. Hökumətin sosial təminat haqqında proqramını qəbul etməsi bu ziddiyyətlərin yumşaldılmasına yönəldi. Proqrama əsasən pensiya yaşı 65-ə endirildi, pensiya ödənişləri artırıldı, imkansızlara yardımlar verildi və yerli özünüidarə orqanlarının hüquqları genişləndirildi.

Ancaq hökumət sərt büdcə siyasətinə keçdikdən sonra bu islahatların həyata keçirilməsi ləngidi. Sosial ziddiyyətlər daha da kəskinləşdi. Tətil hərəkatı artdı. Xüsusən ölkənin daş kömür

sənayesində böyük narazılıq hökm sürürdü. Şaxta sahibləri daş kömürün xarici bazarda rəqabət qabiliyyətinin artırılması və maya dəyərinin aşağı salınmasında maraqlı idilər. Lakin onlar buna köhnə şaxta avadanlıqlarının dəyişdirilməsi ilə deyil, fəhlələrin əmək haqqının azaldılması yolu ilə nail olmaq istəyirdilər. 1925-ci ilin yayında şaxta sahibləri iş gününün artırılması və əmək haqqının azaldılması barədə şərtləri mədənçilərə bildirdilər. Şərtləri qəbul etmədikləri təqdirdə onları işdən qovmaqla hədələdilər. Ancaq bu hədələr heç bir nəticə vermədi. Mədənçilərin federasiyası bu şərtləri rədd etdi. Dəmiryolçular, nəqliyyatçılar və maşınqayıranlar federasiyanın qərarını müdafiə etdilər. Nəticədə geri çəkilən şaxta sahibləri güzəştə getdilər. Hökumət mədənçilərin əmək haqqının əvvəlki səviyyəsini saxlamaq üçün mədən sahiblərinə 9 ay müddətində vəsait verməyi öhdəsinə götürdü. Bu, mühüm qələbə olduğundan həmin gün - iyulun 31-i "qırmızı cümə" adını aldı. Lakin münaqişə yenə də həll olunmadı. Doqquz aylıq müddət qurtardıqdan sonra, 1926-cı il aprelin 30-da şaxta sahibləri lokaut elan etdilər. Onlar müəssisələri bağlayıb fəhlələri işdən qovdular. Buna cavab olaraq işçilər lokauta qarşı çıxdılar. Ölkədə gərgin şərait yarandı. Problemi həll etmək üçün hökumət fövqəladə vəziyyət tətbiq etdi. Tred-yunionların Ali Şurası İngiltərə tarixində ilk dəfə olaraq ümumi tətilə çağırdı. Tətil mayın 4-də başladı. Ölkə əhalisinin 18 mln. nəfərinin iştirak etdiyi bu tətilin başlıca tələbi əmək haqqının azaldılmaması və iş gününün artırılmamasına təminat verilməsi idi. Tətilin gedişində bəzən yerli hakimiyyət orqanlarının funksiyalarını yerinə yetirən komitələr və fəaliyyət şuraları da yaradıldı.

Ölkədə qarşıdurma yüksək həddə çatdığından hökumət fəhlə çıxışlarını yatırmaq xətti götürdü. Təbliğat və ştreykbrexerçilik işə salındı.Tred-yunionların rəhbərləri olan D.Tomas, U.Sitrin və E.Bevin ümumi tətili qanunsuz elan edərək mayın 12-də onu dayandırdılar. Fəhlələr işə qayıtmağa məcbur oldular. Tətil hərəkatı məğlubiyyətə uğradı. Əmək haqqı azaldıldı, iş günü 8 saata

qaldırıldı.

Bununla belə, hökumət münaqişələri yumşaltmaq məqsədilə islahatlar keçirməyə başladı. 1927-ci ildə parlament "Sənayedə münaqişələr və həmkarlar ittifaqları haqqında qanun" qəbul etdi. Qanuna əsasən hökuməti hər hansı fəaliyyətə məcbur etməyə çağıran ümumi tətillər və başqasına hədə gələn kütləvi piketlər qadağan olundu.

1927-ci ildə sosial sahəyə dair iki qanun qəbul edildi. İşsizliyin aşağı həddi müəyyənləşdirildi. Bu qanunlara görə işsizlik ölkədəki əmək qabiliyyətli əhalinin 10%-nə qədər ola bilərdi. Hökumət işsizlərə yardım sistemini təkmilləşdirdi. Əgər işsiz həqiqətən iş axtarıb tapa bilməzdisə ona yardım edilirdi. İşsizlərə yardım göstərilməsi funksiyası yerli özünüidarə orqanlarına verildi və əvvəllər mövcud olan mərkəzləşdirilmiş himayəçilik ləğv edildi.

İstehsalın səmərəliliyinin artırılması və maddi-texniki bazasının modernləşdirilməsi gücləndirildi. Qəbul edilən qanunların tətbiqi müəssisələrin rentabelli işləməsinə kömək etdi.

Ölkədə əməklə kapital arasında ziddiyyətlərin yumşaldılması üçün tədbirlər görüldü. Həmkarlar ittifaqlarının rəhbərləri və sahibkarlar 1928-ci ilin yanvarında İmperiya kimya trestinin rəhbəri Alfred Mondun sədirliyi ilə başlıca məqsədi əmək münasibətləri sahəsində dövlət siyasətinin ümumi prinsiplərini işləyib hazırlamaqdan ibarət olan birləşmiş hökumət komissiyası yaratdılar. Tred-yunionların Ali Şurası ilə məsləhətləşən komissiya əməklə kapitalın barışdırılmasının ümumi prinsiplərini işləyib hazırlayaraq hökumətə təqdim etdi. Bu sənəddə göstərilirdi ki, istehsalın səmərəliliyinin artırılması fəhlələrin əlavə istismarı sayəsində ola bilməz.

Hökumət 1928-ci ildə Alfred Mondun irəli sürdüyü əmək və kapitalın barışdırılmasına, sosial ziddiyyətlərin aradan qaldırılmasına və tətillərin baş verməsinə qarşı yönələn tədbirlər sistemini qəbul etdi. Ölkədə sosial ziddiyyətlər yumşaldıldı. Bu, "mondizm" adlandırıldı. Müəssisə sahibləri ilə işçilər arasında münasibətlər

tənzimləndi.

Stenli Bolduin hökumətinin xarici siyasəti İngiltərənin beynəlxalq siyasi və maliyyə mövqelərinin möhkəmləndirilməsinə yönəldi. İngilis hökuməti həmin mövqeləri yeni metodlarla qorumağa çalışırdı. Bu illərdə İngiltərə xarici ölkələrə kapital qoyuluşunun 1/4 hissəsini itirməsinə baxmayaraq hələ də ABŞ-la yanaşı dünyanın maliyyə liderlərindən biri idi.

Hökumətin xarici siyasətinin istiqamətlərindən biri beynəlxalq sahədə çoxtərəfli əməkdaşlıq oldu. İngiltərə 1925-ci ildə Lokarno sazişlərini imzaladı və tərksilaha dair proqrama qoşuldu.

Stenli Bolduin hökuməti 1927-ci il mayın 27-də SSRİ ilə diplomatik münasibətləri kəsdi. Bu illərdə İngiltərə İtaliya ilə münasibətlərini genişləndirdi.

İngiltərə hökuməti Avropa siyasətində hegemonluğa can ataraq Fransa ilə Almaniya arasında mövcud olan ziddiyyətlərdən məharətlə istifadə etdi.

Dövlətin xarici siyasətində ABŞ-la münasibətlər xüsusi yer tutdu. İngiltərə bir tərəfdən Avropa və beynəlxalq siyasət məsələlərində ABŞ-ın müttəfiqi, digər tərəfdən isə ucuz xammal və əlverişli satış bazarları üstündə rəqibi olsa da dünya siyasətində bu iki ölkənin əməkdaşlığı və rolu getdikcə güclənirdi.

İngilis hökuməti Çində öz mövqelərini möhkəmləndirmək məqsədilə ölkədə güclənən milli-azadlıq hərəkatına qarşı fəal mübarizəyə başladı. 1925-ci il mayın 30-u Şanxayda çinlilərin nümayişi ingilis polisi tərəfindən atəşə tutuldu. Bu isə ölkədə İngiltərənin siyasətindən olan narazılığı daha da artırdı. Çində qarşıdurmanı zəiflətmək məqsədilə 1926-cı ildə ingilis hökuməti Çinə dair beynəlxalq müqavilələrə yenidən baxmağı və ölkənin daxili suverenliyini artırmaq məqsədilə təminat verməyi təklif etdi. İngiltərə-Çin münasibətlərində yumşalma baş verdi.

1926-cı ildə İngiltərə ilə dominionları arasında münasibətlərin tənzimlənməsi sahəsində mühüm qərarlar qəbul olundu. Dünya müharibəsindən sonra iqtisadi cəhətdən möhkəmlənən, millətləri

formalaşan və dövlətlərə çevrilən dominionlar xarici siyasət sahəsində də hüquqlarının verilməsini tələb edirdilər. İngilis hökuməti həmin tələblərin qarşısında geri çəkildi. Çünki dominionlar buna qədər müstəqil olaraq Versal sülh müqaviləsini imzalayıb bərabərhüquqlu üzv kimi Millətlər Cəmiyyətinə daxil olmuşdular. 1926-cı ildə İngiltərə ilə dominionların nümayəndələrinin İmperiya konfransı keçirildi. Konfransda tərəflər arasında qarşılıqlı münasibətlərin hüquqi normaları işlənib hazırlandı. Dominionlar daxili və xarici siyasətdə müstəqillik, İngiltərə ilə bərabərlik qazandılar. Beləliklə, dominionların istəyi yerinə yetirildi. Bununla belə, dominionlar Britaniya imperiyasının tərkibində qaldılar. İngilis kralı eyni zamanda dominionların da kralı oldu. Belə uğurlu siyasi qərarlar İngiltərə ilə dominionları arasında iqtisadi münasibətlərin inkişafına da müsbət təsir etdi. Ticarət - iqtisadi əlaqələr artıq daxili deyil, beynəlxalq iqtisadi münasibətlərin tərkib hissəsinə çevrildi.

## İkinci Leyborist hökuməti

1928-ci ildə ölkədə yeni seçki qanunu qəbul edildi. Qanuna görə qadın və kişilərin hüquqları bərabərləşdirildi. Bununla belə, 3 aylıq oturaq həyat tərzi, əmlak sahibi olmaq və universitet bitirmək senzi saxlanıldı. İşsizliyə görə yardım alan şəxslərin seçki hüququnun məhdudlaşdırılmasından imtina edildi.

Seçki ərəfəsində Mühafizəkarlar Partiyasında rəhbərlik uğrunda mübarizə qızışdı. Bu isə yeni mühafizəkarların seçkiqabağı cəlbedici proqramı irəli sürmələrinə mane oldu.

Mühafizəkarlardan fərqli olaraq leyboristlər "Leyborizm və millət" adlı yeni proqram işləyib hazırladılar. Proqram radikal islahatlardan çox uzaq idi. Leyboristlərin əvvəllər irəli sürdükləri milliləşdirmə tələbi "ictimai korporasiyalar" yaradılması ideyası ilə əvəz edildi. Cəmiyyətdə leyboristlərin nüfuzu xeyli yüksəldi.

1929-cu il mayın 30-da keçirilən parlament seçkilərində mühafizəkarlar məğlubiyyətə uğradılar. Leyboristlər 287, mühafizə-

karlar 260, liberallar isə 59 mandat əldə etdilər. Beləliklə, parlamentdə ilk dəfə böyük fraksiya yaradan leyboristlər təkbaşına hökumət qurmaqda digər partiyalara möhtac olmadılar. Leyboristlərin lideri R.Makdonald 1929-cu il iyunun 7-də İkinci Leyborist hökumətini yaratdı. Hökumətdə xarici işlər naziri Henderson, maliyyə naziri isə Snouden oldular.

İkinci Leyborist hökumətinin daxili siyasəti başlıca olaraq işsizliyə qarşı mübarizə proqramının həyata keçirilməsini, iş yerləri yaratmaq üçün köçürmə siyasətinin yerinə yetirilməsini və sosial sığorta sisteminin tətbiqini nəzərdə tuturdu. Hökumət bu proqramı radikal addımlar atmaqla deyil, digər partiyalarla ümumi razılığa gəlmək yolu ilə həyata keçirməyə başladı. Belə yol isə xeyli uzun olub çoxlu mübahisələr yaradırdı.

Hökumətin daxili siyasəti dünya iqtisadi böhranının və ya böyük böhranın başlanması ilə əlaqədar olaraq çətinliklərlə üzləşdi. Başqa ölkələrdən fərqli olaraq dünya iqtisadi böhranı İngiltərədə 1930-cu ildə başlandı. Bu böhrandan İngiltərə digər ölkələrə nisbətən az ziyan çəkdi. Ölkənin əsasən köhnə sənaye sahələrinə ziyan dəydi. 1929-cu ildə sənaye istehsalı 1913-cü illə müqayisədə 100,3%, 1932-ci ildə isə 82,5% təşkil etdi. 1929-cu il ilə müqayisədə 1933-cü ildə kömür çıxarılması 285 mln. tondan 208 mln. tona, çuqun əridilməsi isə 7,59 mln. tondan 3,57 mln. tona endi. İqtisadiyyata sərmayə və xaricə kapital qoyuluşu aşağı düşdü. Böhran nəticəsində xarici ticarət 2 dəfə azaldı və daxili ticarət ziyan çəkdi. Ölkənin beynəlxalq iqtisadi əlaqələri zəiflədi. Vəziyyətdən çıxmaqdan ötrü hökumət xarici ticarətdə proteksionizmi gücləndirdi.

Böhran aqrar sahəyə də zərbə vuraraq çoxlu depressiya rayonları yaratdı. Kənd təsərrüfatı istehsalı azaldı. Kəndlər boşaldı. Əmək qabiliyyətli əhalinin təxminən 25%-i işsizə çevrildi. Əhalinin vəziyyəti pisləşdi. Böhranın sosial nəticələrini yumşaltmağa çalışan hökumət 1930-cu ilin fevralında sosial sığorta və işsizliyə görə yardım verilməsi haqqında qanunu parlamentdən

keçirdi. Qanun işsizliyə görə yardım almaq yaşını 15 yaş müəyyənləşdirdi. Bütün işsizlərə 12 ay müddətində yardım verilməli idi.

Böhran ölkənin maliyyə sistemində də yarandı. Hökumət 1931-ci ildə rəsmi olaraq büdcə kəsirinin olduğunu etiraf etdi. Milli iqtisadiyyatı sağlamlaşdırmaqdan ötrü təkliflər hazırlayan kral komissiyası yaradıldı. Komissiyanın sədri iqtisadçı C.Mey oldu. Vəziyyəti dərindən araşdıraraq büdcə kəsirinin 120 mln. funt sterlinq olduğunu təsbit etdən komissiya böhrandan çıxmaqdan ötrü aşağıdakı təklifləri irəli sürdü: ciddi iqtisadi siyasətə keçmək zəruridir; dövlət sosial proqramları genişləndirməlidir; ictimai iş yerləri açılmalıdır.

Hökumət böhranın sosial nəticələrini zəiflətmək üçün ictimai iş yerləri yaratmaq sistemini tətbiq etdi. Əmək qabiliyyətli əhalinin bir qismi böhran rayonlarından köçürüldü.

Yerli banklar qısa müddətdə xaricə 1 mlrd. funt sterlinq pulu gizlin çıxararaq ölkənin maliyyə sisteminə zərbə vurduqlarından hökumət qızılın çıxarılmasının qarşısını almaq üçün tədbirlər həyata keçirdi.

Komissiyanın təklifləri, xüsusən xarici ölkələrdən kreditlər alınması məsələsi kəskin mübahisələr yaratdı. Makdonaldın özü və hökumətinin yalnız iki üzvü xaricdən kredit almağa razı oldular. Hökumət üzvlərinin çoxu kredit alınmasının əleyhinə çıxdılar. Bununla belə, hökumət ölkəni düşmüş olduğu vəziyyətdən çıxarmaq üçün ABŞ bankirlərinə müraciət etdi. Amerikan bankirləri kredit verməyə razı olduqlarını bildirdilər. Lakin iqtisadi böhran siyasi həyata da mənfi təsir etdiyindən ölkədə böhran xeyli dərinləşdi.

İkinci Leyborist hökumətinin xarici siyasəti başlıca olaraq İngiltərənin beynəlxalq mövqelərinin möhkəmləndirilməsinə yönəlmişdi.

Xarici siyasətdə müstəmləkələr və dominionlar məsələsi xüsusi yer tutdu. Yeni şəraitdə İngiltərə müstəmləkələrin idarə olunmasını təkmilləşdirməyə çalışırdı. 1930-cu ildə Hindistan

konstitusiyası hazırlandı. 1931-ci ildə İngiltərə parlamenti hələ 1926-cı ildə İmperiya konfransında bəyənilmiş qərarları təsdiq edərək "Vestminster statutu"nu qəbul etdi. Bu qanuna görə İngiltərənin dominionlarına daxili və xarici siyasət fəaliyyətində tamamilə suveren hüquqlar verildi. Bundan sonra Britaniya qanunları artıq onlar üçün məcburi deyildi. "Vestminster statutu" Britaniya Millətlər Birliyinin hüququ əsasını təşkil etdi. Dominionlar Britaniya Millətlər Birliyində birləşdilər.

İkinci Leyborist hökuməti xarici siyasət fəaliyyətində SSRİ ilə münasibətlərə xüsusi diqqət yetirdi. Leyboristlər verdikləri seçkiqabağı vədə əməl edərək 1929-cu il oktyabrın 3-də SSRİ ilə diplomatik münasibətləri bərpa etdilər. Lakin iki ölkə arasında münasibətlərdə soyuqluq hələ də qalırdı.

Leyboristlər hökumətinin xarici siyasətində Avropa ölkələri ilə münasibətlər özünəməxsus yer tutdu. İngiltərə Avropada Almaniya ilə Fransa arasındakı mövcud ziddiyyətlərdən istifadə edərək hegemon olmağa çalışırdı. 1930-cü ilin birinci yarısında Londonda İngiltərə, ABŞ, Yaponiya, Fransa və İtaliya arasında hərbi-dəniz donanmasının qurulması məsələsinə həsr olunmuş konfransda kreyser, esmines və sualtı qayıqların tikintisinin həcminin müəyyənləşdirilməsi haqqında sənəd imzalandı.

Almaniyanın təzminatı ödəməsini təxirə salmasına dair prezident Huverin təklifini ingilis hökuməti qəbul etdi.

Ölkənin daxili və xarici siyasətində yaranan problemlərin həll edilməməsi xalqın narazılığını xeyli artırdı. Sosial-siyasi ziddiyyətlər kəskinləşdi. 1930-cu ilin yanvarında işsizlərin yürüşü oldu. Belə şəraitdə ölkəni böhran bürüdü. İkinci Leyborist hökuməti 1931-ci ilin ortalarında böhrana qarşı mübarizədə gücsüz olduğunu etiraf etdi. Parlamentdə büdcə məsələsi müzakirə edilərkən R.Makdonald hökuməti istefaya getdi. Mühafizəkarlar Partiyası belə şəraitdə məsuliyyəti öz üzərinə götürmək istəmədi. Nəticədə R.Makdonaldın tərəfdarları olan milli leyborist, milli liberal və mühafizəkarlar "Milli koalisiya"ya girərək avqustun 24-

də "Milli hökumət" yaratdılar. Hökumətin başçısı yenə də R.Makdonald oldu. Koalisiyalı hökumətdə əsas vəzifələri mühafizəkarlar tutdular. Nevil Çemberlen maliyyə naziri oldu. Makdonald açıq şəkildə mühafizəkarlar tərəfə keçdi. Belə olduqda partiya yoldaşları onu Leyborist Partiyasının üzvlüyündən çıxardılar. Partiyada bu məsələnin müzakirəsi zamanı yalnız yeddi nəfər Makdonaldı müdafiə etdi. Belə olduqda Makdonald və tərəfdarları Milli Leyborist Partiyasını yaratdılar. Ancaq edilən dəyişikliklər ölkədə vəziyyəti düzəltmədi. Hökumət çətinliyə düşdü.

## "Milli hökumət"in daxili və xarici siyasəti

1931-ci il oktyabrın 27-də parlamentə keçirilən seçkilərdə "Milli koalisiya" qələbə qazandı. Koalisiya parlamentdə 497 deputat yerinə sahib oldu. Bunun 472-si mühafizəkarların idi. Liberallar 72, Artur Henderson başda olmaqla leyboristlər 46, milli leyboristlər 13, milli-liberallar 12 mandat qazandılar. Ölkədə "Milli hökumət" quruldu. Koalisiyalı olsa da əsas mövqelərin mühafizəkarlara məxsus olduğu hökumət fəal daxili siyasət həyata keçirməyə başladı. "Milli hökumət"in daxili iqtisadi siyasətinin iki əsas vəzifəsi var idi: iqtisadi planı reallaşdırmaq; büdcə xərclərindən səmərəli istifadə etmək. Bu vəzifələri yerinə yetirmək üçün hökumət başlıca diqqətini valyuta və idxal-ixrac sahəsinə yönəltdi.

1931-ci ildə ölkədə valyuta islahatı həyata keçirildi. Funt sterlinqin qızıl külçəyə dəyişdirilməsi və ya funt sterlinqin qızıl standartı ləğv edildi. Milli valyutanın dəyəri aşağı düşməyə başladı. 1931-ci ilin sentyabrından dekabrınadək onun dəyəri 30% endi. Lakin qızıl standartın ləğvi sənayenin inkişafına və məhsulun maya dəyərinin aşağı düşməsinə müsbət təsir göstərdi.

"Milli hökumət" 1931-ci ilin sonu - 1932-ci ilin əvvəllərində xarici ticarətdə proteksionizm siyasətini tətbiq etməyə başladı.

1932-ci ilin fevralında "İdxal rüsumları haqqında qanun"un qəbul edilməsi ilə proteksionizm siyasəti tətbiq olundu. İdxal olunan mallar üzərinə yüksək rüsumlar qoyuldu. Müstəmləkələrlə rüsumsuz ticarət tətbiq edildi. "Vicdansız idxal haqqında qanun"a müvafiq olaraq Ticarət Nazirliyi əmtəənin dəyərinin 100%-i həcmində rüsum qoya bilərdi. Qeyd etmək lazımdır ki, bu qanun müvəqqəti xarakter daşıyırdı. Elə həmin ildə İngiltərəyə gətirilən bütün mallar üzərinə 10% kömrük rüsumu qoyulması haqqında yeni qanun qəbul etdi. Bu rüsum hökumət tərəfindən artırıla bilərdi. Köhnə qanunun müddəaları ingilis mallarına qarşı ayrı-seçkilik xətti yeridən ölkələrə münasibətdə qüvvədə saxlanıldı. Proteksionizm siyasətinə keçid idxalı azaldaraq ölkə sənayesinin mövqelərini, bütövlükdə ingilis iqtisadiyyatını gücləndirdi.

Maşınqayırma, toxuculuq, gəmiqayırma, aviasiya və kimya sənaye sahələrində istehsalın təmərküzləşməsi və inhisarçılıq inkişaf etdi. Hərbi sənayenin inkişafına xüsusi diqqət yetirildi. Hökumətin yeritdiyi iqtisadi siyasəti nəticəsində sənaye modernləşdirildi. Aqrar bölmənin böhrandan çıxarılması üçün kreditlər ayrıldı.

Geniş sosial proqramlar həyata keçirildi. Yeni iş yerləri açıldı. 1931-ci ilin avqustunda işsizlərə yardım haqqında yeni qanun qəbul olundu. Qanuna görə mövsümi fəhlələr, ailəli qadınlar və fasiləsiz iş stajı olmayan şəxslər yardım almaqdan məhrum edildilər. 1932-ci ilin noyabrında "Ehtiyacın yoxlanması haqqında qanun" qəbul edildi. Qanuna əsasən yardımların ödənilməsi üzərinə ciddi nəzarət qoyuldu. Lakin işsizlik hələ də ağır sosial problem olaraq qalırdı. 1933-cü ildə işsizlərin sayı 3 mln. nəfər idi. Ölkədə işsizlər hərəkatı artdı. Onlar hökumətin kəsdiyi yardımların bərpasını və antifəhlə qanunlarının ləğvini tələb edirdilər.1934-cü ilin yanvarında Londonda Birlik və hərəkət konqresində xalqın həyat şəraitinin yaxşılaşdırılması tələb edildi. Müəssisələrdə, xüsusən toxuculuq sənayesində tətil hərəkatı gücləndi. Həmkarlar ittifaqlarında sol qüvvələrin təsiri artdı. 1934-cü ildə ölkədə kütləvi çıxışlar baş verdi. Bunlara qarşı Makdonald hökuməti ciddi

tədbirlərə əl atdı. Parlament 1934-cü ildə qiyama təhrik etmənin qarşısını almağa yönəldilən qanun qəbul etdi.

Yaranmış gərgin vəziyyətdə sol meyllərin artması təkcə hökuməti deyil, digər siyasi cərəyanları da narahat edirdi. Sol qüvvələrə qarşı çıxan faşist təşkilatları fəaliyyətlərini gücləndirdilər. Leyborist Partiyası İcraiyyə Komitəsinin keçmiş üzvü Osvald Mosli 1932-ci ildə Britaniya faşistləri ittifaqını yaratdı. Almaniyada nasional-sosialist hərəkatı ilə sıx bağlı olsa da İngiltərədə faşizmin sosial dayağı olmadığı üçün ictimai-siyasi həyatda özünə yer tuta bilmədi.

Bu zaman Leyborist Partiyası dərin böhran keçirirdi. Partiya üzvləri təşkilatın getdikcə nüfuzdan düşməsinin qarşısını ala bilmədiyi üçün rəhbərliyi kəskin tənqid edirdilər. Nəticədə 1932-ci ilin oktyabrında Artur Henderson partiya liderliyindən istefa verdi. Onun yerinə keçən sol leyborist Corc Lensberi də partiyanın nüfuzunu qoruyub saxlaya bilmədi.

"Milli hökumət"in xarici siyasət sahəsində başlıca məqsədi İngiltərənin beynəlxalq mövqelərinin gücləndirilməsi idi. Beynəlxalq işlərdə İngiltərənin əsas müttəfiqi ABŞ oldu. 1931-ci ilin sentyabrında ABŞ və Fransanın 100 iri bankı İngiltərəyə 80 mln. funt sterlinq istiqraz verdi.

Hökumətin xarici siyasətində dominionlarla qarşılıqlı münasibətlər xüsusi yer tutdu. Ölkənin maliyyə sistemini sağlamlaşdırmaq və funt sterlinqin dəyərini artırmaq məqsədilə 1931-ci ildə Britaniya imperiyasının iştirakı ilə 600 mln. əhalinin yaşadığı ərazidə valyuta ittifaqı yaradıldı. Valyuta ittifaqına daxil olan Britaniya Birliyi ölkələri, Latın Amerikasının çoxlu dövlətləri, həmçinin İran, Misir, Norveç, Finlandiya, Danimarka, İsveç, Yunanıstan və Portuqaliya öz milli valyutalarını funt sterlinqin kursuna uyğunlaşdırdılar. Həmin ölkələrin valyuta ehtiyatları Londonda saxlanılmağa başlandı. Blok dövlətləri ticarətdə vahid hesablaşmaya keçdilər. Bu, "Funt sterlinq bloku" adlandırıldı.

1932-ci ildə Ottavada (Kanada) keçirilən konfransda İngiltərə

ilə dominionları arasında iqtisadi münasibətlər tənzimləndi və bir sıra ticarət müqavilələri bağlandı. Bu müqavilələrə görə ingilis mallarının ixracı yaxşılaşdı və onlar rəqabətə davamlı oldular. Müqavilələr Birlik ölkələrinin bazarında proteksionizm siyasətini tətbiq edərək onları möhkəmləndirdi. Birlik daxilində idxal rüsumları tamamilə və ya qismən aradan qaldırıldı. Nəticədə ingilis sənayesi və bu ölkələrin iqtisadiyyatı inkişaf etdi. Artıq 30-cu illərin sonunda dünya ticarət dövriyyəsinin 30-40%-i ingilis milli valyutası ilə aparılırdı.

Hökumətin xarici siyasətinin istiqamətlərindən biri Avropa ölkələri ilə əlaqələr oldu. İngiltərə 1932-ci ildə keçirilən Lozanna konfransında dünya iqtisadi böhranı şəraitində Almaniyanın təzminatı ödəməsini dayandırması təklifini müdafiə etdi. İngiltərə həmin ildə tərksilaha dair Cenevrədə keçirilən konfransın iştirakçısı oldu. Hərbi xərclər və silah istehsalı artırıldı. İngilis hökuməti Avropada Almaniya və İtaliyanın təcavüzkar hərəkətlərinə münasibətdə bitərəfliyini nümayiş etdirdi. Almaniya ilə hərtərəfli saziş bağlamaq üçün 1935-ci ilin martında İngiltərə hökumətinin üzvləri Saymon və İden Berlində Hitlerlə görüşdülər. Hitler silahlanmanı gücləndirmək və Şərqi Avropada sərbəstlik qazanmaq istəklərini, Çexoslovakiya və Polşa ilə ərazi mübahisələrinin həll edilməsi zəruriliyini onların diqqətinə çatdırdı. Saymon Almaniyadan Londona, İden isə martın 28-də Moskvaya gəldi. Moskvada keçirilən görüşlərdə ikitərəfli və beynəlxalq məsələlər müzakirə edildi. Alman təcavüzünün qarşısını almağa dair ingilis təklifləri Sovet İttifaqı tərəfindən kifayət qədər ciddi nəzərə alınmadı.

İngiltərə Yaponiyanın Uzaq Şərqdəki hərbi təcavüzünü bəyəndi.

Lakin ölkənin daxili və xarici siyasətinin qarşısında duran problemləri uğurla həll edə bilməyən və özünü xalqın gözündə tamamilə nüfuzdan salan Makdonald 1935-ci ildə istefaya getdi.

## Stenli Bolduin hökumətinin daxili və xarici siyasəti

1935-ci ilin yayında hökumət yenidən formalaşdırıldı. İyun ayından ona Bolduin başçılıq etməyə başladı. Noyabr ayında isə parlamentə yeni seçkilər keçirildi.

Mühafizəkarlar seçkiqabağı kampaniyada daxili siyasət sahəsində heç bir nəzəri vədlər verməyərək əməli fəaliyyət göstərəcəklərini, xarici siyasət sahəsində isə beynəlxalq aləmdə kollektiv təhlükəsizlik sistemi yaratmaq və sülh uğrunda mübarizə aparmaq niyyətlərini bəyan etdilər.

Leyboristlər isə "Sosializm və sülh uğrunda" adlı yeni proqram qəbul etdilər. Əvvəlki "Leyborizm və millət" proqramından xeyli geniş olan bu proqramda bank, nəqliyyat, enerji sistemlərinin yenidən qurulması, daş kömür, gəmiqayırma və maşınqayırma sahələrinin bir qisminin milliləşdirilməsi irəli sürüldü. Bundan ötrü milliləşdirmə prosesinin hüquqi əsaslarının işlənib hazırlanması zəruriliyi göstərildi. Leyboristlər demokratiya və sülh ideyalarına sadiq olduqlarını bəyan etdilər. 1935-ci ildə leyboristlərin lideri Klement Ettli seçildi.

Liberal partiyasında isə bu zaman üç qruplaşma mövcud idi. L.Corcun tərəfdarları "Milli hökumət"lə əməkdaşlıq ideyasını rədd edirdilər. Con Saymonun milli liberalları hökumətilə əməkdaşlıq etməyə, Herbert Semuelin tərəfdarları isə əməli müxalifətdə qalmağa üstünlük verirdilər. Partiyanın yeni ideoloji platformasını tarixçi professor Ramsey Myuar və iqtisadçı Con Keyniz Meynardın 1928-ci ildə çap olunmuş "Britaniyanın sənaye gələcəyi" (buna bəzən "Sarı kitab"da deyilir) adlı kitabı oldu. Onlar dövlətin geniş sosial siyasət yeritməsinin, istənilən forma və təzahürləri ilə sosializmin əleyhinə çıxaraq fərdin azadlığını və rəqabəti irəli sürdülər. Buna görə dövlət cəmiyyətin inkişafının mexanizmlərini işləyib hazırlamalı idi. Bütün bunlar əslində "Keyniz inqilabı" olub "yeni kurs" mahiyyətini daşısa da liberalların proqramı geniş tərəfdar qazanmadı.

Seçkilərdə mühafizəkarlar 387, leyboristlər isə 154 yer aldılar. Hökuməti mühafizəkarlar təşkil etdilər. Baş nazir sənayeçi ailəsində doğulmuş və İngiltərənin mövqelərinin gücləndirilməsi uğrunda siyasəti fəal müdafiə edən S.Bolduin oldu. Hökumətdə xarici işlər naziri vəzifəsini Semuel Xor, maliyyə naziri vəzifəsini isə Nevil Çemberlen tutdular.

Bolduin hökumətinin daxili siyasəti başlıca olaraq ölkə iqtisadiyyatının sağlamlaşdırılmasına yönəldi. Hökumətin həyata keçirdiyi geniş iqtisadi və sosial tədbirlər nəticəsində iqtisadiyyat sağlamlaşmağa başladı. Sənaye və kənd təsərrüfatında yüksəliş əldə edildi. Əmək məhsuldarlığı 1932-37-ci illərdə 20% artdı. İqtisadi yüksəliş 1937-ciilədək davam etdi. İşsizliyin səviyyəsi xeyli aşağı düşdü. Əgər 1934-cü ildə ölkədə işsizlərin sayı 2 mln. nəfər idisə, 1935-37-ci illərdə 1,7 mln. nəfər oldu.

Hələ 1934-cü ildə parlamentin qəbul etdiyi işsizlərə yardım verilməsi haqqında qanun uğurla tətbiq edildi. Bolduin hökuməti ölkədə ictimai qayda-qanunu möhkəmləndirmək üçün tədbirlər həyata keçirdi. 1935-ci ildə qiyam, 1936-cı ildə isə ictimai qayda-qanun haqqında qanunlar qəbul edildi. Bununla belə, hakimiyyətin yuxarı dairələri arasında narazılıqlar da hökm sürürdü. 1936-cı ildə ölkənin siyasi həyatı qalmaqallarla müşayiət olundu. Həmin ildə vəfat edən kral V Georqun yerinə VII Eduard kral olmalı idi. Lakin duyğusal, əhlikef və subay olan VII Eduard 1937-ci ildə evləndikdən sonra kral olacağını bəyan etdi. Onun sevgilisi bundan əvvəl iki dəfə ailə qurmuş və boşanmış Uellis Simpson idi. Hökumət kral ailəsinin şərəfi üçün alçaldıcı olan bu nikaha qarşı çıxdı. Bolduin yaranmış vəziyyət haqqında VII Eduarda radio ilə çıxış etməyi qadağan etdi. Onun qarşısına iki şərt qoyuldu: ya həmin qadından imtina edib kral taxt-tacına yiyələnmək; ya da onunla evlənib kral taxt-tacından imtina etmək. VII Eduard kral taxt-tacından imtina etdi. Onun əvəzinə qardaşı VI Georq kral oldu. Beləliklə, böhran aradan qaldırıldı.

Bundan sonra ölkədə idarəçilik sisteminin daha da

təkmilləşdirilməsi davam etdirildi. 1937-ci ildə nazirlər haqqında qanunun qəbul edilməsi ilə icra hakimiyyətinin səlahiyyətləri xeyli genişləndirildi və baş nazir üstün hüquqlar aldı.

Bolduin hökumətində Makdonald da təmsil olundu. Nəşriyyat işləri naziri kim o, 1937-ci ildə Latın Amerikasında səfərdə ikən vəfat etdi.

Bolduin hökumətinin xarici siyasətində Avropa ölkələri ilə münasibətlər xüsusi yer tutdu. İngiltərə Almaniya və İtaliya ilə əlaqələrini sıxlaşdıraraq faşizmi "sakitləşdirmək" xəttini götürdü. 1935-ci ilin iyununda Almaniya və İngiltərə hökumətləri hərbi-dəniz sazişini imzaladılar. Bu sazişə görə Almaniyanın hərbi-dəniz donanması İngiltərə donanmasının 35%-i qədər ola bilərdi.

1935-ci il iyulun 15-də İngiltərə Almaniya, İtaliya və Fransa ilə birlikdə Versal sülh müqaviləsi ilə Almaniya üçün nəzərdə tutulan məhdudiyyətlərə yenidən baxılmasını mümkün sayan "Razılıq və əməkdaşlıq paktı"nı imzaladı.

İtaliya Həbəşistana hücum edərkən İngiltərə hökuməti Millətlər Cəmiyyətindən İtaliyaya qarşı iqtisadi sanksiyalar tətbiq olunmasını tələb etdi. Lakin bu tələb heç bir nəticə vermədi. 1935-ci ilin dekabrında Semuel Xor və Fransanın baş naziri Laval Həbəşistanın bir hissəsinin İtaliyaya verilməsini nəzərdə tutan saziş imzaladılar.

Hökumət 1936-cı ildə yeni silahlanma proqramını qəbul etdi. Həmin ildə Böyük Britaniya İspaniya işlərinə Avropa dövlətlərinin qarışmamasına dair sazişin işlənib hazırlanmasının iştirakçısı oldu. İngiltərə Sakit okeanda Yaponiya ilə digər dövlətlər arasında mövcud olan ziddiyyətlərdən məharətlə istifadə edərək Uzaq Şərqdə yaponların hərəkətlərini şirnikləşdirdi və regionda yapon hökumətini sabitliyin təminatçısı kimi qəbul etdi.

İngiltərənin xarici siyasətində mühüm yerlərdən birini Hindistan tutdu. Milli-azadlıq mübarizəsinin genişləndiyi bir vaxtda ingilis və hind ictimai-siyasi xadimlərinin nümayəndələri 1935-ci ildə yeni konstitusiyanı qəti hazırlayaraq qəbul etdirdilər. Hindistan

federasiya oldu. Hindistanlıların iştirakı ilə mərkəzi və yerli icraedici və qanunverici orqanlar yaradıldı. Hindistanda qarşıdurma və antiingilis əhval-ruhiyyəsi zəiflədi.

## Nevil Çemberlen hökuməti

1937-ci ildə "Milli hökumət"in tərkibində dəyişiklik edildi. Stenli Bolduin istefaya getdi. Yeni baş nazir N.Çemberlen (1869-1940) oldu. Bolduinin istefaya getməsi onun başlıca olaraq təcavüzkarı "sakitləşdirmək" siyasətinin iflasa uğraması ilə bağlı idi. 1938-ci ildə xarici işlər naziri İden və müavini Lord Krenbori də istefaya getdilər. Yeni xarici işlər naziri Halifaks oldu. Çemberlen hökuməti fəal daxili siyasət yeritməyə başladı. O, hökumətin içində "daxili kabinet" yaratdı. Bütün hakimiyyət məsələləri demək olar ki, Çemberlen, Halifaks, maliyyə naziri Saymon və daxili işlər naziri Semuel Xor tərəfindən həll edilirdi. Hökumət aqrar bölmənin inkişafına kömək məqsədilə əsas kənd təsərrüfatı məhsullarının alınmasına təminatlı qiymətlər qoydu. Fermerlər Birlik ölkələrinə öz mallarını kömrük rüsumu olmadan satmağa başladılar. 30-cu illərdə kənd təsərrüfatına kapital qoyuluşu artdı. Çemberlen hökuməti 1937-ci ildə İrlandiya parlamentinin qəbul etdiyi konstitusiyanı bəyəndi.

Hökumət geniş xarici siyasət həyata keçirməyə başladı. 1937-ci ildə İtaliya ilə İngiltərə arasında saziş bağlandı. Bu sazişə görə İngiltərə Həbəşistanın İtaliya tərəfindən tutulmasını bəyəndi. Tərəflər Aralıq dənizi rayonunda bir-birlərinin mənafelərinə hörmət edəcəkləri barədə qarşılıqlı öhdəlik götürdülər. 1938-ci ildə Çemberlen Romaya səfər etdi. Çemberlen hökuməti 1938-ci ilin sentyabrında İtaliya və Fransa ilə birlikdə Çexoslovakiyanın əsasən almanlar yaşayan Sudet vilayətini Almaniyaya birləşdirməyi nəzərdə tutan Münhen sövdələşməsini qəbul edərək bunu sülhpərvər addım kimi qələmə verdi. O, Münhen sövdələşməsini ingilis xalqına "mən

sizə sülh gətirmişəm" kimi təqdim etdi. İngiltərənin 1939-cu il martın 21-də SSRİ və Fransa ilə birlikdə kollektiv təhlükəsizliyə dair başladığı danışıqlar uğursuz nəticələndi. 1939-cu il martın 31-də İngiltərə Polşaya hücum olacağı təqdirdə təcavüzkara qarşı mübarizədə polyak hökumətinə yardım göstərəcəyinə təminat verdi. Aprelin 7-də İtaliya Albaniyanı işğal etdikdə İngiltərə eyni təminatı Yunanıstana və Rumıniyaya da aid etdi. Hollandiya, İsveçrə və Danimarkaya müvafiq təminatlar təklif olundu. Hökumət Türkiyə ilə əməkdaşlığa dair danışıqlara başladı.

## Böyük Britaniya ikinci dünya müharibəsi illərində

Polşa təcavüzə məruz qaldıqdan sonra İngiltərə 1939-cu il sentyabrın 3-də Almaniyaya müharibə elan etsə də 1940-cı ilin mayınadək yalnız passiv müharibə apardı. Bu isə "qəribə müharibə" adını aldı. İngiltərə ilə eyni vaxtda Yeni Zelandiya, Avstraliya, sentyabrın 5 və 8-də isə Kanada və Cənubi Afrika İttifaqı Almaniyaya müharibə elan etdilər. Hindistan da Almaniya ilə müharibə vəziyyətində olduğunu bildirdi. Lakin ingilis rəsmi dairələri ölkəni geniş miqyaslı hərbi əməliyyatlara qoşmaqdan çəkindilər. Müharibənin başlanması ölkənin daxili siyasi həyatına öz təsirini göstərdi. Hakimiyyət başında olan mühafizəkarlar koalisiyalı hökumət qurmağı təklif etsələr də leyboristlər və liberallar Çemberlen başda olmaqla qurulan hökumətə girməkdən imtina etdilər. Bununla belə, 1939-cu il sentyabrın 8-də hər üç partiya siyasi barışıq haqqında sənəd imzalayaraq müharibə davam etdiyi dövrdə səyləri birləşdirmək barədə öhdəlik götürdülər. Onlar yerli özünüidarə orqanlarına seçki keçirməmək, tərkiblərini isə kooptasiya yolu ilə dəyişdirmək barədə razılığa gəldilər. Müharibə dövründə seçkilərdə hər bir partiya icmalar palatasında təmsil olunan partiyanın təmsilçisinin yerinə dairələrdə öz namizədini irəli sürməmək barədə öhdəlik götürdü.

Tezliklə sahibkarlarla tred-yunionlar arasında sənaye barışığı

da imzalandı. Barışığa görə müharibə dövründə tətil və mitinqlər keçirmək qadağan edildi. Çemberlen hökumətin tərkibinə qatı antifaşist olan Uinston Çerçili və Antoni İdeni daxil etdi.

Danimarka və Norveç təslim olduqdan sonra Böyük Britaniya hökumətinin nüfuzu xeyli aşağı düşdü. 1940-cı il mayın 7-8-də parlamentdə müzakirələr zamanı Çemberlen hökuməti təkcə leyboristlər və liberallar deyil, eyni zamanda bir sıra mühafizəkarlar tərəfindən də kəskin tənqid edildi. Deputatlar hökuməti öz vəzifələrini yerinə yetirməməkdə təqsirləndirdilər. Hökumətə etimad məsələsində liberallar və leyboristlər, mühafizəkarların isə böyük bir hissəsi onun əleyhinə səs verdilər. Nəticədə 1940-cı il mayın 10-da Çemberlen istefaya getdi.

U.Çerçil (1874-1965) yeni hökuməti təşkil etdi. Çerçilin yaratdığı hökumət koalisiyalı idi. Onun tərkibinə 54 mühafizəkar, 17 leyborist, 4 liberal, 4 milli-liberal, 4 milli-leyborist və 8 müstəqil şəxs daxil oldular. Xarici işlər naziri Halifaks, daxili işlər naziri Ettli oldu. Müharibənin aparılmasına dair strateji məsələlərin həllini öz üzərinə götürən Çerçil həmçinin bütün hakimiyyəti, generalitetə və müharibə illərində xarici əlaqələrə nəzarəti də əlində cəmləşdirdi. Hökumət koalisiyalı olsa da onda aparıcı rolu mühafizəkarlar oynayırdılar. Çerçil hökuməti təşkil edən gün Almaniya orduları Hollandiya, Belçika və Luksemburqdan Fransaya hücum etdilər. Bu hücum ingilis və fransız orduları üçün fəlakətli oldu. Müharibənin aparılması üçün fövqəladə qanun 1940-cı il mayın 22-də parlamentdə qəbul edildi. Hökumət ölkənin iqtisadi həyatı, insan və maddi ehtiyatları üzərində nəzarəti əlinə aldı. Qanuna müvafiq olaraq bir sıra fərmanlar verildi. 1940-cı ilin yayında hərbi istehsalı genişləndirmək məqsədilə tədbirlər həyata keçirildi.

Hökumət iqtisadi fəaliyyəti tənzimlədi. İş günü 12 saata, iş həftəsi isə 7 günə çatdırıldı. İş rejimi ciddiləşdirildi.

İyunun 16-da Fransa ilə ittifaq bağlamağa, orduları və komandanlığı birləşdirməyə dair Çerçilin təklifi fransız hökuməti

tərəfindən rədd olundu. Fransa təslim olmaq aktını imzaladıqdan sonra İngiltərə Avropada yaxın müttəfiqini itirdi. İyunun 23-də Fransa ilə əlaqələrini kəsən Britaniya hökuməti iyulun 7-də fransız hökumətinin üzvü Şarl de Qolla saziş bağlayaraq ona yardım edəcəyini bildirdi. Fransa məğlub olduqdan sonra ingilis hökuməti müharibəni davam etdirmək məqsədilə iqtisadiyyatı hərbi relsə keçirdi. İngilis iqtisadiyyatı bütün gücü ilə müharibə məqsədləri üçün işləməyə başladı. Müharibə illərində əsasən hərbi istehsal sahəsinə 1 mlrd. funt sterlinq sərmayə qoyuldu.

1940-cı ilin yayında Almaniya "İngiltərə uğrunda döyüş"ə başladıqda Çerçil "ölkəni alınmaz qalaya çevirmək" şüarını irəli sürdü. Ölkənin müdafiə qabiliyyəti möhkəmləndirildi. Almaniya hərbi-hava qüvvələri ölkə ərazisini bombardman etsələr də məqsədlərinə nail ola bilmədilər. Bu döyüş ingilis xalqının qəhrəmanlığını göstərdi.

1941-ci ildə Balkanlar, İraq, Suriya və Livana çıxarılan ingilis ordu hissələri hərbi əməliyyatlarda uğur qazandılar. Həmin il iyulun 12-də Almaniyaya qarşı müharibədə birgə fəaliyyət haqqında ingilis-sovet sazişi, avqustun 14-də isə Çerçil və Ruzvelt antihitlerçi koalisiyanın siyasi ideologiyasının əsasını qoyan "Atlantika xartiyası"nı imzaladılar. Artıq 1941-ci ilin sonunda Böyük Britaniya az tələfat verməklə Almaniya üzərində qələbə qazanmaq strategiyasını qəti olaraq müəyyənləşdirdi.

1942-ci ilin mayında Böyük Britaniya ilə SSRİ arasında hərbi ittifaq və müharibədən sonrakı dövrdə əməkdaşlıq haqqında saziş imzalandı. Böyük Britaniya Macarıstan, Rumıniya və Finlandiyaya müharibə elan etdi.

1942-1943-cü illərdə ingilis-amerikan qüvvələri Afrika hərbi əməliyyatlar meydanında əsaslı dönüşə nail olduqdan sonra bu qitədə hərbi əməliyyatların aparılması dayandırıldı. Müttəfiqlər 1943-cü ilin aprel-mayında "Atlantika uğrunda döyüş"də də qələbə çaldılar. Bu qələbə Almaniyanın məğlub olacağının labüdlüyünü göstərdi.

İngilis hökuməti antihitlerçi koalisiyanın yaradılması və möhkəmləndirilməsinə böyük töhfəsini verdi.

Müharibə illərində İngiltərə hökuməti hərbi sənayesini sürətlə inkişaf etdirdi və güclü silahlı qüvvələr yaratdı. 1944-cü ildə ingilis silahlı qüvvələrinin sayı 4 mln. 543 min nəfərə çatdı. Dominion və müstəmləkələrdən cəlb edilənlərlə birgə orduda 9,5 mln. adam qulluq edirdi. Müharibə dövründə ölkədə 131 min təyyarə, 25 min tank, 300 min top, 1 mln.-dək aviasiya bombası, 160 mln. top mərmisi, 8,3 mlrd. patron istehsal edildi. Hərbi sənayenin tam gücü ilə işləməsinə yalnız 1943-cü ilin avqust ayında nail olundu. Maşınqayırma və kimya sənayesi inkişaf etdi. Hərbi sənayenin genişləndirilməsi əlavə işçi qüvvəsi tələb etdiyindən işsizlər işə cəlb olundular. Nəticədə ölkədə işsizlik tamamilə ləğv edildi. Hökumət işçi qüvvəsindən istifadəni tənzimlədi. 1944-cü ildə qəbul edilən xüsusi qanuna görə heç kim Əmək Nazirliyi orqanlarının razılığı olmadan iş yerini dəyişə bilməzdi. Ölkənin bütün istehsal sahələrində ruh yüksəkliyi yarandı. Qeyd etmək lazımdır ki, müharibənin aparılması üçün lazım olan silah və sursatın əsas hissəsini İngiltərə özü istehsal edirdi.

Müharibə illərində hökumət kənd təsərrüfatının inkişafına xüsusi diqqət yetirdi. Xaricdən ərzaq gətirilməsi çətin olduğundan hökumət kənd təsərrüfatı istehsalını genişləndirmək məqsədilə tədbirlər həyata keçirdi. Fermerlərə əvəzsiz yardımlar göstərildi. Bu tədbirlərin nəticəsində ölkədə taxıl və kartof əkini sahələri genişləndirildi, məhsuldarlıq artdı. İngiltərə müharibə illərində özünün ərzaq tələbatını əsasən ödəyirdi.

Müharibə İngiltərənin dominion və müstəmləkələrində iqtisadi inkişafa müsbət təsir göstərdi. Bu ərazilərdə yeni fabrik və zavodlar tikildi. Onlar eyni zamanda faşizmə qarşı ümumi mübarizədə mühüm rol oynadılar.

Dünya müharibəsi davam etdiyindən ölkədə 1935-ci ildən bəri parlament seçkiləri keçirilmirdi. Belə şəraitdə Çerçilin koalisiyalı hökumətində narazılıqlar yaranmağa başladı. Hökumət ölkədə

*parlament seçkilərinin* Avropada müharibə başa çatdıqdan dərhal sonra keçiriləcəyini bəyan etdi. Avropada müharibə sona çatan kimi Çerçil mayın 24-də koalisiyalı hökumətin istefaya getdiyini və iyulun 5-də parlamentə seçkilər keçiriləcəyini elan etdi. O, keçid hökuməti yaratdı. Bu hökumət öz yerini seçkilərdən sonra yaradılacaq yeni hökumətə verməli idi. Leyboristlər seçkilərə ingilis xalqının əhval-ruhiyyəsini əks etdirən proqramla getdilər. Onlar müharibə illərində iqtisadiyyat üzərində qoyulmuş dövlət nəzarətinin saxlanılması, sənayenin əsas sahələrinin, torpağın və ingilis bankının milliləşdirilməsi tələblərini irəli sürdülər. Mühafizəkarlar isə seçkiqabağı kampaniyanı Çerçilin şəxsi nüfuzu üzərində quraraq milliləşdirmənin və iqtisadiyyat üzərində dövlət nəzarətinin saxlanmasının əleyhinə çıxdılar. Seçkilərin nəticəsi mühafizəkarlar üçün tamamilə gözlənilməz oldu. Onlar məğlubiyyətə uğradılar. Leyboristlər parlamentdə 389, mühafizəkarlar isə yalnız 209 yer qazandılar. Yeni hökuməti leyboristlərin lideri Klement Ettli yaratdı. Leyborist hökumətində xarici işlər naziri Ernest Bevin, baş nazirin müavini isə Herbert Morisson oldu. Beləliklə, dünya müharibəsi illərində Almaniya bloku ölkələri üzərində hərbi-siyasi və diplomatik qələbədə müstəsna rolu olan U.Çerçil məğlubiyyətə uğradı. Bu zaman Ettli Potsdam konfransında iştirak edən Çerçili əvəz etdi. İkinci dünya müharibəsinin sona çatması ilə ölkə tarixində yeni dövr başlandı.

# IV BÖLÜM

## FRANSA

### Birinci dünya müharibəsinin Fransa üçün nəticələri

Birinci dünya müharibəsində qalib gəlməsinə baxmayaraq Fransanın sosial-iqtsiadi vəziyyəti ağır idi. Ölkənin insan ehtiyatına güclü zərbə dəydi. Hərbi əməliyyatların gedişində 1,3 mln. nəfər öldürüldü, 2 mln. 560 min nəfər yaralandı. İnsan itkisi İngiltərədən təxminən 3, ABŞ-dan isə 12 dəfə çox oldu. Uşaq ölümü və kütləvi xəstəliklər artdı. Fransa əmək qabiliyyətli əhalisinin 11%-ni itirdi. Ölkənin şimal-şərqində yerləşən 10 departamentdə hərbi əməliyyatlar getdiyindən nəqliyyat və sənaye dağıdıldı. 6 min km. dəmiryolu, 52 min km. avtomobil yolu, 550 min ev, 23 minədək sənaye müəssisəsi, fabrik, zavod və şaxta sıradan çıxdı. Maliyyə sistemi iflic hala düşdü. Müharibə ölkəyə təxminən 200 mlrd. frank ziyan vurdu. Milli sərvətin 1/4 hissəsi itirildi. Fransız iqtisadiyyatında amerikan və ingilis kapitalının rolu artdı. 1920-ci ildə ölkənin ümumi borcu təxminən 300 mlrd. frank idi. Bu məbləğin 40 mlrd. frankını ABŞ-a, 62 mlrd. frankını isə İngiltərəyə olan borc təşkil edirdi. Hərbi əməliyyatlar kənd təsərrüfatına da ağır zərbə vurdu. Əkin sahələri dağıdıldı, kənd təsərrüfatı məhsulları istehsalı azaldı.

Osmanlı dövlətinin, Rusiya və Avstriya-Macarıstan imperiyalarının dağılması nəticəsində Fransanın xaricə kapital ixracı 40% aşağı düşdü.

Ağır sosial-iqtisadi nəticələrinə baxmayaraq müharibədə iqtisadiyyatın bəzi sahələri, xüsusən hərb sənayesi inkişaf etdi.

Müharibə nəticəsində dəyən bütün ziyanlara baxmayaraq Fransa Avropanın ən güclü dövlətinə çevrildi. 1 mln. 700 min əhalinin yaşadığı Elzas və Lotaringiyanın qaytarılması, Saar daş kömür

hövzəsindən istifadə edilməsi, Afrikada Toqo və Kamerunun bir hissəsinin, Yaxın Şərqdə isə Suriya və Livanın alınması Fransa iqtisadiyyatının, xüsusən sənayesinin inkişafına müsbət təsir göstərdi və ölkənin ümumi sənaye potensialı xeyli artdı. Müharibə qurtardıqdan sonra təsərrüfatın bərpası işlərinə 90 mlrd. frank vəsait ayrıldı. Maşınqayırma və kimya sənaye sahələri inkişaf etdi. Pejo, Reno və Sitroen maşınqayırma zavodları ölkədəki maşın istehsalının 2/3-ni verirdilər. Bütün bunların nəticəsində qısa müddətdə sənaye istehsalının həcminə görə Fransa dünyada beşinci yeri tutdu. İstehsalın və kapitalın təmərküzləşməsi daha da artdı, iri trest və konsernlər yarandı. Ölkədə metallurgiya sənayesinə "Komite de Forj" konserni rəhbərlik edirdi. Xarici ticarət artdı. Üç iri inhisar ticarət donanmasının 62%-nə nəzarət edirdi. Müharibədən sonra Şneyderlər və Rotşildlər ölkə iqtisadiyyatında mövqelərini xeyli möhkəmləndirdilər. Xırda banklar sıradan çıxdı. İri banklar yarandı. Ölkənin bank-maliyyə sisteminə üç iri bank - Hind-Çin, Lion və Paris bankları nəzarət edirdi.

Dünya siyasətinə təsir edən, qüdrətli hərbi dövlətə çevrilən Fransa ordusunun texniki təchizatını yaxşılaşdırdı və əsgərlərinin döyüş ruhunu yüksəltdi.

Fransa aqrar-sənaye ölkədən sənaye-aqrar ölkəyə çevrildi. Əgər müharibəyə qədər əhalinin 53%-i kənddə yaşayırdısa, müharibədən sonra şəhərə axın çoxaldı. Urbanizasiya gücləndi.

## Müharibədən sonra ölkənin siyasi həyatı. "Milli blok" hakimiyyət başında

Müharibənin başa çatması Fransanın sosial-siyasi həyatına ciddi təsir göstərdi. İlk illərdə ölkədəki siyasi şəraiti əsasən iki amil şərtləndirirdi: birinci, müharibədə qazanılan qələbə ilə əlaqədar olaraq şovinizm və millətçilik artdı; ikinci, ağır iqtisadi şərait inqilabi hərəkat yaratdı. Bu zaman ölkədə üç böyük siyasi partiya qrupu fəaliyyət göstərirdi: sağ, mərkəzçi və sol partiyalar. Bu

partiylar ölkədə siyasi qüvvələr arasındakı nisbəti müəyyənləşdirirdilər. Sağlar ənənəvi fransız cəmiyyətini, sollar isə yeni siyasi-partiya mədəniyyəti özündə əks etdirirdilər. Bu, fransız cəmiyyətinin siyasi strukturunda qütbləşmə və modernləşməsinin başa çatdığını göstərirdi.

Paris sülh konfransında fransız hökuməti Avropa məsələlərində öz istəklərinə çatdı. Sülh konfransının qərarlarına uyğun olaraq Fransa geniş ərazilər əldə etdi, zəngin təbii sərvətləri olan Elzas və Lotaringiyanı özünə qaytardı. Saar daş kömür şaxtaları Fransaya keçdi. Saar vilayəti isə 15 il müddətinə Millətlər Cəmiyyətinin idarəçiliyinə verildi. Bu müddət başa çatdıqdan sonra Saarın taleyi ilə bağlı vilayətdə referendum keçirilməli idi. Hərbsizləşdirilmiş zona elan olunan Reynin sol sahili 5 ildən 15 ilədək Antanta orduları tərəfindən işğal edilməli idi. Reynin sağ sahili boyunca 50 km.-lik sahədə bir ərazi hərbsizləşdirilmiş elan edildi. Fransa Toqo və Kamerundakı alman müstəmləkələrinin bir hissəsini aldı. Suriya və Livan üzərində Fransa mandatı qoyuldu. Fransa parlamenti sülh müqaviləsini 372 nəfər lehinə, 53 nəfər əleyhinə, 74 nəfər bitərəf olmaqla təsdiq etdi.

1917-ci ildən ölkənin baş naziri olan J.B.Klemansonun (1841-1929) yeritdiyi daxili siyasət fəal və səmərəli idi. Müharibə qurtardıqdan sonra hökumət kartoçka sistemini ləğv etdi. Hərbi qanunlar aradan qaldırıldı. Əhaliyə kreditlər verildi. İqtisadiyyat üzərində dövlət nəzarəti zəiflədildi. 1919-cu ilin aprelində parlament iqtisadiyyat sahəsində iki qanun qəbul etdi. Bu qanunlardan birinə əsasən fabrik və zavodlarda 8 saatlıq iş günü rəsmi şəkildə tətbiq olundu. Digər qanuna əsasən həmkarlar ittifaqlarına sahibkarlarla kollektiv müqavilələr bağlamaq hüququ verildi. Lakin Klemanso hökuməti bir sıra problemlərlə üzləşdi. Başlıca problem ölkənin maliyyə sistemində yaranmış çətinliklərlə bağlı idi. Dövlət büdcəsinin kəsiri 27 mlrd. frank təşkil edirdi. Digər bir çətinlik Fransanın 200 varlı ailəsinin Klemanso hökumətindən narazı qalması idi. Onlar Klemansonu Almaniyanı parçalamamaqda və Fransaya əlavə

gəlirlər gətirməməkdə təqsirləndirirdilər. Digər tərəfdən müharibədən sonra əhali arasında müxtəlif sosial-siyasi cərəyanların təsiri artdı. Fəhlələr öz hüquqları uğrunda mübarizəni gücləndirdilər. Tətillər çoxaldı. 1919-cu ildə təxminən 1,2 mln. nəfər tətil etdi. İnqilabi əhval-ruhiyyə ordu və donanmaya da yayıldı.

Belə gərgin sosial-iqtisadi və siyasi şəraitdə Kommunist İnternasionalının yaradılmasını alqışlayan fransız sosialistləri xeyli fəallaşdılar. Sosialist Partiyasının tərkibindəki sol qanada başçılıq edən "Humanite"nin direktoru Marsel Kaşen və Fransa Sosialist Partiyasının baş katibi Lüdovik Frossar Kominternlə danışıqlar aparmaq üçün Moskvaya gəldilər. Onlar Moskvadan qayıtdıqdan sonra Kominternə qəbulun "21 şərti"ni müzakirə etdilər. Sağlar və mərkəzçilər onun əleyhinə çıxdılar. M.Kaşenin təşəbbüsü ilə 1920-ci il dekabrın sonunda Fransa Sosialist Partiyasının Tur şəhərində keçirilən fövqəladə qurultayında Kominternə daxil olmaq barədə qəbul edilən qərara sağlar və mərkəzçilər tabe olmadılar. FSP Kominternin fransız bölməsi, 1921-ci il yanvarın 1-dən isə Fransa Kommunist Partiyası adlanmağa başladı. Lakin Moskvanın himayəsi ilə yaradılan bu partiyada vəziyyət ağır idi. Partiya daxilində müxtəlif qruplaşmaların fəaliyyət göstərməsi siyasi və təşkilati işin aparılmasına mane olurdu. Partiyanın sosial dayağı zəif idi.

Kommunistlərin təkidi ilə Ümumi Əmək Konfederasiyasından çıxan şəxslərin Unitar Ümumi Əmək Konfederasiyası yaratmaları həmkarlar ittifaqlarını parçalayaraq xeyli zəiflətdi.

1914-cü ildə seçilmiş deputatlar palatasına növbəti seçkilər 1918-ci ildə keçirilməli idi. Lakin müharibə vəziyyəti ilə bağlı olaraq onun səlahiyyət müddəti 1919-cu ilədək uzadıldı. Bu müddətdə radikal seçki islahatı həyata keçirildi. İslahatın başlıca məqsədi seçki hüququnu daha çevik etmək və seçicilərin əhval-ruhiyyəsini nəzərə almaq idi. Nəticədə proporsional-mojaritar seçki sistemi tətbiq edildi. Yeni qanuna görə departamentlərdə 75 min əhalidən 1 deputat seçilməli idi. Partiya və koalisiyalar isə namizədlərin

siyahısını tərtib edirdilər. Lakin seçicilər bütün siyahıya deyil, konkret namizədə səs verməli idilər. Səslərin mütləq çoxluğunu qazanan namizəd seçilmiş hesab edilirdi. 1919-cu ilin noyabrında müharibədən sonra ilk dəfə olaraq deputatlar palatasına keçirilən seçkilər ərəfəsində Puankare, Milyeran və Brian altı sağ və bir neçə liberal partiyanın daxil olduğu "Milli blok" yaratdılar. "Milli blok"un tərkibinə L.Bartunun respublikaçı demokratik sollar, P.Penlevenin respublikaçı sosialistlər, J.Klemansonun sol respublikaçılar, R.Puankarenin Respublikaçı Demokratik Partiyası, F.De Vadelin Respublika Federasiyası, J.Nulansın Milli Respublikaçı Fəaliyyət Partiyası və b. daxil oldular. "Milli blok" seçkiqabağı proqramında ölkədə sosial və dini sabitliyi, qayda-qanunu, respublika quruluşunu qorumağı, siniflər arasında həmrəyliyi bərqərar etməyi, azad edilmiş rayonları bərpa etməyi, müharibə əlillərinə və keçmiş döyüşçülərə qayğı göstərməyi vəd verdi. Proqramın xarici siyasət sahəsində ən mühüm tələbi Versal sülh müqaviləsi şərtlərinin yerinə yetirilməsinə nail olmaq idi.

Seçkilərdə "Milli blok" 437, radikallar 86, sosialistlər isə 68 mandat qazandılar. Klemanso hökuməti istefaya getdi. "Milli blok"da ilk hökuməti bitərəf A.E.Milyeran (1859-1943) təşkil etdi. Onun hakimiyyəti illərində daxili siyasətdə bir sıra tədbirlər həyata keçirildi. 1920-ci ildə noyabrın 11-i birinci dünya müharibəsində qələbə günü və həlak olanların xatirə günü kimi rəsmi olaraq qanuniləşdirildi.

Xarici siyasət sahəsində Milyeran hökuməti Versal sülh müqaviləsinin şərtlərinin yerinə yetirilməsinə və Versal sisteminin qorunmasına çalışırdı. 1920-ci ilin yanvarında senata seçkilər keçirildi. Seçkiqabağı kampaniyanı uğurla aparan və "alman hər şeyi ödəyəcək" şüarından istifadə edən "Milli blok" və respublikaçı demokratlar parlamentdəki yerlərin 2/3 hissəsini qazanaraq 625 yerdən 400-nə sahib çıxdılar. Radikalların və respublikaçı demokratların daxil olduğu bu blokun lideri Raymon Puankareni (1860-1934) təkcə geniş xalq kütlələri deyil, həmçinin neft inhisarları da müda-

fiə edirdilər. Lakin ölkədə "Milli blok"un əleyhdarı olan qüvvələr əsasən royalistlər idi. Zadəgan və yüksək hərbçilərdən ibarət olan royalistlər monarxiyanı bərpa etməyə çalışırdılar. Lakin onların sosial dayaqları güclü deyildi.

1920-ci ilin yanvarında Puankarenin prezidentlik müddəti başa çatdı. Yeni seçkilərdə onun rəqibi Klemanso və Milyeran oldular. Baş nazir işləyən Milyeran sentyabr ayında keçirilən seçkilərdə prezident oldu. Onun prezidentlik müddəti 1920-ci ilin sentyabrından 1924-cü ilədək davam etdi. Lakin Fransada prezidentin çox da geniş səlahiyyətləri yox idi.

Milyeran prezident seçildikdən sonra 1920-ci ilin sentyabrından 1921-ci ilin yanvarınadək baş nazir J.Leyq oldu. Lakin o, istefaya getdikdə yerinə 1921-ci il yanvarın 16-da Aristid Brian keçdi. Brian 1921-ci ilin sonuna qədər hakimiyyət başında oldu. Hökumət daxili siyasət sahəsində geniş proqram irəli sürdü. Yeni sənaye sahələrinin yaradılması üçün addımlar atıldı. Lakin ölkədə köhnə sənaye sahələri zəif işlədiyindən məhsul istehsalı 1913-cü illə müqayisədə 1921-ci ildə 55%, kənd təsərrüfatı məhsulları istehsalı isə 77% təşkil etdi. Qiymətlər, xüsusilə ərzağın qiyməti qalxdı. Hökumət 1921-ci il yanvarın 20-də verdiyi bəyanatındakı vədlərini yerinə yetirə bilmədi.

Brian hökuməti xarici siyasət sahəsində Kiçik Antantanın yaradılması işini başa çatdırdı. Fransa ətrafında "sanitar kordonu" yaratmaq işinə səy edildi. Fransız hökuməti 1921-ci ildə Polşa ilə siyasi pakt və hərbi konvensiya imzaladı, 1920-21-ci illərdə Çexoslovakiya, Yuqoslaviya və Rumıniyanın Kiçik Antantada birləşməsinə kömək etdi. 1938-ci ilədək mövcud olan bu ittifaqın məqsədi Almaniyada nasizmin, SSRİ-də isə bolşevizmin qitədə güddükləri təcavüzkar niyyətlərin qarşısının alınmasına yönəlmişdi. 1921-ci ilin martında Yaponiya ilə imzalanan məxfi saziş isə Uzaq Şərqdə digər dövlətlərin nüfuzunun artmasının qarşısını almaq məqsədi güdürdü. Brian hökuməti Vatikanla münasibətlərini yaxşılaşdırdı. 1921-ci ilin dekabrında senat Vatikanda

diplomatik missiyanın fəaliyyətinin bərpa edilməsi haqqında qərarı təsdiqlədi.

1921-ci ilin sonlarından Brian hökumətinin daxili və xarici siyasətindən narazılıq artdı və müxalifət gücləndi. Fransanın Vaşinqton konfransında uğursuzluğa düçar olması və xarici siyasətdə çevik xətt yeridə bilməməsi etirazla qarşılandı. Hökumət böhranı yarandı. Nəticədə Brian istefaya getdi. 1922-ci il yanvarın 15-dən 1924-cü il iyulun 1-dək Fransanın baş naziri Raymon Puankare oldu. Hökumətin başlıca vəzifəsi sənayenin bərpasını başa çatdırmaq, iqtisadiyyatı liberallaşdırmaq, təbii bazar mexanizmlərini bərpa etmək və ölkə iqtisadiyyatını inkişaf etdirmək idi. Hökumət iqtisadiyyatın dövlət tənzimlənməsini ləğv etməyə başladı. İri inhisarlara güzəştlər verildi. Puankare hökuməti daxili siyasətində şovinist meylləri gücləndirdi.

Xarici siyasətdə hökumətin başlıca məqsədi Avropada Fransanın hegemonluğu təmin etmək idi. Bundan ötrü fransız hökuməti hətta qətiyyətli addımlar da atdı. Lakin fransızların iddialarına qarşı ABŞ və Almaniya qəti etiraz etdiklərindən hegemonluq istəyini həyata keçirmək o qədər də asan deyildi.

1922-ci ildə keçirilən Genuya konfransında Fransa borclar məsələsindən öz xeyrinə istifadə etməyə çalışdı. Almaniyanın təzminat ödəməsini yubatmasını bəhanə edən Fransa və Belçika ordularını yeridərək 1923-cü il yanvarın 11-də Ruru və Reyn vilayətini tutdular. Fransa bu ərazidə separatçılıq hərəkatını açıq şəkildə müdafiə edərək Reyn Respublikasının yaradılmasına kömək göstərdi. Lakin Rurun işğalı ilə Fransa öz istəyinə çata bilmədi. Fransız iqtisadiyyatı ağır vəziyyətə düşdü. Ölkənin maliyyə sistemi pozuldu. İki ay ərzində frankın dəyəri iki dəfə aşağı düşdü. Yaranmış böhrandan çıxmaq üçün ABŞ və İngiltərə Fransaya təzyiqlər etdilər. Nəticədə Rur avantürası boşa çıxdı. Belə vəziyyət 1923-cü ildə hökumət böhranı yaratdığından "Milli blok" istefaya getməyə məcbur oldu. Ölkədə siyasi partiyaların yeni blokları yaranmağa başladı.

Puankare hökumətinin xarici siyasətində Azərbaycan da mühüm yer tutdu. O, baş nazir seçilərkən parlamentdə etdiyi məruzəsində Fransanın əlaqələr saxlamasını zəruri saydığı ölkələrdən biri kimi Azərbaycanı da qeyd etdi. Fransanın Azərbaycanda bolşevik rejimini devirib milli hökuməti bərpa etmək və əməkdaşlıq qurmaq planları mövcud olsa da onu reallaşdırmaq mümkün olmadı. Aprel işğalı nəticəsində dövlət müstəqilliyi itirildikdən sonra Fransada yaşamağa məcbur olan Azərbaycan nümayəndə heyətinə rəsmi Fransa yardımlar göstərdi.

### "Sol blok" hökuməti

Radikal sosialistlər 1923-cü ildə "Milli blok"dan ayrıldılar. Seçki ərəfəsində, 1924-cü ildə onlar sosialistlər və respublikaçılarla birlikdə "Sol blok" yaratdılar. Bu blok seçkiqabağı kampaniyada ümumi siyasi amnistiya verilməsi, 8 saatlıq iş gününə əməl edilməsi, kapital üzərinə vergi qoymaqla ölkənin maliyyə sisteminin sağlamlaşdırılması və b. vədləri verdi. 1924-cü il mayın 11-də keçirilən parlament seçkilərində "Sol blok" 287, sağ partiyalar 125, kommunistlər isə 26 mandat qazandılar. "Sol blok" qələbə qazandıqdan dərhal sonra iyunun 1-də deputatlar palatasının sol qrupları Milyeranın prezident kreslosundan əl çəkməyəcəyi təqdirdə hökumət təşkil etməyəcəklərini bildirdilər. Belə olduqda sağlar və digər partiyalar Fransua Marsal başda olmaqla koalisiyalı hökumət yaratdılar. Lakin deputatlar palatası bu hökuməti təsdiq etmədi. Düşmüş olduğu ağır vəziyyətdə Milyeran iyunun 11-də konstitusiyaya uyğun olaraq istefaya getdi. İyunun 13-də Qaston Dumerq Fransa Milli Məclisində respublika prezidenti seçildi. 1924-cü ilin iyununda radikal-sosialist Eduard Errio (1872-1957) isə baş nazir oldu. O, 1925-ci ilin aprelinədək baş nazir vəzifəsində işlədi. Zabit ailəsində anadan olmuş, tarix-filologiya fakultəsini bitirmiş, ziyalı, demokrat və pasifist olan Eduard Errio buna qədər Lion şəhərinin meri və deputatlar palatasının sədri vəzifələrində

işləmişdi. Yeni hökumətdə 18 nazir vəzifəsindən 13-nü radikal-sosialistlər, 5-ni isə respublikaçı sosialistlər tutdu.

Errio daxili və xarici siyasətdə prinsipial dəyişikliklər dövrünün başlandığını bəyan etdi. Onun hakimiyyətə başlaması ilə daxili siyasətdə bir sıra dəyişikliklər oldu, ölkə iqtisadiyyatında sabitləşmə baş verdi. Fransada sabitləşmənin bir sıra özünəməxsus cəhətləri var idi. Ölkə iqtisadiyyatında möhtəşəm irəliləyiş əldə edildi. Metallurgiya, maşınqayırma, aviasiya və kimya sənaye sahələrinin sürətlə inkişaf etdiyi 1924-1928-ci illərdə sənaye istehsalı ildə 5% artdı. Bu cəhətdən Fransa yalnız ABŞ-dan geri qalırdı.

Fransada iqtisadi inkişafın və siyasi sabitləşmənin uğurlarının bir sıra səbəbləri var idi. Ölkə Elzas, Lotaringiya və Saar daş kömür hövzələrini əlinə keçirmişdi, Almaniyadan 8 mln. frank təzminat almışdı. Hökumət sosial ziddiyyətlərin aradan qaldırılması və əməklə kapital arasında barışıq üçün geniş proqramlar həyata keçirdi. Yeni müharibənin olmasını istəməyən xalq əsas diqqətini quruculuğa verdi. Bütün bunlar fransız iqtisadiyyatının inkişafında başlıca rol oynadı.

Bu irəliləyişlərə baxmayaraq ölkə iqtisadiyyatının bir sıra, xüsusən köhnə sahələri hələ də geri qalırdı. Kağız, dəri və pambıq-parça sənayesini maliyyə çətinliyi ucbatından yenidən qurmaq çətin idi. Fransız maliyyə kapitalı istehsala sərmayə qoymaqda ləngiyirdi. Ölkənin kənd təsərrüfatında problemlər qalırdı. İqtisadiyyat üzərində dövlət inhisarı və nəzarət hələ də saxlanılırdı.

Fransız iqtisadiyyatını gerilikdən çıxmaqdan ötrü Ali İqtisadi Şura və Ali Dəmiryol Şurası yaradıldı. Maliyyə sisteminin sağlamlaşdırılmasına başlandı. Milli kredit bankının yaradılması ölkə iqtisadiyyatında başlıca rol oynadı. Fransanın aqrar-sənaye ölkədən sənaye-aqrar ölkəsinə çevrilməsində ölkədə şəhər əhalisinin kənd əhalisinə nisbətinin artaraq 51%-ə çatması da təsir etdi. Hökumətin daxili siyasətində mənzil tikintisinə xüsusi diqqət yetirildi. Bu məqsədlə 300 mln. frank vəsait ayrıldı.

"Sol blok" hökuməti siyasi və hüquqi sahədə bir sıra tədbirlər

həyata keçirdi. 1924-cü ilin dekabrında siyasi məhbuslara amnistiya verildi. Qadınlar bələdiyyə və kontonlarda iştirak etmək hüququ qazandılar. Bu tədbirlər cəmiyyətdə müsbət qarşılansa da iqtisadi problemlər hələ də həll olunmamış qalırdı.

Kapital üzərinə vergi qoyulması haqqında qanun layihəsi 1925-ci il aprelin 11-də senat tərəfindən rədd edildikdə Errio kabineti istefaya getdi. Beləliklə, Errio "qızıl divarı" başı ilə sındıra bilmədi.

1925-ci il aprelin 17-də Pol Penlevenin başçılığı ilə yeni hökumət yaradıldı. Lakin bu hökumət də daxili siyasətdə uğur qazana bilmədi. Sənayedə, xüsusən pambıq-parça, yun və b. yüngül sənaye sahələrində vəziyyət ağır idi. Belə şəraitdə iri inhisarların yaradılması gücləndi.

1925-ci ilin sonu - 1926-cı ilin birinci yarısında ölkədə daxili siyasi mübarizə gücləndi. Penleve 1926-cı ilin iyulunda istefaya getdi. Yeni hökuməti Aristid Brian təşkil etdi. Lakin o da tezliklə istefa verdikdən sonra prezident hökumət təşkil etməyi yenidən Eduard Errioya tapşırdı. Ancaq parlament bu hökumətə etimad göstərmədi. Ölkədə hökumət böhranı yarandı.

"Sol blok" hökumətlərinin xarici siyasətinin başlıca məqsədi Avropada hegemonluğa nail olmaq, müstəmləkələrdə möhkəmlənmək və nüfuz dairəsi qazanmaq idi. Qeyd etmək lazımdır ki, bu hökumətlər Almaniyaya münasibətdə sərt xətt yeritməkdən imtina etdilər. Fransız diplomatiyasının bu istiqamətdəki fəaliyyət metodları əsasən dəyişdirildi. Baş nazir seçildikdən dərhal sonra Errio İngiltərəyə, sonra isə Belçikaya səfər etdi. Errio hökuməti ABŞ və İngiltərə ilə razılaşaraq "Daues planı"nı və Lokarno sazişlərini qəbul etdi. "Sol blok" hökuməti bir il müddətində fransız ordu hissələrini Rurdan çıxardı. Lokarno sazişlərini imzalamaqla Fransanın Avropadakı mövqeləri zəiflədi, sazişlərin yerinə yetirilməsinin təminatçıları İngiltərə və İtaliya oldu. Lakin Reyn təminat paktından sonra da ingilis-fransız ziddiyyətləri səngimədi.

Fransanın xarici siyasətində Millətlər Cəmiyyətində iştirak etmək xüsusi yer tutdu. Fransız diplomatiyası Millətlər Cəmiyyətinin köməyi ilə Avropada Fransanın nüfuzunu bərpa etməyə çalışırdı. 1924-cü ildə Errionun təklifi ilə Millətlər Cəmiyyəti "Beynəlxalq münaqişələrin tənzimlənməsi haqqında protokol"u qəbul etdi.

Sülh siyasəti yeridən Errio hökuməti SSRİ ilə münasibətlərə diqqət yetirərək 1924-cü il oktyabrın 28-də Sovet İttifaqı ilə diplomatik münasibətlər qurdu.

Fransa xarici siyasətində hər vasitə ilə müstəmləkələrdə möhkəmlənməyə çalışırdı. 1925-ci ildə "Sol blok" hökuməti Mərakeşdə rif tayfalarına qarşı hərbi əməliyyatlar keçirərək Əbdülkərimin başçılığı altında "ya azadlıq, ya ölüm şüarı" ilə aparılan üsyana zərbə endirdi. Fransa hərbçiləri eyni zamanda Suriyada druz tayfalarına qarşı aparılan hərbi əməliyyatlarda da iştirak etdilər. Aparılan müharibələr dövlət büdcəsinə böyük ziyan vurdu. Frankın alıcılıq qabiliyyəti aşağı düşdü.

"Sol blok" hökumətlərinin xarici siyasətində Türkiyə də özünəməxsus yer tutdu. Hərbi müdaxilənin uğursuz olacağını başa düşən fransızlar Türkiyə ilə yaxınlaşıb barışıq imzalayaraq Yaxın və Orta Şərqdə bir sıra iqtisadi problemlərini həll etdilər.

Lakin xalq "Sol blok" hökumətlərinin daxili və xarici siyasətindən çox narazı idi. İri sənayeçilər öz kapitalını xəlvəti olaraq ölkədən xaricə çıxarırdılar. Əgər xaricə kapital çıxarılması 1924-25-ci illərdə 10 mlrd. frank idisə, 1926-cı ildə bu məbləğ 17 mlrd. franka çatdı. Hakimiyyətdən narazılıq 1926-cı ildə "Sol blok" hökumətinin istefaya getməsi ilə nəticələndi.

## "Milli birlik" hökuməti

Parlamentdə uzun müzakirələrdən sonra yeni koalisiyalı hökumət yaradıldı. Bu hökumət "Milli birlik" adlandırıldı.

"Milli birlik" hökuməti 1926-cı ilin iyulundan 1928-ci ilədək

hakimiyyətdə oldu. Onun tərkibinə respublikaçı sosialistlərin və radikalların nümayəndələri daxil edildilər. Yenidən hökumətin başında fransız və beynəlxalq işgüzar dairələrinin müdafiə etdiyi Puankare durdu. Errio, Brian və Penleve də bu hökumətə daxil edildilər. Daxili siyasət sahəsində hökumətin qarşısında duran başlıca vəzifə ölkədə maliyyə sabitliyini təmin etmək idi. Bu məqsədə nail olmaqdan ötrü maliyyə ekspertlərindən ibarət komitə yaradıldı. Qısa müddətdə iri kapital üzərinə qoyulan vergi ləğv edildi. 1926-cı ilin dekabrında maliyyə islahatı həyata keçirildi. Frank devalvasiya edilərək müharibədən əvvəlki alıcılıq qabiliyyətinə yaxınlaşdırıldı. Müharibə vaxtı buraxılan istiqrazların dəyəri ödənildi və frank sabitləşdirildi. Ölkənin maliyyə sistemi sağlamlaşdı. Puankare "frankın xilasedicisi" adını aldı. Ölkənin maliyyə sisteminin sabitləşməsi və inkişafında ABŞ və İngiltərədən alınan kreditlər də mühüm rol oynadı. 1926-1932-ci illərdə ölkənin qızıl ehtiyatı 18 mlrd. frankdan 83 mlrd. franka çatdırıldı. Kredit sistemi möhkəmləndirildi.

1927-ci ildə sənaye məhsulu istehsalı müharibədən əvvəlki dövrlə müqayisədə 3 dəfə artdı. Polad əridilməsinə görə ölkə 1913-cü il səviyyəsinə 1928-ci ildə gəlib çatdı. Bütövlükdə, ölkədə sənaye məhsulu istehsalı müharibədən əvvəlki səviyyəyə yetişdi. Fransa ümumi sənaye məhsulu istehsalı sahəsində Almaniya və İngiltərəni ötüb keçərək ABŞ-dan sonra ikinci yeri tutdu. Bununla belə, fransız sənayesi texniki cəhətdən hələ də geri qalırdı. Hökumət hərbi aviasiya sənayesini yenidən qurdu. Müstəmləkələrə kapital qoyuluşu 10%-dən 20%-dək artdı. Fransanın xarici ticarətində müstəmləkələrin xüsusi çəkisi çoxaldı. İxracatda müstəmləkələrin payı 28%-ə, idxalatda isə 24%-ə çatdı.

Fransaya xaricdən xeyli ucuz işçi qüvvəsi gəldi.

Hökumət sosial sahədə də mühüm tədbirlər həyata keçirdi. 1926-cı ildə qocalığa və əlilliyə pensiya, işsizliyə görə yardım verilməsi haqqında qanunlar qəbul edildi.

"Milli birlik" hökuməti zamanında ölkədə şovinist meyllər

gücləndi və faşist təşkilatları xeyli fəallaşdı. "Vətənpərvər gənclər cəmiyyəti", 1927-ci ildə isə "Odlu xaçlar" faşist təşkilatlar yaradıldı. Ölkədə antialman əhval-ruhiyyəsi gücləndi.

"Milli birlik" hökumətinin xarici siyasəti Avropada Fransanın hegemon rolunun möhkəmləndirilməsinə yönəldi. 1927-ci il aprelin 6-da ABŞ-ın birinci dünya müharibəsinə girməsinin onuncu ildönümü münasibəti ilə Fransa xarici işlər naziri Brian ABŞ-la ikitərəfli münasibətlərdə müharibələrdən imtina olunması haqqında təklif irəli sürdü. ABŞ-ın bəyəndiyi, lakin təkcə Fransa ilə deyil, digər dövlətlərlə də çoxtərəfli əsasda imzalanmasını təklif etdiyi bu sənəd "Brian-Kelloq paktı" adını aldı. 1928-ci il avqustun 27-də Parisdə İngiltərə, Belçika, Almaniya, İtaliya, Polşa, Fransa, Çexoslovakiya və Yaponiya bu paktı imzalayaraq milli siyasətdə müharibələrdən imtina etmək və mübahisəli məsələləri dinc yolla həll etmək barədə qarşılıqlı öhdəlik götürdülər. Fransa özünün "Panavropa planı"nı həyata keçirməyə başladı. Lakin ABŞ və Almaniya Fransanın Avropada hegemon rol oynamasına qarşı çıxdıqlarından bu planın həyata keçirilməsi bir sıra çətinliklərlə üzləşdi.

1927-ci ildə ölkədə seçki islahatı həyata keçirildi. Parlament hakimiyyətini sabitləşdirmək, iri partiya və koalisiyaların seçkidə iştirakını fəallaşdırmaq üçün əvvəlki mojaritar sistem bərpa edildi. Yeni seçki qanunu əsasında 1928-ci il aprelin 22-29-da deputatlar palatasına seçkilər keçirildi. Seçkilərdə sağ partiyalar 266 mandat, "Sol blok" isə 256 mandat aldı. Puankare yenidən hökumət təşkil edərək baş nazir oldu. O, 1928-ci ilin aprelindən 1929-cu ilin iyulunadək baş nazir vəzifəsində işlədi. Hökumətin daxili siyasəti başlıca olaraq iqtisadiyyatın səmərəliliyinin artırılmasına və sosial problemlərin həllinə yönəldi. Puankare hökumətinin həyata keçirdiyi tədbirlər nəticəsində frank sabitləşdi, sənaye məhsulu istehsalı artdı, əməyin səmərəliliyi yüksəldi, istehsal və kapitalın təmərküzləşməsi gücləndi və xaricə kapital ixracı genişləndi. Lakin Puankare hökumətinin dini siyasəti, xüsusən missioner məktəblərin

açılmasına icazə verməsi kəskin narazılıqla qarşılandı. 1929-cu ilin iyul ayında Puankare xəstəliyi ilə əlaqədar olaraq istefaya getdi. Yeni baş nazir Aristid Brian oldu. Brian yalnız iyul ayından oktyabr ayınadək baş nazir vəzifəsində işlədi. Ondan sonra 1929-cu ilin oktyabrdan - 1931-ci ilədək baş nazir Andre Tardye oldu. Hökumət daxili siyasətdə beşillik planın yerinə yetirilməsini irəli sürdü. Bu məqsədlə dövlət büdcəsindən 5 mlrd. frank ayrıldı.

Dünya iqtisadi böhranı başqa ölkələrə nisbətən Fransada bir az gec, 1930-cu ilin payızında başlandı. Böhranın gec baş verməsinin əsas səbəbləri son illərdə fransız iqtisadiyyatı üçün əlverişli şəraitin mövcudluğu, frankın alıcılıq qabiliyyətinin yüksək olması və Almaniyadan alınan təzminatlarla bağlı idi. Buna baxmayaraq, Fransada böhran digər ölkələrə nisbətən dərin oldu. Sənaye istehsalı aşağı düşdü. İxrac üçün işləyən sənaye sahələri zərər çəkdi. İpək istehsalı azaldı. İqtisadiyyat üzərində dövlət nəzarətinin qurulmasını tələb edən qüvvələrin fəaliyyəti gücləndi. Orta təbəqə müflisləşdi. 1930-1932-ci illərdə kiçik tacirlərin sayı 100 min nəfər azaldı. İş yerləri bağlandı. İşsizlərin sayı 1 mln. nəfərə çatdı. Ölkəni işsizlər hərəkatı və "aclıq yürüşləri" bürüdü. Kəndlilər torpaq və əmlakdan məhrum oldular. Onların gəlirləri aşağı düşdü. Fransada böhran, sənaye istehsalının aşağı düşməsi 1932-ci ilin ortalarınadək davam etdi. 1932-ci ilin yayından ölkədə istehsal yenidən nisbətən yaxşılaşdı. Lakin az sonra iqtisadi vəziyyət təzədən ağırlaşdı. 1935-ci ildə sənaye məhsulunun ümumi həcmi 1913-cü illə müqayisədə 67,8%-ə endi. Xaricə kapital çıxarılması artdı. Fransa dünya bazarında öz mövqelərini itirməyə başladı. Dünya ticarətində ölkənin payı 7,7%-dən 5%-ə endi. Ölkədə sosial ziddiyyətlər kəskinləşdi.

Bu zaman Fransanın daxili siyasi vəziyyəti xeyli mürəkkəb idi. Ölkədə xəzinə pullarının yeyilməsi ilə bağlı qalmaqal gücləndi. 1931-ci ilin axırlarında keçirilən seçkilərdən sonra Tardye istefaya çıxdı. Onun yerinə baş nazir Pyer Laval oldu. Tardye kimi Laval da güclü hakimiyyət rejiminin tərəfdarı idi. Ümumiyyətlə, 1931-1932-

ci illərdə Fransada 7 hökumət dəyişildi. Ölkəni hökumət böhranı bürüdü.

30-cu illərdə Fransanın ictimai-siyasi həyatında dövlət tənzimlənməsinin forma və məqsədləri müzakirə obyektinə çevrildi. Dövlət tənzimlənməsi "caricizm" adlandırıldı. Sərt addımlar ataraq böhran əleyhinə proqramlar hazırlayan fransız hökumətləri iri kapitala böyük güzəştlər verdilər. "Mühafizə edilən bölmə" yaradıldı. Onlara vergi üstünlükləri, dövlət sifarişləri və nəqliyyat tariflərində güzəştlər edildi. Büdcənin sosial proqramları xeyli ixtisara salındı.

Lakin bu tədbirlər elə də ciddi nəticə vermədi. Belə şəraitdə siyasi təşəbbüs yenidən sol partiyalara keçdi.

Növbəti parlament seçkiləri ərəfəsində hakimiyyət dairələri qayda-qanun və sabitlik yaratmağı vəd etdilər. Seçki ərəfəsində yeni seçki islahatı həyata keçirildi. Buna görə mojaritar seçkilər kiçik birmandatlı dairədə bir turdan ibarət keçirilməli idi. Nisbi səs çoxluğu qazanan namizəd seçilmiş hesab edilirdi.

Seçki ərəfəsində sollar yenidən birlik yaratdılar. Onlar strateji əhəmiyyətli sahələrin və müəssisələrin milliləşdirilməsi hesabına dövlət bölməsini genişləndirmək, hərbi xərcləri azaltmaq, vahid dövlət sığorta sistemi yaratmaq, əmək münasibətlərini tənzimləmək proqramını irəli sürdülər. 1932-ci ilin mayında keçirilən seçkilərdə sollar qələbə çaldılar. Onlar 368, radikallar 157, Fəhlə İnternasionalının fransız bölməsi 129 mandat aldı. Ölkənin baş naziri sol partiyaların dəstəyi ilə Eduard Errio seçildi. 1932-1934-cü illərdə isə ölkədə 5 dəfə hökumət dəyişdi.

1931-ci ildə "Huver moratoriumu" qəbul edildikdən sonra Fransa Almaniyadan istədiyi təzminatı ala bilmədi. Fransada Almaniyaya qarşı böhtan kampaniyası gücləndi. Xarici siyasətin dəyişdirilməsi ölkədə fəal müzakirə obyektinə çevrildi. Fransanın Hind-Çin, Mərakeş və Əlcəzairdəki müstəmləkələrində üsyanlar baş verdi. Hökumət 1932-ci ilin noyabrında SSRİ ilə hücum etməmək haqqında paktı imzaladı. İki ölkə arasında qarşılıqlı

ticarət əlaqələri genişləndirildi.

1933-cü ildən 1934-cü il fevralın 7-dək Fransanın baş naziri Eduard Daladye oldu. Bu dövrdə ölkə prezidenti Şarl Lebren idi.

Almaniyada nasional-sosializm hakimiyyət başına gəldikdən sonra Fransada da faşist təşkilatları gücləndi. Ölkədə millətçi qrupların və faşist təşkilatlarının güclənməsinin başlıca səbəbi Almaniyadan gələn təhlükə ilə bağlı idi. Almaniya xarici siyasətinin məqsədləri Fransa cəmiyyətini qorxuya saldı. Fransız faşist təşkilatlarının əsas məqsədi ölkədə parlament quruluşunu ləğv etmək və diktatura yaratmaq idi. 1934-cü il fevralın 6-da Parisdə faşist qiyamı baş verdi. 20 min faşist küçələrə çıxaraq rüşvətxor məmurların və deputatlar palatasının qovulmasını tələb etdilər. "Aksen fransez", "Feso", "Mübariz xaçlar", "Kral cəngavərləri" və "Vətənpərvər gənclər" təşkilatları xüsusilə fəal idilər. Polis qiyamçıları darmadağın edərək ölkədə faşist təhlükəsinin qarşısını aldı. Faşistlərin hərəkətinə cavab olaraq 1934-cü il fevralın 9-da Parisdə 50 min nəfərin iştirak etdiyi antifaşist nümayişi, fevralın 12-də isə bütün ölkədə faşizm əleyhinə və respublikanın müdafiəsi məqsədi ilə möhtəşəm mitinqlər keçirildi. Bu mitinqlərdə təxminən 4,5 mln. nəfər iştirak etdi. Müxtəlif siyasi qüvvələrin iştirak etdiyi mitinqlər faşizm əleyhinə Xalq Cəbhəsinin yaradılması üçün əlverişli şəraitin yetişdiyini göstərdi.

Digər ölkələrdən fərqli olaraq Fransada faşizmin bir sıra özünəməxsus cəhətləri var idi. Fransız faşizmi siyasi cəhətdən pərakəndə və zəif idi. İdeya boşluğu hökm sürürdü. Hərəkatın başında parlaq şəxsiyyət durmurdu. Fransız faşizmi bir qrup varlı təbəqələrə və millətçi qüvvələrə arxalanırdı. Faşizmin ölkədə dərin tarixi kökləri mövcud deyildi. Fransa cəmiyyətinin faşistləşdirilməsi yalnız hakimiyyət tərəfindən həyata keçirilə bilərdi. Lakin rəsmi dairələr ölkədə faşizmin intişar tapmasında maraqlı deyildilər.

1934-1936-cı illərdə Fransada 5 hökumət dəyişildi. 1934-cü ilin fevralından oktyabrınadək ölkənin baş naziri Q.Dumerq oldu.

O, 34 nazirdən ibarət "Milli birlik" hökuməti yaratsa da qısa müddətdən sonra istefaya getməyə məcbur oldu. Dumerqin yerinə baş nazir əvvəlki kabinetlərdə müxtəlif vəzifələrdə işləmiş Pyer Etyen Flanden oldu.

√ Bu zaman Fransanın xarici siyasəti xeyli fəallaşdı. Almaniya təhlükəsinə qarşı yeni müttəfiqlər axtarışı gücləndi. Fransa "Şərq Lokarno"su ideyasını irəli sürdü. Bu ideyaya görə Fransa, SSRİ və Kiçik Antanta dövlətləri müqavilələr kompleksi imzalayaraq kollektiv təhlükəsizlik sistemi yaratmalı idilər. İdeyanın həyata keçirilməsi məqsədilə Fransa 1934-cü il aprelin 17-də Britaniya hökumətinə müraciət edərək Reyn təminat paktının digər Avropa dövlətləri ilə imzalanmasının zəruriliyini göstərdi. 1934-cü ilin yazında Fransanın xarici işlər naziri Lui Bartu bir sıra Mərkəzi və Cənub-Şərqi Avropa ölkələrinə səfər etdi. Səfərlərin başlıca məqsədi Avropada kollektiv təhlükəsizlik sistemi yaratmağa nail olmaq idi. 1934-cü il oktyabrın 9-da Yuqoslaviya kralı I Aleksandrın Marseldə qarşılanma mərasimində Bartu xorvat millətçi təşkilatının üzvləri tərəfindən öldürüldü (I Aleksandrın Marseldə qarşılanması əbəs deyildi. Birinci dünya müharibəsi illərində məhz Marsel limanından fransız ordu hissələri Serbistana köməyə getmişdilər.) Bu qətl fransız cəmiyyətini hərəkətə gətirdi.

Bundan sonra Fransanın xarici işlər naziri olan Laval SSRİ ilə yaxınlaşmaq ideyasına ehtiyatlı münasibət göstərsə də 1934-cü il dekabrın 5-də fransız-sovet sazişi imzalandı. Bu sazişə görə tərəflər Şərqi Avropa təminat paktının hazırlanması əleyhinə olan hər hansı diplomatik addımlardan imtina edirdilər. 1935-ci ilin mayında SSRİ ilə Fransa arasında qarşılıqlı yardım haqqında müqavilə imzalandı. Müqaviləyə görə tərəflərdən birinə üçüncü dövlət hücum edərdisə, digər tərəf ona yardım etməli idi. Lakin bu müqavilə hərbi konvensiya ilə möhkəmləndirilmədi.

Laval faşist rejiminin mövcud olmasına baxmayaraq İtaliya ilə yaxınlaşmağa çalışırdı. Bu məqsədlə edilən səylər öz nəticəsini verdi. 1934-cü ilin fevralında Romada Fransa, İtaliya, Avstriya və

Macarıstan arasında təminat protokolları imzalandı. Fransanın fəal hərəkətləri Avropada Almaniyanın planlarının həyata keçirilməsini yubatdı. Fransız hökuməti eyni zamanda İtaliyanın Həbəşistana qarşı hərəkətlərini də bəyəndi. Belə olduqda Böyük Britaniya Fransa əleyhinə təbliğata başladı. Təzyiq nəticəsində Fransa-İtaliya müttəfiqliyinin qarşısı alındı. Fransa Böyük Britaniya ilə yaxınlaşdı. Qeyd etmək lazımdır ki, fransız-alman münasibətlərində ziddiyyətlər olmasına baxmayaraq, nasional-sosializmin Almaniyada hakimiyyətə gəldiyi ilk illərdə bu münasibətlər o dərəcədə də kəskin deyildi. 1935-ci ilin aprelində Fransanın təşəbbüsü ilə keçirilən Almaniyanın Versal müqaviləsinin şərtlərini pozmasına həsr edilmiş konfrans istənilən nəticəni vermədi. 1935-ci ilin iyunundan 1936-cı illədək fransız hökumətinə Laval başçılıq etdi.

## Xalq Cəbhəsi hökuməti

Faşist qiyamı yatırıldıqdan sonra ölkədə demokratik qüvvələrin birləşdirilməsi zəruriliyi ortaya çıxdı. 1934-cü il iyulun 27-də Sosialist və Kommunist partiyaları faşizmə və müharibə təhlükəsinə qarşı birgə mübarizə aparmaq haqqında pakt imzaladılar. Bu partiyalar birgə fəaliyyət göstərmək məqsədilə Əlaqələndirmə Komitəsi yaratdılar. 1935-ci il iyulun 14-də Bastiliyanın alınmasının ildönümü münasibətilə Parisdə yarım milyondan çox adamın iştirak etdiyi möhtəşəm nümayiş oldu. Faşizmə qarşı şüarlar söyləyən nümayişçiləri və siyasi partiyaları küçələrə çıxan xalq da dəstəklədi. Beləliklə, Xalq Cəbhəsinin əsası qoyuldu. Ölkənin 48 təşkilatı Xalq Cəbhəsində birləşdi. 1936-cı ilin yanvarında elan edilən Xalq Cəbhəsinin proqramında siyasi-iqtsiadi və digər tələblər var idi. Proqramda nəzərdə tutulan siyasi tələblər əsasən aşağıdakılardan ibarət idi: faşist təşkilatlarını buraxmaq; terrorizmə qarşı mübarizə; tərksilah; mətbuat azadlığı; Millətlər Cəmiyyəti çərçivəsində əməkdaşlıq.

Proqramın iqtsiadi tələblər bölümündə başlıca olaraq aşağıda-

kılar nəzərdə tutulurdu: əmək haqqını azaltmadan iş gününü qısaltmaq; işsizlərə kömək etmək; iş yerləri açmaq; ictimai işlər təşkil etmək; pensiyaçıları və hərbi qulluqçulara diqqət yetirmək; bankları milliləşdirmək; iqtisadiyyatın planlı inkişafını təmin etmək; iqtsiadiyyat üzərində dövlət nəzarətini gücləndirmək; kənd təsərrüfatına yardım etmək; maliyyə sistemini sağlamlaşdırmaq; əmək münasibətlərini tənzimləmək və s.

Proqramda sosialist tələbləri mövcud deyildi. Bu proqram demokratik və antifaşist xarakter daşıdığından sosial dayaqları da möhkəm idi. Xalq onu müdafiə edirdi. Lakin Xalq Cəbhəsi rəhbərliyində alyansın strateji məqsədləri barədə məsələdə ciddi fikir ayrılıqları hökm sürürdü. Kommunistlər Xalq Cəbhəsinə xalq kütlələrinin birbaşa siyasi hərəkatı kimi baxaraq, onun möhkəm yerli təşkilatlarının yaradılmasını tələb edirdilər. Radikallar isə Xalq Cəbhəsinə seçkiqabağı blok, sağ mərkəzçi qüvvələrin hakimiyyətə gəlmək yolunu kəsməkdə və möhkəm demokratik hökumət yaratmaqda vasitə kimi baxırdılar. Sosialistlər isə Xalq Cəbhəsi dedikdə əsasən sosialist ideyalarını başa düşürdülər. Bu fikir ayrılıqlarına baxmayaraq 1936-cı ilin yazında deputatlar palatasına keçirilən seçkilərdə Xalq Cəbhəsi 57% səs topladı. Parlamentdə Xalq Cəbhəsinə daxil olan partiyalar 375, sağ partiyalar isə 237 deputat yeri qazandılar. Xalq Cəbhəsi partiyalarının 375 yeri belə bölünmüşdü: Fəhlə İnternasionalının fransız bölməsi - 146, radikallar - 116, Fransa Kommunist Partiyası - 72. Fəhlə İnternasionalının fransız bölməsinin lideri Leon Blum hökumət təşkil etdi. Bu hökumət 1936-cı il iyunun 4-dən 1937-ci ilin iyununadək hakimiyyətdə oldu. Hökumətin tərkibinə 12 sosialist, 9 radikal və xırda partiyaların nümayəndələri girdilər. Kommunistlər isə hökumətə daxil olmaqdan imtina etdilər. Hökumət daxili siyasətdə geniş iqtsiadi proqramları həyata keçirməyə başladı. Parlament 1936-cı ilin yayında 130-dan çox qanun qəbul etdi. Bu qanunların çoxu sosial yönümlü idi. Ölkənin maliyyə sistemi üzərinə ciddi nəzarət qoyuldu və xaricə kapital çıxarılması qadağan edildi.

Eyni zamanda hökumət daxilində fikir ayrılıqları dərinləşdi. Sağlar Xalq Cəbhəsinə qırmızı kommunist diktaturası kimi baxmağa başladılar. Yeridilən siyasətdəki qeyri-ardıcıllıq xalqın narazılığına səbəb oldu. Ölkəni xalq üsyanları bürüdü. Çıxış yolu Əmək Konfederasiyası ilə hökumət arasında anlaşmanın əldə olunmasında idi. Bu məqsədlə 1936-cı il iyunun 7-də Parisdə Matinon otelində Ümumi Əmək Konfederasiyası ilə Fransa Sənayeçiləri Ümumi Konfederasiyası arasında saziş imzalandı. Bu sazişə görə əmək haqqı orta hesabla 12% artırıldı, həmkarlar ittifaqı tanındı və işçilərin əmək şəraiti yaxşılaşdı. Hökumətin 40 saatlıq iş həftəsi, məzuniyyətlərin ödənilməsi, kollektiv müqavilələrin bağlanılması, fövqəladə qanunlara yenidən baxılması haqqında təqdim etdiyi layihələr deputatlar palatasında təsdiq olundu. Eyni zamanda hökumət dövlət qulluqçularının maaş və pensiyalarını da artırdı. İqtisadi islahatlara başlanıldı. Vergi islahatları həyata keçirildi. Cəbhəçilərin pensiyaları və işsizliyə görə verilən yardımlar üzərinə qoyulan vergilər ləğv edildi. Kiçik müəssisələrdən alınan vergilər azaldıldı. Ölkədə icbari təhsil 14 yaşadək artırıldı. İdman və mədəniyyət nazirliyi yaradıldı. İctimai iş yerləri açıldı. Milli bank tamamilə dövlətin əlinə keçdi. Hərbi sənayenin bir hissəsi milliləşdirildi. Ərzaq bazarını sabitləşdirmək üçün Taxıl Bürosu yaradıldı. Lakin proqramların reallaşdırılmasına hökumət daxilində baş verən ixtilaflar mane olurdu. Hökumətin siyasəti kəskin narazılıq yaratdı. Qadağanlara baxmayaraq ölkədən xaricə kapital çıxarılması gücləndi. 1936-1937-ci illərdə xarici banklara 100 mlrd. frank keçirildi. Ölkənin qızıl ehtiyatı 55 mlrd. dollara düşdü. Bir ildə dövlət borcu 16 mlrd. artdı. Maliyyə böhranından çıxmaq üçün hökumət frankın devalvasiyasını keçirdi. Frankın qızıl ekvivalenti 30% aşağı salındı. Lakin bu da böhranın qarşısını ala bilmədi. 1937-ci ildə fransız iqtisadiyyatını yeni böhran bürüdü. İstehsalın səviyyəsi 1929-cu illə müqayisədə 70%-ə endi. İşsizlik və inflyasiya artdı. Vəziyyətdən çıxmaqdan ötrü Leon Blüm maliyyə sistemi üzərində nəzarət, kapitala əlavə vergi

qoymaq və xaricə kapital çıxarılmasını qadağan etmək sahəsində əlavə səlahiyyətlər almaq istəsə də nəticəsi olmadı. Bu məsələnin müzakirəsi zamanı demək olar ki, bütün partiyalar onun əleyhinə çıxdılar.

İspaniyada faşistlər respublika quruluşuna qarşı qiyam qaldırdıqda Leon Blüm hökuməti "qarışmamaq siyasəti" elan edərək İngiltərə ilə yaxınlaşdı. Ölkədə faşist təşkilatlarının buraxılması haqqında qanun verilsə də hərbi faşist təşkilatlarının fəaliyyəti dayandırılmadı. "Odlu xaçlar" və digər faşist təşkilatları gücləndi.

Hakimiyyət daxilində baş verən narazılıq nəticəsində 1937-ci ilin fevralında Leon Blüm Xalq Cəbhəsi proqramının həyata keçirilməsində fasilə elan etdi. Ancaq yenə də xalqın narazılığı səngimədi. Belə vəziyyətdə 1937-ci ilin iyununda Leon Blüm istefaya getdi. Yeni hökuməti sağ radikal Kamil Şotan təşkil etdi. 1937-ci ilin iyunundan 1938-ci ilin martınadək hakimiyyətdə olan Şotan hökuməti vergiləri artırdı və frankın alıcılıq qabiliyyətini möhkəmləndirdi. 1937-ci ilin iyulunda frankın ikinci devalvasiyası keçirildi. Əvvəlki qanunların bir qismi, o cümlədən 40 saatlıq iş həftəsi ləğv edildi.

Bu hökumət də xarici siyasət fəaliyyətində daxili işlərə qarışmamaq və faşizmi şirnikləndirmək xətti yeritdi.

1938-ci ildə Şotan hökuməti istefaya getdi. 1938-ci il martın 13-də Leon Blüm ikinci dəfə hökumət qurdu. Onun geniş koalisiyalı hökumət yaratmaq təklifi qəbul edilmədi. Nəticədə bu hökumət aprel ayında istefaya getdi. Bundan sonra hakimiyyətə radikalların nümayədəsi Eduard Daladye (1884-1970) gəldi. 1938-ci il aprelin 10-dan 1940-cı ilədək hakimiyyətdə olan Daladye hökuməti daxili siyasətdə bütün siyasi partiyaları əməkdaşlığa çağırdı. O, parlamentdə çoxluq təşkil edən partiya nümayəndələrindən ibarət hökumət yaratmaq praktikasından əl çəkərək bütün partiyaların nümayəndələrindən hökumət qurdu. Daladyeyə fövqəladə səlahiyyətlər verilməsi məsələsində Milli

Məclis 575 səslə onu dəstəklədi. Yalnız 5 nəfər bu təklifin əleyhinə səs verdi.

Bütün partiyaları ətrafında toplayan Daladye yeritdiyi milli birlik siyasəti ilə Xalq Cəbhəsinin fəaliyyətinə son qoydu. Xalq Cəbhəsinin məğlub olmasının başlıca səbəbi onun iştirakçıları arasında dərin ideoloji fərqlərin hökm sürməsi idi. Xalq Cəbhəsi kütləvi ictimai-siyasi hərəkatın aparıcı qüvvəsinə çevrilə bilmədi. İslahatların həyata keçirilməsində ardıcıllıq yox idi.

1938-ci ilin avqustunda hökumət müəssisələrdə əlavə iş saatı tətbiq etdi. Poçt və teleqraf rüsumları artırıldı. Fransız iqtisadiyyatını sağlamlaşdırmaq məqsədilə Xalq Cəbhəsinin yeritdiyi sosial istiqamətli siyasətdən imtina olundu. Sənaye və ticarət müəssisələrinin gəlirlərinə qoyulan vergilər azaldıldı, birbaşa vergilər isə 8% artırıldı. Sənaye məhsulunun maya dəyəri aşağı salındı.

Daladye hökuməti 1938-ci il sentyabrın 30-da Münhen sövdələşməsinə qoşulduqdan sonra geniş şəkildə daxili siyasətlə məşğul olmağa başladı. İqtisadi inkişafa xüsusi diqqət yetirildi.

1938-ci il noyabrın 12-də hökumətin yeni fövqəladə dekretləri verildi. Bütün gəlirlər üzərinə qoyulan vergi 2% artırıldı, mülkiyyət vergisi çoxaldıldı, kommunal xidmət tarifləri yüksəldildi, 6 günlük iş həftəsi tətbiq edildi, ictimai işlər azaldıldı və qiymətlər üzərində nəzarət ləğv olundu. Əmək münasibətləri sahəsində sahibkarların hüquqlarını genişləndirən üçillik xüsusi rejim tətbiq edildi. Sosial ehtiyaclara ayrılan birbaşa xərclər azaldıldı. Ölkə iqtisadiyyatını sabitləşdirmək üçün fond yaradıldı. Ölkəyə xarici kapital axını gücləndi və maliyyə sistemi möhkəmləndirildi. Hərbi müəssisələr xüsusi rejim şəraitinə keçirildi. Hökumət hərbi sənayenin inkişafı üçün 2 mlrd. frank vəsait ayırdı.

Müharibə təhlükəsi qarşısında bütün səlahiyyətləri öz əlində cəmləşdirən hökumət yeni silahlanma proqramını həyata keçirməyə başladı. Qısa müddətdə hərbi istehsal sahəsinə 30 mlrd. frank vəsait xərcləndi. Hərbi müəssisələrdə iş rejimi ciddiləşdirildi.

İqtisadiyyatın dövlət tənzimlənməsi gücləndirildi, planlaşdırılmaya və iqtsiadi inkişafın əlaqələndirilməsinə keçildi. Hərbi istehsalı genişləndirmək məqsədilə 1938-ci ildə hökumət komitəsi yaradıldı. Komitə iqtisadiyyatın strateji sahələrinə məsul olan nazirliklərə nəzarət etmək səlahiyyəti aldı.

1939-cu ildə parlament "İqtsiadiyyatı tənzimləyən rejim" qanununu qəbul etdi. Bu proqram şəxsi təşəbbüsü istiqamətləndirir və əlaqələndirirdi.

Ancaq Daladye hökumətinin yeritdiyi siyasət cəmiyyətdə heç də birmənalı qarşılanmadı. Onu müdafiə edən sağlar fövqəladə dekretlər əsasında hərəkət etməyi və "yönəldilən iqtisadiyyat"dan əl çəkməyi tövsiyə etdilər. Sol partiyalar isə Daladyenin "yeni kursu"nu açıq şəkildə tənqid edərək müxalifətə keçdilər. Artıq bu zaman Fransa ikinci dünya müharibəsinin astanasında idi.

## Fransa ikinci dünya müharibəsi illərində

1939-cu il sentyabrın 1-də Almaniya Polşaya qarşı müharibə elan etdikdən az sonra, sentyabrın 3-də Fransa Polşa qarşısında götürdüyü öhdəliklərə uyğun olaraq müharibəyə qoşuldu. Almaniyaya müharibə elan etməsinə baxmayaraq Fransa fəal hərbi əməliyyatlar aparmadı. Ona görə də bu müharibə "qəribə müharibə" adını aldı. Müharibə şəraitində hökumət sərt daxili siyasət yeritməyə başladı. Sentyabrın 6-da "Hərbi vəziyyətə uyğun olaraq istehsalın qurulması haqqında dekret" verildi.

1939-cu il noyabrın 18-də "Şübhəlilər haqqında dekret" verildi. Siyasi cəhətdən səbatsız olan və şübhəli bilinən şəxslər məhkəmənin hökmü olmadan polis tərəfindən düşərgələrə göndərilməyə başlandı. 1940-cı ilin martında 620 həmkarlar ittifaqı təşkilatı buraxıldı.

Daladye hakimiyyətdə qala bilməyərək 1940-cı il martın 20-də istefaya getdi. Yeni baş nazir Demokratik Alyansın lideri Pol Reyno oldu. O, eyni zamanda xarici işlər naziri vəzifəsini də tutdu. Reyno Fransanın İspaniyadakı səfiri işləyən Filipp Peteni geri çağıraraq

baş nazirin müavini təyin etdi. Hökumətdə əsas rolu marşal F.Peten, general M.Veyqan, admiral J.Darlan, L.Laval və K.Şotan oynayırdılar. İyunun 7-də Reyno Fransa uğrunda mübarizənin başlandığını bildirdi. İyunun 9-da Almaniya orduları Sena çayına yaxınlaşdılar. İyunun 10-da İtaliya da Fransaya müharibə elan etdi. Fransız hökumətinin müqavimət göstərməsinin elə bir nəticəsi olmadı. İyunun 14-də Hitler orduları Parisə girdilər. Respublikanın prezidenti, deputatlar palatasının və senatın üzvləri, hökumətin başçısı və nazirlər, ali baş komandan ölkənin cənubuna köçərək Bordo şəhərində yerləşdilər. Hökumətin burada keçirilən iclasında Böyük Britaniyanın baş naziri Çerçilin ingilis-fransız müttəfiqliyi üçün bütün fransız və ingilislərə ikili vətəndaşlıq verilməsi, Londonda vahid hökumət qurulması, silahlı qüvvələrin birləşdirilməsi təklifləri müzakirə edildi. Reynonun müavinləri olan Laval və Peten, o cümlədən general Veyqan və admiral Darlan bu təklifləri rədd edərək Almaniya ilə sülh bağlamağa tərəfdar çıxdılar. Belə vəziyyətdə iyunun 16-da Reyno istefaya getdi. Yeni hökuməti F.Peten təşkil etdi. İyunun 17-də Peten orduya müqavimət göstərməyi dayandırmağa çağırdı. Peten hökuməti İspaniya hökuməti vasitəsilə Almaniyaya barışıq haqqında müraciət etdi. İyunun 22-də Hitler, Gerinq, Gess, Ribbentrop, admiral Reder və general Keytel fransız nümayəndə heyətinə Paris yaxınlığındakı Kompyen meşəsində 1918-ci ildə marşal Foşun almanlara barışıq şərtlərini hökm etdiyi yerdə danışıqsız təslim olmaq aktını imzalatdılar.

İyunun 24-də Fransa ilə İtaliya arasında barışıq sazişi bağlandı. Barışıq şərtlərinə görə fransız orduları müqaviməti dayandırmalı, tərksilah və tərxis olunmalı, ölkənin silah, sursat və müdafiə qurğuları Almaniya və İtaliyanın nəzarətinə keçməli idi. Fransa ərazisinin üçdə iki hissəsi işğal edildi. Mülki gəmilər istisna olunmaqla hərbi donanma Almaniya və İtaliyaya verildi. Fransa alman əsirlərini azad etməli, 1,5 mln. nəfər fransız əsir isə sülh müqaviləsi bağlananadək Almaniyada saxlanmalı idi. Silahların saxlanması və sursat anbarları almanların nəzarətinə keçdi.

Almaniya ordusu 3 min fransız təyyarəsini, 5 minə yaxın tankını aldı. Ölkənin cənub departamentləri almanlarla əməkdaşlıq edən Peten hökumətinin nəzarətində qaldı. İşğal olunmamış ərazilərdə sabitliyi qorumaq üçün Peten hökuməti yüz minlik "barışıq ordusu" adlandırılan ordu saxlaya bilərdi. İşğal olunmuş ərazilərdə isə qayda-qanunu alman orduları təmin etməli idi. Fransanın cənubundakı Menton şəhəri ətrafındakı rayonları işğal edən İtaliya fransız silahlarını ələ keçirdi.

Buna baxmayaraq, Fransa Afrikadakı müstəmləkələri üzərində tam nəzarət qazandı. Fransız hərbi hissələri müstəmləkələrdə qayda-qanunu qorumalı idi. İyunun 25-də barışıq sazişi hər iki tərəfdən qüvvəyə mindi.

1940-cı il iyunun 18-də Londonda olan general Şarl de Qoll radio ilə çıxış edərək işğalçılara qarşı mübarizəni davam etdirəcəklərini bildirdi.

İşğal fransız iqtisadiyyatına ağır zərbə endirdi. Təsərrüfat həyatı pozuldu. Ölkə iqtisadiyyatı alman hərb maşınının ehtiyaclarının ödənilməsinə tabe etdirildi.

Peten hökuməti alman mühafizəçilərin nəzarəti altında Bordodan Vişiyə gəldi. İngilislərin Misir və Əlcəzair limanlarında yerləşən fransız gəmilərinə buranı tərk etmək barədə ultimatumunu rədd edən Peten hökuməti iyulun 5-də Böyük Britaniya ilə münasibətlərini kəsdi. İyulun 10-da Milli Məclisin kurort yeri olan Vişidə keçirilən iclasında bütün qanunverici və icraedici hakimiyyət 84 yaşlı marşal F.Petenə verildi. Həmin gün üçüncü respublikanın buraxılması haqqında qanun səsə qoyuldu. 569 deputat respublikanın buraxılmasının lehinə, 80 nəfər isə əleyhinə səs verdi. Bununla da üçüncü respublika iflasa uğradı. Peten Fransa Respublikasının şüarları olan "Azadlıq, Bərabərlik, Qardaşlıq" əvəzinə "Əmək, Ailə, Vətən" şüarlarını irəli sürdü. O, yeni konstitusiyanın hazırlanacağını elan etsə də bu iş başa çatdırılmadı. Yeni dövlət quruluşunun əsasını, hakimiyyət institutlarının səlahiyyətlərini və Fransa dövlətinin siyasətinin mühüm prinsiplərini 12 qanun

tənzimlədi. Ölkə Fransa respublikası deyil, Fransa dövləti adlandırıldı. İki gündən sonra Petenin ilk fərmanları verildi. O, respublika prezidenti vəzifəsini ləğv edərək dövlətin başçısı funksiyalarını öz üzərinə götürdü. 2 №-li konstitusiya aktında göstərilirdi ki, bütün hakimiyyət ona məxsusdur. 3 №-li fərmanla o, senatın və nümayəndələr palatasının iclaslarını yeni xüsusi fərman verilənədək təxirə saldı. Peten Lavalı baş nazirin müavini vəzifəsinə təyin etdi. Bu hökumət "Vişi rejimi" adlandırıldı. İdarəetmə işlərində hökumətin rolu artdı. Hökumətin başçısı dövlət başçısının varisi hesab edildi. Oktyabrın 24-də Montuari şəhərində Petenlə Hitlerin görüşündə əməkdaşlıq barədə razılığın əldə olunması ilə Fransa hökuməti kollaborasionizm xəttini rəsmi olaraq elan etdi.

Rəsmi hökumətin işğalçılarla əməkdaşlıq etmək siyasətindən fərqli olaraq Şarl de Qoll başda olmaqla 7 min nəfərlik müqavimət dəstəsi fəaliyyətini gücləndirdi. Qısa müddətdə onların sayı 35 min nəfərə çatdı. Qollun ixtiyarında 20 hərbi gəmi, 60 ticarət gəmisi və 1000 nəfər təyyarəçi var idi. Fransız hərbi hissələrinin formalaşması Çerçil və Qollun 1940-cı il avqustun 7-də imzaladıqları "Fransız silahlı qüvvələrinin yaradılması və maliyyələşdirilməsi qaydası haqqında saziş"ə əsasən uğurla aparılırdı.

Oktyabrın 7-də Şarl de Qoll Brazzavildə İmperiyanı müdafiə şurasının yaradıldığını elan etdi. Bundan sonra Fransada faşist işğalçılarına qarşı nifrət və mübarizə daha da gücləndi. Ölkəni antifaşist mübarizə və müqavimət hərəkatı bürüdü. Bu hərəkatda müxtəlif millətlərin nümayəndələri ilə yanaşı azərbaycanlılar da fəal iştirak etdilər.

Hökumətdə Petendən sonra önəmli rol oynayan və onun varisi sayılan baş nazir J.Darlan almanların təzyiqi ilə vəzifəsindən uzaqlaşdırıldı. 1942-ci il aprelin 19-da Laval hökumətin başçısı vəzifəsini tutdu. Kütləvi informasiya vasitələri üzərində senzura qoyuldu. Peten hökuməti strateji məqsədinin beynəlxalq kapitala və sosializmə qarşı mübarizə olduğunu elan etdi. O, bunu "milli

inqilab" adlandırdı. "Milli inqilab"ın başlıca məqsədi məqsədi ölkədə sinfi ziddiyyətləri ləğv etmək, möhkəm demokratik sistem və yeni sosial qayda yaratmaq idi. Onun əsasını cəmiyyətin ierarxiyalı quruluşu və həmrəyliyi təşkil edirdi.

Əmək münasibətləri sahəsində başlıca məqsəd sosial ziddiyyətləri aradan qaldırmaq idi. Bütün bunlarla paralel olaraq kənd təsərrüfatında korporativlər yaradıldı. Ən yüksək korporativ şurası Kənd Təsərrüfatı Nazirliyi tərəfindən təsdiq edilən 10 nəfərdən ibarət olurdu. Korporasiyalar daxilində və onların arasında münasibətləri tənzimləmək üçün "Əmək xartiyası" işlənib hazırlandı. Onun əsasını "Əməyin sosial təşkili haqqında" 1941-ci il 26 oktyabr tarixli qanun tutdu. Qanuna görə həmkarlar ittifaqları vahid işlər-korporativ təşkilatlarında maraqların birliyi və əlaqələndirilməsi əsasında birləşdilər. Dövlət qulluqçuları korporativlərə daxil edilmədilər. Hər bir korporasiyanın başında sosial komitələri dururdu. Onlar siyasi fəaliyyətlə məşğul ola bilməzdilər. Sosial komitələrin nümayəndələri dövlət məmurlarının iştirakı ilə təşkilat komitələrinə daxil oldular. Korporasiyalar arasında münaqişələri həll etmək üçün əmək tribunalları yaradıldı. Tətillər və işçiləri işdən azad etmək qadağan olundu.

"Vişi rejimi" ölkədə xristian sivilizasiyasını dirçəltmək proqramını elan etdi. Buna görə fransız millətinin mənəvi və sosial cəhətdən saflaşmasında kilsə mühüm rol oynamalı idi. Kilsə Peten hökumətini müdafiə etdi. Dini məktəblərin rolu artırıldı. Müəllim heyəti təmizləndi. Çoxuşaqlı ailələrə yardımlar edildi. Demoqrafik siyasətə xüsusi diqqət yetirildi. Yəhudilər üzərində polis nəzarəti quruldu.

Hökumətin siyasəti fransız cəmiyyətinin faşistləşdirilməsinə yönəlsə də Fransada kütləvi faşist hərəkatı üçün sosial baza yox idi. Hökumətin xalqı səfərbər etmək cəhdləri heç bir nəticə vermədi. Rejimin başlıca dayağı "Veteranlar legionu" oldu. Ancaq faşist partiyası yaratmaq cəhdləri uğursuz qurtardı.

"Vişi rejimi"nin işğalçılarla barışmaq və əlaltıya çevrilmək

siyasəti xalqın narazılığına səbəb oldu. Fransa iqtisadiyyatının, bankların, hərbi müəssisələrin Almaniyanın nəzarətində olması və gündə 400 mln. frank təzminat ödənilməsi xalqın qəzəbini coşdurdu. Artıq 1944-cü ildə Fransa sənayesinin 80%-i alman sifarişlərini yerinə yetirirdi. Ölkədə inflyasiyasının həddi xeyli yüksək idi. İşsizlik artdı. Ticarət sistemi dağıldı. Əhalini aclıq bürüdü.

Belə şəraitdə siyasi terror və repressiya gücləndirildi. Dövlət aparatı təmizləndi. Böyük şəhərlərdə fəaliyyət göstərən bələdiyyələr buraxıldı. Gizli cəmiyyətlər və masson təşkilatları qadağan edildi. Peten yeni konstitusiya aktı verərək daxili və xarici siyasətə rəhbərliyi öz əlinə aldı. Ancaq bütün bunların heç biri, o cümlədən vətənpərvər qüvvələrə qarşı dəhşətli repressiya tədbirləri müqavimət hərəkatını dayandıra bilmədi. 1941-ci ilin sentyabrında Şarl de Qoll Fransız Milli Komitəsini yaratdı. Bir il sonra bu komitə "Döyüşən Fransa" adını aldı. Lakin hərəkatın rəhbərliyində alman əsirliyindən qaçmış general Jiro ilə Qollun arasında ixtilaflar var idi. Şarl de Qoll işğaldan azad edilmiş rayonlarda idarəçilik orqanlarını yaratdı. 1941-ci il sentyabrın 26-da SSRİ hökuməti Şarl de Qollu bütün azad fransızların rəhbəri kimi tanıdı. ABŞ və İngiltərə hökumətləri də Şarl de Qollu müdafiə edərək çoxlu yardımlar göstərdilər. 1943-cü il iyunun 3-də Əlcəzairdə qurulan Fransa Milli-Azadlıq Komitəsi hökumət orqanı kimi müttəfiqlər tərəfindən tanındı. 1944-cü ilin fevralında Fransa ərazisindəki bütün müqavimət qüvvələri "Fransa daxili qüvvələri"ndə birləşdilər. Fransa Milli-Azadlıq Komitəsi rəhbərliyi daxilində gedən mübarizə Qollun xeyrinə nəticələndi. Jiro istefaya getdikdən sonra Qoll müqavimət hərəkatının yeganə lideri oldu. İkinci cəbhənin açılması ərəfəsində Şarl de Qoll Çerçilin dəvəti ilə Londonda səfərdə olarkən ingilis hökuməti ona yardım edəcəyini bildirdi. 500 minədək "fransız daxili qüvvələri" işğalçılara qarşı üsyan qaldırdı. Bu zaman Parisdə və ölkənin digər yerlərində xalq üsyanları başladı. Tələbə və şaxtaçıların tətilləri

ölkəni bürüdü. Xalq işğalçılara qarşı mübarizədə antifaşist qüvvələri müdafiə etdi. Nüfuzu sürətlə aşağı düşən "Vişi hökuməti" məğlubiyyətə uğradı. Hökumətin üzvlərinin əksəriyyəti həbs edildi. 1944-cü il avqustun 25-də Paris üsyançılara təslim olan gün Şarl de Qoll paytaxta gəldi. Avqustun 26-da Parisdə Yelisey çölündə nümayiş və parad keçirildi.

Müttəfiqlərlə əlaqələrini genişləndirən Fransa Müvəqqəti hökumətinin başçısı Şarl de Qoll, xarici işlər naziri J.Bido və qərargah rəisi general Jyuen 1944-cü il noyabrın 27-dən dekabrın 13-dək SSRİ-yə səfər etdilər. İrandan Moskvaya gedərkən Azərbaycanda olan nümayəndə heyətini Binə hava limanında respublika rəhbərləri və Moskvadan gələn nümayəndələr qarşıladılar. Bir gün Bakıda qalan nümayəndə heyəti Ü.Hacıbəyovun "Koroğlu" operasına tamaşa etdi. Hava şəraitinin əlverişsiz olması ucbatından Moskvaya qatarla gedən fransız nümayəndə heyəti yolüstü Stalinqrada baş çəkdi. Dekabrın 10-da Moskvada hər iki tərəf arasında müttəfiqlik və qarşılıqlı yardım haqqında saziş imzalandı. Saziş iki ölkənin müttəfiqliyini gücləndirdi. Bundan sonra Fransa antihitlerçi koalisiyada daha fəal iştirak etdi. Fransızlar dekabrın 14-də Bakıdan keçərək ölkələrinə döndülər.

İkinci dünya müharibəsində Almaniya və müttəfiqlərinin məğlub edilməsi Avropadakı siyasi şəraitə əsaslı təsir göstərdi. Fransa xalqının tarixində yeni dövr başlandı.

# V BÖLÜM

## AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI

### Birinci dünya müharibəsinin ABŞ üçün nəticələri

Birinci dünya müharibəsinin ABŞ üçün ciddi sosial-iqtisadi nəticələri oldu. Dünya müharibəsinə ABŞ 25,7 mlrd. dollar xərclədi. Müharibədə 120 min amerikan öldü, 230 min yaralandı. Hərbi əməliyyatlar ölkə ərazisində getmədiyi üçün dağıntılar olmadı. Müharibənin gedişində ABŞ böyük xeyir götürdü. 1914-1919-cu illərdə ABŞ-ın əldə etdiyi gəlir 35 mlrd. dollar oldu. Avropanın 20 ölkəsi Birləşmiş Ştatlara təxminən 10 mlrd. dollar borclu qaldı. Xarici ölkələrin ABŞ-a olan yalnız hərbi borcları 8 mlrd. dollar idi. Müharibə ölkənin milli sərvətlərinin artmasına gətirib çıxardı. 1914-1920-ci illərdə ABŞ-ın milli sərvətləri 2,5 dəfə artdı. Dünya qızılının 50%-i ABŞ-ın əlində cəmləndi. Müharibədən əvvəl xaricə kapital qoyuluşu İngiltərədən 6, Fransadan 4,5 dəfə az idisə, müharibə nəticəsində ABŞ-ın xaricə kapital ixracı 6 dəfə artaraq 11 mlrd. dollar oldu. Ölkənin xarici ticarətinin ümumi həcmi artdı.

Müharibə ABŞ sənayesinin inkişafına müsbət təsir göstərdi. Sənayenin yeni sahələri yaradıldı. Xüsusilə hərbi sənaye inkişaf etdi. ABŞ avtomobilqayırma sahəsində dünyada birinci yeri tutdu. Amerikan avtomobil sənayesi dünya avtomobil sənayesinin 85%-ni, qara metallurgiyası dünya qara metallurgiyasının 60%-dən çoxunu təşkil etdi. Müharibənin gedişində iri sənaye sahələri birləşdi və güclü təmərküzləşmə baş verdi. ABŞ-da neft istehsalı artdı. Bu zaman ABŞ dünya neft istehsalının 67%-ni verirdi. Digər sahələrdə də Birləşmiş Ştatlar Avropa ölkələrini ötüb keçdi. Polad əridilməsi İngiltərədən 4,5, Fransadan isə 14 dəfə çox idi. Müharibənin gedişində ABŞ-da əmək haqqı artırıldı. Ölkə sənayesinin yüksək inkişafının səbəblərindən biri də xarici ölkələrdəki hərbi əməliy-

yatlar zonasından qaçıb gələn ucuz işçi qüvvəsi ilə bağlı idi. Müharibə illərində xüsusən İtaliya, Polşa, Almaniya, İngiltərə və Balkan ölkələrindən ABŞ-a çoxlu işçi qüvvəsi gəldi. Dünya müharibəsi Birləşmiş Ştatlarda kənd təsərrüfatının inkişafına müsbət təsir göstərdi. Müttəfiq dövlətlərin amerikan kənd təsərrüfatı məhsullarına olan ehtiyacı ölkədə istehsalın genişləndirilməsinə və aqrar bölmənin inkişafına kömək etdi. İri fermer təsərrüfatları yarandı. Müharibədən sonrakı ilk illərdə ABŞ-da 8 mln. fermer var idi.

Dünya müharibəsinin ABŞ üçün mühüm siyasi nəticələri də oldu. Müharibə ABŞ siyasi sisteminin səmərəli çalışdığını göstərdi. İqtisadi və hərbi cəhətdən qüdrətli dövlətə çevrilən ABŞ yeni dünya qaydası yaratmaq və ona siyasi cəhətdən mənəvi rəhbərlik etmək istədi. Bu istəklər 1913-1921-ci illərdə ABŞ prezidenti olmuş Demokratlar Partiyasının nümayəndəsi Vudro Vilsonun (1856-1924) 1918-ci il yanvarın 8-də irəli sürdüyü "14 maddə"sində öz əksini tapdı. ABŞ nümayəndə heyəti Paris sülh konfransında məhz "14 maddə" ilə iştirak etdi. Konfransdan istifadə edərək dünyaya mənəvi rəhbərlik etmək istəyən amerikan diplomatiyası onun işində üç mərhələ təklif etdi: müharibəyə yekun vurmaq; Millətlər Cəmiyyəti yaratmaq; özünəməxsus ərazi və siyasi məsələləri həll etmək.

Konfransın gedişində ABŞ və Azərbaycan nümayəndə heyətləri arasında təmaslar quruldu. Azərbaycanın dövlət müstəqilliyinin birinci ildönümü günündə ABŞ prezidenti V.Vilson Topçubaşov başda olmaqla Azərbaycan nümayəndə heyətini qəbul etdi.

Bütün səylərə baxmayaraq konfransda ABŞ öz istəyinə çata bilmədi. . Sülh müqaviləsinin ABŞ tərəfindən qüvvəyə minməsindən ötrü senat onu təsdiq etməli idi. Ancaq bu, asan məsələ deyildi. Çünki həmin illərdə xarici siyasət məsələlərinə və sülh müqaviləsinə münasibətdə ABŞ-da iki xətt arasında kəskin mübarizə gedirdi.

Bunlardan birini təşkil edən beynəlmiləlçilər Millətlər Cəmiyyəti vasitəsilə dünyaya rəhbərlik etməyə çalışırdılar. T.Ruzvelt, C.Deniels, generallar T.H.Blis, C.C.Perşinq, polkovnik E.Hauz və tərəddüd etsə də dövlət katibi R.Lansinq beynəlmiləlçilərin görkəmli nümayəndələri idi.

İkinci xəttin tərəfdarları olan təcridçilər senatda təqribən 36 nəfər idi. Ona müxalifətin lideri Uilyam Bor başçılıq edirdi. Lafollet, Norris və digər senatorlar Millətlər Cəmiyyətinin yaradılmasına və ABŞ-ın onda iştirakına qarşı çıxırdılar. Versal sülh müqaviləsi hökumət tərəfindən rəsmi olaraq 1919-cu il iyulun 10-da senatın təsdiqinə təqdim edildi. Bu məsələ ilə bağlı 8 ay gərgin müzakirələr getdi. Senatın Xarici İşlər Komitəsi sənədə birtərəfli qaydada 4 qeyd və 48 düzəliş etdi. Noyabrın 19-da senatda keçirilən səsvermədə 39 senator sənədin lehinə, 56-sı əleyhinə səs verdi. Beləliklə, sənədin qəbulu üçün lazım olan 2/3 səs toplanmadı. Vilson senata məktub yazaraq sülh müqaviləsinin təkrar müzakirəsini keçirməyi xahiş etdi. Bundan sonra kompromis tapmaqdan ötrü senator Lodcun təşəbbüsü ilə hər iki partiya nümayəndələrindən ibarət komissiya yaradıldı. Komissiya ortaq variant işləyib hazırladı. Təcridçilərin nümayəndəsi olan senator Q.Ç.Lodc sənədə daha 15 qeyd etdi. Senatda təkrar səsvermə 1920-ci il martın 19-da keçirildi. Lakin bu dəfə də Vilsonun xahişi yerinə yetirilmədi. Senatorlardan 49 nəfəri sənədin lehinə, 35 nəfəri isə əleyhinə səs verdi. Sənədin qəbulundan ötrü lazım olan əlavə 7 səs çatmadı. Beləliklə, Vilsonun istəyi reallaşmadı, ABŞ Millətlər Cəmiyyətinin üzvü olmadı və dünya məsələlərinin həllində iştirak etməkdən uzaq düşdü. Vilsonun xarici siyasətdə beynəlmiləlçilik xətti məğlubiyyətə uğradı. Dövlətin xarici siyasətində təcridçilik xətti üstünlük qazandı. Bundan sonra Vilson bütün ümidlərini prezident seçkilərinə bağladı.

1919-cu ildə ölkə konstitusiyasına 18-ci düzəliş edildi. Bu düzəlişə görə spirtli içkilərin istehsalı və istehlakı qadağan edildi. Düzəliş cəmiyyət həyatının sağlamlaşdırılmasına yönəldi. Ancaq

qara bazar genişləndi və çirkli pullar da işə düşdü.

Müharibədə qazanılan qələbəyə və əhalinin həyat səviyyəsinin yaxşılaşmasına baxmayaraq ölkədə tətillər də baş verirdi. 1919-cu ilin sentyabrında polad əritmə sənayesinin 365 min fəhləsi tətil etdi. Tətil nəticəsində işçilərin tələbləri yerinə yetirildi. Əmək haqqı artırıldı. 8 saatlıq iş günü tətbiq edildi. Kollektiv müqavilələr bağlamağa icazə verildi. Bundan sonra S.Hompers başda olmaqla Amerika Əmək Federasiyası əməklə kapitalın əməkdaşlığını qurmağa başladı. Sosial ziddiyyətlər yumşaldıldı. İslahatların həyata keçirilməsi genişləndirildi.

Ölkədə siyasi partiyalar, o cümlədən sol təmayüllü təşkilatlar da fəaliyyətlərini gücləndirdilər. Sosialist Partiyasının daxilindəki sol qanadın nümayəndəsi Con Rid partiyanın Çikaqo qurultayından qovulduqdan sonra 1919-cu il avqustun 31-də Amerika Kommunist Fəhlə Partiyasını, Ç.Rutenberq isə sentyabrın 1-də Amerika Kommunist Partiyasını yaratdılar. 1921-ci ilin mayında bu partiyalar Amerika Kommunist Partiyasında birləşdilər. Partiyanın katibi Ç.Rutenberq oldu. Qeyd etmək lazımdır ki, sosialistlər cəmiyyətin inkişafında təkamül, kommunistlər isə inqilabi yola, sinfi mübarizəyə üstünlük verirdilər. Amerikan cəmiyyəti kommunistləri qəbul etmirdi.

Ölkədə həmkarlar hərəkatı da gücləndi. Kommunistlər 1920-ci ilin noyabrında U.Foster başda olmaqla Həmkarlar İttifaqı Təbliğatı Cəmiyyətini yaratdılar.

1920-ci ilin payızında ölkədə prezident seçkiləri kampaniyası qızışdı.

## Uorren Qardinqin prezidentliyi

1920-ci ildə ABŞ konstitusiyasında edilən 19-cu düzəlişə əsasən 21 yaşına çatmış qadınlara seçib-seçilmək hüququ verilməsi əhalinin siyasi fəallığını xeyli artırdı. Prezident Vilsonun xəstəliyi güclü işləməsinə mane olurdu. Onun üçüncü dəfə prezidentliyə namizəd irəli sürülməsi də mümkün deyildi. Çünki indiyədək ABŞ

tarixində belə bir hal olmamışdı. Ümumiyyətlə, müharibədə qazanılan qələbəyə baxmayaraq Demokratlar Partiyası xeyli zəiflədi. Demokratlar Ohayo ştatının qubernatoru C.Koksun, Respublikaçılar Partiyası isə əvvəllər jurnalist və senator işləmiş Uorren Qardinqin (1865-1923) namizədliyini irəli sürdülər. 1920-ci il noyabrın 2-də ölkədə yeni prezident seçkiləri keçirildi. Seçki kampaniyasını Respublikaçılar Partiyası Vilsonun xarici siyasət xəttinin tənqidi üzərində qurdu. Bu zaman ölkəni bürüyən iqtisadi böhran da Demokratlar Partiyasının xeyrinə olmadı. Seçicilər ölkədə rast gəlinən hər bir xoşagəlməz hal üçün demokratları günahlandırmağa başladılar. Seçkiləri ABŞ-ın Millətlər Cəmiyyətinə üzv olmaq məsələsində referendum da adlandırmaq olardı. ABŞ-ın beynəlxalq işlərdə fəal iştirakına və Millətlər Cəmiyyətinə üzvlüyünə tərəfdar olan 31 məşhur respublikaçı Qardinqin prezident seçilməsinin ölkənin mənafeləri üçün xeyirli olacağını bildirdilər. Bu zaman amerikalılar xarici siyasətdə yeridilən təcridçilik xəttinin zərərli olduğunu daha çox başa düşdülər. Seçicilərin böyük əksəriyyəti müharibə üçün demokratları təqsirləndirdilər. Ölkədə xaricilərə olan inamsızlıq artdı. Əhali bolşevizm ideyalarından qorxurdu. Kommunist təhlükəsi amerikan cəmiyyətində demək olar ki, hamını narahat edirdi. Belə şəraitdə xalq fərdin inkişafına üstünlük verən, kollektivçiliyi rədd edən respublikaçıların tərəfini saxladı. Seçicilərin çoxu Vilson prinsiplərinin ABŞ üçün zərərli olduğu qənaətində idi. Onlar tərəqqi dövrü üçün islahatların həyata keçirilməsini və amerikan cəmiyyətinin normal həyata qaytarılmasını istəyirdilər.

Seçkilərdə Qardinq 16 mln., C.Koks isə 9 mln. 130 min səs topladı. Qardinq ölkənin 29-cu prezidenti, vitse-prezident isə Massaçusets ştatının qubernatoru Kaivin Kuliç oldu. Respublikaçılar konqresin hər iki palatasında üstünlük əldə etdilər. Beləliklə, səkkiz illik fasilədən sonra respublikaçılar yenidən hakimiyyət başına gəldilər.

Qardinq müharibə dövründə xaricilərə və radikallara inamsızlığı artan amerikan xalqının əhval-ruhiyyəsini nəzərə aldı. Çünki ölkədə irqi ayrı-seçkilik meylləri təhlükəli həddə çatmışdı. Ancaq Qardinqin qələbəsi amerikan xalqının vilsonizm prinsipləri və beynəlmiləlçilik siyasətindən tamamilə imtina etməsi demək deyildi. Çünki məhz həmin prinsiplərin əsasında ABŞ iqtisadiyyatı yüksək sürətlə inkişaf etmiş, amerikan kapitalının nüfuzu artmışdı. Yeni şəraiti düzgün qiymətləndirən Qardinq hökuməti fəal daxili siyasət yeritməyə başladı. O, iqtisadiyyatın dövlət tənzimlənməsi siyasətinin əleyhinə çıxaraq bu məqsədlə ayrılan büdcə xərclərinin azaldılmasını təklif etdi. 1921-ci ilin dekabrında konqresə göndərdiyi illik məktubunda o, federal hökumətin əlində hakimiyyətin çox cəmləşməsinin yolverilməzliyini bəyan etdi. Prezident "normal qaydalar", "normal zaman" şüarlarını irəli sürdü. "Normal zaman" və "normal qaydalar" dedikdə əsl amerikan prinsipləri olan fərdiyyətçilik və dövlətin cəmiyyətin sosial-iqtisadi həyatına qarışmamasının tətbiqinin vacibliyi nəzərdə tutulurdu. Fərdiyyətçiliyin nəzəriyyə və praktikasının əsasını ticarət naziri Herbert Huver geniş şərh etdi. Fərdiyyətçilik bütün ölkə vətəndaşları üçün bərabər imkanların yaradılmasını irəli sürürdü. Bərabər imkanların mühafizəsi funksiyasını isə dövlət həyata keçirməli idi. Dövlət cəmiyyətin iqtisadi və sosial həyatına qətiyyən müdaxilə edə bilməzdi. Qısa müddətdə dövlət tənzimlənməsi tamamilə məhdudlaşdırıldı və dövlət inhisarçılığı azaldıldı. Dövlət inhisarçılığının yerini xüsusi inhisarçılıq tutdu. Hökumət şəxsi biznesin inkişaf etdirilməsi xəttini götürdü.

Həmkarlar ittifaqlarının əleyhinə hələ 1890-cı ildə qəbul olunmuş Kleyton və Şerman qanunları təftiş edildi. Əməklə kapital arasında əməkdaşlıq üçün addımlar atıldı. Həmkarlar ittifaqları assosiasiyaları yaradıldı.

Qardinq hökumətinin iqtisadi və sosial münasibətlərin dövlət tərəfindən tənzimlənməsindən imtina etməsi büdcə xərclərinin azaldılmasına gətirib çıxardı. Respublikaçılar hakimiyyətə

gəldikdən bir il sonra federal hökumətin xərcləri 1920-ci illə müqayisədə iki dəfə aşağı düşərək 3,3 mlrd. dollar təşkil etdi.

1921-ci ilin noyabrında yeni vergi qanunu qəbul edildi. Bu qanuna görə müharibə dövründə tətbiq edilən əlavə gəlir üçün korporasiyalardan vergi tutulması ləğv olundu. Federal vergilər azaldıldı. 1922-ci ilin sentyabrında rüsum qanunu qəbul edildi. Qanuna görə ABŞ-a gətirilən sənaye malları üzərinə ciddi proteksionizm prinsipləri əsasında yüksək rüsum qoyuldu. Bu qanun ölkə iqtisadiyyatının inkişafına şərait yaratdı. ABŞ iqtisadi inkişafa görə dünyada birinci yerə çıxdı. Amerikan kapitalının beynəlxalq nüfuzu gücləndi. Müharibəyə qədər dünya birja mərkəzi olan Londonun yerini Nyu-York tutdu.

1922-ci ildə ABŞ iqtisadiyyatında inkişaf və ya çiçəklənmə dövrü başlandı. Amerikan iqtisadiyyatında inkişaf digər ölkələrə nisbətən daha tez baş verdi. İnkişafın digər ölkələrə nisbətən tez baş verməsinin əsas səbəbləri birinci dünya müharibəsi illərində ABŞ təsərrüfatına ziyan dəyməməsi, iqtisadiyyatının yüksək inkişafı, xaricə kapital qoyuluşunun artması və ölkənin mövqelərinin möhkəmlənməsi ilə bağlı idi.

Qardinqin hakimiyyəti illərində ölkədə rüşvətxorluq hallarına da rast gəlindi.. 1921-ci ilin sonu - 1922-ci ilin əvvəllərində iri neft sənayeçiləri E.Dogeni və H.Sinkler daxili işlər naziri A.Folla rüşvət verərək Kaliforniya və Vayominqdəki dövlət ehtiyatlarına daxil olan ərazilərdən geniş neft sahələri aldılar. Bu hadisə ölkədə qalmaqal yaratdı. Demokratlar Qardinqi ciddi rəhbərlik etməməkdə və ölkəni idarə edə bilməməkdə təqsirləndirdilər. Qardinq isə qətiyyətli addımlar ataraq üç naziri istefaya göndərdi.

Qardinqin hakimiyyəti illərində ABŞ-ın xarici siyasəti bir neçə istiqamətdə həyata keçirildi. Qeyd etmək lazımdır ki, bu illərdə amerikan xarici siyasətində təcridçiliyin üstünlük təşkil etməsinə baxmayaraq beynəlxalq aləmdə ABŞ-ın fəallığı tədricən güclənirdi. Ticarət naziri H.Huver ölkənin xarici iqtisadi əlaqələrinin genişləndirilməsində xüsusi rol oynadı.

ABŞ 1921-ci ildə Almaniya ilə müqavilə bağlayaraq ikitərəfli münasibətləri tənzimlədi.

Birləşmiş Ştatlar Latın Amerikasında öz nüfuzunu gücləndirdi.

ABŞ xarici siyasətinin mühüm istiqamətlərindən birini Uzaq Şərq və Sakit okean regionu təşkil etdi. Uzaq Şərqdə İngiltərə-ABŞ və Yaponiya-ABŞ arasındakı problemlər həll olundu. 1921-1922-ci illərdə keçirilən Vaşinqton dəniz konfransında amerikan diplomatiyası ABŞ gəmilərinin tutumunu İngiltərə səviyyəsinə çatdıraraq uğur qazandı.

1920-1931-ci illərdə ABŞ-dan xaricə kapital qoyuluşu 11,6 mlrd. dollar təşkil etdi. Kapital ixracının 40%-i Avropa, 22%-i Latın Amerikası ölkələrinin payına düşürdü. ABŞ-ın xarici ticarəti genişləndi və ixrac artdı. Bu illərdə ölkənin ixracı idxalının səviyyəsini 7,7 mlrd. dollar ötüb keçdi. ABŞ sənayesi istənilən rəqibi sıradan çıxarmaq qabiliyyətini qazandı.

1923-cü il avqustun 2-də Alyaskaya səfər zamanı prezident Qardinq ciyərlərinin soyuqdəyməsindən xəstələnərək vəfat etdi.

## Kalvin Kulicin prezidentliyi

Konstitusiyaya uyğun olaraq vitse-prezident Kalvin Kulic (1872-1933) 1923-cü il avqustun 3-də ABŞ prezidenti oldu. 1924-cü ildə ölkədə prezident seçkisi kampaniyası genişləndi. Kulicin əsas rəqibi demokrat C.Devis oldu. Demokratlar və respublikaçılarla yanaşı Viskonsin ştatından olan respublikaçı senator Robert Lafolletin müstəqil namizədliyi 1722-ci ildə yaradılmış fəhlə və fermer təşkilatı olan - Mütərəqqi siyasi hərəkət konfransı tərəfindən irəli sürüldü. Onu AƏT, Sosialist Partiyası və b. müdafiə etdilər. Lafollet inhisarların hüquqlarını azaltmağı və fermerlərin vəziyyətini yaxşılaşdırmağı vəd etdi. 4,8 mln. səs toplayaraq seçkilərdə uduzduqdan sonra Lafolleti müdafiə edən blok dağıldı. Lafollet hərəkatı sona çatdı. Respublikaçılar Partiyasının

nümayəndəsi Kalvin Kulic seçkidə qələbə çaldı. O, 15 mln. 718 min səs və 382 seçkici səsi alaraq prezident seçildi. Demokratların namizədi C.Devis 8 mln. 385 min səs və 136 seçkici səsi aldı. Respublikaçılar konqresin hər iki palatasında üstünlük qazandılar.

Kulic hökumətinin daxili siyasəti ölkə iqtsiadiyyatının gücləndirilməsinə yönəldi. Kulic "ABŞ-ın işi biznesdir" şüarını irəli sürdü. Onun hakimiyyəti illərində istehsal üzərində dövlət nəzarəti ləğv edildi. Sənayenin yeni sahələri yaradıldı. Radiotexnika və elektrotexnika sənaye sahələrinə xüsusi diqqət yetirildi. Sənaye istehsalı artdı, iqtisadi yüksəliş əldə edildi, maşınqayırma və aviasiya sənayesi inkişaf etdi. Ölkədə ümumi sənaye məhsulu istehsalı 1923-1929-cu illərdə 20%, korporasiyaların gəliri 76%, əmək haqqı 33% artdı. Polad əridilməsi 70%, neft istehsalı 156%, avtomobil istehsalı 255% artdı. Təkcə 1929-cu ildə ölkədə 4 mln. 455 min avtomobil satıldı. Bir il ərzində ölkədə 4-5 mln. maşın istehsal edilirdi. Ölkədə hər 27 nəfərdən birinin maşını var idi. Məcmu milli məhsul 54% artdı. Dünya sənaye məhsulu istehsalında ABŞ-ın payı 44,8% təşkil etdi. Müqayisə üçün qeyd etmək lazımdır ki, bu sahədə sənaye liderliyinə iddia edən ölkələrdən Almaniyanın payı 11,6%, Böyük Britaniyanın payı 9,3%, Fransanın payı 7%, SSRİ-nin payı isə yalnız 6% idi. Çiçəklənmə illərində istehsalata yeni texnika, texnologiya və geniş konveyer sistemi tətbiq edildi. Standartlaşdırma özünə möhkəm yer tutdu. Kapitalın və istehsalın təmərküzləşməsi gücləndi. "Ford", "Ceneral motors", "Kraysler" kimi iri şirkətlər istehsalı genişləndirdilər. Polad sənayesinin 35-40%-i Morqan şirkətinin əlində cəmləndi. Qənaət artdı. İri kapitala qoyulan vergi azaldıldı. Kulic hökuməti 1924-cü ildə yeni vergi qanununu konqresdən keçirdi. Qanuna görə yüksək gəlirli şəxslərin ödəyəcəkləri vergi 50%-dən 40%-ə endirildi. Dövlət borcu azaldıldı. Dövlət inhisarlara kreditlər verdi. Hərbi-dəniz donanmasının silahlandırılması üçün vəsait artırıldı. Dövlətin iqtisadiyyatın işinə az qarışması nəticəsində xüsusi biznes inkişaf etdi. Kuliçin prezidentliyi illərində ABŞ inhi-

sarları varlandı. Nəticədə əgər 1919-cu ildə 200 iri korporasiyanın varidatı 43,7 mlrd. idisə, 1929-cu ildə bu məbləğ 81,1 mlrd. dollar təşkil etdi. Milli sənayeçilər assosiasiyası və ABŞ ticarət palatası yeni sənaye sahələri yaratdı. İri biznesin özünü tənzimləmə sistemi təşəkkül tapdı. ABŞ-ın xarici iqtisadi əlaqələri gücləndi. Xarici ticarətdə proteksionizm siyasəti tətbiq edildi. Ölkədə baş verən möhtəşəm yüksəlişin nəticəsində müharibədən sonrakı on ildə ABŞ Avropa ölkələrini xeyli qabaqladı. 1929-cu ildə xarici ticarətin həcminə görə ABŞ İngiltərəni ötüb keçdi.

Fermer təsərrüfatlarının problemlərinin həllinə başlanıldı. "Kənd təsərrüfatının bərabərliyi" şüarı irəli sürüldü. 1924-cü ildə kənd təsərrüfatı istehsalını genişləndirmək ideyası gücləndi. Hökumət fermer kooperasiyasını təşviq edərək onlara kredit verdi.

Bu illərdə amerikan cəmiyyətinin müxtəlif təbəqələrinin həyat şəraiti yaxşılaşdı. 20-ci illərin sonu üçün ölkədə hər bir ailənin 15 min dollarlıq varidatı var idi. Onların illik gəliri isə təxminən 3 min dollar təşkil edirdi. Avtomobil, telefon, soyuducu, radio və b. gündəlik məişətə möhkəm daxil oldu. İstehlak kreditləri sisteminin tətbiq edilməsi xalqın rəğbətini qazandı. Mədəni həyatda yüksəliş baş verdi. Qəzet, jurnal və konsertlər çoxaldı. Belə şəraitdə ölkədə tətil və fermer hərəkatı zəiflədi, sosial etirazlar aşağı düşdü.

Bununla belə, ölkə problemlərsiz də deyildi. 20-ci illərdə ölkədə siyasi mübarizə gücləndi. "Ku-kluks-klan" təşklatının nümayəndələri amerikanizm ideyalarını qətiyyətlə müdafiə etdilər. Onların başlıca məqsədi ənənəvi ağ, kənd, protestant və anqlosakson Amerikasının qurulması idi. Onlar yəhudilərə, zəncilərə, katoliklərə və mühacirlərə patriarxal Amerikanın əsaslarını sarsıdan qüvvə kimi baxırdılar. 1925-ci ildə bu təşkilatın sıralarında artıq 4-5 mln. adam var idi. Ölkədə irqi dözümsüzlük yüksək həddə çatdı. Problemi həll etmək üçün 1924-cü ildə yeni mühacirət qanunu qəbul edildi. Bu qanun digər ölkələrdən gələn mühacirlərin sayını məhdudlaşdırdı.

1924-1929-cu illərdə ölkədə yeni həmkarlar təşkilatları yara-

dılması ətrafında səylər genişləndi. Sahibkarlar kompaniya həmkarlar ittifaqları yaratdılar. 20-ci illərin sonunda bu ittifaqların 1,5 mln. üzvü var idi. Müəssisə sahibləri ixtisaslı fəhlələrin əmək haqqlarını artırmaq və pensiya tətbiq etmək yolu ilə sosial ziddiyyətləri yumşaltdılar. Həmkarlar ittifaqlarının iştirakı ilə kredit verən fəhlə bankları yaradıldı. AƏT liderləri sinfi sülhün yaradılmasında mühüm rol oynadılar. Əlverişli iqtisadi şərait və bərabər imkanlar fəhlə sinfinin fəallığını aşağı saldı. Həmkarlar ittifaqları və fermer hərəkatı zəiflədi. Sosial etiraz çıxışları azaldı. Bu isə ölkədə sosial gərginliyi zəiflətdi.

Kulic hökuməti fəal xarici siyasət yeritməyə başladı. Hökumətin xarici siyasətinin əsas məqsədi ölkənin xarici ticarətini genişləndirmək, yeni xammal mənbələri ələ keçirmək, əlverişli bazarlara sahib olmaq və amerikan kapitalını qoymaq üçün sərfəli yerlər tapmaq idi. Xarici siyasətin mühüm istiqaməti Avropa dövlətləri ilə ikitərəfli münasibətlərin inkişaf etdirilməsi oldu. ABŞ hökuməti bu qitədə mövqelərini möhkəmləndirməyin mühüm yolu kimi müxtəlif ölkələrə istiqrazlar verməyə başladı. 1929-cu ildə təkcə Morqan bankı İtaliyaya 142 mln. dollar istiqraz verdi. Kulic hökuməti xarici siyasətində Almaniyanı dirçəltmək xəttini götürdü. 1924-cü ildə qəbul edilmiş "Daues planı"na uyğun olaraq ABŞ İngiltərə ilə birlikdə Almaniyaya 800 mln. marka istiqraz verdi. "Daues planı" qəbul edildikdən sonra ABŞ Almaniyanın Millətlər Cəmiyyətinə daxil edilməsinə və Qərbi Avropa dövlətləri ilə Almaniya da daxil olmaqla siyasi ittifaqın yaradılması işinə girişdi. 1925-ci ilin oktyabr ayında İsveçrənin Lokarno şəhərində keçirilən konfransda Reyn təminat paktı və digər sazişlər imzalandı. Reyn təminat paktında müharibədən sonra Avropada formalaşmış sərhədlərin pozulmazlığı təsdiq edildi. 1926-cı il sentyabrın 10-da Almaniyanın Millətlər Cəmiyyətinə daxil edilməsinə kömək etməklə amerikan diplomatiyası onun beynəlxalq təcrid olunmasına son qoydu.

Kulic hökuməti borclar məsələsinin həll edilməsinə diqqət

yetirdi. Bu barədə Fransa və İtaliya ilə sazişlər bağlandı. İtaliyanın borcları 80% azaldıldı. ABŞ hökuməti Böyük Britaniya, Belçika və Çexoslovakiya hökumətləri ilə də hərbi borcların bir hissəsinin ödənilməsinə dair sazişlər imzaladı.

Fransa xarici işlər naziri Aristid Brianın milli siyasətdə müharibələrdən imtina edilməsi barədə təklifini alan hökumət onu çoxtərəfli əsasda digər dövlətlərə göndərdi. 1928-ci il avqustun 27-də Parisdə bu sənəd "Brian-Kelloq paktı" adı altında 15 dövlət tərəfindən imzalandı.

ABŞ-ın xarici siyasətinin istiqamətlərindən biri Latın Amerikası və Kanada ilə münasibətlərin inkişaf etdirilməsi oldu. Meksika, Kuba, Mərkəzi və Cənubi Amerika ölkələrinə kapital qoyuluşu artdı. Latın Amerikası ölkələrinə qoyulan kapital 5,7 mlrd. dollar təşkil etdi. Kapital qoyuluşu ilə yanaşı Birləşmiş Ştatlar Nikaraqua, Kuba, Haiti və Panamaya ordu hissələri göndərdi. ABŞ-la Panama Respublikası arasında 1923-cü il noyabrın 18-də və 1926-cı il iyulun 28-də imzalanan müqavilələrlə kanal üzərində amerikan hüquqları təsdiq edildi. Ümumiyyətlə, 1923-29-cu illərdə ABŞ hökuməti Latın Amerikası ölkələrinə yardımlar edərək bu regionda iqtisadi, siyasi və hərbi cəhətdən xeyli möhkəmləndi.

Kulicin hakimiyyəti illərində ABŞ xarici siyasətinin istiqamətlərindən biri Uzaq Şərq və Çin oldu. 1927-ci ildə Çində general Çan-Kay Şi hakimiyyətə gəldikdən sonra burada ABŞ-ın mövqeləri daha da möhkəmləndi. Amerikan hökuməti 1928-ci ildə Çinlə rüsum haqqında müqavilə imzaladı. Çinə münasibətdə "açıq qapılar" siyasəti yeridildi. İqtisadi cəhətdən güclü olan ABŞ-la artıq heç bir dövlət Çində rəqabət aparmaq iqtidarında deyildi.

20-ci illərdə ABŞ-Yaponiya münasibətlərində xeyli mürəkkəbliklər var idi. 1924-cü il aprelin 16-da ABŞ konqresi yapon mühacirlərinin ölkəyə gəlməsini qadağan edən qanun qəbul etdi. Buna baxmayaraq, amerikan xüsusi kapitalı Yaponiyaya istiqrazlar verdi.

ABŞ-ın Filippin və Havay adalarında hərbi-strateji mövqeləri möhkəmləndi.

Bütövlükdə, Kulicin hakimiyyəti illərində ABŞ-ın beynəlxalq iqtisadi, siyasi və hərbi imkanları artdı.

Respublikaçılar ölkə iqtisadiyyatının böhransız inkişafını təmin etdiklərini bildirərək növbəti prezident seçkilərində Herbert Huverə səs verməyə çağırdılar.

## Herbert Huverin prezidentliyi

1928-ci ildə ölkədə yeni prezident seçkiləri keçirildi. Respublikaçılar Partiyasının nümayəndəsi Herbert Huver (1874-1964) 21,4 mln. səs alaraq rəqibi olan demokratların nümayəndəsi Nyu-York ştatının qubernatoru A.S.Smitə qalib gəldi. ABŞ tarixində ilk dəfə olaraq prezidentliyə namizədliyini irəli sürən irland mənşəli katolik Smit yalnız 15 mln. səs toplaya bildi. Huver ABŞ-ın 31-ci prezidenti oldu. Konqresin hər iki palatasında respublikaçılar üstünlük qazandı. İxtisasca mühəndis olan Huver dünyanın müxtəlif ölkələrində faydalı qazıntı işlərinə rəhbərlik etmiş, birinci dünya müharibəsi illərində "ABŞ köməyi" təşkilatının sədri, 1921-1928-ci illərdə isə ticarət naziri olmuşdu. Huverin tərəfdarları onu böyük mühəndis və təşkilatçı adlandırırdılar. Huver hökuməti daxili siyasətdə yoxsulluğu aradan qaldırmaq planını işləyib hazırladı. Ancaq 1929-cu ilin payızında başlayan böyük böhran və ya dünya iqtisadi böhranı baş verdiyindən bu proqramı həyata keçirmək mümkün olmadı. Böhran ölkəyə ziyan vurdu. Böhran nəticəsində ölkədə fabrik və zavodlar bağlandı. Sənaye istehsalı 46% , təkcə avtomobil istehsalı isə 80% aşağı düşdü. 135 mindən çox şirkət iflasa uğradı. İşsizlik artdı. Huver hökuməti işsizliyin qarşısını almaqdan ötrü 1930-31-ci illərdə iki məsləhətçi komitə yaratdı. Bu komitələr yeni iş yerlərinin açılmasına, işsizliyin ləğvinə dair tədbirlər planını işləyib hazırlamalı və təkliflər verməli idi. Yeni iş yerləri yaratmaqdan ötrü tikintiyə 8 mlrd. dollar kapital qoyuldu. Milli kredit korporasiyası yaradıldı. Böhran ölkənin bank sisteminə mənfi təsir göstərdi. 1929-32-ci illərdə 5761 bank iflasa uğradı.

Milli gəlir azaldı. Xarici ticarət dövriyyəsi 2 dəfə aşağı düşdü.

Taxıl ixracı da zəiflədi. Buna baxmayaraq, ABŞ hələ də xarici ticarət sahəsində dünyada birinci yeri tuturdu.

Senat 1929-cu ilin iyulunda kənd təsərrüfatı məhsullarının alınmasına dair qanun qəbul etdi. Kənd təsərrüfatı məhsulları istehsalı 3-4 dəfə aşağı düşdü. Kənd təsərrüfatında vəziyyətin yaxşılaşdırılması üçün Federal Fermer Bürosu quruldu. Hökumət xaricdən gətirilən kənd təsərrüfatı məhsullarının qiymətini artırmaqla ölkədə istehsalı inkişaf etdirmək məqsədi güdürdü. Bundan ötrü 1930-cu ildə konqres Hauli-Smit qanunu qəbul etdi. Ancaq bu tədbirlərin elə bir ciddi nəticəsi olmadı. 1933-cü ilin yanvarında ölkədə işsizlərin sayı 17 mln. nəfərə çatdı. Əmək haqqı 60% azaldı. Bir milyon fermer iflasa uğradı. Ölkəni fermer hərəkatı bürüdü. Fermer hərəkatına 1923-cü ildə yaradılan Birləşmiş Fermerlər Cəmiyyəti və Milli Fermer İttifaqı başçılıq edirdilər.

Sosial-siyasi vəziyyət gərginləşdi. Ölkəni ac adamların yürüşü və tətil hərəkatı bürüdü. 1931-1932-ci illərdə Vaşinqtona acların iki yürüşü oldu. 1932-ci ilin yayında birinci dünya müharibəsi veteranları pensiyalarını artırmaq tələbi ilə paytaxta gəldilər. Gərgin vəziyyət yaratdı. Hökumət yürüşləri dağıtdı. Bu yürüşləri dağıtmaqdan ötrü keçirilən əməliyyatlara general Makartur başçılıq etdi. Almaniyada nasional-sosializm hakimiyyət başına gəldikdən sonra ABŞ-da faşizm gücləndi. Ölkədə "Amerika legionu" və "Ku-Kluks-Klan" kimi faşist təşkilatlarının fəaliyyəti gücləndi.

Huver hökumətinin xarici siyasətinin əsas məqsədi ABŞ-ın dünyadakı hərbi-siyasi və iqtsiadi mövqelərini daha da möhkəmləndirmək idi. Huver hökuməti ABŞ hərbi-dəniz donanmasını gücləndirdi. 1930-cu ilin yanvar-aprel aylarında keçirilən London dəniz konfransında ABŞ 18 kreyserə sahib oldu. Onun rəqibləri olan İngiltərə 15, Yaponiya isə 12 kreyser saxlaya bilərdi. Uzaq Şərqdə ABŞ-Yaponiya ziddiyyətləri kəskinləşdi. ABŞ hökuməti Çində Yaponiyanın heç bir işğalını tanımadığını 1931-ci ildə açıq şəkildə bildirdi. 1932-ci il yanvarın 7-də qəbul edilən "Stimson doktrinası" da Uzaq Şərqdə Yaponiyanın fəaliyyətinin genişləndirilməsinin

qarşısını almaq məqsədi güdürdü.

Huver hökumətinin xarici siyasətinin istiqamətlərindən biri Avropada Almaniyanı dirçəltmək idi. Bu məqsədlə Huver Almaniyanın təzminat ödəməsi üzərinə moratorium qoydu və onun azaldılması təşəbbüsü ilə çıxış etdi. 1932-ci ilin dekabrında Cenevrədə keçirilən tərksilaha dair konfransda ABŞ hökuməti Almaniyanın silahlanmasına razılıq verdi. Bundan sonra Almaniyada nasional-sosialist hərəkatı daha da gücləndi.

Huverin prezidentliyi dünya iqtsiadi böhranı illərinə düşdüyündən hökumət vəd etdiyi böyük uğurları qazana bilmədi.

## Franklin Delano Ruzveltin prezidentliyi

1932-ci il noyabrın 8-də keçirilən seçkilərdə Demokratlar Partiyasının namizədi Franklin Delano Ruzvelt (1882-1945) qalib gələrək ABŞ-ın 32-ci prezidenti oldu. 1921-ci ildə 39 yaşında ikən soyuq suda çimdikdən sonra iflic olan Ruzvelt ömrünün sonunadək əlil arabasında gəzdi. Ruzvelt 1936, 1940, 1944-cü illərdə də ölkə prezidenti seçildi. O, ABŞ tarixində bu vəzifəyə dörd dəfə seçilən yeganə şəxs oldu. Konqresə keçirilən seçkilərdə də demokratlar qələbə qazandılar. 1933-cü il martın 4-də inauqurasiya mərasimi keçirildikdən dərhal sonra o, yeni hökumətin iclasını keçirərək köhnə prinsiplərdən imtina edilməsinin zəruriliyini və fəal daxili siyasət yeridəcəyini bəyan etdi. Ruzvelt respublikaçı prezident Huverin siyasətinin ölkəni iqtisadi böhrandan çıxarmaqda gücsüz və səmərəsiz olduğunu, sınaqlara ehtiyac duyulduğunu bildirdi. Dövlətin iqtisadiyyata qarışmamasına dair ənənəvi amerikan siyasətindən imtina edildi, iqtisadi fəaliyyətin və cəmiyyətdə sosial proseslərin tənzimlənməsinə başlandı. Ruzvelt cəmiyyətin iqtisadi və sosial həyatına dövlətin qarışmasının vacibliyini irəli sürdü. Onun hakimiyyətinin ilk 100 günündə konqres 70-dən çox qanun qəbul etdi. Bu, Ruzveltin “Yeni kursu” (“New Deal”) adlandırıldı. “Yeni kurs”un ideya müəllifi ingilis iqtisadçısı Con Keyniz

Meynard idi. Lakin bu ifadənin özü Ruzveltin 1932-ci il iyulun 2-də Demokratlar Partiyasının iclasında onun namizədliyi irəli sürülərkən etdiyi məruzəsindən götürülmüşdü.

"Yeni kurs"un qəbul edilməsinin bir sıra səbəbləri var idi. Məlum olduğu kimi, ölkə dünya iqtisadi böhranından xeyli ziyan çəkmişdi və sosial ziddiyyətlər kəskinləşmişdi. Ölkə dəyişikliklərə ehtiyac duyurdu.

"Yeni kurs"un başlıca məqsədi dövlət inhisarını gücləndirmək idi.

"Yeni kurs" iqtisadi siyasəti iki əsas yolla inkişaf etdi: islahatların dərindən institutlaşdırılması və maliyyə kəsirinin aradan qaldırılması. "Yeni kurs"un birinci mərhələsi 1933-1934-cü illərdə, ikinci mərhələsi isə 1935-ci ildən həyata keçirilməyə başlandı.

"Yeni kurs"un bir neçə tərkib hissəsi var idi. Ruzvelt hakimiyyətə gəldikdən dərhal sonra, martın 6-da ölkənin 47 ştatındakı bütün banklar 4 gün müddətinə bağlanılaraq təftiş edildi. Ölkənin bank və maliyyə sistemini sağlamlaşdırmaq üçün ciddi addımlar atıldı. 1933-cü il martın 9-da "Banklar haqqında qanun" konqresdə 40 dəqiqəlik müzakirədən sonra qəbul edildi. Bu qanuna görə iri banklara yardımlar göstərildi. Ölkənin bütün bank sistemi üzərində dövlət nəzarəti qoyuldu. Konqres beynəlxalq maliyyə əməliyyatları üzərinə nəzarət səlahiyyətlərini də prezidentə verdi.

Martın 10-da Ruzvelt qızıl üzərində dövlət nəzarətini qoyan fərman verdi. Bu fərmanla ölkədən qızılın xaricə çıxarılmasının qarşısı alındı.

Martın 13-də 12 şəhərdə banklar yenidən fəaliyyətə başladı. 250 bank sağlam hesab edildi. Martın 15-də isə sağlam olan digər banklar da fəaliyyətə başladı. 1932-ci ildə ABŞ-da kapitalı 22,3 mlrd. dollar olan 6145 bank fəaliyyət göstərirdisə, 1933-cü ildə onların sayı 4897-ə, kapitalı isə 20,8 mlrd. dollara düşdu. Artıq 1939-cu ildə ölkədə kapitalı 33,1 mlrd. dollar olan 5203 bank fəaliyyət göstərirdi. Konqres 1933-cü il iyunun 16-da bankların depozit və investisiya funksiyalarını ayıran Qlass-Stiqall qanununu

qəbul etdi. 1933-35-ci illərdə qəbul edilən digər qanunlar federal qızıl ehtiyatı və maliyyə sistemini təkmilləşdirdi.

"Yeni kurs"un mühüm tərkib hissələrindən biri sosial sahənin inkişafı idi. Martın 31-də sosial sahədə vəziyyəti yaxşılaşdırmağa yönəldilən qanun qəbul edildi. Sosial sahədə işlər üç əsas istiqamətdə həyata keçirilməli idi: işsizlərə kömək; əmək şəraitinin yaxşılaşdırılması; həmkarlar ittifaqlarının yaradılması.

İctimai işləri təşkil etməkdən ötrü 3 mlrd. 300 mln. dollar vəsait ayrıldı. Bu məqsədlə tikinti işlərinə başçılıq edən xüsusi idarə - Public Works Administration - PWA yaradıldı. İdarə başlıca olaraq işsizləri işə cəlb etməyə çalışırdı. Bu işə daxili işlər naziri H.İkes başçılıq edirdi. 1933-39-cu illərdə 25 yaşınadək olan 2 mln. gənc əmək düşərgələrində işlədi. 6 ay ərzində onlara pulsuz paltar, yemək, hər ay isə 30 dollar əmək haqqı verilirdi.

Ruzvelt 1933-cü il mayın 12-də işsizlərə 500 mln. dollar yardım edilməsi haqqında qanunu bəyəndi. Fövqəladə yardım göstərilməsi üzrə federal idarə yaradıldı. Onun rəhbəri H.Hopkins oldu.

1933-34-cü illərdə hökumət sosial gərginliyi aşağı salmaq məqsədilə ictimai iş yerləri açdı. Bu məqsədlə Mülki İşlər İdarəsi (Civil Works Administration - CWA) yaradıldı. Dörd aydan çox fəaliyyət göstərdiyi müddətdə bu idarə 933 mln. dollar vəsait xərclədi və 4,3 mln. nəfəri işlə təmin etdi.

1935-ci ildə ölkədə yeni təşkilat olan Works Proqress Administration - WPA yaradıldı. Bu təşkilat fəaliyyət göstərdiyi müddətdə 10,8 mlrd. dollar vəsait xərclədi.

"Yeni kurs"un mühüm sahələrindən biri sosial-təminat sisteminin yaradılması oldu. 1935-ci ilin avqustunda və 1939-cu ildə vətəndaşların qocalığa, əmək qabiliyyətini, ailə başçısını itirməsinə və işsizliyə görə yardım verilməsi haqqında qanunlar tətbiq edildi. 65 yaşdan yuxarı olan şəxslərə qocalığa görə hər ay 85 dollar pensiya verilməli idi. İşsizlərə isə hər həftə üçün 11 dollar yardım göstərilməli idi. ABŞ tarixində ilk dəfə olaraq pensiya və dövlət yardımları sistemi tətbiq edildi.

1935-ci ilin mayında iş həftəsinin həcmi və əmək haqqının minimum həddi müəyyənləşdirildi. 40 saatlıq iş həftəsi tətbiq edildi. 16 yaşdan aşağı oğlanların və 18 yaşdan aşağı qızların işə qəbul edilməsi qadağan olundu.

"Yeni kurs"un tərkib hissələrindən biri kənd təsərrüfatının tənzimlənməsi idi. Mayın 12-də kənd təsərrüfatının tənzimlənməsi haqqında (ingiliscə baş hərflərlə AAA - Agricultural Agjustment Act) qanunu qəbul edildi. Bu qanuna uyğun olaraq əkin sahələrini və mal-qaranı azaldan fermerlərə 2 mlrd. dollar kredit ayrıldı. Bu qanun kənd təsərrüfatı istehsalının həcmini müəyyənləşdirdi. Yalnız bir ildə taxıl və qarğıdalı əkin sahələri 7 mln. hektar azaldı, 23 mln. iribuynuzlu mal-qara və 6 mln. donuz kəsildi. AAA qanununun fəaliyyəti iri kənd təsərrüfatı kompaniyalarına və varlı fermerlərə gəlir gətirdi. Onlar az məhsul verən sahələri əkməyərək əvəzində dövlətdən vəsait aldılar, digər sahələrdən isə aqrotexniki tədbirlərin hesabına yüksək məhsul götürdülər. Belə imkanları olmayan kiçik və orta fermerlər əkin sahələrinin azaldılmasından ziyana düşdülər. Borclarını ödəyə bilməyən fermerlər torpaqlarını satmağa məcbur oldular.

1933-34-cü illərdə birjaların fəaliyyətinin tənzimlənməsinə dair iki qanun qəbul edildi.

1935-ci ildə qəbul edilən qanun isə Holdinq kampaniyalarının işini ciddi şəkildə tənzimlədi.

"Yeni kurs"un tərkib hissələrindən biri sənayenin bərpa edilməsi idi. 1933-cü il iyunun 16-da Sənayenin Milli Bərpası idarəsi yaradılması haqda qanun qəbul edildi. Qanun ingiliscə baş hərflərə uyğun olaraq NIRA (National Industrial Recovery Act) adlandırıldı. Milli Bərpa İdarəsi (NRA - National Recovery Administration) yaradıldı. Bütün sənaye müəssisələri 17 qrupa bölündü. Bu işə nəzarəti general H.Conson həyata keçirdi. "Vicdanlı rəqabət kodeksi" qəbul edildi. Sənaye məhsulu istehsalı planlı şəkildə azaldıldı. "Qızıl standart" ləğv olundu. Hökumət borclar məsələsində məsuliyyəti öz üzərinə götürdü. Qısa müddət ərzində 746

əsas və əlavə kodeks qəbul edildi. Bu qanun ABŞ sənayesinin 99%-ni əhatə etdi. Qanunun $7^a$ maddəsinə görə fəhlələr həmkarlar ittifaqları yarada və kollektiv müqavilələr bağlaya bilərdilər. Sənayedə əmək münasibətləri tənzimləndi.

1933-cü ildə ölkə konstitusiyasına edilən 21-ci düzəlişlə spirtli içkilərin istehsalı və istehlakını qadağan edən 18-ci düzəliş ləğv olundu. Bu sahədə yeni sənaye müəssisələri yaradıldı.

1935-ci ildən başlayaraq "Yeni kurs"un həyata keçirilməsində sola doğru dönüş baş verdi. 1935-ci ilin mayında ABŞ Ali məhkəməsi kənd təsərrüfatının tənzimlənməsi və sənaye haqqında qanunları konstitusiyaya zidd sayaraq ləğv etdi. 1936-cı ilin yanvarında bu qanunlar qüvvədən düşmüş hesab edildi. 1935-36-cı illərdə Ali məhkəmə "Yeni kurs"un 12 qanununu ləğv etdi. Məhkəmə qərarları dövlətin sosial-iqtisadi münasibətlərə qarışmasının qarşısını aldı.

1935-ci il iyulun 5-də həmkarlar ittifaqlarının yaradılmasına icazə verən Vaqner qanunu prezident tərəfindən imzalandı. Bununla da ABŞ tarixində ilk dəfə olaraq həmkarlar ittifaqlarını yaratmaq hüququ rəsmi olaraq elan edilərək dövlət orqanları tərəfindən qorundu. Bu məqsədlə Əmək münasibətləri üzrə milli idarə yaradıldı.

1936-cı ildə ABŞ-da yeni prezident seçkiləri keçirildi. Ruzvelt ölkənin 46 ştatında tam qələbə qazandı. O, 27,4 mln. səs toplayaraq rəqibi olan Kanzas ştatının qubernatoru A.Lendon üzərində böyük fərq hesabı ilə qələbə çaldı.

1937-ci il fevralın 5-də Ruzvelt məhkəmə islahatı barədə təşəbbüslə çıxış etsə də təklif qəbul edilmədi.

Dövlətin iri təsərrüfatlara yardım göstərməsi siyasəti 30-cu illərin ikinci yarısınadək davam etdirildi. 1938-ci il fevralın 16-da kənd təsərrüfatının tənzimlənməsi haqqında yeni qanun qəbul edildi. Bu qanunla 1933-cü il qanununa əsasən artıq məhsulun məhv edilməsindən imtina olundu. Artıq məhsulun saxlanmasına görə fermerə ödəniş verilməsi sistemi tətbiq edildi.

Ruzveltin "Yeni kurs"u milliləşdirməni nəzərdə tutmurdu və

aparılan islahatlar sosialist xarakterindən xeyli uzaq idi. Ruzvelt realist baxışlı dövlət xadimi olaraq ölkə həyatının dirçəldilməsi zərurətini başa düşürdü.

"Yeni kurs"un bir sıra mühüm nəticələri oldu. 1932-ci il ilə müqayisədə 1939-cu ildə sənaye istehsalı 90% artdı. 1932-40-cı illərdə federal hökumətin xərcləri 4 mlrd. 266 mln. dollardan 10 mlrd. 61 mln. dollara çatdı. Ölkə iqtisadiyyatı, sənaye və kənd təsərrüfatı inkişaf etdi. "Yeni kurs"la dövlət tənzimlənməsi tətbiq edildi və sosial islahatlar həyata keçirildi. İşsizlik aşağı salındı. Qocalığa görə təqaüd verilməsi sistemi tətbiq edildi.

1938-ci ilin iyununda minimum əmək haqqı və iş həftəsinin həcmi barədə daha bir qanun qəbul olundu. Qanun əlavə işə görə haqq verilməsini tətbiq və uşaq əməyindən istifadəni qadağan etdi.

1938-ci ildə AƏF-lə yanaşı ölkədə ikinci həmkarlar ittifaqı - İstehsalat Həmkarlar İttifaqları Konqresi yaradıldı. 1938-ci ildə AƏF-in 3,6 mln., İHİK-in 3,7 mln. üzvü var idi.

30-cu illərdə ABŞ-da faşist meylləri tədricən güclənməyə başladı. Bu hərəkatın başında Luizuana ştatının senatoru Hyu Lonq və İtaliya faşizmi ilə əlaqəsi olan keşiş Çarlz Koflin dururdular. Lonq 1930-cu ildə ABŞ senatına seçildi. Kriminal aləmlə əlaqəsi olan Koflinin göstərişi ilə adamlar oğurlanır və cinayətlər törədilirdi. 1935-ci ilin sentyabrında Lonq öldürüldü. Ölkədə fəaliyyət göstərən "Gümüşü köynəklilər", "Respublika müdafiəçiləri", "Amerikan millətçiləri", "Amerika nasional-sosialist partiyası", "Səfərbər edilmiş xristianlar" və başqa faşist təşkilatları uğur qazana bilmədilər. Çünki amerikan cəmiyyətində bu təşkilatlara sosial tələbat yox idi və faşizmin inkişafı üçün şərait mövcud deyildi.

Ruzveltin hakimiyyəti illərində dövlətin xarici siyasətinin başlıca məqsədi ABŞ-ın mənafelərini reallıqlar əsasında qorumaq idi. Xarici siyasət məsələlərinə münasibətdə ölkədə iki ümumi xətt mövcud idi. Bu xətlərdən biri beynəlmiləlçilik, digəri isə təcridçilik idi. Beynəlmiləlçilər ABŞ-ın imkanlarından istifadə edib fəal beynəlxalq siyasət aparmağı, təcridçilər isə başqa ölkələrin işinə

və beynəlxalq məsələlərə qarışmamağı təklif edirdilər. İkinci xət-tin tərəfdarları Huver, Vandemberq, Taft, Lafollet və b. idi.

Ruzveltin hakimiyyəti illərində ABŞ-ın xarici siyasəti əsasən üç istiqamətdə həyata keçirildi: Avropa və Uzaq Şərq; Latın Amerikası; SSRİ.

Avropa ölkələri ilə qarşılıqlı münasibətlərdə ABŞ hökuməti qitə ölkələri ilə hər hansı hərbi-siyasi ittifaqa girməkdən imtina etdi. Amerikan hökuməti Millətlər Cəmiyyətinə də laqeyd münasibət bəslədi. Bunun başlıca səbəbi Almaniyada nasional-sosializm hakimiyyətə gəldikdən sonra qitədə yaranmış vəziyyətin qeyri-müəyyənliyi ilə bağlı idi. Avropada qüvvələr nisbəti hələ müəyyən deyildi. Amerikan diplomatiyası Avropada əlverişli şəraitin yaranmasını gözləyirdi. Bununla belə, ABŞ hökuməti iqtisadi məsələləri müzakirə etmək üçün Avropanın 10 ölkəsini 1933-cü ildə ümumi konfransa dəvət etsə də onlar imtina etdilər.

Avropada mövcud mürəkkəb şəraitdə ABŞ konqresi "Bitərəflik haqqında qanun"u qəbul etdi. Prezident Ruzvelt 1935-ci il avqustun 31-də bu qanunu imzaladı. Qanuna görə qitədə müharibə olardısa ABŞ döyüşən ölkələrə silah və sursat sata, limanları və gəmiləri isə icarəyə verilə bilməzdi. Amerikan gəmilərində silah satılması qadağan edildi. Bu embarqonu pozanlar ya 10 min dollar cərimə olunmalı, ya 5 il müddətinə həbs olunmalı, ya da bu cəza tədbirlərinin hər ikisi eyni vaxtda həyata keçirilməli idi. Qanuna görə ölkədə silah istehsalı və ticarəti üzərinə qeydiyyat və lisenziya tətbiq edildi.

1936-cı ilin fevralında "Bitərəflik haqqında qanun"un vaxtı uzadılaraq daha da ciddiləşdirildi. Qanun dövrün beynəlxalq şəraitini nəzərə alırdı. 1937-ci ilin yazında "Bitərəflik haqqında qanun"un fəaliyyət müddəti yenidən uzadıldı. Yeni qanun mayın 1-dən qüvvəyə mindi. Bu qanun əsasən əvvəlkilərin müddəalarını təkrarlasa da daha sərt idi. ABŞ döyüşən ölkələrə silah sata və kredit verə bilməzdi. Amerikanlara həmin ölkələrin gəmilərində üzmək qadağan edildi.

Bundan sonra ABŞ xarici siyasətində təcridçilərlə beynəlmiləlçilər arasındakı münasibətlər daha da kəskinləşdi. ABŞ-ın "sakitləşdirmə" və bitərəflik siyasəti Avropada vəziyyətin nəzarətdən çıxmasına şərait yaratdı. İtaliya, Almaniya və Yaponiya tərəfindən Həbəşistan, İspaniya və Çinin təcavüzə məruz qaldığı, daxili işlərinə qarışıldığı bir vaxtda ABŞ-ın bitərəflik siyasəti təcavüzkar ölkələrin mənafelərinə cavab verirdi. Təcavüzkarlar özlərini sərbəst aparır, cəzasız qalacaqlarına ümid edirdilər. ABŞ hökuməti Almaniyada nasional-sosializmin hakimiyyət başına gəlməsində və Münhen sövdələnməsinə münasibətdə də öz bitərəfliyini nümayiş etdirdi. Bununla belə, ABŞ Yaponiyanın Asiyadakı işğallarını tanımadı. 1937-ci ildə Yaponiya Çinə təcavüz etdikdə ABŞ faktiki olaraq təcridçilik siyasətindən əl çəkərək ona qarşı çıxdı.

Ruzvelt hökuməti Latın Amerikası ölkələrinə münasibətdə əvvəlki illərdə yeridilən siyasətdən imtina etdi. 1933-cü ilin mart ayında Ruzvelt Latın Amerikası ölkələrinə münasibətdə ABŞ-ın "Mehriban qonşuluq siyasəti"ni elan etdi. "Mehriban qonşuluq siyasəti" aşağıdakı prinsiplər əsasında həyata keçirilməli idi: ABŞ Latın Amerikası ölkələrinin daxili işlərinə qarışmamalı; qarşılıqlı fayda və millətlərin bərabərliyi əsasında ticarət müqavilələri bağlamalı; bu ölkələrə texniki yardım göstərməli idi.

"Mehriban qonşuluq siyasəti"nin başlıca məqsədi Amerika dövlətləriarası sistemini möhkəmləndirmək və Latın Amerikası ölkələrinə Almaniyanın nüfuz etməsinin qarşısını almaq idi. Bu siyasət Amerika qitəsi ölkələrinin mənafelərini ikitərəfli və ümumi səylərlə qorumağa yönəlmişdi.

1933-cü ilin dekabrında Montevideoda (Uruqvay) keçirilən Panamerika konfransında iştirak edən ABŞ dövlət katibi K.Hell "Mehriban qonşuluq siyasəti"ni bir daha təsdiq etdi. Konfrans qitə dövlətlərinin daxili və beynəlxalq işlərinə başqa ölkənin qarışmasını qadağan edən bəyannamə qəbul etdi. 20 ildən artıq Kuba və Haitidə saxlanılan amerikan orduları 1934-cü ildə geri çağırıldı.

Kuba ilə ticarəti məhdudlaşdıran "Platt düzəlişi" ləğv edildi. ABŞ Latın Amerikası ölkələri ilə yeni ticarət sazişləri bağladı. Qısa müddətdə 11 ticarət müqaviləsi imzalandı. Bu ölkələrə kapital ixracı artdı. 1934-35-ci illərdə ABŞ idxal-ixrac bankı Latın Amerikasının 18 ölkəsinə 500 mln. dollar istiqraz verdi.

1936-cı il dekabrın 1-23-də Buenos-Ayresdə (Argentina) keçirilən Panamerika konfransında bu ölkələrin ümumi siyasətinin mexanizmləri işlənib hazırlandı. Ruzveltin şəxsən iştirak etdiyi bu konfrans "Mehriban qonşuluq siyasəti"nin çoxtərəfli əsasda qəbul edilməsində mühüm rol oynadı.

Amerikan diplomatiyası "Mehriban qonşuluq siyasəti"ni 1938-ci il dekabrın 9-27-də Limada (Peru) keçirilən Panamerika konfransında bir daha möhkəmləndirdi. Qəbul edilən "Lima bəyannaməsi"ndə dövlətlər qitə həmrəyliyi, xarici müdaxilədən birgə qorunmaq və bu məqsədlə səyləri birləşdirmək barədə razılığa gəldilər. Beləliklə, qərb yarımkürəsi ölkələrinin birliyi ideyası həyata keçirildi.

ABŞ xarici siyasətinin mühüm istiqamətlərindən biri SSRİ ilə münasibətlər oldu. Ruzvelt hökuməti SSRİ ilə münasibətlərin qurulmasından ötrü təşəbbüs göstərdi. 1933-cü il noyabrın 16-da iki ölkə arasında diplomatik münasibətlər yaradıldı. Diplomatik münasibətlərin bərpa edilməsindən sonra SSRİ-nin ABŞ-dakı ilk səfiri A.A.Troyanovski, ABŞ-ın SSRİ-dəki ilk səfiri isə Bullit oldu. Sovet-Amerika münasibətlərinin qurulmasına siyasi realizm və Uzaq Şərqdə SSRİ və ABŞ-ın rəqibi olan Yaponiyanın təcavüzkarlıq hərəkətləri də müəyyən təsir etdi.

Diplomatik münasibətlər qurulduqdan sonra Çar Rusiyasının və Müvəqqəti hökumətin ABŞ-dan aldıqları borclar məsələsi də müzakirə edildi. Borcun məbləğini 75 mln. dollardan 150 mln. dollarıdək müəyyənləşdirmək qərara alındı. 1934-cü ilin avqustunda Moskvada keçirilən danışıqlarda ABŞ tərəfi borcların ödənilməsini təkid etdi. Sovet nümayəndə heyəti borcları qaytarmaq üçün amerikan istiqrazları əvəzinə uzunmüddətli kreditə

razı olduğunu bildirdi. Amerikanlar ticarət üçün əmtəə kreditinin verilməsi təklifini irəli sürdülər. Sovet hökuməti bununla razılaşmadıqda 1935-ci ilin yanvarında ABŞ dövlət departamenti rəsmi şəkildə maliyyə-iqtisadi məsələlər üzrə sovet-amerikan danışıqlarının dayandırıldığını bildirdi. Bunun ardınca ABŞ-ın Moskvadakı baş konsulluğu bağlandı və səfirliyin ştatı ixtisar edildi. Borclar məsələsi sonrakı illərdə ikitərəfli münasibətlərdə müzakirə olundu.

Bütün bunlara baxmayaraq, ticarət sahəsində əməkdaşlıqda bəzi irəliləyişlər oldu. 1935-ci il iyulun 13-də iki ölkə arasında ticarət sazişi imzalandı. 1937-ci ildə isə bu sazişin fəaliyyət müddəti uzadıldı. Nəticədə sovet xarici ticarətində ABŞ-ın xüsusi çəkisi 7%-ə qalxdı. Digər sahələrdə də əlaqələr tədricən genişləndi. İki ölkə arasında elmi və mədəni sahələrdə əməkdaşlıq qurularaq inkişaf etdirildi.

## ABŞ ikinci dünya müharibəsi illərində

İkinci dünya müharibəsi başladıqdan az sonra, sentyabrın 3-də F.D.Ruzvelt amerikan xalqına müraciət edərək ölkəni müharibədən kənarda saxlayacağını vəd etdi. Konqresin 1939-cu il sentyabrın 5-də keçirilən xüsusi sesiyasında 1937-ci ildə qəbul edilmiş "Bitərəflik haqqında qanun" qüvvəyə mindi. Ruzvelt 1935-ci ilin avqustundan sonra bitərəflik haqqında sayca dördüncü olan qanunu 1939-cu il noyabrın 5-də imzaladı.

1940-cı ilin yayında ölkədə prezident seçkiqabağı kampaniyası genişləndi. Üçüncü dəfə öz namizədliyini irəli sürən Ruzvelt qələbə qazandı. Avropada "qəribə müharibə" başa çatdıqdan sonra Ruzvelt "Milli müdafiə proqramı"nı irəli sürdü. Bu proqrama əsasən konqres hərbi xərcləri 17,7 mlrd. dollara, ordunun sayını isə 280 min nəfərdən 1 mln. 200 min nəfərə çatdırmaq barədə qərar qəbul etdi. Almaniya orduları Parisi tutduqdan sonra Ruzvelt atom silahının hazırlanması üçün təhqiqatlara başlamağa dair göstəriş

verdi. Bu işi Avropadan mühacirət edən fizik A.Eynşteyn və başqaları həyata keçirməyə başladılar. 1940-cı ilin sentyabr ayında dinc dövrdə ilk dəfə olaraq seçmə hərbi mükəlləfiyyət haqqında qanun qəbul edildi. Müəyyən ixtisaslı şəxslər orduya çağırıldı. İqtisadiyyatı yenidən qurmaq məqsədilə 1941-ci il iyulun 30-da vitse-prezident H.Uelles başda olmaqla İqtisadi Müdafiə İdarəsi yaradıldı.

Müharibənin başlanması amerikan iqtisadiyyatının inkişafına müsbət təsir göstərdi. 1940-cı ilin oktyabrında kapitalın amortizasiyası (kapitalın işlənməsi nəticəsində get-gedə onun qiymətinin azalması) haqqında qanun qəbul edildi. Bu qanuna görə korporasiyaların ödədiyi vergilərin həcmi aşağı salındı. Ölkə iqtisadiyyatında iri şirkətlərin xüsusi çəkisi artdı.

1940-cı ilin dekabrında Ruzvelt "ox" ölkələrinə qarşı döyüşən dövlətlərə amerikan yardımı göstərməyi təklif etdi. 1941-ci il yanvarın 10-da ABŞ konqresinə təqdim olunan amerikan silahlarını və digər materiallarını başqa ölkələrə icarəyə verməyi nəzərdə tutan qanun layihəsi martın 11-də qəbul edildi. Bu, "Lend-liz sistemi" adlandırıldı. Lend-liz proqramının rəhbəri H.Hopkins idi.

1941-ci il iyunun 22-də Almaniya SSRİ-yə hücum etdikdən iki gün sonra, iyunun 24-də Ruzvelt sovet hökumətinə kömək göstərməyə hazır olduğunu bildirdi. 1941-ci il sentyabrın 28-i - oktyabrın 1-də Moskvada ABŞ, İngiltərə və SSRİ nümayəndələrinin konfransında SSRİ-yə hər ay 30 mln. dollarlıq yardım göstərilməsi qərara alındı.

1941-ci ilin avqust ayında Nyufaundlend adasında Ruzvelt və Çerçilin görüşündə müharibənin aparılması məqsədlərinə dair "Atlantika xartiyası" qəbul edildi. Bununla da ABŞ 1935-ci ildə qəbul edilmiş "Bitərəflik haqqında qanun"un bütün müddəalarından 1941-ci ilin dekabrınadək imtina etdi. Amerikan hökumətinin bu addımı atması əbəs deyildi. Çünki Almaniya bloku ölkələrinin iddialarının həyata keçirilməsi ABŞ-ın mövqelərinə ciddi zərbə endirərdi. Avropada qələbə qazanan və Avrasiyaya

nəzarət edən Almaniya ABŞ-ın fiziki mövcudluğunu sual altına qoymağa imkan qazanardı. Belə şəraitdə ABŞ-ın Almaniya bloku əleyhinə müharibəyə qoşulacağı şəksiz idi.

1941-ci il dekabrın 7-də ABŞ-ın Havay adalarındakı Pirl-Harbor hərbi-dəniz donanmasının yaponlar tərəfindən bombardman edilməsi amerikanların müharibəyə qoşulmasını sürətləndirdi. Dekabrın 8-də Ruzvelt yaranmış vəziyyətlə bağlı konqresin hər iki palatasında çıxış etdi. Bundan dərhal sonra ABŞ ikinci dünya müharibəsinə girdi.

ABŞ müharibəyə girdikdən sonra ölkə iqtisadiyyatının yenidən qurulması və hərbi relsə keçirilməsindən ötrü tədbirlər görüldü. Hökumət qiymətlər və əmək haqqı üzərinə nəzarət qoydu. Prezident 1942-ci il aprelin 27-də konqresə müraciət edərək əmək haqqını və mallar üzərində qoyulan qiyməti sabitləşdirməyi təklif etdi. Sentyabrın 7-də prezident həyatın sabitləşdirilməsinə dair müraciət etdi. 1942-ci il oktyabrın 2-də konqres iqtisadi sabitlik haqqında qanun qəbul etdi. Qanunun həyata keçirilməsi məqsədilə C.Birns başda olmaqla İqtisadi Sabitləşdirmə İdarəsi yaradıldı.

ABŞ hökuməti müharibənin gedişində ən mühüm problemlərdən biri olan ikinci cəbhənin açılması ilə məşğul oldu. Bu məqsədlə amerikan nümayəndə heyəti 1942-ci ilin aprelində Londona səfər edərək İngiltərə və SSRİ hökumətləri ilə məsləhətləşmələr apardı.

1942-ci il avqustun 7-də 10 minlik amerikan dəniz piyadaları Quadalkanal adasında hərbi əməliyyatlara başladılar. Amerikan komandanlığı eyni zamanda Solomon adalarında və Tulaqi adasında hərbi əməliyyata girdi. 1942-ci ilin avqust-noyabr aylarında yapon və amerikan donanmaları arasında altı döyüş oldu. Döyüşlər ABŞ silahlı qüvvələrinin üstünlüyü ilə nəticələndi.

Noyabr ayında ingilis-amerikan ekspedisiya orduları Şimali Afrika sahillərinə çıxarıldı.

Müharibənin davam etməsi ölkə iqtisadiyyatına müsbət təsir etdi. 1943-cü ildə ölkədə sənaye məhsulu istehsalı ən yüksək sə-

viyyəyə çatdı. Elektkrik enerjisi istehsalına görə ABŞ Almaniyanı 5, Yaponiyanı isə 8 dəfə ötüb keçdi. Ölkə sənayesinin 2/3 hissəsi silahlanmaya yönəldildi. Müharibənin ilk iki ili ərzində mülki sənaye məhsulu 1,5 , hərbi məhsul istehsalı isə 7 dəfə artdı. 1943-cü il iyulun 1-də "Federal gəlir vergisi haqqında qanun" qüvvəyə mindi. 1943-cü ilin noyabrında ölkədə 80 mlrd. dollarlıq hərbi sursat və silah istehsal olundu. Beləliklə, 1943-cü ildə ölkə iqtisadiyyatı tamamilə hərbi relsə keçirildi.

1943-cü il yanvarın 14-də Ruzvelt və Çerçil hərbi əməliyyatların aparılması planlarını müzakirə etmək üçün Kasablankada görüşdülər. Ölkə başçıları Qərargah rəisləri birləşmiş komitəsinin hərbi strategiyasını bəyəndilər. Ruzvelt Almaniya və onun müttəfiqlərinin danışıqsız təslim edilməsi haqqında təklif irəli sürdü.

1943-cü il mayın 12-25-də Vaşinqtonda ingilis-amerikan nümayəndə heyətlərinin konfransı çağırıldı. Konfransda hərbi əməliyyatların aparılmasına dair məsələlər müzakirə edildi.

Həmin il avqustun 14-24-də ABŞ və İngiltərə rəhbərliyi Kvebekdə görüşdülər.

ABŞ nümayəndə heyəti 1943-cü il oktyabrın 19-30-da üç dövlətin xarici işlər nazirlərinin Moskva görüşündə iştirak etdi. Görüşdə ikinci cəbhənin açılması məsələləri müzakirə olundu.

Ruzvelt həmin ilin noyabr ayında Qahirədə Böyük Britaniyanın baş naziri Çerçillə görüşərək hərbi əməliyyatların aparılmasına dair məsələləri müzakirə etdi. Görüşün yekununda qəbul edilən bəyannamədə Almaniya bloku dövlətlərinə qarşı birgə səyləri gücləndirmək məsələləri öz əksini tapdı.

Amerikan diplomatiyası 1943-cü il noyabrın 28-dən dekabrın 1-dək keçirilən, müharibənin tezliklə başa çatdırılması və ikinci cəbhənin açılması məsələlərinə həsr edilmiş Tehran konfransında prezident Ruzveltin başçılığı altında təmsil olundu. İkinci cəbhəni 1944-cü ilin mayından gec olmayaraq açmaq qərara alındı. İkinci cəbhə 1944-cü il iyunun 6-da Şimali Fransadan - Normandiyadan

açıldı.

1944-cü ildə ölkədə sənaye məhsulu istehsalı müharibədən əvvəlki illərlə müqayisədə 2 dəfədən çox artdı. Hərb sənayesi inkişaf etdi. 1944-cü ilin oktyabrında artıq ölkədə atom bombasının hazırlanmasına başlanıldı.

ABŞ-ın kənd təsərrüfatı da inkişaf etdi. Kənd təsərrüfatı məhsulu istehsalı müharibədən əvvəlki illərə nisbətən 40% artdı. Ölkədə işsizlik ləğv edildi.

1944-cü ildə ölkə siyasi həyatında prezident seçkiləri kampaniyası qızışdı. Respublikaçılar Partiyası Nyu-York ştatının qubernatoru T.Dyuinin prezidentliyə, Ohayo ştatının qubernatoru C.Brikerin isə vitse-prezidentliyə namizədliklərini irəli sürdü. Onlar Ruzveltin rəqibləri oldu. Ruzvelt seçkiqabağı dövrdə, 1944-cü il yanvarın 11-də konqresə göndərdiyi məktubunda amerikan xalqına sosial-iqtisadi rifah, ilk növbədə isə tam məşğulluğu təmin edəcəyini vəd verdi. 1944-cü ildə konqres "Əsgər hüquqları haqqında qanun" qəbul etdi. Qanun ordudan tərxis olunan əsgərlərin hüquqlarını qoruyurdu. Qanuna görə hər bir işsizə həftədə 20 dollar yardım, ev almaq üçün 40 min dollara qədər kredit verildi. Ordudan tərxis olunanlara ali məktəblərdə təhsil almaq üçün güzəştlər tətbiq edildi.

1944-cü il noyabrın 4-də keçirilən prezident seçkilərində Ruzvelt 36 ştatda qələbə qazandı. Ona 26 mln. vətəndaş, 432 seçkici səs verdi. T.Dyui isə 22 mln. səs və 99 seçkici səsi aldı. O, hətta qubernator olduğu Nyu-York ştatında uğursuzluğa düçar oldu.

1944-cü ildə ABŞ-ın xarici siyasəti xeyli fəallaşdı. Amerikan hökuməti Latın Amerkiası ölkələrinə, Yaxın və Orta Şərq regionuna xüsusi diqqət verdi. İranla iqtisadi-siyasi müqavilələr bağlandı. Abadan rayonunda hərbi-hava limanı və baza tikildi.

1944-cü ilin fevralında ABŞ neft kompaniyaları Səudiyyə Ərəbistanı ilə əlverişli şərtlərlə konsessiyalara dair danışıqlara başladılar. Səudiyyə Ərəbistanı və Küveytdə məsələləri həll etmək üçün 1944-cü il avqustun 8-də bərabər konsessiyalara dair ingilis-ame-

rikan sazişi imzalandı. ABŞ Sakit okean rayonuna xüsusi diqqət yetirdi. Avstraliya və Yeni Zelandiyada hərbi bazaların tikintisinə başlanıldı.

1944-cü ilin iyununda ABŞ-ın Bretton-Vuds şəhərində amerikan maliyyə naziri H.Morgentaunun sədrliyi ilə keçirilən 44 dövlətin nümayəndələrinin konfransında Beynəlxalq Valyuta Fondu yaradıldı.

Amerikan nümayəndə heyəti 1944-cü il avqustun 21-dən sentyabrın 28-dək Vaşinqton yaxınlığındakı Dumbarton-Oks qəsəbəsində BMT-nin yaradılması məsələlərinə həsr edilmiş konfransda iştirak etdi. Konfransda ABŞ dövlət katibinin müavini E.Stettinius, İngiltərə xarici işlər nazirinin müavini A.Kadoqan, SSRİ-nin ABŞ-dakı səfiri A.A.Qromıko başda olmaqla nümayəndə heyətləri iştirak edirdilər.

Çerçil və Ruzveltin 1944-cü il sentyabrın 11-16-da Kvebekdə keçirilən görüşündə müharibənin tezliklə başa çatdırılması ilə bağlı məsələlər müzakirə edildi. Bu zaman H.Morgentau Almaniyanın taleyi ilə bağlı plan işləyib hazırladı. Plana görə Rur və Almaniyanın şimal-qərbindəki ərazi beynəlxalq zonaya çevrilməli, Saar və Reynlə Mozel arasındakı sahə Fransaya verilməli, ölkənin digər ərazisi isə şimali və cənubi alman dövlətlərinə bölünməli idi. Bu plan Almaniyada nasional-sosializmin və militarizmin kökünün kəsilməsini nəzərdə tuturdu.

ABŞ xarici siyasətində 1945-ci il fevralın 4-11-də Krımda, Yaltada keçirilən konfrans xüsusi yer tutdu. Konfransdan əvvəl, fevralın 2-də Çerçil və Ruzvelt Maltada görüşərək Qərbi Avropada hərbi əməliyyatların aparılması məsələlərini müzakirə etdilər. Krım konfransı müttəfiqlərin birliyini nümayiş etdirdi.

1945-ci ildə amerikan iqtisadiyyatı yüksək sürətlə inkişaf etdi. Bütün göstəricilərə görə ABŞ iqtisadiyyatı müttəfiqlərindən xeyli qabaqda idi. Məsələn, amerikan ticarət donanması Böyük Britaniyadan 2,5 dəfə çox idi.

1945-ci ilin əvvəllərində ABŞ və Yaponiya arasında donanma-

nın nisbəti amerikanların xeyrinə dəyişildi. ABŞ Yaponiyanı xətt gəmilərində 6 , ağır kreyserlərdə 7 , sualtı qayıqlarda 3 dəfə ötüb keçdi. Beləliklə, hərbi sahədə ABŞ dünyanın ən qüdrətli dövlətinə çevrildi.

1945-ci il aprelin 12-də Ruzvelt gözlənilmədən vəfat etdi. Prezident səlahiyyətlərini vitse-prezident Harri Trumen(1884-1972) həyata keçirməyə başladı.

1945-ci il aprelin 25-də BMT nizamnaməsinin qəbuluna həsr olunmuş 42 dövlətdən 282 nümayəndənin iştirak etdiyi konfransda amerikan diplomatiyası iştirak etdi. İyunun 26-da BMT nizamnaməsi qəbul edildi.

1945-ci il mayın 8-də Berlində antihitlerçi koalisiyaya daxil olan böyük dövlətlər Almaniyanın danışıqsız təslim olması haqqında aktı imzaladılar. Beləliklə, Avropada müharibə başa çatdı.

Amerikan nümayəndə heyəti 1945-ci il iyulun 17-dən avqustun 2-dək keçirilən Potsdam konfransında iştirak etdi. Konfransın açılışına bir gün qalmış, iyulun 16-da ABŞ-da Alamoqordoda atom bombası sınaqdan keçirildi.

Amerikan donanması 1945-ci ilin birinci yarısında Yaponiyaya qarşı hərbi əməliyyatları daha da genişləndirdi. İyulun 25-də ABŞ, Böyük Britaniya və Çin Yaponiyanın danışıqsız təslim edilməsi niyyəti haqqında sənədi imzaladılar. Avqustun 6-da ABŞ Yaponiyanın Xirosimo, avqustun 9-da isə Naqasaki şəhərlərinə atom bombası atdı. 1945-ci il sentyabrın 2-də Yaponiyanın danışıqsız təslim olması haqqında aktın imzalanması ilə ikinci dünya müharibəsi başa çatdı. Bununla da ABŞ tarixində yeni dövr başlandı.

# VI BÖLÜM

## İTALİYA

### Birinci dünya müharibəsinin İtaliya üçün nəticələri

Birinci dünya müharibəsindən qalib çıxmasına baxmayaraq İtaliya xeyli ziyan çəkdi. İtaliya hökuməti müharibəyə 65 mlrd. qızıl lirə xərclədi. Vurulan zərər 12 mlrd. lirə təşkil etdi. İtaliya milli sərvətlərinin 1/3 hissəsini itirdi. 700 min adam öldü, 1 mln. 500 min nəfər isə yaralandı. Hərbi əməliyyatlar nəticəsində ölənlər çox olduğundan ölkədə işçi qüvvəsi çatışmırdı. Əkin sahələri azaldı. Ölkənin maliyyə sistemi pozuldu. Əmək haqqı 40-50% aşağı düşdü. Kiçik banklar iflasa uğradı. Xarici ticarətə böyük zərbə dəydi. İxrac azaldı, idxal isə artdı. İtaliya xarici ölkələrdən maliyyə asılılığına düşdü. Ölkənin ABŞ-a 1,5, Böyük Britaniyaya isə 2,5 mlrd. dollar borcu var idi.

Bununla belə, müharibənin İtaliya üçün bəzi müsbət nəticələri də oldu. İtaliya aqrar ölkədən aqrar-sənaye ölkəsinə çevrildi. Sənayenin yeni sahələri inkişaf etdi. Əgər müharibədən əvvəl hərbi sənayedə 50 min nəfər çalışırdısa, müharibənin sonuna yaxın bu rəqəm 500 min nəfərə çatdı. Müharibənin gedişində sənaye kapitalının və istehsalın təmərküzləşməsi baş verdi. Fiat avtomobilqayırma və Breda hərbi sursat zavodları texnoloji cəhətdən yenidən quruldu.

### Müharibədən sonra İtaliyanın sosial-iqtisadi və siyasi vəziyyəti

Müharibə başa çatdıqdan sonra hərbi ehtiyaclara olan tələbat azaldığından ölkə iqtisadiyyatında ağır vəziyyət yarandı. 1920-ci ildə ölkədə iqtisadi böhran baş verdi. İstehsal aşağı düşdü, inflya-

siya artdı, əmək haqqı azaldı və kütləvi işsizlik yarandı. 1917-1919-cu illərdə ölkənin baş naziri olan V.E.Orlando hökumətinin gördüyü tədbirlər elə bir ciddi nəticə vermədi. Ölkə iqtisadiyyatındakı böhran siyasi həyata da təsir etdi. İqtisadi böhran siyasi böhranla çulğalaşdı. Paris sülh konfransında İtaliyanın istəklərinin tam yerinə yetirilməməsi ölkə daxilində bütün təbəqələr arasında narazılıq və gərgin sosial-siyasi şərait yaratdı. 1919-cu ilin əvvəllərindən tətil hərəkatı artdı. Milan, Genuya, Turin və b. şəhərlər tətil hərəkatının mərkəzlərinə çevrildi. İcarə haqqının azaldılmasını və daha yüksək əmək haqqı verilməsini tələb edən kəndlilərin də narazılığı artdı. Ancaq İtaliya fəhlə sinfinin siyasi rəhbərliyi zəif idi. Sosialist Partiyasının daxilində müxtəlif cərəyanlar var idi. Onun tərkibindəki "Oridne Nuovo" adlandırılan marksist-leninçi qrupa Antonio Qramşi və Palmiro Tolyatti başçılıq edirdi. Bu qrup sinfi mübarizə təbliğ etdiyindən geniş xalq kütlələri onun arxasınca getmirdi. Bütövlükdə, 1919-cu ildə təxminən 1,7 mln. fəhlə tətil etdi. Buna görə də 1919-1920-ci illər İtaliya tarixinə "qırmızı iki il" kimi daxil oldu.

Müharibədən sonra İtaliyanın siyasi həyatında köhnə partiyalar öz nüfuzlarını itirdi və liberallar, respublikaçılar, radikallar, demokratlar mühüm rol oynamağa başladılar. 1919-cu ilin əvvəllərində ölkədə Katolik Xalq Partiyası (popolyari.İtalyanca "popola" xalq deməkdir) yaradıldı. Partiyanın yaradıcısı və rəhbəri Siciliyadan olan din xadimi Don Sturso idi. Partiya kəndlilərə torpaq verilməsi və s. radikal tələblər irəli surdu. Dindarların fəaliyyəti sayəsində partiya xeyli gücləndi.

Ölkədə yaranmış gərgin şəraitdə və kommunist meyllərinin artdığı bir vaxtda faşizm gücləndi. 1919-cu ilin martında Milanda "Faşi Di Kombattimento" (faşi - dəstə, qrup, - birləşmə deməkdir) və ya Mübarizə ittifaqı yaradıldı. Faşizmin rəhbərləri De-Annun-Çino və məharətli natiq, yorulmaz təşkilatçı, geniş praktik fəaliyyəti olan Benito Mussolini (1883-1945) oldu. Onlara iri inhisarlar maliyyə yardımı göstərdi. Mussolini dəmirçi ailəsində

anadan olmuşdu. Atası sosialist hərəkatında iştirak etmişdi. Yaxşı oxumasına baxmayaraq davakar olduğu üçün məktəbdən qovulan Mussolini attestatı ekstern yolu ilə aldı. O, bir müddət İsveçrədə mühacirətdə yaşadı. Sosialist Partiyasına daxil oldu. İtaliyaya döndükdən sonra "Sinfi mübarizə" qəzetini buraxdı. "Avanti" qəzetinin baş redaktoru oldu. Birinci dünya müharibəsi başladıqda isə o, Sosialist Partiyasından çıxdı. Mussolini xarici dilləri bilirdi.

Ölkədə yaranmış gərgin vəziyyətdə sol qəzetlərin redaksiyalarını darmadağın edən faşistlər istehsal üzərində fəhlə nəzarətinin qurulması, "əkib-becərənə torpaq verilməsi", monarxiyanın, yüksək titulların, məcburi hərbi mükəlləfiyyətin ləğv edilməsi, iri kapital üzərində vergi qoyulması və s. şüarları irəli sürdülər. Faşistlər hərbi forma olan qara köynək geyinməyə və xüsusi təşkilatı quruluş olan legionlar yaratmağa başladılar. Onlara "qara köynəklilər"də deyirdilər.

İtalyan faşistləri "günəş altında yer qazanmaq" məqsədilə millətçi hissləri qızışdırmağa, fəhlə hərəkatına və onun partiyalarına mane olmağa, inhisarçı və hakimiyyətin yuxarı dairələrində özlərinə arxa tapmağa yönəldilən fəaliyyətlərini gücləndirdilər. Ancaq ilk vaxtlar faşistlərin mövqeyi xeyli zəif idi.

1919-cu ildə faşist partiyasının proqramı qəbul edildi. Proqramda daxili və xarici siyasətlə bağlı partiyanın vəzifələri geniş əks olundu. Daxili siyasət sahəsində partiyanın vəzifələri əsasən aşağıdakı kimi müəyyənləşdirildi: Müəssislər Məclisinin çağırılması; monarxiyanın devrilməsi; respublikanın qurulması; kəndlilərə torpaq verilməsi; fəhlələrin əmək haqqının artırılması; demokratik azadlıqlar; səkkiz saatlıq iş günü; iri kapitala vergi qoyulması və s. Əhali tərəfindən rəğbətlə qarşılanan bu tələblər faşistlər üçün möhkəm sosial baza yaratdı. Geniş xalq kütlələri faşist partiyasını müdafiə etdi.

Proqramda xarici siyasət sahəsində aşağıdakı vəzifələrin həyata keçirilməsi irəli sürüldü: Albaniyanın tutulması, "Böyük İtaliya"nın yaradılması, Böyük Roma imperiyasının bərpa edilməsi,

günəş altında yerin qazanılmısı və s.

Məlum olduğu kimi, müharibədə qalib gəlmələrinə baxmayaraq, italyanlar Paris sülh konfransının nəticələrindən narazı idi. Sülh konfransının qərarlarına əsasən İtaliya Triestlə birgə İstriyanın qərb hissəsini, Polunu, Qoritsiyanı və Avstriya ilə həmsərhəd ərazini aldı. Ancaq İtaliya Aralıq dənizindəki Yuqoslaviyaya məxsus Fium limanına və Dalmasiyaya iddia etsə də, istəyinə yetmədi. Kiçik Asiyadakı türk torpaqlarından da İtaliyaya pay çatmadı. Belə olduqda italyan ordu hissələri 1919-cu il sentyabrın 12-də Fium limanını tutdu. Bu addım Avropa ölkələri tərəfindən kəskin etirazla qarşılandı. 15 ay Fiumda qalan italyan ordu hissələri İngiltərə və Fransanın tələbi ilə oradan çıxmağa məcbur oldu.

Versal sülh müqaviləsinin qərarlarına əsasən İtaliyaya Azərbaycan üzərində mandat verilsə də hökumət dəyişkənliyi baş verdiyindən, italyanların maddi-texniki və maliyyə imkanları olmadığından bu mandatı gerçəkləşdirmək mümkün olmadı. Bakıda fəaliyyət göstərən italyan missiyası 1920-ci ilin aprel işğalından sonra Azərbaycandan çıxarıldı.

1919-cu ilin iyununda Orlando hökuməti istefaya getdi. Bundan sonra 1920-ci il iyunun 6-dək baş nazir liberalların nümayəndəsi Françesko Nitti oldu. Nitti hökuməti siyasi amnistiya verdi, səkkiz saatlıq iş günü tətbiq etdi və 1918-19-cu illərdə kəndlilərin özbaşına tutduğu torpaqları onlarda saxladı.

1919-cu ilin noyabrında keçirilən parlament seçkilərində birinci yeri 1,8 mln. səs alaraq 156 deputat yeri qazanan Sosialist Partiyası, ikinci yeri 1,2 mln. səs alaraq 100 deputat yeri qazanan Katolik Xalq Partiyası (popolyari) tutdu. Seçkilərdə iştirak edən faşistlər lazımi səs qazana bilmədi.

1920-ci ildə ölkədə tətil hərəkatı artdı. Tətilçilərin ümumi sayı 2,3 mln. nəfərə çatdı. Turin, Milan və Şimali İtaliyanın başqa şəhərlərində fabrik və zavodları zorla ələ keçirən tətilçilər fabrik-zavod şuraları yaratdılar. Bu şuralara əsasən sol sosialistlər başçılıq edirdi. Müəssisələrin tutulması əhali arasında narazılıq yaratdı.

Əhalinin böyük əksəriyyəti bu özbaşınalığa son qoymağı tələb etdi. 1920-ci ilin sentyabrında həmkarlar ittifaqlarının Milanda keçirilən konfransında fabrik və zavodların sahiblərinə qaytarılması barədə qərar qəbul edildi.

1920-ci ilin iyununda Nitti hökuməti istefaya çıxdı. Ümumiyyətlə, 1918-1920-ci illərdə İtaliyada beş hökumət dəyişdi.

1920-22-ci illərdə ölkənin baş naziri bacarıqlı, yorulmaq bilməyən və dəqiqliyi sevən C.Ciolitti oldu. Ancaq bu zaman İtaliyada daxili vəziyyət xeyli gərgin idi. Ölkəni inqilabi, yoxsa islahatçılıq yolu ilə inkişaf etdirməyin tərəfdarları arasında mübarizə gedirdi. 1920-ci il noyabrın 21-də Boloniyada faşistlər bələdiyyələri və şəhər hakimiyyətini qovdular. Öz fəaliyyətlərində sinfi mübarizəyə əsaslanan sosialistlər Rusiya nümunəsindən istifadə etməyə, sağ partiyalar isə islahatçılıq yoluna üstünlük verirdilər. Sosialist Partiyası və Ümumi Əmək Federasiyası inqilabi yoldan imtina etdikdən sonra fəhlə hərəkatı tamamilə zəiflədi. Ölkədə inqilabi hərəkat demək olar ki, yox oldu. Belə şəraitdə 1920-ci ilin noyabrında İmola şəhərində sol sosialistlərin konfransında İtaliya Sosialist Partiyasının kommunist fraksiyasının əsası qoyuldu. 1921-ci il yanvarın 21-də Livorno şəhərində Sosialist Partiyasının qurultayında kommunistlər zalı tərk edərək İtaliya Kommunist Partiyasını yaratdılar. Lakin xalq sinfi mübarizəni təbliğ edən kommunistlərin arxasınca getmədiyindən partiyanın fəaliyyəti xeyli zəif idi. Bununla belə, ölkədə sol qüvvələrin iddialarının artması faşist hərəkatının güclənməsinə təsir edən amillərdən biri oldu. 1921-ci ilin mayında keçirilən seçkilərdə faşistlər yalnız 35 mandat aldı. Sosialist Partiyası 123 mandatla birinci yeri, Katolik Xalq Partiyası isə 108 mandatla ikinci yeri tutdu. Kommunistlər isə 15 mandat qazandı. Bu, faşistlərin sosial bazalarının getdikcə gücləndiyini sübut edirdi. Noyabr ayında faşist təşkilatları Romada keçirilən qurultayda birləşərək Milli Faşist Partiyası yaratdılar. Bundan sonra faşist partiyasının hökumətə etdiyi təzyiqlər daha da artdı. Ciolitti istefaya çıxdı. Onun yerinə baş nazir İvanos Bakomi gəldi. Lakin

onun hökuməti də vəziyyəti düzəldə bilməyərək istefaya getdi. Hakimiyyətə Luici Fakta gəldi. Bu hökumət də faşizmin güclənməsinin qarşısını ala bilmədi. 1920-ci ildə ölkədə 200 faşist təşkilatı var idisə, artıq 1921-ci ildə onların sayı 2 minə çatdı. Faşizmə qarşı 1922-ci ilin fevralında Sosialist Partiyası, ÜƏF və digər təşkilatların yaratdıqları Əmək ittifaqı ciddi bir iş görmədən dağıldı. Sosialistlər faşistlərlə barışığa gedərək saziş imzaladı. Tərəflər siyasi mübarizədə zorakılıqdan istifadə etməmək barədə öhdəlik götürdülər. 1922-ci il oktyabrın 28-də faşistlərin Romaya yürüşü oldu. 25 min qaraköynəkli oktyabrın 30-da müqavimətə rast gəlmədən şəhərə daxil oldu. Ölkədə qansız inqilab baş verdi.

Kral Viktor Emmanuil faşistlərin lideri Benito Mussolinini baş nazir vəzifəsinə təyin etdi. 1922-ci il oktyabrın 31-də Mussolini koalisiyalı hökumət təşkil etdi. Hökumətin tərkibinə faşist, katolik, monarxist və liberalların nümayəndələri daxil edildi. 1922-ci ilin dekabrında faşist partiyasının ali orqanı olan Böyük Faşist Şurası yaradıldı. Kommunistlərdən başqa heç bir partiya bu hökumətə qarşı çıxmadı.

Beləliklə, İtaliyada faşizm dövrü başlandı. İtaliya Avropada faşizmin hakimiyyətə gəldiyi ilk ölkə oldu. 1923-cü ildən başlayaraq faşist rejimi möhkəmləndirildi. Həmin ildə 8 saatlıq iş günü ləğv edildi. 1926-cı ildə faşistlər qanunverici və icraedici hakimiyyəti öz əllərinə aldılar. Onlar 1943-cü ilədək ölkədə hakimiyyət başında oldular. Faşistlərin hakimiyyət illəri ölkədə totalitarizm, avtoriatizm və terrorun tüğyan etməsi, ciddi qayda-qanun yaradılması ilə səciyyələnirdi.

İtaliyada faşizmin hakimiyyətə gəlməsinə bir sıra daxili və beynəlxalq amillər təsir etdi. Müharibədən sonra ölkənin düşmüş olduğu ağır-sosial iqtisadi vəziyyət, italyan xalqının ümidlərinin doğrulmaması solçu inqilabi meyllərin artmasına alternativ olaraq faşizmi yaratdı, gücləndirdi və hakimiyyətə gətirdi. İtalyan xalqının böyük əksəriyyəti faşistləri müdafiə etdi. Bu zaman italyan cəmiyyətində artıq özünü gözdən salmış sosialistlərə deyil, faşizmə

sosial tələbat var idi.

Müharibədən qalib çıxmasına baxmayaraq xarici siyasət sahəsində qarşıya qoyulan strateji məqsədlərin yerinə yetirilməsinə böyük dövlətlərin mane olması və İtaliyaya edilən təzyiqlər ölkədə güclü siyasi qüvvənin hakimiyyətinin yaradılmasını zəruri edirdi. 20-ci illərdə belə qüvvə məhz faşizm oldu. Hakimiyyətə gələn faşistlər ölkədə ciddi qayda-qanun yaratmağa başladılar. Onlar koalisiyalı hökuməti buraxdılar.

## Aventin bloku

Faşistlərin yeritdikləri siyasətə qarşı 1923-cü ildə katoliklər, liberallar və demokratlar blok yaratdılar. Parlament seçkiləri ərəfəsində qarşıdurma daha da qızışdı. Faşistlər daxili və xarici siyasət sahəsində geniş proqram irəli sürərək əhalinin həyat səviyyəsini yaxşılaşdıracaqlarını, ölkədə sabitlik yaradacaqlarını, vergiləri azaldacaqlarını, İtaliyanı dünyada nüfuzlu dövlətə çevirəcəklərini vəd etdilər. 1924-cü ilin aprelində İtaliyada yeni mojaritar seçki qanunu əsasında parlament seçkiləri keçirildi. Seçkilərdə faşistlər 4,9 , müxalifət partiyaları isə 3 mln. səs aldı. Parlamentin açılış iclasında sosialistlərin lideri Cakomo Matteotti çıxış edərək seçkilərdə faşistlərin qeyri-qanuni hərəkətlərini kəskin şəkildə pislədi. Ölkədə böhran yarandı. Buna italyan tarixində çox vaxt "Matteotti böhranı" da deyilir. 1924-cü il iyunun 10-da Roma küçələrində öldürülən Matteottinin meyidi şəhər kənarına atıldı. Ölkəni nümayişlər bürüdü. Mussolini Matteottini öldürən Duminini həbs etdirdi. O, terrorçu təşkilatın rəhbəri Maripellinin tapşırığı ilə bu qəsdi həyata keçirdiyini bildirdi. Ölkədə yeridilən siyasətdən narazı olan sosialistlər, radikallar, liberallar və kommunistlər 1924-cü ilin iyununda vahid antifaşist blok olan "Müxalifət partiyalarının komitəsi"ni yaratdılar. Partiya nümayəndələrinin əksəriyyəti parlament binasını tərk edərək Aventin təpələrində toplaşdı. Onların yaratdığı blok "Aventin bloku" adlanmağa başladı.

Mussolininin istefasını tələb edən bu blokun səyləri heç bir nəticə vermədi. Kommunistlərin hakimiyyəti zorla ələ keçirmək barədə təklifi blok tərəfindən rədd edildi. Kommunistlər parlamentə qayıtdı. Xalqın əksəriyyəti onu müdafiə etmədi. Blok 1924-cü ilin dekabrında dağıldı. 1925-ci il yanvarın 3-də isə Mussolini aventinçilərə qarşı cəza tədbirlərinə başladı. Müxalifət mətbuatı bağlandı. Aventin blokunun liderləri təqib edildi. Hakimiyyəti mümkün ola biləcək siyasi böhrandan qorumaqdan ötrü qanunlar işlənib hazırlandı. "Matteotti böhranı" İtaliyada liberal dövlətin ləğv edilməsini sürətləndirdi. 1925-ci il dekabrın 25-də parlamentin qəbul etdiyi qanuna əsasən hökumətin başçısı parlament qarşısında deyil, yalnız kral qarşısında məsuliyyət daşıyırdı. 1926-cı ilin aprelində qəbul edilən qanunla faşist olmayan bütün həmkarlar ittifaqları buraxıldı. Mussoliniyə edilən bir neçə uğursuz sui-qəsd cəhdindən sonra 1926-cı ilin noyabrında faşist partiyasından başqa bütün siyasi partiya və həmkarlar ittifaqlarının fəaliyyəti qadağan edildi. Popolari və liberallar özlərini buraxdılar, kommunistlər və sosialistlər isə gizli iş şəraitinə keçdilər. Siyasi partiyaların deputat mandatları ləğv olundu. İki il sonra Antonio Qramşı həbs edildi. 10 il keçdikdən sonra isə o, həbsxanada öldü. Ölkədə qayda-qanun ciddiləşdirildi. Xüsusi tribunal təsis edildi. 5 min nəfər həbsxanaya salındı. Xalq düşmənləri üçün ölüm hökmü bərpa olundu. Ölkədə kütləvi həbslər keçirildi. Faşist diktaturasını möhkəmləndirmək üçün fövqəladə dekretlər verildi. Ölkədə totalitarizm və avtoritarizm qurulmağa başladı. Dövlət aparatının "yad ünsürlər"dən təmizlənməsi üçün qanunlar qəbul edildi. Mussoliniyə geniş səlahiyyətlər verildi. Buna görə hökumət parlamentdən xəbərsiz qanunlar da qəbul edə bilərdi. Gizli polis orqanı olan OVRA yaradıldı.

Ölkədə sosial-sinfi ziddiyyətlərin yumşaldılması üçün tədbirlər həyata keçirildi. 1927-ci ilin aprelində parlament "Əmək xartiyası"nı qəbul etdi. Xartiyada deyilirdi ki, faşist partiyası hər hansı sinfin deyil, bütün xalqın mənafeyini müdafiə edir. Xartiyada korporasiyalar yaratmaq və korparativ dövlət qurmaq başlıca məq-

səd olaraq irəli sürüldü. Tətillər və fəhlə sinfinin mübarizəsinin digər formaları cinayətkarlıq hərəkəti elan edildi. Faşistlər minimum əmək haqqını müəyyənləşdirəcəklərini, sosial sığorta, və səkkiz saatlıq iş günü tətbiq edəcəklərini bildirdilər. Bu vədlər ölkədə hökumət əleyhinə olan hər hansı siyasi meyllərin fəaliyyətinə son qoydu. Faşistlərin sosial dayağı gücləndi. Faşist partiyası rəhbərləri və parlament üzvlərinin daxil olduğu Böyük Faşist Şurası partiya ilə yanaşı dövlətin də ali orqanı elan olundu.

1928-ci ildə ölkədə yeni seçki qanunu qəbul edildi. Bu qanun əsasında keçirilən seçkilərdə faşistlər formal olaraq parlamenti saxlasalar da əslində deputatlar əvvəlcədən hazırlanmış siyahı ilə hakim partiyanın nümayəndələrindən təşkil edildi. Ölkədə faşist parlamenti yaradılmasına başlandı.

## Lateran konkordatı

Lakin ölkədə faşist rejiminin möhkəmləndirilməsi heç də asan getmirdi. Mussolini ilə Roma Papası arasında problemlər mövcud idi. Münasibətlərin soyuq olması dövlətin daxili və xarici siyasətinin həyata keçirilməsinə əngəllər yaradırdı. 1929-cu ilin fevralında Mussolini Roma Papası XI Piy ilə Lateran sazişini imzaladı. Konkordata görə faşist rejimi ilə Vatikan barışdı. Mussolini İtaliya ərazisində Vatikanın suverenliyini tanıdı. Beləliklə, Vatikan dövləti yaradıldı. Mussolini Papaya pul vəsaiti verməyi vəd etdi. Öz növbəsində Roma Papası ailə qanunvericiliyi, məktəb təhsili üzərində təsirini saxladı və Mussolini rejiminin "Allah tərəfindən göndərildiyini" bəyan edərək onun təbliğ olunması barədə öz üzərinə öhdəlik götürdü. Papa Romaya olan iddialarından əl çəkdi. Lateran sazişi İtaliyada faşist rejiminin möhkəmləndirilməsinə kömək etdi. Bununla da Mussolini ilə Roma Papası arasındakı münasibətlərdə mövcud olan soyuqluq aradan qaldırıldı. Artıq ölkədə faşistlərin hakimiyyətinə mane ola biləcək güclü qüvvə mövcud deyildi.

## 20-ci illərdə İtaliyanın xarici siyasəti

1926-cı ildə İtaliyada qeyri-məhdud faşist diktaturasının dördüncü ili tamam oldu. Yaradılmış sabitlik nəticəsində bu dörd ildə ölkə iqtisadiyyatı xeyli inkişaf etdi. Hökumət ABŞ və İngiltərədən istiqrazlar aldı.

Ölkə daxilində xeyli güclənən Mussolini hökuməti fəal xarici siyasət yeritməyə başladı. 20-ci illərdə İtaliyanın xarici siyasətinin başlıca məqsədi Aralıq dənizinə sahib olub onu "italyan gölü"nə çevirmək, "Böyük İtaliya" yaratmaq, Yaxın Şərqdə mülklər əldə etmək və öz nüfuzunu möhkəmləndirmək idi. Ancaq İtaliyanın niyyətləri keçmiş müttəfiqləri tərəfindən narazılıqla qarşılandı. Xarici siyasətdə şovinist və millətçi şüarlar üstünlük təşkil etdi. İtaliya hökuməti Aralıq dənizində və Yaxın Şərqdə çoxlu iddialar irəli sürdü. 1923-cü ildə İtaliya yunan adası olan Korfunu tutmaq istəsə də İngiltərə buna imkan vermədi. İtaliya hələ 1919-cu ildə ordu yeridərək tutmaq istədiyi Fium limanını 1924-cü ildə Yuqoslaviyadan aldı. Albaniya İtaliyanın protektoratlığı altına düşdü. Bundan sonra italyan şirkətləri alban iqtisadiyyatında əhəmiyyətli rol oynamağa başladı.

Mussolini hökuməti SSRİ ilə də münasibətlərini yaxşılaşdırmaq üçün addımlar atdı. 1924-cü ildə iki ölkə arasında diplomatik münasibətlər yaradıldı.

İtaliyanın xarici siyasətinin qarşısında duran ən mühüm məsələlərdən biri Həbəşistandakı Eritreya və Somali müstəmləkələri arasında dəmiryolu çəkmək üçün konsessiyalar almaq və onun qərb hissəsində iqtisadi nüfuz qazanmaq idi. 1925-ci ilin dekabrın əvvəllərində İngiltərənin xarici işlər naziri O.Çemberlenlə B.Mussolini arasında Rapalloda keçirilən görüşdən sonra bu problem prinsipcə həll edildi. Mussolini və Romadakı ingilis səfiri Qrehem notalar mübadiləsi edərək problemi yoluna qoydular. Qrehem 1925-ci il dekabrın 14-də Mussolininin adına nota göndərərək iki ölkə arasında qarşılıqlı inam və mehriban əməkdaşlığın

qurulmasının vacibliyini əsas götürərək İtaliyanın istəklərinin yerinə yetirilməsinə İngiltərənin razı olduğunu bildirdi. İngiltərənin köməyinə cavab olaraq İtaliya Tana gölündə bəndin tikintisinə, Sudan sərhədindən bu bəndə qədər avtomobil yolunun çəkilişi və istismarına yardım etməli idi. Mussolini 1925-ci il 20 dekabr tarixli cavab notası ilə ingilis şərtlərinə razı olduğunu bəyan etdi. Bu istəklərin həyata keçirilməsi Həbəşistanın faktiki olaraq bölüşdürülməsi demək olduğundan Millətlər Cəmiyyətində kəskin etiraza səbəb oldu. Buna cavab olaraq 1926-cı ilin avqust ayında İngiltərə və İtaliya Həbəşistanda üçüncü dövlətin maraqlarını əlaqələndirmək niyyətində olmadıqlarını bildirərək bu dövlət ilə ikitərəfli danışıqlara başladılar. İtaliya ilə Həbəşistan arasında aparılan danışıqlar 1928-ci ildə müvafiq müqavilənin imzalanması ilə başa çatdı. Həbəşistanda italyan istəkləri yerinə yetirildi.

## Dünya iqtisadi böhranının İtaliyaya təsiri

1929-cu ildə başlanan dünya iqtisadi böhranı İtaliyaya ağır zərbə vurdu. 1929-cu ildən 1932-ci ilədək əmtəə ixracı 14 mlrd. lirədən 6 mlrd. lirəyə, idxal isə 21 mlrd. lirədən 8 mlrd. lirəyə düşdü. Xarici ticarət dövriyyəsinin aşağı düşməsindən ən çox ziyan toxuculuq və metallurgiya sənayesinə dəydi. İtaliyada böhranın əsas cəhətləri müflisləşmə, işsizlərin sayının artması və dövlət gəlirlərinin ixtisar edilməsi oldu. 1931-ci ildə böhran ölkənin maliyyə sisteminə dağıdıcı zərbə vurdu. Bir sıra iri banklar iflas olmaq həddinə gəlib çatdı. İqtisadi böhran illərində ölkədə 41 mln. əhali yaşayırdı. Rəsmi məlumata görə işsizlərin sayı 1929-cu illə müqayisədə 1933-cü ildə 3 dəfə artaraq 1 mln. nəfəri ötüb keçdi. Əməkhaqqı 12-16% aşağı düşdü.

Hökumət maliyyə böhranının qarşısını almaqdan ötrü Əmlak İnstitutu yaratdı. Bu institut uzunmüddətli sənaye kreditləri verməyi öz üzərinə götürdü. Xüsusi maliyyə birlikləri kredit verməkdən uzaqlaşdırıldı. Ölkənin təsərrüfat həyatına dövlətin müdaxiləsini

genişləndirmək məqsədilə 1933-cü ilin əvvəllərində geniş səlahiyyətləri olan Sənayenin yenidənqurulması idarəsi yaradıldı. Yeni institut iri sənaye komplekslərinə yardım üçün kredit verdi və iflasa uğrayan bankların ləğvi əməliyyatlarını öz üzərinə götürdü. Az sonra bütün italyan banklarının səhmləri bu instituta verildi. Həyata keçirilən tədbirlər italyan iqtisadiyyatının böhrandan çıxmasında mühüm rol oynadı. Bank sisteminin sağlamlaşdırılması İtaliyanın sənaye və iqtisadi inkişaf tarixində böyük əhəmiyyətə malik oldu. İqtisadi böhran italyan maliyyə və sənaye kapitalının təmərküzləşməsi prosesini sürətləndirdi. Hökumətin müdaxiləsi nəticəsində ölkədə iri inhisar birlikləri yaradıldı. Onların çoxu əvvəllər fəaliyyət göstərən kompaniyaların bazasında quruldu.

İqtisadi böhran illərində hökumət "çörək uğrunda mübarizə" şüarını elan etdi. 1928 və 1933-cü illərdə kənd təsərrüfatında əkin sahələrini genişləndirmək və suvarma qurğularını tikməyə dair iki qanun verildi. Bu qanunlar ölkənin aqrar bölməsinin böhrandan çıxmasına kömək etdi. Nəticədə ölkədə taxıl istehsalı 1933-cü ildə artaraq 82 mln. tona çatdı. İtaliya xaricdən taxıl almağı azaltdı.

Beləliklə, 1933-cü ilin sonu - 1934-cü ilin əvvəllərində İtaliya iqtisadi böhrandan çıxdı.

## Korporativ dövlətin təşkili

Mussolini hökuməti hələ 1927-ci ildə irəli sürdüyü korporativ dövlət yaratmaq ideyasını həyata keçirməyə başladı. Ölkədə korporativ sistem tətbiq edildi. Hüquqi cəhətdən bu sistem əmək münasibətlərini dövlət tənzimləməsinin özünəməxsus forması oldu. Qısa müddət ərzində əmək və kapital arasında münasibətlər tənzimləndi. 8 saatlıq iş günü tətbiq edildi. Hökumətin iqtisadi siyasəti "güclü dövlət-güclü rəhbər" prinsipinə əsaslanırdı. Mussolininin sədrliyi ilə Milli Müdafiə Şurası yaradıldı. Mussolini həmçinin müdafiə, hərbi-dəniz və hərbi-hava qüvvələri naziri oldu. 1931-ci ildə ölkədə yeni seçki sistemi tətbiq edildi. Bundan son-

ra dövlət aparatı daha da mərkəzləşdirildi.

1933-cü ilin martında hökumət dekreti ilə Korporasiyaların Milli Şurası yenidən quruldu. Çünki korporasiyaların əvvəlki şuraları və nazirliklər faktiki olaraq fəaliyyət göstərmirdilər. Bu qanunla korporasiyalar şurası dövlətin mühüm orqanlarından birinə çevrildi. İqtisadiyyat Nazirliyinin funksiyaları ona verildi. Yeni şura müxtəlif istehsal sahələri arasında iqtisadi münasibətləri əlaqələndirməli idi. Bu məqsədlə bir sıra qanunlar verildi.

1934-cü ildə "ədalətə əsaslanan və siniflərin dövründə duran" korporativ hökumətin yaradılmasına başlandı. Korporativ hökumətdə iki təşkilat - faşist sindikalist təşkilatları və korporasiyalar iştirak etdi. Onlar konfederasiyada birləşdilər. 1934-cü il avqustun 16-da verilən qanuna görə sahibkarlar dörd konfederasiya yaratdılar: sənayeçilər; tacirlər; kənd təsərrüfatı sahibkarları; kredit və sığorta müəssisələri. Muzdlu əməklə məşğul olan şəxslər də dörd konfederasiya yaratdılar: sənaye; kənd təsərrüfatı; ticarət; maliyyə və sığorta müəssisələrinin fəhlələri. Azad peşə sahibləri, o cümlədən artistlər bir konfederasiya yaratdılar.

30-cu illərin ortalarından İtaliyanın bütün əhalisi korporativ sistemə qoşuldu. Sosial sahədə geniş proqramlar həyata keçirildi. Qısa müddət ərzində xalqın vəziyyəti xeyli yaxşılaşdı. Hökumətin tədbirləri "sosial inqilab" adlandırıldı. Xalq hakimiyyəti müdafiə etdi. Həyata keçirilən tədbirlər nəticəsində ölkə həyatı başdan-başa faşistləşdirildi. Faşizmin sosial bazasının yaradılmasına xüsusi diqqət yetirildi. Nəinki dövlət qulluqçuları, hətta evdar qadınlar da faşist təşkilatlarına və korporasiyalara cəlb edildi.

Ölkəni strateji xammalla təmin etmək vəzifəsi qarşıya qoyuldu. İqtisadiyyatın hərbiləşdirilməsini nəzərdə tutan avtarkiya siyasəti həyata keçirildi. Bu siyasətin başlıca məqsədi İtaliyanın iqtisadi cəhətdən özünü təmin etməsi və müstəqilliyinin gücləndirilməsi idi. Bundan ötrü iqtisadiyyatın sahə və texniki cəhətdən yenidən qurulması başa çatdırıldı. İstehsal və maliyyə üzərinə nəzarət qoyuldu. İstehlak tənzimləndi. Ölkə iqtisadiyyatı

üzərində ciddi nəzarət sistemi yaradıldı.

Hərbiləşdirilmə gücləndirildi. 1934-cü ildə "İtalyan millətinin hərbiləşdirilməsi haqqında qanun" qəbul edildi. Qanuna görə 18 yaşından 55 yaşadək vətəndaşlar həqiqi hərbi xidmətə çağırışa qədər hazırlıq keçməli idi. İtaliyanın hərbi qüvvələri artırıldı.

1934-cü ildə faşist parlamentinin birinci çağırışının 5 illik müddəti başa çatdı. Yeni parlamentə partiya və həmkarlar orqanları tərəfindən irəli sürülən namizədlər Böyük Faşist Şurası tərəfindən təsdiq edildi. Deputatlar palatasının yeni sədri Kostanso Çiano seçildi.

Heç şübhəsiz, faşist diktaturasının qurulması asan getmirdi. Ona müqavimət də göstərilirdi. 30-cu illərdə ölkədə faşizmə qarşı mübarizə də aparıldı. Ancaq antifaşist mübarizə güclü deyildi. Müxalifət təşkilatları əsasən 1929-cu ildə mühacirətdə yaradılmış "Ədalət və azadlıq" qrupunda birləşərək Parisdə fəaliyyət göstərirdi. Bu hərəkatın görkəmli nümayəndələri K.Rosseli, E.Lussu və başqaları idi. Hərəkat İtaliyada respublika quruluşunun yaradılmasına çalışırdı. Ona bəzən "Aventin-2"də deyilirdi. Lakin fəaliyyəti xeyli zəif olan bu qrup məqsədlərinə çata bilməyərək 1934-cü ildə dağıldı.

30-cu illərdə ölkədə "Qurd balaları", "Balilla", "Avanqardçılar" və "Gənc faşistlər" təşkilatları fəallıqlarını artırdı. 1937-ci ildə onların hamısı vahid "İtalyan liktor gəncləri" (CİL) təşkilatında birləşdi.

1938-ci ildə Mussolini irqi qanunlar verdi. "Xalq", "millət", "ümumi düşmən" və s. ifadələr geniş işlənməyə başladı. "Təmiz italyan milləti" yaratmaq niyyəti elan edildi.

1939-cu il yanvarın 19-da parlament ləğv edildi və onun əvəzində korporativ parlament yaradıldı. Yuxarıdan təyin edilən bu parlamentə 22 sahə korporasiyası və Böyük Faşist Şurasından 700 nümayəndə daxil oldu. Onlar Mussolininin razılığı ilə təyin edildilər.

İtaliya faşizmi spesifik totalitar diktatura kimi özündə avtorita-

rizm və totalitarizmi təcəssüm etdirirdi. Onun ideoloji sistemi millətçiliyə əsaslanırdı. İtalyan faşizmində əlavə olaraq katolizm, tradisionalizm və sosializm ideyaları da var idi. İtaliya faşizminin başlıca ideoloji prinsipləri - "millətin böyüklüyü", itirilmiş "Müqəddəs Roma imperatorluğu"nu bərpa etmək, Afrikada sivilizasiyanı yaymaq, xəstə Avropanı sağaltmaq, onu demokratiya və Asiya bolşevizmindən xilas etmək idi. Hərbi rəhbər - duçe ideyası millətin yenilməz və mötəbər rəhbəri kimi geniş təbliğ olunmağa başladı. Rəhbərin fövqəlrolu ön plana çəkildi.

İtaliyada faşist rejiminin siyasi təşkili totalitar dövlətə əsaslanırdı. "Dövlət xalqın bütün enerjisi, maraqları və ümidlərini ifadə edir" prinsipi əsasında dövlət nəzarəti cəmiyyətin bütün sahələrində həyata keçirilməyə başlandı. İdarəçilikdə bürokratiya, ordu, kilsə və faşist partiyası arasında nisbətin gözlənilməsi mövcud rejimi daha da möhkəmləndirdi.

## 30-cu illərdə İtaliyanın xarici siyasəti

Ölkə daxilində faşist rejimini gücləndirən və yüksək iqtisadi inkişafa nail olan Mussolini hökuməti 20-ci illərdən fərqli olaraq yeni onillikdə təcavüzkar xarici siyasət yeritməyə başladı. İtaliya 1934-cü ildə silahlanma dövrünün başlandığını elan etdi. Hərbi təyyarə və hərbi-dəniz donanması quruculuğuna xüsusi diqqət yetirildi. İtaliya Aralıq dənizini "italyan gölü"nə çevirmək məqsədi ilə fəal xarici siyasət yeritməyə başladı. Avropanın mərkəzində nüfuz qazanmağa çalışan Mussolini hökuməti 1934-cü ildə Avstriya və Macarıstanla Roma protokollarını imzaladı. Bu protokollara görə Avstriyanın suverenliyinə təminat verməsi müqabilində İtaliya Avstriya və Macarıstanda iqtisadi üstünlüklər əldə etdi. Yenə həmin ildə İtaliya və Fransa Avstriyanın müstəqilliyinə hörmət etmək barədə qarşılıqlı razılığa gəldilər.

İtaliyanın xarici siyasətində Həbəşistanla münasibətlər xüsusi

yer tutdu. 30-cu illərin ortalarında İtaliya Fransa ilə xeyli yaxınlaşdı. 1935-ci ilin yanvarında keçirilən fransız-italyan danışıqları Laval və Mussolininin müvafiq saziş imzalaması ilə başa çatdı. Bu sazişə əsasən Fransanın razılığını alan İtaliya oktyabrın 3-də 600 minlik ordu ilə Həbəşistana hücum edərək onu tutdu. Həbəşistanın işğalı Avropa dövlətləri tərəfindən sakit qarşılandı.

30-cu illərin ikinci yarısından etibarən Almaniya ilə İtaliya arasında da yaxınlaşma baş verdi. 1936-cı ilin oktyabrında iki ölkə arasında siyasi əməkdaşlığa dair saziş imzalandı. Mussolini bu sazişi "Berlin-Roma oxu" adlandırdı. Sazişə görə Almaniya İtaliya tərəfindən Həbəşistanın işğal edilməsini tanıdı. İki ölkə beynəlxalq məsələlərdə birgə fəaliyyət göstərmək, hərbi aviasiya sahəsində əlaqəli siyasət həyata keçirmək, Balkanlar və Dunayda nüfuz dairələri barədə razılığa gəldi. Beləliklə, Balkanlar və Avropanın digər əraziləri faktiki olaraq iki dövlət arasında nüfuz dairəsinə bölündü. 1937-ci ilin noyabrında Yaponiya da bu sazişə qoşuldu. Saziş "Antikomintern paktı" adını aldı. Bundan sonra İtaliyanın xarici siyasəti daha da fəallaşdı. 1937-ci ilin dekabrında ölkə Millətlər Cəmiyyətindən çıxdı. 1937-ci ildə İtaliya ilə İngiltərə arasında imzalanan "centlmen sazişləri"nə görə dövlətlər Aralıq dənizində bir-birlərinin mənafelərinə hörmət etməli idilər. 1938-ci ildə imzalanmış İtaliya-İngiltərə sazişinə görə İngiltərə Aralıq dənizi rayonunda İtaliyaya müəyyən güzəştlərə getdi.

İtaliyanın İngiltərə və Almaniya ilə yaxınlaşması Avropanın mərkəzində alman iddialarını daha da şirnikləşdirdi. 1938-ci il sentyabrın 29-30-da Mussolini Çemberlen, Daladiye və Hitlerlə birlikdə Münhen sövdələşməsində iştirak etdi. İtaliya Almaniyanın Çexoslovakiyanın almanlar yaşayan Sudet vilayətini tutmasına razılıq verdi. Bundan sonra qitədə müharibə təhlükəsi daha da artdı.

30-cu illərin sonlarında Avropada mürəkkəb vəziyyət yarandıqda Mussolini 1939-cu il fevralın 4-də İtaliyanın xarici siyasət məqsədlərini elan etdi. Buna görə İtaliya Avropada Albaniyanı çıx-

maq şərtilə heç bir ərazi iddiasına düşməyəcəyini bildirdi. Ölkə ya Sudan və Livandan, ya da Şimali Afrikadan keçərək italyanların "Ümid okeanı" adlandırdıqları Atlantik okeana çıxıb ona sahib olmalı idi. 1939-cu il mayın 22-də Almaniya ilə İtaliya arasında "Polad paktı" imzalandıqdan sonra İtaliya hərbi sahədə fəaliyyətini daha da genişləndirdi. Müharibəyə hazırlıq Baş qərargah rəisi P.Badalyonun rəhbərliyi altında aparılırdı.

## İtaliya ikinci dünya müharibəsi illərində

1939-cu ilin avqustunda İtaliya hökuməti Almaniya ilə birlikdə hərəkət etmək fikrinə düşsə də sentyabrın 1-də ikinci dünya müharibəsi başladıqda Nazirlər Şurası adından İtaliyanın bitərəfliyi haqqında rəsmi bəyanat verildi. Bununla belə, Mussolini müharibədə Hitlerin qalib gələcəyinə inanırdı. 1940-cı il martın 18-də Mussolini Brennerdə Hitlerlə görüşdü. Görüşdə Mussolini "paralel müharibə" aparmaq planını irəli sürdü. Bu plan Fransa sərhədlərində müdafiə mövqeyi seçməyi, Yuqoslaviyaya qarşı qüvvə toplamağı, Egey dənizi rayonu və Liviyada hərbi əməliyyatlar aparmağı nəzərdə tuturdu. İyunun 10-da Almaniya orduları Parisə yaxınlaşdıqda Mussolini İtaliyanın hərbi əməliyyatlara girdiyini bildirdi. İyunun 18-də Hitlerlə Mussolini Münhendə görüşərək Fransa ilə barışıq şərtlərini müzakirə etdilər. O, Hitlerə bütün Fransanın işğal edilməsi və fransız donanmasının bölüşdürülməsi təklifini etdi. İyunun 20-də italyan orduları Fransa ərazisinin içərilərinə girdi. Hitler İtaliyanın Fransa ilə müstəqil danışıqlara girməsini tövsiyə etdi. İyunun 24-də Romada Fransa ilə İtaliya arasında saziş imzalandı. Sentyabr ayında italyan orduları Afrikanın şərqində ingilislərə qarşı hərbi əməliyyatlara başlasa da müdafiə mövqeyini keçməyə məcbur oldu. İtalyan Somalisindən ingilis Somalisinə, Keniya və Sudana, Liviyadan Misirə hücum etmək cəhdləri uğursuz nəticələndi.

1940-cı il sentyabrın 27-də Almaniyanın xarici işlər naziri Ribbentrop, İtaliyanın xarici işlər naziri Çiano və Yaponiya səfirinin üçtərəfli saziş imzalaması ilə "Berlin-Roma-Tokio üçbucağı" formalaşdı.

Həmin ilin oktyabrında İtaliyanın Yunanıstana hücumu uğursuz oldu.

1940-cı ilin sonunda Afrikadakı italyan orduları məğlubiyyətə uğradı. İtaliya hərbi hissələri Misirdən çıxarıldı. Bundan sonra ölkədə antifaşist əhval-ruhiyyə daha da gücləndi. İtaliyanın "paralel müharibə" aparmaq planlarından olan narazılıq artdı. 1941-ci ilin yazında Şərqi Afrika italyanlardan azad edildi. Buna baxmayaraq, İtaliya ordusunun bəzi hissələri hələ də Afrikanın şimalında hərbi əməliyyatları davam etdirirdi. 1942-ci il noyabrın 8-də ingilis-amerikan hərbi hissələri Əlcəzairə və Mərakeşə çıxarıldıqdan sonra italyan-alman orduları çətin vəziyyətə düşərək 1943-cü ilin mayında təslim oldular. Bu vəziyyət Mussolini rejiminin böhranına səbəb oldu. Hərbi əməliyyatlar aparmaq üçün neft, silah, sursat, ərzaq və digər kənd təsərrüfatı məhsulları çatışmırdı. Ölkədə ağır iqtisadi vəziyyət yarandı. Mussolininin hakimiyyətdən uzaqlaşdırılması aktuallaşdı. 1943-cü il iyulun 25-də kral Viktor Emmanuil Mussolinini hakimiyyətdən uzaqlaşdıraraq marşal Badalyonu hökumətin yeni başçısı təyin etdi. Bundan sonra kral silahlı qüvvələrin ali baş komandanlığını öz əlinə aldı. Belə ağır vəziyyətdə İtaliya hələ də müharibəni davam etdirirdi. Lakin yeni hökumətin müharibənin davam etdirilməsi barədə bəyanatları ölkədə kəskin narazılığa səbəb oldu. İyulun 27-də keçirilən hökumətin birinci iclasında Böyük Faşist Şurası, xüsusi tribunal və korporasiyalar palatalarının ləğvi haqqında qərar qəbul edildi.

1943-cü il sentyabrın 3-də müttəfiq orduları Cənubi İtaliya ərazilərinə çıxarılan gün Badalyo hökuməti ilə Birləşmiş Millətlər arasında Siciliya adasında qısa barışıq sazişi imzalandı. Sazişə uyğun olaraq İtaliya orduları hərbi əməliyyatları dayandırdı. Almaniya ordu hissələri tərəfindən Roma üçün təhlükə yarandığından Badal-

yo hökuməti və kral ölkənin cənubunda müttəfiq ordularının nəzarətində olan əraziyə köçdü. İki həftə müddətində alman orduları bütün Şimali və Mərkəzi İtaliyanı işğal edərək Romaya daxil oldu. Beləliklə, ölkə ərazisi iki yerə parçalandı. Sentyabrın 23-də Hitlerin iştirakı ilə Mərkəzi və Şimali İtaliyada Mussolini başda olmaqla İtaliya Sosial Respublikasının yaradılması elan edildi. 1943-cü ilin noyabrında Veron şəhərində faşist partiyasının yeni proqramı qəbul edildi. Proqramda Xalq Müəssislər Məclisinin yaradılması, seçki sisteminin demokratikləşdirilməsi və s. vəd edildi. Lakin Veron qurultayı italyan faşistlərinin sonuncu qurultayı olduğundan bu proqram heç vaxt yerinə yetirilmədi.

1943-cü il sentyabrın 9-da Romada Milli-Azadlıq Mərkəzi Komitəsi yaradıldı. Ona bütün antifaşist qüvvələr daxil oldu. Komitə italyan xalqını antifaşist müharibəyə çağırdı. İtaliyada müqavimət hərəkatının fransız müqavimət hərəkatından başlıca fərqi Şimali İtaliya Milli-Azadlıq Komitəsi qərargahının xaricdə deyil, ölkə daxilində - Milanda yerləşməsi idi. 1943-cü ilin payızında Şimali İtaliyada partizan mübarizəsi başlandı. Bütün ölkəni partizan hərəkatı bürüdü. Bu hərəkatda azərbaycanlılar da fəal iştirak etdi. Ölkənin cənubunda ingilis-amerikan komandanlığının yardım göstərdiyi Badalyo hökuməti və kral İtaliyanın son təslimi haqqında aktı sentyabrın 29-da Malta adasında Eyzenhauerlə imzaladı. 1943-cü il oktyabrın 13-də Badalyo hökuməti Almaniyaya müharibə elan etdi. Antihitlerçi koalisiyaya daxil olan ölkələr bundan sonra İtaliyanı faşizmə qarşı döyüşən dövlət kimi tanıdı.

İtaliya məsələsi 1943-cü ilin oktyabrında Moskvada ABŞ, Böyük Britaniya və SSRİ Xarici İşlər nazirlərinin konfransında müzakirə edildi. Konfransda qəbul edilən "İtaliya haqqında bəyannamə"də italyan xalqına demokratik prinsiplər əsasında həyatını qurmaq hüququ verildi. Moskva konfransının qərarlarına əsasən İtaliya məsələsinə dair Məsləhət Şurası yaradıldı. Şuranın tərkibinə SSRİ, Böyük Britaniya, ABŞ, Fransa müqavimət

hərəkatı, Yuqoslaviya və Yunanıstan nümayəndələri daxil oldular. 1943-cü il noyabrın 30-da Məsləhət Şurasının ilk iclasında italyan hökumətinin tərkibini genişləndirmək barədə qərar qəbul edildi. Bütün Cənubi İtaliya ərazisi İtaliya hökumətinin nəzarətinə keçdi.

Bununla belə, Mussolini hələ nəzarətində olan ərazilərdə ona xəyanət etmiş silahdaşlarını həbs etdirdi. 1944-cü il yanvarın 8-də Veronda onların üzərində məhkəmə prosesi quruldu. Keçmiş xarici işlər naziri Çiano, marşal Emilio de Bono, Karlo Pareçi və b. məhkəmənin hökmü ilə güllələndi.

1944-cü il aprelin 21-də Salernoda Badalyonun yeni koalisiyalı hökuməti yaradıldı. Mayın 12-də müttəfiq orduları İtalya cəbhəsində hücuma başladı. İyunun 4-də ingilis-amerikan orduları Romaya daxil oldu. Roma azad edildikdən sonra Mussolininin başçılıq etdiyi Sosial Respublikanın böhranı daha da dərinləşdi. Mussolini paytaxtı İsveçrə ilə sərhəddəki kiçik kurort şəhərciyi olan Saloya keçirdi. Bu respublika şəhərciyin adı ilə "Salo Respublikası" adlandırıldı.

Artıq Salo respublikasını xilas etmək mümkün deyildi. 1944-cü il dekabrın 29-da faşizmin kökünün kəsilməsi və 1945-ci il yanvarın 20-də irqi qanunların ləğv edilməsi haqqında dekretlər verildi. Partizan hərəkatı ilə müttəfiq ordularının hərbi əməliyyatları əlaqələndirildi. 1945-ci il aprelin 25-də ölkəni milli üsyan bürüdü. Alman əsgəri şinelini geymiş Mussolini aprelin 27-də İsveçrə sərhədi yaxınlığında həbs olundu. Onun ələ keçirilməsində azərbaycanlı partizanlar da iştirak etdi. 40 mindən yuxarı əsir alındı. 1945-ci il aprelin 28-də Mussolini və yanındakı 16 nəfər güllələndi. Öldürülənlərin içərisində daxili işlər, ictimai işlər, rabitə nazirləri, Mussolininin katibi və b. şəxslər də var idi. Onların meyidləri Milanda Loreto meydanında başı aşağı asıldı. Bununla da Salo Respublikası iflasa uğradı. İtaliyada antifaşist partizan hərəkatında ölkənin bütün partiyaları mühüm rol oynadılar. 1945-ci il mayın 2-də İtaliyadakı alman orduları təslim oldu. İtaliyanın faşizmdən azad edilməsi ölkənin gələcək siyasi inkişafını

müəyyənləşdirmək zəruriliyini irəli sürdü. 1945-ci il iyunun 15-də yeni hökuməti təşkil etmək şimalın nümayəndəsi, Fəaliyyət Partiyasının tanınmış xadimi Feruçço Parriyə tapşırıldı. İyunun 21-də kabinet yaradıldı. Hökumətin tərkibinə sosialist və kommunistlərin də nümayəndələri daxil edildi. Yeni hökumətin başlıca vəzifəsi müharibədə dağıdılmış İtaliya iqtisadiyyatını bərpa etmək idi. Bu işdə idarə şuraları mühüm rol oynamağa başladı. Hökumət dövlət aparatını faşist ünsürlərindən təmizləmək işinə girişdi. Qanunvericilik işini qaydaya salmaq üçün Müəssislər Məclisi toplanana qədər Məsləhətçi Assambleya çağırıldı. Lakin dövlət aparatını təmizləmək işi ciddi müqavimətə rast gəldi. Feruçço Parri istefaya getdi. Noyabrın 24-də D.Qasperi yeni hökumət yaratdı. 1946-cı il yanvarın 1-dən müttəfiq dövlətlər hakimiyyəti Şimali İtaliyada "Milli hökumət"ə verdilər. Bununla da İtaliya tarixində yeni dövr başlandı.

# VII BÖLÜM

## İSPANİYA

### Birinci dünya müharibəsindən sonrakı ilk illərdə İspaniyanın sosial-iqtisadi vəziyyəti

Birinci dünya müharibəsi illərində bitərəf ölkə kimi hər iki blok dövlətləri ilə ticarət-iqtisadi əlaqələrini genişləndirən İspaniya iqtisadiyyatını xeyli gücləndirdi. Ölkənin qızıl ehtiyatı təxminən 4 dəfə artırıldı. Sənaye inkişaf etdirildi və yüzlərlə yeni müəssisə yaradıldı. Daş kömür, polad və çuqun istehsalı 2 dəfə artdı. Kataloniya və Baskoniya daha sürətlə inkişaf etdi. Sənaye fəhlələrinin sayı artdı. 1919-cu ildə onların sayı 2 mln. nəfərdən çox idi. Bütün bunlara baxmayaraq, İspaniya hələ də aqrar-sənaye ölkəsi olaraq qalırdı. Ölkədə feodal qalıqları olan yardarlıq və icarədarlıq hökm sürürdü. İqtisadi inkişafa baxmayaraq, İspaniya xarici ölkələrdən maliyyə asılılığında idi. Hələ müharibə başlanana qədər İngiltərə, Fransa, Almaniya və Belçika İspaniyaya xeyli borc vermişdilər. İspaniyadakı xarici kapitalın 50%-i İngiltərənin, 34%-i isə Fransanın payına düşürdü.

Müharibənin qurtarması İspaniya iqtisadiyyatına mənfi təsir göstərdi. Əsasən, xarici bazar üçün əmtəə istehsalını nəzərdə tutan fabrik və zavodlar bağlandı. İşsizlik artdı. Əməkhaqqı 20%, qiymətlər isə 2 dəfə yüksəldi. Əhalinin həyat səviyyəsinə görə İspaniya Avropada ən aşağı yerlərdən birini tuturdu. Bütün bunlar İspaniyada sosial ziddiyyətləri xeyli kəskinləşdirdi. Sosial etirazın geniş yayılmış formaları mitinq, nümayiş və küçə yürüşləri idi. Əhalinin etiraz aksiyaları çox vaxt polislə toqquşmalara gətirib çıxarırdı. Ölkədə kəndli hərəkatı da gücləndi. Andalusiya və Estremadurada kəndlilər mülkədar torpaqlarını tutdular. Ölkəni bürüyən sosial etirazlar nəticəsiz qalmadı. Müharibədən sonrakı ilk illərdə 8 saatlıq iş günü tətbiq edildi, uşaq əməyindən istifadə qadağan olundu, qocalığa və əlilliyə görə pensiya verildi.

## İspaniyanın daxili siyasi vəziyyəti

Çoxlu millətlərin yaşaması İspaniyanın daxili siyasi vəziyyətinə təsir göstərirdi. Müharibə dünya xalqlarının, o cümlədən İspaniyada yaşayan ayrı-ayrı etnik qrup və xalqların öz müqəddəratını təyin etməsi uğrunda mübarizəsinə ciddi təkan verdi. Basklar, qalisiyalılar və kataloniyalılar muxtariyyət uğrunda mübarizə aparırdılar. Ölkədə milli-azadlıq hərəkatı getdikcə gücləndi.

İspaniyanın ictimai-siyasi həyatına iki əsas partiya - mühafizəkarlar və liberallar arasında gedən mübarizə də təsir edirdi. Siyasi həyatda kilsə özünəməxsus yer tuturdu.

Ölkədə kral XIII Alfons Burbon başda olmaqla monarxiya rejimi hökm sürürdü. 1918-ci il martın 22-də mühafizəkar A.Maura başda olmaqla yeni kabinet yaradıldı. Maura hökuməti daxili siyasətdə bəzi tədbirlər həyata keçirərək dövlət qulluqçuları və rabitə işçilərinin əmək haqqlarını artırdı. Siyasi amnistiya verildi.

1918-ci il noyabrın 9-da Maura hökumətini liberal Qarsio Prieto hökuməti əvəz etdi. Lakin 1918-ci il dekabrın əvvəllərində bu hökumət də istefaya getdi. Onun yerində Qraf Romanones hökuməti quruldu. Bu illərdə ölkədə tətil hərəkatı gücləndi. 1919-cu ilin aprelində Romanones hökuməti istefaya çıxdı. Maura yenidən hökumət qurdu. Lakin bu hökumət yalnız üç ay hakimiyyətdə qala bildi. 1919-cu il iyulun 15-də Sançes de Tokanın başçılığı ilə liberal-mühafizəkar hökuməti quruldu. Bu hökumət ehtiyatlı və mötədil siyasət yeritməyə başladı. Sentyabr ayında bütün ölkədə konstitusiya təminatları bərpa edildi. Siyasi amnistiya verildi. Xalq kütlələri sakitləşdirildi. Dekabrda Mühafizəkarlar Partiyasının liderlərindən biri olan Alyende Salaras yeni hökumət qurdu. Onun hakimiyyəti 1920-ci ilin mayınadək davam etdi.

Müharibənin başa çatması ilə xaricdən alınan sifarişlər azaldığından ölkədə iqtisadi böhran yarandı, sənaye məhsulu istehsalı aşağı düşdü, işsizlik əmələ gəldi, həyat bahalaşdı,

inflyasiya geniş miqyas aldı və xarici ticarət balansı mənfi oldu. 1919-cu ildə əmək haqqının azaldılmasına və fəhlələrin işdən azad edilməsinə etiraz olaraq iri energetika kompaniyası "Kanadyense"-nin işçiləri tətil etdilər. Hökumət güzəştə gedərək 8 saatlıq iş günü tətbiq etdi. Lakin bu zaman ölkədə fəhlə sinfi parçalanmış halda idi. Onların bir qismi sosialistlərin, bir qismi isə anarxistlərin dalınca gedirdi. Anarxo-sindikalistlərin və sosialistlərin nəzarətində olan ayrı-ayrı həmkarlar ittifaqları da fəaliyyət göstərirdi. İspaniya Sosialist Fəhlə Partiyası reformist xətt yeridirdi. Belə şəraitdə yeni tipli partiyanın yaradılması təşəbbusu ilə Sosialist Gənclər Federasiyası çıxış etdi. 1920-ci il aprelin 15-də Madriddə keçirilən qurultayda Sosialist Gənclər Federasiyasını İspaniya Kommunist Partiyasına çevirmək qərara alındı. Partiya nümayəndə heyəti Moskvaya gələrək III İnternasionalın ispan bölməsini yaratdı. Lakin Kominternə qəbulun "21 şərti" barədə fikir ayrılığı olduğundan 1921-ci ilin aprelində partiya iki Kommunist Partiyasına parçalandı. Bu partiyalar yalnız 1921-ci ilin noyabrında birləşdi.

1920-ci ilin mayından liberal-mühafizəkar Dato Nazirlər Şurasının sədri oldu. O, baş nazir kimi 1921-ci il martın 8-dək çalışdı. Lakin terrorçular onu Madriddə öldürdülər. Bundan sonra baş nazir vəzifəsinə yenidən Alyende Salaras gəldi. Onun hakimiyyəti illərində İspaniya xarici siyasətdə bir sıra uğursuzluqlarla üzləşdi. Ölkənin müstəmləkə siyasəti dərin böhrana düşdü. İspan hökumətinə qarşı hələ 1912-ci ildə Fransa ilə müqaviləyə əsasən İspaniyanın yiyələndiyi Mərakeşin bir hissəsində üsyan başlandı. Qısa müddətdə üsyan milli-azadlıq mübarizəsinə çevrildi. 1921-ci ilin iyulunda qızıl ehtiyatları ilə zəngin olan Mərakeşin şimalında rif tayfaları Annual adlanan yerdə ispan ordusuna sarsıdıcı zərbə endirdi. Bu tayfalar birləşərək Rif Respublikasını yaratdılar. Belə uğursuzluq ölkədə böhran yaratdı. Müharibə 1926-cı ilədək davam etdi. Fransız və ispanlar yalnız həmin ildə Rif Respublikasını məğlub edə bildilər. Döyüşlərin gedişində ispan ordusundan 10 min əsgər öldürüldü, 20 min isə

yaralandı. Hərbdən yorulan xalq Mərakeşdə müharibənin dayandırılmasını və ordunun geri çağırılmasını tələb edirdi. Ölkədə baş verən narazılıq orduya da sirayət etdi. Ordunu üsyan bürüdü. Hərbçilər Mərakeşdə döyüşmək istəmirdilər. Belə şəraitdə qəti tədbirlər həyata keçirmək lazım idi. Mülki hakimiyyət isə böhranlı vəziyyətdən çıxmaqda aciz idi. Ölkədə siyasi böhran dərinləşdi.

Annual altındakı döyüşlərdə uğursuzluqdan sonra Alyende Salaras hökuməti istefaya getdi. 1921-ci il avqustun 15-də yenidən A.Maura başda olmaqla koalisiyalı hökumət quruldu. Maura müharibənin davam etdirilməsinin qatı tərəfdarı idi. Mərakeşdə hərbi əməliyyatları aparmaqdan ötrü plan işlənib hazırlandı. 1921-ci ilin sonunda Mərakeşə 140 mindən yuxarı ispan əsgər və zabiti toplandı. Eyni zamanda Maura hökuməti Annual altında məğlubiyyətin günahkarlarını üzə çıxartmaq üçün general Pikasso başda olmaqla xüsusi istintaq komissiyası yaratdı. Komissiya kral XIII Alfonsun və 30 nəfər yüksək rütbəli şəxsin günahkar olduğu qənaətinə gəldi. Bu vəziyyət Maura hökuməti daxilində narazılıq yaratdı. Nəticədə liberal nazirlər Mauradan üz döndərdi. Hökumət istefaya getdi. 1922-ci il martın 7-də Sançes Herra başda olmaqla liberal-mühafizəkarlar hökuməti yaradıldı. Hökumətin həyata keçirdiyi tədbirlər daxili və xarici siyasətdə gərginliyi zəiflətdi. Konstitusiya təminatları bərpa edildi. Ölkədə amnistiya verildi. Korteslər hərbi xuntaları buraxmaq haqqında qanun qəbul etdi. Zabitlərin hərbi ittifaqlara üzv olması qadağan olundu.

Beləliklə, 1917-ci ilin sonundan 1922-ci ilin dekabrınadək ölkədə 11 hökumət dəyişdi. Lakin bu hökumətlərin heç biri ispan cəmiyyətinin qarşısında duran köklü problemləri həll edə bilmədi. Tətil, kəndli və fəhlə hərəkatı artdı, terrorizm gücləndi. Ölkə idarəolunmaz həddə gəlib çıxdığından hərbçilər fəaliyyətlərini gücləndirdilər. Belə şəraitdə hərbçilərin hakimiyyət başına gəlməsi labüd idi.

## Primo de Rivera diktaturası

1923-cü ilin yayında hərbçilər hakimiyyəti ələ almaqdan ötrü son hazırlıq işlərini başa çatdırdılar. Hökumətin bundan xəbəri olsa da çevrilişin qarşısını ala bilmədi. Sentyabrın 13-də Kataloniya hərbi dairəsinin yüksək rütbəli zabitləri yerli hakimiyyəti ələ aldılar. Hərbi çevriliş Araqonanı da bürüdü. Qarsio Prieto hökumətinin Kataloniya hərbi dairəsinin komandanı Primo de Rivera və Saraqos hərbi dairəsinin komandanı Sanxurxonun istefasını və Müəssislər korteslərinin çağırılmasını tələb edən iki dekreti kral tərəfindən rədd edildikdən sonra sentyabrın 14-də hökumət istefaya getdi. Primo de Rivera hələ Barselonada olarkən kral Madriddə müvəqqəti direktoriya yaratdı. Bütün İspaniya ərazisində mühasirə vəziyyəti elan edildi. Kuba, Filippin və Mərakeşdə döyüşlərdə iştirak edən 53 yaşlı tanınmış general Primo de Rivera belə şəraitdə ölkəni anarxiyadan çıxarmağa və qayda-qanun yaratmağa hazır olduğunu bəyan etdi. Sentyabrın 15-də Madridə gələn kimi kral XIII Alfons ona hökumət yaratmağı tapşırdı.

Sentyabrın 15-də Primo de Rivera 8 general və kontradmiraldan ibarət hərbi direktoriya yaratdı. Direktoriya fəal daxili siyasət yeritməyə başladı. Direktoriyanın bütün qanun, dekret və qərarlarını XIII Alfons və Primo de Rivera imzalayırdı. Sentyabrın 30-da Primo de Rivera kortesləri buraxdı. Onların əvəzinə İspaniyanın bütün ərazisində somatenlər yaradıldı. Ümummilli somatenlərin başında müvafiq hərbi dairənin komandanı dururdu. Millətin birliyinin əleyhinə çıxanları 6 ay həbs cəzası və ya güllələnmə gözləyirdi.

Bələdiyyə şuraları buraxıldı. Onların əvəzində hərbi və mülki şəxslərdən ibarət yeni şuralar yaradıldı. Şura sədri direktoriya tərəfindən təyin edilirdi. Nəticədə 4 minə yaxın hərbçi bələdiyyə şuralarının və digər inzibati vəzifələrin başında durdu.

Direktoriya hərbi hakimiyyətə xüsusi qayğı göstərdi.

Primo de Rivera hökuməti ölkənin iqtisadi inkişafına böyük

diqqət yetirdi. İqtisadi siyasət "ölkənin dirçəldilməsi" şüarı altında həyata keçirildi. 1924-cü il martın 8-də iqtisadi inkişafı mərkəzləşdirmək, planlaşdırmaq və əlaqələndirmək məqsədi ilə Milli İqtisadiyyat Şurası yaradıldı. İqtisadiyyatın idarə edilməsi mərkəzləşdirildi. Milli iqtisadiyyata kömək edildi. Dağ-mədən, energetika, nəqliyyat və b. sənaye sahələrinə xüsusi diqqət yetirilərək vəsait qoyuldu. Dəmiryolları və avtomobil yolları çəkildi. Kənd təsərrüfatını inkişaf etdirməkdən ötrü kreditlər ayrıldı. Suvarma qurğuları və elektrik stansiyaları tikildi. Hökumətin maliyyə siyasəti gəlir və əmlak vergisinin artırılmasına əsaslanırdı. Əmək və sosial münasibətlər sahəsində korporativ sistem tətbiq edildi. Fəhlə və sahibkarlar ümummilli korporasiyalarda birləşdi. Lakin kənd təsərrüfatında yaxşılığa doğru dönüşə nail olmaq xeyli çətin idi. Dövlət inhisarçılığı inkişaf etdirildi. Xarici ticarətdə proteksionizm tətbiq edildi. Əhalinin sosial vəziyyəti yaxşılaşdı. İctimai iş yerlərinin açılması ilə işsizlərin sayı azaldı.

Primo de Rivera Kataloniya, Baskoniya və Qalisiyada milli məsələnin həll olunduğunu bəyan etsə də milli münasibətlər bu ərazilərdə hələ kəskin olaraq qalırdı.

Primo de Riveraya qarşı müxalifət zəif də olsa fəaliyyət göstərirdi. Lakin xalqın böyük əksəriyyəti rəsmi hökuməti müdafiə edirdi. Hakimiyyət ölkədəki siyasi partiyaların fəaliyyətini qadağan etdi. Tətillər, anarxo-sindikalist Milli Əmək Konfederasiyası və inqilab yolunu tutan Kommunist Partiyası qadağan edildi. Hərbçilər yalnız 1879-cu ildə əsası qoyulmuş İspaniya Sosialist Fəhlə Partiyasının və 1888-ci ildə yaradılmış həmkarlar ittifaqı olan Ümumi Zəhmətkeşlər İttifaqının leqal fəaliyyət göstərməsinə icazə verdilər. Ölkədə repressiyalar başladı. 1924-cü ildə Primo de Rivera Vətənpərvərlik İttifaqını yaratdı. İttifaqa dövlət qulluqçuları və hərbçilər daxil oldu. 1925-ci il dekabrın əvvəlində Primo de Rivera mülki hökumət yaratdı. Hökumətin tərkibinə Vətənpərvərlik İttifaqının üzvləri daxil edildi. Hökumət direktoriyanın daxili siyasətini davam etdirərək vergi sistemini daha da təkmilləşdirdi,

iqtisadiyyatı sağlamlaşdırdı, gəlir, ticarət dövriyyəsi və əmlak üzərinə nəzarət qoydu. Mülki hökumət ölkədə əməyin korporativ sistemini gücləndirdi. Fəhlə və sahibkarların ümummilli korporasiyalarda birləşmələri nəticəsində istehsalatda mövcud olan sosial ziddiyyətlər yumşaldıldı. İstehsalatdakı mübahisəli məsələləri həll etmək üçün fəhlə və sahibkarlardan ibarət qarışıq komissiyalar yaradıldı.

Riveranın həyata keçirdiyi islahatlar müqavimətə də rast gəldi. 20-ci illərin ortalarından diktaturaya qarşı müxalifət gücləndi. Müxalifətin 1926-cı ildə rejimi silahlı çevriliş yolu ilə devirmək cəhdləri uğursuzluqla nəticələndi. Rivera bundan sonra təqibləri daha da gücləndirərək rejimi sərtləşdirdi.

1927-ci il 28 iyul tarixli dekretlə dövlət neft inhisarı olan KAMPSA yaradıldı. Hökumət milli inhisarları gücləndirdi.

Bütün bu tədbirlər İspaniyada dövlət inhisarçı tənzimləmənin nümunəsi idi. Nəticədə 1924-1929-cu illərdə İspaniya iqtisadiyyatında sabitləşmə baş verdi.

1927-ci il 12 sentyabr tarixli kral dekreti ilə Milli Məclis təsis edildi. Məclisin ilk iclası oktyabrın 10-da açıldı. Onun qarşısında duran başlıca vəzifə əmək münasibətləri və kənd təsərrüfatı sahəsində sosial siyasəti həyata keçirmək üçün qanunlar hazırlamaq idi.

1929-cu ildə Riveraya qarşı hazırlanan yeni çevriliş cəhdi də uğursuz oldu.

İspaniyanın xarici siyasəti müstəmləkələrdə xeyli fəallaşdı. Xarici siyasət sahəsində qarşıda duran başlıca məqsəd "Böyük İspaniya" yaratmaq idi. Hökumət Afrikada rif qəbilələrinin azadlıq mübarizəsini boğmaq üçün qəti hücuma keçdi. 1925-ci ildə üsyançıların rəhbəri Əbdülkərimin Aqadırdakı qərargahı tutuldu. Əbdülkərim fransızlara əsir düşdü. 1926-cı il iyulun 10-da Fransa və İspaniya Mərakeşdə nüfuz dairələri məsələsində razılığa gəldi. Bu illərdə İspaniya Aralıq dənizindəki mühüm strateji mövqedə yerləşən Tancer limanına sahib olmaq istəsə də ona nail ola

bilmədi. Limanı alan Fransa onu beynəlxalq nəzarətə verdi. Beləliklə, liman beynəlxalq zonaya çevrildi. Bundan narazı qalan İspaniya 1926-cı ildə Millətlər Cəmiyyətindən çıxsa da 1928-ci ilin martında yenidən bu təşkilata qayıtdı.

Hökumət Argentina, Meksika və Kuba ilə əlaqələrini genişləndirdi. Bu illərdə X.Kolumbun 1492-ci il oktyabrın 12-də Amerikanı kəşf etdiyi gün "İspan milli günü" kimi geniş bayram edildi. Lakin hökumət "Böyük İspaniya" yaratmaq məqsədinə nail ola bilmədi.

Ölkədə mövcud rejimdən narazılıq artdı. Primo de Rivera diktaturasına qarşı çıxışlar gücləndi. Orduda narazılıq çoxaldı. 1930-cu il yanvarın 29-da Primo de Rivera istefa ərizəsini krala verdi. Kral bu istefanı qəbul etdi. O, xaricə getməyə məcbur oldu. Ölkədə Primo de Rivera diktaturasının nəticələrinin ləğvi uğrunda iş başladı.

Dünya iqtsiadi böhranı İspaniya iqtisadiyyatına mənfi təsir göstərdi. Böhran ölkə həyatının bütün sahələrinə zərbə vurdu. Sənaye və kənd təsərrüfatı məhsulları istehsalı aşağı düşdü. Kimya, dağ-mədən, maşınqayırma və toxuculuq sənaye sahələri daha çox ziyan çəkdi, qiymətlər qalxdı, əmək haqqı aşağı düşdü və əhalinin iqtisadi vəziyyəti pisləşdi. 1930-cu ildə işsizlərin sayı təxminən 300 min, 1931-ci ildə isə 500 min nəfərdən çox idi.

## Berenger hökuməti

Primo de Rivera istefaya çıxdıqdan sonra hakimiyyətə Berenger gəldi. O, 1931-ci ilin fevralınadək hökumətə başçılıq etdi. Berenger hökuməti senzuranı ləğv etdi və siyasi məhbuslara amnistiya verdi. Lakin bu tədbirlər ölkədə sosial partlayışın qarşısını ala bilmədi. Narazılıq getdikcə gücləndi. Başlanan hərəkata rəhbərlik etmək üçün Respublika İttifaqı yaradıldı. 1930-cu il avqustun 17-də bu ittifaq kurort şəhəri olan San-Sebastyanda Respublika Partiyası və İSFP-nin liderlərinin müvafiq paktı imzalama-

ları ilə inqilabi komitəyə çevrildi. Respublika uğrunda mübarizənin ali orqanı olan bu komitənin tərkibinə 12 nəfər - Respublika alyansından M.Asaniya, A.Lerus, sağ respublikaçılardan N.Alkal Samor, sosialistlərdən İ.Prieto, Larqo Kabalyero, Qalisiya mötədil respublikaçılarından S.Kasares Kiroqa və b. daxil oldu. Ona N.Alkal Samor başçılıq edirdi. Komitənin başlıca məqsədi kütlələrin iştirakı olmadan çevriliş yolu ilə monarxiyanı devirmək müəyyənləşdirildi. Komitənin əhəmiyyəti siyasi qüvvələrin monarxiyanı devirib respublika qurmaq məqsədilə birləşməsində idi. 1930-cu ilin payızında ölkədə inqilabi hərəkat gücləndi. Berenger hökuməti 1931-ci il fevralın 14-də istefaya çıxmağa məcbur oldu. Kral hökuməti formalaşdırmağı Sançes Herraya tapşırdı. Lakin N.Alkal Samor onun qurduğu hökumətə girməkdən imtina etdi. Belə olduqda hökuməti qurmaq Asnara tapşırıldı.

## Asnar hökuməti

Berengerdən sonra 1931-ci il fevralın 18-də hakimiyyətə Asnar gəldi. O, 1931-ci ilin aprelinədək hakimyyətdə oldu. Ölkəni bürüməkdə olan inqilabi hərəkatın qarşısını almaq və vəziyyəti sabitləşdirmək üçün bələdiyyə seçkiləri keçirildi. Aprelin 12-də bütün siyasi partiyaların iştirakı ilə keçirilən bələdiyyə seçkilərində Respublika İttifaqı 49 əyalətdən 45-də böyük üstünlüklə qalib gəldi. Xalq kütlələri küçələrə çıxaraq kralın istefasını tələb etdi. Aprelin 14-də kral XIII Alfons ölkəni tərk edərək ailəsi ilə birlikdə Fransaya getdi. Hökumət San-Sebastyan paktında təmsil olunan partiyaların əlinə keçdi. Həmin gün İspaniya respublika elan edildi. Beləliklə, İspaniyada dinc yolla inqilab qalib gəldi. Ölkədə inqilabi dəyişikliklər dövrü başlandı.

## İnqilabın mərhələləri

1931-1939-cu illər İspaniya inqilabı ölkəni lərzəyə saldı. İnqilabın birinci mərhələsi 1931-ci ilin aprelindən 1933-cü ilin noyabrınadək olan müddəti əhatə edir. Respublika qurulduqdan sonra Asnanın yerinə hakimiyyətə monarxiya dövründə nazir vəzifələri tutmuş 54 yaşlı iri torpaq sahibi Alkal Samor başda olmaqla San-Sebastyan koalisiyası gəldi. O, Müvəqqəti hökumət təşkil etdi. İnqilabın birinci mərhələsi tarixdə respublikaçılar və sosialistlər dövrü adlandırılır. Hökumətin tərkibinə eyni zamanda liberalların da nümayəndələri daxil oldu.

Hökumətin başlıca vəzifəsi ölkənin qarşısında duran mürəkkəb məsələləri həll etmək idi. İspaniya aqrar ölkə olduğundan kəndlilərin torpaq məsələsi tezliklə həll olunmalı idi. Milli məsələ də həllini gözləyirdi. Artıq deyildiyi kimi, İspaniya ərazisində yaşayan katalonlar, basklar və qalisiyalılar muxtariyyət tələb edirdi. Təkcə qalisiyalılar İspaniya ərazisinin 15,6%-də muxtariyyət istəyirdilər. Bu isə ölkə ərazisinin parçalanmasına gətirib çıxarardı. Kilsə problemi də xeyli mürəkkəb idi. Kilsə kapitalı dəmiryolu, dəniz nəqliyyatı və tramvay kompaniyasına qoyulmuşdu. Ölkədə təxminən 67 min kilsə, 4,5 min monastır, 200 min din xadimi var idi.

Ölkə iqtisadiyyatında ingilis, fransız, amerikan, alman, italyan, Kanada və Belçika kapitalı hökmranlıq edirdi. Ordu və donanma iri mülkədarlar və sənayeçilərin təsiri altında idi.

Xalqın bütün təbəqələrinin vəziyyətini yaxşılaşdırmaq tələb olunurdu.

1931-ci il aprelin 14-15-də separatçılar İberiya federasiyasına daxil olan Kataloniyanı respublika elan etsələr də Alkal Samor buraya gələrək danışıqlar apardı. Nəticədə Kataloniya respublikası ləğv edildi. Bunun əvəzində kataloniyalılar yerli özünüidarəetmə orqanları yaratdılar. Kataloniya daxili siyasətdə müstəqillik qazandı. Katalon dili rəsmi dil statusu aldı. Kataloniya vilayəti haqqında sənəd qəbul olundu. Buna görə kataloniyalılar öz parlament

və hökumətlərini seçə bilərdi. Lakin Baskoniya və Qalisiya muxtariyyət ala bilmədi.

1931-ci il aprelin 15-də Müvəqqəti hökumət fəaliyyətinin proqramı və hüquqi normaları haqqında məlumat verdi. Müəssislər kortesləri seçilənə və konstitusiya qəbul olunanadək ölkədə demokratik azadlıqlar verilmiş xüsusi dekretlərlə təsbit edildi. Ölkə tədricən parlamentli respublikaya keçməli idi.

Mayın 6-da Alkal Samorun imzaladığı dekretə əsasən yeni konstitusiyanın hazırlanması üzrə komissiya yaradıldı.

Müvəqqəti hökumətin dekreti ilə aqrar islahat həyata keçirilməyə başlandı. İcarədarların və kənd təsərrüfatı fəhlələrinin vəziyyəti bir qədər yaxşılaşdı. Kəndli bədbəxt hadisəyə düçar olduqda maddi yardım ala bilərdi. İşsizlərə büdcədən yardım göstərildi. Bu məqsədlə "İşsizlik əleyhinə milli kassa" yaradıldı. 8 saatlıq iş günü, şaxtaçılar üçün isə 7 saatlıq iş günü tətbiq edildi. Əmək haqqı artırıldı. Amnistiya, söz, mətbuat və yığıncaq azadlığı verildi.

1931-ci il iyunun 28-də respublikaçıların və sosialistlərin koalisiyasının təntənəli günü oldu. Müəssislər Korteslərinə 116 sosialist, 90 radikal, 60 radikal-sosialist, Kataloniyadakı "Eskerı" təşkilatının 42 nümayəndəsi, Respublika Fəaliyyət Partiyasının 30 nümayəndəsi, 22 sağ respublikaçı, 17 federalist, 16 Qalisiya respublikaçısı və b. daxil oldu. İyulun 14-də Müəssislər Kortesləri açıldı. Korteslərin prezidenti vəzifəsinə sosialist X.Besteyro seçildi.

Kortеslər ölkə konstitusiyası layihəsini 1931-ci il avqustun 27-dən dekabrın 7-dək müzakirə etdi. Dekabrın 9-da konstitusiya qəbul edildi. İspaniya demokratik respublika elan edildi. Konstitusiyada söz, mətbuat, yığıncaq azadlığı, qadın hüquqları təsbit edildi; kilsə dövlətdən ayrıldı; dini cəmiyyətlər buraxıldı; onların əmlakı müsadirə edildi; kilsə ticarət, sənaye və təhsil fəaliyyəti ilə məşğul ola bilməzdi; zadəgan imtiyazları ləğv olundu; xüsusi mülkiyyətin inkişafına dövlət qayğısı göstərildi; milli siyasət vasitəsi kimi müharibələrdən imtina edildiyi bəyan olundu; üç vilayətdən yalnız

Kataloniyaya muxtariyyət verildi və s.

Lakin hökumətin tədbirləri qətiyyətsiz idi. Mülkədarların torpaq üzərində hökmranlığı, orduya nəzarəti hökm sürürdü, dövlət aparatında monarxistlər qalırdı və kilsə öz sərvətini saxlayırdı. Konstitusiyanın qəbulu zamanı ölkəni kilsə əleyhinə hərəkatlar bürüdü. Kilsələrin yandırılması dindarların respublika quruluşu ilə münasibətlərini kəskinləşdirdi. Lakin əhalinin böyük əksəriyyəti kilsəyə toxunmağın əleyhinə idi. Alkal Samor və M.Maura konstitusiyanın bəzi maddələri, o cümlədən kilsəni sıxışdırmaqla razılaşmayaraq istefaya getdilər. Oktyabrın 15-də sol respublikaçı, publisist və natiq M.Asanya başda olmaqla hökumət yaradıldı. Sağ respublikaçılar isə müxalifətə keçdi. Belə vəziyyətdə İsveçrədə yaşayan kral XIII Alfons İspaniyada monarxiyanın bərpa edilməsinin zəruriliyini bildirdi. Buna cavab olaraq M.Asanyanın təklifi ilə "Respublikanın müdafiəsi haqqında qanun" qəbul edildi. Müəssislər Korteslərində XIII Alfons dövlətə xəyanətdə ittiham olundu.

1931-ci il dekabrın 10-da korteslər N.Alkal Samoru respublika prezidenti seçdi. O, 1936-cı ilin aprelinədək bu vəzifədə qaldı. 1932-ci il yanvarın 23-də hökumət yezuitlər ordeninin buraxılması və əmlakının müsadirə edilməsi haqqında dekret verdi.

M.Asanya hərbi islahat keçirdi. Ordu texniki cəhətdən modernləşdirildi və sayı azaldıldı. Lakin mühafizəkar generallar ordudan uzaqlaşdırılmadılar. Onlar rəhbər vəzifələri tutmaqda davam etdilər.

Aqrar qanunvericilik qəbul edildi. 1932-ci il avqustun 17-də "Qiyamçıların torpaqlarının müsadirə edilməsi haqqında qanun" qəbul olundu. Bələdiyyə dairəsi torpaqlarının 1/6-dən çoxunu tutan mülkədar torpaqlarının yalnız bir hissəsi müsadirə oluna bilərdi. Aqrar islahat institutu yaradıldı. Lakin aqrar islahat bütün ölkə ərazisində aparılmadı. Bu islahat yalnız mərkəzi, cənub və cənub-qərb vilayətlərində həyata keçirildi. İki il ərzində kəndlilər 10,5 mln. hektar torpaqdan yalnız 118 min hektar torpaq aldı.

Bütün bu tədbirlərə baxmayaraq ölkədə köklü problemlər həll olunmamış qalırdı. Maliyyə oliqarxiyası və iri torpaq sahibliyinin qüdrəti sarsıdılmadı. Kilsənin rolu daha yüksək idi. İrticaçı generallar hələ də mühüm vəzifələrdə idi. Milli məsələ tam həll edilmədi. Nəticədə ölkədə hökumətin siyasətindən narazılıq artdı. Respublika elan olunan kimi ölkədə sağ qüvvələrin təşkilatları fəaliyyətlərini gücləndirdi. Gənc filosof R.Ledesma Ramos və hüquqşünas O.Redondo Nasional-Sindikalist Hücum Xuntası yaratdılar. Təşkilatın məqsədi keçmiş rejimi bərpa etmək, dini ənənələri qorumaq, dövlətin xarici siyasətini fəallaşdırmaq və onun himayəsi altında marksizm və liberalizmi ləğv etmək idi.

Yaranmış ağır şəraitdə hökumətin daxilində ixtilaflar yarandı. Hakim respublikaçı-sosialist koalisiyasında parçalanma baş verdi. Ölkədə hökumət böhranı yarandı. M.Asanya istefaya çıxdı. 1933-cü il sentyabrın 9-12-də A.Lerrus başda olmaqla yeni hökumət yaradıldı. Müəssislər Kortesləri açılan gün A.Lerrus hökumətinə etimad məsələsi qaldırıldı. Lakin hökumət lazımi səs toplaya bilməyərək istefaya getdi. Oktyabrın 9-da radikal D.Martinos Barrio yeni koalisiyalı hökumət qurdu. Həmin gün ölkə prezidenti Alkal Samor və baş nazir D.Martinos Barrio Müəssislər Korteslərinin buraxılması və noyabrın 19-da parlament seçkilərinin keçirilməsi haqqında dekret verdilər. Beləliklə, respublika-sosialist ittifaqı dağıldı və Müəssislər Kortesləri buraxıldı. İspaniya Respublikasının birinci - sol respublikaçılar mərhələsi başa çatdı.

1933-cü ilin noyabrında inqilabın ikinci mərhələsi başlandı. Bu mərhələ 1936-cı ilin fevralınadək davam etdi. Bu mərhələdə sağ qüvvələr güclənərək səylərini birləşdirdilər. Sağ qüvvələr bir neçə təşkilatdan ibarət idi. Onun mərkəzi İspaniya Muxtariyyət Hüquqları Konfederasiyası (SEDA) idi. SEDA-nın tərkibinə klerikal, mülkədar və sağlar daxil idi. Onlar din, vətən, ailə, mülkiyyət və qayda-qanunun qorunmasını tələb edirdi.

Eyni zamanda monarxiya tərəfdarları üç təşkilatda birləşdi.

Faşist təşkilatları da qüvvələrini birləşdirməyə başladı. Faşiz-

min görkəmli nümayəndəsi keçmiş diktatorun oğlu, jurnalist və hüquqşünas olan Xose Antonio Primo de Rivera (1903-1936) idi. O, ispanların vətənə xidmət etmələri üçün milli ənənələrə qayıtmalarının zəruriliyini irəli sürdü. Rivera 1933-cü ilin oktyabrında "İspan falanqası" adlı faşist partiyasını yaradaraq ona başçılıq etdi. Falanqaçılar 27 maddədən ibarət olan proqramı qəbul edərək həyata keçirməyə başladılar. Proqrama görə İspaniyada milli inqilab yolu ilə millətin birliyinə xidmət edən milli-sindikalist dövlət yaradılmalı idi. Bu məqsədə çatmaq üçün bütün ispanlar siyasi partiyaların deyil, ailə, bələdiyyə və həmkarlar təşkilatlarının vasitəsi ilə dövlət həyatında iştirak etməli, siyasi partiyalar və bələdiyyələr sistemi ləğv edilməli, kilsə ölkənin yeniləşdirilməsi işinə cəlb olunmalı idi.

Falanqaçıların proqramının iqtisadi hissəsi kapitalizmin tənqidinə əsaslanırdı. Buna görə hər bir fərd və xalq kütləyə çevrilməli idi.

Proqramda ispanların dini və hərbi ruhu əks olunmuşdu.

Falanqa tezliklə hərbçilər tərəfindən müdafiə olunmağa başlandı.

Beləliklə, İspaniyada faşist hərəkatı 1931-ci ilin sonunda yaradılmış Milli-Sindikalist Hücum Xuntasından, 1933-cü ilin oktyabrında isə onun əsasında yaradılmış İspan falanqasından ibarət idi. Onlar bir il sonra - 1934-cü ilin fevralında İspaniya falanqası və Milli-Sindikalist Hücum Partiyası adı altında birləşdi.

1933-cü il noyabrın 19-da keçirilən seçkilərdə sağ blok və mərkəzçilər qalib gəldilər. Dekabrın 8-də korteslər açılan gün ölkəni üsyan bürüdü. Qarışıqlığın qarşısını ala bilməyən D.Martines Barrio hökuməti dekabrın 18-də istefaya getdi. Yeni hökuməti sağların nümayəndəsi A.Lerrus təşkil etdi. Lerrusun koalisiyalı hökuməti yaradılandan sonra inqilabın birinci mərhələsində həyata keçirilən tədbirlər ləğv edilməyə başlandı. İnqilabın ikinci mərhələsi ispan tarixində "sağ respublikaçı qüvvələrin qara iki ili" adlandırılır. Bu dövrdə əvvəlki illərdə həyata keçirilən islahatlar ləğv edilməklə yanaşı hər hansı narazılıq amansızlıqla yatırıldı. 1934-cü il aprelin 4-də dindarların əmlak saxlamasını qadağan edən

qanun qüvvədən salındı. Aprelin 20-də yeni amnistiya qanunu qəbul olundu. Birinci mərhələdə həbs olunanlar azadlığa buraxıldı. Hökumətin yeritdiyi siyasət kəskin müqavimətə səbəb oldu. Narazı olan qüvvələr antifaşist hərəkata başladı. 1934-cü ildə antifaşist çıxışlar artdı. Tədricən digər narazı təbəqələr də onlara qoşuldu. Kənd təsərrüfatı fəhlələri tətil etdilər. Barselona və Madriddə fəhlələr küçələrə çıxdılar.

1934-cü il aprelin 25-də A.Lerrus prezident Alkal Samor ilə amnistiya və həbs olunanların azad olunması məsələsində razılaşmayaraq istefa verdi. Prezident yeni hökumət yaratmağı radikalların nümayəndəsi R.Samperə tapşırdı. Onun başlıca vəzifəsi ölkədə milli barışığa nail olmaq və respublika quruluşunu qorumaq idi. 1934-cü il oktyabrın 1-də korteslərin növbəti sessiyası açıldı. Lakin kortreslər bu hökumətə etimad göstərmədi. Yeni hökuməti də oktyabrın 4-də A.Lerrus təşkil etdi. Hökumətə SEDA-nın üç nümayəndəsinin daxil edilməsi narazılıqla qarşılandı. M.Asanya başda olmaqla Sol Respublika Partiyası və Respublika İttifaqı yaradıldı. Onlar faşizmə qarşı çıxdı.

Bu zaman İSFP-nin rəhbərliyindəki sağ qanad təşkilatın sıralarından uzaqlaşdırıldı. Partiyaya sol sosialist F.Larqo Kabalyero başçılıq etdi. İKP-nin baş katibi isə Seviliya fəhləsi Xose Dias oldu.

SEDA üzvlərinə nazir vəzifələri verilməsi ilə əlaqədar olaraq oktyabrın 5-də ümumi tətil elan edildi. Tətil hərəkatı bütün ölkəni bürüdü. Yalnız tibb müəssisələri işlədi. Madrid, Kataloniya və Asturiyada ümumi tətil silahlı üsyana çevrildi. Hökumət ölkədə mühasirə vəziyyəti elan etdi. Sosialistlər Larqo Kabalyero başda olmaqla Madriddə hakimiyyəti ələ keçirməyə cəhd etdilər. Kazarmalara, poçt, DİN və Müdafiə Nazirliyi binalarına hücum edən üsyançıları polis və ordu darmadağın etdi. Kataloniyada döyüşlər beş gün getdi.

Oktyabr üsyanının zirvə nöqtəsi Asturiyada oldu. Daş kömür və metallurgiya fəhlələrinin üsyanı 15 gün davam etdi. Asturiyanın mərkəzi Ovyero şəhərindən başqa bütün ərazi üsyançıların ələ

keçdi. Üsyançılar Qırmızı qvardiya dəstələri yaradıb, qayda-qanunu qorudular. Onlara qarşı general Franko başda olmaqla hərbi hissələr yeridildi. Üsyan amansızlıqla yatırıldı. Oktyabr hadisələri faşizmə qarşı mübarizədə bütün qüvvələrin səylərinin birləşdirilməsini zəruri etdi. Lakin hökumət geri çəkilməyərək təzyiqlərini artırdı. 1935-ci il mayın 14-də general F.Franko İspaniya silahlı qüvvələrinin baş qərargah rəisi təyin edildi.

1935-ci il avqustun 11-də "Aqrar islahat haqqında qanun" verildi.

Bu mərhələdə ölkəni hökumət üzvlərinin rüşvət alması haqqında qalmaqal bürüdü. Belə şəraitdə Lerrus hökuməti istefaya getdi. Sentyabrın 25-də müstəqil respublikaçı X.Çapaprieta yeni hökumət qurdu. Lakin dekabrın 10-da Çapaprieta hökuməti istefaya getdi. Onun yerinə respublikaçıların nümayəndəsi Portel Valyadares koalisiyalı hökumət qurdu. Lakin korteslər bu hökuməti təsdiq etmədi. Sağların iştirak etmədiyi yeni, mərkəzçi hökuməti də Portel Valyadares təşkil etdi. Eyni zamanda prezident kortеslərin vaxtından qabaq buraxılması və 1936-cı il fevralın 16-da yeni parlament seçkiləri keçirilməsi barədə sərəncam verdi.

## İspaniyada vətəndaş müharibəsi

İnqilabın üçüncü mərhələsi 1936-cı ilin fevralından 1939-cu ilin martınadək olan illəri əhatə edir. Bu mərhələyə xalq cəbhəsi, vətəndaş müharibəsi və milli-inqilabi müharibə mərhələsi də deyilir. Faşizmin güclәndiyi şəraitdə ölkədəki antifaşist qüvvələr səylərini birləşdirdilər. 1936-cı il yanvarın 15-də Sol Respublika Partiyası və fəhlə təşkilatları pakt imzalayaraq Xalq Cəbhəsi yaratdılar. Onun tərkibinə Respublikaçı Fəaliyyət Partiyası, Sol Respublika Partiyası, Sosialist Gənclər İttifaqı, Sosialist Fəhlə Partiyası və Kommunist Partiyası daxil oldu. Xalq Cəbhəsinin başlıca məqsədi ölkədə faşizmin qarşısının alınması, proqramının əsas tələbləri isə demokratik islahatların həyata keçirilməsi, siyasi

məhbuslara amnistiya verilməsi, kəndlilərin icarə haqqının azaldılması, onlara torpaqların verilməsi və vergilərin azaldılması idi. Xalq Cəbhəsinin proqramı xalq kütlələri arasında rəğbətlə qarşılandı. 1936-cı il fevralın 16-da keçirilən seçkilərdə Xalq Cəbhəsi qələbə qazandı. Fevralın 19-da sol respublikaçıların nümayəndəsi Manuel Asanya hakimiyyətə gəldi. O, 1936-cı il fevralın 19-dan may ayınadək hökumətə başçılıq etdi, sonra isə ölkə prezidenti oldu. May ayından iyulun 19-dək hökumətə Kasaras Kiroqa başçılıq etdi. Bu hökumətlərin daxili siyasətdə həyata keçirdiyi tədbirlər əsasən aşağıdakılardan ibarət idi: "qara iki il"dəki dekretlər ləğv edildi; amnistiya verildi; siyasi əqidəsinə görə təqib edilənlər işə bərpa olundu; aqrar islahatlar həyata keçirilməyə başlandı; sığorta sistemi tətbiq edildi; bədbəxt hadisələrə düçar olanlara müavinət verildi; qocalığa görə pensiya tətbiq edildi; məzuniyyətlərin verilməsi qaydaya salındı; millətlərin öz müqəddəratını təyin etməsi hüququ verildi.

Lakin hökumətin gördüyü tədbirlər sağ qüvvələr tərəfindən müqavimətə rast gəldi. Rejim əleyhinə olan qüvvələr işi pozmağa, terror təşkil etməyə və hərbi qiyam hazırlamağa başladılar. Qiyamın əsas təşkilatçıları İspan falanqası və Milli-Sindikalist Hücum Partiyası idi. Respublika quruluşuna qarşı qiyam təşkil edildi. Piyada akademiyasını leytenant rütbəsində bitirmiş Mərakeşin İspaniya hissəsində döyüşmüş və 33 yaşında Saraqosda hərbi akademiyaya rəhbərlik etmiş general Fransisko Franko Baamonde (1892-1975) 1936-cı il iyulun 17-də Mərakeşin İspaniya hissəsində hökumət əleyhinə qiyam qaldırdı. O, ciddi nizam-intizamın, monarxiyanın, kilsənin və güclü hakimiyyətin tərəfdarı idi. İyulun 18-də Seuta şəhər radio stansiyasının siqnalı ilə qiyam İspaniya ərazisinə yayıldı. Ordunun quru qoşunlarının bir hissəsi Frankonun tərəfinə keçdi. Belə vəziyyət ölkədə hökumət böhranı yaratdı. Kiroqa hökuməti istefaya getməyə məcbur oldu. Yeni hökumət yaradıldı. Bu hökumətə 57 yaşlı kimyaçı alim, sol respublikaçı Xose Xiral başçılıq etdi. Onun hökuməti iyulun 19-dan sentyabrın

4-dək hakimiyyətdə oldu. Hökumət bir sıra tədbirləri həyata keçirdi. 1936-cı il avqustun 2-də "Qiyam edən müəssisələrin milliləşdirilməsi haqqında dekret" verildi. Bütün müdafiə sənayesi, nəqliyyat, rabitə və şaxtalar dövlətin nəzarətinə keçirildi. Ölkə iqtisadiyyatında dövlət bölməsi gücləndirildi. Bankların və xarici kapitalın üzərinə dövlət nəzarəti qoyuldu. Təhsil, mədəniyyət və səhiyyədə böyük dəyişikliklər həyata keçirildi. Bu zaman İspaniyanın təkcə daxili deyil, beynəlxalq vəziyyəti də ağır idi. Beləliklə, ölkədə vətəndaş müharibəsi baş verdi.

Müharibə Xalq Cəbhəsi üçün milli-inqilabi, frankoçular üçünsə mühafizəkar-bərpa xarakteri daşıyırdı.

İspaniyada vətəndaş müharibəsinin üç əsas dövrü vardır: 1. 1936-cı ilin iyulundan 1937-ci ilin mayına qədər. 2. 1937-ci ilin mayından 1938-ci ilin sentyabrınadək. 3. 1938-ci ilin sentyabrından 1939-cu ilin martınadək.

Franko Almaniya və İtaliyadan kömək istədi. İyulun 27-də alman və italyan təyyarələri qiyamçı dəstələri daşımaqda Frankoya kömək etdi. Onlar həmçinin Madridə və digər şəhərlərə də hücuma keçdilər. Frankoya yardımın əsas məqsədi antifaşist Xalq Cəbhəsini dağıtmaq; İspaniyadan hərbi-strateji, xammal, ərzaq bazası kimi istifadə etmək; Aralıq dənizi rayonunda ingilis-fransız bazaları üçün təhlükə yaratmaq və s. idi. 1930-1939-cu illərdə Almaniya 50 min, İtaliya 150 min, Portuqaliya isə 20 min hərbçisini Frankoya verdi.

Bu, Böyük Britaniya və Fransanı narahat etdi. İngiltərədə Stenli Bolduin hökumətinin təklifi ilə Fransanın baş naziri Leon Blüm 1936-cı ilin avqustunda Avropa dövlətlərinə müraciət edərək İspaniyada döyüşən tərəflərin heç birinə silah satmamaq və ispan işlərinə qarışmamaq barədə saziş imzalamağı təklif etdi. Sovet hökuməti avqustun 23-də bu sazişə qoşuldu. İspan işlərinə "Qarışmamaq haqqında saziş"i Avropanın 27 dövləti imzaladı. Saziş İspaniyaya silah, hərbi texnika, sursat göndərilməsini və bunun üçün tranzit yol verilməsini qadağan edirdi. ABŞ hökuməti də öz bitərəf-

liyini bildirdi. "Qarışmamaq siyasəti"nin həyata keçirilməsinə nəzarət etmək üçün Londonda sənədi imzalayan ölkələrin səfirlərinin daxil olduğu Qarışmamaq Komitəsi yaradıldı. Növbəti gün Almaniya bu sazişə qoşulsa da qiyamçılara göstərdiyi yardımları davam etdirdi. Millətlər Cəmiyyəti isə İspaniyadakı hadisələrdən narahat olduğunu bildirərək tərəfləri Avropada sülhü qorumağa çağırmaqla kifayətləndi.

Birinci dövrdə frankoçuların əsas məqsədi Madridi tutmaq idi. Frankonun rəhbərliyi ilə ordu 1936-ci ilin avqustunda cənub-şərqdən Madridə hücum etdi. Şimaldan general Molanın başçılığı ilə qiyamçılar paytaxta doğru hərəkətə keçdi. Xiral hökuməti fəhlə təşkilatlarına silah paylasa da hücumun qarşısını almaqda zəiflik göstərdi. Avqust ayında Frankonun və Molanın dəstələri birləşdi. Qiyamçılar cənubda Kadis, Uelva və Sevilya, şimalda isə Qalisiya və Navarra rayonlarını tutdu. Respublikanın nəzarətində ərazinin üçdə iki hissəsi qaldı. Ölkədə hökumət böhranı yarandı. Xiral hökuməti istefaya getdi. Sosialistlərin lideri Larqo Kabalyero yeni hökumət yaratdı. Bu hökumət 1936-cı il sentyabrın 4-dən 1937-ci il mayın 17-dək fəaliyyət göstərdi. Larqo Kabalyero həmçinin müdafiə naziri vəzifəsini də tutdu. Hökumətdə əsas vəzifələr sosialistlərə verildi. Kommunistlər isə kənd təsərrüfatı və maarif naziri oldular. Bunlarla yanaşı olaraq hökumətdə millətçilər də iştirak etdilər. Larqo Kabalyero hökumətinin əsas vəzifəsi yeni ordu yaratmaq və Madridin müdafiəsini təşkil etmək idi. Lakin bu vəzifənin həyata keçirilməsi çox çətin idi. Çünki müdafiəni təşkil edən qüvvələr dağınıq halda idilər, pis təlim görmüşdülər və ümumi komandanlıq yox idi.

1936-cı il sentyabrın 7-də fəhlə institutlarının yaradılması haqqında dekret verildi.

Qiyamçılar sentyabrın 27-də Toledonu tutdu. Oktyabr ayında 150 minlik ordu Madridə yaxınlaşdı. Döyüşlərdə qələbə qazanan hərbçilər şəhər ətrafını ələ keçirdilər. Kabalyero hökuməti Madriddən Valensiyaya köçməyə məcbur oldu. Madriddə isə şəhə-

ri qorumaq üçün müdafiə dəstələri yaradıldı. 1936-cı ilin oktyabrında hökumət "Paytaxtı müdafiə edən daimi qüvvələrin yaradılması haqqında dekret" verdi. Eyni zamanda general Franko oktyabrın 1-də tutduğu ərazilərdə öz hökumətini yaratdı və özünü generalissimus elan etdi. Hökumətin tərkibinə 50 nazir daxil edildi. Onların çoxu falanqaçılar, digərləri isə sağ monarxistlər və generallar idi. Franko "Biz xalqa məxsus olmaq üçün gəlmişik" şüarını irəli sürdü. Franko hökumətin başçısı, ali baş komandan və faşist partiyasının rəhbəri oldu. O, bütün partiyaları və həmkarlar ittifaqlarını qadağan etdi. Almaniya, İtaliya və Vatikan İspaniya Respublikası ilə diplomatik münasibətləri kəsərək Franko hökumətini tanıdılar. Lakin bu hökumətin fəaliyyəti kəskin müqavimətə rast gəldi.

Kabalyero hökuməti ölkədə milli məsələnin həlli üçün addımlar atdı. 1936-cı ilin oktyabrında Baskoniyaya muxtariyyət verildi. Buna qədər artıq Kataloniyaya müxtariyyət verilmişdi. Qiyamçıların nəzarəti altında olduğundan Qalisiyaya muxtariyyət vermək mümkün olmadı.

Oktyabr ayında xalq milisi, nizami ordu, kitabxana və ittifaqlar yaradıldı.

1936-cı il oktyabrın 6-da "Hökumət əleyhinə çıxan şəxslərin torpaqlarının milliləşdirilməsi haqqında dekret" verildi. Torpaqlar yoxlanılmadan müsadirə edilərək kəndlilərə və ya kollektivlərə istifadə üçün verilə bilərdi. Buna "inkoutasi siyasəti" deyilirdi. Bu dekretlə sonrakı illərdə 5 mln. kəndli torpaq aldı. Mülkədar torpaq sahibliyi ləğv edildi. Kəndlilərə kredit, texnika və buğda verildi. Bu isə kənddə ziddiyyətləri kəskinləşdirdi. İri torpaq sahibləri hökumətə qarşı çıxdılar. Vəziyyətin ağır olduğunu görən Larqo Kabalyero SSRİ-yə müraciət edərək silah və sursat yardımı göstərilməsini xahiş etdi. 1936-cı ilin oktyabrında silah və sursatla dolu ilk sovet gəmiləri İspaniyaya gəldi. Sovet könüllüləri və tankları Madridin müdafiəsində iştirak etdi. İspaniyada döyüşlərdə onlardan 200 nəfəri öldü. Sovet silahının haqqını ödəmək üçün

ispan hökuməti qızıl ehtiyatının bir hissəsini SSRİ Dövlət Bankına keçirdi.

İspaniyada respublika quruluşunu müdafiə etmək məqsədi ilə Parisdə Beynəlxalq həmrəylik komitəsi yaradıldı. İki il ərzində bu komitənin hesabına 800 mln. frank köçürüldü. Dünyanın 54 ölkəsindən olan adamlar 7 beynəlmiləl briqada yaradıb noyabrın 8-də Madridin müdafiəsində iştirak etdilər. Bu döyüşlərdə 7 min döyüşçü həlak oldu. Lakin noyabr ayında frankoçular Madridi ala bilmədilər. Belə olduqda Franko ordunu yenidən qurdu. Ciddi hazırlaşdıqdan sonra mərkəzi cəbhədən Madrid üzərinə hücuma başladı.

X.A.Primo de Rivera 1936-cı ilin noyabrında respublikaçılar tərəfindən edam edildikdən sonra Franko partiyanın başçısı və ispan faşizminin rəhbəri - "kaudilyo" elan olundu. Yeni falanqa "frankoçu", ideologiya isə "frankizm" adlandırıldı.

Bu dövrdə əhalinin sosial vəziyyəti ilə bağlı hökumət bir sıra tədbirlər gördü. Əməyin mühafizəsi yaxşılaşdırıldı və əmək haqqı artırıldı. 1937-ci il fevralın 5-də elan edilən fərmanla qadın və kişilərə bərabər hüquqlar verildi. Görülən bu tədbirlər mühüm əhəmiyyət daşısa da hökumətin sosial dayaqlarını möhkəmləndirmədi. Çünki xalqın vəziyyəti ağırlaşdığından hökumətə olan inamı getdikcə zəifləyirdi.

1937-ci ilin martında respublika qüvvələri 50 minlik İtaliya korpusunu Qvadalaxar yaxınlığında əzdi. Lakin Kataloniya və Araqonada müdafiənin əleyhinə olan qüvvələr silah istehsalına qarşı çıxdı. Əsasən anarxist və trotskiçilərdən ibarət olan həmin qüvvələr nəzarətsiz qalmışdı.

Sağ qüvvələri möhkəmləndirmək üçün Franko 1937-ci ilin aprelində İspan falanqası ilə Milli-Sindikalist Hücum Partiyasının son olaraq birləşməsi haqqında dekret verdi. Respublika əleyhinə olan qüvvələrin 1937-ci ilin mayında Barselonada üsyan qaldırmaları da vəziyyəti ağırlaşdırdı. Üsyançılara qarşı küçə döyüşlərində hökumət qüvvələri qələbə qazandı. Buna baxmayaraq Kabalyero

hökumətinin siyasəti iflasa uğradı.

Vətəndaş müharibəsinin ikinci dövrü sosialistlərin lideri Xuan Neqrin hökumətinin yaradılması ilə başlandı. Sosialist və kommunistlərdən ibarət olan bu hökumət 1937-ci il mayın 17-dən vətəndaş müharibəsinin sonunadək fəaliyyət göstərdi. Bu müddətdə Neqrin hökuməti bir sıra tədbirlər həyata keçirdi. O, qiyamçıları cəzalandırdı və partiyalarını qadağan etdi. Qısa müddətdə hərbi sənaye inkişaf etdirildi, ordu möhkəmləndirildi və respublika cəbhəsi gücləndirildi.

Bütün bunlara baxmayaraq şimal cəbhəsində Frankonun hücumları daha da gücləndi. 1937-ci ilin baharında qiyamçıların 60 minlik ordusu İspaniyanın şimalında güclü hücuma keçdi. Oktyabrda İtaliya diviziyaları və Franko hissələri Asturiyanı tutdular. Şimal əraziləri tutulduqdan sonra qiyamçılar mərkəz ərazilərə doğru can atdılar. 1938-ci il martın 9-da Aralıq dənizinə yaxınlaşan qiyamçılar aprel ayında ona çatdılar. Beləliklə, respublika ərazisi iki hissəyə parçalandı. Ölkənin şimal hissəsi üsyançıların, cənub və mərkəz hissəsi isə respublikaçıların əlində qaldı. Vəziyyət xeyli ağırlaşdı, hakimiyyətdə təslimçilik meylləri yarandı. Hökumətin bir sıra üzvləri qiyamçılara qarşı mübarizə aparmağın əleyhinə çıxdılar. Nəticədə hökumət böhranı yarandı. 1938-ci il aprelin 8-də Xuan Neqrin ikinci hökumət yaratmağa məcbur oldu. May ayında hökumətin "Müharibənin məqsədləri haqqında İspaniya respublikası hökumətinin bəyannaməsi" dərc edildi. Bəyannamə 13 maddədən ibarət idi. Bəyannamənin məqsədi İspaniyanın istiqlaliyyəti və toxunulmazlığını təmin etmək, respublikanın müdafiəsini təşkil etmək, geniş demokratik islahatlar həyata keçirmək və ölkədə aqrar islahatları başa çatdırmaq idi. Lakin bu tədbirlərin həyata keçirilməsi böyük çətinliklərlə üzləşdi. Mövcud olan çətinliklər təkcə daxili şəraitlə bağlı deyildi. Əlverişsiz beynəlxalq şərait yaranmışdı. Fransa ilə İspaniya arasında münasibətlər getdikcə kəskinləşirdi. Respublika quruluşu ağır vəziyyətə düşdü. Londonda fəaliyyət göstərən Qarışmamaq komitəsi 1938-ci il iyulun 5-də

bütün xarici könüllülərin İspaniyadan çıxarılması planını qəbul etdi. 10 min beynəlmiləlçi döyüşçü İspaniyanı tərk etdi. Bununla belə, Almaniya və İtaliya frankoçulara hələ də yardım edirdi. SSRİ də Xalq Cəbhəsi hökumətinə kömək etməkdən əl çəkmədi.

Vətəndaş müharibəsinin üçüncü dövrü 1938-ci ilin oktyabrından 1939-cu ilin martınadək davam etdi. Bu mərhələdə İspaniya Respublikasının taleyi həll olundu. Hitler, Çemberlen, Daladye və Mussolininin Münhendəki görüşü İspaniya Respublikasının məğlubiyyətində əsaslı rol oynadı. İspaniyaya qarşı hərbi müdaxilədə İtaliya lideri Mussolini geniş səlahiyyətlər aldı. Fransanın baş naziri Daladye isə İspaniya ilə sərhədi bağladı. Bununla da İspaniya Respublikası xaricdən aldığı yardımlardan məhrum oldu.

Hökumət kömək üçün SSRİ-yə müraciət etdi. 1938-ci ilin sonunda Moskvada Stalin, Molotov və Voroşilov İspaniya Respublikası aviasiyasının rəisi İ.İdalqo ilə görüşdü. İspaniyaya 100 mln. dollarlıq silah verildi. Lakin bu silahı fransız hökuməti sərhəddən buraxmadı. Ümumiyyətlə, SSRİ 1936-cı ilin oktyabrından 1937-ci ilin oktyabrınadək 52, 1938-ci ildə 13, 1939-cu ilin yanvarında isə yalnız 3 hərbi yükü İspaniyaya göndərə bildi. Bu, təkcə İspaniya Respublikasının deyil, eyni zamanda SSRİ-nin Avropada gedən proseslərə qarışmasında məğlubiyyətə uğraması demək idi.

1938-ci ilin dekabrında Franko ordu hissələrinin Kataloniyaya hücumları başlandı. 1939-cu ilin fevralında Kataloniya tutuldu. Bununla belə, İspaniyanın 1/4 hissəsi hələ də respublikaçıların, digər ərazilər isə qiyamçıların nəzarətində idi. Fransaya köçməyə məcbur olan respublikaçılar sərhədi keçən kimi tərksilah edildilər. Franko hökumətinin nəzarətində olan ərazilərdə həbs düşərgələri salındı. Kataloniya tutulduqdan sonra İngiltərə, Fransa və ABŞ İspaniya işlərinə "qarışmamaq siyasəti"ndən imtina etdilər. 1939-cu il fevralın 9-da ingilis hərbi-dəniz donanması gəmiləri Franko qüvvələrinə kömək etdi. Beləliklə, "qarışmamaq siyasəti" Avropa dövlətlərinin Franko tərəfdarlarına, SSRİ-nin isə respublika qüvvələ-

rinə yardım etməsi ilə nəticələndi. İspaniya əslində biri-birinə düşmən kəsilən xarici dövlətlərin mübarizəsi meydanına çevrildi.

Franko dini yardımlar da aldı. Roma Papası Franko hökumətini tanıdı. Fevralın 27-də İngiltərə və Fransa Franko rejimini tanıyaraq diplomatik münasibətlər qurdular. Onlar respublika hökuməti ilə diplomatik əlaqələrini kəsdilər. Belə bir vaxtda Madriddə respublika quruluşu əleyhinə üsyan qalxdı. Əhali respublika quruluşunu müdafiə etmədi. Martın 4-də zabitlər və donanmadakı matroslar da üsyan qaldırdı. Belə gərgin vəziyyətdə polkovnik Kasado və sağ sosialistlərin lideri Besteyro Milli Müdafiə Xuntası yaratdı. Onlar kommunistləri həbsə alaraq Frankoya sülh bağlamağı təklif etdilər. Bundan sonra respublika ordusundakı başıpozuqluğun qarşısını almaq mümkün olmadı. Martın 5-də hökumət yıxıldı. Az vaxtdan sonra Franko qüvvələri Madridi tutdu. 1939-cu il martın 28-də bütün ölkə ərazisi qiyamçıların əlinə keçdi. Aprelin 1-də respublika süqut etdi. Xuan Neqrin güllələndi. Franko aprelin 1-də müharibənin qurtardığını bəyan etdi. Mayın 19-da milli ordunun paradı keçirildi. Vətəndaş müharibəsi qurtardıqdan dörd ay sonra, avqustun 10-da yeni hökumət yaradıldı. Ölkədə avtoritar faşist diktaturası quruldu.

İspaniyada respublika quruluşunun məğlub olmasının bir sıra daxili və beynəlxalq səbəbləri var idi. Məğlubiyyətin daxili səbəbləri Xalq Cəbhəsi hökumətində birlik və yekdilliyin olmaması, pozuculuq və təslimçilik siyasətinin aparılması, sosial-siyasi və iqtisadi sahədə həyata keçirilən tədbirlərin xalqın geniş kütlələrinin mənafeyinə cavab verməməsi, ardıcıl olmaması və s. idi.

Məğlubiyyətin bir sıra beynəlxalq səbəbləri də var idi. İspaniya işlərinə İtaliya və Almaniyanın müdaxilə etməsi respublika quruluşunun iflasa uğramasında başlıca rol oynadı. İngiltərə və Fransanın İspaniya işlərinə "qarışmamaq", ABŞ-ın isə bitərəflik siyasəti yeritməsi qiyamçıların və xarici hərbi müdaxiləçilərin geniş əl-qol açmasına şərait yaratdı. Öz növbəsində

SSRİ-nin respublika quruluşuna yardım etməsi digər dövlətlərin qiyamçıları açıq şəkildə dəstəkləməsinə gətirdi. Avropa dövlətləri Xalq Cəbhəsi hökumətinə və SSRİ-nin yardımlarına beynəlxalq kommunist inqilabının yayılması təhlükəsi kimi baxmağa başlayaraq İspaniyada milli qayda-qanunun yaradılmasında Frankoya yardım etdilər.

Respublika quruluşunun süqutunun bir sıra nəticələri oldu. Ölkədə kütləvi həbslər başlandı. Qısa müddət ərzində təxminən 200 min adam güllələndi, 2 mln.-dək adam isə həbsxanaya salındı. Bütövlükdə, vətəndaş müharibəsinin gedişində 1 mln. adam öldü. Ölkədə sol partiyalar qadağan edildi. Kilsənin hüquqları özünə qaytarıldı. Falanqa və kilsə gənclər hərəkatını və universitet təhsilini öz nəzarətinə keçirdi. Aqrar islahatlar dayandırıldı. Kəndlilər aldıqları 5 mln. hektardan artıq torpağı geri qaytarmalı idi. Respublikanın süqutunun ağır siyasi nəticələri oldu. Korporativ sistem çərçivəsində "şaquli həmkarlar ittifaqları" yaradıldı. Onların başında falanqanın funksionerləri dururdu. Digər həmkar ittifaqları qadağan edildi.

Yeni hökumətin iqtisadi siyasəti proteksionizmə və sənayenin modernləşdirilməsinə əsaslanırdı. Ölkənin siyasi sistemi dəyişdirildi. "Vahid ölkə, vahid dövlət və vahid rəhbər" şüarı elan edildi. Franko kaudilyo və ya dövlət başçısı oldu. O, həm hökumətin, həm dövlətin başçısı, həm də ali baş komandan oldu. İspaniya tarixində Frankizm dövrü başlandı.

Məğlub olmasına baxmayaraq milli-inqilabi müharibənin böyük tarixi əhəmiyyəti var idi. Bu, İspaniyada ən böyük hərəkat idi. Bu mübarizənin mühüm beynəlxalq əhəmiyyəti də oldu. İspaniyada baş verən hadisələr və respublika quruluşunun yaranması ikinci dünya müharibəsinin başlanmasını bir qədər yubatdı.

Franko hökumətin xarici siyasətinin ispan xalqının mənafelərinin qorunmasına və Avropada itirilmiş nüfuzun bərpa edilməsinə yönəldiyini bəyan etdi. 1939-cu ilin martında İspaniya ilə Portuqaliya arasında dostluq və hücum etməmək haqqında sazişlər imza-

landı. Franko alman və italyanpərəst siyasət yeritməyə başladı. 1939-cu il martın 31-də İspaniya ilə Almaniya arasında dostluq və əməkdaşlıq haqqında müqavilə imzalandı. Müqaviləyə görə tərəflər beynəlxalq məsələlərə dair məsləhətləşmələr aparmalı idilər. 1939-cu ilin aprelində İspaniya "Antikomuntern paktı"na qoşuldu.

## İspaniya ikinci dünya müharibəsi illərində

İkinci dünya müharibəsi başladıqdan az sonra, 1939-cu il sentyabrın 4-də İspaniya özünü bitərəf, 1940-cı ilin iyununda isə döyüşməyən dövlət elan etdi. Fransa məğlub edildikdən sonra İspaniya Mərakeşdəki beynəlxalq zonanı və Tancer limanını tutaraq Cəbəllütariqə olan iddialarını artırdı. Müharibə illərində ölkə iqtisadiyyatı inkişaf etdi. 1941-ci il 25 sentyabr tarixli qanunla Milli Sənaye İnstitutu yaradıldı. Bu, dövlət inhisarçı birliyi idi. 1941-ci ildə Milli dəmiryollar şəbəkəsi yaradıldı. Bir il sonra elektrotexnika və kimya sənayesinin planlı inkişafına keçildi. Bitərəf dövlət olmasına baxmayaraq 20 min nəfərlik "Mavi diviziya" adlı ispan könüllü birlikləri yaradılaraq Almaniya tərəfindən döyüşlərə göndərildi.

İspaniya müharibə illərində digər dövlətlərlə ticarət-iqtisadi əlaqələrini genişləndirdi. 1942-ci il iyunun 4-də İspaniya-İtaliya, avqustun 5-də isə İspaniya-Argentina ticarət sazişləri imzalandı.

1942-ci il noyabrın 8-də ABŞ prezidenti Ruzvelt şəxsi məktubunu Frankoya göndərdi. Məktubda göstərilirdi ki, İspaniya müharibədə bitərəfliyini saxlayarsa ərazisinə toxunulmayacaqdır. İspan hökuməti noyabrın 19-da bitərəfliyə əməl edəcəyini bildirdi. 1943-cü ilin oktyabrında İspaniya döyüşməyən dövlət statusundan bitərəf dövlət statusuna keçdiyini bəyan etdi. "Mavi diviziya" oktyabrın 12-də geri çağırıldı. Buna baxmayaraq ispan legionerləri Almaniya tərəfində döyüşlərdə iştirak etdilər.

Müharibə illərində İspaniya Böyük Britaniya və ABŞ-la münasibətlərə diqqət yetirməyə başladı. Lakin bu münasibətlər arzu

edilən səviyyədə deyildi.

1942-ci il 17 iyul qanununa uyğun olaraq 1943-cü ilin martında Korteslər ilk dəfə olaraq toplandı. Qeyd etmək lazımdır ki, ölkədə Franko rejimi əleyhinə olan qüvvələr zəif idi və əsasən Fransada mühacirətdə yaşayırdılar. Həyata keçirilən sosial-iqtisadi islahatlar müxalifətin ölkə daxilindəki dayaqlarını tamamilə sarsıtdı.

İkinci dünya müharibəsinin başa çatması İspaniya tarixində yeni dövrün başlanğıcını qoydu. İspaniyada Franko rejimi hökm sürdüyündən ölkə beynəlxalq aləmdən təcrid oldu və BMT üzvlüyünə qəbul edilmədi.

# VIII BÖLÜM

## AVSTRİYA

### Birinci dünya müharibəsinin ölkə üçün nəticələri

Birinci dünya müharibəsi Avstriyada sosial-iqtisadi və siyasi vəziyyəti xeyli ağırlaşdırdı. Ölkədə inqilabi hərəkat gücləndi. Dünya müharibəsi davam edərkən 1918-ci ilin yanvarında ölkəni ümumi siyasi tətil bürüdü. Fevralın 1-də Kotor limanında hərbi-dəniz donanmasının matrosları üsyan etdi. Onlar 40 hərbi gəmini üç gün əllərində saxladılar. Komandanlıq üsyanı yatıraraq onun rəhbərlərini edam etdi, 800 nəfər üsyançını isə həbsxanaya saldı. Lakin bu cəza tədbirləri inqilabi prosesin qarşısını ala bilmədi. Hökumət çətin vəziyyətə düşdü. Avstriya-Macarıstanın dövlət aparatı hadisələrə nəzarət edə bilmədi. Nəticədə ölkədə hökumət böhranı yarandı. Belə şəraitdə Avstriya-Macarıstan hakim dairələri ABŞ-la separat danışıqlara getmək istəsə də edilən cəhdlər uğursuzluqla nəticələndi. 1918-ci ilin yayında ölkəni üsyançı hərəkat bürüdü. Budapeşt və Vyanada tətil hərəkatı gücləndi. Belə vəziyyətdə 1918-ci ilin iyulunda Zeydler hökuməti istefaya getdi. Onun yerinə iyulun 24-də Vyana universitetinin kilsə hüququ professoru Qussarek hökumətin başçısı oldu. Qussarek hökuməti Avstriya-Macarıstan imperiyasının dağılmasının qarşısını almaqdan ötrü tədbirlər görsə də nəticəsi olmadı. Qussarek Avstriya-Macarıstan imperiyasının federativ dövlətə çevrilməsini təklif etsə də bu, rəsmi dairələrdə və milli rayonlarda çoxlu mübahisələr yaratdı. Çexiyanı üsyan bürüdü. Bukovina, Slovakiya və Macarıstanda hərəkat gücləndi. Oktyabrın 21-də parlamentin 210 avstriyalı deputatı iclas keçirərək özünü Avstriya Müvəqqəti Milli Məclisi elan etdi və Alman-Avstriya dövlətinin yaradıldığını bildirdi. Məclis oktyabrın 30-da Dövlət Şurasını yaratdı. Monarxın səlahiyyətləri və icra

hakimiyyəti ona verildi. Dövlət Şurasının tərkibinə sosial-demokratlar, xristian-sosiallar və millətçilər daxil edildi. Dövlət kansleri vəzifəsinə sosial-demokratların lideri Karl Renner seçildi. Avstriyada xalq dövlətinin qurulduğu bəyan edildi. Lakin bu da xalq hərəkatının qarşısını ala bilmədi. Hərbi əməliyyatlardakı uğursuzluqlar Avstriya-Macarıstan imperatorluğunun iflasını sürətləndirdi. Artıq belə şəraitdə müharibəni davam etdirmək mümkün deyildi. 1918-ci il noyabrın 3-də Avstriya-Macarıstanla Antanta ölkələri arasında Paduidə barışıq sazişi imzalandı. Barışığın şərtlərinə görə alman orduları 15 gün müddətində Avstriya ərazisini boşaltmalı; Avstriya-Macarıstan ordusu tərxis olunmalı; müttəfiq orduları ölkənin dəmiryollarında maneəsiz hərəkət etməli idilər; onlar lazım gəldikdə ölkənin istənilən məntəqəsini işğal edə bilərdilər.

1918-ci ilin noyabrında Avstriya ərazisini fəhlə və əsgərlərin etiraz çıxışları bürüdü. Ölkədə qarışıqlıq yarandı. Fəhlələrin tərəfinə keçən əsgərlər birlikdə fəhlə və əsgər deputatları sovetləri yaratdılar. Fəhlələr əsasən bu zaman böyük nüfuza malik olan Sosial-Demokrat Partiyasının arxasınca gedirdi. Partiyanın sıralarında təxminən 100 min nəfər var idi. Müstəqil həmkarlar ittifaqları üzvlərinin sayı isə 413 min nəfərə çatırdı. Lakin Sosial-Demokrat Partiyasının liderləri olan Karl Renner, Otto Bauer və Fridrix Adler inqilabi deyil, daha çox barışdırıcı xətt yeridərək cəmiyyətin islahatlar yolu ilə inkişafına tərəfdar idilər.

Bundan fərqli olaraq cəmiyyətin inkişafında sinfi mübarizəni əsas götürənlər də var idi. Noyabrın 3-də sovet Rusiyasından gələn bu şəxslər Vyanada Avstriya Kommunist Partiyasını yaratdılar. Lakin bu partiya çox zəif idi.

Avstriya Müvəqqəti Milli Şurası noyabrın 4-də ordudan tərxis olunanlara yardım göstərilməsi haqqında qanun qəbul etdi. Noyabrın 6-da isə işsizliyə görə dövlət büdcəsi hesabına yardım göstərilməsi haqqında qanun qəbul edildi. Noyabrın 7-də Dövlət Şurasında ordunun tərxis olunması barədə qərar qəbul edildi. Noyabrın

12-də yeni parlament Avstriyanı respublika elan etdi. Karlın bundan bir gün əvvəl yayılmış manifestində onun artıq dövlət işlərində iştirak etmədiyi bəyan olundu. Beləliklə, 1918-ci ilin noyabrında Avstriya-Macarıstan imperiyası dağıldı. Bunun nəticəsində imperiya ərazisində yeni müstəqil dövlətlər yarandı. Avstriyanın ərazisi və əhalisi xeyli azaldı. Köhnə iqtisadi əlaqələr kəsildi. Sənaye ağır vəziyyətə düşdü. Daxili və xarici ticarət azaldı. Ölkə həyatını bərpa etmək xeyli çətinləşdi. Bununla belə, Dövlət Şurası vəziyyətdən çıxmaqdan ötrü bir sıra tədbirlər həyata keçirdi. Dekabr ayında sənayedə 8 saatlıq iş günü tətbiq edilməsi haqqında qanun qəbul edildi. Müharibədəki məğlubiyyətdən sonra Avstriyada katolik kilsəsinin və Xristian-Sosial Partiyasının rolu gücləndi. Bu isə ölkədə milliyyətçiliyin genişlənməsinə şərait yaratdı. Avstriya rəsmi dairələri və xalqın böyük əksəriyyəti Dunay Federasiyası yaratmaq və ya Almaniyaya birləşmək planlarını işləyib hazırladılar. Ölkədə pangermanizm təbliğatı gücləndi.

Müharibə başa çatdıqdan sonra böyük dövlətlər Avstriyada möhkəmlənmək üçün yollar axtarmağa başladılar. Bu sahədə geniş imkanları olan ABŞ digər rəqiblərini xeyli geridə qoydu. Amerikan hökuməti 1919-cu ilin əvvəllərində Avstriyaya ərzaq almaq üçün 48 mln. dollar kredit verdi. Bununla da Avstriyada ictimai-siyasi və iqtisadi həyat tədricən sabitləşməyə başladı. 1919-cu il fevralın 16-da Milli Müəssislər Məclisinə seçkilər keçirildi. Seçkilərdə Sosial-Demokrat Partiyası qələbə qazanaraq 1,2 mln. səs və ya 72, Xristian-Sosial Partiyası 1 mln. səs və ya 69, pangermanlar (millətçilər) 26 mandata sahib oldular. Müəssislər Məclisinin ilk iclası martın 4-də keçirildi. Məclisin sədri sosial-demokrat Karl Zeyç seçildi. Müəssislər Məclisi Karl Rennerin qurduğu müvəqqəti koalisiyalı hökuməti təsdiq etdi. Hökumət qalib dövlətlərlə sülh müqaviləsi bağlanılanadək fəaliyyət göstərməli idi.

Hökumət Avstriyada imperiya dövlət institutlarını tamamilə ləğv etdi. Ümumi seçki hüququ və demokratik azadlıqlar tətbiq olundu. Renner hökuməti işsizliyin qarşısını almaq üçün radikal təd-

birlər həyata keçirdi. Sahibkarlar dairə sənaye komissiyalarının icazəsi olmadan fəhlələri işdən azad edə bilməzdi. Orduđan tərxis olunan dövlət qulluqçuları öz əvvəlki iş yerlərinə qayıtdılar. 15 nəfər işçisi olan müəssisə sahibləri ştatı onun 1/5-dək artırmalı idilər. Bu tədbir işsizliyin qarşısını almağa yönəlmişdi. Xarici işlər naziri Otto Bauerin rəhbərliyi altında hökumətin tərkibində sosiallaşma komissiyası yaradıldı. Hökumət Otto Bauerin təklif etdiyi sosiallaşma planını bəyəndi. Müəssislər Məclisi isə bu planı təsdiq etdi. Sosiallaşma geniş milliləşdirməni və sənayenin bürokratik idarə olunmasını deyil, müəssisələrin idarə olunması sistemini mərhələlərlə təkmilləşdirməyi nəzərdə tuturdu. Sosial-demokratların bu tədbirləri sahibkarların narazılığına səbəb olmadı.

1919-cu il mayın 15-də verilən qanuna əsasən fəhlə nəzarəti orqanlarının səlahiyyətləri genişləndirildi. Əmək qanunvericiliyi islahatı keçirildi. Əmək müqaviləsinə görə cərimə ödənilməsi, qadın və uşaqlar üçün gecə əməyi qadağan edildi. 1919-cu il iyulun 19-da illik ödənişli məzuniyyət, dekabrda isə bütün ölkədə 8 saatlıq iş günü tətbiq olundu. İyulun 19-da verilən sosiallaşma haqqında qanuna görə müəssisələrin idarə edilməsində sahibkarların, fəhlələrin, istehlak ittifaqlarının və hökumət nümayəndələrinin iştirakı tənzimləndi. Lakin bu tədbirləri həyata keçirmək çətin idi. İqtisadi həyatda xaos hökm sürürdü. Kəndliləri inqilabi əhval-ruhiyyə bürüdü. Fəhlələr və ordudan tərxis olunan şəxslərin inqilabi ruhu güclü idi. Onlar zorakılıq metodlarına meyl edirdilər. Kommunistlərin nüfuzu getdikcə artırdı. Ölkədə fəhlə və əsgər deputatları sovetlərinin yaradılması ideyası güclənirdi. Ölkədə millətçilik əhval-ruhiyyəsi artırdı. Eyni zamanda Almaniya ilə birləşmək və ya anşlüs ideyası da genişləndi. Hökumət inqilabi hərəkatı zəiflətmək üçün özünəməxsus Avstriya marksizmi ideyasını - sinfi mübarizə olmadan, islahatlar yolu ilə sosial cəmiyyət qurmaq məqsədini həyata keçirməyə başladı.

Avstriya marksistlərinə görə iqtisadi sabitlik sosialist inqilabının inkişafı üçün təməl rolunu oynaya bilərdi. Onlar "siyasi inqila-

ba" tərəfdar çıxaraq sosial tədbirlərin həyata keçirilməsinə xüsusi diqqət yetirdilər. Lakin Avstriyada maliyyə və istehsal infrastrukturunu tam bərpa etmək mümkün deyildi. Ona görə də onlar Almaniya ilə anşlüs ideyasına tərəfdar idilər. Lakin yeni Almaniya hökuməti anşlüsdən imtina etdi. Bu məsələ haqqında aparılan ikitərəfli danışıqlar 1919-cu ilin yayında uğursuzluqla nəticələndi.

Xarici siyasət sahəsində hökumətin qarşısında duran başlıca vəzifə qalib dövlətlərlə sülh müqaviləsini imzalamaq idi. Antanta dövlətləri Fransanın Vyanadakı səfiri vasitəsilə mayın 12-də Paris sülh konfransına nümayəndə heyəti göndərmək təklifini Avstriya hökumətinə çatdırdı. Nümayəndə heyəti mayın 14-də Parisə gəldi. Burada sülh müqaviləsi barədə müzakirələr keçirildi. İyunun 2-də Renner başda olmaqla Avstriya nümayəndə heyətinə sülh müqaviləsinin layihəsi təqdim edildi. Müqavilənin əsasını Versal sülh müqaviləsinin müddəaları təşkil edirdi. Antanta dövlətləri ilə Avstriya arasında Sen-Jermen sülh müqaviləsi 1919-cu il sentyabrın 10-da imzalandı. Sen-Jarmen müqaviləsi Avstromarksizmin inqilabi strategiyasının iflasa uğraması demək idi. Müqavilənin şərtləri Avstromarksizmin niyyətlərinin reallaşdırılmasını heçə endirdi. Müqavilənin şərtlərinə görə müharibədə vurduğu ziyanlara görə Avstriya təzminat ödəməli idi. Ölkədə hərbi mükəlləfiyyət qadağan edildi. Avstriya yalnız 30 minlik muzdlu ordu saxlaya bilərdi. Jandarma və polisin sayı 1913-cü il səviyyəsini ötüb keçməməli idi. Avstriyanın Almaniyaya anşlüsü qadağan edildi. Dunay çayının rejimini müəyyənləşdirmək üçün komissiya yaradılmalı idi. Sülh müqaviləsi 1919-cu il oktyabrın 17-də Avstriya Müəssislər Məclisində təsdiq edildi. Parlamentdəki bütün fraksiyalar sülh müqaviləsinin şərtlərinə səs verdi.

Müqavilənin təsdiq olunması ilə koalisiyalı hökumətin fəaliyyət müddəti bitsə də onun istefaya göndərilməsi barədə yekdil fikir yox idi. Buna baxmayaraq Renner hökuməti 1920-ci il iyunun 10-da koalisiyaya daxil olan partiyalar arasında ixtilafların mövcudlu-

ğunu əsas gətirərək istefaya çıxdı. İyulun 7-də Xristian-Sosial Partiyasının nümayəndəsi Mayr başda olmaqla yeni koalisiyalı hökumət yaradıldı. Oktyabrın 1-də Müəssislər Məclisi ölkə konstitusiyasını qəbul etdi. Avstriya prezidentli və parlamentli federativ dövlət və respublika elan olundu. Konstitusiya ilə ölkədə ikipalatalı parlament təsis edildi. Aşağı palata olan Milli Şura 20 yaşdan yuxarı olan vətəndaşlar arasından ümumi seçki hüququ əsasında seçilirdi. Yuxarı palata olan Federasiya Şurası isə torpaqların landtaqlarının nümayəndələrindən təşkil edilirdi. Konstitusiyada vətəndaşlara geniş siyasi hüquqlar verildi. Zümrə və dini fərqlər ləğv edildi. Çoxpartiyalı sistem tətbiq olundu.

Oktyabrın 17-də parlamentə keçirilən seçkilərdə Xristian-Sosial Partiyası uğur qazandı. Noyabrın ortalarında Mayr başda olmaqla Xristian-Sosial Partiyası yeni hökumət yaratdı. Daxili siyasət sahəsində hökumətin qarşısında duran başlıca vəzifə ölkə iqtisadiyyatını bərpa etmək idi. Konstitusiya qəbul edildikdən sonra 1920-ci il dekabrın 9-da parlamentin hər iki palatasının birgə iclasında Xristian-Sosial Partiyasının nümayəndəsi, 63 yaşlı Mixael Qayniş respublikanın ilk prezidenti seçildi. O, iki müddət üçün 1928-ci ilin dekabrınadək ölkə prezidenti oldu.

Xristian-Sosial Partiyasını katolik kilsəsi daha fəal müdafiə etdi. Sosial-demokratlar isə müxalifətə keçdilər. Bundan sonra Avstromarksistlər 1920-ci ilin dekabrında Berndə inqilabi mərkəzçilərin birinci konfransını keçirdilər, 1921-ci ilin fevralında isə Beynəlxalq Sosialist Fəhlə Partiyalarının birliyini - Vyana İnternasionalını yaratdılar. Lakin Mərkəzi Avropada inqilabi hərəkat aşağı düşdüyündən bu ideologiyanın yararsızlığı özünü daha aydın şəkildə göstərdi.

## Avstriya 20-ci illərdə

1921-ci ildən başlayaraq Avstriya iqtisadiyyatında çətinliklər yarandı. İşsizlik və inflyasiya artdı. Belə şəraitdə 1921-ci ilin aprel və oktyabr aylarında imperator Karlın Habsburqlar monarxiyasını

bərpa etmək cəhdləri uğursuzluqla nəticələndi. Aprel ayında parlamentdə Habsburqlar sülaləsi üzvlərinin Avstriyaya qayıtmasını qadağan edən qanun qəbul olundu. Mayr hökuməti istefaya getdi. Onun yerinə 1921-ci ilin iyununda İ.Şoberin Pangerman Partiyası və İ.Zeypelin Xristian-Sosial Partiyası nümayəndələrinin koalisiyalı hökuməti yaradıldı. Hökumətin qarşısında duran başlıca vəzifə ölkə iqtisadiyyatını bərpa etmək idi. Bu vəzifəni yerinə yetirmək üçün hökumət daxili siyasətdə geniş proqramlar həyata keçirdi. Oktyabr ayında qəbul edilən maliyyə planına görə ölkə iqtisadiyyatı sağlamlaşdırılmalı idi. Lakin bu planı həyata keçirmək üçün maliyyə vəsaiti çatışmırdı.

Şober hökuməti xarici siyasəti fəallaşdıraraq Çexoslovakiya ilə münasibətləri yaxşılaşdırmaq üçün addımlar atdı. 1921-ci il dekabrın 16-da Çexoslovakiya prezidenti Masarik və Avstriya kansleri Şober Praqadakı Lan sarayında eyni adlı müqaviləni imzalayaraq mövcud sərhədlərə hörmət edəcəkləri barədə qarşılıqlı öhdəlik götürdülər.

Şober istefaya getdikdən sonra 1922-ci il mayın 31-də katolik kilsə xadimi, Xristian-Sosial Partiyasının nümayəndəsi İqnas Zeypel yenidən pangermanlarla birlikdə hökumət yaratdı. Hökumət daxili siyasətdə başlıca diqqətini ölkənin iqtisadi inkişafına yönəltdi. Ölkəyə xarici kapital axınını gücləndi. Xüsusən, fransız və italyan kapitalı ölkə iqtisadiyyatında əsaslı rol oynamağa başladı. Zeypelin xarici dövlətlərə etdiyi səfərlər, ən başlıcası isə 1922-ci ilin avqustunda Almaniyaya səfəri alman kapitalının Avstriyaya gəlməsinə şərait yaratdı. 1922-ci ilin sentyabrında Zeypel Millətlər Cəmiyyəti Şurasında çıxış edərək ölkəsinə istiqrazlar verilməsini xahiş etdi. Oktyabrın 4-də Avstriya hökuməti Böyük Britaniya, Fransa, İtaliya və Çexoslovakiya ilə dörd təminat protokolunu imzalayaraq ölkə iqtisadiyyatını bərpa etmək məqsədi ilə Millətlər Cəmiyyətindən istiqraz alınması məsələsini həll etdi. Bu dövlətlər istiqrazların qaytarılması üçün təminatçı oldular. Avstriya parlamenti protokolları 1922-ci il noyabrın 27-də təsdiq etdi. Protokollar 1923-cü il yanva-

rın 1-dən qüvvəyə mindi. Bunun əvəzində Avstriya hökuməti anşlüsdən imtina etmək barədə əlavə təminat verdi. Protokollar təsdiq edildikdən sonra ölkəyə istiqrazların axını başlandı. Bu protokollara görə Avstriya Millətlər Cəmiyyətinin təxminən 650 mln. qızıl kron istiqrazını aldı. İstiqrazın alınması Avstriya iqtisadiyyatının bərpası və inkişafında mühüm rol oynadı. Sənaye və kənd təsərrüfatı bərpa edildi. Yeni sənaye sahələri yaradıldı. Lakin ölkədə sosial şərait xeyli mürəkkəb olaraq qalırdı.

İqtisadiyyatın bərpası və inkişafı şəraitində Avstriyanın siyasi qüvvələri öz strategiyalarına yenidən baxdılar. Dövlət quruluşunun gələcək inkişafında əsas rolu Xristian-Sosial Partiyası oynadı. XSP liderlərinin 1919-1922-ci illərdə tutduqları mövqenin əksinə olaraq Avstriya xristian sosializmi ideya-siyasi axın kimi demokratiya və bazar liberalizmindən müəyyən qədər uzaq idi. Hələ XIX əsrin 70-80-ci illərində Avstriya katolikləri arasında marksizmi və klassik liberalizmi inkar edərək cəmiyyətin siniflərin fövqündə duran inkişafı məqsədləri uğrunda hərəkat yaradılmışdı. Katoliklərin bu hərəkatının formalaşması və inkişafında Vatikan mühüm rol oynadı. Roma Papası həm inqilabi fəhlə hərəkatını və marksizmi, həm də adamlarda inamsızlıq, nihilizm və təcavüzkarlıq yaradan kapitalizmi kəskin tənqid etməyə başladı.

20-ci illərin əvvəllərində xristian-sosial hərəkatının inkişafında yeni ideoloji təkamülün yaradılması mərhələsi başlandı. Papa XI Piy 1922-1929-cu illərdə cəmiyyətin həmrəylik əsasında yenidən əsaslı qurulması ideyasını irəli sürdü. Avstriya katoliklərinin fəal müdafiə etdikləri bu proqramda iki əsas prinsip var idi: cəmiyyətin zümrə-korporativ quruluşu və subsidiarnlıq (kömək, müdafiə). Korporativlər təkcə cəmiyyətin həmrəyliyini yaratmaq deyil, həmçinin sinfi ziddiyyətləri ləğv etmək məqsədi güdürdü.

Subsidiarnlıq isə fərdin öz gələcəyi üçün təminat almasını, müstəqilliyini saxlamasını, sosial ədaləti və mənəvi dirçəlişi nəzərdə tuturdu.

Xristian-sosial ideologiyasının idealı mücərrəd insan amili de-

yil, həmkarlar ittifaqları, ailə və dini cəmiyyətdə konkret şəxsin azadlığı idi. Həqiqi korporativ sistem sinfi və fərdi dəyərlərə qarşı olduğundan xristian-sosial hərəkatını faşizmlə yaxınlaşdırdı.

Korporativ ideologiyanın yaradılması Avstriya cəmiyyətini böhrandan çıxarmağa yönəlmişdi. Bu, klassik liberal doktrinaya alternativ olaraq yaradıldı. Korporativ ideologiyada cəmiyyətin siyasi və iqtisadi cəhətdən deyil, adamların mənəvi inkişafı, sosial yaradıcılığı və insani münasibətlər baxımından yenidən qurulması irəli sürüldü. Bu məsələdə sosial katolisizm və faşizm həmfikir idi.

Korporativizm yeni siyasi layihə olaraq əslində Avstriyada ilkin faşist hərəkatının yaranmasına kömək etdi. İlkin faşizmin yaranmasında katolisizm də mühüm rol oynadı. Faşizmin Avstriya variantı başqa ölkələrdəki müvafiq hərəkatlardan o qədər də fərqlənmirdi. Bu hərəkatın əsasını hərbiləşdirilmiş özünümüdafiə dəstələri olan heymverlər tutdular. Lakin onlar sonralar müstəqil siyasi qüvvəyə çevrilə bilmədilər.

1923-cü ilin aprelində Zeypel hökumətinin strukturunda yenidənqurma edildi. Nazirliklərin sayı azaldıldı, nəqliyyat, daxili işlər və ədliyyə nazirlikləri ləğv edildi. Onların səlahiyyətləri əsasən kanslerə verildi. Orduda islahatlar həyata keçirildi. Siyasi partiyalara geniş sərbəstlik verildi. İcraedici hakimiyyətin mərkəzləşdirilməsi Avstriya cəmiyyətinin faşistləşdirilməsində ilk addım oldu.

Həmin ildə Sosial-Demokrat Partiyası hərbiləşdirilmiş təşkilat olan Şusbund ("Müdafiə ittifaqı") yaratdı. Onun tərkibinə 100 min sosial-demokrat, kommunist və b. daxil oldu. Şusbundun yaradılmasında başlıca məqsəd partiyanın mühafizəsini və keçirdiyi tədbirlərdə qayda-qanunu qorumaq idi. Əslində Şusbund partiyanın silahlı qüvvəsi funksiyalarını yerinə yetirirdi.

1923-cü il oktyabrın 21-də parlamentə keçirilən seçkilərdə 165 deputat yerindən 83-nü Xristian-Sosial Partiyası, 10-nu isə pangermanlar qazandılar. Digər partiyalar da mandat qazana bildilər.

1924-cü ilin payızında Zeypel hökuməti istefaya getdi. Onun əvəzində həmin il noyabrın 20-də Xristian-Sosial Partiyasının

liderlərindən biri olan Rudolf Ramek pangermanlarla birlikdə koalisiyalı hökumət yaratdı. Yeni hökumət daxili və xarici siyasətində əvvəlki hökumətin yeritdiyi xətti davam etdirdi. Avstriya-Almaniya münasibətləri yaxşılaşdı. Ölkə iqtisadiyyatında alman kapitalının təsiri artdı. Xırda banklar iflasa uğradı. Millətlər Cəmiyyəti 1925-ci ilin dekabrında istiqrazlara görə nəzarəti və Baş komissarın fəaliyyətini 1926-cı il iyunun 30-dan etibarən dayandıracağını bildirərək onun icazəsi olmadan Avstriyaya istiqraz verilməsini qadağan etdi. Bu vəziyyətdə 1926-cı il oktyabrın ortalarında Ramek hökuməti istefaya getdi. Oktyabrın 20-də Zeypel Xristian-Sosial Partiyası və pangermanların nümayəndələrindən ibarət yeni koalisiyalı hökumət qurdu. Hökumət geniş sosial proqramlar həyata keçirdi. İşsizlərə 30 həftədən çox müddət üçün yardım verildi. Hökumət ölkə iqtisadiyyatının səmərələşdirilməsi siyasətini yeritdi. 1927-ci ilin yanvarından ölkədə faşistlər daha da gücləndi. Faşist qüvvələri olan heymverlər fəaliyyətlərini xeyli genişləndirdilər. Yanvarın 30-da faşistlər Şattendorf şəhərində fəhlə nümayişinə atəş açdılar. Bir fəhlə və 8 yaşlı uşaq öldürüldü. Bu hadisə ölkədə geniş əks-sədaya səbəb oldu. İyulun 14-də qətli törədənlərə məhkəmənin bəraət verilməsinə etiraz əlaməti olaraq iyulun 15-də fəhlələr Vyana küçələrinə çıxdı. Onların üstunə polis yeridildi. Küçələrdə barrikadalar quruldu. İyulun 17-də tətil yatırıldı. 87 fəhlə öldürüldü, 1057 nəfər yaralandı. Yüzlərlə fəhlə və kommunist həbs edildi.

1927-ci il aprelin 24-də Avstriya parlamentinə keçirilən seçkilərdə Xristian-Sosial Partiyası və pangermanlar blok yaradaraq seçkiyə getdilər. Xristian-Sosial Partiyası 73, sosial-demokratlar 71, pangermanlar 12, landbundlar isə 9 mandat qazandılar. Seçkilərdən bir ay sonra 1927-ci ilin mayında Xristian-Sosial Partiyasının, pangermanların və landbundların nümayəndələri Zeypel başda olmaqla yeni hökumət yaratdılar.

Ölkədə faşist hərəkatı daha da gücləndi. 1928-ci ilin avqustunda Avstriyadakı faşist təşkilatlarının birləşdirici

müşavirəsi keçirildi. Onun ilk füreri Rixard Şteydl oldu. Ölkədə antifaşist hərəkat xeyli zəif idi.

Xarici siyasət sahəsində Avstriya hökuməti amerikan kapitalının ölkəyə nüfuz etməsi üçün şərait yaratdı.

1928-ci il dekabrın əvvəllərində parlamentin hər iki palatasında parlamentin sədri Miklas respublika prezidenti seçildi. Bundan sonra ölkədə yeni hökumət formalaşdırıldı. 1929-cu il aprelin 3-də Zeypel hökuməti gözlənilmədən istefaya getdi. Mayın 4-də böyük iş adamı, Xristian-Sosial Partiyasının nümayəndəsi Ştreruvis kabinet təşkil etdi. Yeni hökumət daxili və xarici siyasətdə əvvəlki xətti davam etdirdi. Bu hökumətin zamanında da ölkədə faşist hərəkatı gücləndi. 1929-cu il sentyabrın 25-də Ştreruvis hökuməti də gözlənilmədən istefaya getdi. Bir gün sonra kansler vəzifəsinə Vyana polisinin rəhbəri Şober seçildi. Hökumətin tərkibinə Xristian-Sosial Partiyası, pangermanlar və landbundların nümayəndələri daxil edildilər.

## Avstriya dünya iqtisadi böhranı illərində

Dünya iqtisadi böhranı Avstriyanın sosial-siyasi və iqtisadi həyatına ciddi təsir etdi. Kortəbii antifaşist hərəkatı yatırıldıqdan sonra ölkədə fəaliyyətlərini genişləndirən faşist təşkilatları dünya iqtisadi böhranı illərində hökumətin siyasətinə təsir göstərməyə başladılar. Belə vəziyyətdə Şober hökuməti heymverləri xalq hərəkatı kimi elan etdi.

1929-cu il oktyabrın 7-də böyüklüyünə görə Vyananın ikinci bankı olan "Bodenkreditanştalt" iflasa uğradı. Ölkənin maliyyə sistemi pozuldu. Hökumət maliyyə böhranının qarşısını almaqdan ötrü bankların birləşdirilməsi xəttini götürdü. İqtisadi böhran Avstriya sənayesində mərkəzləşməni və təmərküzləşməni gücləndirdi. Böhran illərində işsizlərin sayı artdı və vergilər çoxaldıldı. Mənzil haqları artırıldı.

1929-cu il dekabrın 7-də ölkənin yeni konstitusiyası qəbul edil-

di. Konstitusiyaya görə prezidentin hüquqları genişləndirildi. Parlament seçkilərində iştirak etmək üçün yaş həddi 20-dən 21-ə qaldırıldı. Prezident parlamentin hər iki palatasında 7 il müddətinə seçilməli idi.

Şober hökuməti 1930-cu il sentyabrın 5-də istefaya getdi. Prezident Miklasın tövsiyəsi ilə Voquen kansler oldu. Onun sərəncamı ilə oktyabrın 1-də parlament buraxıldı. Noyabrın 9-da parlamentə yeni seçkilər keçirildi. Voquen noyabrın 29-da istefaya getdi. Seçkilərin nəticəsində XSP 66, Avstriya Sosial-Demokrat Fəhlə Partiyası 72, pangermanlar 19, heymverlərin liderlərinin yaratdıqları "Vətən Bloku" 8 yer aldı. Seçkilər sağ partiyaların nüfuzunun aşağı düşdüyünü göstərdi. Xristian-Sosial Partiyasının nümayəndəsi Otto Ender ölkə kansleri seçildi. Ender hökuməti 1930-cu il dekabrın 4-dən 1931-ci il iyunun 20-dək hakimiyyətdə oldu. Bu hökumətin Avstriya-Almaniya kömrük İttifaqının yaradılması haqqında saziş imzalaması beynəlxalq təzyiqlərə gətirib çıxardı. Nəticədə hökumət istefaya getdi. Yeni hökuməti Karl Bureş yaratdı. Hökumətin tərkibinə Xristian-Sosial Partiyası, landbund və pangermanların nümayəndələri daxil oldu. Yeni hökumət iqtisadi böhranın qarşısını almaqda aciz qaldı. Avstriyaya kreditlər verilməsi məsələsi böyük dövlətlər tərəfindən istənilən qaydada həll olunmadığı üçün qalmaqal yarandığından Bureş hökuməti 1932-ci il mayın 13-də istefaya getdi. Mayın 20-də Xristian-Sosial Partiyasının nümayəndəsi Engelbert Dolfus yeni kabinet təşkil etdi. Hökumətin tərkibinə Xristian-Sosial Partiyası, heymverlər və landbundların nümayəndələri daxil oldu. Daxili siyasət sahəsində Dolfus iqtisadi böhrana qarşı mübarizə aparmaq məqsədilə tədbirlər həyata keçirdi: işsizlərə yardım fondu yaradıldı; büdcə kəsirini aradan qaldırmaq üçün vergilər artırıldı. Kommunist və Sosial-Demokrat Partiyalarının fəallaşması qarşısında hökumətin passiv hərəkəti Avstriya nasional-sosialistlərini qəzəbləndirdi. Onlar fəaliyyətlərini genişləndirərək hətta 1931-ci ildə qiyam qaldırmağa cəhd də etdilər. Lakin Avstriyada nasional-sosializm Alma-

niyadakı kimi güclü deyil, dağınıq idi. Almaniyada nasional-sosializm hakimiyyət başına gəldikdən sonra Avstriyada müvafiq təşkilatlar ikinci alman dövlətini yaratmaq ideyasını daha geniş təbliğ etməyə başladılar.

1933-cü il martın 7-8-də Dolfus Nazirlər Kabinetinin fövqəladə iclasını çağırdı. İclasdan sonra o, prezident Miklasa hökumətin istefaya getməsi barədə ərizəni təqdim etsə də istefası qəbul olunmadı. Prezident xalqa müraciət edərək ölkədə parlament böhranının hökm sürdüyünü bəyan etdi. Siyasi sistemdə ağır vəziyyət yarandı. Martın 15-də parlament özünü buraxdı. Küçə nümayişləri və açıq toplantılar qadağan edildi. Senzura tətbiq olundu. Sosial-demokratların Şusbund hərbiləşdirilmiş təşkilatı qadağan edildi. Hökumətə fövqəladə dekretlər qəbul etmək səlahiyyəti verildi. Artıq 1933-cü ilin aprelin sonunda hökumət 40 fövqəladə dekret verdi. Mayın 26-da Kommunist Partiyası, iyun ayında isə Nasional-Sosialist Partiyası qadağan edildi. 1933-cü il sentyabrın 20-də Dolfus hökuməti yenidən qurdu. Bu kabinetin tərkibinə landbundlar daxil edilsə də onlar hökumətdə əsaslı rol oynamadılar.

Fəaliyyətlərini gücləndirən və İtaliyaya meyl edən Xristian-Sosial Partiyası, katolik təşkilatları və heymverlər 1933-cü ilin iyulunda Vətən Cəbhəsi yaratdılar. Onlar Dolfusun mudafiəçilərinə çevrildilər.

Dolfus hökumətinin ölkədə qayda-qanunları möhkəmləndirmək cəhdləri elə bir nəticə vermədi. Avstriya nasional-sosialistləri Almaniya nasional-sosialistləri ilə əlaqələrini genişləşdirdilər. Bu qüvvələr Dolfusun aradan götürülməsi planlarını işləyib hazırladılar. 1933-cü il noyabrın 10-da Dolfus hökumətinin qətlləri və yanğınları törədənlərə qarşı ölüm hökmünü tətbiq etmək barədə dekreti nasional-sosialist təşkilatlarını qəzəbləndirdi. Hökumətin tədbirləri ciddi müqavimətə rast gəldi. Ölkədə nasional-sosialistlərin terroru və təxribatı gücləndi. Bu təşkilatların hakimiyyəti qiyam yolu ilə ələ keçirmək cəhdləri toqquşmalara gətirib çıxardı. Onlar məğlubiyyətə uğradı. Bundan sonra ölkədə nasional-so-

sialistlər gizli fəaliyyətlərini daha da gücləndirdi.

Hökumət kilsə ilə münasibətlərini sıxlaşdırdı. 1933-cü ildə Vatikanla imzalanan konkordata görə təhsil sahəsində kilsənin hüquqları genişləndirildi.

1934-cü il ölkənin siyasi sistemi daha çox İtaliya sisteminə bənzədildi. 1934-cü ilin fevralında Şusbundun qaldırdığı üsyan yatırıldıqdan sonra ASDFP də qanundankənar elan olundu. Ölkədəki bütün partiyalar qadağan edildi. 1934-cü il martın 2-də Avstriya fəhlə və qulluqçularının ümumi dövlət Həmkarlar İttifaqları yaradıldı. Aprelin 30-da 1933-cü ilin martından bəri çağrılmayan keçmiş parlament fəaliyyətini bərpa etdi. Parlament iclaslarında 471 fövqəladə dekret təsdiq edildi. 1934-cü il mayın 1-də Avstriya konstitusiyası qüvvəyə mindi. Konstitusiya Avstriyanı təbəqə prinsipinə əsaslanan xristian, alman, ittifaq dövləti elan etdi. Ölkədə yeganə qanuni siyasi hərəkat bütün loyal partiyaları birləşdirən Vətən Cəbhəsi oldu. Dövlət idarəçiliyinin quruluşu siniflərdən kənar sahə birlikləri olan korporasiyalara və onların əsasında seçilən şuralara əsaslanırdı. Bu şuralar - Dövlət Şurası, Torpaq Şurası, İqtisadiyyat və mədəniyyət məsələləri üzrə ittifaq şurası idi. Ölkənin təsərrüfat fəaliyyəti 7 yarımmuxtar sahəyə - kənd və meşə təsərrüfatı, sənaye və dağ-mədən işi, sənətkarlıq, ticarət və nəqliyyat, maliyyə və sosial təminat, azad peşələr, dövlət xidmətinə bölündü.

Ölkədə Avstriya milli özünüdərki və Habsburqlar dövrünün təbliğat kampaniyası gücləndirildi. Bununla belə, Avstriyada faşizm rejimi sabitliyin qorunması məqsədilə kütlələrin səfərbər edilməsinə deyil, hakimiyyətin ənənəvi institutlarına əsaslanan yumşaq rejim idi. Avstriya faşizminə qatı millətçilik, irqçilik, antisemitizm və işğalçılıq xas deyildi.

Bu isə ölkədə fəaliyyət göstərən nasional-sosialistlərin narazılığına səbəb oldu. Hökumət onlara qarşı hərəkətə keçdi. Almaniya nasional-sosialistləri ilə sıx bağlı olan Avstriya nasional-sosialist hərəkatı sıxışdırılmağa başlandı. Bu hərəkatın başlıca məqsədi

Avstriyanın Almaniya ilə birləşdirilməsi idi. Dolfus isə XSP proqramının Avstriyada Almaniyadan tamamilə fərqli, lakin İtaliyaya bənzər korporativ dövlət yaradılması inancında idi. Bu, Dolfusun hakimiyyəti illərində Avstriyanın xarici siyasətində İtaliyaya üstünlük verildiyini göstərirdi. Avstriyanın İtaliya və Fransa ilə yaxınlaşması nəticəsində sonralar, 1935-ci ilin aprelində keçirilən beynəlxalq konfransda Avstriyanın müstəqilliyinə təminat verildi və anşlüs ideyası pisləndi. Nasional-sosialistlər sıxışdırılmalarına cavab olaraq qiyama cəhd etdilər. Hökumət bir neçə avstriyalı nasional-sosialisti edam etdirdi. Bundan sonra onlar sui-qəsd hazırladılar. 1934-cü il iyulun 25-də 14 nəfər nasional-sosialist tərəfindən hökumət binasında girov götürülən kansler Dolfus yaralandı. Qiyamçılar Dolfus hökumətinin istefaya getdiyini və Rintelenin yeni kabinet yaratdığını elan etdilər. Dolfus az sonra öldü. Lakin tezliklə qiyamçılar məğlub edildilər. Prezident Miklas yeni kansler vəzifəsinə Kurt Şuşniqi təyin etdi. Vitse-kansler vəzifəsini heymver Ştaremberq tutdu. Bundan sonra ölkədə alman maliyyə kapitalının nüfuzu artdı. 1936-cı ilin aprelində ümumi hərbi mükəlləfiyyət bərpa edildi və ordunun sayı artırıldı. Nasional-sosialist təşkilatlarının güclənməsi hökuməti müvafiq tədbirlər görməyə məcbur etdi. May ayında Ştaremberq vitse-kansler vəzifəsindən uzaqlaşdırıldı, heymverlər isə tərksilah olunaraq ləğv edildi. İyunda dövlətin müdafiə edilməsi haqqında qanun qəbul olundu.

Şuşniqin hakimiyyəti illərində Avstriyanın xarici siyasəti Almaniya ilə yaxınlaşmağa yönəlsə də, ehtiyatlı olmaqla Böyük Britaniya və Fransa ilə münasibətlərin qorunub saxlanılmasını da nəzərə alırdı. Almaniyanın Avstriyadakı nasional-sosialist təşkilatlarının işinə qarışması hökumətin vəziyyətini ağırlaşdırdı. 1936-cı ilin iyulun 11-də Almaniya ilə Avstriya arasında üç maddədən ibarət saziş bağlandı. Sazişə görə alman hökuməti Avstriya dövlətinin suverenliyini tanıyırdı; bu dövlətlər bir-birilərinin daxili işlərinə qarışmırdılar; Avstriya hökuməti

Almaniya ilə münasibətdə özünü alman dövləti kimi aparırdı.

Almaniya-Avstriya sazişi imzalandıqdan sonra Vyana həbsxanalarında saxlanılan avstriyalı nasional-sosialistlər azadlığa buraxıldılar. Noyabrın 3-də Şuşniq kabinetində dəyişikliklər edilərək almanpərəst şəxslərə vəzifələr verildi. Bundan sonra Almaniya ilə münasibətlər daha da sıxlaşdırıldı. 1936-cı il noyabrın 21-də iki ölkə arasında iki maddədən ibarət gizli protokol imzalandı. Bu protokola görə tərəflər kommunizmə qarşı birgə mübarizə aparmalı və ilkin məsləhətləşmə olmadan Balkanlarda heç bir yeni iqtisadi sazişlərdə iştirak etməməli idilər. Protokola əsasən Avstriyanın xarici siyasəti Almaniyanın nəzarəti altına keçdi. Az sonra Avstriyanın Almaniyaya birləşdirilməsi ideyası daha geniş təbliğ edildi. 1938-ci ilin fevralın 12-də Şuşniqlə Hitler arasında Berxteshagendə görüş keçirildi. Görüşdə Almaniyanın etimad göstərdiyi Zeys-İnkvartın hökumətin tərkibinə daxil edilməsi və həbsdə olan nasional-sosialistlərin azad edilməsi Şuşniqə təklif edildi. Şuşniq Vyanaya qayıtdıqdan sonra Hitlerin tələblərini yerinə yetirdi. Hökumət Avstriyanın Almaniyaya birləşdirilməsinə dair plebisist keçirdi. Plebisistdə iştirak edənlər bu məsələyə səs verdi. Martın 11-də Şuşniq istefaya getdi. O, radio ilə çıxış edərək xalqı və silahlı qüvvələri alman ordusuna müqavimət göstərməməyə çağırdı. Kansler vəzifəsinə prezident Miklas tərəfindən Zeys-İnkvart təyin edildi. Zeys-İnkvart Almaniyanın Avstriyaya birləşdirilməsinin hüquqi-siyasi əsaslarını işləyib hazırladı. Martın 12-də alman orduları Avstriyaya gəldi. Martın 13-də hökumət Avstriyanı alman dövləti elan etdi. Almaniya hökuməti isə öz növbəsində Avstriyanı rəsmi olaraq Ostmark ("Şərq markası") adı altında Üçüncü reyxin tərkibinə qatdı. Beləliklə, "vahid xalq, vahid ölkə, vahid fürer" yaradıldı. Bununla da, Avstriyanın anşlüsü başa çatdı.

# IX BÖLÜM

## MACARISTAN

### Birinci dünya müharibəsinin ölkə üçün nəticələri

Macarıstanda yaranan ağır sosial-iqtisadi və siyasi vəziyyət 1918-ci ilin payızında inqilabın başlanmasına gətirib çıxardı. Avstriya-Macarıstan ordusunun italyan cəbhəsində ağır məğlubiyyətə uğraması kral IV Karlın hakimiyyətini və Vekerle hökumətinin mövqelərini tamamilə zəiflətdi. IV Karl çoxmillətli monarxiyanı dağılmaqdan xilas etmək məqsədilə 1918-ci il oktyabrın 16-da ölkənin federativ dövlətə çevrildiyini elan etdi. Lakin bu da imperiyanın süqutunun qarşısını ala bilmədi. Oktyabrın 23-də Vekerle istefaya getdi. "Payız qızıl gülləri" adlandırılan milli-demokratik inqilabın gedişində Macarıstan monarxiyası ləğv edildi. Macarıstan Sosial-Demokrat Partiyasının plenumunda Milli Şura yaratmaq barədə qərar qəbul edildi. İstiqlal Partiyasının lideri qraf Mixay Karoyi (1875-1955) başda olmaqla Milli Şura yaradıldı. Milli Şuranın tərkibinə istiqlalçılar, sosial-demokratlar və radikalların nümayəndələri daxil oldu. Tezliklə bütün ölkədə Milli Şuranın nüfuzu artdı.

Rumın və çex milli şuraları da monarxiya ilə əlaqələrini kəsdilər. Çexiya Avstriyanın tərkibindən çıxıb müstəqil dövlət oldu. Müstəqilliyini elan edən Slovakiyanın Çexiya ilə birləşməsi nəticəsində Çexoslovakiya dövləti yaradıldı. Avstriya da respublika elan edildi. Beləliklə, Habsburqların hakimiyyəti yalnız Macarıstan ərazisində qaldı. IV Karlın tapşırığı ilə Macarıstanın Ershersoqu İosif oktyabrın 29-da Xadiki baş nazir təyin etdi. Bir gün sonra o, hökumət yaratdı. Lakin vəziyyət düzəlmədi və xalqın narazılığı aşağı düşmədi. Oktyabrın 30-da Budapeştdə üsyan başladı. Oktyabrın 31-də Xadik istefaya getdi. IV Karlın tapşırığı ilə İosif baş nazir

vəzifəsinə M.Karoyini təyin etdi.

Yeni hökumətin tərkibi əsasən antantapərəst şəxslərdən ibarət idi. Hökumətin tapşırığı ilə 1918-ci il noyabrın 3-də Padui yaxınlığında general Veber faktiki mövcud olmayan Avstriya-Macarıstan imperatorluğu adından Antanta dövlətləri ilə barışıq imzaladı. Barışığın şərtlərinə görə Avstriya-Macarıstan yalnız 20 diviziya saxlaya bilərdi; qalan ordu tərxis olunurdu; dəniz və çay donanması tərksilah edilirdi; hərbi əmlakın yarısı Antanta ölkələrinə verilirdi və s.

1918-ci il noyabrın 11-də Kompyen meşəsində barışığın imzalanması ilə birinci dünya müharibəsi başa çatdı. Noyabrın 13-də qalib dövlətlərin təqdim etdiyi konvensiyanı macar hökuməti adından portfelsiz nazir Bela Linder imzaladı. Yaranmış əlverişli beynəlxalq şəraitdən istifadə edən milyon nəfərdən çox rumın yaşadığı Transilvaniyanı Rumıniyaya birləşdirmək istədi. Macar orduları isə bitərəf zonanı tutdular. Transilvaniyanı özünə birləşdirmək istəyən Macarıstanla Rumıniya arasında danışıqlar başlandı. Lakin çətin keçən danışıqlar nəticəsiz qurtardı. Transilvaniya Rumıniyaya birləşdirildi. Bundan sonra Macarıstanda inqilabi əhvali-ruhiyyə gücləndi. Belə şəraitdə xalq Macarıstanın respublika elan olunmasını tələb edirdi. Qanunverici məclisin çağrılmasını gözləmədən Macarıstan Milli Şurası 1918-ci il noyabrın 16-da Macarıstanı respublika elan etdi. Dövlət Şurası ləğv edildi. Dövlət başçısının funksiyaları hökumətə verildi. Respublika prezidentini seçmək təxirə salındı.

Xalqın narazılığı güclü olduğundan sosialistlərin kütlələrə təsiri xeyli artdı. Rusiyadan vətənə dönən hərbi əsirlər Bela Kunun təşəbbüsü ilə 1918-ci il noyabrın 21-də Macarıstan Kommunist Partiyasını yaratdılar. Xeyli zəif olan bu təşkilat fəaliyyətində sinfi mübarizəyə və zorakılığa əsaslanırdı. Hökumət bir neçə ay sonra Kommunist Partiyasının rəhbərliyini tutaraq həbsxanaya saldı.

1918-ci ilin sonunda ölkədə siyasi böhran yarandı. Karoyi koalisiyalı hökuməti tərkibində dəyişikliklər etməklə saxladı. Milli Şura 1919-cu il yanvarın 7-də M.Karoyini respublikanın müvəqqəti

prezidenti elan etdi. O, da öz partiyasının nümayəndəsi olan Deniş Berinkeyi baş nazir təyin etdi. Ölkədə koalisiyalı hökumət yaradıldı. Ümumi seçki hüququ, söz, mətbuat, ittifaqlar və yığıncaq azadlığı verildi. 8 saatlıq iş günü tətbiq olundu. Təsərrüfatın Sosiallaşdırılması Nazirliyi yaradıldı. Aqrar islahat həyata keçirilməyə başlandı. Lakin bu da ölkədə sosial-siyasi gərginliyi zətflətmədi.

1919-cu il fevralın 26-da Antanta Ali Şurası Macarıstanla Rumıniya arasında bitərəf zona yaradılması barədə qərar qəbul etdi. Bu qərara görə macar orduları 24 saat müddətində bitərəf zonanı boşaltmalı idi. Belə qərarın qəbul edilməsi Macarıstanın beynəlxalq vəziyyətini ağırlaşdırdı. 1919-cu il martın 20-də Budapeştdəki fransız hərbi missiyasının rəhbəri podpolkovnik Viks macar hökumətinə nota təqdim etdi. Bu notaya görə macar orduları Şərqi Macarıstan və Karpatarxası Ukraynadan çıxarılmalı, həmin ərazilər Çexoslovakiya və Rumıniya orduları tərəfindən tutulmalı idi. Antanta ölkələrinin notası martın 20-də Nazirlər Şurasının iclasında müzakirə edildi. Vəziyyətdən çıxış yolu tapa bilməyən hökumət istefaya getməyə məcbur oldu. Qraf İştvan Betlenin yeni hökumət yaratmaq cəhdləri uğursuz oldu. Hökumət böhranı daha da dərinləşdi.

## Macarıstan Sovet Respublikası

Martın 21-də sosial-demokratlarla kommunistlərin nümayəndələri E.Landler və həbsxanada olan Bela Kun partiyaları birləşdirərək Sosialist Partiyasını qurub hökumət yaratmaq barədə razılığa gəldilər. Həmin gün Budapeşt küçələrinə çıxaraq silahlı yolla hakimiyyəti ələ alan fəhlə və kəndlilər Macarıstanı Sovet Respublikası elan etdilər. Hökumətə sosial-demokrat Şandor Qarbayi başçılıq etdi. Hökumətin tərkibinə 14 kommunist, 17 sosial-demokrat və iki bitərəf daxil edildi. Xalq Xarici işlər komissarı sosial-demokrat, müavinləri isə kommunistlər oldu.

Sovet hakimiyyətinin ilk günündən köhnə dövlət aparatı dağıdılaraq yerində yeni dövlət orqanları yaradılmağa başlandı. Fəhlə,

kəndli və əsgər deputatları sovetləri quruldu. Onların başında geniş səlahiyyətləri olan 3-5 nəfərdən ibarət direktoriumlar dururdu. Aprelin 2-də inqilabi hökumət şurası Macarıstan Sovet Respublikasının konstitusiyasını elan etdi. Konstitusiyaya görə mərkəzi dövlət hakimiyyət orqanı Ümummacar Sovetlər qurultayı, yerlərdə isə qəza, rayon, şəhər və kənd sovetləri idi. 18 yaşından yuxarı bütün vətəndaşlara seçib-seçilmək hüququ verildi. Tacirlər, ruhanilər və digər imkanlı şəxslər seçki hüququndan məhrum edildi. Aprelin birinci ongünlüyündə sovetlərə ərazi prinsipi üzrə gizli seçkilər keçirildi. Birinci Ümummacar Sovetlər qurultayı iyunun 14-23-də toplandı. Qurultayın sonuncu günü Macarıstan Sosialist Federativ Sovet Respublikasının konstitusiyası təsdiq edildi. Ordu və milis yaradıldı. Köhnə polis ləğv edildi. Sovet hökumətinə qarşı çıxanları cəzalandırmaq məqsədi ilə hərbi inqilabi tribunallar yaradıldı. Martın 22-də fabrik və zavodolar, dağ-mədən və nəqliyyat, martın 26-da maliyyə, aprelin 2-də isə fəhləsi 10 nəfərdən çox olan iri və orta ticarət və maliyyə müəssisələri milliləşdirildi. Xırda ticarətə toxunulmadı. Xarici ticarət üzərində dövlət inhisarı qoyuldu. Mayın 19-da ölkə iqtisadiyyatını idarə etmək üçün ali orqan olan Xalq Təsərrüfatı Şurası yaradıldı. Lakin torpaq kəndlilərə paylanmadı və feodal qalıqları saxlanıldı. Kənd təsərrüfatı istehsal kooperativləri yaradıldı. Torpaq milliləşdirildi. Bu isə kəndlilərin narazılığına səbəb oldu. Ümumi əmək mükəlləfiyyəti haqqında dekret verildi. Sosial bərabərsizliyin ləğvi elan edildi. Pulsuz tibbi xidmət tətbiq olundu. Bütün rütbə və titullar aradan qaldırıldı, qadın və kişilərə bərabər hüquqlar verildi. Varlı evləri müsadirə edilərək fəhlə və döyüşçülərə paylandı.

Hökumət milli məsələnin həllinə girişdi. Bütün millətlərin bərabərliyi elan edildi. Lakin milli məslə ölkə qarşısında kəskin problem olaraq qalırdı.

Məktəblər, ali təhsil, teatr, klub və digər mədəniyyət və maarif ocaqları milliləşdirildi. Kilsə dövlətdən ayrıldı. Pulsuz təhsil sistemi tətbiq edildi.

Macar hökuməti nəinki kommunist inqilabını yaymağa, eyni zamanda qonşularına iddialar da irəli sürməyə başladı.

Macarıstanda yaranmış ağır sosial-iqtisadi vəziyyət xalqın narazılığına səbəb oldu. Hökumətin sosial dayaqları zəiflədi. Xarici ölkələr Macarıstandakı təhlükəli vəziyyəti nəzarətə almaq üçün hərəkətə keçdilər. Rumıniya orduları Macarıstana girdi. Eyni zamanda Fransa, Yuqoslaviya və Çexoslovakiya orduları da hücuma keçdi. Macar ordusu cavab olaraq sovet hakimiyyəti qurmaq məqsədi ilə Slovakiya ərazisinə daxil oldu. İyunun 16-da Slovakiya Sovet Respublikası yaradıldı. 1919-cu il iyunun 13-də Paris sülh konfransı adından Klemanso macar hökumətinə ultimatum verdi. Ultimatumda macar ordusunun 14 gün ərzində Çexoslovakiya ərazisindən çıxarılması tələb edildi. Eyni zamanda bildirildi ki, əgər bu tələb yerinə yetirilərsə rumın orduları tutduqları Macarıstan ərazisini boşaldacaqdır. Nota müzakirə edildi. İyunun 23-də macar ordularına demarkasiya xəttinə çəkilmək barədə əmr verildi. Hökumətin Antanta dövlətləri qarşısında geri çəkilməsi müxalifət tərəfindən zəiflik kimi qiymətləndirildi. İştvan Betlenin başçılığı ilə Vyanadakı mühacirət hökuməti fəaliyyətini genişləndirərək sovet hakimiyyətinin devrilməsi planını Paris sülh konfransına təqdim etdi. Qərbi Macarıstanda sovet hökuməti əleyhinə üsyan başlandı. Arad şəhərində isə qraf Dyula Karoyi başda olmaqla hökumət yaradıldı. Lakin Antanta ölkələri bu hökuməti qəbul etmədi. İyulun 12-də Dej Abraham başda olmaqla yeni hökumət yaradıldı. İyun-iyul aylarında Budapeştdə hökumət əleyhinə üsyanlar baş verdi. Hökumət üsyanların və rumın ordusunun hücumunun qarşısını ala bilmədi.

1919-cu il avqustun 1-də sovet hökuməti istefaya getdi. Sosial-demokratların nümayəndəsi Dyula Peydl başda olmaqla həmkarlar ittifaqı hökuməti yaradıldı.

Beləliklə, 133 gün fəaliyyət göstərdikdən sonra Macarıstan Sovet Respublikası iflasa uğradı. Macarıstan Sovet Respublikasının məğlubiyyətə uğramasının başlıca səbəbi onun sosial dayaqlarının

olmaması, yeridilən siyasətin yanlışlığı və xarici dövlətlərlə normal münasibətlər qura bilməməsi idi.

## Macarıstan 1919-1923-cü illərdə

1919-cu il avqustun 4-də rumın orduları Budapeştə daxil oldu. Altı gün fəaliyyət göstərdikdən sonra avqustun 7-də Peydl hökuməti devrildi. Devrilməmişdən əvvəl bu hökumət inqilabi tribunalları ləğv edərək köhnə quruluşu bərpa etdi və siyasi məhbusları azadlığa buraxdı. Milliləşdirilmiş müəssisələr sahiblərinə qaytarıldı. Avqustun 7-də isə hakimiyyətə iri fabrik sahibi İştvan Fridrix gəldi. Buna baxmayaraq ölkədə üç hakimiyyət mərkəzi formalaşdı. Budapeştdən şərqdəki əraziləri nəzarətdə saxlayan rumın ordusunun hakimiyyəti; İştvan Fridrix hökuməti; Dunay ətrafında yerləşən kontr-admiral Mikloş Xortinin milli ordusu. Real güc Xortinin tərəfində idi. Ölkədə qarışıq vəziyyət yaranmışdı. Belə şəraitdə cəmiyyət möhkəm idarəçiliyə ehtiyac duyurdu. Antanta ölkələrinin razılığı ilə rumın orduları Budapeştdən çıxarıldıqdan sonra Xortinin hərbi hissələri 1919-cu il noyabrın 14-də paytaxta daxil oldu. Noyabrın 16-da isə Xorti özü Budapeştə gəldi. İştvan Fridrix onu təntənə ilə qarşıladı. Xorti bundan əvvəl Avstriya-Macarıstan monarxiyası donanmasının komandanı olmuş, sonralar isə özünü ali baş komandan elan etmişdi. Noyabrın 23-də Xortinin təklifi ilə yeni mərkəzləşdirilmiş koalisiyalı hökumət yaradıldı. Bu hökumətə Karoy Qusar başçılıq etdi. Hökumət 1920-ci il yanvarın 25-də Milli Məclisə seçkilər təyin etdi. Fefralın 13-də Macarıstanda monarxiya bərpa edildi. Qusar hökuməti istefaya getdi. Yeni baş nazir vəzifəsinə vəkil Şandor Şimoni-Şemodan təyin edildi. 1920-ci il martın 1-də Xorti Macarıstan Dövlət Şurasında regent - macar krallığının hökmdarı seçildi. Regent parlamenti çağıra və buraxa bilərdi. Onun əlində qanunvericilik səlahiyyətləri cəmləndi və ordunun ali baş komandanı idi. Regent səfirləri təyin və qəbul edirdi. Müharibə və sülh məsələsinin parlamentdə təsdiqi daha çox Xorti-

nin iradəsindən asılı idi. Xorti sağ radikal hərəkatın və tədbirlərin əleyhinə çıxırdı. Beləliklə, Macarıstanda hakimiyyət strukturlarının formalaşdırılmasında şəxsiyyət amili başlıca rol oynadı.

1920-ci ilin yanvarında Parisdə Antanta ölkələri ilə macar nümayəndə heyəti arasında sülh danışıqları başladı. Müqavilə 1920-ci il iyunun 4-də Trianon sarayında imzalandı. Müqaviləyə görə Macarıstan qonşu dövlətlərlə müəyyənləşdirilmiş sərhədləri tanımalı idi; Transilvaniya və Banatın şərq hissəsi Rumıniyaya; Xorvatstan, Baçka və Banatın qərb hissəsi Yuqoslaviyaya; Slovakiya və Karpatarxası Ukrayna Çexoslovakiyaya; Burgenland Avstriyaya verilməli; Macarıstan Fium limanına olan iddialarından əl çəkməli idi; ümumi hərbi mükəlləfiyyət qadağan edildi; Macarıstan yalnız 35 minlik ordu saxlaya bilərdi; aviasiya, tank və ağır artilleriya saxlanması qadağan edildi. Noyabrın 15-də müqavilə Macarıstan parlamentində təsdiq edildi. Müqavilənin imzalanması ilə Avstriya-Macarıstan imperiyasının varlığına son qoyulması rəsmiləşdirildi və Macarıstan Avstriyadan ayrıldı. Trianon sülh müqaviləsinə görə müharibədə vurduğu ziyanlar üçün Macarıstan təzminat ödəməli idi.

Sülh müqaviləsi imzalandıqdan sonra açıq tənqidlərə məruz qalan Şimani-Şemodan hökuməti 1920-ci il iyunun 26-da istefa verdi. Yeni hökuməti qraf Pal Teleki yaratdı. Hökumətin qarşısında duran başlıca vəzifə ölkə iqtisadiyyatını bərpa etmək və zabit özbaşınalığının qarşısını almaq idi. Lakin hökumət bu problemlərin heç birini həll edə bilməyərək 1921-ci il aprelin 7-də istefa verdi. Aprelin ortalarında baş nazir vəzifəsinə böyük torpaq sahibkarı, qraf İştvan Betlen təyin edildi. O, bu vəzifədə 1931-ci ilədək qaldı. Hökumət xüsusi dəstələri buraxmaq haqqında qərar qəbul etdi. Keçmiş macar kralı Karl başda olmaqla legitimçilər adlanan dəstənin Habsburqlar sülaləsini bərpa etmək məqsədilə iki dəfə qaldırdığı qiyam yatırıldı. Macarıstan parlamenti Antanta öklələrinin tövsiyəsi ilə Habsburqlar sülaləsinin macar taxt-tacına yiyələnməsini qadağan edən qanunu 1921-ci il noyabrın 3-də qəbul etdi. Beləliklə, Macarıstan kralsız krallıq oldu. Xorti geniş səlahiyyətlər aldı.

Xorti rejiminin başlıca dayağı katolik kilsəsi oldu.

Bununla belə, ölkədə siyasi partiyalar, parlament və müxalifət normal fəaliyyət göstərirdi. Ölkədə faşizmin yaranması üçün lazım olan şərait yox idi.

1922-ci ildə İştvan Betlen Birlik Partiyasını yaratdı. Bu partiya təxminən 25 il hakimiyyətdə qaldı. 1922-ci il ümumi seçki hüququ və parlamentə gizli səsvermə ləğv olundu. Ölkədə milli ruh gücləndirildi.

Betlen hökuməti 1920-ci ildə qəbul edilmiş aqrar islahatı həyata keçirdi. 230 min kəndli torpaq aldı. Ölkənin kənd təsərrüfatı inkişaf etdi.

## Macarıstan 1924-1929-cu illərdə

1924-cü ildən başlayaraq Macarıstan iqtisadiyyatında sabitləşmə və yüksəliş başlandı. Qərbi Avropa dövlətləri, ABŞ və Millətlər Cəmiyyəti Macarıstana istiqrazlar verdi. 1924-28-ci illərdə Macarıstan 1,5 mlrd. penge istiqraz aldı. Nəticədə ölkənin maliyyə sistemi sabitləşdi və sənaye sürətlə inkişaf etməyə başladı. Ölkənin xarici ticarət dövriyyəsi artdı. Maliyyə yardımlarından düzgün istifadə edilməsi sayəsində Macarıstanda sənaye istehsalı 1927-ci ildə müharibədən əvvəlki səviyyəyə gəlib çatdı.

1925-ci ilin aprelində Macarıstan Sosialist Fəhlə Partiyası yaradıldı. 1925-ci ilin avqustunda isə Vyanada Macarıstan Kommunist Partiyasının birinci qurultayı keçirildi. Qurultayda mövcud rejimə qarşı mübarizə proqramı irəli sürüldü. Lakin bu illərdə Macarıstanda fəhlə hərəkatı cüzi idi. Kommunist Partiyası və Sosialist Fəhlə Partiyası bu hərəkatın önündə getsə də onlar çox zəif idilər. Hökumətin uğurlu sosial-iqtisadi siyasəti bu partiyaları güclü sosial dayaqdan məhrum etmişdi.

Xarici siyasət sahəsində macar hökumətinin qarşıya qoyduğu başlıca vəzifə Trianon sülh müqaviləsinə yenidən baxılmasına nail olmaq idi. Lakin beynəlxalq şərait bu istəklərin həyata keçirilməsi-

nə imkan vermirdi. Bununla belə, bəzi dövlətlər, o cümlədən İtaliya sülh müqaviləsinin şərtlərinə yenidən baxılması məsələsində Macarıstanı müdafiə edirdi. Macar hökuməti xarici siyasətdə regiona xüsusi diqqət yetirərək Balkan ölkələri ilə münasibətlərini yaxşılaşdırdı. 1927-ci ilin aprelində İştvan Betlen İtaliyaya səfər etdi. Səfər zamanı iki ölkə arasında dostluq, məsləhətləşmə və arbitraj haqqında müqavilə və bu müqaviləyə əlavə olaraq Macarıstana italyan silahının satılması barədə gizli sənəd imzalandı. Macar hökumətinin xarici siyasəti ABŞ, İngiltərə və İtaliya tərəfindən müdafiə edildi.

## Macarıstan dünya iqtisadi böhranı illərində

Dünya iqtisadi böhranı 1929-cu ilin ortalarından başlayaraq macar iqtisadiyyatına sarsıdıcı zərbə vurdu. Sənaye və kənd təsərrüfatı məhsulları reallaşmadı. Sənaye istehsalı aşağı düşdü. Yüngül sənaye sahələri böhrandan ziyan çəkdi. Orta və xırda müəssisələr iflasa uğradı. Buna baxmayaraq sənaye böhranı istehsalın və kapitalın təmərküzləşməsini sürətləndirdi. 1931-ci ilin yayında böhran ölkənin maliyyə sistemini sıradan çıxardı. Şəhər əhalisi və qulluqçuların vəziyyəti pisləşdi. İşsizlərin sayı xeyli artdı. Sənayedə işsizlərin sayı 241 min, kənd təsərrüfatında isə 600 min nəfərə çatdı. Dünya iqtisadi böhranı macar hökumətini çətin vəziyyətə saldı. 1931-ci ilin fevral-mart aylarında Xorti iqtisadi və siyasi böhran məsələlərini müzakirə etmək üçün Dövlət Şurasını çağırdı. Şura iclasında İştvan Betlen hökumətinin tədbirləri kəskin tənqid edildi.

1931-ci ilin iyununda keçirilən seçkilərdə hakim Birlik Partiyası qələbə çalsa da qazanılan mandatların sayı 1926-cı illə müqayisədə az oldu. Parlamentin birinci iclasında İştvan Betlen hökuməti yaranmış sosial-iqtisadi vəziyyət üçün təqsirkar hesab edildi. Avqust ayında onun hökuməti istefa verdi. Avqustun 21-də baş nazir vəzifəsinə qraf Dyula Karoyi təyin edildi. Hökumətin

başlıca vəzifəsi ölkəni iqtisadi böhrandan çıxarmaq idi. 1931-ci il sentyabrın 19-da hökumət ölkədə fövqəladə vəziyyət tətbiq etdi. Lakin görülən tədbirlər ciddi nəticə vermədi. Dyula Karoyi hökuməti istefaya getdi. Əvvəllər hərbi nazir vəzifəsində işləmiş general Dyula Gembeş 1932-ci il oktyabrın 2-də baş nazir oldu. O, hakim partiyanın adını dəyişdirərək Milli Birlik Partiyası adlandırdı. Sosial-Demokrat Partiyasının fəaliyyəti qadağan edildi. Gembeş 95 maddədən ibarət hökumət proqramını irəli sürdü. Bu proqram macar millətinin dirçəldilməsini və ölkənin böhrandan çıxarılmasını nəzərdə tuturdu. 1932-ci ilin oktyabrında D.Gembeş ölkədə fövqəladə vəziyyəti ləğv etdi. 1933-cü ildə sənaye məhsulunun ümumi həcmi 1927-ci illə müqayisədə 2,8 mlrd. pengedən 1,7 mlrd. pengeyə düşdü.

Dünya iqtisadi böhranı illərində Macarıstanın xarici siyasətində Avropa ölkələri ilə münasibətlər xüsusi yer tutdu. Macarıstan-İtaliya münasibətləri inkişaf etdirildi. Lakin Macarıstanın Kiçik Antanta ölkələri olan Çexoslovakiya, Yuqoslaviya və Rumıniya ilə münasibətləri kəskin olsa da Böyük Britaniya və Fransa ilə münasibətləri inkişaf etdirildi. Macar-alman münasibətləri də rəvan inkişaf etməyə başladı. Macar hökuməti Avstriya ilə münasibətlərini yaxşılaşdırdı. 1931-ci il yanvarın 26-da dostluq, qarşılıqlı yardım və əməkdaşlıq haqqında Avstriya-Macarıstan müqaviləsi imzalandı. Macarıstan hökuməti dünya iqtisadi böhranı illərində bolşevizmin yayılmasına qarşı mübarizədə Avropa ölkələri ilə ittifaqda çıxış etdi.

### Macarıstan iqtisadi böhran qurtardıqdan ikinci dünya müharibəsinin başlanmasınadək olan müddətdə

1934-cü ildən başlayaraq Macarıstan iqtisadiyyatında böhran arxada qaldı. Ağır və yüngül sənaye istehsalı artdı. Xarici ticarət genişləndi. Xarici, xüsusən alman kapitalı macar iqtisadiyyatında hakim rol oynamağa başladı. Baş nazir Dyula Gembeş fəal daxili

siyasət yeritməyə başladı. O, Milli Birlik Partiyasını kütləvi partiyaya çevirdi. 1934-cü ildə "Millətin iradəsi" adlı yeni millətçi təşkilat yaradıldı. Hərbi sənaye bərpa edildi və ordu gücləndirildi. Mətbuat və digər təbliğat vasitələri hökumətə tabe etdirildi. Lakin bu tədbirlər təkcə cəmiyyətdə deyil, həmçinin hökumət daxilində də narazılıqlar yaratdı. Nəticədə 1935-ci ilin əvvəlində keçmiş baş nazir Betlen hökumətin tərkibindən çıxdı. Regent Xorti parlamenti buraxaraq yeni seçkilər təyin etdi. 1935-ci ilin martında keçirilən seçkilərdə Milli Birlik Partiyası qələbə çaldı. Bundan sonra ölkədə Xorti rejimi daha da gücləndirildi.

Hökumətin xarici siyasətində Almaniya ilə münasibətlər xüsusi yer tutdu. Gembeş Almaniyaya səfər edərək nasional-sosialistlərin proqramlarının həyata keçirilməsinə kömək edəcəyini bildirdi. Eyni zamanda Macarıstan 1934-cü il fevralın 4-də SSRİ ilə diplomatik münasibətlər qurdu.

1934-cü il martın 17-də İtaliya, Avstriya və Macarıstan Roma protokollarını imzalayaraq aralarındakı siyasi və iqtisadi əməkdaşlığın istiqamətlərini müəyyənləşdirdilər. Roma protokolları əsasən Kiçik Antantaya və "Balkan paktı"na qarşı yönəlmişdi.

1936-cı ilin oktyabrında Gembeşin ölümündən sonra Xorti hökumət yaratmağı torpaq naziri vəzifəsini tutan Kalman Daraniyə tapşırdı. Yeni hökumət mühafizəkar idarə formasına qayıdaraq Xortinin hüquqlarının genişləndirilməsi barədə qərarı parlamentdən keçirdi. Buna görə Xorti parlamentdə qəbul edilən istənilən qanunu iki dəfə geri qaytara bilərdi. Yeni hökumət ölkədə nasional-sosialist qrup olan salaşist hərəkatının genişlənməsinə kömək etdi. Hökumətlə hərəkatın həbsxanada yatan lideri Ferens Salaşi arasında yaxınlaşma baş verdi. Darani hökumətinin xarici siyasətinin başlıca istiqaməti Almaniya, İtaliya və Avstriya ilə münasibətləri sıxlaşdırmaq idi. 1938-ci ilin yanvarında İtaliya, Avstriya və Macarıstanın xarici işlər nazirləri macar hökumətinin başçısı Darani ilə Budapeştdə görüşdülər. Görüşdə belə bir ümumi qərara gəlindi ki, bu ölkələr Almaniya ilə sıx əməkdaşlıq edəcəklər; kommunizmə

qarşı bütün vasitələrlə birgə mübarizə aparacaqlar; İspaniyada Franko rejimini tanıyırlar; Avstriya və Macarıstan hökumətləri İtaliya, Almaniya və Yaponiyanın "Antikomintern paktı"nı bəyənirlər.

1938-ci ilin ilk baharında Almaniya Avstriyanı özünə birləşdirdikdə Macarıstan üçün də təhlükə yarandı. Belə olduqda macar hakim dairələri hökuməti dəyişib İngiltərə, Fransa və ABŞ-la yaxşı münasibətləri olan şəxsi hakimiyyətə gətirməyə qərar verdilər. 1938-ci ilin mayında baş nazir vəzifəsinə İngiltərə kapitalı ilə sıx münasibətləri olan Milli Bankın rəhbəri Bela İmredi təyin edildi. Macarıstan Çexoslovakiyaya qarşı ərazi iddiaları irəli sürdü. 1938-ci il noyabrın 2-də keçirilən birinci Vyana arbitrajı Slovakiyanın cənub rayonlarını, Karpatarxası Ukraynanı və Rumıniya torpaqlarının bir hissəsini Macarıstana verdi. Bununla da Trianon sülhü təftiş edildi. 1939-cu ilin yanvarında Macarıstan rəsmi şəkildə "Antikomintern paktı"na qoşuldu. Hökumət Almaniya ilə yaxınlaşmaq xəttindən əl çəkmədi. Belə olduqda Bela İmredi vəzifəsindən istefa verdi. 1939-cu ilin fevralında baş nazir Pal Teleki oldu. Teleki hökuməti beynəlxalq aləmdə mövcud olan iki qruplaşma arasında manevr etməyə başladı. 1939-cu il martın 17-də Macarıstan Millətlər Cəmiyyətindən çıxdı. Beləliklə, Macarıstan Almaniya-İtaliya-Yaponiya blokunun müttəfiqinə çevrildi. Parlamentdə çoxluğa sahib olmaq məqsədilə Teleki Milli Birlik Partiyasını və Macarıstan Həyat Partiyasını yenidən qurdu. 1939-cu ilin mayında nümayəndələr palatasına seçkilər keçirildi. Xorti zamanında ilk dəfə gizli keçirilən bu seçkilərdə hakim Macarıstan Həyat Partiyası 245 mandatdan 183-nü, qatı sağ partiya olan salaşistlər isə 31 mandat aldı. Digər partiyalar da mandat qazandılar. Teleki yeni hökumət qurdu. O, özündən əvvəlki hökumətlərin daxili və xarici siyasətlərini davam etdirdi. Dünya artıq bu zaman müharibə astanasında idi.

## Macarıstan ikinci dünya müharibəsi illərində

İkinci dünya müharibəsinin başlanması Macarıstanın daxili iqtisadi və siyasi həyatında ciddi dəyişikliklərə səbəb oldu. Qısa müddət içində macar iqtisadiyyatı hərbi relsə keçirildi. Ölkə daxilində ciddi rejim yaradıldı. Faşist təşkilatları olan "Vətən sevgisi" və "Macar birliyi" fəaliyyətlərini xeyli gücləndirdilər.

Macar hökuməti Rumıniya tərkibində olan və əsasən macarların yaşadığı Transilvaniyanı özünə birləşdirmək üçün Almaniyadan razılıq almaq istəsə də Hitler bunun əleyhinə çıxdı. Belə olduqda macar hökuməti öz ərazisindən alman ordularının keçməsinə icazə verməyərək Macarıstanı döyüşməyən dövlət elan etdi. Macar hakim dairələri "Böyük Macarıstan" yaratmaq üçün fürsət axtarmağa başladılar. Transilvaniya problemi hökumətin iclaslarında daim müzakirə obyekti olurdu. Transilvaniyanı almaq üçün macar hökumətinin Rumıniya ilə sərhəddə ordu toplamasına Almaniya və İtaliya etiraz etdilər. Macarıstanla Rumıniya arasında bu məsələyə dair aparılan danışıqlar nəticəsiz qaldı. 1940-cı il avqustun 30-da ikinci Vyana arbitrajı əhalisi 2 mln. 577 min nəfər, ərazisi 43 min $km^2$ olan Transilvaniyanın şimal və şimal-şərq hissəsini Macarıstana verdi. Bu ərazidə 1 mln. nəfərdən çox rumın yaşayırdı. Milli azlıqlar haqqında sazişlər imzalandı. Lakin ikinci Vyana arbitrajının qərarları Macarıstandakı narazılığı aradan qaldırmadı. 1940-cı il oktyabrın 3-də Bel İmredi hakim partiyadan çıxaraq Macar Yeniləşmə Partiyasını yaratdı. Ölkədə qruplar arasında mübarizə gücləndi. Xorti salaşistlərin lideri F.Salaşini amnistiya ilə həbsxanadan çıxardı. Bundan sonra Macarıstan Almaniya bloku ilə daha çox yaxınlaşdı. 1940-cı il noyabrın 20-də Macarıstan hökuməti rəsmi olaraq "Üçlər paktı"na qoşuldu. 1941-ci ilin baharında Yuqoslaviyaya müharibə elan edən Macarıstan ikinci dünya müharibəsinə girdi. Az sonra, aprelin 3-də baş nazir Pal Teleki özünü öldürdü. Macarıstanın yeni baş naziri Hitler Almaniyasına rəğbət bəsləyən Laslo Bardoşşi oldu. Macar hökumətinin bu hərəkətləri Böyük Britaniya

və Fransada etirazla qarşılandı. Aprelin 6-da Böyük Britaniya Macarıstanla diplomatik münasibətlərini kəsdi. 1941-ci il iyunun 22-də Almaniya SSRİ üzərinə hücum etdikdən bir gün sonra Macarıstan Sovet İttifaqı ilə diplomatik münasibətlərini kəsdi. Macar hökuməti 1941-ci il dekabrın əvvəllərində İngiltərəyə, dekabrın 11-də isə ABŞ-a müharibə elan etdi. Lakin müharibənin aparılmasında çoxlu çətinliklər mövcud idi. Müharibədə qələbəyə olan inam azalırdı. Baş nazir Bardoşşi 1942-ci il martın 9-da səhhəti ilə əlaqədar olaraq istefa verdi. Yeni baş nazir Mikloş Kallayi oldu. Onun hökumətinin başlıca məqsədi Macarıstanla ABŞ və İngiltərə arasında yanmış körpüləri bərpa etmək idi. Hökumət ABŞ və İngiltərəyə yaxınlaşmaq üçün yollar axtarmağa başladı. Göstərilən səylər öz bəhrəsini verdi. 1943-cü ilin sentyabrında Macarıstan Böyük Britaniya və ABŞ-la barışıq haqqında ilkin saziş imzaladı. Bu, bütövlükdə antihitlerçi koalisiyanın mənafelərinə də uyğun idi.

Macarıstanın iki blok ölkələri arasında manevr etməsi "yelləncək siyasəti" adını aldı. Bunu görən Hitler Kallayi hökumətinin dəyişdirilməsini Xortidən tələb etdi. Lakin Hitlerin tələbi yerinə yetirilmədi. Belə olduqda Hitler Macarıstandakı hadisələri başqa vasitələrlə öz xeyrinə dəyişmək xəttini seçdi. 1944-cü il martın 12-də Hitler "Marqaret-1" adı altında Macarıstanın işğalı planını təsdiq etdi. Az sonra Almaniya orduları Macarıstanın əsas sənaye şəhərlərini işğal etdi. 1944-cü il oktyabrın 15-də Xorti radio ilə çıxış edərək ölkəsinin müharibədən çıxdığını elan etdi. Lakin generalitet bu əmrə tabe olmadı. Belə olduqda oktyabrın 16-da Xorti hakimiyyəti Hitlerin əlaltısı olan Ferens Salaşiyə verdi. Belə vəziyyətdə Kallayi hökuməti istefaya getdi. Buna qədər Berlində səfir olan Dem Stoyai baş nazir təyin edildi. Stoyai hökuməti almanlarla sıx əməkdaşlıq etdi. 1944-cü ilin sentyabrında Stoyai hökuməti də istefaya getdi. Onu Lakatoşi hökuməti əvəz etdi. Sentyabrın 23-də sovet orduları Macarıstan ərazisinə daxil oldu. Lakin Macarıstan hələ də Almaniyanın ən yaxın müttəfiqi olaraq qalırdı. Ölkədə ümumxalq üsyanı qaldırmaq mümkün olmadı. Salaşi rejimi ölkədə gizli

fəaliyyət göstərən Azadlıq Komitəsinin üzvlərini həbs etdi. Macar və alman orduları sovet hərbi hissələrinə ciddi müqavimət göstərdilər. Ağır döyüşlər getdi. Yalnız 1945-ci il fevralın 13-də Budapeşt azad olundu. Bir ay sonra isə bütün Macarıstan ərazisi işğaldan azad edildi. Macarıstanın tarixində yeni dövr başlandı.

# X BÖLÜM

## RUMINİYA

### Birinci dünya müharibəsinin Rumıniya üçün nəticələri

Rumıniya 1916-cı ilin avqust ayında Antanta bloku ölkələri tərəfindən müharibəyə qoşuldu. Aparılan hərbi əməliyyatlardakı çətinliklər ölkədə ağır sosial-iqtisadi vəziyyət yaratdı. Müharibənin son mərhələsində Rumıniyanın siyasi həyatı sabitsizlik və hökumət böhranları ilə səciyyələnirdi. Bir-birinin ardınca baş verən dəyişikliklər ölkədə hakimiyyət böhranını daha da dərinləşdirdi. 1918-ci ilin yanvarında baş nazir İon Bratianu istefaya çıxdı. Baş nazir A.Marqiloman oldu. Ölkədə sosial-iqtisadi vəziyyət yenə də ağır idi. Qiymətlər artdı. Rumun pulunun (leu) alıcılıq qabiliyyəti aşağı düşdü.

Hərbi əməliyyatların aparılması çətinləşdi. Müharibədə Rumıniya məğlub oldu. 1918-ci il mayın 7-də A.Marqiloman hökuməti Buxarestdə Almaniya bloku ölkələri ilə sülh bağladı. Sülh müqaviləsinin şərtlərinə görə Rumıniya Cənubi Dobrucanı bütün sərvətləri ilə birlikdə 50 il istismar etmək hüququnu Almaniyaya verdi. Bu sülh Antanta ölkələrinin mövqelərinə mənfi təsir etsə də müharibənin ümumi gedişində Rumıniyanın əvvəlki müttəfiqlərinin qələbələrinə əngəl ola bilmədi.

1918-ci ilin payızında rumın kralı Ferdinand Buxarest sülh müqaviləsini təsdiq etməkdən boyun qaçırdı. Belə olduqda Marqiloman istefa verməyə məcbur oldu. Hakimiyyətə Liberal Partiyasının lideri Jonel Bratianu qayıtdı. Bratianu hökuməti zamanında fəhlə, əsgər və kəndli hərəkatı artdı. Lakin hökumət müxtəlif sosial proqramları həyata keçirərək cəmiyyətdəki qarşıdurmanı və inqilabi hərəkatı zəiflətdi.

Müharibənin sonunda Almaniya blokundan ayrılan Rumıniya yenidən Antanta bloku tərəfə keçərək Avstriya-Macarıstana qarşı

hərbi əməliyyatlara başladı. Rumın orduları əsasən rumın torpaqları olan Transilvaniya və Bukovinada döyüşdü. Avstriya-Macarıstanın tərkibində olan Transilvaniyada Rumıniyaya birləşmək hərəkatı gücləndi. 1918-ci il dekabrın 1-də Transilvaniya Rumıniyaya birləşdirildi. Xarici siyasət sahəsində Bratianu hökumətinin geniş planları var idi. Rumıniyanın xarici siyasətinin başlıca məqsədi rumın torpaqlarını bütövləşdirməyə nail olmaq idi.

Rumıniya Paris sülh konfransına qalib dövlətlərin cərgəsində girdi. Rumınlar Paris sülh konfransında Transilvaniya, Banat, Cənubi və Şimali Bukovinanı, Bessarabiyanı (indiki Moldova Respublikası) birləşdirmək istəyinə çatmadıqda Versal sülh müqaviləsini imzalamadı. Rumıniya Macarıstana qarşı hərbi əməliyyatlara başladı. Lakin Antanta ölkələri Rumıniyanı bu məsələdə müdafiə etmədi, eyni zamanda onun sərhədlərini dəqiqləşdirməyə də tələsmədilər.

Qalib dövlətlər cərgəsində olmasına baxmayaraq müharibə Rumıniya iqtisadiyyatına mənfi təsir göstərdi. Müharibə nəticəsində sənaye istehsalı xeyli azaldı. Ölkə iqtisadiyyatı bərbad hala düşdü. Bu zaman Rumıniya iqtisadiyyatında xarici kapital mühüm rol oynamağa başladı. Sənayedəki kapitalın 78%-i xarici dövlətlərə məxsus idi. Əgər müharibədən əvvəl rumın iqtisadiyyatında Almaniya və Avstriya kapitalı mühüm rol oynayırdısa müharibədən sonra onların yerini ingilis və fransız kapitalı tutdu. Neft sənayesindəki sərmayələrin 3/4 hissəsi xarici kapitala məxsus idi. Rumıniyanın neft sənayesində İngiltərə, Hollandiya, Belçika və ABŞ kapitalı üstünlük təşkil edirdi. Xarici kapital qoyuluşu nəticəsində Transilvaniyada zəngin enerji mənbələri, dağ-mədən, metallurgiya və neft sənayesi inkişaf etdi.

Dünya müharibəsinin Rumıniya üçün bir sıra ciddi siyasi nəticələri oldu. Sen-Jermen, Trianon və Neyi sülh müqavilələrinə görə Transilvaniya, Bukovina, Banatın şərq hissəsi, Bessarabiya, Marmireş, Krişan və Cənubi Dobruca Rumıniyaya birləşdirildi. Bunun nəticəsində Rumıniyanın ərazisi iki dəfə artaraq 1912-ci ildəki 130

min kv. km.-dən 1920-ci ildə 295 min kv. km oldu. Ölkə əhalisinin sayı 7,1 mln. nəfərdən 15,5 mln. nəfərə çatdı. Bunların 26%-i macar, alman, yəhudi, slavian, türk-tatar və.b. idi. Zəngin təbii sərvətləri və sənaye sahələri olan Transilvaniya və Banatın ölkə ərazisinə birləşdirilməsi nəticəsində iqtisadiyyat xeyli inkişaf etdi. Neft sənayesində uğurlar qazanıldı. Lakin Rumıniya hələ də aqrar ölkə olaraq qalırdı. Əhalinin təxminən 80%-i kənddə, 20%-i isə şəhərdə yaşayırdı. Kəndlilərin əksəriyyəti aztorpaqlı və torpaqsız idi. Hərbi əməliyyatların gedişində xalq kasıblaşmışdı.

1919-cu il sentyabrın 29-da Aleksandr Vayda-Voyevod başda olmaqla keçid hökuməti yaradıldı. Hökumət yeni parlament seçkilərinədək hakimiyyətdə qalmalı idi. Həmin ildə Bukovinada aqrar islahatın keçirilməsi haqqında dekret verildi.

## Rumıniya 20-ci illərdə

Müharibədən sonrakı ilk illərdə Rumıniyanın siyasi həyatı müxtəlif partiyaların yaradılması və sabitsizliklə səciyyələnirdi. Ölkə müharibədən çıxdıqdan sonra Xalq Partiyası, Kəndli Partiyası və Əmək Partiyası yaradıldı. 1919-cu ildə ölkə parlamentinə ilk seçkilər keçirildi. Seçkilərin nəticəsində deputatlar palatasındakı 568 yerin 199-nu Milli Partiya, 130-nu tsaranistlər (kəndli) və onlara yaxın qruplar, 27-ni milli-demokratlar, 103-nü liberal-demokratlar, 16-nı mühafizəkarlar qazandı. Hakim Liberal Partiya seçkiləri uduzdu. Kabineti yaratmaq Y.Maniuya tapşırıldı. Lakin o, bu təklifdən imtina etdikdə Milli Partiyanın digər lideri A.Vayda-Voyevoda yeni koalisiyalı hökumət qurdu. Koalisiyaya Transilvaniya Milli Partiyası, Kəndli Partiyası və Milli Demokrat Partiyası daxil oldular. Bu koalisiya 1919-cu ilin noyabrından 1920-ci ilin martınadək hakimiyyətdə oldu. Hökumət Antanta dövlətləri ilə mövcud olan ixtilaflara son qoymağı vəd etdi. Rumıniya hökuməti Macarıstan ərazisindən ordularını geri çağırdıqdan sonra Antanta ölkələri Trianon sülh müqaviləsinin şərtlərinə uyğun olaraq Rumıniyaya çatacaq ərazilərin ona verilməsinə razılıqlarını bildirdilər.

1920-ci il martın 13-də Xalq Partiyasının lideri general A.Averesku hakimiyyətə gəldi. Onun qurduğu hökumət 1921-ci il dekabrın 17-dək hakimiyyətdə oldu. Hökumətin daxili siyasətinin başlıca vəzifəsi ölkəni çətin iqtisadi və maliyyə vəziyyətindən çıxarmaq idi. Parlament buraxıldı və yeni seçkilərin vaxtı təyin edildi. Deputatlar palatasının sayı 369 nəfər müəyyənləşdirildi. İyul ayında keçirilən seçkilərdə Xalq Partiyası 224 yer qazandı. Yeni hökumət geniş islahatlar həyata keçirməyə başladı. 1921-ci ildə mötədil aqrar islahat haqqında qanun qəbul edildi. İslahata görə kral, dövlət və kilsə torpaqları saxlanıldı. Torpağın əsas hissəsi mülkədarların və kilsənin əlində cəmləndi. Mülkədarlar 100 hektardan 500 hektaradək torpağa sahib ola bilərdi. Aztorpaqlı və torpaqsız kəndlilərə də torpaq verildi. Onlar 5 hektar torpaq ala bilərdilər. Transilvaniya və Bessarabiyada da aqrar islahat həyata keçirildi. İslahat kənddə yeni ictimai münasibətlərin inkişafına kömək etdi. Qəbul edilən qanunla əmək münasibətləri də tənzimləndi.

Averesku hökumətinin xarici siyasətinin başlıca məqsədi Avropa qitəsində ölkənin mövqelərini möhkəmləndirmək, böyük dövlətlərilə sıx münasibətlər qurmaq idi. 1920-ci il noyabrın 1-də rumın hökuməti İngiltərə, Fransa, Yaponiya və İtaliya ilə Paris protokollarını imzaladı. Protokollar Rumıniyanın müharibədən sonrakı ərazi-sərhəd quruluşunu və iqtisadi məsələləri tənzimləməli idi. Lakin bu məsələdə hakimiyyət daxilində yekdillik yox idi. Hökumətin siyasətindən xalq da narazı idi. Bu narazılıq hökumətin istefası ilə nəticələndi. Rumıniya hökuməti 1921-1922-ci illərdə Çexoslovakiya və Yuqoslaviya ilə birlikdə hərbi-siyasi ittifaq olan Kiçik Antantaya qoşuldu. Hökumətin Avropa işlərində məsləhətləşdiyi və birgə hərəkət etdiyi başlıca müttəfiqi Fransa oldu. 1921-ci il martın 3-də Rumıniya Polşa ilə hərbi ittifaq, aprelin 23-də Çexoslovakiya, iyunun 7-də isə Yuqoslaviya ilə qarşılıqlı yardım haqqında müqavilələr imzaladı.

1920-1921-ci illərdə ölkədə ictimai-siyasi mübarizə xeyli

kəskinləşdi. 1921-ci il mayın 8-də Buxarestdə Sosialist Partiyasının qurultayında partiyanın sol qanadına daxil olan şəxslər Rumıniya Kommunist Partiyasını yaratdılar. Sağ və mərkəzçi qüvvələr isə Rumıniya Sosial Demokrat Partiyasında birləşdi. Qurultayın 270 nəfər üzvü həbs edildi. Kommunistlərin tanınmış rəhbərlərindən biri olan Leonte Filipesku qaçmağa cəhd edərkən öldürüldü. Rumıniyanın siyasi həyatında kommunistlər önəmli rol oynamadılar. Çünki onların böyük əksəriyyəti qeyri-rumınlar idi. Kommunistlərin içərisində rumınlar azlıq təşkil edirdilər.

1921-ci il dekabrın 17-də Averesku hökuməti istefaya getdi. Yeni hökuməti Take İonesku yaratdı. Lakin o da hakimiyyətdə çox az qaldı. Onun yerinə müvəqqəti olaraq Milli-Liberal Partiyasının nümayəndəsi Jonel Bratianu keçdi. Parlament buraxıldı. Yeni seçkilərdə milli-liberallar 309 mandat aldılar. Lakin seçkinin saxtalaşdırıldığını bildirən müxalifət parlamenti tərk etdi. Buna baxmayaraq Bratianu daha sərbəst şəkildə siyasətini yeritməyə başladı. Bu hökumətin zamanında ölkənin daxili siyasəti iqtisadiyyatı bərpa etmək səyləri ilə səciyyələnirdi. Lakin Bratianu hökuməti də qarşıya qoyduğu vəzifələri yerinə yetirərkən çətinliklərlə üzləşdi. Ölkədə parlament böhranı dərinləşdi. Kral parlamenti buraxdı.

Ümumiyyətlə, 1918-ci ilin noyabrından 1922-ci ilin yanvarınadək ölkədə 7 baş nazir dəyişildi.

1922-ci ilin martında yeni seçkilər keçirildi. Bratianu hökumət yaratdı. O, ölkədə maliyyə və sənaye oliqarxiyasını gücləndirdi. Vergilər artırıldı və bir sıra iş yerləri ixtisar edildi. 1922-ci ildən ölkə iqtisadiyyatında sabitləşmə başlandı. Hökumət əməyin səmərəliliyinin artırılmasına nail oldu. Milli valyutanın məzənnəsi sabitləşdi. 1924-cü ildə hökumət faydalı qazıntılar barədə qanun qəbul etdi. Bu qanun faydalı qazıntılar sahəsində xarici kapitalın iştirakının həcmini müəyyənləşdirdi. Xarici ölkələr Rumıniya ərazisindəki faydalı qazıntılardan yalnız 50% səhm ala bilərdilər.

Ölkənin daxili siyasi həyatında da ciddi dəyişikliklər baş verdi. Yeni seçilmiş parlament 1923-cü ilin martında ölkə konstitusiyasını

qəbul etdi. Konstitusiyada göstərilirdi ki, Rumıniya konstitusiyalı monarxiya dövlətidir. Konstitusiyaya görə hökumət parlament qarşısında məsuliyyət daşıyırdı. Parlament deputatlar palatası və senatdan ibarət idi. Kişilər üçün ümumi seçki hüququ təsbit edildi. Seçki senzi müəyyənləşdirildi. İşsizlər və kənd təsərrüfatı fəhlələri seçki hüququ almadılar. Vətəndaşlara demokratik hüquq və azadlıqlar verildi. Bütün vətəndaşların qanun qarşısında bərabərliyi elan edildi. 1924-cü ildə qəbul edilən fövqəladə qanuna görə ölkədə Kommunist Partiyasının Rumıniyanın milli mənafelərə zidd fəaliyyəti qadağan olundu. Bu qadağan 1944-cü ilədək davam etdi.

20-ci illərdə Rumıniya həyatının səciyyəvi cəhətlərindən biri ölkədə kral böhranının yaranması oldu. Rumıniya kralı Ferdinandın varisi II Karol idi. Baş nazir Bratianu onu 1925-ci il dekbarın 10-da hərbi hava limanının tikintisinə artıq pul xərcləndiyinə görə günahlandırdı. Bu isə qarşıdurma yaratdı. Parlament Karolu kral və varis təyin etmək hüququndan məhrum etdi. Buna qədər o, 1918-ci ildə də bir dəfə bu hüquqdan məhrum edilmişdi. Karol 1926-cı ildə xaricə getdi. Onun yerinə dörd yaşlı oğlu Mixay varis oldu. Lakin Karol geri qayıtmaq üçün orduda və milli-tsaranistlər arasında geniş təbliğata başladı.

1926-cı il martın 30-da parlament yeni seçki qanunu qəbul etdi. Qanuna görə səslərin 40%-ni və ya çoxunu alan partiya deputat yerlərinin 75%-nə yiyələnirdi. Bu qanun əsasında 1926-cı ilin mayında keçirilən seçkilərdə Xalq Partiyası qələbə çaldı. Onlar 292, milli-tsaranistlər 69, hakimiyyətdə olan milli-liberallar isə yalnız 16 yer aldılar. Xalq Partiyasının lideri Averesku hökumət yaratdı. Averesku hökumətinin daxili siyasəti rumın milli iqtisadiyyatının inkişaf etdirilməsi üçün proteksionizm tətbiq edib xarici kapitalın ölkəyə daha çox girməsinə mane olmaq idi. Lakin bu siyasət xarici kapitalın ciddi narazılığa səbəb oldu. Müxalifət hökumətin siyasətini daha kəskin tənqid etdi. Averesku istefaya getdi. 1927-ci ilin iyulunda Bratianu yenidən hökumət yaratdı. Bratianu zamanında ölkədə siyasi sabitsizlik artdı. 1927-ci ilin iyulunda kral

Ferdinand öldü. Onun nəvəsi, Karolun oğlu Mixay kral oldu. 1927-ci ilin noyabrında isə Bratianu vəfat etdi. Yeni hökumət yaradıldı.

Vintil Bratianu hökuməti "Monarxiyanın mühafizəsi haqqında" qanunu parlamentdə qəbul etdirdi. Müxalifət isə xaricə qovulmuş Karolla əlaqələrini gücləndirdi. Buna cavab olaraq V.Bratianu Karolla əlaqələr saxlayan siyasətçiləri və zabitləri həbs etdi.

İqtisadi vəziyyətin ağırlaşması da milli-liberalları çətinliyə saldı. Ölkədə böhran yarandı. Kasıblıq və işsizlik artdı. Milli-liberallara qarşı narazılıq gücləndi. Belə şəraitdə milli-tsaranistlər vergiləri azaltmağı və kəndlilərə kredit verməyi vəd etdiklərindən onların nüfuzu xeyli artdı.

Milli-liberal hökumətlərin xarici siyasəti Rumıniyanın beynəlxalq mövqelərinin gücləndirilməsinə yönəlmişdi. 1924-cü ilin martında Vyanada keçirilən SSRİ-Rumıniya konfransında sovet hökuməti Bessarabiyadan de-yure imtina etdi. Rumın hökuməti ilk növbədə qonşu dövlətlərlə münasibətlərini tənzimlədi. 1926-cı ilin martında Rumıniya ilə Polşa arasında təminat müqaviləsi bağlandı. Bu müqaviləyə görə sərhədlərin qorunmasına qarşılıqlı təminat verildi. İki ölkə arasında gizli hərbi konvensiya da bağlandı. Qarşılıqlı hərbi yardım haqqında öhdəlik götürüldü. Rumıniyanın digər Avropa dövlətləri ilə münasibətləri yaxşılaşdı. 1926-cı ilin iyununda imzalanan rumın-fransız müqaviləsinə görə müharibə olacağı təqdirdə Fransa hərbi yardım etməli idi. Fransa Bessarabiyanın birləşdirilməsini tanıdı. İtaliya və Böyük Britaniya ilə əlaqələr gücləndi. Bu dövlətlərlə müvafiq sənədlər imzalandı. 1926-cı ilin sentyabrında İtaliya ilə imzalanmış dostluq və qardaşlıq haqqında müqaviləyə əsasən Rumıniya ərazisinin bütövlüyünün qorunmasına təminat verildi. İtaliya hökuməti Rumıniyaya 200 mlrd. lirə istiqraz verdi. İtaliyanlar Rumıniya neft sənayesində konsessiyalar aldı. Rumın hökuməti digər dövlətlərlə də münasibətlərini yaxşılaşdırdı. Rumıniya Almaniya və Yaponiya ilə hücum etməmək və arbitraj haqqında müqavilələr imzaladı. Bu

müqavilələr Rumıniyanın beynəlxalq mövqelərinin möhkəmləndirilməsinə kömək etdi.

Ölkədə yaranmış mürəkkəb şəraitdə Regent Şurası hakimiyyəti milli-tsaranistlərə vermək məcburiyyətində qaldı. 1928-ci ilin noyabr ayında Yuliu Maniu birinci milli-tsaranist hökumətini qurdu.

1928-ci ilin dekabrında keçirilən seçkilərdə hələ 1926-cı ildə birləşmiş Milli-Tsaranist Partiyası qələbə qazandı. Onlar 324 mandat, milli-liberallar isə yalnız 13 mandat aldılar. Yenidən baş nazir olan Y.Maniu 1931-ci ilədək bu vəzifədə işlədi. Maniu hökuməti daxili siyasətində ilk növbədə 1929-cu ilin avqustunda aqrar islahat həyata keçirdi. İmkanlı şəxslər, o cümlədən mülkədarlar kəndlilərin torpaqlarını satın almağa başladılar. Ölkə sənayesinə xarici kapitalın axını gücləndi.

Lakin dünya iqtisadi böhranı islahatların həyata keçirilməsinə mənfi təsir etdi.

## Rumıniya dünya iqtisadi böhranı illərində

Dünya iqtisadi böhranı illərində Rumıniya iqtisadiyyatı bərbad hala düşdü. Böhran sənayedən başlandı. Sənaye istehsalı 1928-ci illə müqayisədə 1931-ci ildə 60% aşağı düşdü. Metallurgiya zavodları bağlandı. Böhran nəqliyyatın işini iflic hala saldı. Dəmiryollarında yük daşımaları xeyli azaldı. Böhran ölkənin maliyyə sisteminə ciddi zərbə vurdu. Banklar iflasa uğradı. Sənaye və maliyyə sistemindəki böhran aqrar sahəyə də öz təsirini göstərdi. Kənd təsərrüfatı ağır vəziyyətə düşdü. Kəndlilər müflisləşdi. İşsizliyin çoxalması nəticəsində kəndlər boşaldı.

Dünya iqtisadi böhranı illərində ölkədə xarici kapitalın təsiri gücləndi. Təkcə sənayedə xarici kapitalın payı 75%-ə çatdı.

Dünya iqtisadi böhranı illərində Rumıniyanın daxili siyasi həyatı sabitsizliklə səciyyələnirdi. Ölkədə faşist meylləri gücləndi. Hökumət daxilində də ixtilaflar və sabitsizlik artdı. 1929-cu ilin əvvəllərindən 1933-cü ilin sonunadək ölkədə 10 hökumət

dəyişildi. Yoqda-Arcetoyanidən (aprel 1931-ci il may 1932-ci il) başqa bütün hökumətləri Milli-Tsaranist Partiya təşkil etdi. Ölkədən qovulmuş Karol 1930-cu ilin iyununda Rumıniyaya qayıtdı. O, keçmiş aqrarilərdən və millətçilərdən ibarət Milli-Tsaranist Partiyasına arxalanaraq çevriliş edib özünü kral elan etdi. Kral parlamentin fəaliyyətini dayandıraraq əlinə geniş səlahiyyətlər keçirdi. O, 1930-cu ildə yaradılmış "Dəmir qvardiya" adlı faşist partiyasını yaratdı. Daxili siyasət sahəsində ölkə iqtisadi və siyasi həyatının sağlamlaşdırılması planı işlənib hazırlandı. Bu plana görə iqtisadiyyat liberallaşdırıldı və xarici kapitalın fəaliyyəti üçün əlverişli şərait yaradıldı. İdarəçilik sahəsində də islahatlar həyata keçirildi. Dövlət qulluqçularının sayı azaldıldı.

Dünya iqtisadi böhranı illərində Rumıniyanın xarici siyasəti təzadlı idi. Böyük dövlətlər rumın hökumətinə təzyiq edirdilər. Buna görə də Rumıniya hərbi xərcləri artırdı. Rumın hökuməti Polşa ilə yaxınlaşdı. 1929-cu ildə Rumıniya ilə Polşa arasında imzalanan ikitərəfli müqavilə ilə təhlükəsizlik, siyasi və iqtisadi əməkdaşlıq məsələləri qaydaya salındı. Rumıniya hökuməti Millətlər Cəmiyyətindən istifadə edərək beynəlxalq mövqelərini möhkəmləndirdi. 1933-cü ilin fevralında Rumıniya Millətlər Cəmiyyəti xətti ilə fransız istiqrazları aldı. Ölkə iqtisadiyyatında Fransa kapitalının xüsusi çəkisi artdı. Rumıniya Kiçik Antantanı gücləndirmək xəttini götürdü.

Rumıniya Türkiyə və digər dövlətlərlə də münasibətlərini yaxşılaşdırdı.

### Rumıniya iqtisadi böhranın qurtarmasından dünya müharibəsinin başlanmasınadək olan müddətdə

Dünya iqtisadi böhranı qurtardıqdan sonra da Rumıniyanın siyasi həyatında sabitsizlik müşahidə olunurdu. Hakimiyyət uğrunda milli-tsaranistlər və milli-liberallar arasında kəskin mübarizə gedirdi. 1933-cü ilin noyabrında Vayda-Voyevodanın milli-tsaranist hökuməti istefaya getdi. Milli-liberallar yenidən hakimiyyətə qayıtdı-

lar. Lakin Dukanın hökuməti yalnız bir ay fəaliyyət göstərdi. Dekabrın sonunda baş nazir vəzifəsinə ağır sənayeçi dairələrinə yaxın olan Q.Tataresku təyin edildi. Onun hökuməti 1937-ci ilin sonunadək hakimiyyətdə qaldı. Tataresku hökumətinin daxili siyasətinin başlıca vəzifəsi dünya iqtisadi böhranının nəticələrini aradan qaldırmaq, sənaye və kənd təsərrüfatında istehsalı qaydaya salmaq və işsizlik problemini həll etmək idi.

Tatareskunun hakimiyyəti illərində Rumıniya dövlətinin xarici siyasəti beynəlxalq münasibətlərin bir sıra ümumi cəhətlərini özündə əks etdirirdi. Bu zaman Avropada faşist təhlükəsinin artması Rumıniyaya da müvafiq təsir göstərdi. Ölkədə faşizm ruhlu konstitusiyanın qəbul edilməsi tələbləri gücləndi. Hakim dairələrdə Almaniya ilə ittifaq bağlamaq meylləri artdı. Belə şəraitdə Rumıniya Balkanlarda mövcud mövqelərini qoruyub saxlamağa çalışırdı.

Rumıniya Balkanlarda təhlükəsizlik və əməkdaşlıq məsələlərində mühüm amillərdən birinə çevrildi. Rumın diplomatiyası 1934-cü ildə Türkiyə, Yunanıstan, Yuqoslaviya ilə birlikdə "Balkan paktı"nı imzalayaraq Balkan Antantasını yaratdı. Paktın imzalanmasında başlıca məqsəd Cənub-Şərqi Avropada təhlükəsizlik və əməkdaşlıq məsələlərini tənzimləmək idi. 1934-cü ildə SSRİ ilə Rumıniya arasında diplomatik münasibətlər quruldu.

Rumıniya hökuməti eyni zamanda beynəlxalq müqavilələrə də qoşuldu. Rumıniya 1933-cü ildə təcavüzkarın müəyyənləşdirilməsi haqqında "London paktı"nı imzalamasına baxmayaraq, ölkədə fəaliyyət göstərən faşistpərəst qüvvələrə güzəştə gedərək onlar üçün əlverişli şərait yaratdı. 1935-36-cı illərdə Rumıniya Cənub-Şərqi Asiyada kollektiv təhlükəsizlik sistemi yaratmaq üçün cəhdlər etdi. Rumıniyanın xarici işlər naziri olan Nikolae Titulesku kollektiv təhlükəsizlik sisteminin yaradılması sahəsində mühüm işlər gördü. Lakin onun fəaliyyəti Almaniya və İtaliyada narazılıqla qarşılandı. 1936-cı ilin avqustunda kral II Karol N.Tituleskunu vəzifəsindən azad etdi. Fransaya mühacirət etməyə məcbur olan

keçmiş xarici işlər naziri ömrünün sonunadək bu ölkədə yaşadı.

1937-ci il seçkilərində milli-liberallar məğlub oldular. Milli-tsaranistlər səslərin çoxunu qazanaraq hökumət yaratdılar. Ölkənin baş naziri O.Qoqa oldu. Lakin az sonra kral bu hökuməti istefaya göndərdi. 1938-ci il fevralın 10-da II Karolun şəxsi diktaturası quruldu. Patriarx Miron Kristea başda olmaqla yeni hökumət təşkil olundu. 1923-cü il konstitusiyası ləğv edildi. Parlament buraxıldı. 1938-ci il fevralın 27-də yeni konstitusiya qəbul edildi. Konstitusiyaya görə qanunverici və icraedici hakimiyyət krala keçdi. Bundan sonra hökumət parlament qarşısında deyil, yalnız kral qarşısında məsuliyyət daşıyırdı. Ölkədə həmkarlar ittifaqlarının fəaliyyətləri qadağan edildi. Lakin kral martın 30-da bu hökuməti istefaya göndərdi. Yeni hökuməti təkrarən Miron Kristea qurdu. Bu hökumətin vaxtında bütün siyasi partiyaların fəaliyyəti qadağan edildi. Əslində ölkədə çevriliş baş verdi. Faşistpərəst hərbiləşdirilmiş dəstələr yaradıldı. Çevrilişdən sonra ölkədə vahid partiya yaradıldı. Bu, Milli Dirçəliş Partiyası oldu.

1939-cu ilin martında baş nazir vəzifəsinə Airmand Kalinesku gətirildi. Lakin onun baş nazir kreslosunda qalması həmin ilin sentyabrınadək davam etdi. Aprel ayında "dəmir qvardiyaçılar" çevriliş cəhdi etdi. Lakin qəsdin üstü açıldı. Onlar həbs edildilər. Qəsdçilərin liderləri olan Kodreanu 10 il həbs cəzasına məhkum edildi və sonra edam olundu.

Kalinesku hökuməti xarici siyasətdə başlıca istiqamət olaraq Almaniya ilə münasibətləri istiləşdirməyə başladı. Rumıniya iqtisadi və siyasi cəhətdən Almaniya ilə yaxınlaşdı. Almaniya ilə imzalanan iqtisadi saziş ölkə iqtisadiyyatında alman kapitalının rolunu artırdı.

Sentyabrın əvvəllərində faşistlər ikinci dəfə çevriliş etmək məqsədilə Kalineskunu öldürdülər.

1939-cu il sentyabrın 29-da Rumıniyanın yeni baş naziri K.Ardetoiani oldu. Bu hökumət Almaniya ilə münasibətləri daha da istiləşdirdi. Bundan sonra Rumıniya ilə SSRİ arasında münasibətlər soyuq-

laşmağa başladı. 1940-cı il iyunun 26-da SSRİ ordu hissələrini Bessarabiya və Şimali Bukovinaya yeridərək bu əraziləri işğal etdi. İşğal olunmuş ərazilərdəki rumınlar ölkənin təhlükəsizliyini təmin etmək adı altında SSRİ-nin uzaq rayonlarına köçürüldülər. Onların bir qismi Azərbaycanda yerləşdirildi. Bu işğallardan sonra Rumıniyada ağır vəziyyət yarandı. Hökumət istefaya getdi.

Noyabrın 24-də hökumətin başçısı yenidən Tataresku təyin edildi. Bu hökumət Almaniya ilə daha da yaxınlaşaraq 1940-cı il mayın 28-də Almaniya ilə neft müqaviləsi imzaladı. Lakin az sonra bu hökumət də istefaya getdi.

## Rumıniya ikinci dünya müharibəsi illərində

Dünya müharibəsinin başlanması Rumıniyanın siyasi həyatına ciddi təsir göstərdi. Kral 1940-cı il sentyabrın 3-də İon Antoneskunu baş nazir vəzifəsinə təyin etdi. Yeni hökumətə "Dəmir qvardiyaçılar" da daxil oldu. Onun rəhbəri Horia Sima hökumətin tərkibinə girdi. Sentyabrın 4-də kral II Karol oğlu I Mixayın xeyrinə taxt-tacdan əl çəkməyə məcbur oldu. O, Portuqaliyaya mühacirət edərək ömrünün sonunadək burada yaşadı. Sentyabrın 6-da Rumıniya legioner dövlət oldu. Ölkə müharibədə Almaniyanın müttəfiqinə çevrildi. Dövlətin faktiki rəhbəri Antonesku oldu. Antonesku hökuməti 1938-ci il konstitusiyasını ləğv etdi. Rumıniya kral diktaturasından hərbi-avtoritar dövlətə çevrildi. Ölkədə gərgin ictimai-siyasi şərait yarandı. 1941-ci ilin yanvarında Horia Sima dövlət çevrilişi etməyə cəhd göstərdikdə Antonesku "Dəmir qvardiya"nı buraxdı. Horia Sima isə xaricə qaçdı.

İkinci dünya müharibəsinin gedişində Rumıniya ilə Macarıstan arasında münasibətlər daha da kəskinləşdi. 1940-cı il avqustun 30-da ikinci Vyana arbitrajı Transilvaniyanın şimal və şimal-şərq hissəsini Rumıniyadan alıb Macarıstana verdi. Bolqarıstan-Rumıniya münasibətləri də gərginləşdi. 1940-cı il sentyabrın 7-də Bolqarıstan Cənubi Dobrucanı özünə qaytardı. Belə vəziyyət yenidən böhran

yaratdı. Hökumət istefaya getdi.

1941-ci il iyunun 22-də İon Antonesku hökuməti Rumıniyanı SSRİ-yə qarşı müharibəyə qoşdu. Rumın orduları hərbi əməliyyatlarda iştirak etdi. Müharibə illərində Rumıniya iqtisadiyyatı Almaniyadan maliyyə və texniki yardım aldı. Lakin ölkədə işçi qüvvəsi çatışmırdı. Xalq Antonesku hökumətinin siyasətindən narazı idi. Antonesku hökumətinin separat halda antihitlerçi koalisiyaya daxil olan ölkələrlə məxfi danışıqlar aparması Almaniyada narazılıqla qarşılandı. Lakin Antonesku 1944-cü il avqustun 4-də Hitlerlə görüşərək Almaniya ilə müttəfiqliyə sadiq qalacağını bildirdi.

Ölkədə antifaşist hərəkat 1944-cü il martın 27-də SSRİ ordusunun Prut çayını keçib Rumıniya ərazisinə daxil olmasından sonra gücləndi. İ.Antonesku və hökumətin üzvləri avqustun 23-də kralın qəbulunda ikən həbs olundular. 1944-cü ilin avqustunda general Sanatesku başda olmaqla yeni hökumət yaradıldı. Avqustun 23-də Rumıniya hökuməti SSRİ-nin barışıq şərtlərini qəbul etdi. Kral Mixay avqustun 24-də Rumıniyanın Almaniya tərəfindən döyüşməkdən imtina etdiyini və antihitlerçi koalisiyaya qoşulduğunu bildirdi. Avqustun 31-də isə sovet ordu hissələri Buxarestə daxil oldu. Sentyabrın 12-də ABŞ, Böyük Britaniya və SSRİ Rumıniya ilə barışıq sazişini imzaladılar. Barışıq şərtlərinə görə Rumıniya Almaniya ilə əlaqələrini kəsərək antifaşist ittifaqda fəal mübarizəyə qoşuldu. Rumıniyanın müstəqilliyi və suverenliyi qəti şəkildə tanındı. 1945-ci il martın 6-da Petru Qroza başda olmaqla yeni hökumət quruldu. Rumıniya ərazisi işğaldan azad edildi. Ölkə tarixində yeni dövr başladı.

# XI BÖLÜM

## KANADA

### Birinci dünya müharibəsinin Kanada üçün nəticələri

Böyük Britaniyanın 1914-cü il avqustun 4-də Almaniyaya müharibə elan etməsi ilə Kanada da birinci dünya müharibəsinə qoşuldu. Baş nazir Robert Borden müharibədə ölkəsinin Böyük Britaniya ilə müttəfiq olacağını bildirdi. Müharibənin ölkə üçün müsbət sosial-iqtisadi nəticələri oldu. Kanada ərazisində hərbi əməliyyatlar aparılmadığından iqtisadiyyat xeyli inkişaf etdi, sənaye istehsalı təxminən iki dəfə artdı. Müharibə istehsal və kapitalın təmərküzləşməsini sürətləndirdi. Hərbi əməliyyatların gedişində Kanadanın İngiltərə ilə əlaqələri zəifliədiyindən ölkə iqtisadiyyatında ingilis kapitalının mövqeləri zəiflədi. Müharibə müttəfiqlərin Kanadanın kənd təsərrüfatı məhsullarına olan ehtiyacını artırdı. 1917-ci il oktyabrın 12-də mühafizəkar və liberallardan ibarət koalisiyalı hökümət yaradıldı. Baş nazir Robert Borden "Qələbə naminə milli birlik" şüarını irəli sürdü. 1917-ci ildə parlamentə keçirilən seçkilərdə yunionistlər 153 (85 mühafizəkar və 68 liberal), 75 yaşlı keçmiş baş nazir Ulfrid Loryenin başçılıq etdiyi liberalların digər qanadı isə 82 deputat yeri qazandı. Seçkilər Kanada cəmiyyətində mövcud olan milli birliyi nümayiş etdirdi. Milli birliyə baxmayaraq ölkədə fəhlə həmkarlar ittifaqları və fermer hərəkatları da mövcud idi. Müharibə başa çatdıqdan sonra kənd təsərrüfatı məhsullarına olan ehtiyacın azalması ilə istehsal aşağı düşdükdə aqrar bölmədə ağır vəziyyət yarandı. Ölkədə fermer hərəkatının güclənməsi partiya-siyasi mübarizəyə də təsir göstərdi. Bu dövrdə ölkənin iki başlıca siyasi partiyası var idi: bunlardan biri Liberal Partiyası, digəri isə Mühafizəkarlar Partiyası idi. Ölkədə proqressistlər və geniş xalq kütləri

müdafiə etmədiyindən xeyli zəif olan Kanada Kommunist Partiyası da yaradılmışdı. Lakin ölkədə hakimiyyət uğrunda əsas mübarizə mühafizəkarlarla liberallar arasında gedirdi.

### Müharibədən sonrakı ilk illərdə xarici siyasət

Borden hökumətinin xarici siyasət fəaliyyətində Paris sülh konfransında iştirak etmək mühüm yer tutdu. Kanada konfransa İngiltərədən ayrı, müstəqil olaraq iki nəfər nümayəndə göndərdi. Konfransda iştirak edən Borden yunan məsələsi üzrə komissiyanın, əmək və ticarət naziri C.Foster isə iqtisadiyyat komissiyasının sədr müavinləri oldu. Konfransda müzakirə edilən məsələlərə münasibətdə Kanada və İngiltərənin mövqeləri fərqlənmirdi. Müharibə illərində ABŞ-la yaxınlaşan Kanadanın qaldırdığı Vaşinqtonda nümayəndəlik açılması məsələsi yalnız 1920-ci ilin mayında müsbət həll edildi. Kanada nümayəndə heyəti Millətlər Cəmiyyətinin yaradılmasına tərəfdar çıxdı. Paris sülh konfransında ilk dəfə olaraq Kanada beynəlxalq aləmdə müstəqil və suveren dövlət kimi çıxış etdi. Versal sülh müqaviləsini imzalayan Kanada Millətlər Cəmiyyətinin və Beynəlxalq Əmək Təşkilatının bərabərhüquqlu üzvü oldu.

### Kanada 20-ci illərdə.
### Daxili siyasət

1920-ci ilin ortalarında Borden xəstəliyi ilə əlaqədar olaraq istefaya getdi. Yeni baş nazir Artur Meygen oldu. Onun partiyası Liberal-Mühafizəkar adlandırılmağa başlandı. Lakin yeritdiyi qeyri-ardıcıl daxili və xarici siyasət seçkilərdə Meygenin məğlub olmasına gətirib çıxardı. Bundan sonra partiya 1931-ci ilədək parlamentdə çoxluq qazana bilmədi.

1921-ci il dekabrın 6-dan federal parlamentə keçirilən seçkilərdə 235 deputat yerindən 117-ni liberallar alaraq sabit hökumət ya-

ratmaq imkanı qazandılar. Fermerlərin Milli Proqressiv Partiyası 64 deputat mandatı alaraq ikinci, mühafizəkarlar isə 50 mandat qazanaraq üçüncü yerə çıxdılar. Müstəqil namizədlər isə 4 yer aldılar. Milli Proqressiv Partiya ilə liberallar koalisiyalı hökumət yaratdılar. Dekabrın 29-da liberal U.L.Makenzi Kinqin yaratdığı hökumət fəaliyyətə başladı. Hökumətin tərkibində üstünlük Liberal Partiyasının sağ qanadına məxsus oldu. Yeni hökümət iqtisadiyyatın yenidən qurulmasına başlayaraq dövlət tənzimlənməsindən imtina etdi. 1923-cü ildən başlayaraq iqtisadi vəziyyətin yaxşılaşması nəticəsində fermerlərin müdafiə etdikləri proqressistlər siyasi qüvvə kimi səhnədən silindi. 20-ci illərdə ölkədəki iqtisadi yüksəliş ilk növbədə sənayenin yeni sahələri olan hidroenergetika, aviasiya və maşınqayırma sahələrinin inkişafı hesabına baş verdi. Emal sənayesi inkişaf etdi. Hərbi əməliyyatların getdiyi xarici ölkələrdən Kanadaya yeni ucuz işçi qüvvəsi gəldi. 1923-28-ci illərdə Kanadaya gələnlərin sayı 800 min nəfəri ötüb keçdi. Kanadanın iqtisadi yüksəlişində xarici kapital xüsusi rol oynadı. Ölkədə amerikan kapitalının rolu artdı. Daxili və xarici ticarət genişləndi. Kənd təsərrüfatı məhsulları istehsalı çoxaldı. Fermer təsərrüfatı gücləndi. Taxıl istehsalı artdı. Ölkə taxıl ixracatçısı adını qoruyub saxladı. Kanada böyük dövlətə çevrilməyə başladı. 1924-28-ci illərdə parlamentdə müzakirələr əsasən gömrük tariflərinə dair aparıldı. 1925-ci ildə "Taxıl aktı" qəbul edildi. Qanunun qəbulundan sonra ölkədə taxil istehsalı daha da çoxaldı. Fermer birlikləri yarandı. İqtisadi yüksəliş ölkənin partiya-siyasi həyatının sabitləşməsinə də kömək etdi.

1925-ci il oktyabrın 29-da parlamentə keçirilən seçkilərdə Mühafizəkarlar Partiyası əvvəlki 50 yer əvəzinə 117, liberallar 117 yer əvəzinə 101, Milli Proqressistlər Partiyası 64 yer əvəzinə 24, fəhlə nümayəndələri 2, müstəqillər isə 1 yer aldılar. Parlamentin tərkibi 235 nəfərdən 245 nəfərədək artırıldı. Parlamentin ilk iclasını general-qubernator lord Binq açdı. Yeni hökuməti Makenzi Kinq yaratdı. Lakin 1926-cı il iyunun 28-də bu hökumət istefaya

getdi. İngilis general-qubernator növbədənkənar seçki təyin etməkdən boyun qaçırdıqda və mühafizəkar A.Meygen başda olmaqla yeni hökumət yaratmağı tapşırdıqda konstitusiya böhranı yarandı. Meygen yalnız iyul-sentyabr aylarında baş nazir vəzifəsində işlədi. Böhran parlament seçkiləri vasitəsilə, demokratik yolla nizama salındı. Parlament seçkiləri 1926-cı il sentyabrın 14-nə təyin edildi. Mühafizəkarlar əvvəlki seçkilərdə qazandıqları 117 yer əvəzinə 91 yer aldılar. Nəticədə Meygen baş nazir və Mühafizəkarlar Partiyasının rəhbəri vəzifəsindən istefa verdi. Liberallar 116, liberal proqressistlər 9, fəhlə nümayəndələri 3, Milli Proqressistlər Partiyası 13, fermer birlikləri 11 yer qazandılar. Parlamentin ilk iclasını 1926-cı il dekabrın 10-da yeni general-qubernator Uillinq Don açdı. Kinq hökumət yaratdı. Hökumət Böyük Britaniya imperiyasını saxlamaqla dominionlara imperiya ilə bərabər hüquqlar verməyi təklif etdi. Eyni zamanda ölkədə sosial-siyasi proseslər, millətçilik və separatçılıq artmağa başladı. Seçkilərdən sonra fransızdilli əhalinin yaşadığı Kvebekdə millətçilik hərəkatı daha da gücləndi.

## Xarici siyasət

Xarici siyasət sahəsində Meygen hökuməti ümumimperiya işlərində Kanadanın iştirakını fəallaşdırmaq və rolunu gücləndirmək xəttini götürdü. Kanada hökuməti 1921-ci ilin iyununda keçirilən ümumimperiya konfransında iştirak etdi. Konfransda birgə imperiya xarici siyasətinin yeridilməsi barədə razılıq əldə edildi.

Kanada hökuməti Vaşinqton konfransında iştirak etmək üçün rəsmi dəvət aldı. Lakin konfransda Kanadanın rolu diqqəti o qədər də cəlb etmədi. Çünki Kanada nümayəndəsi R.Borden Böyük Britaniya nümayəndə heyətinin tərkibində idi.

Kanadanın 20-ci illərdə həyata keçirdiyi xarici siyasət doktrinası Makenzi Kinqin bilavasitə rəhbərliyi ilə hazırlandı. Bu siyasət ABŞ və Böyük Britaniya ilə əlaqələri sıxlaşdırmağı, lakin heç bir ikitərəfli və beynəlxalq öhdəlik götürməməyi nəzərdə tuturdu.

Kinq hökuməti beynəlxalq fəaliyyətində Borden-Meygen siyasətindən imtina etdi. Kanada hökuməti Böyük Britaniyanın Türkiyəyə qarşı hərbi müdaxiləsində iştirak etmədi. Nəticədə Böyük Britaniya ilə dominionu arasında ixtilaf yarandı. Buna görə də Kanada Lozanna konfransında iştirak etmədi. İngilis hökumətinin Lozanna konvensiyasını təsdiq etmək xahişi də Kanada hökuməti tərəfindən rədd olundu. Bununla da Kinq hökuməti ölkənin suverenliyi xəttinə qəti şəkildə əməl etdi. Kanada 1923-cü ildə keçirilən imperiya konfransında Böyük Britaniyanın dominionları ilə birlikdə vahid xarici siyasət yeritmək konsepsiyasına qarşı çıxış etdi. Konfrans Kanadanın müstəqil xarici siyasət yeritmək istəyini aydın şəkildə göstərdi. Kinq Kanadaya təyin olunan ingilis general-qubernatorunun səlahiyyətlərinin azaldılmasını təklif etdi. O, 1926-cı ildə keçirilən imperiya konfransında da iştirak etdi. Konfransda bütün dominionların bərabər hüquqlara malik olması təsbit edildi. Buna dair "Balfur bəyannaməsi" qəbul edildi. Dominionlara geniş hüquqlar verildi. Onlar müharibə və sülh məsələlərini müstəqil həll etmək hüququ qazandılar. General-qubernatora yalnız rəmzi status verildi. Kanadanın həyatında onun rolu getdikcə zəifləyirdi.

Kanada 1927-ci ildə ABŞ, Fransa və Yaponiya ilə diplomatik münasibətlər qurdu. 1924-cü ildə diplomatik cəhətdən tanıdığı SSRİ ilə münasibətlərini 1927-ci ilin mayında kəsdi. Elə həmin ildə Kanada Millətlər Cəmiyyətinin qeyri-daimi üzvü seçildi. 1928-ci ilin avqustunda isə Kanada hökuməti "Brian-Kelloq paktı"na qoşuldu. Kanada hökuməti ABŞ-la münasibətlərini xeyli yaxşılaşdırdı.

## Kanada 30-cu illərdə. Daxili siyasət

Dünya iqtisadi böhranı Kanada iqtisadiyyatına ağır təsir göstərdi. Sənaye məhsulu istehsalı xeyli aşağı düşdü. Xırda banklar sıradan çıxdı. Ölkədəki 40 bankdan yalnız 10-u qaldı. Dağ-mədən

və meşə sənayesi böhrana düşdü. İqtisadi böhran kənd təsərrüfatına sarsıdıcı zərbə endirdi. Kənd təsərrüfatı məhsulları istehsalı azaldı.

Böhranın ağır vaxtında - 1930-cu ilin iyununda keçirilən seçkilər nəticəsində R.B.Bennet başda olmaqla mühafizəkarlar hakimiyyətə gəldi. Hökumət böhran əleyhinə ciddi tədbirlər həyata keçirdi. İşsizliyə qarşı fəaliyyət proqramı işlənib hazırlandı. 1930-cu il sentyabrın 12-də parlament "İşsizlərə yardım haqqında qanun" qəbul etdi. İşsizliyin səviyyəsini azaltmaq məqsədilə təşkil ediləcək ictimai işlər üçün dövlət büdcəsindən 20 mln. dollar vəsait ayrıldı. İşsizliyi aşağı salmaq üçün bütövlükdə 1930-1940-cı illərdə 1 mlrd. 290 mln. dollar vəsait xərcləndi. Ümumiyyətlə, bu illərdə ölkə əhalisinin təxminən 2 mln. nəfəri işsiz idi. Hökumət sərt proteksionizm siyasətini həyata keçirdi. Böhran illərində tətil hərəkatı artdı. İşsizlərin və ağların Ottavaya yürüşləri keçirildi. 1932-ci ildə Kanada Sosial Bərpa Cəmiyyəti yaradıldı. Bu, əslində yeni siyasi hərəkatın yaradılması demək idi. Ölkədə fəhlə-fermerlərin koalisiyası olan Kooperativ Əməkdaşlıq Federasiyası yaradıldı.

Böhranın nəticələrini aradan qaldırmaq üçün tədbirlər həyata keçirən hökumətin təklifi ilə 1935-ci ilin yayında parlament işsizlərin sığorta edilməsi, 8 saatlıq iş günü və s. məsələlər haqqında qanunlar qəbul etdi. Ölkəyə mühacirət etmək qadağan olundu. Görülən bu tədbirlər Bennetin "Yeni kursu" adlandırıldı. Lakin bu tədbirlər növbəti parlament seçkilərində mühafizəkarları məğlubiyyətdən qurtara bilmədi. 1935-ci ildə keçirilən parlament seçkilərində liberallar 171, mühafizəkarlar 39, Bərpa Partiyası 1, fəhlə-fermer koalisiyası 7, sosial-kreditçilər 17 mandat qazandılar. Kommunist Partiyası isə bu seçkilərdə səs toplaya bilmədi. Yeni hökuməti Makenzi Kinq yaratdı. Bu hökumət 1948-ci ilədək hakimiyyətdə oldu.

Böhrandan sonrakı illərdə Kanada iqtisadiyyatında yüksəliş baş verdi. Yeni neft və filiz yataqları aşkar edildi. Hökumət ölkədə mənzil probleminin həll etmək məqsədilə ucuz evlər tikmək barədə iki qanunu 1937-38-ci illərdə parlamentdən keçirdi. 1937-ci

ildə "Gənclər haqqında qanun" qəbul edildi. Bu qanuna görə gənclərin təhsil alması üçün 1 mln. dollar vəsait ayrıldı.

## Xarici siyasət

30-cu illərdə Kanada hökumətləri xarici siyasətdə İngiltərənin beynəlxalq aləmdə yeritdiyi ümumi xəttə əməl edirdi. Hökumət 1930-cu il oktyabrın 1-dən noyabrın 14-dək Ottavada keçirilən imperiya konfransında əlverişli tariflər tətbiq etməklə Britaniya imperiyası daxilində ticarətin genişləndirilməsinə dair təklif irəli sürdü. 1931-ci il dekabrın 11-də qəbul edilən "Vestminster statutu"na görə digər dominionlar kimi Kanada da geniş hüquqlar aldı. Bu sənəd Kanada xalqının milli maraqlarına cavab verirdi.

1932-ci il iyulun 2-dən avqustun 20-dək Ottavada imperiya iqtisadi konfransı keçirildi. Burada əsasən ikitərəfli münasibətlər müzakirə edildi. Kanada hökuməti İngiltərə, Cənubi Afrika İttifaqı, Cənubi Rodeziya və İrlandiya ilə ikitərəfli sazişlər imzaladı. İmzalanan sənədlər "Ottava sazişlər sistemi" adını aldı. Sazişlərlə ikitərəfli münasibətlər tənzimləndi.

Kanada ABŞ-la münasibətlərin inkişafına xüsusi diqqət verdi. ABŞ prezidenti Ruzveltin dəvəti ilə Bennet 1933-cü ilin aprelində Vaşinqtona səfər etdi. Səfər zamanı iki ölkə arasında ticarət tariflərinin aşağı salınması barədə razılıq əldə edildi. Ticarət sazişi yalnız 1935-ci il noyabrın 15-də Vaşinqtonda Kanadanın yeni baş naziri M.Kinq tərəfindən imzalandı.

Kanadanın xarici siyasətində Millətlər Cəmiyyətində iştirak etmək mühüm yer tutdu. Kanada nümayəndə heyəti 1932-ci ilin fevralında Millətlər Cəmiyyətinin Cenevrədə tərksilaha dair keçirilən konfransında iştirak etdi. Kanada hökuməti İtaliyanın Həbəşistana müdaxiləsinin Millətlər Cəmiyyəti tərəfindən qarşısının alınmasını təklif etsə də bu işğalı 1938-ci ilin sonunda rəsmi şəkildə tanıdı.

İkinci dünya müharibəsi ərəfəsində Kanada-SSRİ münasibət-

lərində soyuqluq baş verdi. Kanada hökuməti SSRİ-dən alınan bir sıra məhsullar üzərinə embarqo qoydu.

30-cu illərin ikinci yarısında Kanadanın xarici siyasətində təcridçilik və beynəlxalq öhdəliklər götürməmək xətti üstünlük təşkil etdi.

Kanada hökuməti 1937-ci ilin mayında Londonda keçirilən növbəti imperiya konfransında ölkənin suverenliyinə doğru mühüm addım ataraq müharibə və sülh məsələlərində tam müstəqil fəaliyyət göstərdiyini təsdiqlədi.

Kanada Almaniya ilə münasibətlərə diqqət yetirdi. Baş nazir M.Kinq 1937-ci ilin iyununda Berlinə səfər edərək Almaniya rəhbərləri ilə görüşdü. Hitler imperiya konfransının qərarlarını və konfransda Kanadanın tutduğu mövqeyi bəyəndi. Öz növbəsində bir il sonra Kanada hökuməti Almaniyanın Avstriyanı birləşdirməsinə və Çexoslovakiyanı tutmasına etiraz etmədi.

1938-ci ildə Amerika-Kanada ticarət sazişinin imzalanması, həmin ilin avqustunda prezident Ruzveltlə baş nazir Kinqin Kanadada görüşməsi iki ölkə arasında münasibətləri yeni səviyyəyə qaldırdı. ABŞ-Kanada münasibətlərinin inkişafı ölkədə, bütövlükdə qitədə İngiltərənin mövqelərini xeyli zəiflətdi. Ölkədə amerikan kapitalının mövqeləri gücləndi.

1939-cu ildə Böyük Britaniya rəhbərliyi Kanada baş naziri tərəfindən qəbul edildi. Danışıqlarda ikitərəfli münasibətlərə dair geniş fikir mübadiləsi aparıldı.

## Kanada ikinci dünya müharibəsi illərində

İkinci dünya müharibəsinin başlanması Kanadanın daxili və xarici siyasətinə ciddi təsir etdi. 1939-cu il sentyabrın 7-də Kanada parlamentinin xüsusi sessiyasında ölkədən kənarda döyüşlərdə istifadə olunmaq məqsədilə ümumi hərbi mükəlləfiyyət keçirilməsi qadağan edildi. Müharibədə Kanadanın iştirakının yalnız xammal və silah istehsal etmək, İngiltərəyə iqtisadi yardım göstərmək ol-

duğu bəyan edildi. Sentyabrın 10-da Kanada parlamentinin icmalar palatası Almaniyaya müharibə elan etməyə razılıq verdi. Kanada müharibəyə İngiltərə və onun müttəfiqləri tərəfindən qoşuldu. Ölkə iqtisadiyyatı hərbi relsə keçirildi. 1940-cı il iyunun 20-də "Milli ehtiyatların səfərbər edilməsi haqqında qanun" qəbul olundu. Hökumətə fövqəladə səlahiyyətlər verildi. Silah və təchizat idarəsi yaradıldı. Bu idarə təsərrüfat sisteminin tənzimlənməsində əsaslı rol oynamalı idi. Hərbi ehtiyacların ödənilməsi iri korporasiyalara tapşırıldı. Lakin hərbi sifarişləri yerinə yetirmək üçün ölkədə işçi qüvvəsi çatışmırdı. Hökumət müharibə illərində hərbi sənayedə işləməyə əlavə olaraq 1 mln. nəfər cəlb etdi. Qiymətlər donduruldu. Kənd təsərrüfatı məhsullarının istehsalını artırmaqdan ötrü fermerlərə vəsait ayrıldı. Müharibə illərində Kanadanın ümumi dövlət büdcəsi 24 mlrd. dollar təşkil edirdi. Onun da 18,2 mlrd. dolları hərbi məqsədlər üçün xərcləndi. Hərbi əməliyyatlar ölkə ərazisində aparılmadığından yeni sənaye müəsisələrinin qurulması üçün əlverişli imkan yarandı. İqtisadiyyat inkişaf etdi. Sənayenin inkişaf sürətinə görə qısa müddətdə Kanada dünyada birinci yerə çıxdı. Sənaye məhsulu istehsalı 2, xarici ticarət dövriyyəsi isə 3 dəfə artdı. 1941-ci ilin iyununda ölkənin təbii sərvətlərindən səmərəli istifadə etmək məqsədilə iqtisadi komitə yaradıldı. Komitənin tərkibində müxtəlif sahələrə dair yarımkomitələr fəaliyyət göstərirdi.

Müharibədə Kanada Almaniya bloku ölkələri üzərində qələbəyə daha çox hərbi sursat, silah və ərzaq verilməsi ilə kömək etdi. Kanada hərbi məhsulunun 53%-ni birlik ölkələrinə verdi.

Kanada hökuməti müttəfiqlərini təkcə silah və sursatla təmin etməklə kifayətlənmədi. Müharibə dövründə Kanada ordusu təxminən 70 min nəfər idi. 1939-40-cı illərin qışından başlayaraq İngiltərəyə yardım məqsədilə hərbi hissələr göndərildi. 1942-ci ilin aprelində ölkə xaricində hərbi qüvvələrdən istifadəyə icazə vermək məsələsinə dair referendum keçirildi. Xalq qaldırılan məsələyə müsbət münasibət bildirdi. Lakin kanadalılar 1943-cü ilin yayı-

nadək böyük döyüşlərdə iştirak etmədilər (onlar bu vaxtadək yalnız 1942-ci il avqustun 18-19-da Şimali Afrikada döyüşmüşdülər). Kinq hökuməti 1943-44-cü illərdə də Avropaya hərbi hissələr göndərdi. Kanada Aralıq dənizində aparılan hərbi əməliyyatlarda yaxından iştirak etdi. İkinci cəbhənin açılmasına Kanada hərbi-dəniz donanmasının 10 min zabiti və sıravisi, 100 gəmisi cəlb edildi. Müharibənin Kanada üçün bir sıra nəticələri oldu. 42 minədək kanadalı müharibədə öldü.

Müharibə illərində fəal xarici siyasət həyata keçirən Kanadanın ABŞ və İngiltərə ilə münasibətləri daha da yaxşılaşdı. Baş nazir Kinq ABŞ prezidenti Ruzveltlə Nyu-York ştatında görüşərək birgə daimi müdafiə şurası yaratdıqlarını bəyan etdilər. Hər iki ölkə müdafiə məsələlərində bərabər hərəkət edəcəklərini bildirdi. 1941-ci il aprelin 20-də Kanada "Haydpark bəyannaməsi"ni imzalayaraq Lend-liz sisteminə qoşuldu. 1942-ci il iyunun 12-də Londonda SSRİ ilə Kanada arasında diplomatik münasibətlərin bərpasına dair saziş imzalandı. Baş nazir Kinq 1943-cü ilin mayında Vaşinqtonda Böyük Britaniyanın baş naziri Çerçillə görüşdü. Kanada BMT-nin yaradılmasında yaxından iştirak etdi. Müharibənin başa çatması ilə Kanada beynəlxalq aləmdə nüfuzlu dövlətlərdən birinə çevrildi.

# XII BÖLÜM

## ARGENTİNA

### Birinci dünya müharibəsinin Argentinaya təsiri

Birinci dünya müharibəsi illərində Argentina bitərəf ölkə idi. Müharibə Argentina iqtisadiyyatını Avropa sənaye bazarından ayıraraq sürətli inkişafına kömək etdi. Çünki döyüşən dövlətlər, xüsusən İngiltərə və ABŞ Argentinanın kənd təsərrüfatı məhsullarına və ərzağına ehtiyac duyurdular. Argentinanın kənd təsərrüfatı məhsulları dünya iqtisadiyyatı və ticarətində əhəmiyyətli rol oynamağa başladı. Yaranmış əlverişli şəraitdə kənd təsərrüfatı sahibkarları çoxlu gəlir əldə etmək məqsədilə torpağı geniş şəkildə icarəyə verirdilər. Xarici ölkələrin Argentina mallarına olan tələbatı ölkədə iqtisadi yüksəlişin baş verməsinin başlıca səbəblərindən idi. Müharibə illərində ölkənin xarici ticarəti xeyli artdı. Toxuculuq, elektrotexnika sənaye sahələri və ticarət inkişaf etdi. Müharibə dövründə ərzaq, toxuculuq, tikinti, gəmiqayırma sənayesi inkişaf etdi, neft və daş-kömür çıxarılması çoxaldı. Ölkənin, xüsusən Buenos-Ayresin limanları artdı. Argentinanın əhalisi mühacirlərin hesabına çoxaldı. Bununla belə, Argentina xarici ölkələrdən hələ də maliyyə və iqtisadi asılılıq vəziyyətində idi. Müharibə illərində və ondan sonra ölkə iqtisadiyyatında amerikan kapitalının xüsusi çəkisi artdı. İki ölkə arasında dəniz ticarəti xeyli genişləndi. İqtisadi inkişafla əlaqədar olaraq ölkənin siyasi həyatında da sabitlik yarandı. Müharibədən sonrakı illərdə hakimiyyətdə Radikallar Partiyasının nümayəndəsi İppolito İrihoyen idi. O, 1916-cı ildə prezident seçildi və 1922-ci ilədək bu vəzifədə qaldı. Bütövlükdə bu partiya 1930-cu ilədək hakimiyyətdə oldu. Partiya ticarət-sənaye sahibkarlarına, orta sahibkarlara, ziyalılara, sənətkarlara və qismən də fəhlələrə arxalanırdı. Ölkədə

liberal-islahatçı rejim yaradıldı.

Hakimiyyətdə olan Radikallar Partiyası daxili siyasətdə bir sıra islahatlar həyata keçirdi. İrihoyen hökumətinin daxili siyasətinin qarşısında duran başlıca vəzifə ölkədə mümkün ola biləcək özbaşınalıqları aradan qaldırmaq, mərkəzi hakimiyyəti gücləndirmək və qayda-qanunu möhkəmləndirmək idi. O, iri torpaq sahibliyinin əleyhinə çıxaraq əyalətlərin daxili işlərinə qarışdı. Kənd təsərrüfatının inkişafını təşviq etdi. Prezident inzibati və bələdiyyə islahatını həyata keçirdi. İrihoyen Buenos-Ayres əyalətini milli qanunları pozmaqda təqsirləndirərək hərbi vəziyyət elan etdi. Mərkəzi hökumət Salta, Katamarka və La-Rioxa əyalətlərində inzibati və yerli özünüidarə orqanlarının islahatını keçirdi. Özünüidarəetmə orqanları əvvəllər əgər mərkəzi hökumətin təyin etdiyi məmurlar tərəfindən idarə olunurdusa, bundan sonra onlar proporsional qayda ilə seçilməli idi. Bu islahat idarəçilik sisteminin demokratikləşdirilməsində və təbii sabitliyin yaradılmasında mühüm addım oldu.

İrihoyen kilsə və hərbçilərin hökmranlığını məhdudlaşdırmağa çalışsa da ölkədə mövcud olan feodal qalıqlarını tamamilə ləğv etməyə cəhd göstərmədi.

Milli sənayenin inkişafı üçün geniş islahatlar həyata keçirildi. Ölkədə demokratik tədbirlər də görüldü. Azad mətbuat və siyasi partiyaların normal fəaliyyət göstərməsi üçün şərait yaradıldı.

1919-1921-ci illərdə İrihoyen hökuməti universitetlərdə islahat keçirdi. Bu islahata görə universitetlərə muxtariyyət hüququ verildi. Universitetlərə qəbul aparılarkən tətbiq olunan bir sıra məhdudiyyətlər aradan qaldırıldı. Hökumət yeni məktəblər açdı. Yalnız 1916-1922-ci illərdə ölkədə 3126 məktəb tikilərək istifadəyə verildi.

Ölkədə sosial-siyasi proseslər gücləndi. 1919-cu ilin yanvar ayında Argentinada fəhlələr ordu və polislə toqquşdular. 1920-ci ilin dekabrında Argentina Sosialist Partiyası Argentina Kommunist Partiyasına çevrildi. Lakin sinfi mübarizəni təbliğ edən bu partiyanın geniş sosial dayaqları yox idi.

Hökumət xarici siyasət sahəsində xarici kapitalın Argentinaya girməsinə mane olurdu. İrihoyen dövlətlərarası mübahisələrin dinc yolla həllinə, müharibələrdən imtina olunmasına və xalqların öz müqəddəratını təyin etməsinə tərəfdar idi.

## Argentina 20-30-cu illərdə

Müharibə başa çatdıqdan sonra xaricdə Argentina məhsullarına olan ehtiyac azaldığından müəssisələrin işi zəiflədi və iş yerləri ixtisara düşdü. Ölkədə iqtisadi vəziyyət ağırlaşdı. 1921-ci ildə Argentinada iqtisadi böhran başlandı. İşsizlər ordusu yarandı. Kənd təsərrüfatı istehsalı aşağı düşdü. İxracat xeyli zəiflədi. İqtisadi böhrandan çıxmaqdan ötrü hökumət bir sıra tədbirlər həyata keçirdi. Sənaye və nəqliyyatda 8 saatlıq iş günü tətbiq olundu. Qadın və uşaq əməyinin qorunması haqqında dekret verildi. Pensiya sistemi yaradıldı. Hökumət aqrar islahatı həyata keçirdi. Kənd təsərrüfatı nazirliyinin tərkibi tamamilə dəyişdirildi. Boş torpaqlardan səmərəli şəkildə istifadə edildi. 1921-ci ildə kənd təsərrüfatında icarə haqqında qanun verildi. Bu qanuna görə kənd təsərrüfatında icarə müqaviləsi dörd il müddətinə bağlanılırdı. Müqavilə başa çatdıqdan sonra sahibkar torpağı icarəyə götürən şəxsi qova bilməzdi. Eyni zamanda kəndlilərə ərzaqla deyil, pulla əmək haqqı verilməsi haqqında qanun qəbul olundu. Bu isə kənddə yeni ictimai münasibətlərin yaranmasına və kənd yerlərində həyat şəraitinin yaxşılaşmasına kömək etdi.

İrihoyen hökumətinin xarici siyasəti çevik olub ölkənin suverenliyi və müstəqilliyinin qorunmasına yönəlmişdi. Hökumət ABŞ-la yaxınlaşaraq amerikan kapitalı üçün ölkədə əlverişli şərait yaratdı. Buna baxmayaraq iki ölkə arasında münasibətlərdə mövcud olan problemlər İrihoyen hökumətinin mövqelərini zəiflətdi. ABŞ hökuməti Argentinaya təzyiqlərini artırdı.

Argentina hökuməti beynəlxalq fəaliyyətində təkcə ikitərəfli deyil, çoxtərəfli əlaqələrini də genişləndirdi. Ölkə Millətlər Cə-

miyyətinə daxil olaraq beynəlxalq məsələlərin həllində yaxından iştirak etdi.

20-ci illərdə ABŞ-ın Latın Amerikası ölkələrinə müdaxiləsinin əleyhinə olan Argentina Avropa ölkələri ilə əlaqələrini gücləndirərək İngiltərə, Fransa və İtaliyadan 40 mln. funt sterlinq istiqraz aldı. Bu da amerikan kapitalının kəskin narazılığına səbəb oldu. Bütövlükdə götürdükdə İrihoyen hökumətinin xarici siyasəti kifayət qədər müstəqil idi.

1922-ci il oktyabrın 12-də keçirilən prezident seçkilərində radikalların nümayəndəsi 448 min, mühafizəkarların nümayəndəsi isə 200 min səs aldı. Ölkə prezidenti buna qədər Argentinanın Fransada səfiri işləmiş Marselo T. de Alvear oldu. Hökumətin tərkibinə hərbçilər də daxil edildi. Hökumət daxili siyasətdə milli sənayeni, taxılçılıq və heyvandarlıq təsərrüfatlarını inkişaf etdirdi. İş yerlərində qarşıdurmanı zəifləmək üçün əmək münasibətləri tənzimləndi. 1922-ci ildə ölkədəki həmkarlar ittifaqları birləşərək "Union Sindikal Arxentina" (USA) adını aldı. Hökumət ordu quruculuğuna xüsusi diqqət yetirdi. 1923-cu ilin noyabrında ordunun təchizatının yaxşılaşdırılması barədə qanun qəbul edildi.

1924-cü ildə Radikallar Partiyası və həmkarlar ittifaqı parçalandı. Yeni həmkarlar ittifaqı təşkilat olan Argentina Fəhlələri Konfederasiyası yaradıldı.

Alvear hökumətinin hakimiyyəti illərində ölkə iqtisadiyyatında yüksəliş baş verdi. Xarici ticarət artdı. 1925-29-cu illərdə ixracat 2 mlrd. 126 mln. pesoya çatdı. Taxıl, yun və kənd təsərrüfatı məhsulları istehsalı artdı. Emal sənayesi inkişaf etdi. Kənd təsərrüfatının inkişafının başlıca səciyyəvi cəhəti yeni texnikanın tətbiq edilməsi oldu. Argentina fermalar çakra, fermerlər isə çakarerosa adlanırdı. Fermaların sayı 1924-cü ildə əgər 120 min idisə, 1929-cu ildə 153,3 minə çatdı. Daxili bazarın inkişafına avtomobil və dəmiryollarının çəkilişi kömək etdi. Tikinti sənayesi inkişaf etdi. İşsizlərin sayı azaldı, əmək haqqı artırıldı. Peso sabitləşdi. 1926-cı ildə qəbul edilən iki qanunla kooperativlərə maliyyə yardımı göstərildi.

Alvearın hakimiyyəti illərində dövlətin xarici siyasətində Amerika qitəsi ölkələri ilə əməkdaşlıq xüsusi yer tutdu. 1923-cü ilin martında keçirilən V Panamerikan konfransında Argentina hökuməti əvvəlki illərdə ABŞ-la münasibətlərdə mövcud olan soyuqluğu aradan qaldırdı. Alvear hökuməti eyni zamanda 1925-ci ildə SSRİ ilə də diplomatik münasibətlər qurdu.

1928-ci ildə ölkədə yeni prezident seçkiləri keçirildi. İppolito İrihoyen yenidən prezident seçildi. İrihoyen fəal daxili siyasət yeritməyə başladı. İlk növbədə neft sənayesinin inkişafına diqqət verildi. 1929-cu il avqustun 1-də neft üzərində dövlət nəzarəti qoyuldu. Neft çıxarılmasını və bölüşdürülməsini Neft üzrə dövlət nəzarəti idarəsi həyata keçirməyə başladı. Dövlət neft inhisarı olan Yasimyentos Petroliferos Fiskales yaradıldı. 1930-cu il fevralın 17-də bütün ölkə ərazisində neft və kerosin üzərində vahid qiymət qoyuldu. Həmin ilin fevralında Argentina parlamenti - konqresi "Neft sənayesinin milliləşdirilməsi haqqında qanun" qəbul etdi. Bu qanun ABŞ-da narazılıqla qarşılandı. Çünki hələ 1907-ci ildə Rokfellerin "Standart Oyl" ("Ekson") neft şirkəti Argentina neftində konsessiya almışdı. Bu milliləşdirmə amerikan neft şirkətləri və kapitalının ölkədəki fəaliyyətinə mane olurdu. Nəticədə ABŞ və İngiltərə ilə Argentina arasında narazılıq yarandı. İrihoyen ABŞ-ın əsaslandığı "Monro doktrinası"nın əleyhinə çıxdı. Hökumət eyni zamanda "Brian-Kelloq paktı"na qoşulmaqdan da imtina etdi. Argentinanın bu ölkələrlə münasibətləri pisləşdi.

Xarici siyasətdə mövcud olan bu problemlər dünya iqtisadi böhranının ölkə daxilində yaratdığı çətinliklərlə çulğalaşaraq hökumətin vəziyyətini ağırlaşdırdı. Dünya iqtisadi böhranı Argentina iqtisadiyyatına daha ağır zərbə vurdu. İqtsiadi böhran kəskin sosial, iqtisadi və siyasi vəziyyət yaratdı. Ölkədə işsizlərin sayı 334 min nəfərə çatdı. Xalqın vəziyyəti ağırlaşdı. Kənd təsərrüfatı məhsullarının qiymətinin aşağı düşməsi ölkə iqtisadiyyatına zərbə vurdu. Xalqın hakimiyyətdən narazılığı gücləndi. İrihoyen nüfuzdan düşdü. Bu çətin vəziyyətdən milli sənayeçi - mülkədar

oliqarxiyası istifadə etdi. Ordu da hakimiyyətdən narazı idi. Yüksək zabitlər sui-qəsd hazırladılar. Qəsdçilərin başçısı general Feliks Uriburu idi. Argentinanın neft siyasətindən narazı olan ABŞ da qiyamçıları müdafiə etdi. 1930-cu ilin sentyabrında Buenos-Ayresdə hökumət əleyhinə nümayişlər başlandı. İzdihamlı nümayişlərin başlıca tələbi İrihoyenin istefası idi. Qan tökülməsini istəməyən İrihoyen vəzifəsini Martinesə verdi. Buna baxmayaraq İrihoyen sentyabrın 6-da həbs edilərək Martin Qarsiya adasına sürgün edildi. Az sonra Martines də hakimiyyətdən uzaqlaşdırıldı. Ölkənin müvəqqəti prezidenti Uriburu oldu. O, əyalətlərin qanunverici məclislərini - konqresləri buraxdı. Uriburu Mühafizəkarlar Partiyası əsasında Milli Demokrat Partiyasını yaratdı. 1931-ci ilin noyabrında keçirilən prezident seçkilərində general Aqustino Xusto qalib gəldi. O, 1932-ci il fevralın 20-dən 1937-ci ilədək ölkənin prezidenti oldu. Yeni prezident İrihoyenin hakimiyyəti illərində daxili siyasətdə həyata keçirilən sosial-iqtisadi tədbirləri təftiş etdi. Xusto liberal siyasət yeritməyə başladı. 1931-ci ildə Argentina fəhlələri konfederasiyasının bazasında Ümumi Əmək Konfederasiyası yaradıldı. 1932-ci il fevralında İrihoyen həbsxanadan azad edildi.

Hökumət böhrandan çıxmaqdan ötrü dövlət-inhisarçı tənzimlənməsinə keçdi. Argentinada bu tənzimləmə özünü sağ mühafizəkar variantda göstərdi.

Xarici siyasət sahəsində hökumət İngiltərə ilə əməkdaşlığa xüsusi diqqət yetirdi. Argentina nümayəndə heyəti 1933-cü ilin sonunda keçirilən VII Panamerikan konfransında iştirak etdi, "Brian-Kelloq paktı"na qoşuldu. Xarici işlər naziri Saavedr Lamasın hazırladığı hücum etməmək və barışıq haqqında paktı ABŞ hökuməti imzaladı. ABŞ-la münasibətlər yaxşılaşdırıldı. Amerikan kapitalının ölkədə normal fəaliyyət göstərməsi üçün şərait yaradıldı.

1935-ci ilin sentyabrında Argentina prezidenti Xusto, Braziliya prezidenti Varqas və Uruqvay prezidenti Terra qayda-qanunun qorunmasına dair üç ölkə arasında müqavilə imzaladılar. Müqavilə re-

gional təhlükəsizliyin qorunması sahəsində əməkdaşlıqda mühüm addım idi.

1937-ci ildə ölkədə yeni prezident seçkiləri keçirildi. ABŞ-la münasibətlərin yaxşılaşdırılmasının tərəfdarı olan Roberto Ortis prezident seçildi. O, 1940-cı ilədək bu vəzifədə qaldı. Yeni prezident fəal daxili siyasət yeridərək konstitusiya rejimini bərpa etdi. Konqreslər ölkə həyatında yenidən əsaslı rol oynamağa başladılar. Demokratik təsisatlar bərpa edildi. Müxalifət partiyalarının normal fəaliyyət göstərməsi üçün şərait yaradıldı.

Xarici siyasət sahəsində bir sıra addımlar atıldı. ABŞ-la münasibətlər istiləşdirildi. Ölkədə amerikan kapitalının fəaliyyətinə əlverişli şərait yaradıldı. Argentinada ABŞ-ın mövqeləri möhkəmləndi.

## Argentina ikinci dünya müharibəsi illərində

İkinci dünya müharibəsinin başlanması Argentinanın daxili siyasətinə ciddi təsir göstərdi. 1939-cu il sentyabrın 4-də prezident Ortis müharibədə ölkəsinin bitərəf olduğunu bildirdi. Bu vəziyyət Argentinanın iqtisadi inkişafına, xüsusən xarici ticarətinin artmasına böyük kömək etdi. Argentina məhsullarına xaricdə olan tələbatın artması iqtisadi inkişafa təkan verdi. Sənayenin yeni sahələri yaradıldı. İşsizlik demək olar ki, ləğv edildi. İqtisadi yüksəliş baş verdi.

1939-cu ildə hökumət ölkədə fəaliyyət göstərən faşist təşkilatlarını buraxdı. Lakin Ortis xəstə olduğu üçün dövlətin qarşısında duran vacib məsələləri çevik həll etmək mümkün olmurdu. Ona görə də o, vəzifəsini vitse-prezident Ramon Kastilyoya verdi. Kastilyo 1940-1943-cü illərdə ölkə prezidenti vəzifəsini yerinə yetirdi. Kastilyo hakimiyyəti öz əlində cəmləşdirərək ölkədə mövcud rejimi daha da sərtləşdirildi.

Xarici siyasət sahəsində Argentina hökuməti Almaniya və onun müttəfiqləri ilə əlaqələrini genişləndirdi. Argentina ordusu

Almaniyadan gələn mütəxəssislər tərəfindən alman tipində quruldu. Bu isə antihitlerçi koalisiyaya daxil olan ölkələr tərəfindən narazılıqla qarşılandı.

Müharibə illərində hökumətin yeritdiyi daxili və xarici siyasətdən narazı olan xalq kütlələri və hərbçilər 1943-cü il iyunun 4-də paytaxta daxil olaraq hökumət binasını ələ keçirdilər. Hökumət devrildi. Yeni hökumətin başında Kampo-de-Mayo qarnizonunun rəisi Arturo Rauson durdu. Az sonra o, bu vəzifəni keçmiş müdafiə naziri general Ramirisə verdi. Ramiris Argentina Respublikasının müvəqqəti prezidenti elan edildi. İyunun 11-də Böyük Britaniya və ABŞ bu hökuməti tanıdı. 1944-cü ilin fevralında Ramiris istefaya getdi. Yeni prezident general Farral oldu. 1945-ci ilin fevral-martında xarici işlər nazirləri səviyyəsində Meksikada keçirilən Panamerikan konfransında iştirak etdikdən sonra Argentina hökuməti martın 27-də Almaniya bloku ölkələrinə müharibə elan etdi. Müharibəni qalib dövlətlərin cərgəsində başa vuran Argentinanın tarixində yeni dövr başlandı.

# XIII BÖLÜM

## BRAZİLİYA

### Birinci dünya müharibəsinin Braziliya üçün nəticələri

Braziliya birinci dünya müharibəsinə 1917-ci il oktyabrın 26-da Antanta dövlətləri tərəfindən qoşuldu. Lakin müharibədə Braziliyanın iştirakı xeyli məhdud oldu. Braziliya hökuməti ingilislərə kömək üçün hərb gəmilərini Atlantik okeanına göndərdi. Braziliya müttəfiqlərinə əsasən qəhvə, qənd, ət, kauçuk, faydalı qazıntılar verməklə və ingilislərin iştirak etdiyi dəniz əməliyyatlarında donanma ilə keşik çəkməklə kömək etdi.

Müharibə Braziliyanın Avropa dövlətləri ilə əvvəllər mövcud olmuş ənənəvi ticarət əlaqələrini pozdu. Ümumi xarici ticarət dövriyyəsi aşağı düşdü. Qəhvə və qənd ixracı azaldı. Buna baxmayaraq, ölkə iqtisadiyyatı xeyli inkişaf etdi. Ölkədə 6 min yeni müəssisə tikildi. Bunlar əsasən toxuculuq, yeyinti və yüngül sənaye sahələrinə aid idi. Müharibənin gedişində iş yerləri açıldı. İşsizlik aşağı düşdü. Lakin istehsal texnikasında ciddi dəyişiklik olmadı. Sənaye müəssisələrinin əksəriyyəti kiçik manufakturalar tipində idi və Braziliya hələ də aqrar-sənaye ölkəsi olaraq qalırdı. Ölkə əhalisi əsasən əkinçilik və maldarlıqla məşğul olurdu.

Braziliya birinci dünya müharibəsinin gedişində ABŞ-la xeyli yaxınlaşdı. Hərbi əməliyyatlar aparıldığından Braziliya ilə əlaqələri azalan İngiltərənin ölkə iqtisadiyyatında mövqeləri xeyli zəiflədi.

Müharibənin başa çatması Braziliya iqtisadiyyatına mənfi təsir göstərdi. Döyüşən ölkələr Braziliyanın toxuculuq, yüngül və yeyinti sənayesi məhsullarına ehtiyac duymadıqlarından ixracat azaldı. Xarici ticarət dövriyyəsi aşağı düşdü. Nəticədə 1919-cu ildə ölkə iqtisadiyyatında durğunluq əmələ gəldi. 1921-1922-ci illərdə ölkəni dərin böhran bürüdü. Bu illərdə "kanqaseyro" - quldur hərəkatı

genişləndi. Böhran nəticəsində müflisləşən əhali mülkədar torpaqlarını zorla tutmağa başladı. Prezident Epitasio Pessoa (1919-1922) ölkəni böhrandan çıxarmaq üçün tədbirlər gördü. Pessoanın hakimiyyəti illərində suvarma qurğuları, dəmiryolları və elektrik stansiyaları tikildi. İbtidai və dünyəvi məktəblər dövlət tərəfindən maliyyələşdirilməyə başlandı. Ordu, aviasiya və hərbi-dəniz donanmasına xüsusi diqqət yetirildi. Bütün bu tədbirlər ölkədə sosial gərginliyi aşağı saldı. Buna baxmayaraq, Braziliyada bu illərdə demokratik hərəkat da var idi.

Pessoanın hakimiyyəti illərində amerikan və ingilis kapitalı ölkədə öz mövqelərini möhkəmləndirdilər. Amerikan kapitalı xüsusən dağ-mədən, kimya, əczaçılıq və avtomobilqayırma sənayesində üstünlük təşkil edirdi. Ölkədə fəaliyyət göstərən xarici səhmdarların yarısı amerikanlar idi. Bu illərində ABŞ-la Braziliya arasında ticarət əlaqələri xeyli genişləndi.

## Braziliya 20-ci illərdə

20-ci illərin əvvəllərində Braziliyada ictimai-siyasi hərəkat yüksəlməyə başladı. Rio-de-Janeyro, San-Paula və b. şəhərlərdə kommunist qrupları yaradıldı. Kommunist qruplarının 1921-ci ilin noyabrında Rio-de-Janeyroda keçirilən müşavirəsində Kommunist Partiyası yaratmaq məqsədilə birləşdirici qurultay çağırmaq qərara alındı. 1922-ci ilin martında 9 kommunist qrupu Rio-de-Janeyroda qurultay çağıraraq Braziliya Kommunist Partiyasını yaratdılar. Lakin bu partiyanın sosial dayaqları xeyli zəif olmaqla yanaşı təşkilatçılıq işi də aşağı səviyyədə idi.

Yaranmış mürəkkəb şəraitdə hərbçilər də siyasi proseslərə qoşulmağa başladılar. 20-ci illərin əvvəllərində Braziliyada tenentistlər (leytenantlar) hərəkatı yarandı. Onlar sosial-iqtisadi məsələlərin həllini deyil, əsasən azad Braziliya respublikasının yaradılması tələbini irəli sürürdülər. Tenentistlərə görə yalnız azad respublika yaradıldıqdan sonra sosial-iqtisadi məsələləri həll etmək olardı.

1922-ci il noyabrın 15-də keçirilən prezident seçkilərində Arturo da Silva Bernardes qalib gəldi. 1926-cı ilədək hakimiyyətdə olan Bernardesin daxili siyasəti ölkə iqtisadiyyatının böhrandan çıxarılmasına yönəldi. Bundan ötrü fövqəladə qanunlar verildi. Sol təmayüllü mətbuat və partiyalar bağlandı. Bernardes federal hökumətin idarəçilik, maliyyə və siyasi sahədə hüquqlarını genişləndirmək məqsədi ilə 1924-cü ilin mayında konstitusiyada dəyişiklik etdi. İşçilərin əmək problemlərini tənzimləmək məqsədi ilə Milli Əmək Şurası yaradıldı. 1924-cü il iyulun 5-də general İsidor Lopes və Mikel Kosta başda olmaqla 6 min zabit San-Paulo ştatında hökumət əleyhinə qiyam qaldırdı. Qısa müddət ərzində qiyam daha da genişləndi. Payızda bütün ölkəni qiyam bürüdü. Vəziyyətdən çıxmaqdan ötrü hökumət mühasirə vəziyyəti elan etdi. Bundan sonra ölkədə ictimai siyasi vəziyyət tədricən sabitləşməyə başladı.

1922-26-cı illərdə ölkə iqtisadiyyatına ABŞ-ın təsiri daha da artdı. Ölkənin bütün idxalatının 1/3 hissəsi, ixracatının isə 50%-i ABŞ-ın payına düşürdü. ABŞ-dan Braziliyaya daş kömür, avtomobil və müxtəlif cihazlar gətirilirdi.

1926-cı il noyabrın 15-də keçirilən prezident seçkilərində Vaşinqton Luis qalib gəldi. O, 1930-cu ilədək bu vəzifədə qaldı. Hökumət daxili siyasətdə mühasirə vəziyyətini ləğv etdi. Bir sıra sosial və siyasi tədbirlər həyata keçirdi. Həmkarlar təşkilatları tam fəaliyyət sərbəstliyi aldı. Cəmiyyət həyatında mövcud olan kəskin ziddiyyətlər yumşaldıldı.

Ölkəyə xarici kapitalın nüfuz etməsi üçün əlverişli şərait yaradıldı. 1929-cu ildə ABŞ-ın Braziliyaya kapital qoyuluşunun ümumi həcmi 1913-cü illə müqayisədə 8,5 dəfə artaraq 476 mln. dollar təşkil etdi. Bundan fərqli olaraq Braziliyada Böyük Britaniyanın mövqeləri zəiflədi.

Dünya iqtisadi böhranı Braziliya iqtisadiyyatına ağır zərbə vurdu. Aqrar-sənaye böhranı və dünya bazarında qiymətlərin aşağı düşməsi Braziliyada kənd təsərrüfatı istehsalını aşağı saldı. İş yerləri bağlandı. Kütləvi işsizlik yarandı.

Bu illərdə fəhlə və həmkarlar ittifaqları təşkilatları öz fəaliyyətlərini genişləndirdilər. 1927-ci ildən Kommunist Partiyası leqal fəaliyyət göstərməyə başladı. Lakin geniş xalq kütlələri bu partiyanın arxasınca getmirdi.

1929-cu ildə həmkarlar ittifaqlarının birləşdirici qurultayı keçirildi. Qurultayda Braziliya Ümumi Əmək Konfederasiyası yaradıldı.

## Braziliya 30-cu illərdə

1930-cu il martın 1-də ölkədə növbəti prezident seçkiləri keçirildi. Minas-Jerans ştatı nümayəndələrinin yaratdığı "Mineyras bloku" müxalifətdə olan Paulist qrupu ilə yaxınlaşaraq "Mühafizəkar mərkəzçi bloku"nu yaratdılar. Blokun namizədi San-Paulu ştatının qubernatoru Juliu Prestes oldu. Onların rəqibləri isə "Liberal alyans" yaratdı. Alyansı tenentistlər, ziyalılar, tələbələr və zəhmətkeşlər müdafiə edirdi. Bu alyans prezidentliyə Rau-Qrandi-di Sul ştatının qubernatoru, 47 yaşlı Jetuliu Dornellas Varqasın namizədliyini irəli sürdü. Seçkilər çox gərgin keçdi. Saxtalaşdırılan seçkilərdə paulistlər qalib gəldi. Prestesə 1 mln.-dan çox, Varqasa isə 660 min səs verildi. "Liberal alyans" seçkilərin nəticələrinin saxtalaşdırıldığını bəyan edərək silahlı üsyana hazırlaşmağa başladı.

1930-cu il oktyabrın 3-də Varqas və onun tərəfdarları üsyan qaldırdı. Hərbçilər və mülkədarlar onlara kömək etdilər. Hələ vəzifəsini təhvil verməyən keçmiş prezident Vaşinqton Luisin ordu hissələrinin köməyi ilə üsyanı yatırmaq niyyəti baş tutmadı. Varqasa ABŞ kömək etdi.

Seçkilərin nəticələrini saxtalaşdıran Vaşinqton Luis devrildi. Hakimiyyətə hərbi xunta gəldi. Braziliyada bu hadisə "1930-cu il liberal inqilabı" adlandırılır. İnqilab nəticəsində mühafizəkar oliqarxiyanın hakimiyyəti devrildi və dəyişikliklər dövrü başlandı. Noyabrda yenidən keçirilən təkrar seçkilərdə isə prezident liberalların nümayəndəsi Jetuliu Dornellas Varqas oldu. Varqas noyabrın 3-də Müvəqqəti hökumət yaradaraq tanınmaqdan ötrü ABŞ-a müra-

ciət etdi. ABŞ hökuməti 1930-cu il noyabrın 8-də bu hökuməti tanıdı. Beləliklə, Braziliyada liberal inqilabi hərəkat qalib gəldi.

Lakin bu illərdə ölkənin daxili ictimai-siyasi vəziyyəti hələ də mürəkkəb olaraq qalırdı. Faşizm və millətçilik meylləri güclənirdi. 1932-ci ilin oktyabrında Braziliya İnteqralist Faşist Partiyası yaradıldı. Partiyanın başçısı jurnalist Plinuo Salqado idi. O, 1934-cü ilədək partiyanın rəhbəri oldu.

Varqas daxili siyasətdə bir sıra tədbirlər həyata keçirdi. Hökumətin başlıca məqsədi iqtisadi böhranın nəticələrini aradan qaldırmaqdan ibarət idi. Sosial sahədə qanunvericilik aktları qəbul edildi. Ölkə konstitusiyası ləğv edildi. Ştatların konqresi və qanunverici hakimiyyət prezidentin əlində cəmləndi. Ştat qubernatorları əgər əvvəllər seçilirdilərsə, indi təyin olunmağa başladılar. Həmkarlar ittifaqlarının siyasi fəaliyyəti qadağan edildi. Hökumət sənayedə 8 saatlıq iş günü tətbiq etdi. Ölkə həyatında milli burjuaziyanın rolu artırıldı. Ştatlararası ticarət tarifi ləğv edildi. Lakin bu tədbirləri həyata keçirmək asan olmadı. San-Paulu ştatında Respublikaçı-Paulist Partiya və Demokrat-Paulist Partiya yaranaraq konstitusiyanın bərpası uğrunda mübarizəyə başladılar. San-Paulu ştatında çevriliş edərək hakimiyyəti ələ keçirən qiyamçılar Varqasın bütün dekretlərini ləğv etdilər. Lakin mərkəzi hökumət bu problemi qətiyyətlə həll etdi. Qiyamçılar darmadağın edildi. Bununla belə, Varqas qiyamı yatırsa da güzəştə getməyə məcbur oldu. Ölkədə konstitusiya quruluşu bərpa edildi. Müəssislər Məclisi çağırıldı. 1934-cü ilin iyulunda ölkənin yeni konstitusiyası qəbul edildi. Konstitusiyaya görə qanunverici hakimiyyəti senat və nümayəndələr palatasından ibarət olan Milli Konqres həyata keçirirdi. Konqresin fəaliyyət müddəti müəyyənləşdirildi. Xalqa demokratik azadlıqlar verildi. 18 yaşına çatan kişi və qadınlara seçmək hüququ verildi. Milli iqtisadiyyatın inkişafına şərait yaradıldı. 8 saatlıq iş günü təsbit edildi. İstehsal sahəsində kollektik müqavilələr bağlamağa icazə verildi. Bu ildə ölkədə yeni prezident seçkiləri keçirildi. Təkrarən prezident seçilən Varqas (1934-1940) fəal daxili siyasət

yeritməyə başladı. 1935-ci ildə Unitar Həmkarlar İttifaqları Konfederasiyası yaradıldı. İqtisadi məsələləri çevik həll etmək məqsədi ilə prezident Milli İqtisadiyyat Şurası yaratdı. Həyata keçirilən tədbirlərdən narazı qalan bəzi qüvvələr fəaliyyətlərini gücləndirdilər. 1935-ci ilin iyulunda sol qüvvələr Milli-Azadlıq İttifaqını yaradaraq proqramını qəbul etdilər. Proqramda ölkə qarşısında duran üç əsas vəzifə - xarici kapitalın təsirini azaltmaq, milli iqtisadiyyatı inkişaf etdirmək və demokratik quruluş yaratmaq məsələləri öz əksini tapdı. Buna cavab olaraq ciddi tədbirlər görən Varqas "Milli təhlükəsizliyin təmin edilməsi haqqında" dekret verdi. Ölkədə sol qüvvələrin fəaliyyəti məhdudlaşdırıldı. Eyni zamanda sosial gərginliyi aşağı salmaq üçün iqtisadi sahədə bir sıra tədbirlər həyata keçirildi. Pul vahidi olan real sabitləşdi. 1936-cı ildə iri sənaye sahələrinin milliləşdirilməsi haqqında dekret verildi. İqtisadiyyatda dövlət bölməsinin çəkisi artdı. Nəticədə 30-cu illərin ortalarından başlayaraq ölkə iqtisadiyyatı, xüsusən sənaye inkişaf etdi. Yeni sənaye sahələri yaradıldı. Sənaye fəhlələrinin sosial şəraitini yaxşılaşdıran dekretlər verildi. 1937-ci il noyabrın 10-da Varqas konqresi buraxaraq "yeni dövlət" yaratdığını, özunun isə "millətin rəhbəri" olduğunu bəyan etdi. Bu, əslində konstitusiya çevrilişi demək idi. Nəticədə inteqralistlərlə Varqas arasında münasibətlər kəskinləşdi. Onlar prezident sarayına yürüş etsələr də qiyam yatırıldı. Qiyamçılara divan tutuldu. Plinio Salqado alman gəmisində Portuqaliyaya qaçdı. 1937-ci ilin dekabrında verilən dekretlə bütün siyasi, həmçinin faşistpərəst partiyalar ləğv edilərək fəaliyyətləri qadağan olundu. 1938-ci ilin aprelində neft sənayesi, o cümlədən ingilis neft sahələri milliləşdirildi. Neft üzrə Milli Şura yaradıldı. Şura bilavasitə prezidentə tabe etdirildi. Hökumət iqtisadiyyatda dövlət bölməsinin xüsusi çəkisini artırdı. Unitar Həmkarlar İttifaqları Konfederasiyası buraxıldı.

Korporativ sistem yaradıldı. Pensiya sistemi tətbiq edildi. Minimum əmək haqqının həddi müəyyənləşdirildi.

Varqas özünü "ədalətli dövlətin" yaradıcısı elan edərək Brazi-

liya tarixində yeni dövrün başlandığını bildirdi.

Varqasın xarici siyasəti xeyli ehtiyatlı idi. Braziliya hökuməti ABŞ və "ox" ölkələri arasında manevr edirdi. İngiltərə ilə Braziliya arasında ticarət dövriyyəsinin səviyyəsi aşağı düşdü. Bundan fərqli olaraq Braziliya hökuməti 1935-ci il fevralın 2-də ABŞ-la ticarət müqaviləsi bağladı. Ölkə iqtisadiyyatında ABŞ kapitalının təsiri gücləndi. Bütövlükdə isə bu illərdə ölkənin Avropa dövlətləri ilə xarici ticarət dövriyyəsinin ümumi həcmi artdı. Braziliya Almaniya və onun müttəfiqləri ilə də ticarət-iqtisadi əlaqələrini genişləndirdi. Varqas hökuməti 1936-cı il aprelin 16-da Almaniya, avqustun 14-də İtaliya ilə ticarət sazişləri bağladı.

## Braziliya ikinci dünya müharibəsi illərində

1939-cu il sentyabrın 2-də Braziliya hökuməti ikinci dünya müharibəsində ölkəsinin bitərəfliyini elan etdi. Ölkə iqtisadiyyatının səmərəli işləməsinə xüsusi diqqət yetirildi. 1940-cı ilin yanvarında milli müdafiəni möhkəmləndirmək və ictimai işlər üçün beşillik plan qəbul edildi. Ölkə iqtisadiyyatı müharibə şəraitinə uyğunlaşdırıldı. 1941-ci ilin fevralında hökumət xarici ticarət üzərinə nəzarət qoydu. Latın Amerikasında Braziliyanın mövqeləri xeyli gücləndi. 1942-ci il martın 3-də "Müdafiə üçün mühüm olan materialın və informasiyanın verilməsinə dair ABŞ-Braziliya müqaviləsi" bağlandı. 1942-ci ilin sentyabrında Braziliya antihitlerçi koalisiya tərəfində müharibəyə qoşuldu. Həmin ilin sonunda ölkədə 8 saatlıq əvəzinə 10 saatlıq iş günü tətbiq olundu. Köhnə pul vahidi olan realın əvəzinə kruzeyro tətbiq edildi. Hərbi əməliyyatların ölkə ərazisində getməməsi iqtisadi inkişafa kömək etdi. Müharibə illərində Braziliyada 10 minə yaxın sənaye müəssisəsi tikildi. Ölkəyə ABŞ kreditləri verildi. Braziliya ərazisində amerikan hərbi bazaları yerləşdirildi.

1944-cü ilin yayında Braziliya 50 minlik ekspedisiya korpusunu İtaliya cəbhəsinə göndərdi. Braziliya hissələri burada

1945-ci ilin aprelinədək - İtaliya-Almaniya orduları məğlub olanadək döyüşdülər. Almaniya bloku ölkələrinin məğlub edilməsinə Braziliya öz töhfəsini verdi.

1944-cü ildə Varqas dövlət aparatını şübhəli ünsürlərdən təmizlədi. Yeni prezident seçkiləri 1945-ci il dekabrın 2-nə təyin edildi. Lakin Varqas oktyabrın 29-da ərizə yazaraq vəzifəsindən getdi. Ölkənin müvəqqəti prezidenti Ali məhkəmənin sədri Linyares oldu. O, oktyabrın 30-da bitərəf şəxslərdən ibarət hökumət yaratdı. Siyasi dustaqlara amnistiya verildi. Vətəndaş azadlıqları bərpa edildi. Braziliya BMT-nin yaradılmasında iştirak etdi. Müharibə başa çatdıqdan sonra Braziliyanın müasir tarixində yeni dövr başlandı.

# XIV BÖLÜM

## MEKSİKA

### Dünya müharibəsindən sonrakı ilk illərdə Meksikanın sosial-iqtisadi və siyasi vəziyyəti

Birinci dünya müharibəsi illərində Meksikanın daxili vəziyyəti mürəkkəb hadisələrlə səciyyələnirdi. Ölkə prezidenti olan general Venustiano Karransanın zamanında (1914-1920) ölkədə geniş sosial-siyasi və iqtisadi islahatlar həyata keçirildi. 1916-cı ilin dekabrında ölkə konstitusiyasına düzəliş etmək üçün xüsusi komissiya yaradıldı. Meksika inqilabının dördüncü mərhələsində 1917-ci il fevralın 5-də Karetaro şəhərində yeni konstitusiya qəbul olundu. Beləliklə, 1910-cu ildə başlanan Meksika inqilabı 1917-ci ildə sona çatdı. Konstitusiya ilə vətəndaşlara geniş sosial hüquqlar verildi. Tətillərin keçirilməsinə və həmkarlar ittifaqlarının fəaliyyətinə icazə verildi. Konstitusiyanın 27-ci maddəsində torpağın, onun təkinin və suların dövlətə məxsus olduğu göstərildi. Xarici ölkə vətəndaşlarının bunlardan istifadəsi məhdudlaşdırıldı. 1876-cı ildən sonra bağlanan konsessiyalara yenidən baxıldı. İctimai mənafeyə zidd olan kontraktlar ləğv edildi. Aqrar islahat həyata keçirildi. Latifundiyalar bölüşdürüldü. Kəndlilərə torpaq verildi. Torpaqlar sahiblərinə qaytarıldı. Ölkənin maliyyə sistemi sabitləşdi. Pesonun alıcılıq qabiliyyəti yüksəldi. Konstitusiyanın 122-ci maddəsinə görə ölkədə 8 saatlıq iş günü tətbiq edildi. Əmək haqqının aşağı səviyyəsi müəyyənləşdirildi. Kilsənin bütün əmlakı dövlət mülkiyyəti elan edildi. 1918-ci ilin fevralında ölkədə xarici kapitalın fəaliyyətini məhdudlaşdıran dekret verildi. Neft sənayeçiləri üzərinə vergilər qoyuldu. Yerin təkinin istifadəsi üçün icarə haqqı müəyyənləşdirildi. 1918-ci ilin iyulunda verilən fərmana görə ölkədəki xaricilər öz var-dövlətlərini hər il qeydiyyatdan keçirməli idi.

Xaricilərin fəaliyyət dairəsinin məhdudlaşdırılması ABŞ-Meksika münasibətlərini kəskinləşdirdi. ABŞ Meksikaya münasibətdə daha sərt xətt yeritməyə başladı.

Bitərəf ölkə olan Meksika üçün birinci dünya müharibəsinin bir sıra sosial-iqtisadi və siyasi nəticələri oldu. Meksika hökuməti Versal sülhünü qəbul etmədi və beləliklə, ölkə Millətlər Cəmiyyətinə də daxil olmadı.

Müharibədən sonra ölkədə sosial-siyasi hərəkatlar gücləndi. 1919-cu ilin sentyabrında Mexikoda Meksika Kommunist Partiyası yaradıldı. Lakin partiyanın sosial bazası zəif idi və xalq onun ardınca getmirdi.

## Meksika 20-ci illərdə

1920-ci il prezident seçkiləri yaxınlaşdıqca ölkədə siyasi mübarizə daha da kəskinləşdi. Müxalifət xeyli gücləndi. Müxalifət hərəkatına general Alvaro Obregon başçılıq edirdi. Obregon hələ inqilab illərində ölkədə böyük nüfuz qazanmışdı. O, milli burjuaziyanın və mülkədarların mənafeyini müdafiə edirdi. Seçkiqabağı kampaniyada inqilabi təkliflərlə çıxış edən Obregon xalq kütlələrinin rəğbətini qazandı. O, 1919-cu ilin avqustunda Meksika Regional Əmək Konfederasiyası ilə saziş bağladı. Bu sazişə görə Əmək Konfederasiyası Obregonu prezident seçkilərində müdafiə edərdisə hökumətdə nazir vəzifələri ala bilərdi. Seçkiqabağı kapmaniyada müxalifət Karransanı konstitusiyanı pozmaqda günahlandırdı. Obregon Karransanı dövlət aparatının gücündən istifadə edib seçkinin gedişinə müdaxilə edərək öz namizədi olan ABŞ-dakı keçmiş səfir İqnasio Bonilyası prezident seçdirməyə cəhd göstərməkdə təqsirləndirdi. Bu isə kəskin narazılığa səbəb oldu. Obregon öz həmfikri olan general Elias Plutarko Kalyes ilə birlikdə prezidentə qarşı fəaliyyətdə birləşdi. Üsyanın mərkəzi Sanora ştatı oldu. Eyni zamanda dəmiryolçular hökumətə qarşı tətilə başladılar. Ştat qubernatoru Adolfo de la Uerta da onlara kömək etdi. Karransa müxalifətə qarşı ordu göndərdi. Bundan qəzəblənən müxalifət qüvvələri Mexikoya

hücum etdi. Yaranmış ağır şəraitdə may ayında Karransa ölkədən qaçmaq istəsə də onu öldürdülər. Adolfo de la Uerta ölkənin müvəqqəti prezidenti səlahyyətlərini yerinə yetirdi. İyul ayında keçirilən seçkilərdə isə Obregon qalib gəldi. Ölkənin siyasi inkişafında "inqilabi kaudilizm" gücləndi. "İnqilabi kaudilizm" bütün millətin birləşdirilməsi ilə inqilabi islahatların həyata keçirilməsini nəzərdə tuturdu. Lakin xarici dövlətlər Obregon hökumətini tanımaqdan imtina etdilər. Ölkədəki amerikan və ingilis kompaniyaları neft çıxarılmasını dayandırdılar. Bu vəziyyət sənayenin digər sahələrinə də ağır zərbə endirdi. Minlərlə işçi küçəyə atıldı. İşsizlik yarandı. Ölkəni sosial mübarizə bürüdü. ABŞ hökuməti də Obregona təzyiqlər göstərdi. Keçmiş hakimiyyət tərəfdarları ölkədə həyata keçirilən dəyişikliklərə mane olmağa başladılar. 1920-ci ildə ölkəni iqtisadi böhran bürüdü. Kənd təsərrüfatı və sənaye istehsalı azaldı. Bir sıra müəssisələr bağlandı. Ölkədə işsizlər ordusu yarandı. Obregon hökuməti güzəştə getməyə məcbur oldu. Hökumət xarici borcları ödədi və amerikan vətəndaşlarının əmlakını qeydiyyatdan keçirdi. Bundan sonra Meksikanın xarici siyasətində mühüm uğurlar əldə edildi. 1923-cü ilin avqustunda ABŞ-Meksika diplomatik münasibətləri bərpa olundu. Bir il sonra SSRİ ilə diplomatik münasibətlər quruldu.

Bununla belə, daxildə sosial-siyasi vəziyyət hələ də gərgin olaraq qalırdı. Yeni hökumətə qarşı terror hərəkətləri artdı. Seçkilər yaxınlaşdıqca vəziyyət xeyli kəskinləşdi. 1923-cü ildə Obregon hökumətinə qarşı qiyam başlandı. Bu qiyama Adolfo de la Uerta başçılıq edirdi. Lakin hökumət qiyamı yatırdı. Qiyamçılar cəzalandırıldı. Onların bir qismi xaricə qaçdı, bir qismi də həbsxanalara salındı.

1924-cü ilin iyulunda keçirilən prezident seçkilərində Obregon hökumətində daxili işlər naziri olmuş Plutarko Kalyes prezident seçildi. Onun hakimiyyəti illərində ölkənin daxili siyasəti bir sıra cəhətlərlə səciyyələnirdi. İlk növbədə aqrar islahat həyata keçirildi. Kəndlilər və kənd icması Obregon hökuməti zamanı ilə

müqayisədə təqribən iki dəfə çox torpaq aldılar. Sənayenin inkişafına xüsusi diqqət yetirildi. 1925-ci ilin dekabrında neft qanunu qəbul olundu. Bu qanuna görə neft mülkü saxlamaq qadağan edildi. Neft sahələri və mədənləri 50 il müddətinə icarəyə verilə bilərdi. Bu illərdə ölkədə dağ-mədən sənayesi də inkişaf etdi. 1926-cı ilin iyulunda Kalyes kilsəyə dair dekret imzaladı. Bu dekretlə ölkədə dini təhsil qadağan edildi. Ölkədəki dindarlar qeydiyyatdan keçməli idilər. Kilsənin nüfuz dairəsi məhdudlaşdırıldı. Verilən dekretə görə din xadimlərinin siyasi fəaliyyətlə məşğul olması qadağan edildi. Kilsə mülkiyyət saxlaya bilməzdi. Ölkədə dünyəvi məktəblərin sayı artdı. Qanun dindarlar, o cümlədən Vatikan tərəfindən qəzəblə qarşılandı. Dindarlar övladlarını məktəbə, teatra, kinoya və digər əyləncə yerlərinə buraxmadılar. Onlar müəllimləri öldürməyə və məktəbləri yandırmağa başladılar. Yerlərdə dindarlar "kristeros" dəstələri yaratdılar. Qarışıqlığın qarşısını almaq məqsədi ilə Kalyes bir neçə yepiskopu və arxiyepiskopu ölkədən qovdu.

Dövlətin xarici siyasəti daha praqmatik oldu. Əvvəlki illərdə ABŞ-la münasibətdə mövcud olan ixtilaflar aradan qaldırıldı. İki dövlət arasında münasibətlər normallaşdırıldı. Ölkədə ingilis kapitalının nüfuzu artdı. Xarici ticarət genişləndi.

1928-ci ildə ölkədə yeni prezident seçkiləri keçirildi. Kalyes prezident kreslosunu Obregona qaytarmaq istədikdə generallar qiyam qaldırdılar. Onlar Meksika Regional Əmək Konfederasiyasının rəhbəri, ticarət və əmək naziri Moronesin namizədliyini irəli sürmək istədilər. Kalyes cəza tədbirlərinə əl ataraq onların bir neçəsini güllələtdirdi. Morones isə ticarət və əmək naziri vəzifəsindən azad edildi. Kalyesin yaxın köməyi ilə Obregon prezident seçildi. Lakin onun prezidentliyi çox az çəkdi. İki həftədən sonra bir katolik gənc onu öldürdü. Konqres tərəfindən Emilio Portes Hil ölkənin müvəqqəti prezidenti seçildi.

1928-ci ilin sentyabrında Kalyes konqresdə çıxış edərək bundan sonra heç kimin ölkəni köhnə qaydalarla idarə etmək iqtidarında

olmadığını, ona görə də siyasəti dəyişməyin zəruriliyini bildirdi. 1929-cu ilin martında Kalyes yeni rejimin bütün tərəfdarlarının qurultayını keçirərək Milli İnqilabi Partiyanı yaratdı. Bu, hakimiyyət partiyası idi. Qurultay prezidentliyə Hilin namizədliyini irəli sürmək istəsə də Kalyesin göstərişi ilə Ortis Rubionun namizədliyi göstərildi.

1929-cu ildə Meksikada yeni həmkarlar ittifaqları təşkilatı olan Meksika Unitar Həmkarlar İttifaqları Konfederasiyası yaradıldı.

## Meksika 30-cu illərdə

1929-cu ildə ölkədə yeni prezident seçkiləri keçirildi. Ortis Rubio prezident seçildi. Kalyes isə hərbi nazir oldu. Hökumət general Eskoberin qiyamını amansızlıqla yatırdı. Qiyamçıların bir hissəsi güllələndi, bir hissəsi isə xaricə qovuldu. O, az sonra Kalyesin tərəfdarları olan nazirləri işdən azad etmək istədikdə ölkədə kəskin narazılıq və qarşıdurma yarandı. Kalyes mətbuatda onun azad edildiyini bildirdi. Nəticədə Ortis Rubio 1932-ci ildə istefaya getdi.

1932-ci il seçkilərində Abelyardo Rodriges prezident seçildi. Onun hakimiyyəti 1934-cü ilədək sürdü. Bu illərdə daxili siyasətdə bir sıra tədbirlər həyata keçirildi. 1930-cu ildə dayandırılmış aqrar islahatın həyata keçirilməsinə başlanıldı. 1933-cü ildə Kardenas Milli İnqilabi Partiyada altıillik planı qəbul etdirdi. Bu plan torpaq islahatının sürətləndirilməsini, milli sənayenin inkişafını və xarici kapitalın fəaliyyətini məhdudlaşdırmağı nəzərdə tuturdu. 1933-cü ildə mülkədar torpaqları kəndlilərə paylandı. 1934-cü ildə verilən aqrar kodeksə görə torpaq daha sərfəli şərtlərlə bölüşdürülməli idi. Lakin hakim partiyanın siyasəti narazılıq yaratdı. Belə şəraitdə Milli İnqilabi Partiyada güclü müxalifətçi qrup yarandı. Meksika inqilabının fəal iştirakçısı olan general Lasaro Kardenasın başçılığı ilə bu qrup hökumətə qarşı çıxdı.

Növbəti prezident seçkilərində Kalyesin razılığı ilə Kardenasın namizədliyi irəli sürüldü. Kalyes onu digərləri kimi öz iradəsinə tabe edəcəyini düşünürdü.

1934-cü ilin iyulunda keçirilən seçkilərdə bütün 24 ştatı gəzən

Lasaro Kardenas təxminən 2 mln. səs alaraq prezident seçildi və dekabrın 1-də qarşıdakı 6 il üçün prezidentliyə başladı. O, 1940-cı ilədək bu vəzifədə qaldı. Lakin Kardenas Kalyesin və ordunun əlində alət olmadı. Kardenas ilk çıxışlarında göstərdi ki, o, xalq tərəfindən seçildiyi üçün həqiqi prezident olmalıdır və sarayının qapıları xalqın üzünə açıqdır. O, Kalyes ailəsinin böyük gəlir götürdüyü yerləri bağladı. Dinə qarşı olan qanunçuluğu yumşaldaraq dindarların hüquqlarını bərpa etdi. Bununla da dindarlar Kardenası müdafiə etdilər. Vəziyyəti belə görən Kalyes təxribatçılıqla məşğul olmağa başladı. Kalyes 1935-ci il iyunun 11-də bəyanat verərək Kardenasın siyasətini pislədi. Tətilçilərə qarşı repressiyanın keçirilməsini tələb etdi. Lakin iyunun 14-də Kardenas tətil hərəkatına qarşı cəza tədbirləri tətbiq etmək fikrində olmadığını bəyan edərək xalqı rejimin müdafiəsinə qalxmağa çağırdı. Xalq Kardenası müdafiə etdi. Həmkarlar təşkilatları "Kalyesə cavab" sənədini qəbul etdilər. Belə olduqda Kalyes və onun tərəfdarları yeni təxribat törətdilər. Ona görə də Kardenas 1936-cı il aprelin 10-da Kalyesi və onunla birgə fəaliyyət göstərən Moronesi, Leonu və Orteqanı ölkədən sürgün etdi. Dövlət aparatında bu şəxslərin tərəfdarları hələ qaldığı üçün təmizlik işləri gücləndirildi. İdarəçiliyə gənclər gətirildi.

Kardenas eyni zamanda Almaniyada Hitlerin hakimiyyət başına gəlməsinə tərəfdar çıxan "Qızılı köynəklilər" təşkilatının fəaliyyətini qadağan etdi. Nəticədə Kardenas ölkə daxilində böyük nüfuz və üstünlüklər qazandı.

Kardenas həmkarlar ittifaqlarına, demokratik ziyalılara, kiçik və orta sahibkarlara arxalanaraq bir sıra islahatlar həyata keçirməyə başladı. Əmək haqqı artırıldı. Kollektiv müqavilələr sistemi möhkəmləndirildi. Əməklə kapital arasında ziddiyyətlər yumşaldıldı. Hökumət 1934-1940-cı illərdə aqrar islahatı həyata keçirdi. Bu illərdə 1 mln. nəfərədək kəndli 18 mln. hektar torpaq sahəsi aldı. Hindu icmalarına da (exida) torpaq verildi. Kardenas hökuməti kənd təsərrüfatı kooperativlərini yaratdı. Hökumət

kəndlilərə kooperativlərdə birləşmək üçün kömək etdi. Aqrar islahat ölkə həyatında mühüm hadisə olsa da bu məsələ sonadək həll edilmədi. Torpağın çox hissəsi mülkədar və kompaniyaların əlində qaldı. Bu illərdə ölkədə təxminən 2 mln. torpaqsız kəndli var idi.

1935-ci ildə Milli bank yaradıldı. Kardenas sənaye sahəsində də bir sıra tədbirlər həyata keçirdi. Sənayedə istehsal kooperativləri yaratmaq üçün Sənaye bankı təsis edildi. Kardenas ölkədəki xarici inhisarların fəaliyyətini məhdudlaşdırmağa başladı. 1936-cı ilin oktyabrında konqres lazım bildiyi xarici kompaniyaların mülkiyyətini milliləşdirməkdə hökumətə səlahiyyətlər verən qanun qəbul etdi. 1937-ci ildə dəmiryolları qismən milliləşdirilərək Dəmiryol Fəhlələrinin Həmkarlar İttifaqlarına verildi. Lakin tədbir narazılıqla qarşılandı. 1937-ci ilin mayında ölkədəki amerikan-ingilis neft kompaniyalarında işləyənlər ümumi tətilə çıxdılar. Tətilçilər müəssisə rəhbərləri tərəfindən 40 saatlıq iş həftəsinin tətbiq olunmasını, əmək şəraitinin yaxşılaşdırılmasını və əmək haqqının artırılmasını tələb etdilər. Kardenas hökuməti tətilçilərin hərəkətini bəyənərək öz təkliflərini verdi. Tətil dayandırıldı. Lakin inhisarlar tətilçilərin tələblərini ödəmədilər. Belə olduqda Kardenas 1938-ci ilin martında bütün neft sənayesini milliləşdirdi. Ölkədə fəaliyyət göstərən 17 ingilis və amerikan kompaniyası da "Petroleos Mexikanos"a ("Pemeks") verildi. İnhisarlar yalnız 10 il müddətinə buradan gəlir götürə bilərdilər. Konstitusiyanın 27-ci maddəsində düzəliş edildi. Milliləşdirilən sahələrə görə kompensasiyalar verilməsinə baxmayaraq ABŞ və İngiltərə Meksikaya qarşı təzyiq dolu fəaliyyətə başladı. Onlar Meksika neftini və gümüşünü almaqdan imtina edərək embarqo qoydular. Böyük Britaniya kompensasiyanın təcili ödənilməsini tələb etdi. Cavab olaraq Kardenas hökuməti tələb edilən məbləğ üçün çeki göndərsə də təzyiqlər dayanmadı. Belə olduqda 1938-ci ilin mayında Kardenas Böyük Britaniya ilə diplomatik münasibətləri kəsdi. Xalq hökuməti müdafiə edərək könüllü fond yaradıb

milliləşdirməni təmin etdi. Ölkədə millətçilik hərəkatı gücləndi. Lakin ölkənin maliyyə sistemində gərginlik yarandı. Peso alıcılıq qabiliyyətini itirdi.

1938-ci ilin martında Kardenas partiyanın adını dəyişərək Meksika İnqilabi Partiyası qoydu. Partiya proqramına görə hər bir şəxs onun üzvü ola bilərdi. Meksika İnqilabi Partiyası əslində ölkədə xalq cəbhəsinin spesifik forması idi.

Siyasi sahədə də tədbirlər həyata keçirildi. Söz, mətbuat və yığıncaq azadlıqları bərpa edildi. Tətillərin keçirilməsinə icazə verildi. 8 saatlıq iş günü tətbiq edildi.

Hökumət maarif və xalq təhsili sahəsində də ciddi islahatlar həyata keçirdi. Dövlət köhnəlmiş dini təhsildən imtina edərək dünyəvi təhsil sisteminə keçdi. İbtidai və orta təhsil məktəblərinin sayı artırıldı. Savadsızlığın ləğvi uğrunda mübarizə başlandı. Lakin bu islahatlar müqavimətlə üzləşdi. Hökumətin tədbirlərinə qarşı xarici qüvvələrin təsiri ilə ölkədə narazılıq və qiyamlar qaldırılmağa başlandı. 1938-ci ilin mayında San Luis Potosi ştatında general Sedilyo başda olmaqla qiyam başlandı. Onlar Kardenas hökumətinin tədbirlərini kommunist təhlükəsi kimi qiymətləndirdilər. Hökumət qiyamçıları darmadağın etdi. Sedilyo dağlarda gizlənsə də, tezliklə öldürüldü.

Kardenasın xarici siyasət fəaliyyəti ölkənin milli suverenliyinin təmin edilməsinə yönəlmişdi. ABŞ və Böyük Britaniya ilə münasibətlər pisləşdiyindən Meksika hökuməti Almaniya, İtaliya və Yaponiya ilə ticarət-iqtisadi əlaqələri genişləndirdi. Buna baxmayaraq, Meksika faşizmi pisləyən bəyanatlar verdi. İtaliya Həbəşistana təcavüz etdikdə isə İtaliya ilə ticarətə embarqo qoydu. İspaniyada vətəndaş müharibəsinin gedişində Xalq Cəbhəsi hökumətinə silah və könüllülərlə yardım etdi. İspaniyada Franko rejimi qurulduqdan sonra mühacir ispanlar Meksikada sığınacaq tapdılar. Kardenasın xarici siyasəti ölkənin suverenliyini möhkəmləndirdi və sosial-iqtisadi inkişafına kömək etdi. Meksika SSRİ ilə diplomatik münasibətləri də kəsdi.

## Meksika ikinci dünya müharibəsi illərində

Kardenas ikinci dünya müharibəsinin başlanmasını pisləyən bəyanat verdi. 1939-cu il sentyabrın 4-də isə hökumət müharibədə Meksikanın bitərəfliyini elan etdi. 1940-cı il iyulun 7-də keçirilən prezident seçkilərində hakimiyyətdə olan Meksika İnqilabi Partiyasının namizədi A.Kamaço qalib gəldi. Yeni prezident Meksikanın ABŞ-la münasibətlərini daha da sıxlaşdırdı. 1941-ci ildə iki ölkə arasında Meksikada milliləşdirilmiş amerikan müəssisələrinə görə kompensasiya verilməsi barədə saziş imzalandı. Həmin ilin martında ABŞ və Meksika Almaniya bloku ölkələrinə qarşı birgə mübarizə aparacaqlarına dair sənəd imzaladılar. Dekabr ayında Meksika həmin ölkələrlə diplomatik əlaqələrini kəsdi. 1942-ci il mayın 22-də Meksika antihitlerçi koalisiya üzvü olan dövlətlər tərəfindən müharibəyə girdi. Meksika hərbi-hava qüvvələri ABŞ ordu hissələrinin tərkibində Sakit okeanda Filippində və Tayvan adasında keçirilən əməliyyatlarda iştirak etdilər.

Hərbi əməliyyatların Meksika ərazisində aparılmaması ölkə iqtisadiyyatının inkişafına əlverişli şərait yaratdı. Antifaşist bloku ölkələrinin Meksikanın sənaye və kənd təsərrüfatı məhsullarına olan ehtiyacı iqtisadiyyatı yüksəltdi. Dağ-mədən sənayesi və kənd təsərrüfatı məhsulları istehsalı artdı. Yeni sənaye müəssisələri tikildi. yollar və kanallar çəkildi.

1945-ci ilin fevral-mart aylarında müharibə və sülh məsələlərini müzakirə etmək üçün Meksikada Amerika ölkələrinin xarici işlər nazirlərinin konfransı keçirildi. Konfransın nəticəsində "Çapıltəpək bəyannaməsi" qəbul edildi (Çapıltəpək Mexikoda qəsr adıdır). Bəyannamədə deyilirdi ki, dünyada yaranmış şərait amerikan dövlətlərinin sülhə, qarşılıqlı yardıma və təcavüz olduğu təqdirdə birgə müdafiə prinsiplərinə müharibənin gedişində və ondan sonra da sadiq qalmalarını zəruri edir. Konfransda ABŞ-ın təklifi ilə "İqtisadi xartiya" qəbul edildi. Sənəddə qitə ölkələri

arasında iqtisadi və Kömrük maneələrinin tədricən aradan qaldırılması, xarici kapital üçün əlverişli şərait yaradılması və beynəlxalq ticarətin inkişaf etdirilməsi tövsiyə olundu.

Müharibə illərində Meksika ilə SSRİ arasında diplomatik münasibətlər bərpa edildi.

Meksika faşizm üzərində qələbəyə töhfə verdi. Müharibənin başa çatması ilə Meksika tarixində yeni dövr başlandı.

# XV BÖLÜM

## 1924-1939-cu İLLƏRDƏ BEYNƏLXALQ MÜNASİBƏTLƏR

### "Daues planı"

20-ci illərin ortalarında Avropada beynəlxalq münasibətlərdə Fransa ilə Almaniya arasında gərgin diplomatik-siyasi mübarizə gedirdi. Rura yiyələnmək uğrunda aparılan səkkiz aylıq mübarizə Fransa üçün uğursuzluqla ilə nəticələndi. Ruru tutmaqla Fransa ilk baxışda öz məqsədlərinə çatdı. Ancaq fransızların iddiaları ingilislərin etirazı ilə qarşılandı. Belə şəraitdə ingilis-fransız narazılığı Almaniyanın mənafelərinə tamamilə uyğun gəlirdi. 1923-cü il oktyabrın 1-də Böyük Britaniyanın baş naziri Stenli Bolduin və xarici işlər naziri Lord Kerzon Fransanın Avropada mövcud olan problemləri zorla həll etmək istəklərini və qarşıdurma yaratmaq mövqeyini kəskin tənqid etdilər. Fransa da öz növbəsində Avropada hegemonluğuna gedən yolda ona maneə olan İngiltərə-ABŞ müttəfiqliyini zəiflətməkdən və Almaniyaya qarşı iddialarını həyata keçirməyə nail olmaqdan ötrü müxtəlif metodlara əl atdı. Həmin metodlardan biri Reyn və Bavariyada seperatçı hərəkatı müdafiə etmək idi. 1923-cü il oktyabrın 21-də separatçıların qurduğu "Müstəqil Reyn Respublikası" Fransa tərəfindən tanındı. Separatçı hərəkat Bavariyada da gücləndi. Əslində Bavariya Almaniyadan ayrıldı. Fransanın törətdiyi Rur avantürasının bir sıra nəticələri oldu. Almaniyada gərgin daxili ictimai-siyasi vəziyyət yarandı. Alman xalqı inflyasiyaya düçar oldu və müflisləşmə artdı. Ölkədə solçu və nasional-sosialist təşkilatların fəaliyyəti gücləndi. 1923-cü il noyabrın 8-9-da Bavariyanın mərkəzi Münhendə nasional-sosialistlərin hökumət əleyhinə qiyamı baş verdi. Ancaq alman sənayeçiləri və geniş xalq kütlələri qiyamçıları müdafiə

etmədi. Qiyam iflasa uğradı. Belə vəziyyətdə fransız və Rur sənayeçilərinin birgə konsern yaratmaq barədə apardıqları danışıqlar 1923-cü il noyabrın 23-də müqavilə imzalanması ilə başa çatdı. Bu müqavilə ilk baxışdan Fransanın qələbəsi olsa da onun iqtisadi vəziyyəti nəinki düzəlmədi, əksinə daha da pisləşdi. Ağır vəziyyətə düşmüş Almaniya təzminatı ödəməkdən imtina etdi.

Belə şəraitdə Fransa, İngiltərə və ABŞ təzminata dair beynəlxalq ekspertlər komissiyasının toplantısını çağırmağı qərara aldılar. 1923-cü il noyabrın 13-də ekspertlər komitəsini çağırmaq haqqında təzminat komissiyasının rəsmi məlumatı yayıldı. Komissiya ekspertlərin iki komitəsini yaratmaq barədə qərar qəbul etdi. Birinci komitə alman markasının sabitləşdirilməsi və büdcənin sağlamlaşdırılması ilə məşğul olmalı, ikinci komitə isə Almaniyadan xaricə çıxarılmış kapitalı geri qaytarmaq üçün mümkün olan vasitələri axtarmalı idi. Ekspertlər komitəsinin iclası 1924-cü il yanvarın 14-də Londonda açıldı. Birinci ekspertlər komitəsinin sədri vəzifəsinə ABŞ nümayəndəsi, Morqan bank qrupu ilə sıx əlaqələri olan general Çarlz Daues seçildi. Komitənin müzakirə etdiyi əsas məsələ təzminat məsələsi idi. Müzakirə nəticəsində ekspertlər belə qənaətə gəldi: Almaniyanın təzminatı ödəmək qabiliyyətinin bərpası yalnız onun işğal edilmiş və işğal edilməmiş ərazilərinin iqtisadi və maliyyə cəhətdən birləşdirməsi yolu ilə mümkün ola bilər; Almaniyaya beynəlxalq istiqrazlar verilməlidir. 1924-cü il aprelin 9-da təzminat komissiyasının işi yekunlaşdı. Ekspertlərin məruzəsinin mətni təqdim olundu. Bu məruzə "Daues planı" adlandırıldı. Plan üç hissədən ibarət idi. Birinci hissə ekspertlərin ümumi nəticələri və komitənin mövqeyindən bəhs edirdi. Ekspertlərin əsas məqsədi Almaniyaya qarşı cəza tədbirlərini tətbiq etmək deyil, borc vermək üçün yollar axtarmaq idi. İkinci hissədə Almaniyanın ümumi iqtisadi və maliyyə vəziyyəti təhlil edilirdi. Üçüncü hissə birinci iki hissəyə dair əlavələrdən ibarət idi. "Daues planı" ilk növbədə Almaniya təsərrüfatının bərpa edilməsini, daha sonra isə təzminatın alınmasını irəli sürdü. Plan

Almaniya büdcəsini və markasını sabitləşdirməkdən ötrü 800 mln. qızıl marka beynəlxalq istiqraz verilməsini nəzərdə tuturdu. "Daues planı"na görə Almaniya birinci il 1 mlrd. marka, 1928-1929-cu illərdə isə ildə 2,5 mlrd. marka təzminat ödəməli idi. Təzminatı ödəmək üçün başlıca mənbələr ağır sənaye və dəmiryollarından gələn gəlir, dövlət büdcəsi və vergilər idi.

"Daues planı" bir tərəfdən Versal sülh müqaviləsi çərçivəsində iqtisadi cəhətdən güclü və təzminatı ödəmək qabiliyyətində olan Almaniyanın yaradılmasını, digər tərəfdən isə alman iqtisadiyyatını nəzarətə götürməklə bu ölkənin təhlükəli rəqibə çevrilməməsi məqsədini güdürdü. Plan alman xalqı tərəfindən rəğbətlə qarşılandı.

"Daues planı" təzminat məsələsində dövlətlərarası ziddiyyətləri aradan qaldırmadı. Plan əslində Avropada hegemonluğa can atan Fransa üzərində ABŞ və Böyük Britaniyanın birgə diplomatik-siyasi, mənəvi və maliyyə cəhətdən qələbəsi idi. "Daues planı" qəbul edildikdən sonra Fransada hökumətin siyasətindən olan narazılıq daha da artdı.

Təzminat məsələsinə həsr edilmiş ikinci London konfransı 1924-cü il iyulun 16-dan avqustun 16-dək keçirildi. Konfransın keçirilməsində əsas məqsəd Almaniyanın iqtisadi və maliyyə bütövlüyünü bərpa etmək, ona istiqrazlar verən kreditorlar üçün lazımi təminat yaratmaq idi. Konfransın sədri Böyük Britaniyanın baş naziri R.Makdonald idi. Birləşmiş Ştatların nümayəndə heyəti də konfransda iştirak edirdi. Konfransın işi komissiyalarda keçirildi. Birinci komissiyada Almaniya götürdüyü öhdəlikləri pozduqda ona qarşı tətbiq ediləcək sanksiyalar məsələsi kəskin mübahisələr yaratdı. Belə hal olduqda Almaniyaya qarşı sanksiyalar yalnız Millətlər Cəmiyyətinin razılığı ilə tətbiq edilə bilərdi. Konfransda Rur hövzəsindən hərbi hissələrin çıxarılması məsələsinin müzakirəsi nəticəsində qəbul edilən qərara görə ordular Rurdan ən geci bir il müddətində çıxarılmalı idi. 1924-cü il avqustun 2-də London konfransının komissiyaları öz işini sona çat-

dırdı. 1924-cü il avqustun 16-da ekspertlərin məruzəsi təsdiq edildi.

Qərarları beynəlxalq münasibətlərdə yeni mərhələnin başlanğıcını qoyan London konfransının başlıca yekunları aşağıdakılardan ibarət idi: Almaniyadan alınacaq təzminata dair məsələnin Fransa tərəfindən təkbaşına həlli metodu rədd edildi; bütün mübahisəli məsələlər ABŞ-ın iştirakı ilə Antanta nümayəndələrinin arbitraj komissiyasında həll olunmalı idi; Rurun işğalı pislənildi; bu ərazinin təsərrüfat cəhətdən təcili, hərbi cəhətdən isə bir il ərzində boşaldılması tələb olundu; hərbi müdaxilə və məsələlərin silahlı yolla həlli rədd edildi; Almaniya üzərində maliyyə və təsərrüfat nəzarəti qoyuldu; Fransanın Almaniyadan daş kömür və digər sənaye məhsulları almaq hüququ qəbul edildi; Almaniya isə verəcəyi məhsulların azaldılması haqqında arbitraj komissiyasına müraciət edə bilərdi; Almaniyaya İngiltərə və ABŞ istiqrazları verildi. London konfransının qərarları və "Daues planı"nın qəbul edilməsi beynəlxalq aləmdə qüvvələr nisbətinə ciddi təsir etdi. Böyük Britaniya-ABŞ bloku Avropa məsələlərinin həllində Fransanı geriyə itələdi. Fransanın Avropada hegemonluğa nail olmaq istəyi həyata keçmədi.

## Lokarno sazişləri

Fransa Ruru işğal etdikdən sonra Avropada təhlükəsizlik üçün etibarlı təminat yaradılması məsələsi böyük dövlətlərin başlıca qayğısına çevrildi. Fransa Avropada hüquqlarının qorunmasına dair ABŞ və Böyük Britaniyadan təminat almağa çalışırdı. Ancaq Fransa ilə İngiltərə arasında təminat paktı məsələsində fikir ayrılığı hökm sürürdü. Belə şəraitdə Fransanın beynəlxalq mövqeləri də güclü deyildi. Mərakeşin şimalında rif tayfalarına qarşı İspaniyanın, Suriyada isə Fransanın apardığı hərbi əməliyyatlar onun beynəlxalq vəziyyətini ağırlaşdırırdı. Bu vəziyyətdən istifadə edən İngiltərə İraq üzərindəki mandatını Millətlər Cəmiyyətinin xətti ilə 1924-cü il sentyabrın 27-də uzatdı. 1925-ci ildə isə Millətlər Cəmiyyəti Mo-

sul rayonunu İraqa verdikdə Türkiyə buna etiraz etdi. Yaranmış belə ağır vəziyyətdə təminat sənədlərinin hazırlanması və imzalanması zəruri idi.

Təminat paktı məsələsində İtaliya aparılan müzakirələrdən sonra İngiltərənin təklifini qəbul etdi. Reyn paktında İtaliya ikinci təminatçı dövlət olmalı idi.

Təminat məsələsinə həsr edilmiş Lokarno (İsveçrə) konfransı 1925-ci il oktyabrın 5-16-da keçirildi. Konfransda Böyük Britaniya, Fransa, Almaniya, İtaliya, Belçika, Polşa və Çexoslovakiya nümayəndə heyətləri iştirak etdilər. Konfransın sədri Ostin Çemberlen idi.

Lokarno konfransı nəticəsində aşağıdakı sənədlər imzalandı: yekun aktı; Almaniya, Belçika, Fransa, Böyük Britaniya və İtaliya arasında təminat müqaviləsi və ya Reyn paktı; Almaniya ilə Belçika arasında arbitraj sazişi; Almaniya ilə Fransa arasında arbitraj sazişi; Almaniya ilə Polşa arasında arbitraj sazişi; Almaniya ilə Çexoslovakiya arasında arbitraj müqaviləsi; Fransa ilə Polşa arasında saziş; Fransa ilə Çexoslovakiya arasında saziş.

Reyn təminat paktını imzalayan dövlətlər Versal sülh müqaviləsi ilə müəyyən edilmiş ərazilərdə status-kvoya hörmət edəcəklərinə, bir-birilərinə qarşı müharibələrdən imtina etməyə və sərhədlərinin toxunulmazlığına dair öhdəlik götürdülər. Sənədləri imzalayan Almaniya da bütün ərazi məsələlərinin Fransa, Belçika, Polşa və Çexoslovakiyanın iştirakı ilə beynəlxalq arbitraj sistemində həllinə dair öhdəlik götürdü. İngiltərə və İtaliya bu paktın təminatçıları oldular. Bununla da Fransanın Avropada rolu zəiflədildi. Lokarno sazişləri 1925-ci il dekabrın 1-də Londonda son olaraq imzalandı. İştirakçı dövlətlərin parlamentləri paktı təsdiq etdilər. Lokarno sazişləri ilə Almaniya Millətlər Cəmiyyətinə üzv qəbul olunmağa dəvət edildi. 1926-cı il sentyabrın 10-dan etibarən Almaniya nümayəndə heyəti Millətlər Cəmiyyətinin işində iştirak etməyə başladı.

Lokarnodan sonra da böyük dövlətlər arasında mövcud olan

ziddiyyətlər zəifləmədi. Avropada Fransanın hegemonluğunun qarşısını almaqdan ötrü İngiltərə hökuməti Almaniya və İtaliya ilə sıx əməkdaşlıq etmək xətti götürdü. Belə şəraitdə İtaliya da İngiltərə ilə əlaqələr qurulmasına xüsusi diqqət yetirdi. 1925-ci ilin dekabrında Rapalloda Çemberlenlə Mussolininin görüşündə bir sıra sənədlərin imzalanması ilə iki ölkə arasında qarşılıqlı etimad bərqərar oldu. 1926-cı il yanvarın 27-də İngiltərə ilə İtaliya hökumətləri hərbi borclar məsələsinə dair saziş imzaladılar. İtaliya birinci dünya müharibəsi illərində yaranmış borclarını ödəməsində güzəşt əldə etdi. Bu saziş İtaliyanın maliyyə vəziyyətini xeyli yaxşılaşdırdı. İtaliya-İngiltərə münasibətlərinin yaxşılaşdığını görən Fransa Rumıniya ilə müqavilələr imzaladı. Balkanlarda və Aralıq dənizində nüfuz dairəsi uğrunda mübarizə 1926-cı il mayın 30-da Fransa-Türkiyə, iyunun 5-də isə İngiltərə-Türkiyə dostluq konvensiyalarının imzalanması ilə müşayiət olundu.

## "Yunq planı"

20-ci illərin sonlarından beynəlxalq münasibətlərdə nüfuz dairələrinə, yeni əlverişli bazarlara və ucuz xammal mənbələrinə yiyələnmək uğrunda mübarizə gücləndi. Almaniya, İtaliya və Yaponiya Versal sülh müqaviləsinin şərtlərinə uyğun olaraq dünyanın bölüşdürülməsinin əleyhinə çıxdı. "Daues planı" ilə Almaniyaya istiqrazların verilməsi, ölkəyə xarici kapital axını, markanın sabitləşməsi, əlverişli ticarət müqavilələrinin imzalanması və sənayenin texniki cəhətdən yenidən qurulması alman maliyyə kapitalının mövqelərini xeyli gücləndirdi. Artıq 1927-ci ildə Almaniya məhsullarının ixracı müharibədən əvvəlki səviyyəni ötüb keçdi. Bu isə Almaniyanın xarici siyasətinə əlavə güc verdi. Belə şəraitdə Almaniya açıq şəkildə yeni iddialar irəli sürməyə başladı. 1928-ci ildən Almaniyanın Reyn vilayətindən müttəfiq ordularının çıxarılmasını və ödədiyi təzminatın məbləğinin aşağı salınmasını tələb etməsi Fransada narazılıq yaratdı. Mübahisəni həll etmək

üçün böyük dövlətlər təzminat məsələsinin müzakirəsini keçirməyə hazır olduqlarını bəyan etdilər.

1928-ci il dekabrın 22-də Böyük Britaniya, İtaliya, Belçika, Fransa və Yaponiya təzminat məsələsinə dair ekspertlər komitəsini təsis etdiklərini rəsmi şəkildə bildirdilər. Komitənin ilk iclası 1929-cu il fevralın 11-də keçirildi. Onun tərkibinə Böyük Britaniya, Fransa, İtaliya, Yaponiya, Belçika, ABŞ və Almaniyanın hər birindən iki nəfər olmaqla 14 nümayəndə daxil oldu. Komitənin sədri "Daues planı"nın müəlliflərindən biri olan ABŞ eksperti Ouen Yunq idi. Müzakirələrin nəticəsində "Yunq planı" ekspertlər tərəfindən qəbul edildi. Son razılaşma 1929-cu il iyunun 7-də əldə edildi. 37 il müddətində Almaniyanın ödəyəcəyi təzminatın orta məbləği 1 mlrd. 988 mln. marka olmalı idi. Bu məbləğə Almaniyanın 1924-cü ildə "Daues planı"na əsasən aldığı istiqrazların ödənilməsi də əlavə edildi. "Yunq planı" 1929-cu ildə Haaqada 12 dövlətin - Fransa, Böyük Britaniya, Almaniya, Belçika, İtaliya, Yaponiya, Çexoslovakiya, Yuqoslaviya, Polşa, Rumıniya, Yunanıstan və Portuqaliyanın iştirak etdiyi konfransda müzakirə edildi. Konfransda maliyyə və siyasi komissiyalar yaradıldı. Reyn vilayətinin azad edilməsi məsələsində konfrans iştirakçıları ilkin razılığa gəldilər. Məlum olduğu kimi, Versal müqaviləsinin şərtlərinə görə üçüncü zona yalnız 1935-ci ildə azad edilməli idi. Lakin müzakirələr nəticəsində üçüncü zonanı 1930-cu ilin ortalarınadək azad etmək qərara alındı. Müttəfiqlərin sonuncu ordu hissələri yalnız 1930-cu ilin iyununda Reyn vilayətindən çıxarıldı. "Yunq planı" prinsipcə 1929-cu il avqustun 31-də müvafiq protokolun imzalanması ilə bəyənildi. Qəti olaraq bu plan 1930-cu il yanvarın 20-də keçirilən ikinci Haaqa konfransında qəbul edildi. "Yunq planı" təzminatın ödənilməsi qaydasını dəyişdirdi. "Daues planı"nın müəyyənləşdirdiyi istiqraz vərəqələri sistemi ləğv edildi. Bundan sonra təzminat yalnız dəmiryolları və dövlət büdcəsindən gələn gəlir hesabına ödənilməli idi. Sənayedən gələn gəlirlər hesabına təzminatı ödəmək, Almaniyanın təsərrüfat və maliyyə sistemi üzərinə

qoyulan nəzarət ləğv olundu. Təzminatın ümumi məbləği 132 mlrd. markadan 113,9 milyarda endirildi. Bu dəyişikliklər əslində Versal sisteminə vurulan böyük zərbə idi.

"Yunq planı"nın qəbul edilməsi alman xalqı üçün iqtisadi və siyasi cəhətdən irəliyə doğru addım olmasına baxmayaraq Almaniyada yenə də narazılıq yaratdı. Planın qəbulundan sonra ölkədə Avropadakı ərazi məsələlərinə yenidən baxmaq tələbləri çoxaldı. Bununla yanaşı olaraq 20-ci illərin sonlarında Almaniya hərbi cəhətdən gücləndi. Əgər 1925-ci ildə alman ordu və donanmasına çəkilən xərc 490,9 mln. marka idisə, 1928-1929-cu illərdə bu məbləğ 827 mln. markaya çatdırıldı. Ordu və donanmanın texniki təchizatı xeyli yaxşılaşdırıldı. Ölkədə güclənən sürətlə silahlanma müharibə təhlükəsini daha da artırdı. Almaniyada nasional-sosialist təşkilatları öz fəaliyyətlərini gücləndirdi. Onlar Polşada yaşayan alman milli azlıqlarının hüquqlarının qorunması, Dansiq və Memelin Almaniyaya verilməsi məsələlərini kəskinliklə qaldırmağa başladılar. 1933-cü ildə reyxstaqa keçirilən seçkilərdə nasional-sosialistlərin qələbə çalması vəziyyəti daha da ağırlaşdırdı. Bundan sonra beynəlxalq məsələlərdə Almaniyanın irəli sürdüyü iddialar xeyli çoxaldı.

## "Brian-Kelloq paktı"

20-ci illərdə dövlətlərarası münasibətlərdə müharibələrdən imtina edilməsi məsələsi daha aktual oldu. Fransanın xarici işlər naziri Aristid Brian 1927-ci il aprelin 6-da ABŞ-ın birinci dünya müharibəsinə qoşulmasının 10 illiyi münasibəti ilə söylədiyi nitqində Fransanın ABŞ-a dost münasibətlərini bildirərək bu ölkə ilə istənilən qarşılıqlı öhdəlik götürmək və müharibəni qanundankənar etmək haqqında saziş bağlamaq təklifini irəli sürdü. İyunun 20-də Brian ABŞ-ın Parisdəki səfirinə "Əbədi dostluq haqqında Fransa-Amerika müqaviləsi"nin layihəsini təqdim etdı. Fransa bundan istifadə edərək iqtisadi mövqelərini gücləndirmək, frankın alıcılıq qabiliyyətini sabitləşdirmək, ABŞ-a olan borclarının

ödənilməsi məsələlərini tənzimləmək və Avropada hərbi-siyasi vəziyyətini möhkəmləndirmək istəyirdi. Fransa diplomatiyasının bu təklifi Birləşmiş Ştatlarda müsbət qarşılandı. Lakin amerikan diplomatiyası ondan dərhal öz daxili və xarici siyasət məqsədləri üçün bacarıqla istifadə etdi. Dekabrın 28-də ABŞ dövlət katibi Kelloq yalnız Fransa ilə müvafiq müqavilənin bağlanmasını mümkünsüz sayaraq onun bütün başlıca dövlətlərlə imzalnmasını təklif etdi. Fransanın ikitərəfli müqavilə imzalamaq əvəzinə ABŞ-ın çoxtərəfli müqavilə bağlamaq təklifi Parisdə narazılıqla qarşılansa da fransızlar ondan imtina edə bilmədilər. ABŞ hökuməti 1928-ci il iyunun 23-də Lokarno sazişlərini imzalayan tərəflərə və Britaniya dominionlarına milli siyasətdə müharibədən imtina etmək haqqında müqavilənin mətnini göndərdi. Tezliklə bu mətn dövlətlər tərəfindən bəyənildi. İyulun 12-də Almaniya, 14-də Fransa, 15-də İtaliya, 17-də Polşa, 18-də Belçika və Böyük Britaniya, 20-də isə Yaponiya və Çexoslovakiya bu pakta qoşuldu. Paktın imzalanması mərasimi avqustun 27-də Parisdə keçirildi. İmzalanma mərasimində Böyük Britaniya, Belçika, Almaniya, İtaliya, Polşa, Fransa, Çexoslovakiya və Yaponiya nümayəndələri iştirak etdi. Paktın birinci maddəsinə görə tərəflər qarşılıqlı münasibətlərdə mübahisə və müharibələrdən imtina edirdilər. İkinci maddəyə görə mübahisələri və münaqişələri həll edərkən iştirakçılar yalnız dinc vasitələrdən istifadə etməli idilər. Üçüncü maddəyə görə pakt bütün digər dövlətlər üçün açıq elan edilirdi. 1929-cu ilin əvvəlləri üçün "Brian-Kelloq paktı"na 44 dövlət qoşuldu. Pakt 1929-cu il iyulun 24-də qüvvəyə mindi.

Paktın imzalanmasının böyük tarixi əhəmiyyəti var idi. Onu imzalayan dövlətlər qarşılıqlı münasibətlərdə mübahisə və müharibələrdən imtina etmək, bütün mübahisələri dinc vasitələrlə həll etmək öhdəliyi götürdülər. Bu isə Avropada müharibə təhlükəsini müvəqqəti də olsa arxa plana keçirdi və dövlətlər arasında əməkdaşlığa kömək etdi.

## “Pan-Avropa planı”

Lokarno konfransından sonra Avropa qitəsi ölkələrinin siyasi birliyinin yaradılması məsələsi aktuallıq kəsb etməyə başladı. “Panavropa” ideyasının ideoloqu avstriyalı qraf Kuderxove-Kalerqi Portuqaliyadan Polşaya qədər bütün Avropanın birləşdirilməsi fikrini irəli sürdü. O, bununla eyni zamanda ABŞ, Rusiya və Şərqi Asiya dövlətlərinə qarşı ittifaqı da düşünürdü. Kuderxove-Kalerqinin ideyasını məşhur fransız siyasətçiləri E.Errio və A.Brian bəyəndilər. Qeyd etmək lazımdır ki, Avropa dövlətlərinin birliyi ideyasının kökləri hələ orta əsrlərə gedib çıxırdı. 1925-ci ilin yanvarında Errio “Avropa Birləşmiş Ştatları” ideyasını irəli sürdü. 1926-cı ildə Vyanada A.Brianın rəhbərliyi ilə keçirilən birinci Panavropa konqresinin iştirakçıları qitə dövlətlərinin suverenliyini qorumaq şərti ilə onların iqtisadi, gömrük və hərbi əməkdaşlığını qurmağı zəruri saydılar. Panavropa ittifaqı və onun dövlətlərarası strukturları olan Federal Şura, Federal Məhkəmə və Federal Məclis yaradıldı. Lakin geniş ümumavropa sistemi yaratmaq mümkün olmadı.

Brian 1929-cu ildə ümumi bazar yaratmaq təklifini irəli sürsə də bu təklif qitə dövlətləri tərəfindən birmənalı qarşılanmadı.

Belə şəraitdə başlanan dünya iqtisadi böhranı bütün ölkələrdə həyat səviyyəsinin aşağı düşməsinə və işsizliyin artmasına gətirib çıxardı. İşsizlərin ümumi sayı 30 mln. nəfərə çatdı. Böhrandan çıxmaq üçün Avropa dövlətlərinin səylərini birləşdirmək zərurəti daha da artdı. Digər tərəfdən böhranın davam etməsi bazarlar, nüfuz dairələri, kapital ixracı və müstəmləkələrin bölüşdürülməsi uğrunda mübarizəni də kəskinləşdirdi. Dünya iqtisadi böhranı şəraitində böyük dövlətlər arasında ziddiyyətlər kəsginləşdi. Versal-Vaşinqton sisteminin böhran keçirməsi vəziyyəti daha da ağırlaşdırdı. Almaniya, Avstriya, Macarıstan və Bolqarıstan təzminata dair öhdəlikləri yerinə yetirməkdən açıq şəkildə imtina etdilər. Onlar silahlanma sahəsində bərabər hüquqlar əldə etməyə və müharibə-

dən sonra yaranmış mövcud vəziyyəti dəyişdirməyə çalışırdılar. Belə şəraitdə Avropa dövlətlərinin birliyinə nail olmaq və onların təhlükəsizliyini təmin etmək mühüm əhəmiyyət kəsb edirdi. Avropa dövlətlərinin birliyini yaratmaq təşəbbüsünü Fransanın xarici işlər naziri Aristid Brian öz üzərinə götürdü. O, 1930-cu il mayın 17-də Avropanın 27 ölkəsinə "Avropa federal ittifaqı rejimi"ni yaratmaq haqqında müraciət etdi. Belə bir ideyanı o, iqtisadi əməkdaşlıq və böhrana qarşı birgə mübarizə aparmaq tədbirlərinin zəruriliyi ilə əlaqələndirdi. Böhran əleyhinə mübarizə məqsədi ilə Avropa komitəsi yaradılmalı idi. Lakin bu təklif Avropa dövlətləri tərəfindən soyuq qarşılandı. 1932-ci ildə Bazeldə ikinci Panavropa konqresi keçirildi. Konqres Avropa Partiyasının yaradıldığını elan edərək Avropa Birləşmiş Ştatları yaratmaq naminə siyasi qərarlar qəbul etməyə hazır olduğunu bildirdi. Lakin bu qərarlar da kağız üzərində qaldı. "Pan-Avropa planı" əslində Avropada Fransanın mövqelərini möhkəmləndirmək və hegemon rol oynamaq məqsədi daşıyırdı. Bu plandan istifadə etməklə Fransa Almaniya ilə münasibətlərini normallaşdırmaq, gömrük maneələrini aradan qaldırmaq, ümumi təhlükəsizliyi təmin etmək və b. məsələlərin həllinə səy göstərirdi. Lakin Avropa dövlətləri, xüsusən Böyük Britaniya Fransanın Avropada mövqelərinin möhkəmləndirilməsinə yol vermək istəmirdilər. Öz növbəsində Almaniya Fransanın təkliflərinə Versal sisteminin gücləndirilməsi cəhdləri kimi baxaraq etiraz etdi. İtaliya da bu planın əleyhinə çıxdı. Nəticədə "Pan-Avropa planı"nı həyata keçirtmək mümkün olmadı.

## London dəniz konfransı

Dünya iqtisadi böhranı illərində hərbi-dəniz gəmilərinin tikintisinə dair həll olunmamış məsələləri qaydaya salmaq və əlverişli dəniz yollarına sahib olmaq uğrunda böyük dövlətlərin səyləri və mübarizəsi gücləndi. Məlum olduğu kimi, Vaşinqton konfransı linkorların və zirehli gəmilərin tikintisini məhdudlaş-

dırmışdı. Yeni şəraitdə hərbi-dəniz gəmilərinin digər növlərinin tikintisi uğrunda rəqabət gücləndi. Məsələni tənzimləmək məqsədilə 1930-cu il yanvarın 21-dən aprelin 22-dək Londonda maraqlı dövlətlərin konfransı çağırıldı. Konfransda Vaşinqton konfransında hərbi-dəniz sazişini imzalayan dövlətlər - ABŞ, Böyük Britaniya, Yaponiya, Fransa və İtaliya iştirak etdi. Konfransda dəniz məsələsində Fransa ilə İtaliya arasında ziddiyyətlərin olduğu üzə çıxdı. Nəticədə bu dövlətlər sazişi imzalamadı. Konfransın qərarları yalnız Böyük Britaniya, ABŞ və Yaponiyaya aid edildi. Üç dövlət öz aralarında donanmalardakı kreyser, esmines və sualtı qayıqların həcminin həddini müəyyənləşdirdi. Konfransda İngiltərə böyük uduş qazanmadı. Esmines və sualtı qayıqların həcmində Böyük Britaniya və ABŞ-ın gücü bərabərləşdirildi. Kreyserlərə dair Vaşinqton konfransının bölgüsü -5:5:3 qəbul edildi. Böyük kreyserlərin həcmi ABŞ üçün 18, İngiltərə üçün 15, Yaponiya üçün 12 müəyyənləşdirildi. Esmineslərin sayı isə Yaponiya üçün əlverişli oldu. Sualtı qayıqların həcmində Yaponiya ABŞ və İngiltərə ilə birlikdə bərabər imkanlar qazandı. Beləliklə, London dəniz konfransı üç dövlət arasında donanma sahəsində münasibətləri tənzimlədi. Lakin sularda rəqabət hələ də davam edirdi və çoxlu mübahisəli məsələlər mövcud idi.

### "Huver moratoriumu"

30-cu illərin başlanğıcında Avropada beynəlxalq münasibətlərdə ən çox müzakirə edilən məsələlərdən biri Avstriya-Almaniya gömrük ittifaqının yaradılması haqqında idi. Versal sülh müqaviləsinin şərtlərini təftiş etmək Almaniyanın daxili və xarici siyasətinin başlıca məqsədinə çevrildiyi bir vaxtda alman hökuməti Versal-Vaşinqton sülh sisteminə əsasən götürdüyü bütün öhdəliklərin əksinə olaraq Avstriya ilə 1931-ci il martın 19-da vahid gömrük ittifaqı, razılaşdırılmış tariflər və iki ölkə arasında gömrük sərhədlərinin ləğv edilməsi haqqında saziş imzaladı. Bu addım əslində Versal sülh sisteminin tələblərinin kobudcasına pozulması demək idi. Versal

sülh müqaviləsini imzalayan qalib dövlətlər qəti şəkildə bunun əleyhinə çıxdılar. Nəticədə 1931-ci il sentyabrın 5-də beynəlxalq daimi tribunal Almaniyanın Avstriya ilə bağladığı gömrük ittifaqını ləğv etdi. Bundan sonra Almaniyada nasional-sosializm, revanşizm və Versal sistemini dağıtmaq meylləri daha da gücləndi. İqtisadi böhranın təsiri altında Almaniyanın növbəti müddət - 1931-ci il iyunun 5-də təzminatı ödəməsi çətinləşdi. Ölkəni maliyyə böhranı bürüdü. Almaniyanın təzminatı ödəməyə gücü çatmadı. Belə olduqda Almaniya prezidenti Hindenburq ABŞ prezidenti Huverə kömək üçün müraciət etdi. Huver isə öz növbəsində bir il müddətinə bütün təzminat və istiqrazların ödənilməsini dayandırmaq təklifini irəli sürdü. Bu, "Huver moratoriumu" adını aldı. Fransa müvafiq müraciətin əleyhinə çıxaraq öz şərtlərini irəli sürdü. Buna baxmayaraq 1931-ci il iyulun 20-də baş nazirlərin Londonda keçirilən konfransında Almaniyaya uzunmüddətli kredit vermək və ölkənin maliyyə vəziyyətini öyrənmək üçün komissiya yaratmaq tövsiyə edildi. Komissiya Almaniyanın təzminatı ödəməyə imkanı olmadığını bildirdi.

"Huver monatoriumu" qüvvəyə mindi. İqtisadi böhran dərinləşdikdə 1931-ci ilin noyabrında alman hökuməti moratoriumun müddəti başa çatdıqdan sonra təzminatı ödəməyə imkanı olmadığını bildirdi. 1932-ci ilin iyununda Lozannada təzminat məsələsinə dair konfrans çağırıldı. İngiltərə, Fransa, Almaniya və İtaliyanın iştirak etdiyi konfransda alman nümayəndə heyəti təzminatın ödənilməsinin tam ləğv olunmasını xahiş etdi. İtaliya nümayəndə heyəti bu təklifi müdafiə etdi. ABŞ hökumətinin müttəfiqlərin hərbi borclarını siləcəyi təqdirdə Böyük Britaniya bu təklifə razılaşacağını bildirdi. Fransanın müqavimətinin elə bir nəticəsi olmadı. 1932-ci il iyulun 9-da Lozanna konfransının "Yekun paktı" imzalandı. Bu pakta görə "Yunq planı"na əsasən nəzərdə tutulan ödənişlər ləğv olundu. Yaxın üç ildə Almaniyanın ödəyəcəyi təzminat üzərində moratorium qoyuldu. Lakin ABŞ hökuməti ingilis diplomatiyasının irəli sürdüyü şərtlə razılaşmadığı üçün pakt təsdiq edilmədi. Bununla belə, Almaniya daha təzminat ödəmədi.

## Tərksilah məsələsi

Almaniyanın Versal-Vaşinqton sülh sistemini təftiş etmək və sürətlə silahlanma cəhdləri beynəlxalq münasibətlərdə tərksilah məsələsinə diqqət yetirməyi ön plana çıxardı. 1932-ci il fevralın 2-də Cenevrədə tərksilaha dair beynəlxalq konfrans işə başladı. Konfransda Amerika Birləşmiş Ştatları Millətlər Cəmiyyətini beynəlxalq borclar, təzminat, tərksilah və təhlükəsizlik məsələlərini həll etmək iqtidarında olmadığına görə kəskin tənqid edərək üzv ölkələrin quru qüvvələrini azaltmaq təklifini irəli sürdü.

SSRİ hamılıqla tərksilaha dair konvensiya imzalamaq və əgər digər dövlətlər bunu qəbul etməzlərsə, onda qismən tərksilah keçirmək təklifini verdi.

Fransa nümayəndə heyəti Almaniya təhlükəsi qarşısında Millətlər Cəmiyyətinin ordusunu yaratmağı, ümumi təhlükəsizlik üçün müqavilələr bağlamağı və yeni hərbi ittifaq qurmağı təklif etdi. Lakin Fransanın təklifləri Böyük Britaniya tərəfindən qəbul olunmadı.

Yaponiya ABŞ təklifinə qarşı çıxaraq amerikan və ingilis diplomatiyalarına Versal-Vaşinqton sülh sisteminə yenidən baxmağı, dəniz konfranslarının qərarlarını dəyişdirməyi təklif etdi.

Konfransda rəhbər rol oynayan ingilis diplomatiyası silahlanma sahəsində Almaniya ilə Fransa arasında bərabər hüquqların bərqərar edilməsi təklifini irəli sürdü.

İtaliya da silahlanma məsələsində Almaniyaya bərabər hüquqlar verilməsini təklif etdi. Bu tələb İtaliya-Fransa ziddiyyətlərini xeyli kəskinləşdirdi. Hərbi-dəniz donanması məsələsində İtaliya Fransa ilə bərabərliyə nail olmağa çalışırdı.

Alman diplomatiyası təzminatın ləğv edilməsi və silahlanmada bərabər imkanlar verilməsini tələb etsə də bu iddialar Fransa tərəfindən rədd edildi. Almaniya nümayəndə heyəti aprel ayında Böyük Britaniya və Fransa nümayəndələri ilə danışıqlara girdi. Alman diplomatiyası 100 min nəfərlik polisin yaradılmasına icazə verilməsini və Almaniya üçün silahlanmanın qadağan edilməsinin

aradan qaldırılmasını təklif etdi.

İri gəmilər və sualtı qayıqlar məsələsi də kəskin mübahisələr yaratdı. İngiltərə və Fransa nümayəndə heyətləri bu məsələdə Almaniyanın bütün linkorn və kreyserlərinin ləğvini tələb etməsinə qarşı çıxdılar.

Konfransın birinci sessiyası 1932-ci il iyulun 23-də öz işini başa çatdırdı. Çexoslovakiya prezidenti Beneşin qətnaməsi qəbul edildi. Qətnamədə dövlətlər silahlarını artırmamağa çağırılırdılar. Almaniya ona bərabər hüquqlar verməyən qətnamənin qəbul edilməsinin əleyhinə çıxaraq konfransı tərk etdi. Cenevrə konfransının birinci sessiyasının işinin uğursuzluğu beynəlxalq münasibətlərdəki vəziyyəti daha da kəskinləşdirdi. Almaniya nəinki mənəvi, eyni zamanda faktiki bərabərlik də tələb etməyə başladı. Belə vəziyyətdə İngiltərə yenə də Almaniyaya güzəştə gedilməsinin vacibliyini bildirdi. 1932-ci ilin dekabrında Cenevrədə Böyük Britaniya, Fransa, İtaliya, ABŞ və Almaniya nümayəndələrinin müşavirəsi keçirildi. Müşavirədə qəbul edilən qətnamə hamı üçün bərabər təhlükəsizlik sistemində Almaniyaya silahlanma sahəsində bərabər hüquqlar, Fransaya isə təhlükəsizliyinin təmin olunmasını vəd edirdi. Bununla da Almaniya hərbi-siyasi bloklara girmək hüququ qazandı. Mahiyyətinə görə müşavirənin yekunları Almaniyanın gerçək qələbəsi, Fransanın istəklərinin isə rəsmi təmin olunması demək idi. Bütün bunlara baxmayaraq, tərksilah məsələsi beynəlxalq münasibətlərdə həll edilməyən başlıca problem olaraq qalırdı.

## Almaniyada nasional-sosialistlərin hakimiyyət başına gəlməsinin beynəlxalq münasibətlərə təsiri. "Qarışmamaq siyasəti"

30-cu illərin əvvəllərində Almaniyada hakimiyyət uğrunda gedən mübarizə beynəlxalq münasibətlərə öz təsirini göstərdi. Hakimiyyətə yiyələnmək üçün nasional-sosialistlər müxtəlif metodlar-

dan istifadə etməyə başladılar. Seçkilərdə qələbə qazanan nasional-sosialistlər "Milli birlik" hökuməti qurdular. 1933-cü il yanvarın 30-da Hitlerin reyxskansler, fon Papenin vitse-kansler, Neyratın isə xarici işlər naziri təyin edilməsi beynəlxalq münasibətlərə öz təsirini göstərdi. Nasional-sosialistlər hakimiyyət başına gəldikdən sonra Almaniyanın xarici siyasətinin qarşısında iki mühüm vəzifə dururdu: yaşamaq hüququnun təsdiqi; Almaniya üçün başlıca olaraq silahlanma sahəsində bərabər hüquq və azadlıqların bərpa edilməsi. Almaniyada nasional-sosializmin hakimiyyət başına gəlməsinin beynəlxalq münasibətlərə mənfi təsirini görən ABŞ gərginliyi zəiflətməkdən ötrü 1933-cü il mayın 16-da tərksilaha dair konfransın işini bərpa etmək təklifini irəli sürdü. Təklifə görə hücum silahları məhdudlaşdırılmalı və dövlətlər öz aralarında hücum etməmək haqqında müqavilə imzalamalı idi. Almaniya bu təklifi bəyəndi. Eyni zamanda alman diplomatiyası bərabər imkanlar hüququnun verilməsini tələb etməyə başladı. Tərksilaha dair Cenevrə konfransının keçirildiyi vaxt Almaniya bərabərliyi daha təkidlə tələb etsə də Fransa bu təklifin əleyhinə getdi. Böyük Britaniya və İtaliya isə Fransanın mövqeyini müdafiə etmədilər. İngiltərə, Fransa və ABŞ-ın Almaniyaya təklif etdikləri iki mərhələli tərksilah layihəsini alman diplomatiyası qəbul etmədi. Bu mərhələlərin birincisində üç ildən dörd iləđək sabitləşmə getməli və Almaniya uzun müddətli hərbi xidməti qısa müddətli hərbi xidmətlə əvəz etməli idi. İkinci mərhələdə isə üç-dörd il müddətində faktiki tərksilah həyata keçirilməli idi. 1933-cü ilin iyulunda Romada Böyük Britaniya, Fransa, İtaliya və Almaniya Millətlər Cəmiyyəti daxilində əməkdaşlığa dair pakt imzaladılar. Lakin Almaniya imzaladığı bu paktı təsdiq etmədi. O, əvvəlcə tərksilaha dair konfransdan, 1933-cu il oktyabrında isə Millətlər Cəmiyyətindən çıxdı.

Almaniyanın Millətlər Cəmiyyətindən çıxması Avropada müharibə ocağının yaranması demək idi. Alman hökumətinin bu hərəkətlərinə qarşı Millətlər Cəmiyyəti heç bir sanksiya tətbiq etmədi. Nəticədə nasional-sosialistlər öz iddialarını daha da genişləndir-

dilər. Lakin Almaniya beynəlxalq münasibətlərdə özünə sülhsevər imici qazandırmaqdan ötrü Fransa ilə düşmənçiliyə son qoymaq niyyətində olduğunu bəyan etsə də Saar vilayətinə, silahlarının və silahlı qüvvələrinin artırılmasına olan iddialarından əl çəkmədi.

Avropada müharibə təhlükəsinin artması kollektiv təhlükəsizlik sisteminin yaradılmasını zəruri etdi. 1933-cü ilin iyulunda Londonda təcavüzkarın müəyyənləşdirilməsi haqqında konvensiya imzalandı. Bu konvensiyanı əvvəlcə SSRİ, Türkiyə, İran, Əfqanıstan, Polşa, Rumıniya, Yuqoslaviya, Çexoslovakiya, Litva, Latviya, Estoniya imzaladı, sonra isə ona Finlandiya da qoşuldu. Konvensiya beynəlxalq münasibətlərdə mühüm hadisə idi.

30-cu illərdə Avropada beynəlxalq münasibətlərdə İtaliya-Almaniya münasibətləri özünəməxsus səciyyə daşıyırdı. İtaliya-Fransa ziddiyyətlərinin kəskinləşməsi xarici siyasət məqsədləri üst-üstə düşən Almaniya və İtaliyanı yaxınlaşdırdı. İtaliya- Almaniya münasibətlərində Avstriya məsələsi geniş müzakirə edildi. Almaniyanın Avstriyanı özünə birləşdirmək ideyası İtaliya tərəfindən mənfi qarşılandı. Çünki ideyanın həyata keçirilməsi Almaniyanı Balkanlara və Adriatik dənizinə yaxınlaşdıra və İtaliyanı bu regionda sıxışdıra bilərdi.

Almaniyanın Avstriyanı özünə birləşdirmək planları Balkan ölkələrini bir-biri ilə yaxınlaşdırdı. Versal-Vaşinqton sülh sisteminin qərarlarına yenidən baxılmasının əleyhinə olan bu ölkələrdə İngiltərə və Fransanın təsiri gücləndi. 1934-cü il fevralın 9-da Afinada Türkiyə, Yunanıstan, Yuqoslaviya və Rumıniya "Balkan paktı"nı imzaladılar. Lakin Almaniya və İtaliyanın təsiri ilə Balkan ölkələri olan Bolqarıstan və Albaniya bu pakta qoşulmadılar. Pakta görə Balkan ölkələri mübahisəli məsələlərin həlli vasitəsi kimi müharibələrdən imtina edirdilər; bir-birilərinin ərazi bütövlüyünə və müstəqilliyinə hörmət edirdilər; sərhədlərinin toxunulmazlığına təminat verirdilər; qarşılıqlı yardım göstərirdilər və iqtisadi əməkdaşlıq edirdilər. Pakt digər Balkan ölkələri üçün də açıq idi.

Almaniyanın Millətlər Cəmiyyətindən çıxması silahlanma sa-

həsində onun əl-qolunu açdı. Almanlar silahlanmada bərabər hüquqlar verilməsini, ordunun sayının 300 min nəfərə çatdırılmasını, aviasiyada bərabər imkanların əldə olunmasını və Saar hövzəsinə yiyələnməyi tələb etdilər. Bütövlükdə, Almaniya Versal sülhünün şərtlərini ləğv etməyi, Fransa, Polşa və digər qonşularla 10 il müddətinə hücum etməmək haqqında paktı imzalamağı irəli sürdü. Bütün bunlarla yanaşı olaraq Almaniyada silahlanmaya çəkilən xərclər artırıldı.

30-cu illərdə ayrı-ayrı dövlət xadimlərinə qarşı terror hərəkətləri genişləndi. 1934-cü ilin iyulunda Avstriyada baş verən nasional sosialistlərin qiyamı nəticəsində baş nazir Dolfus, həmin ilin oktyabrın 9-da isə Fransanın xarici işlər naziri Lui Bartu xorvat millətçi təşkilatının üzvləri tərəfindən qətlə yetirildi. Siyasi qətllər Almaniyanın əl-qolunu daha geniş açdı. Almaniya ilə yanaşı olaraq İtaliya da Avropada öz fəaliyyətini genişləndirdi. Mussolini başda olmaqla İtaliya hökumətinin xarici siyasət məqsədlərinin elan edilməsi Avropada müharibənin ikinci ocağının yaranmasına gətirib çıxardı. İtaliyanın 1935-ci ilin oktyabrından Həbəşistana qarşı hərbi müdaxiləyə başlaması beynəlxalq münasibətlərə mənfi təsir göstərdi. Buna görə də Millətlər Cəmiyyəti İtaliyaya qarşı sanksiyalar tətbiq etdi. Lakin sanksiyalar İtaliya təcavüzünü dayandırmadığından 1936-cı il iyulun 4-də Millətlər Cəmiyyəti İtaliyaya qarşı sanksiya tətbiq etməkdən boyun qaçırdı. Beləliklə, Həbəşistan İtaliya təcavüzünün qurbanı oldu.

Almaniya isə Saar hövzəsini özünə birləşdirmək üçün təbliğatı daha da gücləndirdi. 1934-cü il noyabrın sonunda Almaniyanın xarici işlər naziri Ribbentropla Fransanın xarici işlər naziri Lavalın görüşündə Saar məsələsi müzakirə edildi. Laval Saarda keçiriləcək plebisistin nəticələri ilə Fransa hökumətinin maraqlanmayacağını bildirdi. 1935-ci il yanvarın 13-də Saarda plebisist keçirildi. Səsvermədə iştirak edən 539 min nəfərdən 477 mini Saar vilayətinin Almaniyaya birləşdirilməsinə, 46 min nəfərdən çoxu isə vilayətin əvvəlkitək Millətlər Cəmiyyətinin nəzarətində qalmasına, yalnız 2

min nəfəri Fransaya birləşdirilməsinə səs verdi. Millətlər Cəmiyyəti baş verən bu hadisəni təsdiqlədi. Beləliklə, martın 1-də Saar vilayəti Almaniyaya keçdi. Bundan sonra Almaniya Versal sülh müqaviləsinə əsasən ondan alınmış almanlar yaşayan digər ərazilərin də qaytarılmasını tələb etməyə başladı.

Saarın birləşdirilməsindən sonra Almaniya sürətli silahlanma yolunu tutaraq, xüsusən aviasiya sahəsində proqramların yerinə yetirilməsinə girişdi.

Almaniyanın bu addımları digər Avropa dövlətlərinin də silahlanmasına təsir göstərdi. Dövlətlər arasında hökm sürən inamsızlıq və hücum təhlükəsi şübhələri nəticəsində sürətlə silahlanma genişləndirildi. Sürətlə silahlanma xəttinin götürülməsi Avropa dövlətlərini müharibəyə sürükləyirdi. 1935-ci il fevralın 1-3-də Fransanın baş naziri Flanden, xarici işlər naziri Laval, Böyük Britaniyanın baş naziri Stenli Bolduin və xarici işlər naziri Saymon Londonda bəyannamə imzalayaraq yeni sürətlə silahlanma üçün gətirilən bütün bəhanələri kəsməyin zəruri olduğunu bildirdilər. Bəyannamədə Böyük Britaniya, Fransa, Belçika, İtaliya və Almaniya arasında hava konvensiyasının imzalanması, Avstriyanın müstəqillyini təmin edən "Dunay paktı"nın bağlanması, qarşılıqlı yardım haqqında "Şərq paktı"nın imzalanması və Almaniyanın Millətlər Cəmiyyətinə qaytarılması təklif edildi. Lakin bu təkliflər Almaniya tərəfindən soyuq qarşılandı. Almaniya açıq şəkildə Versal sülh müqaviləsinin şərtlərindən imtina etməyə başladı. 1935-ci il martın 13-də Almaniya yarımrəsmi şəkildə özünü Versal sülh müqaviləsi ilə nəzərdə tutulan öhdəliklərdən azad etdiyini bildirdi. Martın 16-da isə ölkədə ümumi hərbi mükəlləfiyyətin keçirilməsi haqqında dekret verildi. Bu dekret Versal sülh müqaviləsinin hərbi maddələrindən Almaniyanın imtina etməsi demək idi. 1935-ci il martın 24-26-da Berlində Saymonla Hitler arasında keçirilən görüşlər Avropadakı proseslərə münasibətdə iki ölkə arasında ciddi fikir ayrılığı olduğunu göstərdi. Yaranmış belə vəziyyətdə Böyük Britaniya SSRİ ilə danışıqlara başladı. 1935-ci

ilin martında İngiltərənin xarici işlər naziri Antoni İdenin Moskvada, aprelində isə Polşada apardığı danışıqlarda Avropada yaranmış mürəkkəb vəziyyət və müharibə təhlükəsinə qarşı mübarizə məsələləri müzakirə olundu.

Avropada baş verən mürəkkəb prosseslər və Almaniya tərəfdən gözlənilən təhlükə Fransa və Çexoslovakiyanı da SSRİ ilə yaxınlaşdırdı. 1935-ci il mayın 2-də "Qarşılıqlı yardım haqqında sovet-fransız paktı", mayın 16-da "Qarşılıqlı yardım haqqında SSRİ-Çexoslovakiya müqaviləsi" bağlandı.

Avropada müharibə təhlükəsinin artdığını görən Böyük Britaniya Almaniyanın qarşısını kəsmək ümidi ilə onu "sakitləşdirmək" xətti götürdü. 1935-ci il iyunun 18-də İngiltərə-Almaniya dəniz sazişi bağlandı. Sazişə görə Almaniya donanmasının gücü İngiltərə donanması gücünün 35 %-ni təşkil edə bilərdi. Sualtı qayıqların nisbətində bərabərlik əldə olundu. İngilis siyasətçiləri bu sazişi gələcəkdə tərksilah yolunda mühüm addımların atılması üçün möhkəm təməl, alman rəsmiləri isə hərbi-dəniz quruculuğunu genişləndirməkdə imkan olaraq dəyərləndirdilər. Saziş İngiltərənin Almaniya qarşısında güzəştə getməsi demək idi.

Müharibə təhlükəsinin artdığı şəraitdə Avropa dövlətlərinin "sakitləşdirmə", ABŞ-ın isə "qarışmamaq siyasəti" beynəlxalq münasibətləri daha da kəskinləşdirdi. 1935-ci ildə ABŞ konqresi "Bitərəflilik haqqında qanun" qəbul etdi. 1936-cı ilin fevralında bu qanuna bir sıra daha ciddi düzəlişlər olundu. Düzəlişlərə görə döyüşən tərəflərə silah satmaq, müharibə dövründə ABŞ gəmilərində hərbi yükləri daşımaq və döyüşən dövlətlərin gəmilərində Amerika vətəndaşlarına səyahət etmək qadağan edildi.

1936-cı il martın 6-da Almaniya hökumətinin iclasında Lokarno sazişlərindən imtina etmək haqqında məsələ müzakirə olundu. Martın 7-də isə Böyük Britaniya, Fransa, Belçika və İtaliyanın Berlindəki səfirlərinə Almaniyanın Lokarno sazişlərindən imtina etdiyi rəsmi şəkildə bildirildi. Həmin gün alman orduları Reyn vilayətinə girdi. Almaniyanın Lokarno sazişlərini pozaraq Reyni işğal etməsi

Böyük Brıtaniya və Fransa tərəfindən narazılıqla qarşılandı. Millətlər Cəmiyyəti isə Reyn vilayətinin tutulması faktını yalnız qeydə almaqla kifayətlənərək Almaniyaya qarşı heç bir sanksiya tətbiq etmədi. Martın 21-də Hamburqda çıxış edən Hitler "Versal ruhunun məhv edildiyini" bildirdi.

Bundan sonra alman diplomatiyası öz fəaliyyətini daha da genişləndirdi. İyul ayında Almaniya-İtaliya sazişi bağlandı. Sazişə görə İtaliya Almaniya-Avstriya münasibətlərinə müdaxilə etməmək barədə öhdəlik götürdü. Böyük Britaniya və Fransanın etirazlarına məhəl qoymayan Almaniya sürətlə silahlanmanı davam etdirdi. Avqustun 24-də Almaniya silahlı qüvvələrində xidmət bir ildən iki ilə qədər artırıldı. Hərbi sənaye daha səmərəli işləməyə başladı. Yeni sənaye sahələrinin təməli qoyuldu. Sürətlə silahlanma gücləndirildi. Belə şəraitdə isə beynəlxalq münasibətlərdə həll olunmamış problemlər hələ də qalırdı.

## Beynəlxalq münasibətlərdə boğazlar məsələsi

30-cu illərdə beynəlxalq münasibətlərdə boğazlar məsələsi kəskin müzakirə obyektinə çevrildi. 1923-cü il 24 iyul tarixli Lozanna konvensiyası Türkiyənin suverenliyinə zidd olduğundan türk nümayəndə heyəti bütün beynəlxalq konfranslarda ona yenidən baxmaq barədə təkliflə çıxış edirdi. Lakin bu təkliflər qulaqardına vurulurdu. 30-cu illərdə isə Avropada beynəlxalq münasibətlər Türkiyənin xeyrinə cərəyan etməyə başladı. İtaliya-Həbəşistan müharibəsindən sonra regionda mövqelərinə təhlükə yarandığını görən Böyük Britaniya Türkiyə ilə yaxınlaşmaq üçün fürsət qazandı. 1935-ci ilin dekabrında İngiltərə hökuməti Türkiyə, Yunanıstan və Yuqoslaviya ilə "centlmen sazişləri" bağladı. Sazişlərə görə Aralıq dənizində İtaliya təcavüzü olacağı təqdirdə tərəflər bir-birilərinə yardım göstərməli idilər. Türkiyənin boğazlara dair məsələyə yenidən baxmaq təklifi ikitərəfli türk-ingilis danışıqlarında bəyənildi. Bundan sonra 1936-cı il aprelin 10-da türk hökuməti

Lozanna konvensiyasını imzalayan dövlətlərə məsələyə baxmaq haqqında müraciət etdi. Türk hökuməti Böyük Britaniya, SSRİ, Fransa, İtaliya, Rumıniya, Yunanıstan, Yuqoslaviya, Bolqarıstan və Yaponiyadan müsbət cavab aldı. 1936-cı il iyunun 22-dən iyulun 20-dək İsveçrənin Montrö şəhərində 9 dövlətin nümayəndə heyətlərinin iştirakı ilə konfrans keçirildi. Konfransda yalnız İtaliya nümayəndə heyəti iştirak etmirdi. Boğazların hərbiləşdirilməsi məsələsi konfransda etiraz doğurmadı. Dövlətlər türk diplomatiyasının təkliflərinə prinsipcə razı oldular. Lakin iki məsələ mübahisələr doğurdu: Qara dəniz dövlətlərinin hərbi gəmilərinin boğazlardan keçməsi; başqa dövlətlərin hərbi gəmilərinin Qara dənizə buraxılması. Lakın bu mübahisələr həll olundu. 1936-cı il iyulun 20-də Montrödə boğazlara dair yeni konvensiya imzalandı. Konvensiyaya görə boğazlar zonasında Türkiyə dövlətinin suveren hüquqları tamamilə bərpa edildi. Boğazlardan keçməyə nəzarət və müşahidə hüququ Türkiyəyə verildi. Türkiyə boğazlar zonasında silahlı qüvvələr saxlaya, hərbi obyektlər tikə və onları möhkəmləndirə bilərdi. Bütün ölkələrin ticarət gəmiləri boğazlardan sərbəst keçə bilərdi. Qara dəniz və Qara dəniz dövləti olmayan ölkələrin hərbi gəmilərinin keçirilməsində isə fərqli qaydalar müəyyənləşdirildi. Qara dəniz dövlətlərinin hərb gəmiləri boğazlardan ciddi məhdudiyyətlər olmadan bir sıra tələbləri yerinə yetirmək şərtilə keçə bilərdi. Qara dəniz dövləti olmayan ölkələrin hərb gəmiləri üçün ciddi məhdudiyyətlər qoyuldu. Bu dövlətlər Qara dənizə yüngül suüstü gəmilər, kiçik hərbi və köməkçi gəmilər keçirə bilərdi. Boğazlardan eyni vaxtda keçən gəmilərin tonnajı 15 min, sayı isə 9 vahidlə məhdudlaşdırıldı. Qara dəniz dövləti olmayan bütün ölkələrin Qara dənizə keçirdiyi hərbi gəmilərinin ümumi tonnajı 30 mini, dövlətlərin biri üçünsə 20 mini ötüb keçməməli idi. Onların gəmiləri Qara dənizdə yalnız 21 gün qala bilərdi. Türkiyə müharibədə iştirak etmədiyi təqdirdə istənilən ölkənin hərb gəmiləri üçün boğazları bağlaya bilərdi. Türkiyə müharibədə iştirak edərdisə və ya müharibə təhlükəsi qarşısında qalardısa türk

hökuməti qaydanı özü müəyyənləşdirə bilərdi.

Montrö konvensiyası türk diplomatiyasının böyük uğuru idi. Lakin konvensiya digər dövlətlər tərəfindən heç də birmənalı qarşılanmadı. İtaliya və Almaniya bu konvensiyanın əleyhinə çıxdılar. Almaniya hökumətinin konvensiyaya dair təklif etdiyi düzəlişlər türk hökuməti tərəfindən rədd olundu. Bundan sonra Almaniya boğazlar məsələsinə qarışa bilmədi. İtaliya isə Balkan siyasəti məsələsində Türkiyə ilə razılığa gəldiyindən yalnız 1938-ci ildə konvensiyanı imzalamağa məcbur oldu. Beləliklə, Türkiyə ikinci dünya müharibəsi astanasında dövlət və milli təhlükəsizliyi baxımından çox vacib olan bir problemi həll etdi.

## İspaniya hadisələrinin beynəlxalq münasibətlərə təsiri

30-cu illərdə beynəlxalq münasibətlərə İspaniyada baş verən hadisələr ciddi təsir etdi. 1931-ci ilin aprelində İspaniyada respublika qurulan kimi ondan narazı olan qüvvələr hərbi faşist qiyamına hazırlığa başladılar. Qiyam 1936-cı il iyulun 17-18-də baş verdi. Qiyamdan istifadə edən Almaniya və İtaliya iyulun sonunda İspaniyaya müdaxilə etdilər. Fransa hökuməti 1936-cı il iyulun 25-də bitərəflik və İspaniyaya silah daşınmasını qadağan etmək haqqında qanun qəbul etdi. İspaniyaya Almaniya və İtaliyanın müdaxiləsində Avropa dövlətlərinin bitərəf qalması müharibə təhlükəsini daha da artırdı.

İtaliyaya qarşı sanksiyaların tətbiq olunması tələblərindən imtina edilməsi, Versal sülh müqaviləsinin şərtlərini kobudcasına pozan Almaniyanın cəzasız qalması, SSRİ və Avropa dövlətlərinin İspaniyada bir-biriləri ilə mübarizə apararaq hərbi əməliyyatlarda iştirak etmələri müharibə tərəfdarlarını daha da şirnikləşdirdi. 1936-cı il oktyabrın 24-də İtaliya ilə Almaniya arasında 5 maddədən ibarət saziş imzalandı. İtaliya xarici işlər naziri Çiano və Almaniya xarici işlər naziri Ribbentropun imzaladıqları bu sazişlə Həbəşistanın işğal edilməsi və İspaniyada Franko hökuməti tanındı. Tərəflər

Balkanlarda və Dunay çayı hövzəsində iqtisadi fəaliyyətlərinin dairəsini müəyyənləşdirərək bir-birilərinin mənafelərinə hörmət edəcəkləri barədə öhdəlik götürdülər. Beləliklə, "Berlin-Roma oxu" yaradıldı.

Noyabrın 25-də isə Berlində Almaniya ilə Yaponiya arasında saziş imzalandı. Bu saziş "Antikomintern paktı" adını aldı. Tərəflər Kominternin fəaliyyəti barədə bir-birinə məlumat vermək və ona qarşı mübarizə aparmaq haqqında qarşılıqlı razılığa gəldilər. 1937-ci ilin noyabrında İtaliya da bu pakta qoşuldu. 1937-ci ilin dekabrında isə İtaliya Millətlər Cəmiyyətindən çıxdı. Beləliklə, üç dövlətin təcavüzkar bloku olan "Berlin-Roma-Tokio üçbucağı" yaradıldı.

"Berlin-Roma-Tokio üçbucağı" yaradıldıqdan sonra alman diplomatiyası fəaliyyətini daha da genişləndirdi. Artıq bu zaman alman diplomatiyasının əsas vəzifəsi Belçika, Polşa, Hollandiya, Danimarka və İsveçi öz tərəfinə çəkmək idi. Almaniya təkcə almanlar yaşayan ərazilərin deyil, eyni zamanda əlindən alınmış keçmiş müstəmləkələrinin də ona qaytarılmasını tələb etməyə başladı. Keçirilən ingilis-alman danışıqları Almaniyanın "sakitləşdirilməsinə" xidmət edən razılaşma ilə başa çatdı. Buna görə İngiltərə Almaniyanın mənafelərini Avstriya və Çexoslovakiyada nəzərə alardısa, alman diplomatiyası 6 il müddətinə müstəmləkələr məsələsini qaldırmayacağı barədə öhdəlik götürdü. İngiltərə buna cavab olaraq Avropa işlərinə qarışmayacağını və Almaniyanın Mərkəzi Avropadakı bütün hərəkətlərinə münasibətdə bitərəf mövqe tutacağını bildirdi. Belə mövqe Avropanın şərqində Almaniyanın təcavüzkarlıq hərəkətlərinin genişləndirməsinə təkan verdi. İngilis diplomatiyası eyni zamanda bununla Almaniyanın Fransa və digər dövlətlərlə toqquşub zəifləyəcəyinə ümid edirdi. Lakin bu ümidlər özünü doğrultmadı. Almaniya iddialarını daha da genişləndirdi.

## Avstriyanın anşlüsü və Çexoslovakiyanın parçalanmasının beynəlxalq münasibətlərə təsiri

Artıq 1938-ci ilin əvvəllərində Avropa müharibə astanasında idi. Müharibə tərəfdarları öz qüvvələrini birləşdirmişdilər. Bu zaman Almaniya Avstriyanın birləşdirilməsini yenidən açıq şəkildə tələb etməyə başladı. 1938-ci ilin fevralında Hitler Avstriya kansleri Şuşniki yanına çağıraraq qarşısında aşağıdakı tələbləri qoydu: Avstriya nasional-sosialistlərinin hamısına aministiya verilsin; Hitlerin yaxını olan Zeys-İnkvart ictimai təhlükəsizlik naziri təyin edilsin; Avstriya nasional-sosialistlərinə leqal və azad fəaliyyət üçün şərait yaradılsın. Şuşniq tələblərlə razılaşaraq Zeys-İnkvartı göstərilən vəzifəyə təyin etdi. Martın 12-də Hitler Avstriyaya gəldi. Həmin gün alman orduları Avstriya sərhədini keçdi. Şuşniq martın 13-də Avstriyanın müstəqilliyi məsələsinə dair plebisist təyin etdi. Plebisistdə iştirak edənlərin böyük əksəriyyəti Avstriyanın Almaniyaya birləşdirilməsinə səs verdi. Zeys-İnkvart yeni kansler təyin edildi. Avstriyanın müstəqilliyinə son qoyuldu. Martın 13-də Zeys-İnkvart Avstriyanı alman dövləti elan etdi. Beləliklə, Avstriya Üçüncü reyxin tərkibinə qatıldı.

Avstriyanın anşlüsü Avropa dövlətləri tərəfindən heç də birmənalı qarşılanmadı. İtaliya anşlüsü bəyənsə də Böyük Britaniya və Fransa ona etiraz etdilər. Lakin bir müddət keçdikdən sonra İngiltərə hökuməti Avstriyanın Almaniyaya birləşdirilməsini tanıdı. SSRİ hökuməti Avstriyanın anşlüsünü pisləyərək təcavüzkara qarşı kollektiv tədbirlər görmək məqsədi ilə beynəlxalq konfrans çağırmağı təklif etdi. Ancaq bu təklif qəbul olunmadı. Avstriyanın Almaniyaya birləşdirilməsi Avropada müharibəni yaxınlaşdırdı.

Avstriyanın anşlüsündən sonra Böyük Britaniya İtaliya ilə münasibətlərini istiləşdirməyə səy göstərdi. Çünki Həbəşistan, İspaniya və Avstriyanın ardınca Çexoslovakiya gəlirdi. Avstriyanı birləşdirdikdən sonra Almaniya xaricdəki almanlar yaşayan ərazilərin Üçüncü reyxə qatılması şüarları ilə daha geniş çıxış etməyə başladı.

Lakin nasional-sosialistlər bunu zorakılıqla deyil, demokratik don geyindirməklə həyata keçirtməyə çalışırdılar. Almaniya Çexoslovakiyanın daxilində yaranmış böhrandan istifadə edərək Fransa, İngiltərə və İtaliyanın razılığını alıb Çexoslovakiyanın əsasən almanlar yaşayan Sudet vilayətini özünə birləşdirmək işinə girişdi. Sudet vilayəti məsələsini müzakirə etməkdən ötrü 1938-ci sentyabrın 29-30-da Münhendə Qəhvəyi evdə Almaniya, İngiltərə, Fransa və İtaliya nümayəndə heyətlərinin konfransı keçirildi. Hitler, Çemberlen, Daladye və Mussolininin iştirak etdiyi konfransda Çexoslovakiyanın almanlar yaşayan bütün sərhəd rayonlarını Almaniyaya vermək barədə qərar qəbul olundu. Lakin konfransa Çexoslovakiya dəvət edilmədi. Sudet vilayətində yaşayan almanlar həmin qərarı bəyəndilər. Razılığa əsasən oktyabrın 1-dən 10 -dək Çexoslovakiya bu əraziləri boşaltmalı idi. Həmin ərazidəki hərbi tikililər də Almaniyaya keçdi. Beləliklə, Çexoslovakiya ərazisi parçalandı.

Sentyabrın 30-da Münhendə Çemberlen və Hitler iki ölkənin biri-birinə qarşı müharibə etməməsi barədə bəyannaməni imzaladılar. Əslində bu, hücum etməmək haqqında pakt idi.

Münhen sazişini imzalayan dövlətlər Almaniyanın təcavüzkar niyyətlərini şərqə doğru yönəldəcəklərinə ümid edirdilər. Bu, ingilis diplomatiyasının "sakitləşdirmə siyasəti"nin və fransız hökumətinin təslimçilik mövqeyinin mahiyyətini əks etdirirdi.

Sudet vilayəti birləşdirildikdən sonra Avropada tamamilə yeni şərait yarandı. Az sonra "ox" dövlətləri öz aralarında hərbi sazişlər bağladılar. Almaniya Şərqi Avropa ölkələrinə qarşı təcavüzkar niyyətlərini daha da genişləndirdi. Almaniyanın təcavüzkarlıq hərəkətlərinə qarşı Fransanın Avropa dövlətlərinin blokunu yaratmaq cəhdləri də heç bir nəticə vermədi. Eyni addımları ingilis hökuməti də atdı. 1939-cu il martın 22-də İngiltərə və Fransa qarşılıqlı yardım haqqında muqavilə imzaladılar. Müqaviləyə görə dövlətlərdən birinə hücum olardısa, digəri ona yardım etməli idi. Eyni tarixdə Almaniya Litva ilə müqavilə bağlayaraq Klaypedanı aldı. Aprelin 3-də yardım haqqında ingilis-polyak bəyannaməsi imzalandı. Bəyannaməyə görə Almaniya Polşaya hücum edərdisə Böyük Brita-

niya polyakları müdafiə etməli idi. Bundan qəzəblənən Hitler 1939-cu il aprelin 29-da hələ 1934-cü ildə imzalanmış hücum etməmək haqqında alman-polyak müqaviləsini, 1935-ci ildə imzalanmış alman-ingilis dəniz sazişini ləğv etdi. Polşaya Almaniyanın təzyiqləri daha da artdı. 1939-cu il mayın 22-də İtaliya və Almaniya qarşılıqlı yardım haqqında ittifaq müqaviləsi imzaladı. Müqavilə "Polad paktı" adını aldı. İtaliya Albaniyanı işğal etdi. Pakta görə üçüncü ölkə ilə müharibə olardısa, digər tərəf ona yardım göstərməli idi. Tərəflər hərbi və hərbi-iqtisadi sahələrdə geniş əməkdaşlıq etmək barədə öhdəlik götürdülər.

Avropada yaranmış vəziyyət SSRİ, Böyük Britaniya və Fransanın səylərini birləşdirməyi tələb edirdi. Almaniya və müttəfiqlərinin hərəkətlərini dayandırmaq və təhlükəsizlik sistemi yaratmaq məqsədilə 1939-cu ilin mart-avqust aylarında Moskvada keçirilən ingilis-fransız-sovet danışıqları uğursuzluqla qurtardı. Danışıqları aparan dövlətlər eyni zamanda separat şəkildə Almaniya ilə də münasibətlər qurmağa səy göstərirdilər. Bundan sonra Almaniya və müttəfiqləri fəaliyyətlərini daha da genişləndirdilər. 1939-cu ilin mayında Yaponiya Monqolustana qarşı təcavüz etdi. SSRİ ordu hissələri Xalxin-Qol rayonunda yaponları dayandırsa da hərbi əməliyyatlar 1939-cu ilin yayında davam edərək yalnız avqust ayında başa çatdı.

Belə şəraitdə Almaniya SSRİ-yə hücum etməmək haqqında müqavilə bağlamağı təklif etdi. Sovet hökuməti bu təkliflə razılaşdı. SSRİ 1939-cu il avqustun 19-da Almaniya ilə ticarət sazişini, avqustun 23- də isə 10 il müddətinə hücum etməmək haqqında paktı və ona əlavə olan gizli protokolu imzaladı. Müqaviləni Almaniyanın xarici işlər naziri Ribbentrop və SSRİ Xalq Xarici işlər komissarı Molotov imzaladılar. Müqaviləyə görə tərəflər bir-birilərinə qarşı hər cür zorakılıq, təcavüzkarlıq hərəkətlərindən və hücum etməkdən imtina edirdilər. Tərəflərdən birinə qarşı hücum olardısa digəri üçüncü dövləti müdafiə etməməli idi. Onlar beynəlxalq və ikitərəfli məsələlərə dair məsləhətləşmələr aparmalı və aralarında mövcud olan bütün mübahisəli məsələləri dinc, danı-

şıqlar yolu ilə həll etməli idilər.

SSRİ və Almaniyanın imzaladığı əlavə gizli protokolda deyilirdi ki, Baltikyanı dövlətlərə daxil olan (Finlandiya, Latviya, Litva və Estoniya) vilayətlərin ərazi-siyasi yenidənqurulması baş verərsə, Litvanın şimal sərhədi Almaniya və SSRİ-nin maraq dairəsi sayılır; bununla bağlı Litvanın Vilen vilayətinə olan maraqlarını hər iki tərəf etiraf edir; Polşa dövlətinin tərkibinə daxil olan vilayətlərin ərazi-siyasi yenidənqurulması baş verərsə Almaniya və SSRİ-nin maraq dairəsinin sərhədləri təqribən Narva, Visla və San çayları ərazisindən keçəcəkdir; müstəqil Polşa dövlətinin qarşılıqlı maraq dairəsində saxlanılmaq istəyi və onun sərhədlərinin necə olması yalnız qarşıdakı siyasi hadisələrin inkişafından asılı olacaqdır; Litva dövlətinin ərazisi SSRİ-nin maraqları dairəsinə, Lyublin voyevodluğu və Varşava voyevodluğunun bir hissəsi isə Almaniyanın maraq dairəsinə aid edilir; SSRİ hökuməti Litva ərazisində öz maraqlarını qorumaq üçün xüsusi tədbirlərə başlayan kimi təbii olaraq hazırki Almaniya-Litva sərhədi elə müəyyənləşdiriləcəkdir ki, Litva ərazisinin xəritədə göstərilən cənub-qərb xətti Almaniyaya keçir; Almaniya ilə Litva arasında olan təsərrüfat əlaqələrinin SSRİ yuxarıdakı tədbirləri həyata keçirərkən pozmamalıdır.

Beləliklə, Polşa üzərinə təcavüzü dayandıra bilməyən SSRİ faktiki olaraq ona nəinki imkan yaratdı, eyni zamanda müharibənin başlanmasının iştirakçısı oldu. Əslində bu sənədlər Almaniyanın Şərqi Avropa ölkələrinə, xüsusən Polşaya qarşı təcavüzkar hərəkətlərinə, SSRİ-nin isə Qərbi Ukrayna, Qərbi Belarusiya, Bessarabiya və Baltikyanı ölkələrə işğalçı hücumlarına diplomatik-siyasi əsas verdi.

Beləliklə, sol təmayüllü bolşevizmin və sağ yönümlü nasional-sosializmin təqsiri ucbatından bəşəriyyət ikinci dünya müharibəsi astanasında dayandı. Belə şəraitdə artıq dünya müharibəsi qaçılmaz idi.

# XVI BÖLÜM

## İKİNCİ DÜNYA MÜHARİBƏSİ

### Müharibənin başlanmasının əsas səbəbləri

Dünya müharibəsi ərəfəsində böyük dövlətlərin hər birinin strategiyası, müttəfiq seçmələri və vəzifələri bir sıra amillərlə şərtlənirdi. Bu amillər iqtisadi, siyasi, hərbi, hətta ideoloji sahələri əhatə edirdi. Almaniya, İtaliya və Yaponiya koalisiyasının strategiyasının əsasını geopolitik məqsədlər təşkil edirdi. Almaniya Versal sülh sisteminin şərtlərini tamamilə ləğv etmək, etnik alman dövləti yaratmaq, Mərkəzi və Şərqi Avropada nüfuz qazanmaq, İtaliya Balkanlarda və Şimal-Şərqi Afrikada möhkəmlənmək, Yaponiya isə Sakit okeanda nüfuz və Uzaq Şərqdə torpaqlar tutmaq istəyirdi. Bu ölkələr dünya siyasi, iqtisadi və geopolitik məkanını dəyişdirməyə və "yeni qayda" yaratmağa səy edirdilər. Yaponiya və İtaliyanın dünyanın siyasi xəritəsini bölmək uğrunda mübarizəsi praqmatik məqsədlərlə bağlı idisə, Almaniyanın strategiyası "yeni dünya qaydası" yaratmaq naminə total müharibəyə əsaslanırdı.

Bu bloka qarşı dünyada mövcud status-kvonun saxlanmasına tərəfdar olan Fransa, Böyük Britaniya və ABŞ dururdular. Onlar dünyanın siyasi xəritəsinin köklü surətdə dəyişdirilməsinin əleyhinə olsalar da Versal sülhündən əziyyət çəkən ölkələrə, o cümlədən Almaniyaya güzəştə getməyə tərəfdar idilər.

SSRİ-nin mövqeyi ikili xarakter daşıyırdı. Sovet dövləti Avropada sərhədlərin köklü surətdə dəyişdirilməsinin əleyhinə olsa da Şərqi Avropanı özünün iqtisadi və hərbi-siyasi nüfuz dairəsinə salmağa və kommunist ideologiyasını yaymağa çalışırdı.

Deməli, müharibənin başlanmasının başlıca səbəbləri dünyanı yenidən bölmək, əlverişli bazarlar və ucuz xammal mənbələri ələ keçirmək uğrunda böyük dövlətlər arasında gedən mübarizənin

kəskinləşməsi idi. Xarakterinə görə bu müharibə ədalətsiz, işğalçı və dağıdıcı idi.

Beləliklə, dünyada demokratiya ilə nasional-sosializm və bolşevizm ideyalarının daşıyıcısı olan dövlətlərin maraqlarının toqquşması müharibəyə gətirib çıxardı.

## Böyük dövlətlər arasında qüvvələr nisbəti

Öz məqsədlərini həyata keçirmək üçün bu dövlətlər kifayət qədər qüvvə toplamışdılar. Onların arasında qüvvələr nisbəti təxminən aşağıdakı kimi idi: 1939-cu ilin avqustunda Fransa quru qoşunlarında 2 mln. 438 min, hərbi-hava qüvvələrində 110 min, hərbi-dəniz qüvvələrində isə 126 min nəfər xidmət edirdi. Ordunun texnika və yeni silahlarla təchizatına xüsusi diqqət verilirdi.

Böyük Britaniya quru qoşunlarında 897 min, dominionlarla birlikdə 1 mln. 261 min, hərbi-hava qüvvələrində 193 min, dominionlarla birlikdə 206 min, hərbi-dəniz qüvvələrində 180 min, dominionlarla birlikdə 194 min nəfər xidmət edirdi. Britaniya donanması dünyada kifayət qədər güclü idi. Fransa və Böyük Britaniyanın hərbi strategiyası başlıca olaraq müdafiə məqsədlərinə yönəlmişdi.

ABŞ-ın da hərbi strategiyası müdafiə xarakteri daşıyırdı.

Almaniyanın hərbi strategiyası "ildırım sürətli müharibə" planına əsaslanırdı. Bu, bütün növ ordu hissələrinin köməyi ilə qəflətən hücum edib rəqibi sıradan çıxarmaq məqsədi güdürdü. Alman ordusunda 2 mln. 750 min nəfər qulluq edirdi. Alman ordusunun texniki təchizatı köhnə olsa da zabit heyətinin peşəkarlığı və döyüş ruhu yüksək idi.

İtalyan ordusunda 1 mln. 753 min nəfər xidmət edirdi. Bu ordu daha çox lokal müharibələr aparmağa hazırlanmışdı.

Yaponiya ordusunda 1 mln. 240 min nəfər qulluq edirdi. Bu ordunun fərqləndirici cəhəti şəxsi heyətin yüksək fiziki və texniki hazırlığı idi. Belə şəraitdə müharibə istənilən an başlana bilərdi.

## Müharibənin birinci dövrü. Hərbi əməliyyatların başlanması və genişləndirilməsi

Polyak forması geyən alman hərbçiləri iki ölkə sərhədində yerləşən Qleyvisdə radiostansiyanı tutaraq təxribat törətdilər. Təxribatın üstünü ört-basdır etmək üçün Almaniya rəhbərliyi öz hərbçilərini güllələtdirdi. "Sərhəd münaqişəsi"ndən bəhanə kimi istifadə edən Almaniya əvvəlcədən hazırlanmış "Veys" planına uyğun olaraq 1939-cu il sentyabrın 1-də Polşa üzərinə hücum etdi. Hücumu həyata keçirən Almaniyanın "Şimal" və "Cənub" qruplarının tərkibində 44 diviziya, 2800 tank, 1600-dək təyyarəçi, Polşanın isə bu istiqamətdə 33 diviziyası, 870 tankı, 407 təyyarəsi var idi.

Həmin gün reyxstaq Dansiqin Almaniyaya birləşdirilməsi haqqında qanun qəbul etdi. Polşa qarşısında götürdükləri öhdəliyə uyğun olaraq sentyabrın 3-də Böyük Britaniya və Fransa Almaniyaya müharibə elan etdilər. Elə həmin gün Böyük Britaniyanın bir sıra dominionları da müharibəyə qoşuldular. Beləliklə, ikinci dünya müharibəsi başlandı.

Müharibənin birinci dövrü 1939-cu il sentyabrın 1-dən 1942-ci ilin yayınadək olan müddəti əhatə edir. Bu mərhələdə Almaniya və müttəfiqləri hərbi əməliyyatları genişləndirərək üstünlük qazandılar. Müharibə elan etmələrinə baxmayaraq İngiltərə və Fransa Almaniyaya qarşı hərbi əməliyyatlara başlamağa tələsmirdilər. Onlar daha çox mövqe müharibəsinə üstünlük verirdilər. Nəticədə 1939-cu ilin sentyabrından 1940-cı ilin mayınadək Qərbdə "qəribə müharibə" getdi. Polşanı məğlub etdikdən sonra Almaniya müharibənin aparılması üçün yeni əlverişli şərait qazanmaq məqsədilə hərbi əməliyyatları dayandırmağa tərəfdar olduğunu, Böyük Britaniya və Fransaya qarşı heç bir düşmənçilik niyyətləri olmadığını bildirdi. Lakin Böyük Britaniya və Fransa Almaniyanın bu təkliflərindən imtina edərək Balkanlarda və Skandinaviyada geniş hərbi əməliyyatlara başlamağı müzakirə etdilər.

Müharibənin əvvəlindən ABŞ hökuməti bitərəfliyini elan etdi.

Almaniya ilə imzaladığı gizli protokola əsasən SSRİ Almaniyanın Polşaya hücumundan az sonra 1939-cu il sentyabrın 17-də şərqdən Polşa ərazisinə girərək "qardaşlıq yardımı" adı altında Qərbi Ukrayna və Qərbi Belarusiyanı işğal etdi. Brest-Litovskda Sovet və alman ordularının birgə paradı keçirildi. SSRİ və Almaniya sərhədləri yenidən formalaşdırıldı. Polyakların müqaviməti yatırıldı. Sentyabrın 28-də SSRİ ilə Almaniya arasında dostluq və sərhədlər haqqında müqavilə imzalandı. Müqaviləyə əsasən Polşa sərhədi ləğv edildi. Tərəflər müharibənin törədilməsi üçün məsuliyyəti Böyük Britaniya və Fransanın üstünə yıxdılar. Beləliklə, Avropada müharibəni Almaniya və SSRİ başladılar.

SSRİ 1939-cu il noyabrın 28-də Finlandiya ilə hücum etməmək haqqında müqaviləni ləğv etdi, noyabrın 29-da isə onunla diplomatik münasibətləri kəsdi. Noyabrın 30-da SSRİ sərhəddə - Kareliya bərzəxində münaqişə yaradaraq Finlandiyaya müharibə elan etdi. Finlandiya məğlub edildi. Müharibə 1940-cı il martın 12-də Moskvada sovet-fin sülh müqaviləsinin imzalaması ilə başa çatdı. Ladoqo gölünün şimal-qərb sahili, Fin körfəzində bir sıra adalar və Kareliya SSRİ-yə qatıldı. Müharibə SSRİ-nin Fransa və Böyük Britaniya ilə münasibətlərini kəskinləşdirdi. Bundan sonra 1940-cı ildə SSRİ Millətlər Cəmiyyətindən qovuldu.

Qarşısının alınmadığını görən Almaniya qərb ölkələrinə zərbə endirmək qərarına gəldi. Beləliklə, Fransa və İngiltərənin apardığı "qəribə müharibə" onların özlərinə qarşı çevrildi. 1940-cı ilin aprelində Almaniya strateji cəhətdən əhəmiyyətli olan Danimarka və Norveçə zərbə endirdi. Aprelin 9-da Kopenhagen və Oslodakı alman səfirləri hadisələrə ingilis-fransız müdaxiləsinin qarşısını kəsmək üçün Danimarka və Norveçin tutulmasını qəbul etməyi yerli hökumətlərdən tələb etdilər. Danimarka bu tələbi yerinə yetirdi. Norveç hökuməti isə əvvəlcə ölkənin şimalına, sonra Böyük Britaniyaya köçdü. İngilislərin Almaniyanın qarşısını kəsmək cəhdi uğursuz oldu. Norveçin tutulması Almaniyanın

dənizdə mövqelərini möhkəmləndirdi.

1940-cı il mayın 10-da Almaniyanın Belçika və Hollandiyaya hücumu, ingilis-fransız ordularının Qərbi Avropada məğlubiyyətə uğradılması Avropada ciddi narahatlığa səbəb oldu. Niderland hökuməti ölkəni tərk etdi, ordu isə məğlub oldu. Mayın 28-də Belçika da məğlubiyyətə uğradıldı. Almaniya Belçika, Hollandiya və Lüksemburq ərazisindən keçərək Fransaya hücuma hazırlaşdı. İyunun 5-də Fransa üzərinə hücum başladı. Vəziyyəti belə görən Böyük Britaniya və Fransa İtaliyanın rəhbəri Mussolininin vasitəçiliyi ilə kompromis axtarmağa çalışsalar da bu cəhdlərin elə bir nəticəsi olmadı. Əvəzində İtaliya hökuməti 1940-cı il iyunun 10-da Fransaya müharibə elan etdi. Böyük Britaniya Fransanın məğlub edilməsinə şübhə ilə yanaşmadığından mövcud vəziyyətdən çıxmaq üçün yollar axtarmağa başladı. İngilis hökumətinin Almaniyaya qarşı Fransa ilə vahid hərbi komandanlıq yaratmaq barədə təklifi fransız hakim dairələri tərəfindən rədd edildi. Fransada Peten hökuməti Almaniyaya barışıq barədə müraciət edərək müharibəni dayandırdığını, bu zaman İngiltərədə olan fransız hökumətinin üzvü Şarl de Qoll isə Londonda radio ilə çıxış edərək Almaniyaya qarşı müharibənin davam etdirilməsinin zəruriliyini bildirdi. Fransız hökuməti Vişiyə köçdü. İyunun 14-də Almaniya orduları Parisi işğal etdi. Hitlerin əsas məqsədi Fransada almanpərəst rejimi hakimiyyətə gətirmək, Avropada Almaniya başda oldmaqla "yeni qayda" yaratmaq, Fransanı bir sıra mülklərindən məhrum etmək, Böyük Britaniya ilə əlverişli sülh bağlamaqla üstünlük qazanmaq idi.

Fransa hökumətindən fərqli olaraq Böyük Britaniya Almaniya qarşısında güzəştə getmək istəmirdi. 1940-cı il iyunun 22-də Almaniya ilə Fransa arasında birinci dünya müharibəsində Almaniyanın məğlubiyyətinə dair sənədin imzalandığı Kompyen meşəsində Retond dəmiryolu stansiyasındakı vaqonda bu dəfə Fransanın məğlub olması haqqında saziş imzalandı. Fransa hökuməti ağır barışıq şərtlərini qəbul etməyə məcbur oldu. Ölkə ərazisinin 2/3

hissəsi işğalçılar tərəfindən tutuldu; fransız hökuməti ölkə iqtisadiyyatını Almaniyanın ixtiyarına verdi. İyunun 24-də Romada İtaliya - Fransa sazişi imzalandı. Barışıq şərtlərinə görə Fransa ərazisinin xeyli hissəsi işğal zonalarına bölündü. Ölkənin əsas sənaye rayonları işğal edildi. Fransa yalnız 100 minlik ordu saxlaya bilərdi. Fransız hərbi əsirləri sülh bağlanana qədər Almaniyada saxlanılmalı idi. Lakin İtaliya Fransada işğal zonası ala bilmədi.

Avropada hərbi əməliyyatlar başlayandan sonra da Böyük Britaniya Uzaq Şərqdə Yaponiyanı "sakitləşdirmək" xəttini davam etdirirdi. Bununla belə, Yaponiya ilə ABŞ arasında Sakit okeanda kəskin ziddiyyətlər hökm sürürdü. ABŞ Uzaq Şərq və Sakit okean regionunda Yaponiyanın güclənməsinin əleyhinə idi. 1940-cı ilin yayından başlayaraq Cənub-Şərqi Asiya və Sakit okean rayonunda Yaponiyanın təcavüzkarlıq hərəkətləri genişləndi. Bu isə ABŞ-ın mənafelərinə zidd idi.

Müharibənin başlanması Latın Amerikası ölkələrinə də müvafiq təsir etdi. Hərbi əməliyyatlar bu ölkələrin Avropa ilə ənənəvi təsərrüfat əlaqələrini zəiflətdi və qərb yarımkürəsində ABŞ-ın rolunun artması üçün əlverişli şərait yaratdı. Müharibə başlayan kimi Panamerika ittifaqı sistemində yeni daimi xarici siyasət orqanı yaradıldı. Bu, xarici işlər nazirlərinin məşvərət məclisi oldu. Məşvərət məclisinin 1939-cu il sentyabrın 23-də Panamada keçirilən birinci toplantısında Amerika qitəsi dövlətlərinin müharibədə bitərəfliyi haqqında bəyannamə qəbul edildi. Latın Amerikası dövlətləri hərbi əməliyyatların qitəyə buraxılmamasına tərəfdar çıxdılar. Təhlükəsizlik zonası haqqında əsasnamə pozulardısa qitə dövlətləri fərdi və kollektiv tədbirlər görməli, fəaliyyətlərini əlaqələndirməli idilər. Avropada aparılan müharibə Almaniyanın Latın Amerikasındakı mövqelərini xeyli zəiflətdi. Belə şəraitdə Latın Amerikası ölkələri daha çox ABŞ-la əlaqələrini sıxlaşdıraraq onun ətrafında birləşməyə başladılar. Qitə dövlətlərinin ikinci məsləhət məclisi 1940-cı il iyulun 21-30-da Havanada keçirildi. Müşavirədə müzakirə edilən əsas məsələ Avropa dövlətlərinin

Amerika qitəsindəki mülkləri barədə idi. Bu məsələ ilə bağlı iki yekun sənədi qəbul edildi: Amerika qitəsindəki Avropa müstəmləkələri və mülklərinin müvəqqəti idarə edilməsi haqqında konvensiya və buna əlavə konvensiya. Bu sənədlərə görə qitə dövlətləri üçün təhlükə olardısa onlar həmin ərazilərin idarə edilməsini Amerika dövlətlərarası ərazi idarəetmə komissiyasına verməli idilər.

Müşavirənin ikinci mühüm nəticəsi Amerika dövlətlərinin müdafiəsində qarşılıqlı yardım və əməkdaşlıq haqqında bəyannamənin qəbul edilməsi oldu. Bəyannamə qitə dövlətləri arasında məsləhətləşmələri, qarşılıqlı yardımı və ölkələrdə ciddi qayda-qanunun yaradılmasını nəzərdə tuturdu.

Belə şəraitdə Almaniyanın Avropada təcavüzkarlığı daha da genişləndi. Almaniyanın Avropada təcavüzünün genişlənməsi ilə paralel olaraq SSRİ 1940-cı ilin yayında Bessarabiya, Şimali Bukovina, Litva, Latviya və Estoniyanı işğal etdi.

Beləliklə, 1940-cı ilin ortalarınadək Almaniyanın Avstriya, Çexoslovakiya, Polşa, Danimarka, Norveç, Hollandiya, Belçika, Lüksemburq və Fransanı işğal edərək böyük silah cəbbəxanası, hərbi sənaye, metallurgiya, sənayenin digər mühüm sahələri və insan ehtiyatını əlinə keçirməsi, Qərbi Avropada hərbi qələbələr qazanması bütün Avropa üzərində şəriksiz hegemonluq yaratmaq iddialarını gücləndirdi. Lakin Avropada tam hegemon olmaq yolunda SSRİ və Böyük Britaniya başlıca əngəl olaraq qalırdılar. Sovet İttifaqına qarşı müharibəyə hazırlıq tam məxfi şəkildə aparılırdı. Almaniya əvvəlcə Sovet İttifaqını məğlub etmək, sonra isə Böyük Britaniya ilə problemlərini həll etmək niyyətində idi. Fransanın müharibədən çıxması Böyük Britaniyanın vəziyyətini xeyli ağırlaşdırdı. Ona görə də Almaniya hökuməti Böyük Britaniyaya 1940-cı il iyulun 19-da müharibəni davam etdirməmək və sülh bağlamaq barədə təklif etdi. İngilis hökuməti bu təkliflərdən imtina edərdisə, Almaniya Britaniya imperiyasını tamamilə darmadağın və məhv etməklə hədələdi. Lakin ingilis hökuməti çətin vəziyyətdə

olmasına baxmayaraq Almaniyanın bu hədələrini rədd etdi. Belə olduqda Almaniya rəhbərliyi "Dəniz aslanı" adı altında İngiltərəyə qarşı hücum planını işləyib hazırladı. Bu plan İngiltərənin tez bir zamanda məğlub edilməsini nəzərdə tuturdu. 1940-cı ilin avqustundan oktyabrınadək "İngiltərə uğrunda döyüş" getdi. Almaniya aviasiyası Londonu və digər ingilis şəhərlərini bombardman etdi. Döyüşün birinci mərhələsi avqustun 8-dən 18-dək, ikinci mərhələsi isə avqustun 24-dən sentyabrın 7-dək davam etdi. Dənizdə də ağır döyüşlər getdi. Almaniya İngiltərənin su ilə olan xarici əlaqələrini qırmağa çalışsa da istəyinə çata bilmədi. Alman sualtı qayıqları hər ay təxminən 100 ingilis ticarət gəmisini batırırdı. İngiltərə üçün çətin vəziyyət yarandı. Belə ağır vəziyyətdə ingilis xalqı qəhrəmanlıq nümunəsi göstərdi. Almaniya bu döyüşlərdə hərbi uğur qazana bilmədi. "İngiltərə uğrunda döyüş" başa çatdı. Almanlar 1733 təyyarə, ingilislər isə 915 təyyarə itirdilər. Bundan sonra Almaniya əsas diqqətini Şərq istiqamətinə yönəltdi. Almaniyanın müttəfiqi olan İtaliya Yunanıstana soxulsa da ingilislərin yardımı nəticəsində yunanlar onları qovdu.

Həbəşistandakı italyan orduları 1941-ci il mayın 18-də ingilis ordularına tabe oldular. İngiltərə Afrikada İtaliyaya qarşı hərbi əməliyyatlara başladı. 1940-cı ilin iyulunda İtaliya orduları işğal etdikləri Somalidən və Keniyanın bir hissəsindən çıxdılar. İtaliya yalnız Liviyada qala bildi. Bundan sonra Almaniya Yaponiya və İtaliya ilə əlaqələrini daha da gücləndirdi. 1940-cı il sentyabrın 9-da Tokioda başlanan danışıqlar sentyabrın 27-də Almaniya-Yaponiya-İtaliya hərbi paktının (buna "Üçlər paktı" və ya "Üç dövlət paktı" da deyilir) imzalanması ilə başa çatdı. "Üç dövlət paktı"na görə Yaponiya Almaniya və İtaliyanın Avropada, İtaliya və Almaniya isə Yaponiyanın Şərqi Asiyada "yeni qayda" yaratmaq istəklərinə hörmət və lazım gəldikdə isə hərtərəfli yardım etməli idilər. Danışıqların gedişində bir sıra məxfi sazişlər də imzalandı. Dövlətlər arasında ümumi, hərbi və iqtisadi komissiyalar yaradıldı. Ümumi komissiya Tokio, Berlin və Romada

çalışmalı idi. Bu komissiyanın məqsədi üç ölkənin siyasətini əlaqələndirmək, hərbi və iqtisadi komissiyaların məqsədi isə müharibənin birgə aparılması və qarşılıqlı iqtisadi yardım problemlərini həll etmək idi. "Üçlər paktı"nın və ya ittifaqının imzalanması təcavüzkar dövlətlərin hərbi blokunu tamamilə formalaşdırdı. Blokun əsas məqsədi dünya ağalığına sahib olmaq idi. Az sonra pakta yeni dövlətlər qoşuldu. Bolqarıstan 1940-cı il noyabrın 17-də (bu haqda məlumat yalnız 1941-ci il martın 1-də verildi), Macarıstan noyabrın 20-də, Rumıniya noyabrın 23-də, Slovakiya isə noyabrın 24-də "Üçlər paktı"na qoşuldular.

## Antihitlerçi koalisiyasının yaradılması və möhkəmləndirilməsi

Almaniyanın Avropadakı hərbi uğurları və Yaponiyanın Asiyadakı təcavüzkarlığının genişlənməsi qüvvələr nisbətinə təsir etdi. Deyildiyi kimi, Fransanın məğlub olması ilə Böyük Britaniya özünün başlıca müttəfiqini itirdi. Belə şəraitdə ingilis hökuməti iki yol qarşısında qalmışdı: ya Almaniya ilə kompromisə getməli, ya da ABŞ-la əməkdaşlıq edib müharibəni davam etdirməli idi. Təcavüzkarla barışmayan Böyük Britaniya ABŞ-la əməkdaşlıq yolunu tutdu. 1940-cı il sentyabrın 2-də iki ölkə arasında imzalanan sazişə görə ABŞ Böyük Britaniyaya 50 gəmi, Baham, Yamayka, Antil və b. adalarda yerləşən hərbi-dəniz və hərbi-hava bazalarını 99 il müddətinə icarəyə verdi. Avropada Almaniyanın təcavüzünün genişlənməsi ilə bərabər Uzaq Şərqdə Yaponiya da hərbi əməliyyatlara başladı. 1940-cı il sentyabrın 23-də yapon orduları Hind-Çinin şimal hissəsini işğal etdi. Yaponiya İndoneziya və Filippini tutmağı planlaşdırdı. Bu isə ABŞ, İngiltərə və Hollandiyanın mənafelərinə zərbə vurmaq demək olduğundan qəti etirazla qarşılandı. ABŞ Almaniya bloku ölkələrinə qarşı müharibədə Böyük Britaniyaya maddi və hərbi kömək edərək donanmasından hərbi gəmiləri onun ixtiyarına verdi. 1940-ci ilin birinci

yarısından başlayaraq Avropada mövcud olan vəziyyət antihitlerçi koalisiya üçün əlverişli şərait yaratdı.

Hərbi əməliyyatların aparıldığı bir vaxtda, 1940-cı ilin noyabrında Berlində sovet-alman danışıqları keçirildi. Almaniya "Üçlər paktı"na daxil olmağı SSRİ-yə təklif etdi. Paktın yeni redaksiyası təqdim olundu. Buna görə Almaniya Avropa və Mərkəzi Afrikada, İtaliya Avropa, Şimali və Şimal-Şərqi Afrikada, Yaponiya isə Şərqi Asiyada nüfuz qazanmalı idi. Sovet İttifaqına Hind okeanı istiqamətində nüfuz dairəsi verilməsi nəzərdə tutulurdu. Almaniyanın bu məsələdə başlıca məqsədi Şərqi Asiya və Orta Şərqdə SSRİ ilə Böyük Britaniyanı toqquşdurmaq idi. Bu təklifə razı olan sovet hökuməti bir sıra şərtlər irəli sürdü: Almaniya hökuməti öz ordularını Finlandiya və Rumıniyadan çıxarsın; SSRİ ilə Bolqarıstan arasında qarşılıqlı yardım haqqında pakt imzalansın; Batum və Bakıdan İran körfəzinə qədər ərazi SSRİ-nin nüfuz dairəsi sayılsın; Bosfor və Dardaneldə SSRİ-nin dəniz və quru bazaları yaradılsın, Yaponiya Şimali Saxalində daş kömür və neft konsessiyalarından imtina etsin və s. Lakin Almaniya bu şərtləri qəbul etmədi. Danışıqlar düyünə düşdü. Münasibətlər kəskinləşdi. Artıq SSRİ ilə müharibə labüd idi. 1940-cı il dekabrın 5-də Almaniya rəhbərliyi SSRİ-yə hücum planını müzakirə etdi. SSRİ-yə qarşı 1941-ci ildə müharibəyə başlamaq haqqında qərar qəbul olundu. Hitler 1940-cı il dekabrın 18-də "Barbarossa planı" adlanan planı təsdiq etdi. Plan "ildırım sürətli müharibə"də qələbəni nəzərdə tuturdu.

1941-ci martın 11-də ABŞ konqresi Lend-liz haqqında qanun qəbul etdi. Bu qanun prezidentə silahları, hərbi materialları və ərzağı icarəyə vermək, müdafiə məsələlərində digər dövlətlərə kömək etmək hüququ verdi. Bundan sonra ABŞ-Böyük Britaniya əlaqələri daha da genişləndi.

Almaniya öz nüfuz dairəsi kimi baxdığı Balkanlarda da fəallaşdı. 1941-ci il martın 25-də Vyanada Yuqoslaviyanın Almaniya blokuna qoşulması haqqında protokol imzalandı. Lakin

Yuqoslaviyada baş verən dövlət çevrilişindən sonra aprelin 6-da Almaniya Yuqoslaviya və Yunanıstana hücum edərək onları işğal etdi. Aprelin 17-də yuqoslav ordusunun məğlub olması haqqında akt imzalandı. Bundan sonra Liviyaya çıxarılan alman hissələri İtaliya orduları ilə birlikdə Misirdə ingilislərə qarşı döyüşə girdilər.

Balkan kampaniyasının sonuncu aktı ingilis ordularının tutduğu Krit adası uğrunda döyüş idi. Krit döyüşü müharibə tarixinə ən böyük hərbi-hava donanması döyüşü kimi daxil oldu. Almanlar adadan ingilisləri vurub çıxardılar. Kriti baza seçən Almaniya Aralıq dənizinin bütün şərq hissəsinə nəzarət etməyə başladı. Balkan yarımadası alman bloku dövlətləri arasında nüfuz dairələrinə görə bölündü.

Balkan kampaniyası qurtardıqdan sonra Avropada üç bitərəf və müstəqil dövlət - İsveç, İsveçrə və İrlandiya qaldı.

Avropanın şərqində Almaniyanın planlarının həyata keçirilməsinə başlıca maneə yalnız SSRİ idi. 1941-ci il iyunun 22-də səhər tezdən Almaniya SSRİ üzərinə hücum etdi. Sovet İttifaqı üçün Böyük Vətən müharibəsi başlandı. Almaniya SSRİ-yə qarşı 5 mln. nəfərlik ordu çıxardı. Alman hökuməti bəşəriyyəti bolşevizm təhlükəsindən xilas etmək niyyətində olduğunu bəyan edərək hərbi əməliyyatları daha da genişləndirdi. Hitlerin işğalçılıq planlarında Azərbaycanın təbii sərvətlərinə, ilk növbədə Bakı neftinə yiyələnmək xüsusi yer tuturdu. Çünki bu zaman sovet neft istehsalının 80%-i, emalının isə 65%-i Qafqazda idi. Sovet ordu hissələrinin tərkibində döyüşən yüz minlərlə azərbaycanlı faşizmə qarşı mübarizədə qəhrəmanlıq nümunələri göstərdi. Bütövlükdə Azərbaycan xalqı faşizm üzərində qələbəyə böyük töhfə verdi. Bu hücum dünyada qüvvələr nisbətini dəyişdirdi. Almaniya ilə bərabər müttəfiqləri olan Rumıniya, Finlandiya, İtaliya, növbəti gün Slovakiya, iyunun 27-də isə Macarıstan SSRİ-yə qarşı müharibəyə qoşuldular. Sovet İttifaqına qarşı müharibənin başlanması Böyük Britaniya və ABŞ-da pis qarşılandı. İyunun 22-də U.Çerçil, iyunun 24-də isə F.Ruzvelt Sovet İttifaqına kömək edəcəklərini bəyan etdilər.

1941-ci il iyulun 12-də Moskvada SSRİ və Böyük Britaniya hökumətləri Almaniyaya qarşı müharibədə birgə fəaliyyət göstərəcəkləri və yardım edəcəkləri haqqında iki maddədən ibarət saziş imzaladılar. Beləliklə, antihitlerçi koalisiyanın formalaşmasının əsası qoyuldu. Bununla yanaşı olaraq Sovet İttifaqı 1941-ci il iyulun 18-də Londondakı mühacir çex hökuməti, iyulun 30-da isə polyak hökuməti ilə müharibədə birgə fəaliyyət göstərəcəklərinə dair sazişlər imzaladı.

Müharibə başladıqdan sonra Amerika Birləşmiş Ştatları 1937-ci il avqustun 4-də imzalanmış sovet-amerikan ticarət sazişinin müddətini uzatdı, avqustun 2-də isə SSRİ-yə iqtisadi yardım göstərəcəyini rəsmi şəkildə bəyan etdi.

1941-ci il avqustun 9-12-də Nyufaundlend sahillərindəki Ardjentiya buxtasında ABŞ prezidenti Ruzvelt və Böyük Britaniyanın baş naziri Çerçil görüş keçirdilər. Görüşdə müharibədə qarşılıqlı fəaliyyət göstərilməsi və Almaniyaya qarşı müharibədə başlıca məqsədlər və müharibədən sonrakı dünya quruluşu məsələlərində bu dövlətlərin mövqeyi müzakirə edildi. Avqustun 14-də "Atlantika xartiyası" deyilən sənəd qəbul edildi. Sənəddə aşağıdakı ümumi prinsiplər elan edildi: bu dövlətlər ərazi iddialarına can atmırlar; hər hansı ərazi-sərhəd dəyişikliklərinə imkan verməyəcəklər; bütün xalqların öz müqəddəratını təyin etmə hüququna tərəfdardırlar; Almaniya məğlub ediləcək və nasional-sosializm rejimi tam məhv ediləcəkdir; dövlətlər mübahisəli məsələləri zor gücünə həll etməyəcəklər; dəniz və okeanlarda gəmilər sərbəst üzəcəklər; səmərəli əməkdaşlıq ediləcəkdir.

Beləliklə, "Atlantika xartiyası"nda dünyanın müharibədən sonrakı quruluşuna dair bir sıra demokratik və mütərəqqi prinsiplər əks olundu. SSRİ bu xartiyaya qoşuldu.

SSRİ-yə hücum zamanı Almaniya demək olar ki, bütün Qərbi Avropa ölkələrinə nəzarət edirdi. Almaniya və onun müttəfiqlərinin ərazisində 290 mln. əhali yaşayırdı. Bu ölkələrdə güclü hərbi-iqtisadi potensial mövcud idi. İkinci dünya müharibəsi ərəfəsində

Almaniya İranda tutduğu ciddi mövqeləri SSRİ-yə hücumdan sonra xeyli möhkəmləndirərək Sovet İttifaqının cənub sərhədləri üçün təhlükə törətməyə başladı. Belə vəziyyət SSRİ və Böyük Britaniyanı Almaniya təhlükəsinə qarşı birgə tədbirlər görməyə sövq etdi. SSRİ hökuməti Azərbaycan və Türkmənistana Almaniya tərəfdən ola biləcək hücumların qarşısını almaq və Bakı neft mədənlərinin təhlükəsizliyini qorumaq üçün hərəkətə keçdi. Verilən bəyanatlardan sonra 1941-ci il avqustun 25-də sovet qoşunları İrana daxil olaraq Güney Azərbaycanı tutdu. Yalnız 1942-ci il yanvarın 29-da SSRİ, Böyük Britaniya və İran arasında müvafiq müqavilə imzalandı. Müqaviləyə görə SSRİ və Böyük Britaniya İranın suverenliyini və müstəqilliyini qoruyacaqlarını, ona iqtisadi yardım göstərəcəklərini bildirdilər. Böyük hərbi-siyasi əhəmiyyət daşıyan bu müqavilə antihitlerçi koalisiya ölkələri ilə İranın əlaqələrini genişləndirdi.

Bundan sonra SSRİ, ABŞ və Böyük Britaniya münasibətləri daha da inkişaf etdi. 1941-ci il sentyabrın 29-dan oktyabrın 1-dək Moskvada üç dövlət nümayəndələrinin konfransı keçirildi. Konfransda Sovet İttifaqına ABŞ və Böyük Britaniya silahlarının, sənaye məhsullarının və ərzağınının göndərilməsi məsələsi müzakirə edilərək müvafiq protokol imzalandı. Moskva konfransı antihitlerçi koalisiyanın yaradılması və möhkəmləndirilməsində mühüm rol oynadı.ABŞ Lend-liz haqqında qanuna əsasən noyabrın 7-də SSRİ-yə 1 mlrd. dollar istiqraz verdi.

1941-ci ilin qışında Moskva altında sovet və alman orduları arasında döyüşlər getdiyi bir zamanda Yaponiya Sakit okeanda ABŞ-a qarşı hərbi əməliyyatlara başladı. 1941-ci il dekabrın 7-də yapon hərbi-dəniz və hərbi-hava qüvvələri ABŞ-ın Perl Harbordakı bazasını bombardman etdi. Hücum nəticəsində ABŞ 18 iri, başqa bir neçə kiçik gəmi və təyyarə itirdi. ABŞ müharibəyə girdi. Az sonra Yaponiya hissələri Sakit okeandakı Böyük Britaniya eskadriyasını da bombardman etdi. Çin 1941-ci il dekabrın 9-da rəsmi şəkildə Yaponiya və Almaniyaya müharibə elan etdikdən

sonra əlverişli beynəlxalq şərait qazandı. Uzaq Şərq və Sakit okean regionunda Çinin rolu xeyli artdı. Bununla yanaşı olaraq Hindistan, Avstraliya və Yeni Zelandiyanın beynəlxalq münasibətlərdə nüfuzu gücləndi. 1941-ci il dekabrın 11-də Almaniya və İtaliya ABŞ-a müharibə elan etdilər. Asiyanın dərinliklərinə doğru Yaponiyanın irəliləməsi Böyük Britaniya mənafelərinə zərbə vurduğundan ingilis diplomatiyasının bu region dövlətləri ilə əməkdaşlığı daha da genişlənirdi. Sakit okeanda Yaponiyanın rolunu azaltmağa çalışmaq məqsədi ilə 1941-ci il dekabrın 19-da ABŞ, Böyük Britaniya və Çin hərbi nümayəndələrinin Çunçində keçirilən konfransında hərbi əməliyyatları əlaqələndirmək barədə razılığa gəlindi. 1941-ci ilin sonu - 1942-ci ilin əvvəllərində Yaponiya Filippin, Tailand, Birma, Sinqapur və İndoneziyanı işğal etdi. Beləliklə, Yaponiya Sakit okean, Uzaq Şərq və Cənub-Şərqi Asiyadakı ABŞ, Böyük Britaniya və Hollandiya mülklərini tutdu. Bu vəziyyət antihitlerçi koalisiyanın formalaşdırılması və möhkəmləndirilməsini daha da sürətləndirdi. Böyük Britaniya SSRİ-yə yardım göstərəcəyinə dair yeni saziş imzaladı. İngilis hökuməti 1941-ci ilin dekabr ayında Almaniyanın müttəfiqlərinə müharibə elan etdi.

Yaponiyanın Perl-Harbora hücumundan sonra Latın Amerikası və Karib dənizi hövzəsi ölkələri (Qvatemala, Honduras, Kosta-Rika, Nikaraqua, Panama, Salvador, Haiti, Dominikan Respublikası və Kuba) 1941-ci il dekabrın 8-12-də Almaniya bloku dövlətlərinə müharibə elan etdilər. Dekabr ayında Venesuela, Kolumbiya və Meksika "ox" ölkələri ilə diplomatik münasibətlərini kəsdilər. Latın Amerikası ölkələrinin hərbi əməliyyatlarda iştirak etmələrini arzulamalarına baxmayaraq ABŞ buna imkan vermədi. Çünki onların müharibədə iştirakı vəziyyəti ağırlaşdırar və ABŞ-ın qayğılarını artırardı. Həmin ölkələr müttəfiqləri əsasən ərzaq və digər məhsullarla təmin etməli idi. Hərbi əməliyyatlarda yalnız Braziliya və Meksika iştirak etdilər.

1941-ci ilin dekabrında Moskva altında Almaniya ordu hissələrinin məğlub edilməsi antihitlerçi koalisiyanın beynəlxalq vəziy-

yətinə müsbət təsir göstərdi. 1941-ci il dekabrın 22-dən 1942-ci il yanvarın 14-dək Vaşinqtonda ABŞ və Böyük Britaniya rəhbərlərinin görüşündə "Arkadiya" adı altında müharibənin birgə strateji planını işləyib hazırlamaq, Sakit okeanda və Şimali Afrikada əməliyyatları aparmaq məsələləri müzakirə edildi. Konfransın yekununda tərəflər Almaniyanın başlıca düşmən olaraq qaldığını təsdiq edərək "ox" dövlətlərinə qarşı birgə hərbi əməliyyatlar aparmaq planının layihəsini işləyib hazırladılar.

1942-ci il yanvarın 1-də Vaşinqtonda 26 ölkənin nümayəndələri "Birləşmiş Millətlərin bəyannaməsi"ni imzaladılar. Bəyannamədə bu sənədi imzalayan ölkələrin hökumətlərinin Almaniya bloku dövlətlərinə qarşı özlərinin bütün iqtisadi və hərbi ehtiyatlarını birləşdirəcəkləri və düşmənlə separat sülh bağlamayacaqları bildirildi. Sənəd antihitlerçi blokunu daha da genişləndirdi və möhkəmləndirdi.

1942-ci il yanvarın 15-29-da Rio-de-Janeyroda Amerika dövlətlərinin xarici işlər nazirlərinin üçüncü məsləhət məclisi keçirildi. Məclisdə "ox" ölkələri ilə diplomatik münasibətlərin kəsilməsi barədə məsələ müzakirə edildi. Amerika qitəsində "ox" dövlətlərinin təxribatçılıq hərəkətlərinə qarşı birgə fəaliyyəti gücləndirmək qərara alındı. Bu ölkələrə gəliş-gediş ciddiləşdirildi. Qəbul edilən qətnaməyə uyğun olaraq siyasi müdafiə üzrə fövqəladə məsləhət komitəsi yaradıldı. Müşavirədə müharibə dövründə Latın Amerikası ölkələrinin xammal bazası rolu oynaması bir daha təsdiqləndi. ABŞ Latın Amerikasınının 16 ölkəsi ilə gömrük rüsumlarını qarşılıqlı azaltmaq haqqında saziş imzaladı. Müşavirənin nəticəsində Amerika dövlətlərarası müdafiə şurası yaradıldı. Müşavirədə müharibədən sonrakı dünya quruluşu məsələləri də müzakirə edildi. Beynəlxalq təhlükəsizlik məsələləri üzrə təşkilat yaratmaq tövsiyə olundu. Konfransdan sonra Latın Amerikasında ABŞ-ın rolu xeyli yüksəldi. Beləliklə, bütün Latın Amerikası ölkələri ABŞ-ın ətrafında Almaniya blokuna qarşı mübarizədə daha sıx birləşdilər. 1942-ci il aprelin 1-də ABŞ prezidenti Ruzvelt Qərbi Avropada hərbi

əməliyyatların aparılmasına dair strateji planı təsdiq etdi.

1942-ci il mayın 26-da Londonda Almaniyaya və onun müttəfiqlərinə qarşı müharibədə ittifaq, müharibədən sonra isə əməkdaşlıq haqqında sovet-ingilis, iyunun 11-də isə sovet-amerikan müqavilələrinin imzalanması antihitlerçi koalisiyanı möhkəmləndirdi. Tərəflər bir-birilərinə qarşılıqlı yardım göstərmək barədə öhdəlik götürdülər. Beləliklə, bu sənədlər antihitlerçi koalisiyanın formalaşmasını başa çatdırdı. Braziliya da 1942-ci il avqustun 22-də Almaniya və İtaliyaya müharibə elan etdi. Alman bloku ölkələrinə qarşı ikinci cəbhənin açılması məsələsinin müzakirəsi daha zəruri oldu.

## Müharibənin ikinci dövrü.
## İkinci cəbhə haqqında məsələ

Müharibənin gedişində ikinci dövr 1942-ci ilin iyunundan 1944-cü ilin yayınadək davam etdi. 1942-ci ildə ikinci cəbhənin açılması haqqında məsələ ABŞ, Böyük Britaniya və SSRİ münasibətlərində mühüm yer tutdu. İkinci cəbhənin açılması Almaniya bloku ölkələrinin məğlub edilməsinə və müharibənin tezliklə başa çatmasına kömək edərdi. ABŞ-ın müharibəyə qoşulmasından sonra Avropada ikinci cəbhənin açılması məsələsi üçtərəfli məna kəsb etməyə başladı. Aparılan üçtərəfli yazışmalar 1942-ci ilin may-iyun aylarında V.M.Molotovun Vaşinqtona və Londona, Böyük Britaniyanın baş naziri U.Çerçilin isə 1942-ci ilin avqustunda Moskvaya səfərləri zamanı müzakirə edildi. Lakin ikinci cəbhənin açılması məsələsinin müzakirəsi heç də rəvan getmirdi. Bununla belə, sovet-amerikan, sovet-ingilis bəyannamələrində tərəflər Avropada ikinci cəbhənin açılmasının vacibliyini göstərdilər.

Üçtərəfli münasibətlərdə SSRİ-yə ABŞ və Böyük Britaniya yardımlarının göstərilməsi mühüm əhəmiyyət kəsb etdi. Bu yardımlar həm antihitlerçi koalisiyanı möhkəmləndirdi, həm də

sovet-alman cəbhəsindəki vəziyyəti müttəfiqlərin xeyrinə gücləndirdi.

1942-ci ilin yayında vəziyyətin ağırlığını görən Almaniya rəhbərliyi əsirlikdə olan müxtəlif millətlərin nümayəndələrindən ibarət legioner dəstələr yaratmağa başladı. Bunlardan biri, əsirlikdə olan türk xalqlarından ibarət heç də könüllü olmadan yaradılan 162-ci Türküstan diviziyası SSRİ-yə qarşı hərbi əməliyyatlarda iştirak etdi. Bu zaman Almaniyada əsirlikdə olan təxminən 70 min azərbaycanlının 20-25 mini diviziyanın tərkibində sovet hissələrinə qarşı döyüşlərdə iştirak etdilər. Lakin bu, azərbaycanlıların nasional-sosializmlə qətiyyən ittifaq qurmaları demək deyildi. Onları yalnız bolşevizmə olan ümumi nifrət birləşdirirdi. Bu zaman Almaniyaya dəvət olunan M.Ə.Rəsulzadə və Azərbaycan mühacirətinin digər nümayəndələri təkcə azərbaycanlıları nasizim fəlakətindən qurtarmaqla kifayətlənmədilər, eyni zamanda müharibənin gələcək yekunlarından respublikanın müstəqilliyini bərpa etmək üçün istifadə etməyə çalışdılar. Lakin Azərbaycanın müstəqilliyi məsələsində Almaniya rəhbərliyi ilə ixtilaf yarandığından o, bu ölkəni tərk etdi. Qeyd etmək lazımdır ki, əsirlikdə olan bir sıra yəhudilər də azərbaycanlı ad-familiyası götürməklə canlarını nasizim fəlakətindən qurtardılar.

1942-ci ildə və 1943-cü ilin əvvəllərində Atlantik okeanında kommunikasiyaları ələ keçirmək uğrunda alman donanması total dəniz müharibəsinə başladı. 1943-cü ilin martında Amerika sahillərində ən böyük dəniz döyüşü oldu. Döyüşdə 40-dək alman sualtı qayığı iştirak edirdi. Onlar rəqibin 21 gəmisini batırdılar. Lakin sualtı qayıqlardan müdafiə olunmağın mükəmməl texnikasına sürətlə yiyələnən amerikanlar itkilərini azaltdılar. Nəticədə Almaniya böyük sualtı müharibədə uğursuzluğa düçar oldu. "Atlantika uğrunda döyüş" başa çatdı.

1942-ci ilin iyunundan 1943-cü ilin fevralınadək müharibənin Sakit okean teatrında həlledici hadisələr baş verdi. Yapon donanması Havay adaları istiqamətində amerikan qüvvələrinə qarşı hü-

cum etsə də qarşısı alındı, dörd yapon gəmisi batırıldı. Yüzlərlə yapon təyyarəçisi öldürüldü. Yaponiyanın hərbi qüdrətinə zərbə vuruldu. 1943-cü ilin fevralında yapon donanmasının Solomon adalarından vurulub çıxarılması ilə Sakit okeanda müharibədə əsaslı dönüş başa çatdı.

Avqust ayında yapon donanmasının etdiyi növbəti cəhd də uğursuz nəticələndi.

Antihitlerçi koalisiyanın üzvü olan dövlətlər Afrikada da uğur qazandılar. 1942-ci ildə Almaniyanın qərbdən bir sıra diviziyalarını ayırıb Şimali Afrikaya çıxarması müttəfiqlərin vəziyyətini çətinləşdirdi. Buna cavab olaraq 1942-ci ilin payızında ingilislər general Montqomeri başda olmaqla Misirdəki qüvvələrini gücləndirdilər. Oktyabrın 22-də ingilis orduları Əl-Əlameyn rayonundan "Məşəl" adı altında ümumi hücuma keçərək düşmənin qarşısını kəsdilər. Noyabrın 8-də general Eyzenhauer başda olmaqla Əlcəzairə ingilis-amerikan ordu hissələri çıxarıldı. Onlara qarşı Fransadakı Peten hökumətinin 200 minlik ordusu dayansa da müqavimət göstərə bilməyərək məğlub oldu. Afrikadakı əməliyyatların təkcə hərbi deyil, eyni zamanda mühüm diplomatik siyasi əhəmiyyəti var idi. Almaniya və İtaliya Afrikadakı fransız mülklərinin sərvətlərindən məhrum oldu. Fransa isə antihitlerçi koalisiyaya meyl etməyə başladı.

1942-ci ilin sonu-1943-cü ilin əvvəlində Stalinqrad ətrafında alman qüvvələrinin məğlub edilməsi antihitlerçi koalisiyanı gücləndirdi. Belə şəraitdə Almaniyanın müttəfiqlərindən olan İtaliya, Ruminiya və Macarıstanın antihitlerçi koalisiyaya daxil olan dövlətlərlə separat sülh bağlamaq cəhdləri uğursuzluqla nəticələndi.

Antihitlerçi koalisiyanın möhkəmləndirilməsində Kasablankada 1943-cü il yanvarın 14-24-də Ruzvelt və Çerçilin yüksək hərbi rəhbərlərin iştirakı ilə keçirdikləri görüşü mühüm rol oynadı. Konfransda müzakirə edilən əsas məsələ müttəfiqlərin apardığı hərbi əməliyyatların perspektivləri və Şimali Afrikada düşmən məğlub edildikdən sonra döyüşləri Avropanın cənubuna - İtaliya və

Yunanıstana keçirmək niyyətləri barədə idi. Konfransda siyasi problemlərə də diqqət yetirilərək Fransanı antihitlerçi koalisiyaya qoşmaq və fransız müqavimət hərəkatına yardım göstərmək məsələsi müzakirə edildi. Şarl de Qollun Kasablankaya gəlməsi fransız müqavimət qüvvələrinin nüfuzunun artdığını göstərdi. Konfrans iştirakçıları müharibədə Türkiyənin mövqeyi barədə məsələni də müzakirə etdilər. Tərəflər Türkiyəni Almaniya bloku ölkələrinə qarşı müharibəyə qoşmaq barədə qərar qəbul etdilər. Konfransda müstəmləkələrin müharibədən sonrakı taleyi, Sakit okeanda müharibənin aparılması və s. məsələlər də müzakirə edildi. Qəbul edilən bəyannamədə müharibə dövründə tərəflərin birgə fəaliyyət göstərməsi, hücum kampaniyasının planlaşdırılması və Almaniya bloku ölkələrinin danışıqsız təslim edilməsi prinsipi irəli sürüldü. 1943-cü il mayın 6-da ingilis-amerikan orduları Tunisə hücum etdilər. Almaniyanın Şimali Afrikadakı hərbi əməliyyatlara xüsusi diqqət ayırması müttəfiqlər tərəfindən Avropada ikinci cəbhənin açılmasını surətləndirdi. May ayında Vaşinqtonda görüşən Ruzvelt və Çerçil Avropada ikinci cəbhəni 1944-cü ilin mayınadək açmaq barədə razılığa gəldilər.

1943-cü il avqustun 14-24-də Kanadada (Kvebekdə) "Kvadrant" şərti adı altında keçirilən konfransda ABŞ-dan Ruzvelt, Böyük Britaniyadan Çerçil və Çindən Sun Çzı-Ven, yüksək hərbi və siyasi xadimlər iştirak etdilər. Konfransda müzakirə edilən əsas məsələ 1944-cü ildə Şimali Fransaya müttəfiq qoşunlarının çıxarılması və ikinci cəbhənin açılması idi. Konfrans qərargah rəislərinin birləşmiş komitəsinin yekun məruzəsini və ikinci cəbhənin açılmasına dair "Overlord" əməliyyatının ilkin planını üç mərhələdən ibarət olmaqla bəyəndi. Əməliyyata 1944-cü il mayın 1-də başlamaq qərara alındı. Konfransda Yaponiyaya qarşı müttəfiqlərin hərbi əməliyyatlara başlamaq planı təsdiq edildi. İngilis və amerikan hökumətləri Birləşmiş Millətlər Təşkilatının yaradılması haqqında ABŞ, Böyük Britaniya, Çin və SSRİ-nin birgə bəyannaməsinin mətnini hazırladılar. Konfransda Fransa Milli-Azadlıq Komitəsinin

bəyanatı, SSRİ, ABŞ və Böyük Britaniya xarici işlər nazirlərinin keçiriləcək görüşü haqqında məsələ müzakirə edilərək prinsipcə bəyənildi. İştirakçılar İtaliyanın təslim edilməsinin şərtlərini müzakirə etdilər.

1943-cü ilin yayında Kursk altında alman-faşist qoşunlarının darmadağın edilməsi, iyulun 10-da ingilis-amerikan ordu hissələrinin Sicilyaya çıxarılması və İtaliyanın lideri Mussolinin devrilməsi hərbi əməliyyatların aparılmasına ciddi təsir göstərdi. 1943-cü il sentyabrın 3-də müttəfiqlər Siciliya adasında Kassibilye adlanan yerdə İtaliya ilə qısa barışıq şərtlərini imzaladılar. Bundan sonra ABŞ və Böyük Britaniyanın İtaliya siyasətində dəyişiklik əmələ gəldi. İtaliya müttəfiqlərin strateji planlarında və Balkan siyasətini həyata keçirmələrində əsas baza rolunu oynamağa başladı. 1943-cü il sentyabrın 29-da Malta adasında Eyzenhayer və Badalyo İtaliyanın təslim olmasının geniş şərtlərini imzaladılar. Beləliklə, İtaliya Almaniya blokundan tamamilə ayrılaraq oktyabrın 13-də Almaniyaya müharibə elan etdi. İtaliyanın müharibədən çıxaraq Almaniyaya müharibə elan etməsi ilə "Berlin-Roma oxu" iflasa uğradı, Almaniyanın hərbi-siyasi vəziyyəti pisləşdi, beynəlxalq aləmdə təcrid olunması gücləndi və alman blokunun parçalanması sürətləndi. Vəziyyətdən çıxmaq üçün alman rəhbərliyi İtaliyaya ordu hissələri çıxartdı. 162-ci Türküstan diviziyası da Balkanlara yeridildi. Lakin bir çox azərbaycanlı burada yuqoslav və italyan partizanlarına qoşularaq faşizmə qarşı döyüşlərdə iştirak etdilər. Azərbaycan partizanlarının döyüş şücaəti partizan hərəkatı tarixində önəmli yer tutur.

Belə şəraitdə ikinci cəbhənin açılması məsələsi antihitlerçi koalisiyaya daxil olan dövlətlərdə də geniş müzakirə olunmağa başladı. Bu məsələyə həsr edilmiş konfransın hazırlanması, gedişi və nəticələri müttəfiqlərin münasibətlərində xüsusi yer tutdu. Konfransın keçiriləcəyi yer məsələsi müttəfiq dövlətlər arasında mübahisələrə səbəb oldu. Ruzvelt və Çerçil üç dövlət başçısının birinci konfransının keçiriləcəyi yer kimi Alyaskada Ferbenksi, İraqda

Bəsrəni və Bağdadı, Türkiyədə Ankaranı, Misirdə Qahirəni, Eritreyada Asmarı, Stalin isə İranda Tehranı təklif edirdilər. Bu məsələni hazırlamaqdan ötrü əvvəlcə üç dövlətin xarici işlər nazirlərinin Moskvada müşavirəsini keçirmək qərara alındı. Moskva konfransı 1943-cü il oktyabrın 19-30-da keçirildi. V.V. Molotov, K. Hell və A. İdenin iştirak etdiyi konfransda müvafiq qərarlar qəbul olundu. 1944-cü ilin yazında Fransaya ingilis-amerikan ordu hissələrinin çıxarılması ilə ikinci cəbhənin açılması, Türkiyəyə antihitlerçi blok dövlətləri tərəfindən müharibəyə qoşulması təklifinin edilməsi, bitərəf ölkə olan İsveçin öz hərbi bazalarını müttəfiqlərin ixtiyarına verməsi təklif edildi.

Almaniyanın gələcək quruluşu məsələsinin müzakirəsini Londonda yaradılacaq Avropa məsləhət komissiyasında keçirmək qərara alındı.

İtaliya haqqında qəbul edilən bəyannamədə ölkədə faşizmin kökünü kəsmək, hərbi caniləri cəzalandırmaq və italyan məsələsinə dair Məsləhət Şurası yaratmaq qərara alındı.

Avstriyanın müstəqilliyi və azad inkişafı, törədilən vəhşiliklərə görə hitlerçilərin məsuliyyəti, ümumi təhlükəsizlik məsələləri üzrə bəyannamələr qəbul edildi. Konfrans iştirakçıları beynəlxalq sülhü və təhlükəsizliyi qoruyan təşkilatın yaradılmasını zəruri saydılar.

Moskva konfransının qərarları antihitlerçi koalisiyasının möhkəmləndiyini təsdiq edərək üç dövlət başçısının birinci görüşü üçün zəmin hazırladı. Konfransın keçiriləcəyi yer ümumi razılığa uyğun olaraq Tehran müəyyənləşdirildi.

Stalin, Ruzvelt və Çerçilin iştirakı ilə "Evrika" şərti adı altında keçirilən Tehran konfransı 1943-cü il noyabrın 28-dən dekabrın 1-dək oldu. Konfransda dövlət başçıları ikinci cəbhənin açılması və müharibənin aparılması məsələlərini müzakirə edərək müvafiq qərarlar qəbul etdilər. Çerçil ikinci cəbhənin Aralıq dənizindən və Balkanlardan, Ruzveltlə Stalin isə Avropanın şimalından açılmasını təklif etdilər. Uzun müzakirələrdən sonra ikinci cəbhəni 1944-cü ilin mayında "Overlord" adı altında Fransanın şimalından və cənubun-

dan 35 ingilis-amerikan diviziyası çıxarmaqla açmaq barədə qərar qəbul olundu. Stalin Tehrana gedib-qayıdarkən yolüstü Bakıda oldu.

Müttəfiq dövlətlər Türkiyənin antihitlerçi koalisiya tərəfindən müharibəyə qoşulması və Yuqoslaviya partizanlarına yardım edilməsinə dair tədbir görəcəkləri barədə razılığa gəldilər.

Stalin Yaponiyanın bitərəflik haqqında sovet-yapon müqaviləsini pozmasını əsas götürərək Almaniya məğlub edildikdən iki-üç ay sonra SSRİ-nin bu ölkəyə müharibə elan edəcəyini bildirdi.

Konfransda Almaniyanın taleyi məsələsi müzakirə edildi. Üç dövlət başçısı Almaniya ərazisindən bir daha yeni müharibə törədilməməsi üçün tədbirlər görəcəklərini bəyan etdilər. Ruzvelt Almaniyanı beş dövlətə - Prussiya; Hannover və Almaniyanın şimal-qərb rayonları; Saksoniya və Leypsiq; Hessen əyaləti, Darmştadt, Kessel, Reyndən cənuba olan rayonlar, Vestfaliyanın qədim şəhərləri; Bavariya, Baden və Vürtenberqə bölməyi təklif etdi. Bundan başqa Almaniyadan Hamburq və Kil kanalı rayonu ayrılaraq ya Birləşmiş Millətlərin, ya da dörd dövlətin idarəçiliyinə verilməli idi. Rur və Saar vilayətləri də Birləşmiş Millətlərin nəzarətinə keçməli idi. Çerçil bu təklifi bəyəndi. Almaniya haqqında məsələ Avropa məsləhət komissiyasının müzakirəsinə verildi. Almaniyanın demokratikləşdirilməsi, hərbsizləşdirilməsi və ölkədə nasizmin kökünün kəsilməsi həyata keçirilməli idi. Buna çox vaxt "Üç D"-demokratikləşdirmə, demilitarizasiya və denasifikasiya da deyilir.

Konfransda Polşa haqqında məsələ də müzakirə edildi. Polşa dövlətinin sərhədlərini "Kerzon xətti" ilə Oder çayı boyunca ədalətli və tarixi həqiqətə uyğun həll etmək barədə qərar qəbul olundu. Həmçinin Keniqsberq və onun ətrafındakı rayonların SSRİ-yə verilməsi barədə prinsipcə razılıq əldə edildi.

İran, onun ərazisi və xalqlarının taleyi ilə bağlı məsələlərin müzakirəsi nəticəsində "Üç dövlətin İran haqqında bəyannaməsi" qəbul edildi. Tərəflər İranın tam müstəqilliyi, suverenliyi və ərazi toxunulmazlığını təmin etmək istəklərini bildirdilər. Avropada müharibə qurtardıqdan sonra tərəflər hərbi hissələrini İran əra-

*zisindən çıxarmaq* barədə razılığa gəldilər.

Konfransın böyük tarixi əhəmiyyəti var idi. Tehran konfransı müttəfiq dövlətlərin müharibənin tezliklə qurtarmasına yönəldilən birgə səylərini göstərdi və antihitlerçi koalisiyanı möhkəmləndirdi. O, Almaniya blokunun böhranının dərinləşdirilməsində mühüm rol oynadı.

Tehran konfransından sonra Çerçil və Ruzvelt 1943-cü il dekabrın 4-6-da Qahirədə görüşərək Avropa strategiyası ilə bağlı məsələləri müzakirə etdilər. Onlar "Overlord" və "Envil" (Cənubi Fransaya qoşun çıxarılmasının köməkçi əməliyyatı) adları altında keçiriləcək əməlyyatları 1944-cü ilin başlıca əməliyyatları olaraq qəbul etdilər.

## Müharibənin üçüncü dövrü. Almaniya və müttəfiqlərinin məğlub olması

Dünya müharibəsinin gedişində üçüncü dövr 1944-cü ilin yayından 1945-ci ilin sentyabrınadək olan müddəti əhatə edir. Bu müddətdə Almaniya bloku ölkələri zəiflədi, Mərkəzi və Cənub-Şərqi Avropa ölkələrini antifaşist hərəkatı bürüdü. Almaniyanın hərbi-strateji və iqtisadi vəziyyəti pisləşdikcə onun müttəfiqi olan ölkələrdə müharibədən çıxmaq və Almaniya ilə əlaqələri kəsmək barədə çağırışlar eşidilməyə başladı. Bu mərhələdə Almaniya və onun müttəfiqləri məğlub edildi. 1944-cü il iyunun 4-də müttəfiqlər Romaya daxil oldular. İtaliyanı üsyan və antifaşist hərəkat bürüdü.

1944-cü il iyunun 6-da Şimali Fransanın qərbində, Normandiya sahillərində La-Manş zonasında ingilis-amerikan aviasiyası düşmənin müdafiə mövqelərini bombardman edərək desant çıxardı. Hərbi əməliyyatlara 6 min gəmi cəlb edildi. Beləliklə, Avropada ikinci cəbhə amerikan generalı D.Eyzenhauer komandanlığı altında açıldı. İkinci cəbhənin açılması Almaniyanın beynəlxalq mövqelərini sarsıdaraq antihitlerçi koalisiyanı gücləndirdi və alman bloku ölkələrində çaşqınlıq yaratdı. 1944-cü il sentyabrın 7-də

Bolqarıstan Almaniya ilə münasibətləri rəsmi şəkildə kəsdiyini bildirərək və sentyabrın 8-də ona müharibə elan etdi. Müttəfiqlər Bolqarıstanla oktyabrın 26-28-də Moskvada keçirilən danışıqlarda barışıq sazişini imzaladılar. 1944-cü il sentyabrın 12-də Moskvada SSRİ, ABŞ və Böyük Britaniya adından Rumıniya ilə barışıq sazişi imzalandı. Sazişdən sonra Rumıniya Almaniyaya müharibə elan etdi.

1944-cü il sentyabrın 19-da Moskvada müttəfiqlərlə Finlandiya arasında keçirilən danışıqlarının nəticəsində barışıq sazişi imzalandı. Sənəddə Finlandiya ərazisinin hərbi cəhətdən işğalı nəzərdə tutulmamışdı. Barışığın şərtlərinə görə Finlandiya qoşunlarını sovet-fin sərhəddindən geri çəkməli, ərazisindəki Almaniya silahlı qüvvələrini tərksilah etməli, bəzi ərazilərini Sovet İttifaqına verməli və SSRİ-yə 300 mln. Amerika dolları həcmində təzminat ödəməli idi.

Belə şəraitdə BMT-nin yaradılması işi sürətləndirildi. 1944-cü il avqustun 21-dən sentyabrın 28-dək Vaşinqton yaxınlığındakı Dumbarton-Oksda ABŞ, Böyük Britaniya və SSRİ nümayəndələrinin konfransında Birləşmiş Millətlər Təşkilatının yaradılması haqqında məsələ müzakirə edildi. ABŞ nümayəndəsi K.Hell, Böyük Britaniya nümayəndəsi A.Kadoqan və SSRİ-nin ABŞ-dakı səfiri A.Qromıko başlıca məqsədi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaqdan ibarət olan BMT-nin yaradılması barədə razılığa gəldilər. Təşkilatın fəaliyyət prinsipləri müəyyənləşdirildi. Konfransın qərarlarına əsasən BMT-nin əsas orqanları Təhlükəsizlik Şurası, Baş Məclis, Beynəlxalq məhkəmə və katiblikdən ibarət olmalı idi. Bundan başqa İqtisadi və Sosial Şura yaratmaq qərara alındı. Təşkilata üzvlük və onların səlahiyyətləri barədə məsələlər də razılaşdırıldı.

1944-cü il sentyabrın 28-də konfrans iştirakçıları "Ümumi beynəlxalq təhlükəsizlik təşkilatının yaradılmasına dair təkliflər" adlı yekun sənədini imzaladılar. Bu sənəd BMT nizamnaməsinin əsasını təşkil etdi.

Almaniyanın gələcək taleyi məsələsi 1944-cü il oktyabrın 9-da

Böyük Britaniyanın baş naziri U.Çerçilin Moskvada SSRİ rəhbərləri ilə danışıqlarında müzakirə edildi. Danışıqlarda Çerçil Almaniyanı üç dövlətə - Prussiya, Saar vilayəti və Avstriya-Bavariya dövlətlərinə bölməyi təklif etdi. Lakin bu məsələ üç dövlət başçısının növbəti konfransınadək təxirə salındı.

Danışıqlarda Polşa məsələsi də müzakirə edildi. Tərəflər polyak mühacirət hökumətinin və Polyak Milli-Azadlıq Komitəsinin nümayəndələri ilə görüşdülər. Lakin Polyak Milli-Azadlıq Komitəsini SSRİ, mühacirət hökumətini isə Böyük Britaniya müdafiə etdiyindən, onların arasında ixtilaf yarandığından bu məsələ barədə heç bir razılığa gəlinmədi.

Danışıqlarda Balkan məsələsi müzakirə edildi. Tərəflər Yuqoslaviyada bütün səyləri işğaldan azad olunmağa yönəldəcəklərini bildirdilər. Balkan ölkələri SSRİ ilə Böyük Britaniya arasında nüfuz dairələrinə görə bölündü.

1944-cü il oktyabrın 11-də imzaladığı ilkin barışıq sazişinin şərtlərinə görə Macarıstan müharibədən çıxaraq Almaniyaya müharibə elan etdi. Macar hökuməti Çexoslovakiya, Yuqoslaviya və Rumıniya torpaqlarınının Macarıstan tərkibinə daxil edilməsi haqqında bütün əvvəlki qərarlarını ləğv etdi. Macarıstan sərhədləri bərpa olundu və bütün müttəfiq ölkələrin hərbi əsirləri tezliklə azadlığa buraxıldı. Macarıstanla yekun barışıq sənədi 1945-ci il yanvarın 20-də imzalandı.

1944-cü il oktyabrın əvvəllərində Almaniya ordusu Yunanıstanı və Albaniyanı tərk etdi. Yunanıstana ingilis orduları çıxarıldı. Norveç də azad edildi. Beləliklə, Almaniya Avropadakı bütün müttəfiqlərindən məhrum oldu, keçmiş müttəfiqləri isə bir-birinin ardınca ona müharibə elan etdilər.

Müttəfiq ordularının hücumlarının gücləndirilməsi Almaniyanı daha ağır vəziyyətə saldı. ABŞ, SSRİ və Böyük Britaniya dövlət başçıları əlaqələrini daha da sıxlaşdırdılar. Antihitlerçi koalisiyanın üzvü olan üç dövlət başçısının Krım konfransı "Arqonavt" adı altında Yaltada Livadiya sarayında 1945-ci il fevralın 4-11-də keçiril-

di. Konfransa gələrkən Ruzvelt və Çerçil fevralın 2-də yolüstü Maltada görüşdülər. Məğlub edildikdən sonra Almaniya ilə davranmaq, beynəlxalq təhlükəsizlik təşkilatı yaratmaq, Polşa, Avropanın azad edilməsi haqqında bəyannamələr, Yuqoslaviya, hərbi məsələlər və b. konfransda müzakirə edildi. Hərbi məsələlərin müzakirəsi zamanı müttəfiqlər cəbhələrdə fəaliyyətin əlaqələndirilməsini vacib saydılar. Almaniya ilə bağlı məsələdə danışıqsız təslim olmanın şərtləri və məğlub ediləcək reyxlə davranmanın ümumi prinsipləri razılaşdırıldı. Avropa məsləhət komissiyası Almaniyanın danışıqsız təslim olması şərtlərini və ona nəzarət edilməsi məsələlərini işləyib hazırlamalı idi. “Almaniyanın danışıqsız təslim edilməsi” adlanan bu sənəddə təslim olmanın şərtləri göstərildi. Sənədə görə Almaniya işğal zonalarına bölünməli idi. Şərq işğal zonasını sovet, şimal-qərb zonasını ingilis, cənub-qərb işğal zonasını amerikan qoşunları tutmalı idi. İşğal dövründə Almaniya ərazisində ali hakimiyyət orqanları müttəfiq dövlətlərin silahlı qüvvələrinin ali baş komandanları olmalı idi. Almaniya üçün Nəzarət şurası yaradılırdı. Şura işğal zonalarında fəaliyyəti əlaqələndirməli, hərbi, siyasi və iqtisadi məsələləri həll etməli idi. Nəzarət şurasının nəzdində əlaqələndirmə komitəsi yaradılırdı. Nəzarət şurasında qərarlar yekdilliklə qəbul edilirdi.

Almaniyanın işğalı və ona nəzarətdə Fransanın bərabər hüquqda iştirak etməsi barədə razılığa gəlindi. Böyük Britaniya və ABŞ - ın işğal zonaları hesabına Fransaya işğal zonası verildi.

Konfransda Almaniyadan təzminatın alınması məsələsi müzakirə olundu. Almaniyanın ödəyəcəyi 20 mlrd. dollar təzminatın 10 mlrd. dolları Sovet İttifaqına çatmalı idi. Almaniya təzminatı üç formada - milli sərvətlərinin alınması və hərbi potensialının ləğv edilməsi; cari məhsullarının alınması; alman işçi əməyindən istifadə olunması ilə ödəməli idi. Təzminat məsələsində fəaliyyəti əlaqələndirməkdən ötrü təzminata dair müttəfiqlərarası komissiya yaradıldı.

BMT nizamnaməsini tam şəkildə işləyib hazırlamaqdan ötrü

1945-ci il aprelin 25-də San-Fransiskoda konfrans keçirmək barədə razılıq əldə olundu. 1942-ci il yanvarın 1-də Birləşmiş Millətlərin bəyannaməsini imzalayan və 1945-ci il martın 1-dək ümumi düşmənə müharibə elan edən dövlətlərin konfransa dəvət olunması barədə qərar qəbul edildi. BMT Təhlükəsizlik Şurasında qərarların yekdilliklə qəbul edilməsi barədə Ruzveltin təklifi bəyənildi.

Krım konfransında Polşa məsələsi polyak hökuməti və Polşanın gələcək sərhədləri baxımından müzakirə edildi. Fikir ayrılıqlarına baxmayaraq üç dövlət başçısı Polşanın şərq sərhədlərinin "Kerzon xətti" boyunca keçməsi və ona torpaqlar verilməsi barədə qəti qərar qəbul etdilər.

Konfrans "Avropanın azad edilməsi haqqında bəyannamə"ni bəyəndi.

Krım konfransı Yuqoslaviya haqqında məsələni müzakirə edərək yuqoslav hökumətinin yaradılmasını sürətləndirməyi vacib saydı.

Fevralın 11-də üç dövlət başçısı SSRİ-nin Yaponiyaya müharibə elan etməsinin şərtləri barədə məxfi sənəd imzaladılar. SSRİ Avropada müharibə qurtardıqdan iki-üç ay sonra Yaponiyaya aşağıdakı şərtlərlə müharibə elan etməyi öhdəsinə götürdü: Monqolustan Xalq Respublikasında mövcud vəziyyətin saxlanılması, Saxalinin cənub hissəsinin və ona bitişik adaların SSRİ-yə verilməsi, Dayren ticarət limanınının beynəlmiləlləşdirilməsi, Port-Arturun hərbi-dəniz bazası kimi icarəyə verilməsi, Şərqi Çin və Cənubi Mancuriya dəmiryollarının Çin və SSRİ tərəfindən birgə istifadə olunması, Kuril adalarının SSRİ-yə verilməsi. Müttəfiqlər SSRİ-nin bu təkliflərinə etiraz etmədi. İki-üç ay müddətinin verilməsi hərbi hissələrin və texnikanın qərbdən şərqə keçirilməsi ilə bağlı idi.

Krım konfransının böyük tarixi əhəmiyyəti var idi: o, antihitlerçi koalisiyada olan yekdilliyi nümayiş etdirdi; müharibədən sonrakı dünyanın demokratik quruluşuna dair proqramı işləyib hazırladı; gələcəkdə mühüm beynəlxalq məsələlərə dair dövlətlər arasında məsləhətləşmələri zəruri saydı; Almaniyanın danışıqsız

təslim edilməsini sürətləndirdi.

1945-ci iln əvvəllərində Almaniya tamamilə təcrid olunmuş vəziyyətə düşdü. Onun yeganə müttəfiqi kimi yalnız Yaponiya qalırdı. Artıq Üçüncü reyxin məğlub olacağını başa düşən Almaniya rəhbərləri Avropa dövlətləri ilə separat sülh bağlamaq cəhdlərinə başladılar. 1945-ci il aprelin 12-də Ruzveltin vəfat etməsi Almaniyanın separat sülh danışıqlarına olan ümidlərini artırdı. Lakin ingilis və amerikan hökumətləri bunu mümkünsüz saydılar. Hərbi əməliyyatların Almaniya ərazisində aparılması separat danışıqlar haqqında məsələni arxa plana keçirdi. Aprelin 29-da İtaliyadakı alman orduları təslim oldular.

1945-ci il aprelin 25-də sülhü və beynəlxalq təhlükəsizliyi təmin etmək üçün San-Fransiskoda 46 ölkədən 282 nümayəndənin iştirak etdiyi konfrans açıldı. Konfransın işində Birləşmiş Millətlərin 1942-ci il 1 yanvar tarixli bəyannaməsini imzalayan və sonradan ona qoşularaq Almaniyaya müharibə elan edən dövlətlər iştirak edirdilər. İştirakçı dövlətlərə dəvətnamə ABŞ, Böyük Britaniya, SSRİ və Çin adından göndərildi. Konfransın sədrləri V.M.Molotov, E.Stettinius, A.İden və Sun Çzı-Ven seçildilər. Konfransın gündəliyində bir məsələ -BMT nizamnaməsini işləyib hazırlamaq dururdu. Konfransın gedişində dörd komissiya yaradıldı: Ümumi məsələlər üzrə; Baş məclis, İqtisadi və Sosial şura, Qəyyumluq şurası məsələləri üzrə; Təhlükəsizlik Şurası məsələləri üzrə; Beynəlxalq məhkəmə və digər hüquqi məsələlər üzrə. Bundan başqa nümayəndə heyətləri başçılarının müntəzəm olaraq müşavirəsi də keçirildi. Məsələlərin müzakirəsi zamanı tərəflər arasında fikir müxtəlifliyi üzə çıxdı. Layihələrə düzəlişlər bir neçə qrupda sistemləşdirildi: birinci qrup düzəlişlər Baş Məclisin hüquqlarının genişləndirilməsini; ikinci qrup düzəlişlər Təhlükəsizlik Şurasının, onun daimi üzvlərinin hüquqlarının məhdudlaşdırılmasını və Təhlükəsizlik Şurasının üzvlərinin sayının artırılmasını; üçüncü qrup düzəlişlər beynəlxalq məhkəmənin hüquqlarının genişləndirilməsini nəzərdə tuturdu. Digər düzəlişlər isə

texniki xarakter daşıyırdı. Konfrans iştirakçıları əsas müzakirələri ilk iki qrup düzəlişlər ətrafında apardılar.

Təhlükəsizlik Şurasında səsvermə məsələsində Krım konfransında irəli sürülən daimi üzvlər arasında yekdillik prinsipi qəbul edildi. Daimi üzvlərdən biri "veto" qoyardısa məsələ qəbul olunmurdu. Təhlükəsizlik Şurasına beş ölkə - ABŞ, SSRİ, Böyük Britaniya, Fransa və Çin daimi üzv, 6 dövlət isə qeyri-daimi üzv olaraq iki il müddətinə seçildilər. Qəyyumluq məsələsində dövlətlərin ümumi fikir birliyi əsasında himayədə olan ərazilərin əhalisinin inkişafı üçün qəyyumluq sistemi yaratmaq zəruri sayıldı. Konfrans Beynəlxalq məhkəməni təsis etdi. BMT iqamətgahının yerləşdiyi yer Nyu-York şəhəri müəyyənləşdirildi.

1945-ci il iyunun 26-da BMT nizamnaməsinin qəbul edilməsi ilə San-Fransisko konfransı öz işini başa çatdırdı.

BMT-nin yaradılmasının böyük tarixi əhəmiyyəti var idi. O, beynəlxalq sülhü və təhlükəsizliyi qoruyan, əməkdaşlığı həyata keçirən universal tipli beynəlxalq təşkilat funksiyasını yerinə yetirməyə başladı. BMT beynəlxalq münasibətlərin mühüm prinsipləri olaraq dövlətlərin suveren bərabərliyi, sərhədlərin pozulmazlığı, birbirinin daxili işlərinə qarışmamaq, mübahisəli məsələlərin dinc vasitələrlə həlli və b. elan etdi.

Mayın əvvəllərində alman orduları Xorvatıstan, Cənubi və Qərbi Avstriyada və Cənubi Almaniyada müqaviməti dayandırdılar. Hitler aprelin 30-da özünü öldürdü. 1945-ci il mayın 8-də Berlində Almaniyanın hərbi cəhətdən danışıqsız təslim olması haqqında akt imzalandı. Avropada müharibə başa çatdı. ABŞ, Böyük Britaniya, Fransa və SSRİ orduları Almaniya ərazisini işğal etdilər. Almaniya rəhbərliyi həbs edildi. Bir müddət sonra onların üzərində Nürnberq şəhərində beynəlxalq məhkəmə quruldu.

Müttəfiqlərin qələbəsi Avropada mürəkkəb beynəlxalq məsələlərinin həllinin zəruriliyini ön plana çıxardı. İlk növbədə Almaniyanın danışıqsız təslim olması haqqında aktdan irəli gələn məsələləri nizama salmaq lazım idi. Lakin bu məsələlərin

müzakirəsi zamanı müttəfiqlər arasında Almaniyada işğal rejimi və onun idarə olunması ilə bağlı fikir ayrılıqlarının olduğu üzə çıxdı. Mövqelərdəki fərqlər eyni zamanda Polşa məsələsində də mövcud idi.

1945-ci il iyunun 5-də SSRİ, ABŞ, İngiltərə və Fransa Avropa məsləhət komissiyasının hazırladığı danışıqsız təslim olmaq haqqında aktın şərtlərinə uyğun olaraq tərtib edilən "Almaniyanın məğlubiyyəti haqqında bəyannamə"ni imzaladılar. Bəyannamə Almaniyanın təslim olması şərtləri haqqında baş sənəd idi. Bəyannaməyə görə Almaniyada mərkəzi hökumət ləğv edilirdi. Alman silahlı qüvvələri quru, dəniz və havada tamamilə məğlub edilmiş hesab olunurdu. Almaniyada hakimiyyət dörd dövlətin əlinə keçirdi. Onlar Almaniya ərazisində işğal zonalarını və nəzarət mexanizmini yaradırdılar.

İyunun 6-da Almaniyada işğal zonalarında nəzarət mexanizmi barədə dörd dövlətin sazişi imzalandı.

SSRİ Şərqi Avropa ölkələrinə qoşun çıxarmaqla Çexoslovakiya, Polşa, Yuqoslaviya, Bolqarıstan, Macarıstan və Rumıniyanı öz nəzarəti altına salmaq istəyirdi. Bu ölkələrin işğaldan azad olunmasına yardım edən SSRİ onlarda sosializm quruluşu yaratmağa cəhd etdiyindən müttəfiqləri ilə mənafeyi toqquşurdu.

Antihitlerçi koalisiyanın üzvü olan dövlətlər Avropada müharibə sona çatdıqdan sonra başlıca diqqətlərini Yaponiyanın məğlub edilməsinə yönəltdilər. Eyni zamanda üç dövlət başçısı müharibədən sonrakı Avropanın quruluşu məsələlərini müzakirə etdilər. "Terminal" şərti adı altında Berlinin 60 km.-də yerləşən Potsdamda Sisilionxof sarayında (Babelsberq qəsəbəsi yaxınlığında) Stalin, Çerçil və Trumen başda olmaqla 1945-ci il iyulun 17-dən avqustun 2-dək konfrans keçirildi. Konfransın gedişində Çerçili parlament seçkilərində qələbə qazanmış Leyborist Partiyasının lideri K.Ettli əvəz etdi. Konfransda xarici işlər nazirləri də iştirak edirdilər.

Konfransda müharibədən sonrakı Avropanın quruluşu və keçmiş düşmən dövlətlərlə sülh müqavilələrinin hazırlanması məsə-

ləsi müzakirə edildi. Dövlət başçıları bu məqsədlə ABŞ, Böyük Britaniya, SSRİ, Fransa və Çin xarici işlər nazirlərinin şurasını təsis etdilər. Onun başlıca vəzifəsi məğlub edilmiş dövlətlərlə sülh müqavilələrini işləyib hazırlamaq müəyyənləşdirildi. Şuranın yaradılması ilə Avropa məsləhət komissiyası öz fəaliyyətini dayandırdı.

Konfransda əsas yeri Almaniya məsələsi tutdu. Müttəfiq dövlətlərin rəhbərləri Almaniya ilə davranmağın siyasi və iqtisadi prinsiplərini qəbul etdilər. Almaniyaya münasibətdə əsas prinsiplər onun hərbsizləşdirilməsi, demokratikləşdirilməsi və nasizmin kökünün kəsilməsi müəyyənləşdirildi. Almaniya tam şəkildə tərksilah olunmalı, hərbsizləşdirilməli, bütün hərbi sənayesi tamamilə ləğv edilməli, Nasional-Sosialist Partiyası məhv edilməli və Almaniya həyatı demokratik əsasda dinc əməkdaşlıq üçün qurulmalı idi. Almaniyada nəzarət mexanizmini dörd dövlətin silahlı qüvvələrinin ali baş komandanları həyata keçirməli idi.

Almaniyanın ödəyəcəyi təzminat məsələsi ətrafında kəskin mübahisələr getdi. Bu barədə xüsusi saziş imzalandı. Bu məsələdə Krım konfransının qərarı əsas götürüldü. Bundan başqa SSRİ qərb zonasından da əlavə kömür, ərzaq və digər məhsullar almalı idi.

Almaniyanın hərbi-dəniz və ticarət donanmasının bölüşdürülməsi barədə qərar qəbul edildi. Hərbi-dəniz gəmiləri 1946-cı il fevralın 15-dək, ticarət gəmiləri isə Yaponiyaya qarşı müharibə sona çatdıqdan sonra bölüşdürülüb başa çatdırılmalı idi.

Potsdam konfransında Keniqsberq rayonu SSRİ-yə verildi. Müharibə canilərinin siyahısının elan edilməsi və törətdikləri cinayətə görə cavab vermələri barədə qərar qəbul olundu.

Polşanın dövlət sərhəddi məsələsi həll edildi. Sərhəd Oder və Neyse çayları boyunca keçməli idi.

Potsdam konfransında Almaniya tərəfindən döyüşən Avropa dövlətləri ilə sülh bağlamaq və onları BMT-yə daxil etmək haqqında məsələ kəskin mübahisələrə səbəb oldu. Məsələnin müzakirəsi nəticəsində "Sülh müqavilələrinin bağlanması və BMT-yə daxil olma" adlı saziş imzalandı. Sazişə görə İtaliya, Bolqarıstan, Finlan-

diya, Rumıniya və Macarıstanla sülh müqavilələri bağlanmalı və sonra onların BMT-yə üzvlüyü məsələsinə baxılmalı idi.

Dunay və Reyndə üzgüçülük məsələlərini həll etmək üçün müvəqqəti naviqasiya orqanı yaradılması haqqında təklif Xarici işlər nazirləri şurasının müzakirəsinə verildi.

Konfransda Stalinin Qara dəniz boğazlarına dair Montrö konvensiyasını dəyişdirmək təklifi qəbul edilmədi. Hər üç ölkənin hökumətlərinin Türkiyə ilə bu barədə bilavasitə danışıqlar aparması barədə qərara gəlindi.

Potsdam konfransında Tancer beynəlxalq zonası, Avropada daxili nəqliyyat, İrandan qoşunların çıxarılması və başqa məsələlər müzakirə olundu. Qəbul edilən sənədlərə görə Tancer beynəlxalq zona elan edildi. SSRİ 1941-ci ildə İrana yeritdiyi ordu hissələrini ölkə ərazisindən çıxarmalı, bu dövlətlər onun ərazi bütövlüyünə və suverenliyinə hörmət etməli idi. Lakin sonralar SSRİ İrandan öz ordularını çıxarmağı ləngitdi. Bu da müharibə illərində SSRİ-nin müttəfiqləri olmuş ABŞ və Böyük Britaniya ilə qarşılıqlı münasibətlərini pisləşdirdi. Sovet ordu hissələri İrandan çıxarıldıqdan sonra Güney Azərbaycanda milli-azadlıq hərəkatına divan tutuldu. Azərbaycan milli hökuməti devrildi.

Konfransda Çerçil və Trumen ABŞ-ın atom silahına sahib olması məsələsini iclasdan kənar görüşlərində Stalinə çatdırdılar. Lakin artıq bu zaman SSRİ-də atom bombasının hazırlanması üçün işlər aparılırdı.

İyulun 26-da ABŞ, İngiltərə və Çin Yaponiyanın tezliklə təslim olması haqqında bəyannaməni imzaladılar. Bəyannamənin bir surəti məlumat üçün SSRİ nümayəndə heyətinə göndərildi. Sovet hökuməti bu bəyannaməyə avqustun 8-də qoşuldu.

Potsdam konfransının yekunlarına dair avqustun 1-də üç dövlət başçısı protokol və konfrans haqqında məlumat imzaladılar. Potsdamda qəbul olunan əsas sazişlərə Fransa hökuməti də qoşuldu. Avqustun 6 və 9-da ABŞ Yaponiyanın Xirosimo və Naqasaki şəhərlərinə atom bombası atdı. Bunun nəticəsində təxminən yarım

milyonadək insan öldü və yaralandı. Hərbi əməliyyatlar Yaponiyanın məğlub edilməsi ilə nəticələndi.

1945-ci il sentyabrın 2-də Sakit okeanda Tokio buxtasında ABŞ-ın "Missuri" xətt gəmisində Yaponiyanın təslim olması haqqında sənəd imzalandı. Yaponiyanın məğlub edilməsi ilə ikinci dünya müharibəsi başa çatdı. Müharibədə xalqların və dövlətlərin antihitlerçi koalisiyası qələbə çaldı.

## İkinci dünya müharibəsinin başlıca beynəlxalq nəticələri

İkinci dünya müharibəsinin bir sıra mühüm beynəlxalq nəticələri oldu. Planetin əhalisinin 80%-ni əhatə edən 61 dövlətin iştirak etdiyi və altı il davam edən ikinci dünya müharibəsi antihitlerçi koalisiyaya daxil olan dövlətlərin qələbəsi ilə sona çatdı. Müharibə illərində 110 mln.dan çox adam orduya səfərbər edildi. Hərbi əməliyyatların gedişində 50 mln. nəfər öldürüldü, 95 mln. nəfər yaralandı. Müharibədə iştirak edən dövlətlərin hərbi xərcləri 1 trilyon 117 mlrd. dollar təşkil etdi.

Müharibənin başlıca nəticəsi "yeni dünya qaydası" yaratmağa can atan Almaniya, İtaliya və Yaponiyanın niyyətlərinin iflasa uğraması oldu.

Antihitlerçi qüvvələrin müharibədə qələbə qazanmasında ABŞ və İngiltərənin iqtisadi potensialı mühüm rol oynadı. Avropa, Asiya və Afrikanın 25 ölkəsi işğaldan azad edildi. Avropa və dünya təhlükədən qurtuldu.

Dünyada milli-azadlıq hərəkatının güclənməsi gedişində müstəmləkə sisteminin dağılması sürətləndi. Müharibə müstəmləkə və dominionlarda iqtisadi inkişafa kömək etdi. Bu ərazilərdə yeni ictimai münasibətlər yaranaraq möhkəmləndi.

SSRİ-nin hökmranlığı altında Avropa və Asiyanın bir sıra ölkələri "xalq demokratiyası", sonra isə sosializm quruculuğu yoluna qədəm qoydular. Sosializm bir ölkə çərçivəsindən çıxıb dünya sis-

teminə çevrildi. Bu sistem daha çox SSRİ-nin iradəsi ilə qurularaq fəaliyyət göstərdi. "Xalq demokratiyası" ölkələri arasında beynəlxalq münasibətlərin yeni tipi formalaşdı. Bu münasibətlər proletar və sosialist beynəlmiləlçiliyi prinsipi əsasında həyata keçirildi. "Xalq demokratiyası" ölkələri arasında münasibətlərdə həlledici söz SSRİ-yə məxsus idi. Sosialist ölkələri qapalı cəmiyyət oldular.

Müharibə illərində müttəfiq olmuş dövlətlər hərbi əməliyyatlar başa çatdıqdan sonra rəqibə çevrildilər. Dünyada iki sistemin mübarizəsi başlandı. Kommunistlərin kapitalist dünyası adlandırdıqları azad, demokratik dünyanın başında ABŞ, "dəmir pərdə" ilə örtülmüş qapalı cəmiyyətin və birpartiyalı sistemin hökm sürdüyü sosializm dünyasının başında isə SSRİ dururdu. Dövlətlər bir-biri ilə qarşıdurmaya getdilər. Atom diplomatiyası, hədə-qorxu beynəlxalq münasibətlərdə hakim oldu. "Soyuq müharibə" dövrü başlandı. Qeyd etmək lazımdır ki hələ "soyuq müharibə"nin elan edilməsindən xeyli əvvəl, 1945-ci ilin yayı və payızında Azərbaycan mühacirətinin görkəmli xadimlərindən olan A.Fətəlibəyli-Düdənginski Böyük Britaiyanın baş naziri K.Ettliyə və keçmiş baş nazir U.Çerçilə məktub göndərərək kommunizmin yayılmasının qarşısını almaq üçün SSRİ-yə qarşı ideoloji-psixoloji mübarizəni başlamağı tövsiyə etdi. 1946-cı il martın 5-də "soyuq müharibə" elan edildi.

Avropa və Amerika ölkələrində cəmiyyətin inkişafında yeni keyfiyyət dəyişikliyi baş verdi. İtaliya, Almaniya və Yaponiya xalqları diktaturadan xilas olaraq demokratik yolla inkişaf etmək xətti götürdülər. Avropa və Amerika ölkələrinin müasir tarixində yeni dövr başlandı.

# İSTİFADƏ EDİLMİŞ MƏNBƏ VƏ ƏDƏBİYYAT

### *Ümumi vəsaitlər*


- Александров В.В. Новейшая история стран Европы и Америки. 1918-1945 гг. - М., 1986.

- Верт Н. История советского государства (1917-1991). Пер. с франц. - М., 1996.

- Всемирная история. - М., 1997.

- Грозев К., Попнеделев Т. Модерният историк. - София, 1999.

- Гренвил Дж. История XX века. Люди. События. Факты. Пер. с англ. - М., 1999.

- Историография новой и новейшей истории стран Европы и Америки. - М., 1977.

- История новейшего времени стран Европы и Америки. 1918-1945. - М., 1989.

- Кредер А.А. Новейшая история. XX век. - М., 1997.

- Кредер А.А. Словарь по новейшей истории. - М., 1998.

- Новейшая история. 1918-1939. - М., 1974.

- Новейшая история зарубежных стран Европы и Америки. 1917-1945. - М., 1989.

- Новейшая история стран Европы и Америки. XX век. В двух частях. Часть 1. 1900-1945. Под ред. А.М.Родригеса и М.В.Пономарева. - М., 2001.

- Fahir Armaoğlu. Siyasi tarih. 1789-1960. - Ankara, 1964.

- Хрестоматия по новейшей истории. В 3-х тт. - М., 1960-1961.

- Язьков Е.Ф. История стран Европы и Америки в новейшее время. 1918-1945. - М., 2000.

### *Almaniya*

- Аникиев А.А. Аграрная политика нацистской Германии в годы второй мировой войны. - Ростов-на Дону, 1990.
- Галкин А.А. Германский фашизм. - М., 1987.
- Германия. Факты. - М., 2001.
- Hitler A. Kavğam. İstanbul, 1998.
- David P. Conradt. The German Policy. - New York, London, 1987.
- Драбкин Я.С. Становление Веймарской республики. - М., 1978.
- Кулбакин В.Д. Очерки новейшей истории Германии. - М., 1962.
- Мельников Д.Е. Заговор 20 июля 1944 г. в Германии. - М., 1965.
- Руве В. Как Гитлер пришел к власти. Германский фашизм и монополии. - М., 1985.
- Ушаков В.Б. Внешняя политика Германии в период Веймарской республики. - М., 1958.

### *Böyük Britaniya*

- Виноградов К.Б. Девид Ллойд Джордж. - М., 1970.
- Гертман Л.Е. География, история и культура Англии. - М., 1979.
- Гурович В.П. Всеобщая стачка в Англии 1926 года. - М., 1959.
- Грибин Н.П. Трагедия Ольстера. - М., 1959.
- Curtis Keeble. Britian, the Soviet Union and Russia. - New York, 2000.
- John Mander. Great Britainer little England. - London, 1993.
- Peterham Liz. Britian in the 20-th century. - London, 2001.
- Роббинс К. Черчилл. - Ростов-на-Дону, 1997.

- Судейкин А.Г. Колониальная политика лейбористской партии Англии между двумя мировыми войнами. - М., 1976.

- Трухановский В.Г. Внешняя политика Англии на первом этапе общего кризиса капитализма (1918-1939 гг.). - М., 1962.

- Трухановский В.Г. Внешная политика Англии в годы второй мировой войны (1939-1945). - М., 1965.

- Трухановский В.Г. Очерки новейшей истории Англии. - М., 1963.

- Хатт А. Британский тредюнионизм. Краткая история. - М., 1981.

### *Fransa*

- Егоров Ю.В. Народный фронт во Франции (Внутриполитическая борьба во Франции в 1934-1938 гг.). - Л., 1972.

- История Франции. 3-х тт. Т.3. - М., 1973.

- Кисельгоф И.С. История Франции в годы второй мировой войны. - М., 1975.

- Кузьмин М.И. Внутриполитическая борьба во Франции (1926-1932). - Л., 1975.

- Кравченко Е.А. Народный Фронт во Франции. 1934-1938. - М., 1972.

- Малафеев К.А. Луи Барту политик и дипломат. - М., 1988.

- Смирнов В.П. Движение Сопротивления во Франции в годы второй мировой войны. - М., 1974.

- Смирнов В.П. Новейшая история Франции. 1918-1975. - М., 1979.

### *ABŞ*

- Alexander L. Georce, Julietle L. Georce. Wodrow Wilson and Colonel House. - New York, 1964.

- Американские президенты: 41 портрет. - Ростов-на-Дону, 1997.

- David A. Decce. The New Politics of American Foreign

Policy. - New York, 1994.
- Henry A. Kissenger. American foreign Policy. - New York, 1969.
- История США в 4-х тт. Т.3. - М., 1985.
- Кузнец Ю.Л. Вступление США во вторую мировую войну. - М., 1962.
- Лан В.И. США от первой до второй мировой войны. - М., 1976.
- Мальков В., Наджафов Д.Г. Америка на перепутье. 1929-1938. - М., 1967.
- Мальков В.Л. "Новый курс" в США. Социальные движения и социальная политика. - М., 1973.
- Попова Е. Политика США на Дальном Востоке (1918-1922). - М., 1967.
- Robert Dallek, Franklin D. Roosivelt and American Foreign Policy. 1932-1945. - Oxford, 1995.
- Senator J. William Fulbright. The Grippled Glant. American Foreign policy and its domestic. Conseguences. - New York, 1945.
- Сивачев Н.В., Языков Е.А. Новейшая история США. - М., 1980.
- США: энциклопедический справочник. - М., 1988.
- Con Meynard Keyniz. Məşğulluq, mənfəət və pulun ümumi nəzəriyyəsi. - Bakı, 2001.
- Уткин А.И. Дипломатия Франклина Рузвелта. - Свердловск, 1990.
- Уткин А.И. Дипломатия Вудров Вилсона. - М., 1990.
- Яковлев Н.Н. Новейшая история США. 1917-1960. - М., 1961.

### *İtaliya*

- Алатри И. Происхождение фашизма. - М., 1961.
- История Италии. В 3-х тт. Т.3. - М., 1971.

- Камолова Н.П. Новейшая история Италии. - М., 1970.
- Камолова Н.П. Движение сопротивления и политическая борьба в Италии. 1943-1947. - М., 1972.
- Лопухов Б.Р. История фашистского режима в Италии. - М., 1977.
- Филатов Г.С. Крах итальянского фашизма. - М., 1973.
- Хибберт Кристофер. Бенито Муссолини: Библиография. Пер. с англ. - Ростов-на-Дону, 1998.
- Устрялов Н.В. Итальянский фашизм. - М., 1999.

### *İspaniya*

- Война и революция в Испании. 1936-1939. - М., 1968.
- Гарсиа Х. Диктатура Примо де Ривера. - М., 1963.
- Дамс Х.Г. Франсиско Франко. - Ростов-на-Дону, 1999.
- Испания. 1918-1972. Исторический очерк. - М., 1975.

### *Avstriya*

- Рубинштейн Е.И. Крушение Австро-Венгерской монархии. - М., 1963.
- Турок В.М. Очерки истории Австрии. 1918-1929. - М., 1962.
- Турок В.М. Очерки истории Австрии. 1929-1938. - М., 1965.

### *Macarıstan*

- История Венгрии. В 3-х тт. Т.3. - М., 1972.
- Краткая история Венгрии. - М., 1991.
- Пушкаш А.И. Венгрия в годы второй мировой войны. - М., 1966.

### *Rumıniya*

- Еременко М.Д. Королевская диктатура в Румынии. 1938-1940. - М., 1979.
- Ion Bulei. A short History of Romania. - Bucharest, 1997.
- История Румынии. В 2-х тт. Т. 2. - М., 1971.
- Краткая история Румынии: с древнейших времен до наших дней. - М., 1987.
- Язьков А.А. Румыния накануне второй мировой войны. 1934-1939. - М., 1963.

### *Kanada, Argentina, Braziliya, Meksika*

- Новейшая история стран Латинской Америки. - М., 1982.
- Очерки истории Аргентины. - М., 1961.
- Очерки истории Бразилии. - М., 1962.
- Очерки новой и новейший истории Мексики. 1810-1945. - М., 1960.
- Строганов А.П. Новейшая история стран Латинской Америки. - М., 1995.
- Янчут И.И. Политика США в Латинской Америке. 1918-1928. - М., 1982.

### *Beynəlxalq münasibətlər*

- Документы по истории мюнхенского сговора. 1937-1939. - М., 1979.
- Документы и материалы кануна второй мировой войны. 1937-1939 гг. В 2-х тт. - М., 1981.
- Европа в международных отношениях. 1917-1939. - М., 1979.
- Ennio Di Nolfo. The History of the International Rela-

tions. 1918-1993. Part 1-2. - Ekaterinburg, 1998.
- Fətəliyev M. Türkiyə diplomatiyası və Balkanlar. - Bakı, 1995.
- Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920). - Bakı, 1993.
- Илюхина Р.М. Лига Наций. 1919-1934. - М., 1982.
- История дипломатии. В 5-х тт. ТТ. 3-4. - М., 1974-1975.
- История международных отношений и внешней политики СССР. 1917-1987. В 3-х тт. Т.1. - М., 1986.
- Kenneth Waltz, George H. Quester. Uluslararası ilişkiler kuramı ve dünya siyasal sistemi. - Ankara, 1982.
- Qasımov M. Xarici dövlətlər və Azərbaycan (aprel işğalından SSRİ yaradılana qədərki dövrdə diplomatik-siyasi münasibətlər). - Bakı, 1998.
- Qasımov M., Abdullayev M. Beynəlxalq münasibətlər tarixi. XX əsr. I hissə. 1900-1945-ci illər. - Bakı, 1998.
- Qasımov M. Birinci dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti. 3 hissədə. II hissə. - Bakı, 2001.
- Lozan-Montrö. - Lefkoşa, 1987.
- Ллойд Джордж. Правда о мирных договорах. ТТ.1-2. - М., 1957.
- Salahi R. Sonyel. Türk kurtuluş savaşı ve dış politika. I. - Ankara, 1987.
- Севастьянов Г.Н. Политика великих держав на Дальнем Востоке накануне второй мировой войны. - М., 1961.
- Сиполс В.Я. Дипломатическая борьба накануне второй мировой войны. - М., 1989.
- Советско-германские отношения от переговоров в Брест-Литовске до подписания Раппальского договора. 1917-1922 гг. (Сборник документов). В 2-х тт. - М., 1968.
- Турок В.М. Локарно. - М., 1949.
- Язькова А.А. Малая Антанта в европейской политике. 1918-1925 гг. - М., 1974.

- Алон Булок. Гитлер и Сталин. Жизнь и деятельность. ТТ. 1-2. - М., 1994.

- Антифашистское движение Сопротивления в странах Европы в годы второй мировой войны. - М., 1962.

- Бережков В.М. С дипломатической миссией в Берлин. 1940-1941. - М., 1966.

- Бережков В.М. Страницы дипломатической истории. - М., 1987.

- Иванов Л.Н. Очерки международных отношений в период второй мировой войны (1939-1945 гг.). - М., 1958.

- История войны на Тихом океане. В 5-х тт. - М., 1957-1958.

- История второй мировой войны. 1939-1945. В 12 тт. - М., 1973-1982.

- Кулиш В.М. История открытия второго фронта. - М., 1971.

- Переписка председателя Совета Министров СССР с президентом США и премьер-министром Великобритании во время Великой Отечественной войны 1941-1945 гг. ТТ. 1,2. - М., 1957.

- Позднеева Л.В. Англо-американские отношения в годы второй мировой войны. - М., 1969.

- Самсонов А.М. Вторая мировая война (1939-1945). - М., 1990.

- Семиряга М.И. Тайны Сталинской дипломатии. 1939-1941. - М., 1992.

- Советский Союз на международных конференциях периода Великой Отечественной войны. 1941-1945 гг. В 6-ти тт. - М., 1978-1980.

- Советско-английские отношения во время Великой Оте-

чественной войны. 1941-1945 гг. Документы и материалы. В 2-х тт. - М., 1984.

- Советско-американские отношения во время Великой Отечественной войны. 1941-1945. Документы и материалы. В 2-х тт. - М., 1984.

- Советско-французские отношения во время Великой Отечественной войны. 1941-1945. Документы и материалы. В 2-х тт. - М., 1983.

- Сосинский С. Акция "Аргонавт". - М., 1970.

- Тегеран, Ялта, Потсдам. Сборник документов. - М., 1971.

- Типпельских К. История второй мировой войны. - М., 1956.

- Həsənli C. Güney Azərbaycan: Tehran-Bakı-Moskva arasında (1939-1945). -Bakı, 1998.

- Qasımov M. Beynəlxalq münasibətlərdə Azərbaycan məsələsi. -Bakı, 1993.

**MUSA QASIMLI**
***(Musa Cəfər oğlu Qasımlı)***
**AVROPA VƏ AMERİKA ÖLKƏLƏRİNİN MÜASİR TARİXİ**
**2 hissədə**
**I hissə (1918-1945-ci illər)**
**Ali məktəblər üçün dərslik**

*Bakı,* **"ADİLOĞLU"** *nəşriyyatı 2003, 370 səh.*

| | |
|---|---|
| Bilgisayar tərtibatçısı: | **Mehdi İsgəndərov** |
| Dizayner: | **Azər Həsənov** |

| | |
|---|---|
| Yığılmağa verilmişdir: | **02.01.2003** |
| Çapa imzalanmışdır: | **08.02.2003** |
| Kağız formatı: | **60x84 1/16** |
| Hesab-nəşriyyat həcmi: | **23,12 ç.v.** |
| Sayı: | **500 nüsxə** |
| Sifariş: | **39** |

Kitab **"ADİLOĞLU" MMC**-nin mətbəəsində
hazır diapozitivlərdən istifadə olunmaqla
ofset üsulu ilə çap edilmişdir.

**Ünvan: Bakı şəh., Ü.Hacıbəyov küç., 38/3**
**Tel.: 98-68-25**